AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AŞIQ ƏLƏSGƏR

BAKI - 2021

Kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar AMEA Rəyasət Heyətinin 6 aprel 2021-ci il tarixli 9/9 saylı qərarı ilə təsdiq edilmiş AMEA-nın Tədbirlər planı çərçivəsində nəşr olunur.

**Layihə rəhbəri:** **Muxtar Kazımoğlu - İmanov**
*AMEA Folklor İnstitutunun direktoru, akademik*

**Toplayan:** **İslam Ələsgər**
*filologiya üzrə fəlsəfə doktoru*

**Nəşrə hazırlayan və yeni qeydlərin müəllifi:** **Fərzalı Rüstəmli**
*tədqiqatçı-şair*

**Elmi redaktoru:** **Elxan Məmmədli**
*AMEA Folklor İnstitutu*
*Aşıq yaradıcılığı şöbəsinin müdiri,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

**Nəşriyyat redaktoru:** **Sönməz Abbaslı**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aşıq Ələsgər. Şeirlər, dastan-rəvayətlər, xatirələr.** Bakı, Elm və təhsil, 2021, 584 səh.

folklor.az

K 4603000000 Qrifli nəşr
N-098-2021

© Folklor İnstitutu, 2021

# HAQQ AŞIĞI

Azərbaycan aşıq sənətinin, aşıq poeziyasının tarixində şərəfli yer tutan dahi şəxsiyyətlərdən biri də Aşıq Ələsgərdir. O, qeyri-adi fitri qabiliyyəti sayəsində yaratdığı müxtəlif şəkilli, müxtəlif məzmunlu sənət incilərində özünəməxsus bədii boyalarla ifadə etdiyi ümumbəşəri didaktik fikirləri ilə bu müqəddəs sənətin zirvəsində dayanmışdır. Qüdrətli el sənətkarının yaratdığı əsərlər 160 ildən artıqdır ki, aşıqlarımızın repertuarında geniş yer tutmuş, şənlik məclislərimizin bəzəyinə çevrilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, yazı-pozu bilməyən aşığın toplanmış əsərlərinin hamısı hafizələrdən qələmə alınmışdır.

Xalqımıza öz sazı ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgər yalnız qüdrətli bir şair-aşıq kimi yox, həm də onu tanıyanların, möcüzəli xüsusiyyətlərindən xəbərdar olanların qəlbində bir ocaq, pir, bir övliya kimi heykəlləşmişdir.

Aşıq Ələsgər qədim türk məskəni olan Göyçə mahalının Ağkilsə kəndində 1821-ci ildə, Novruz bayramı günü dünyaya göz açmışdır. Onun atası Alməmməd (əslində: Əliməhəmməd) işgüzar, öz halal zəhməti ilə dolanan, paxıllıq bilməyən, həlim təbiətli bir kişi idi. O, həm də xalq arasında bir şair kimi tanınırdı. Yaradıcılığından əldə olan nümunələr püxtə bir sənətkarın əsərləri kimi diqqəti cəlb edir. Onun “İnsan”, “Görmədim”, “Eylər-eylər” rədifli şeirlərini aşıqlarımız indi də ustadnamə kimi oxuyurlar.

Ələsgərin anası Pərizad qonşu Zərzibil kəndindən olan Kərbəlayı Abbas adlı mötəbər bir kişinin qızı idi. Çox mehriban olan bu ailədə Ələsgər, Salah, Xəlil, Məhəmməd adlı dörd oğlan, Fatma və Qızxanım adında iki qız Alməmmədlə Pərizadın sevinclərinə səbəb olduğu kimi, onların qayğısını da artırmışdı. Əsas məşğuliyyəti əkinçilik olan Alməmmədin əlindən dülgərlik işləri də gəlirdi. Səkkiz baş ailəni dolandırmaqda çətinlik çəkən Alməmməd əkin-biçindən sonra Kəlbəcərin meşələrindən ağac gətirər, cüt (xış), boyunduruq, kürək, şana, nəhrə, cəhrə, çanaq, hövsər, çömçə, qaşıq kimi təsərrüfat alətləri düzəldib satardı.

Ailənin böyük uşağı olan Ələsgər 14-15 yaşına çatanda kəndlərində Kərbəlayı Qurban adlı birisi Alməmmədin yanına gəlib, onu dilə tutmuş, köməksiz olduğundan şikayətlənmiş, təsərrüfat işlərində bir neçə il Ələsgərin onlara kömək etməsini xahiş eləmiş və məqsədinə nail olmuşdur. O zaman belə köməkçilərə “nökər” deyirdilər.

Ələsgər Kərbəlayı Qurbanın evində dörd il nökərlik eləmişdir. Bu müddətdə o, özünün işgüzarlığı, üzüyola olması, mərifət-qanacağı ilə hörmət qazanmışdı. Kərbəlayı Qurban onu nökər yox, oğul gözündə görürdü. Axır vaxtlar Kərbəlayı Qurbanın yeganə qızı Səhnəbanı ilə Ələsgərin arasında səmimi bir məhəbbət yaranmışdı. Kərbəlayı Qurban bu işdən xəbər tutanda çox şad olmuş və Ələsgəri yanında həmişəlik saxlamaq üçün gəncləri evləndirmək fikrinə düşmüşdü. Lakin Kərbəlayı Qurbanın qardaşı Pullu Məhərrəm (o, çox varlı olduğuna görə "pullu" deyirmişlər) bu məsələni eşidəndə Ələsgəri qovdurmuş və Səhnəbanını öz oğlu Mustafaya almışdır.

Nökərlikdən bir ağır qəm yükü ilə evlərinə qayıdan Ələsgər ilk məhəbbətinin acı təsirindən ömrünün sonuna qədər ayrıla bilməmiş, bütün yaradıcılığı boyu yeri gəldikcə bu dərdini dilə gətirmiş, zəmanədən və fələkdən şikayətlənmişdir.

Alməmməd kişi eşqin, məhəbbətin nə olduğunu yaxşı bilirdi. Onu da yəqin eləmişdi ki, bu boy-buxunlu, kamallı oğlundan yaxşı aşıq olar. Oğlunun hələ nökər olduğu illərdə şeir söyləməsindən, saza-sözə, aşıqlıq sənətinə olan marağından da halı idi. Odur ki, Kəlbəcərin Qanlıkənd kəndindən ona bir saz alıb gətirdi. Çox keçməmiş Ələsgərin əli saza yatdı, bir aşıq kimi çalıb-oxumağa başladı. O nə qədər yaxşı çalsa da, nə qədər gözəl oxusa da, Alməmməd kişi onu aşıq hesab eləmirdi. Bu sənətin çox məsuliyyətli olduğunu bilən Almәmməd kişi oğlunun püxtələşməsi üçün onu o zaman Göyçədə məşhur olan qızılvəngli Aşıq Alıya şəyird verdi.

Aşıq Ələsgər Alının yanında beş ilə qədər şəyird qaldığı müddətdə özünün qeyri-adi istedadı sayəsində bu müqəddəs sənətin sirlərini öyrəndi və müstəqil olaraq aşıqlıq eləməyə başladı. O, az bir müddətdə xalq arasında böyük şöhrət qazandı, səsi-sorağı hər tərəfə yayıldı. Ustad aşıqlardan söhbət düşəndə Ələsgərin adı Aşıq Alının adı ilə yanaşı çəkilirdi. Saz-söz həvəskarları bu aşıqları müqayisə eləməyə başladılar; hansı aşıq güclüdür, hazırcavabdır; Aşıq Alımı, Aşıq Ələsgərmi?

Aşıq azarkeşləri (belə demək mümkünsə) arasında olan bu söhbət qızğın mübahisəyə səbəb oldu. Azarkeşlər bu aşıqları qarşılaşdırmaq qərarına gəldilər. Onlar bunun üçün Aşıq Alıya: "Ələsgər hər yerdə sənin bədinə danışır", "Ələsgər sənin sözlərini bəyənmir", "Ələsgər özünü səndən üstün tutur" kimi yalan xəbərlər çatdırmağa başladılar. Onlar yaxşı bilirdilər ki, xasiyyətcə tündməcaz olan və tez əsəbiləşən Aşıq Alı

çuğulların belə sözlərindən qəzəblənəcək və Aşıq Ələsgərlə deyişəcəkdir. Nəhayət, azarkeşlərin bu kələkləri baş tutdu. Birinci çuğulun dediyinə inanmayan Aşıq Alı, ikincinin, üçüncünün... sözlərinə inandı və Ələsgəri "susdurmaq" qərarına gəldi. Təxminən, 1850-ci illərdə Göyçənin Qızılbulaq (Çaxırlı) kəndində, Böyük Ağanın evində həmin məqsədlə təşkil elətdiyi məclisdə deyişməyə əvvəlcədən hazırlaşmış olan Aşıq Alı sazını götürüb meydana çıxdı və Ələsgəri deyişməyə çağırdı. Ələsgər nə qədər yalvarıb-yaxardısa da, Aşıq Alı inadından dönmədi, Ələsgəri deyişməyə məcbur elədi və özü məğlub oldu. Bu işdə heç bir günahı olmadığını söyləyən Aşıq Ələsgər ustadından dönə-dönə üzr istəyib, onu sakitləşdirməyə çalışdısa da, Aşıq Alı əsəbiləşmiş halda məclisi tərk elədi...

Aşıq Ələsgər kəskin hafizəsi və həmişə öyrənməyə cəhd göstərməsi sayəsində zəngin bilik əldə etmişdir. Oğlanlarının, onu görmüş digər qocaların söylədiklərinə görə, aşıq dövrünün ziyalıları və din xadimləri ilə ünsiyyətdə olar, onlara tarixi, bədii və dini kitablar oxutdurub, qulaq asmağı çox sevərmiş. Dini məsələlər ətrafında gedən mübahisələr zamanı mollalar, axundlar, qazilər, hətta şeyxlər onun dedikləri ilə razılaşmalı olurmuşlar.

Aşıq Ələsgərin şeirlərində Firdovsinin, Nizaminin, Füzulinin, Nəsiminin, Hafizin adlarının çəkilməsini, "Onlar da yazdığı, ayə, məndədi" deyilməsini təsadüfi hal hesab eləmək olmaz. Aşıq dinləmə yolu ilə onların əsərləri ilə tanış imiş.

Yaradıcılığında rast gəldiyimiz "Şəninə dastan yazıram, Rüstəmin dastanı kimi", "Seyistandan Rüstəm qalxıb, Maliki-Əjdər yeridi", "Rüstəmin Rəxşi kimi gətirir cövlana, – deyin", "Ürəyim bir Kərəmə, bir Şeyx-Sənana yanır", "Səxavətdə misli-Hatəm, səddə İsgəndər kimidi", "Qəlbdən yas tuturam Məcnuna, Fərhada bu gün", "Hüsndə Yusifi-sani, kamalda Loğman kimidi", "Zeynalabdın bəy bəzənib Misirin sultanı kimi", "Hər yana kağız dağıldı, Süleyman fərmanı kimi", "Min yaşasın İsmayılı, nərəsi Heydər kimidi" və s. ifadələr dediyimizi bir daha təsdiq edə bilər.

**Qəza insanatı tənabdan asar,**
**Leyli-nəhar – muşdu, cəhd eylər, kəsər,**
**Əjdaha ayaqdan çəkər sərasər,**
**Əlləşər, barmağı bala yetişməz.**

– bəndində ifadə edilən fikrin qədim hind abidəsi olan "Kəlilə və Dimnə"dən gəldiyinə şübhə ola bilməz. Aşıq Ələsgər eşidib, yadda saxlama yolu ilə "ali savadı" beləcə qazanmışdı. Belə güclü hafizə taleyin ona bəxş elədiyi qeyri-adi fitri qabiliyyətlərdən biri idi.

Aşıq Ələsgərin bədahətən şeir söyləməsi də hamını heyrətləndirirdi. Onu görmüş, məclislərində olmuş qocaların, şəyirdlərinin dediklərinə görə, aşıq, yeri gələn kimi sazı sinəsinə basar, şeiri elə oradaca sazın müşayiəti ilə bədahətən yaradarmış. Təəccüblü budur ki, belə şeirləri yadında saxlar, sonradan şəyirdlərinə öyrədərmiş.

Aşığın haqqında söylənilən xatirələrdən aydın olur ki, o kənarda törədilən hadisələrdən də xəbər verirmiş.

Böyük sənətkarın qarşı-qarşıya söhbət elədiyi adamların fikrindən keçənləri bilməsi də bir möcüzə imiş. Tofiq Dadaşovda belə bir xüsusiyyəti görəndən sonra bu barədə Ələsgərlə bağlı olan xatirələrdə deyilənlərə inanmaya bilmirik. Bəlkə, elə bu səbəbdəndir ki, aşıq deyişmə zamanı da heç bir sual qarşısında aciz qalmamışdır.

Aşığın haqqında söylənilən xatirələrdən, dastan-rəvayətlərdən öyrənirik ki, o, həm də baş verəcək bir çox hadisələri əvvəlcədən yuxusunda görürmüş, bir çox məsələlərin həll yollarını yuxuda müəyyənləşdirirmiş. Şeirlərinin içərisində onun belə bir etirafı da diqqəti cəlb edir:

**Oxuram "İnna-fətəhna", mətləb allam yuxuda,**
**Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.**

Yenə söylənilən dastan-rəvayətlərdən və xatirələrdən məlum olur ki, Dədə Qorqud kimi Aşıq Ələsgərin də alqışı və qarğışı böyük təsir gücünə malik imiş. Onun Dəli Alıya həsr elədiyi müxəmməslərin birində deyilir:

**Hər məclisdə duaçıyam, günbəgün ucalır səsim,**
**Barilahim, irəhm eylə, yerə düşməsin nəfəsim.**
**Oğul ver iki qardaşa, bir qurban da özüm kəsim...**

Dəli Alının dostlarından olan bu "iki qardaş" Goranboyun Qaramusalı kənd sakinləri Əsəd və Molla Qasımdır. Aşığın bu duasından sonra Allahın onlara bir yox, bir neçə oğul bəxş eləməsi və bu münasibətlə Dədə Ələsgərin qurban kəsməsi danılmaz tarixi həqiqətdir. Həmin oğlanlardan indi yaşayanları da var.

Dastanlarımızın bir çoxunda olduğu kimi, Aşıq Ələsgərə də yuxuda vergi verilməsini söyləyən aşıqlar onun "Qabaqda" rədifli qoşmasının deyilməsini bununla əlaqələndirirlər. Dövrünün görkəmli ziyalılarından olan Zodlu Mirzə Bəylər aşığa həsr elədiyi "Ələsgər" rədifli şeirində "Şahidəm, şaribsən haqqın tasında" misrası ilə bu məsələyə toxunmuşdur.

Bəzi oxucular aşığın "Min iki yüz doxsan dörddə Ələsgər tapdı əsəri" misrasındakı fikri düzgün izah eləmirlər. Onlar belə hesab edirlər ki, bu, "Deyin" rədifli müxəmməsin deyilmə tarixidir. Əgər aşıq "Ələsgər yazdı əsəri", "Ələsgər düzdü əsəri", "Ələsgər qoşdu əsəri" demiş olsaydı, bunu şeirin deyildiyi tarix kimi qəbul eləmək olardı; "Ələsgər tapdı əsəri" isə tamam başqa məna verir. Aşıq həmin tarixdə (1294, miladi ilə 1875) Haqq tərəfindən ona bəxş edilən daha bir möcüzəli qeyri-adi fitri qabiliyyətə işarə eləmişdir.

Özünün əxlaqı, xasiyyəti, davranışı ilə hamıya nümunə olan, yaratdığı şeirlərdə dinləyicilərə (oxuculara) düzgün yol göstərən, ədalətli olmağı, haqqın tərəfini saxlamağı təbliğ edən aşıq bütün bunlara görə "Haqq aşığı" adlandırılmış, həmişə ona pərəstiş elənmiş, çətin işə düşəndə ondan nicat dilənmiş, vəfatından sonra isə qəbri 1988-ci ilin sonuna qədər ziyarətgaha çevrilmişdir.

Aşıq Ələsgər müstəqil aşıqlığa başlayandan sonra bu sənətə meyil göstərənlərin böyük bir qismi onun himayəsi və qayğısı sayəsində püxtələşmiş, "aşıq" adına yiyələnmişdir. Onu da qeyd edək ki, Ələsgər ona müraciət edənlərin hər yetənini deyil, səsi yaxşı, hafizəsi iti, ağıl-kamalı yerində olan, həm də tərbiyəli ailədə böyümüş, sir-sifəti yaraşıqlı, boy-buxunlu gəncləri qəbul edər, bu müqəddəs sənətin sirlərinə tam yiyələnməyincə onu yanından buraxmaz, müstəqil aşıqlıq eləməsinə icazə verməzmiş. Nə qədər ki, püxtələşməyib, ona öz adı ilə (Nəcəf, Əsəd, Qurban…) müraciət edər, elə ki sənətə yiyələndiyinə əmin oldu, onların adlarının əvvəlinə "aşıq" sözünü əlavə edərmiş (Aşıq Nəcəf, Aşıq Əsəd, Aşıq Qurban…). Bu sözdən sonra şəyirdi bilərmiş ki, ustadı onun müstəqil aşıqlıq eləməsinə razılıq vermişdir. Şəyirdlərinin qabiliyyətindən asılı olaraq, onların bəziləri 4-5 ilə, bəziləri 7-8 ilə və daha artıq müddətdə ustadından şifahi olan "aşıq" vəsiqəsini əldə edərmiş. Məşhur Aşıq Əsəd, özünün etirafına görə, Aşıq Ələsgərin yanında 10 il şəyirdlik eləmişdir. Şəyird "aşıq" vəsiqəsini alan günü bu ad münasibətilə şadyanalıq olarmış.

Aşıq Ələsgərin yanında "aşıq" adı qazananların sayı çoxdur. Hələ

XIX əsrin sonlarında söylədiyi bir qoşmasında:

**Adım Ələsgərdi, mərdü-mərdana,**
**On iki şəyirdim işlər hər yana.**

– misraları ilə bu sənətin inkişafında böyük xidmətlər göstərdiyini fəxrlə bildirən aşıq, bəlkə, bundan sonra daha neçə-neçə şəyird yetişdirmişdir!

Bilavasitə Aşıq Ələsgərin himayəsində ərsəyə gələn aşıqlardan çoxlarının adı məlumdur. Bunlardan Göyçənin Daşkənd kəndindən olan Aşıq Nəcəf, Qızılvəngdən Aşıq Mustafa və Aşıq Yusif, Qızılbulaqdan (Çaxırlıdan) Aşıq Hüseynalı, Hüseynquluağalıdan Aşıq İsa və Aşıq Mikayıl, Zoddan Aşıq Qasım və Aşıq Ağayar, Kəsəməndən Aşıq Nağı, Böyük Məzrədən Aşıq Qiyas, Sarıyaqubdan Aşıq Məhəmmədəli və Aşıq Paşa, Böyük Qaraqoyunludan Aşıq Sadıq və Aşıq Əsəd, Zərzibildən Aşıq Nağı, Ağkilsədən Aşıq Qurban, Aşıq Talıb, Aşıq Nəcəf, Aşıq İman, Dərəçiçək mahalının Torpaqqala kəndindən Aşıq Alı və b.-nın adlarını çəkmək olar. Qısacası, onu deyə bilərik ki, Göyçədə adları bizə bəlli 170-dən artıq aşığın çoxu Aşıq Ələsgərin şəyirdləri və ya şəyirdlərinin şəyirdləridir.

Aşıq Ələsgər bu sənətin çox məsuliyyətli olduğunu yaxşı bilirdi. O, "aşıq" adı daşıyanların saz çalıb, söz oxumaları ilə vəzifələrini bitmiş hesab eləmirdi. Aşıq – "oturub-durmaqda ədəbin bilən", "xalqa həqiqətdən mətləb qandıran", "şeytanı öldürüb, nəfsin yandıran", "danışdığı sözün qiymətini bilən", "mərifət elmində dolu" olan, "el içində pak oturub, pak duran", "dalısınca xoş sədalı gərəkdi". Bu tələblərə layiqincə əməl edən və digər bir çox nəcib insani keyfiyyətləri öz şəxsində cəmləmiş olan Ələsgər özü el içində aşıqlara bir nümunə kimi böyük xalq məhəbbəti qazanmışdı.

"Yaxşı hörmətinən, təmiz adınan" "Qafqaz elini" dolanan, qocaya "ata", cavana "qardaş" deyən, qız-gəlini ana-bacı gözündə görən Ələsgər gəzdiyi yerlərdə, keçirdiyi məclislərdə nə qədər cazibədar gözəllər görüb onları min dillə vəsf etsə də, ilk məhəbbətinin uğursuzluğunun təsiri ilə 40 yaşına qədər subay yaşamışdı. Nəhayət, ata-anasının, digər ağsaqqal-ağbirçəklərin danlağı və öyüd-nəsihətindən sonra Kəlbəcərin Yanşaq kəndindən Nəbi (ayamasına "qırxayaq" deyirmişlər) adlı bir kişinin Anaxanım adlı qızı ilə səmimi bir ailə qurmuş və ömrünün axırına qədər onunla yaşamışdır.

Aşıq Ələsgər evlənəndən 3-4 il sonra Yanşağa köçmüş, bir il orada

yaşadıqdan sonra, yenə də doğma kəndinə qayıtmışdır. Bu zaman onun Nigar adlı bir qızı varmış. "Aşıq Ələsgər Yanşaqda" adlı dastan-rəvayətdə aşığın Anaxanımla evlənməsi və bu köç əhvalatı bədii əksini tapmışdır.

Aşıq Ələsgər böyük bir ailənin qayğısını çəkmişdir. O, Bəşir, Əbdüləzim, Talıb adlı üç oğul; Nigar, Xeyransa, Gülnisə, Bəsti, Əsli və Zümrüd adlı altı qız böyüdüb boya-başa çatdırmış, ev-eşik sahibi eləmişdir.

Aşıq Ələsgərin oğlanlarından hər üçünün şairlik təbi varmış, saz götürüb aşıqlıq edəni isə Talıb olmuşdur. Qızlardan isə heç biri saz çalıb söz qoşmamışdır.

Aşıq Ələsgər fiziki əməyi çox sevirmiş. Onu görmüş qocaların, qohumlarının söyləmələrinə görə, o, əkin vaxtı kotanın macından yapışar, toxumu öz əli ilə səpər, biçin vaxtı isə kərəntini götürüb, hamıdan qabağa düşərmiş.

Təbiət Aşıq Ələsgəri bədəncə çox sağlam yaratmışdı. Onu görənlərin söyləmələrinə görə, o, sağlamlığını həmişə qorumuşdur. Yeməyinin vaxtını keçirməyən aşıq istirahətini də pozmamağa çalışmışdır. Aşıq Talıbın söyləməsinə görə, o, ildə iki dəfə (yazda və payızda) başından qan aldırarmış. Gündə 2-3 dəfə əlinə qəlyanı götürsə də, tüstünü ciyərinə çəkməzmiş. Namaz qılmağı heç vaxt yadından çıxarmayan aşıq orucluq ayında oruc tutarmış.

Şəyirdlərinin və onu görmüş qocaların deməsinə görə, Aşıq Ələsgər sazı solaxay çalarmış. Havaları çox məharətlə ifa edən sənətkar bu zaman sazı atıb-tutmaq, oynamaq kimi şit hərəkətlər etməz, özünü təmkinli apararmış.

Aşıq Ələsgər dastanları çox ustalıqla söyləyər, dinləyiciləri orada cərəyan edən hadisələrin doğruluğuna inandırarmış. Qocaların deməsinə görə, bir dəfə Göyçənin Qızılbulaq kəndində keçirilən toy zamanı Aşıq Ələsgər "Əsli və Kərəm" dastanını söyləmiş, onun səhərisi günü həmin kənddən olan Dəli Şirin adlı birisi yolda keşişə rast gələndə xəncəri çəkib onu öldürmək istəmiş, lakin yoldaşları bu faciənin törənməsinə imkan verməmişlər.

Şəyirdlərinin söyləməsinə görə, Aşıq Ələsgər məclislərdə heç zaman özünü təbliğ eləməz, Qurbanidən, Abbasdan, Xəstə Qasımdan, Valehdən və başqa ustadların şeirlərindən oxuyarmış. Öz şeirlərini isə məclisdəkilərin tələbi ilə sonra ifa edərmiş.

"Təmiz adınan" ellər dolaşan aşıq hamı tərəfindən sevilir, hər yerdə

hörmətlə qarşılanırdı. Şeir-sənət xiridarları onunla dostluq eləməyi, onu evində qonaq saxlamağı özünə şərəf sayırdı. Aşıq Talıbın söyləməsinə görə, İrəvanın yaxınlığındakı Kankan kəndindən olan Abutalıb, Göyçənin Şişqaya kəndindən Kərbəlayı Bayram, Qarabağın Xan Qərvənd kəndindən isə Zamanxan oğlu Məşədi Qara Ələsgərlə siqə qardaş yazılmışdılar.

Deyilənlərə görə, Aşıq Ələsgər Aşıq Alıdan başqa, Aşıq Şenliklə, Şəmkirli Aşıq Hüseynlə (dostcasına), tiflisli Aşıq Əsədullahla, sisyanlı Dəllək Əvəzlə, Göyçənin Zod kəndindən olan Molla Tağı oğlu Məhəmmədlə (yazışma şəklində) deyişmiş; Gəncədə, Qarabağda mollalarla, şeyxlərlə dini məsələlər ətrafında ciddi mübahisələr aparmış, həmişə də qalib olmuşdur.

Aşıq Ələsgərə İrəvandan, Şəmşəddindən bağlamalar və həcvlər göndərənlər də olmuşdur. Aşıq bunların hamısına çox düzgün və tutarlı cavablar qaytarmışdır.

Bu qədər kamil, zəngin bilik sahibi olan və heç bir sual qarşısında aciz qalmayan Dədə Ələsgər çox təvazökar imiş. Onun: "Şəyirdlikdə can çürütdüm, hərgiz ustad olmadım", yaxud da "Yazıq Ələsgərəm, azdı kamalım; Vacibdi ki, bir ustaddan dərs alım" deməsi, əslində, sənətkarın ustadlar ustadı olmasını təsdiq eləmirmi?! Amma biri ilə qarşılaşanda, deyişmə meydanına çıxanda o, rəcəz oxuyur, nə qüdrət sahibi olduğunu açıq şəkildə söyləyir:

**Hər kəs sərdən keçib, mərdü-mərdana,**
**Baş qoysun bu yolda, meydana gəlsin.**
**Dərya dilim dalğa vurdu, bulandı,**
**Qərq olmaq istəyən ümmana, gəlsin!**

Aşıq Ələsgərin çox böyük sənətkar olduğunu hələ onun sağlığında ikən dövrünün ziyalıları, ustad aşıqları dönə-dönə etiraf eləmişlər. Fransız, rus, fars, türk və ərəb dillərində mükəmməl təhsil görmüş, klassik ədəbiyyatı və aşıq poeziyasını kamil bilən Mirzə Bəylər dostunu Şərqin böyük şairi Hafiz Şiraziyə bərabər tutmuş, "Azərbaycanda, türk arasında sənin kimi şair hanı, Ələsgər!?" – deyərək, onun yaradıcılığını yüksək qiymətləndirmişdir. Aşıq Ələsgərlə eyni zamanda Aşıq Alıya şəyirdlik eləmiş olan Alçalı Aşıq Məhərrəm Haqq aşığının Azərbaycan aşıq poeziyası, aşıq sənəti tarixində tutduğu mövqedən söhbət açarkən deyir:

**Heç mahalda ustad yoxdu Aşıq Ələsgər kimi,**
**Yüz yerdən qətrə oynadı, belə ümman gəlmədi.**

XX əsr öz gəlişi ilə xalqımızın tarixində silinməz iz qoyan faciəli hadisələr də gətirmişdir. Bu faciələri yaşayan böyük sənətkarın həyatında da ağrılı-acılı günlər başlamışdır.

1905-ci ildə dünyada baş verən ictimai-siyasi çaxnaşmalar, xüsusən də ermənilərin Qafqazda törətdikləri milli ixtilaf və bunun nəticələri Dədə Ələsgərin də narahatlığına, zəmanədən acı-acı şikayətlənməsinə səbəb oldu.

Təxminən, 1908-ci ildə 28 il Sibirdə sürgündə qalmış və vətəninə təzəcə qayıtmış olan xalası oğlu Molla Rəhimi Bəşirin bilmədən güllə ilə vurub öldürməsi aşığın həyatında ən faciəli hadisələrdən biri olmuşdur. O, məşhur "Kəsildi" rədifli qoşmasını xalası oğlunun cənazəsi üzərində göz yaşları axıda-axıda söyləmişdir.

1915-ci ildə qardaşı oğlu və ən sevimli şəyirdi Aşıq Qurbanın ölümü yalnız qohumları yox, bütün kəndi yasa batırmışdır. Bu ağır itki Aşıq Ələsgərə elə dərin psixoloji təsir eləmişdir ki, bundan sonra o, aşıqlıq sənətindən əl çəkmiş, bir daha əlinə saz almamışdır.

Bundan sonrakı illərdə də Ələsgəri qəm dəryasına qərq edən hadisələr bir-birini əvəz etməyə başlamışdır. 1916-cı ilin yayında kəndin kovxası Məşədi Qasım Ələsgərin ortancıl oğlu Əbdüləzimi fəhlə göndərmək istəyəndə Əbdüləzim onun sözünə baxmamış, buna görə kovxa onu qamçı ilə döymüş, xəbəri eşidən Bəşir kovxanı güllə ilə vurub aradan çıxmışdı. Bu işin üstündə Əbdüləzimi və aşığın qardaşı Xəlili təqsirləndirib həbs eləmişlər. On bir ay divanxanalar qapısına ayaq döyən aşıq məhkəmə zamanı Tiflisə getmiş (məhkəmə Tiflisdə olmuşdur) və dustaqları həbsdən azad elətdirə bilmişdir.

Yaralanmış kovxanı Ələsgərin dostu, Göyçənin Qanlı kəndindən olan məşhur həkim Hacı Nağı müalicə etdikdən sonra düşmənçilik aradan götürülmüş, Bəşir isə çar hakimiyyəti yıxılana qədər qaçaq yaşamışdır.

Bir il sonra – 1917-ci ildə Xəlilin dünyasını dəyişməsi aşığın dərdlərini bir qədər də ağırlaşdırmışdır.

Ermənilərin 1918-ci ilin mart ayında təkrarən törətdikləri milli ixtilaf bütün göyçəlilərin ağır faciəsi ilə nəticələnmişdir. Mənfur düşmən ələ keçənləri vəhşicəsinə qırmış, arxa şələsi ilə qaçanların əksər hissəsi dağların

aşırımlarında borana düşüb məhv olmuşdu. Yeri gəlmişkən, onu da qeyd edək ki, buz kimi donan ağbirçəklərimizdən biri də ömrünün sonuna qədər Ələsgərə həsrətlə baxıb köks ötürən Səhnəbanı idi...

Hələ döyüş başlamamış, ailələrini Kəlbəcərin Qanlıkənd (Qalaboynu) kəndinə köçürən Bəşir Göyçəyə qayıdıb düşmənə qan uddurmağa başlamışdır. O, yanına iki tüfəng qoymuş, biri qızanda o birini götürmüş və atdığı güllənin sayı qədər erməni qırmışdır.

Ailəsi üç il köçkün yaşadığı müddətdə Aşıq Ələsgər çox mənəvi əzablar çəkmişdir. Bir çox oxucular, hətta tədqiqatçılar aşığın bu zaman dediyi "Dolansın" rədifli qoşmasındakı "Aşıq – dəyirmançı, ağa – çarvadar" misrasından belə nəticə çıxarırlar ki, Ələsgər qaçqın yaşadığı vaxt maddi ehtiyac üzündən dəyirmançılıq eləməyə məcbur olmuşdur. Bu, tamam yanlış fikirdir. Aşıq Ələsgərlə o zaman bir ailədə yaşamış olan Aşıq Talıbın söyləməsinə görə, bir dəyirmanı olan Qanlıkənd kəndi ilə Elləzallar kəndi arasında düşmənçilik yarandığına görə, heç kəs cəsarət edib dəyirmana gələ bilmirmiş. Undan sarı korluq çəkən bu kəndlərin ağsaqqalları Aşıq Ələsgərin yanına gəlib, ondan xahiş eləmişlər ki, heç kəs sənin yanında bir-birinə əl qaldırmaz; ara düzələnə qədər dəyirmana gəlib-gedənə nəzarət elə, camaat dolansın. Aşıq elin sözünü yerə salmamış, bir müddət gününü dəyirmanda keçirməli olmuşdur. Dəyirman Qanlıkənd sakinləri Mərdan oğlu Abbasla Seyid Fəttahın imiş. Dəni üyütməyə və şahad almaq işinə onların özləri baxırmış.

Aşıq Ələsgər bu misrası ilə onu "dəyirmançı" eləyən zəmanədən şikayətlənmişdir. Bu barədə "Dəyirmançı aşıq" dastan-rəvayətində ətraflı söhbət açılmışdır.

Ermənistanda şura hakimiyyəti qurulandan sonra bütün göyçəlilər kimi, Aşıq Ələsgərin də ailəsi doğma yurda qayıtmışdır. Hökumət Aşıq Ələsgəri İrəvana aparmaq üçün iki dəfə nümayəndə göndərmiş, lakin aşıq bu təklifləri qəbul eləməmişdir.

Aşığın gəlini Zinyət nənənin (o, 2000-ci ildə, 96 yaşında vəfat eləmişdir), eləcə də ömrünün son illərində onu görənlərin xatirələrindən aydın olur ki, yaşı yüzü keçsə də, aşıq özünü yaxşı hiss edirmiş. Qəddi əyilməyən, saç-saqqalı tamam ağarmayan, dişləri yerində olan qocanın qulağı yaxşı eşidir, gözləri də yaxşı görürmüş.

Aşıq Ələsgərin fotoşəkli əlimizdə yoxdur. Özünün deməsinə görə, bir dəfə, təxminən, 1910-cu ildə Dəli Alının bacısı oğlu Zeynalabdının toyu

zamanı yaylaqda, bir dəfə də 1916-cı ildə Tiflisdə şəkli çəkilib. Təəssüf ki, bu şəkillərin heç birindən bircə nümunə alıb saxlamayıblar.

Deyilənlərə görə, aşıq ucaboy, enlikürək, qarayanız, çatma qaşlı, qara gözlü, dolu sifətli bir adam imiş. O, başını ülgüclə qırxdırar, üzündə xətt saxlarmış; əyninə uzun ətəkli arxalıq, üstündən çuxa geyər, başına "Buxara" papaq qoyar, belinə göy şaldan qurşaq bağlarmış. Ayağında çəkmə yox, "məst" adlanan yüngül və rahat ayaqqabı olarmış.

Rəssamlarımızdan S.Şərifzadə, B.Mirzəzadə, M.Abdullayev, N.Xəlilov, C.Quliyev və b. aşığın portretini yaratmağa cəhd göstərmişlər. Aşığı görənlərin deməsinə görə, onun nəticəsi Nailə İslamqızının çəkdiyi şəkil Aşıq Ələsgərə daha çox oxşayır.

Aşıq Ələsgərin ömür-gün yoldaşı Anaxanım 1922-ci ildə vəfat eləmişdir.

Dünyadan köçəcəyi günü əvvəldən xəbər verən Dədə Ələsgər 1926-cı il mart ayının 7-də həyatla vidalaşmışdır. Onun məzarı Ağkilsə kəndinin qərbindəki köhnə qəbiristanlıqdadır.

Aşığın anadan olmasının 150 və 175 illik yubileyləri respublika miqyasında geniş qeyd edilmişdir.

Yazı-pozu bilməyən qüdrətli el sənətkarının yaratdığı əsərlər onun sağlığında yazıya alınmadığına görə, böyük bir qismi unudulmuşdur. Buna baxmayaraq, əldə edilən sənət inciləri bu barədə söhbət açmağa imkan verir.

Aşıq Ələsgər incə qəlbli, həssas, hər şeyi düzgün qiymətləndirən, gözəllikləri duyan, onu min dillə vəsf edən qüdrətli söz ustasıdır. Təbiətdə və cəmiyyətdə elə vacib bir məsələ yoxdur ki, bu və ya digər şəkildə aşıq ona toxunub, öz münasibətini bildirməmiş olsun.

Aşıq Ələsgər, hər şeydən əvvəl, böyük bir eşq sahibidir, gözəllik aşiqidir. Bu eşq, məhəbbət və gözəllikdən zövq almaq duyğusu ömrünün əvvəlindən sonuna qədər onu tərk etməmişdir. O, təbiət gözəlliklərinin vurğunu; vətənini, elini sonsuz məhəbbətlə sevən əsl xalq aşığıdır.

Aşıq Ələsgərin yaratdığı sənət inciləri ilə vətənin "qüdrətdən səngərli, qalalı dağlar"ından Azərbaycan aşıq poeziyasına bir ucalıq, qıjıltı ilə axan çaylarından bir coşqunluq, dumduru bulaqlarından bir şəffaflıq, "saatda yüz çiçək açan" səfalı yaylaqlarından dinləyicini məst edən bir ətir cərəyanı gəlir.

Aşıq Ələsgərin adı çəkiləndə Göyçə mahalı, Göyçə mahalının adı çə-

kiləndə Aşıq Ələsgər yada düşür. O, "Adım Ələsgərdi, Göyçə — mahalım", "Adım Ələsgərdi, əslim — göyçəli", "Göyçənin qonağa çoxdu hörməti" – deyərək, belə bir diyarın övladı olması ilə fəxr edir. Göyçə mahalının, eləcə də bütün Azərbaycanımızın zəngin təbii gözəllikləri, orada yaşayan vəfalı, alicənab insanları, mərd igidləri; hurilərlə, pərilərlə müqayisə edilən gözəl qız-gəlinləri aşığın ilham mənbəyidir.

"Bahar fəsli - yaz ayları gələndə" hər cür çiçək açıb laləzar olan "süsənli, sünbüllü, lalalı dağlar"ın tamaşasından doymayan aşıq:

**Yazın bir ayıdı çox yaxşı çağın,**
**Kəsilməz çeşməndən gözəl yığnağın.**
**Axtarma motalın, yağın, qaymağın...**
**Zənbur çiçəyindən bal alı, dağlar!**

– misraları ilə təbiətin bəxş etdiyi bu gözəllikləri bir rəssam kimi göz önündə canlandırır.

Aşıq təbiətin gözəlliklərini nəzmə çəkəndə, bunları insandan ayrı təsəvvür eləmir. Sanki insansız olanda, bu gözəlliklər natamamdır. Payız gələndə, soyuqlar düşəndə, güllər-çiçəklər saralıb-solanda, yaylaqda olanlar arana köçməli olurlar. Aşıq isə bunları tamam başqa cür mənalandırır:

**Köçər ellər, düşər səndən aralı,**
**Firqətindən gül-nərgizin saralı.**

Bu misralardan belə nəticə çıxır ki, ellər köçüb "aralı" düşdüyü, dağların gül-çiçəyi bu "firqətə" dözə bilmədiyi üçün saralır. Sanki ellər köçməsəymiş, qış gəlib çatsa da, "gül-nərgiz" saralmazmış. Elə bu şeirin "Xəstə üçün təpəsində qar olur" misrasından da bu qənaətə gəlirik ki, dağların başında yaya qalan qarın da gözəlliyini aşıq onun insanlara (xəstələrə) xidmət eləməsində görür. "Yaylaq" gəraylısında aşıq yaylağa ona görə "var ol!" deyir ki, o, "gözəllər seyrangahı"dır. Şah dağını tərifləməsinin bir səbəbi də odur ki, "köysündə laləzar"lıq yaradan gül-çiçəyi, "süsən"i, "sünbül"ü "alan-satan gözəllərdir", çiçəklərinin hamısı "kimyə"dir (dərmandır), "Yeddi kralın qaçağı" ona pənah gətirir.

Aşıq Ələsgər dağları, yaylaqları elə geniş təsvir və tərənnüm eləmişdir ki, sanki bu mövzuya qayıtmağa ehtiyac qalmamışdır. Amma aşıq bu mövzuya qayıtmış, həm də məcburən qayıtmışdır. Bunun çox kədərləndi-

rici səbəbləri vardı.

Böyük Ermənistan yaratmaq xülyasına düşən ermənilər 200 ilə yaxındır ki, türkləri qırmaq yolu ilə öz ərazilərini genişləndirmək fikrindən əl çəkmirlər. Bunun üçün onlar münasib məqam gözləyir və kütləvi şəkildə qırğınlar törədirlər. Belə bir faciəli hadisə rus imperiyasının silkələndiyi 1905-ci ildə baş vermişdir. Qonaq kimi qəbul edib, sonra torpaq verib ərazimizin ən gözəl guşələrində məskunlaşdırdığımız bu nankor millət havadarlarının köməyi ilə Azərbaycanın bir çox yerlərində qırğınlar törətdilər, çox yurd-yuvanı viran elədilər. Bunun nəticəsində gediş-gəliş kəsildi, yollar bağlandı, aran camaatı yaylaqlara çıxa bilmədi. Belə məyusluğu görən Ələsgər "Dağlar" rədifli ikinci bir qoşma ilə dərdini dilə gətirmiş, yanıqlı ifadələrlə qəm-kədərini söyləməli olmuşdur.

Əvvəlki illərdə yaylaqlarda şən günlər keçirən, minbir cah-cəlal görən el sənətkarı indi sürülərin "mələşmədiyini", atların "kişnəşmədiyini", "erkək kəsilib, ağır məclislər" qurulmadığını, buxağına gül düzən "türfə gözəllərin" seyrə çıxmadığını görəndə, dağlara (əslində böyük Yaradana) üz tutub, "Hanı mən gördüyüm qurğu-büsatlar?!", "Hanı bu yaylaqda yaylayan ellər?!", "Hanı mərd iyidlər, boş qalıb yurdu?!" kimi suallar vermiş, axırda:

**Arsız aşıq elsiz niyə yaşadı,**
**Ölsün Ələsgərtək qulların, dağlar!**

– deyərək, eldən ayrı yaşamaq istəməmişdir.

Aşıq Ələsgəri yalnız erməni-müsəlman ixtilafı yox, Azərbaycanda baş verən digər ictimai-siyasi hadisələr də narahat edirdi. Çar üsuli-idarəsinin milli azlıqları istismar eləməsi, camaatın ağır güzəranı aşığın zəmanədən acı-acı şikayətlənməsinə səbəb olmuşdur. Bu cəhətdən onun "Çıxıbdı" rədifli qoşması xüsusi təhlilə layiqdir.

Gecə-gündüz "sərt ayaz"da çalışan rəncbərin, naxırçının, nökərin "ruzularının" "gündən-günə" azalması, qoçuların, quldurların özbaşınalıqları, ədalət divanının olmaması aşığı hiddətləndirirdi:

**Pristav, naçalnik gələndə kəndə,**
**Obanı, oymağı vururlar bəndə,**
**Xərc üstə çoxları düşüb kəməndə,**
**Qamçıda belinin qatı çıxıbdı.**

Bizə elə gəlir ki, bu bəndi izaha ehtiyac yoxdur. Xalqın gündən-günə pisləşən güzəranı onu vergi ödəmək imkanından da məhrum eləmişdi. Vergilər isə həddindən artıq idi. Belə çıxılmaz vəziyyəti görən aşıq üzünü Xudaya tutaraq, padişahın "sitəmindən" şikayətlənir, "Məhəmmədin ümmətinə ayda üç yol xərc" gəldiyini, "bu cəfaya" heç kəsin tab gətirə bilməyəcəyini söyləyir, özünün yasa batmağının səbəbini yoxsulların gününün acınacaqlı olması ilə əlaqələndirir. Zülm əlindən cana doyan xalqın çara göndərdikləri ərizələrə müsbət cavab veriləcəyinə inanmayan aşıq deyir:

**Ərizələr atkaz qayıtsa, şahdan imdad olmasa,**
**Fanidən köçmək lazımdı, ol üqbaya dalbadal.**

Burada diqqətli cəlb edən "atkaz" sözü açıq şəkildə sübut edir ki, göndərilən ərizə rus çarınadır. O, çox ərizələrə məhəl qoymamış, rədd eləmişdir. Aşığın misralarından ataların söylədiyi "Pis gündən ölüm yaxşıdır" fikri aydın görünməkdədir. Bu isə mövcud ictimai quruluşla barışmamaq çağırışıdır. "Bərhəm olsun təqdir, pozulsun yazı; Bu qurğuya heç kəs olmaz irazı" misralarında isə onun ictimai quruluşa üsyan sədası ucadan eşidilməkdədir.

Hamıya məlumdur ki, XIX əsrin ikinci yarısında ictimai quruluşda olan ədalətsizliyə, çar çinovnikləri və onların əlaltıları olan yerli feodalların xalqa amansızcasına divan tutmalarına qarşı ciddi bir mübarizə hərakatı başlanmışdı. Xalqın bir çox igid oğulları silaha sarılaraq, dəstələr düzəldib, dağlara çəkilmiş, "qaçaq" adı ilə milli qəhrəman kimi şöhrət qazanmışdılar. Belə silahlı dəstələrin birinin başında Goranboyun Qarasuçu kəndindən olan Dəli Alı dururdu. Aşıq xalqın bu mərd, yenilməz oğluna "Dəli Alı" adlı bir qoşma, "Kimi" və "Deyin" rədifli iki müxəmməs həsr eləmişdir.

Səs-sorağı hər yana yayılan, elin bu qəhrəman oğlu Koroğlutək nərə çəkib, düşmən üzərinə hücuma keçəndə "saldat"ın qanını "sel kimi" axıdır. O, heç kəsdən və heç nədən qorxmur, çünki "Əliyyi-əladan" dərs alıbdır. Aşıq onun xata-bəladan uzaq olması üçün ulu Tanrıya yalvarır və belə bir igidin yolunda canını qurban deyir.

Dağlarda qaçaq yaşayan Dəli Alı heç də qaçağa oxşamır. Onun sürü ilə qoyunu, naxırla malı, ilxı ilə atı vardır. Bacısı oğluna böyük təntənə ilə toy eləyir, hər yerdən qonaq çağırıb. Qonaqlar arasında onun dəvətini

qorxa-qorxa qəbul edən çar çinovnikləri də var.

Aşıq istəmir ki, Dəli Alının adındakı "dəli" sözü "ağılsız" mənasında başa düşülsün. O, "İyidliyin səbəbinə ona deyirlər "Dəli Alı" deyərək, "dəli" sözünə bir aydınlıq da gətirir. "Şücaətdə Qəhrəman" kimi olan Dəli Alını çox böyük ilhamla tərifləyən aşıq onun dəstəsindəki "coşub girəndə meydana" "Koroğlutək nərə çəkib" "ordupozan" qardaşı Aslanı, "döyüşdə yüz düşməni" eyninə almayan, "şimşək kimi yalavıyıb, al qana bələnən" Cəfər ağanı, "nər oğlu nər kimi" olan Məşədi Məhəmmədi, Maliki-Əjdərə bənzəyən Qızılhacılı Allahverdini, "Mələk əl-mottək candan can üzən" İsmayılı, Orucu, Qəfəri, Qasımı, Tat oğlunu, Bala Məşədini və başqalarını da sevə-sevə öyür.

Aşıq Ələsgər bu tərifləri deməklə işi bitmiş hesab eləmir. O istəyir ki, bu təriflər hər yana yayılsın. Şəyirdlərinə tapşırır ki, haraya getsəniz, məclislərdə bu şeirləri oxuyun; Göyçə mahalı eşidibdir, İrəvana da deyin; Şaxtaxtından addayın, Təbrizə də, Tehrana da deyin; "Üz tutun Alosmana, Qarsa, Qağızmana" da deyin. Qoy düşmənləri yana-yana qalsınlar. Təmkində Pənah xana bənzətdiyi belə bir mərd iyidin Azərbaycanda olması ilə aşıq fəxr edir və öyünür.

Aşıq Ələsgər Dəli Alıdan danışarkən "Ata-baba iyiddirlər, bəyənmişəm əsli-zatın" misrası ilə qəti bir fikir söyləmişdir. Dəli Alının igid olması göz qabağındadır; amma onun atasının, babasının iyid olmaları barədə məlumatımız yoxdur. Bəlkə, aşıq bu barədə dəqiq bir şey bilirmiş. Amma Dəli Alının oğlu Məmməd Məhərrəmovun 1941-1945-ci il müharibəsi zamanı "Sovet İttifaqı Qəhrəmanı" kimi şərəfli bir ad qazanması Dəli Alının əsli-zatı barədə aşığın dediyini bir daha təsdiq elədi.

Aşıq Ələsgər beynəlxalq aləmdə baş verən ictimai-siyasi hadisələrə də biganə qalmamışdır. Dünyada baş verən çaxnaşmalar, xüsusən Birinci Dünya müharibəsi zamanı xalqların məruz qaldığı ağır mərhumiyyətlər aşığı çox narahat eləmişdir. Bu münasibətlə yaratmış olduğu "Qalmadı" rədifli qoşmasından aydın şəkildə görünür ki, onu kədərləndirən əsas məsələ insanların qırılmasıdır:

**German bir bom atdı, qan oldu dərya,**
**Qırıldı, dünyada insan qalmadı.**

Burada diqqəti cəlb edən maraqlı bir cəhət odur ki, Dəli Alının və onun silah yoldaşlarının "nərə çəkib, təpiləndə saldata, sel kimi" qan axıt-

dıqlarını təqdir eləyən aşıq vətəndən çox uzaqlarda baş vermiş olan müharibədə axıdılan qanlara göz yaşı tökür.

Yaradıcılığa Səhnəbanının eşqi və onun tərifi ilə başlayan Ələsgər ömür böyu gözəlləri vəsf eləmişdir. Onun müxtəlif şəkilli şeirlərinin böyük bir qismi bu mövzuda yaradılmışdır. Əsərlərində adları çəkilən Bəyistan, Əsli, Pərizad, Gövhər, Güləndam, Güllü, Müşgünaz, Telli, Nənəpəri, Gilə, Həcər, Mələk, Şapəri və s. gözəllər sadə kəndli qızlarıdır. Bunlar sadə olduğu qədər də ürəyi təmiz, ismətli, abır-həyalı, böyük-kiçik yolu gözləyən, mərifətli-qanacaqlı, işgüzar, məhəbbətlərinə sədaqətli və mehribandırlar. Kəlbəcərdən söhbət açan Ələsgər deyir:

**Züleyxa təmkinli gözəllər hamı,**
**Siması, libası, qurğu-nizamı,**
**"Qardaş" deyib, dindirirlər adamı,**
**Hörmətləri, mərfətləri yaxşıdı.**

İndi aşıqlarımız, şairlərimiz təsadüfi halda bir qızın adını çəkib, onu tərifləyir. Çox zaman bu tərifi gizli saxlayır, yoxsa, qızın adamları tərəfindən cəzalandırıla bilər. Amma Aşıq Ələsgər söylədiyi hər bir vəsfin müqabilində ona bahalı xələt verir və hədsiz dərəcədə razı qalırdılar. Bunun səbəbi tərifin yüksək sənətkarlıqla deyilməsi ilə yanaşı, aşığın qəlbinin təmizliyinə olan inam, onun qız-gəlinləri ana-bacı gözündə görməsi idi. "Giləyə" rədifli müxəmməsində gözəli böyük ilhamla tərifləyən sənətkar ona: "Həm bu dünyada bacımdı, həmi qiyamətin günü" – deyərək səmimi qardaş münasibətini bildirmişdir.

Gözəlləri tərifləyərkən, xalqın əxlaq normalarına uyğun gəlməyən, etikadan kənar, abırsızcasına fikir söyləyən bir çox aşıq-şairlərdən fərqli olaraq, Ələsgərin ifadələrində açıq-saçıqlıq yoxdur, onun qəlbi təmizdir, o, gözəllik aşiqidir; obrazlı şəkildə desək, gözəllik şamının pərvanəsidir.

Aşığın ilk şeirlərindən olan "Köynəyinə" rədifli qoşmasında deyilir:

**Sinən Kəbə, köynək Kəbə örtüyü,**
**İzin versən, sürtəm üz köynəyinə.**

Burada aşiqin məşuqəsinə olan məhəbbətinin müqəddəsliyi, səmimiliyi, aliliyi, paklığı insanı heyran edir.

Aşıq Ələsgərin hamıya məlum olan məşhur "Düşdü" rədifli qoşması-

nın məzmunundan aydın olur ki, o, "Çərşənbə günündə, çeşmə başında" gördüyü gözəl bir qıza vurulmuşdur. Qızın baxışları, qəmzələri onun varlığına hakim kəsilmiş; qanına, iliyinə işləmiş, onu sehrləmişdir. "Həm gözəl, həm əhli-dil" olan bu qızla ailə qurmağı xəyalına gətirən, onun eşqi ilə pərvazlanan aşıq qızın nişanlı olduğunu bilәndə, "qol-qanadı" sınmış, ümidi boşa çıxmış və bu fikrindən əl çəkmişdir. Aşıq (aşiq) elin, nənə-babaların məhəbbət aləmində sabitləşdirdiyi, qoruyub saxladığı müqəddəs adət-ənənəyə sadiq qalmış, qızın dalınca həyasızcasına sürünməmiş, necə deyərlər, qır-saqqız olub, ona yapışmamışdır.

Aşıq gördüyü gözəlləri vəsf edərkən çox zaman klassik şeir ənənələrinə sadiq qalaraq, onların qaşını kamana, kirpiyini oxa, alnını aya, yanağını almaya (ya da laləyə), buxağını büllura, boyunu sərvə, saç hörüklərini ilana, ümumi şəkildə isə camalını Günəşə bənzədir. Amma belə sabitləşmiş bənzətmələrə üstünlük verməyən sənətkar gözəli tərifləyərkən elə ifadələr işlədir, onun gözəlliyinin bərabəri olmadığını elə müqayisələrlə söyləyir ki, bunlara yalnız ulu ustadın yaradıcılığında təsadüf edirik:

**Həcər xanım, qaşın-gözün təhrində**
**Xətt yazsam, Quranda ayə düşərmi?!**

Yaxud:

**Camalın şoxundan cismim əridi,**
**Zülfündən üstümə sayə düşərmi?!**

İkinci misalda bənzəyən və bənzədilənin adları çəkilmir, onların xüsusiyyətləri qeyd edilir. Bu xüsusiyyətlərə görə, dinləyici (oxucu) müəyyənləşdirir ki, gözəlin camalı Günəşə, saçları buluda, özünün cismi isə muma bənzədilmişdir.

Bəzən də bənzətmələrdən istifadə eləməyən aşıq gözəlin barəsində elə fikir söyləyir ki, onun gözəlliyi hər bir dinləyicinin (oxucunun) gözü qarşısında müxtəlif şəkildə, həm də gözəllər gözəli kimi təcəssüm edir:

**Yaradan xəlq edib bir qətrə nurdan,**
**Düşübsən ellərə nişana, Telli!**

Yaxud:

**Tərsa üzün görsə, tez gələr dinə,**

**Alim görsə, gedər saz alı, Güllü!**

Aşıq Ələsgər təriflədiyi qız-gəlinlərin zahiri gözəlliklərini, xüsusən milli geyimlərini və bəzəklərini elə məharətlə təsvir edir ki, gözlərimiz önündə rəssamlarımızın çox asanlıqla yarada biləcəyi füsunkar bir gözəlin (Azərbaycan gözəlinin) portreti dayanır:

**Qüdrəti çəkilib qaməti-şahbaz,**
**Mərnus dizlik geyib, çəpgəni ətlaz,**
**Buxaq düymələnib kağızdan bəyaz,**
**Mərcan düzüb boyunbağı qırmızı.**

Aşıq Ələsgər insan gözəlliyini, hər şeydən öncə, onun mənəvi aləmində axtarır. Təriflədiyi gözəllər zahirən nə qədər gözəl olsalar da, aşıq onların bu gözəlliyini "cəm" hesab eləmir, natamam sayır. Elə ki o, zahiri gözəlliklə mənəvi gözəlliyi vəhdət halında gördü, o zaman "Gözəlliyi cəm veribdi, Xaliqü-Sübhan gözələ!" – deyir.

"Gözəllər sultanı, mələklər şahı" olan qızların taleyi də həmişə Aşıq Ələsgəri maraqlandırmışdır. Sevgilisinə qovuşmayan Ələsgər məhəbbət əzabının bütün acılıqlarını yaşamış, belə bir dərdin ağırlığını filin də çəkə bilmədiyini bədii şəkildə söyləmişdir.

Bu, bir həqiqətdir ki, aşığın zamanında həm camalca, həm də kamalca gözəl olan qızları çox vaxt yaşca özündən böyük, sifətcə çirkin, lakin var-dövlət sahibi olan adamlara ərə verirdilər. Çox vədə qızın rəyi də soruşulmurdu. Qız əri evində oğlanın hər bir əmrinə tabe olmalı, əzab və işgəncələrinə dözməli idi. Böyük el sənətkarı gəzdiyi yerlərdə gözəllərin belə dözülməz əzablara məruz qaldıqlarını görəndə, susa bilmir, gövhərin "qədirbilməz əlində" qaldığını, tərlanın sara dustaq olduğunu bədii şəkildə söyləyir; ərlərini isə "bimürvət", "nainsaf", "dilbilməz", "yağı", "huşdan çaşqın", "ağıldan kəm" adlandırır, onları "ölməz", "utanmaz" sözləri ilə lənətləyirdi.

"Yazıq" rədifli qoşmasının məzmunundan aydın olur ki, məşəqqətli günlər keçirən bir gözəlin taleyi aşığı düşündürür. Gəlin yazıq olduğu kimi, onun "qəmli könlünü", "müşkül halını düşünən" aşıq da özünü "yazıq" hesab edir. Qız "könlü istəyənə" qismət olmamışdır. "Bəzənib" belə bir evə gəlin gəlməkdənsə, "bir daş olub", "divara hörülmək" daha yaxşı imiş. Aşıq şeirin sonunda:

**İki könül bir-birini tutmasa,**
**Alan da yazıqdı, gələn də yazıq!**

– misraları ilə qəti şəkildə bir hikmətli fikir söyləyir. Bunun əksinə olaraq, oğlanla qızın bir-birinə layiq olduğunu görəndə aşığın könlü açılır, sevinir, səmimi bir ailə qurulacağını təqdir edərək onu alqışlayır:

**Şükür Haqqa, Xudam yazıb, tərlanı tərlana, gözəl,**
**Mehdi kimi ölkəmizdə yoxdu oğlan, Xırdaca qız!**

Aşıq Ələsgər gənclərin ailə qurması kimi çox məsuliyyətli bir məsələdə qarşılıqlı məhəbbəti əsas hesab edir: qurulan ailə həm də qızın arzusu ilə olmalıdır. Əgər belə bir arzu yoxdursa, qız etirazını qəti şəkildə bildirməlidir. "Həcər xanım" dastanında bu məsələni aşıq ciddi şəkildə qoymuşdur. Ustad sənətkarın zamanında Göyçənin Qızılvəng kəndində İsgəndər adlı bir kişinin Həcər adlı gözəl, ağıllı bir qızı olması tarixi həqiqətdir. Lakin neçə-neçə adlı-sanlı adamlardan birini bəyənməməsi, elçilərə atası yox, özü cavab verməsi, aşığın da ona elçi düşməsi, hətta deyişmələri el nəğməkarının xəyalının məhsuludur.

Dastandan göründüyü kimi, Həcəri nə var-dövlət, nə də mənsəb aldadır. Elçi gələnlərdən bəzilərinin yaşca böyüklüyünü, bəzilərinin sifətinin çirkinliyini, bəzilərinin isə xasiyyətinin yaxşı olmadığını onların üzünə deyir. Onun qənaəti budur ki, ancaq bəyəndiyi oğlanla ailə qursun.

Aşıq Ələsgər o zaman dəbdə olan "gözüyumulu evlənmək" kimi xoşagəlməz bir adətin də əleyhinə çıxış eləmişdir. Aşığa görə, ailə quran tərəflər (qız və oğlan) bir-birlərini yaxşı tanımalıdır, onların xasiyyətləri bir-birinə xoş gəlməli, uyğun olmalıdır. Əgər qız qonşudadırsa, yaxud kəndlərindədirsə, oğlan və onun adamları qızın xasiyyətinə müəyyən qədər bələddirlər. Oğlan uzaq yerdən evlənirsə, dolayı yollarla olsa da, qızın barəsində düzgün məlumat əldə etməlidir.

Qızının adı ilə bağlı olan həcvdə böyük sənətkar heç də öz qızından danışmır. O, belə bir bədii üsulla evlənmək istəyən oğlana düzgün yol göstərir, elə şeiri də ona müraciətlə başlayır:

**Uzaq vilayətdən qız sevən oğlan,**
**Yaxın qonşusundan soruş halını.**

Bəlkə, qız “işə buyuranda, naxoşam deyir”, qonşularla yola getmir, ailədə gücü çatdığı uşaqları döyür; bəlkə həyasızdır, acıdillidir, bəlkə pintidir, qolunu çırmayıb, əlini yumamış xəmir yoğurur, ev-eşiyi zibilli saxlayır; bəlkə, “axşamdan yıxılıb, çeştədək yatır”, üç ayda bir” cəhrəsinin səsi gəlmir”, “iyi paslanıb”, düyçəsi çıxmır, corab milini “küllüklərdə gəzir”; bəlkə, bu deyilənlərdən daha bədtər xasiyyətləri var?

Böyük el ağsaqqalı uzaq yerlərdən evlənmək istəyən oğlanlara demək istəmişdir ki, qızın zahiri gözəlliyi, eləcə də kimin qızı olması sizi aldatmasın; xoşbəxt yaşamaq istəyirsinizsə, gözəl xüsusiyyətlərə malik olan qızlarla ailə həyatı qurun. Hər iki tərəf gözəl olsa, “Yaxşı can yetişsə, yaxşı canana; Həmi gün xoş keçər, həm ay, il eylə”.

Bir çox oxucular Haqq aşığının din xadimləri ilə mübarizə apardığını, onları tənqid atəşinə tutduğunu söyləyirlər. Bu fikri dürüstləşdirmək üçün “din xadimləri” sözlərini “dinimizin bəzi xadimləri” sözləri ilə əvəz etmək lazımdır.

Dinimizin qanun-qaydalarına həmişə ləyaqətlə əməl edən; həqiqəti, təriqəti, şəriəti, mərifəti dəqiq bilən; hər zaman Yaradana ibadət eləyən aşıq hamını mömin müsəlman görmək istəyirdi. O, insanların doğru yol tutmasında din xadimlərinin nə qədər böyük rolu olduğunu yaxşı bilirdi. Lakin Haqq aşığı bəzən dinimizin müdafiəçisi və təbliğatçısı sayılan mollaların, axundların və digər din xadimlərinin özlərinin haqq yolundan çıxmasını, hətta insanlar arasında olan əxlaqi davranış qaydalarını kobudcasına, biabırcasına pozmalarını görəndə susmamışdır və susa da bilməzdi. Odur ki, nə “şeytan olan” mollalar, nə “lotu çıxan” məşədi və kalvayılar aşığın tənqidindən kənarda qalmamışdır. Tənqidin təsir gücünə inanan böyük sənətkar belə tənqidi şeirlərinə görə onu məzəmmətləyən əsl din xadimlərinə verdiyi cavabda deyirdi:

**Məzəmmət eləmə mən binəvanı,**
**Sahibi-səltənət, ey gövhər kanı!**
**Mənim sözüm yoldan çıxan mollanı,**
**İnşallah, qaytarar, müsəlman eylər.**

Bu misaldan əldə edilən qəribə bir nəticə də odur ki, “yoldan çıxan molla”ları, eləcə də bu qəbildən olan başqalarını, ibadətlə məşğul olsalar da, ali dini təhsil görsələr də, aşıq onları müsəlman hesab eləmir. Müsəlman – ən nəcib, ən yüksək müsbət insani keyfiyyətləri öz şəxsində cəm-

ləşdirən, dinimizin buyurduqlarına həssaslıqla əməl edən adamdır. Aşıq elə həmin qoşmada sözünə davam edərək deyir ki, alim, mömin hesab edilənin "meyli haqqa doğrudur"dursa, düz yol tutubsa, "diliylə zəbanı üzbəüz"dürsə, "Ələsgər yolunda can qurban eylər".

Allahın varlığına inanan Haqq aşığı mövcud olan dinlərin heç birinə mənfi münasibət bəsləməmişdir. O, peyğəmbərlərin hamısına ehtiramını bildirmiş; Qurana olduğu kimi, İncilə, Zəbura, Tövrata da müqəddəs kitablar kimi baxmışdır. Bununla belə o: "Kəbə — qibləm, dinim — Məhəmməd dini" – deyərək, müsəlman olması ilə fəxr eləmişdir.

Aşıq Ələsgərin yaradıcılığında halallıqdan çox söhbət gedir. Aşığa görə, dünyada baş verən mənfi halların, insanlar arasında mövcud olan pisliklərin səbəbi halallığın gözlənilməməsidir. O, halallığı, hər şeydən əvvəl, nütfə paklığında görür: nütfədən pak olmayan insandan hər cür bədxahlıq, hər cür pis əməl gözləmək olar: "Nütfəsindən əyri olan tez göstərər isbatın". Çünki "Hər ağac kökündən bitər, hər meyvə gözlər zatın", "Nütfədən pak olan özü pak olar".

Halallığın ən əsas şərtlərindən biri də insanın ruzusunun halallığıdır. Hərə öz halal zəhmətinin barını yeməli, başqasının malına göz dikməməlidir. Əgər bu iki vacib şərt pozulubsa, aşığın öz sözləri ilə desək, birisi "loğmadan gəc", "nütfədən əyri"dirsə, nə qədər oxumuş olur-olsun, istər lap alimlik dərəsinə yüksəlsin, o, "pürkamala yetişməz". Odur ki, dahi sənətkar: "Kəsb elə özünə halaldan maya; Zinakar, haramxor yetişməz baya", – deyərək, dinləyiciləri düz yola çağırır. Aşığın:

**Sövdə qıl haqq ilə, əl çək haramdan,**
**Halaldan mətləbin al, qoca baxtım!**

– misralarındakı tövsiyəsi "Ziyanın yarısından qayıtmaq da xeyirdir" – atalar sözlərinin başqa şəkildə ifadəsidir. Böyük el ağsaqqalının öz bəxtinə müraciətlə dediyi bu sözlər, əslində, onun bütün xalqa, xüsusən əyri yolda olanlara müraciətidir.

Aşıq Ələsgərin şeirlərində diqqəti cəlb edən maraqlı məsələlərdən biri də dostluqdur. Dostluq insanın ən nəcib insani keyfiyyətlərindən biridir. Aşıq dostluqdan söhbət açarkən səmimi dostluğu, təmənnasız dostluğu nəzərdə tutur.

Dostluğun ilk mərhələsi tanışlıqdır. Bu tanışlıq tədricən hər iki tərəfin qəlbən bir-birinə yaxınlaşması, əqidə birliyi nəticəsində dostluğa çevrilir.

Dostluq çox incə rəftar tələb edir. O hər xırda şeydən ötrü pozula bilməz: "Dost dostdan inciyər, qəlbində dönməz". Dostun bir məzəmmətli sözünü eşitmək düşmənlə vuruşmaqdan çətindir: "Dostun məzəmməti adam öldürür", "Dost odur ki, dosta yalan satmasın". Aşıq dostluqda bir müqəddəslik də görür: "Dosta xain baxan kor olacaqdı". Dost uğrunda çəkilən zəhmətə, eləcə də əziyyətə görə incimək olmaz. Dostluğun enişli-yoxuşlu yolları çoxdur.

**Ya dost olma, ya zəhmətdən incimə,**
**Dost yolunda boran, qar olacaqdı.**

Dost dostun şən günlərində sevindiyi kimi, onun kədərli günlərinə də şərik olmalı, yeri gəlsə, canını belə əsirgəməməlidir.

Yalançılıq bəzi insanlarda olan ən pis, ən iyrənc xüsusiyyətlərdəndir. Atalarımız "Yalançı Allahın düşmənidir" kəlamını elə-belə deməmişlər. "Yalançının evi yandı, heç kəs inanmadı" zərb-məsəli də xalqın belə nadürüstlərə olan münasibətinin ifadəsidir. Dini təsəvvürə görə, yalançı adamlara qiyamətdə ən ağır cəza veriləcəkdir. Aşıq Ələsgər "Yalan deyib, qeybət etmə, rəhmin gəlsin canına" – deyərək, yalançıları, şər-böhtan söyləyənləri belə bir dəhşətli gün gözlədiyini onlara əvvəlcədən xatırlatmışdır. Aşığın: "Danışanda doğru danış, sözün çıxmasın qələt" misrasından isə belə bir nəticə əldə olunur ki, söhbət eləyən hər bir kəs deyəcəyi sözü ölçüb-biçməli, onun doğru fikrinin içində bircə yalan söz və ifadə olmamalıdır.

Əgər birisi söhbət zamanı çox danışırsa, boşboğazlıq edirsə, dinləyici onu eşitmək istəmir; arabir "hə" deyirsə də, onun nə söylədiyinə fikir vermir. Odur ki, böyük söz ustadı çox danışan belə çərənçilərə üz tutaraq:

**Əyləşəndə ağır əyləş, danışanda, az danış,**
**Eşidənlər "əhsən!" desin, sənə hər yandan, gəda!**

– deyir. Aşığın bu tövsiyəsi az danışmağın gözəlliyindən xüsusi olaraq bəhs edən Nizaminin, "Gər çox istərsən, Füzuli, izzətin, az et sözü" deyən Füzulinin fikirləri ilə səsləşir.

Az danışmaqla məsələ bitmir; az danışmaq o zaman gözəl olur ki, qiymətli fikir söyləyəsən. Xalq ifadəsi ilə desək, "danışanın ağzından dürr tökülməlidir". Aşığın: "Gələndə ustad kəlamı, köhnə yaram qan verir", –

deməsini təsadüfi hal hesab eləmək olmaz. "Ustad kəlamları" çox yığcam, lakonik şəkildə söylənmiş olan öyüd-nəsihətlərin ifadəsidir. Aşıq olmaq fikrinə düşənlərə məşhur "Gərəkdi" rədifli qoşmasında bir sıra faydalı məsləhətlər verən ustad onlardan həm də "xalqa həqiqətdən mətləb" qandırmalarını, "danışdığı sözün qiymətini" bilmələrini, hər bir "kəlməsindən ləlü-gövhər" süzülməsini tələb edirdi.

Aşıq Ələsgərin var-dövlətə münasibəti də onun yaradıcılığında özünün bədii əksini tapmışdır. Onun gözü-könlü tox olmuş, çox var toplamamış, heç toplamaq fikrinə də düşməmişdir:

**Mən Allahdan istəmirəm, çox dövlətim, malım ola,**
**Bir babatca güzəranım, dolanmağa halım ola.**

"Babatca güzəran"la kifayətlənən Ələsgər çox var toplamağın əleyhinə də çıxmır. Bir şərtlə ki, var-dövlət halal maya, halal zəhmətlə qazanılmış olsun. Həm də yığılmış olan mal-dövlətdən xalqın rifahı naminə xeyriyyəçilik tədbirlərində istifadə olunsun; kasıblara, əlillərə, çörəyə ehtiyacı olanlara kömək edilsin. Başqa sözlə desək, var-dövlət sahibinin həm də böyük səxası olsun.

Səxavətlilik insanın ən nəcib məziyyətlərindəndir. Ata-babalarımızın dediyi kimi, uzun müddət ibadətlə məşğul olub qazanılan savabdan səxavət göstərməklə qazanılan savab daha üstündür. Aşıq bu fikri belə ifadə eləmişdir:

**İbadət eyləyən mömin sayılı,**
**Səxavətin ondan çoxdur savabı.**

Böyük sənətkar təriflədiyi mərd igidlərdə özünü qabarıq şəkildə göstərən bu xüsusiyyəti qeyd eləməyi də yaddan çıxarmamışdır. Göyçə mahalında öz igidliyi ilə ad-san qazanan, "Dost yolunda başın qoyub, düşməninin canın üzən" İsgəndəri ona görə vəsf edir ki, o həm də "Yoxsulların əlin tutan, ac doyuran, əysik düzən"dir. Dəli Alını çox böyük ilhamla tərifləyən aşıq onun dağlarda neçə-neçə zəlil və müztər saxladığını təqdir edir. O, igiddir, dövlətlidir, cah-cəlallıdır, həm də "Hatəm səxalı söylənir".

Aşıq Ələsgər böyük bir nasehdir. Onun yaradıcılığının əksər hissəsi oxucuya (dinləyiciyə) tərbiyəvi fikirlər aşılayır; neçə-neçə bəndi, onlarla

beyti və misrası xalqın dilində atalar sözləri və zərb-məsəl hüququ qazanmışdır! “Qarı düşman bir də gəlib dost olmaz”, “Haqdan yanan çıraq bad ilə sönməz”, “Toxunarsa ayna daşa, dayanmaz”, “Öldürsən zənburu, əl çəkməz şandan”, “Tərəqqidən təvəllüddü tənəzzül”, “Haqq-nahaq seçilər Haqq divanında”, “Dövlətdən qismətin beş arşın ağdı”, “Can” deməklə candan can əysik olmaz”, “Qaytarmazlar pirə gələn qurbanı”, “Qiyamət odundan pisdi tənə söz”, “Dost uzaq olmaqla könül yad olmaz”, “Muşlar pələng olmaz, tülkülər aslan”, “Dərd tüğyan eləsə, mey içmək olar”, “Yüz il keçsə, qohum sənlə yad olmaz”, “Sayğısız iyidi düşman aldadar”, “Kişi gərək dediyindən dönməsin”, “Qonşuya kəc baxan özü ac olu”, “Güzəran xoş olub, gün xoş keçəndə; Ağ otaqdan tövləxana yaxşıdır” və s.

Aşıq Ələsgər yaradıcılığında təhlilə layiq məziyyətlər çoxdur. Burada onların hamısı barədə söhbət açmaq imkan xaricindədir.

**İslam ƏLƏSGƏR**

# MÜQƏDDƏS POEZİYA DƏRSLƏRİ

Dədə Ələsgər poeziyasının mənasına varanda bu poeziyanın mayasında İlahi eşqin durduğunu, insan həyatının əzəli və əbədi həqiqətlərinin ecazkar sənət qüdrəti ilə tərənnümünü görürük. Bu poeziyada həqiqətə, insaniyyətə, məhəbbətə, gözəlliyə sönməz məhəbbət alovlanır, insanı təpədən-dırnağa bürüyür, onda işıqlı, müqəddəs duyğular yaradır. Bəli, bu, müqəddəs poeziyadır! Bu müqəddəsliyi ta ulu ozanımız Dədə Qorquddan üzü bəri Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Ağ Aşıq*, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn kimi azman sənətkarlarımız, klassik şairlərimiz yaşatmış, nəhayət, Dədə Ələsgər ülvi ideyalarla yüklü "şeirin ən gözəl incilərini yaratmış" (Xalq şairi O.Sarıvəlli), müqəddəs "sözün qüdrətini ən uca nöqtəyə qaldırıb, oradan əsrinə baxmış; dağ küləyi kimi zamanın təbiətini darayıb keçmiş, dağ çayı kimi onu doğram-doğram eləmiş; bahar buludu kimi onun yamaclarına söz yağışı ələmişdir" (Xalq şairi M.Araz). Dünyanın böyük sənətkarları içərisində həm də əzəmətli şəxsiyyəti ilə seçilən, övliyalıq ruhu daşıyan, "Meyli saat kimi Haqqa dolanan", "pürkamal", "Mərifət elmində dolu" olan Dədə Ələsgərin həqiqət dərsləri təkcə bizə deyil, bu gün mənəvi böhran içində vurnuxan insanlığa hava və su kimi gərəkdir. Belə dərslər verməyə, əlbəttə, eşq camı içənin, "Şahi-Mərdan (Həzrət Əli – F.R.) sayəsində elm içində ümmanam" – deyənin haqqı çatır. Dədə Ələsgər mürşidi, piri Həzrət Əlidən (ə) qeybi dərs aldığını dəfələrlə bildirib:

**Oxuram "İnna fətəhna", mətləb allam yuxuda,**
**Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.**

Qurani-Kərimin "Fəth" surəsi "İnna fətəhna" ilə başlayır ("Həqiqətən, Biz sənə zəfər – aşkar bir zəfər bəxş etdik"). Ariflər onu mənəvi fəthlərə (zəfərlərə), mənəvi kamilliyə yetişmək üçün oxuyurlar. Göründüyü kimi, Quranı əzbər bilən ustadın hər elmdən halı olmasının və həqiqət dərsinə yiyələnməyinin sirrini elə burada axtarmaq lazımdır. Əlbəttə, el arasında müqəddəs ocaq kimi tanınan Talıbxan nəslinin (bu nəslin kökü Şah Əbdül-

---

*Ağ Aşıq (Allahverdi) Göyçənin Kərkibaş kəndində yaşamışdır. O, Aşıq Alının (Göyçənin Qızılvəng kəndi) ustadıdır. Aşıq Ələsgər isə Aşıq Alının sənət varisidir.

əzimə gedib çıxır) halallığı, paklığı olmasaydı, Ələsgər kimi övliya da yetişib həqiqət yolçusu ola bilməzdi. Ustadın anası Pərizad Abbas qızının mənsub olduğu şahzadəlilər (şahzədələr) tayfası da Göyçə mahalının Qamışlı bulaq (sonralar Zərzibil – Zərkənd) kəndində seçilən tayfalardan olub. Pərizad xanımın altı qardaşından biri Molla Əhməd tanınmış din xadimi imiş. Beləliklə, iki tanınmış nəslin varisiydi Ələsgər.

"Həqiqətdən mətləb qandırmaq" missiyası ilə müqəddəs bir yola çıxan Dədə Ələsgər təkcə xalqını deyil, bütün bəşəriyyəti haqqa, ədalətə, insanlığa səsləyir. Çağdaş dünyamızda Dədə öyüdlərinə, Dədə dərslərinə daha çox tamarzıyıq.

**Mərifət dərsi**. Ustad heç də bəzi tədqiqatçıların yazdığı kimi, sufi deyil, heç bir təriqətə, o cümlədən əhli-həqq təriqətinə mənsub deyil. O da Füzuli, Hafiz kimi irfan, eşq, mərifət əhlidir.

Biz gərək islam irfanı ilə sufizmin sərhədlərini dəqiq müəyyən edək. İrfan – Quran, Peyğəmbər (ə) və Əhli-beytinin (ə) buyruqları və həyat tərzini izləməkdən ibarətdir. Bu yolu izləyənlər ariflərdir. Sufizm isə çoxşaxəli bir cərəyandır. Elə sufi təriqətləri var ki, islam şəriətinə əməl etmirlər, yaxud müəyyən məqama çatdıqdan sonra ona biganə yanaşırlar. Hər sufi arif, hər arif sufi deyil. Həqiqi irfan (Allahı tanımaq, Ona qovuşmaq) yolçusu, irfan mərhələlərini – şəriəti, təriqəti, mərifəti, həqiqəti bir-birindən ayırmır. O, şəriət hökmlərinə əməl edərək qəlbini elə arındırır ki, onun aynasında Haqqın sifətlərini müşahidə məqamına – mərifətə yüksəlir. Nəhayət, elə bir ucalığa yetişir ki, öz vücudunu Haqqın vücudunda yox sanır. Bu isə Haqqa qovuşma, həqiqətə çatmaq məqamıdır (fəna). Dədə Ələsgər eşq şərbətini hələ Ələst (ruhlar) aləmində içənlərdəndir:

**İbtida "Əlif"dən dərsim almışam,**
**Ələst aləmində demişəm "bəli".**

Qurani-Kərimin "Əraf" surəsinin 172-ci ayəsində deyilir: "Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər: – "Bəli". Şəhadət veririk". Bu ayə Rəbbimizin Ələst aləmində ruhlardan aldığı əhdə işarə edir. Bu aləmdə əhdinə sadiq arif daim Haqqa qovuşma həsrəti ilə yaşayır. Dünyanın maddi reallığı arifin hicran – ayrılıq əzabına səbəb olur:

**Qəddim əyib qəm xirqəsin geyirəm,**
**Məhəbbət odundan təam yeyirəm.**

**Leyli-nəhar "ya Hu!", "ya Hu!" – deyirəm,**
**Çıxıbdı qəlbimdən ibadət eylə.**

Aşiqin qəlbinə elə bir eşq odu düşüb ki, səhər-axşam "ya Hu!" – deyir. "Hu", yaxud "Huvə" ərəbcə "O" deməkdir. "İxlas" surəsində buyrulur: "De ki, O, təkdir". "Ha" hərfi Allahın müqəddəs vücuduna, "vav" isə bu vücudun əzəmətinə, gizli olmasına dəlalət edir. Aşiq başa düşür ki, bu dünyada eşq atəşinə çarə yoxdur: "Eşq atəşinə heç olmaz çara", "Mən fağırı qəm ataşı yandırır", "Ayaq oda yanmır, başı yandırır". Sonuncu misrada məna belədir: ayaq (qədim dilimizdə qədəh mənasındadır) odda – eşq şərabında yanmır; bu şərab başı isə yandırıb-yaxır.

Fəlsəfi-irfani məzmunlu "İstər" qəzəlində də aşiqin nalələrini görürük:

**Ələsgər zari-dil-xəstə deyər: – Sərvi-xuramanım,**
**Mənim bu natəvan könlüm səni aşüftəhal istər.**

"Zari-dil" – İlahiyə qovuşmaq həsrəti ilə nalələr çəkən dil (qəlb), "xəstə" – İlahi ilə özü arasında olan pərdələri götürmüş aşiq, "Sərvi-xuraman" isə aşiqi qərarsız edən canandır (İlahidir). "Aşüftəhal"ın həm pərişan, həm də məftuncasına mənaları vardır. Təbii ki, aşiqin könlü ayrılıq həsrətindən pərişan olsa da, öz yarının məftunudur. Aşiqin ayrılıq dərdinə dərman nazlı yarın dəridir (qapısıdır):

**Qul olasan, qalasan,**
**Nazlı yarın dərində.**

"Üzhaüz" təcnisində aydın görünür ki, bu misralar məhz irfani məzmun daşıyır. Ustadın "Mərifət bəhrində qəvvasam – deyən", "Qəvvas olan gedər gəzər dərində" misraları bu deyilənləri təsdiq edir. Ariflər Haqqın camalının qəlbdə müşahidə məqamına "yar" deyiblər. Deməli, aşiqin dərdinin dərmanı Haqqın qapısında qul olmaqdır, canını ona təslim etməkdir.

Dədə Ələsgər poeziyasında dərviş, eşq, arif, həqiqət, dəli, pir, mey, badə, sağər, tərsa, kuy, dər kimi deyimlər irfani məzmun daşıyır. "Ələsgərəm, mən də içdim bada hey", "Ələsgər Kövsərdən badə içəndə" misralarının irfani mənası anlaşılsa da, aşağıdakı misralar düzgün mənalandırılmamışdır:

**Haqq meyi islama haram buyurub,**
**Dərd tüğyan eyləsə, mey içmək olar.**

Məlumdur ki, ustad digər bir şeirində şərab içənlərin aqibətinin od olacağını bildirib:

**Şeyitbazlıq edib şərab içənlər**
**Canını odlara saldı da getdi.**

Yuxarıdakı misraların mənası belədir: islam ağlı aparan meyi haram, amma insanı Haqqa bağlayan, özünü də unutduran meyi (eşq meyini) halal buyurub. Eşq meyindən qəlbə İlahi nur axır. Bu, hər cür dərdin dərmanıdır.

Çağdaş dönəmimizdə insan ağlı texniki tərəqqiyə təkan versə də, mənfəətpərəstliyə, əyləncəyə, zorakılığa, düşmənçiliyə yönəldi; eşq və mərifət yolundan uzaqlaşdı. Mənəviyyatsız, ruhsuz elm Yer kürəsini uçurum qarşısında qoymuşdur. Bəşərin xilası yenidən insan, varlıq və Allah haqqında mənəvi-ruhi təlimlərə qayıdışındadır. Ağlın vəzifəsi özünü, kainatı dərk edib Yaradıcını tanımaqdır. Bütün elmlər mərifətullaha – Allahı tanımağa gedən yol olmalıdır. Bu yol insana, varlığa sevgidən keçir. Varlığa sevgisi olmayanlar Allahı da sevməz. "Həm aşığam, həm dərvişəm, həm dəli" – deyən Dədə Ələsgər insanları könlünün eşq çeşməsindən sirab olmağa dəvət edir:

**Sinəmdədi eşqin şirin çeşməsi,**
**Ləzzəti meyl edib, ay əməndədi.**

Ustad deyir: – Könlümdəki eşq çeşməsindən iç ki, sən də eşqdən sərxoş olasan. Bütün nəfsi istəklərə "yox" deyəsən. Bütün dərdlərimizin yeganə dərmanı İlahi eşqə tapınmaqdır! Əgər bu gün sivilizasiyamızı xilas etmək istəyiriksə, ağıl-qəlb (eşq), ağıl-vicdan qarşıdurmasından əl çəkməli, Dədə Ələsgər kimi övliyaların sənət və mərifət dünyasından bəhrələnib onların vəhdətinə gəlməliyik.

**Həyat fəlsəfəsi dərsi**. Ustad həyat həqiqətlərini sadə, dərin mənalı misralarda elə incələyir ki, heyrətlənməyə bilmirsən:

**Ələsgər, axtarma qüdrətin sirrin,**
**Zülmətə işıq var, acıya – şirin.**

Bu misralar İlahi hikməti açıqlayır: dünya ikili əsasda, təbiətən zidd şeylərin vəhdətində yaradılıb. Hər şey öz ziddiylə tanınır. Şirinin nə olduğunu acıyla bilirik (eləcə də əksinə). Zülmətin bağrından işıq çıxır, işıq çəkiləndə zülmət olur. Təbiətdə zil qaranlıq sübhə yaxın olduğu kimi, insan həyatında da acılı günləri şirin günlər əvəz edir (Sınaqlar ruhun kamilləşməsinə xidmət edir). Sınaqlara dözüm tələb edən səbir özü də acıdır, ancaq meyvəsi şirindir – məqsədə çatdırır. Məqsədimiz isə Dosta qovuşmaqdır.

Mütəfəkkir bütün zəka sahiblərini düşündürən məsələdən – varlığın yaranış fəlsəfəsindən yan keçə bilməzdi:

**Yerin, göyün, ərşin, kürsün, insanın,**
**Künhü, bünövrəsi ay nədən oldu?**
**Yeri göydən, göyü yerdən kim seçdi?**
**Hikmətin dəryası ay nədən oldu?**

Ustad "Danışaq" bağlamasının "Nuri-Əhməd yaranandan danışaq" misrasında varlığın həqiqətinə işarə edir. Əzəli varlıq Uca Allahın zatının təcəllisindən ilk dəfə "Nuri-Əhməd" (Həzrət Məhəmmədin nuru və ya həqiqəti) yaranıb və bu nur bütün yaradılışın (ərşin, kürsün və s.) əsası, bünövrəsi olub. Rəsuli-Əkrəm (ə) buyurmuşdur: "Allahın yaratdığı ilk məxluq mənim nurum olmuşdur". Varlığın yaranmasında bu nurun səbəb olması aşağıdakı qüdsi hədisdə də əksini tapmışdır: "Sən olmasaydın, Biz fələkləri yaratmazdıq". Üçüncü misranın izahı "Ənbiya" surəsinin 30-cu ayəsinə əsaslanır: "...göylər və yer bir-birinə bitişik idilər və biz onları parçalayaraq bir-birindən ayırdıq". Bu, müasir kosmologiya elmində də təsdiq olunur. Sonuncu sualın cavabını da Allah Kəlamında tapırıq: "Məgər Biz sənin sinəni genişləndirmədikmi?" ("Şərh" surəsinin 1-ci ayəsi).

Məlumdur ki, Allah Peyğəmbərin (ə) qəlbini genişləndirmiş, onun tutumunu artırmışdır. Çünki vəhy almaq, onu bəşəriyyətə çatdırmaq, elm və hikməti bilmək, insanlara rəhbərlik etmək böyük qəlb tutumu, böyük səbir və dözüm tələb edir. Hədisdə də deyildiyi kimi, Peyğəmbər (ə) elm və hikmət şəhəridir. Deməli, elm və hikmət dəryasıdır.

Dədə Ələsgər sənətinə Xalq şairi B.Vahabzadənin verdiyi dəyər lap yerindədir: "Uşaqlıqda onun şeirlərindəki doğmalığa, təmizliyə, nəğməyə vurulmuşdumsa, indi onun hikmətinə, dərinliyinə səcdə edirəm".

**Əxlaq dərsi**. Sənətkarın ustadnamələrindən tutmuş təcnislərinə qədər bir çox şeirlərindən əxlaq fəlsəfəsi qırmızı xətt kimi keçir. Əxlaqın saflaşmasında birinci yerə nəfsin islahını qoyan ustad, qafil olmamağa, aqibəti düşünməyə səsləyir. "Eyləməynən" qoşmasında nəfs-mərifət qarşıdurması çox ibrətamizdir. İçimizdəki nəfs adlı əjdaha ram olmasa, nəfsin şəhvət (tamah), qəzəb qüvvələri ağıla tabe olmasa, necə insan ola bilərik? Həzrət Əli (ə) buyurduğu kimi, "insan nəfsini islah etmədikcə ağıldan bəhrə götürə bilməz". Nəfsin qoşunu şeytan qoşunu ilə əl-ələ verib ağıl nurunu söndürməyə qadirdir. Buna görə də dinimizdə nəfslə mübarizə böyük cihad hesab olunur:

**Nəfs ilə mərifət durub cahada,**
**Mərfət deyir: – Belə kar eyləməynən!**
**Nəfs deyir: – Baxma naqqal sözünə,**
**Xeyrin gələn yerdə ar eyləməynən!**

Ustad nəfsi yenmək yolunu açıqlayır:

**Oruc tut, namaz qıl, eylə ibadət,**
**Mehdi divanında olma xəcalət.**

Nəfsi cilovlamaq üçün imandan güc al, Haqqa sığın!

İnsanın eşq yolu əvəzinə nəfs yolunu tutmasının səbəbi özündən xəbərsizliyi, həyatının mənasını, hədəfini bilməməsidir:

**Aldanıbsan nəfsə, tapıbsan həva,**
**Dərk eləyib, qanmayıbsan hesabı.**

İslam əxlaq fəlsəfəsində nəfs qüvvələrinin ağıla tabe olması, hər qüvvənin öz yerini bilməsi ədalət adlanır. İçimizdə ədalət, tarazlıq olsa, dışımızda da, dünyada da ədalət və tarazlıq olacaqdır. Bütün yaramazlıqlar nəfsdən qaynaqlanmırmı?

Ustadın ustadnamələrinin yüksək əxlaqi-mənəvi tutumu var. Burada əxlaqi anlayışların əksliklər müqayisəsində mahiyyəti açılır:

**Bir mərd ilə ağı yesən, şirindi,**
**Yüz namərdlə şəkər yesən, dad olmaz.**

Ustadın əxlaq fəlsəfəsində mərdlik, igidlik, fədakarlıq, vəfa, ilqar,

qeyrət, düzgünlük, təvazökarlıq, canıyananlıq, səxavət və s. kimi əxlaqi dəyərlər yüksək poetik dillə ifadə olunmuşdur. Bu isə geniş tədqiqat mövzusudur. Dədə Ələsgər şəxsiyyətin yetişməsində çox mühüm amilləri nişan verir ki, bu gün onların nəzərə alınmaması böyük fəsadlar törədir:

**Loğmadan kəc olan, nütfədən əyri,**
**Yüz dərs alsa, pürkamala yetişməz.**

Zinadan törəyənlər, haram yeyənlər, bir sözlə, mayaları haramdan tutulanlar bəşəriyyətə həmişə bəlalar gətirmiş, haqqa qənim kəsilmişlər.

Mərifətə, kamala yol halallıqdan keçir – budur Dədə Ələsgər öyüdü!

**Kəramət dərsi**. Dədə Ələsgərin kəramətləri bizə öyrədir ki, bəndə Haqqa itaət etməklə hansı ruhi-mənəvi ucalıqlara yüksələ bilər (Əlbəttə, son məqsəd Haqqa qovuşmaqdır) :

**Hər yanı istəsə baxanda görə,**
**Təriqətdə bu sevdalı gərəkdi.**

Dədə Ələsgərin diləyi tutulur: xəstəni bir dua ilə sağaldır, övlad həsrətli insanlar haqqında duaları qəbul olunur, fikirdən keçənləri oxuyur, kənardakı hadisələrdən xəbər verir, öz vəfat gününü əvvəlcədən söyləyir, işi çətinə düşənlərin yuxusuna girib, onlara çıxış yolu göstərir, yola düşən ağır bir daşı namaz qılıb qeybi kömək almaqla kənara atır və s. Bu kimi kəramətlər şahidlərin təsdiq etdikləridir.

İbn Sina "İşarət və tənbihat" kitabında arifləri nəzərdə tutaraq yazır: "Nail olduqları bu mənəvi məqamlar səbəbiylə onların iki cür işləri olar; biri onların batinlərində qərar tapan gizli və sirli, digəri isə onlardan zahir olan aşkar işlərdir". Filosof "zahir olan aşkar işlər" – dedikdə kəramətləri nəzərdə tutur. Arif ruhunu saflaşdırdıqda bu ruhda İlahi sifətlər qərar tapmağa başlayır və ondan qeyri-adi işlər aşkar olur. O, dalğıc kimi mərifət dənizinə baş vurub Haqqa qovuşma yolunda mənəvi həqiqətlər – gövhərlər ələ gətirməyə başlayır. Aşağıdakı misraların batini mənası buna işarədir:

**Gövhər olar dəryalarda – dərində,**
**Onu qəvvas çəkər ay üzə tək-tək.**

Övliyanın ruhu bu dünyanın çərçivəsindən çıxır, "ordan gələn olmayıb" düşüncəsini sındırır, axirətə – digər bir real aləmə baş vurur və bizlə-

rə ruhsal dərs verir:

**Neçə sirri gördüm, sir qaldım aşkar,**
**Səxavət əhlini yandırmadı nar.**
**Salavatnan işlər hər dükan-bazar,**
**Zay oldu dünyanın malı qabaqda.**

**Məhəbbət dərsi**. Məhəbbət lirikasının şah əsərlərini yaradan ustad saf məhəbbəti, aşiqin iztirablarını, həyəcanlarını təsvir etməklə kifayətlənmir, öz canını da bu məhəbbət yolunda qurban verməyə hazır olduğunu bəyan edir:

**Öldürsələr, qorxum yoxdu qanımdan,**
**Yolunda keçmişəm başu-canımdan.**

Öz əhdinə vəfalılıq, əhdi yolunda fədakarlıq dərsi verir sevənlərə Dədə Ələsgər.

**Gözəllik dərsi**. "Ay qabaqlı", "qələm qaşlı" gözəlləri vəsf edən sənətkar onlarda mərifət, qanacaq, həyanı önə çəkir:

**Eşit bu sözləri, saxla yadigar:**
**Gözəllərdə həya, iyidlərdə ar.**

Həyasız gözəl duzsuz xörək kimidir, – demişlər. Həzrət Əlinin (ə) bu kəlamı yada düşür: "Gözəl insanlar həmişə yaxşı olmurlar, amma yaxşı insanlar həmişə gözəl olurlar". Yəni qəlbi gözəl həmişə gözəldir. Ələsgər gözəllərinin başında həqiqət gözəlləri gəlir:

**Həqiqətdən iki gözəl sevmişəm,**
**Birisi Məhəmməd, birisi Əli.**

Və yaxud:

**Fatimeyi-Zəhra – şafeyi-məhşər,**
**Onu seçdim gözəllərin gözəli.**

Sənətkar: "Canım gözəllərin yol qurbanıdı" – dedikdə məhz hidayət nurlarının, hidayət çıraqlarının – on dörd məsumun yolunda canını fəda etməyə hazır olduğunu bildirir. "Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yü-

küm" kimi misralarda Əhli-beytin mənəvi gözəlliklərini sonsuz məhəbbətlə tərənnüm edir.

Gözəlin vəsfində qeyri-adi bənzətmələrdən birinə nəzər yetirək:

**Həcər xanım, qaşın, gözün təhrində**
**Xətt yazsam, Quranda ayə düşərmi?!**
**Götürsən niqabı mah camalından,**
**Hüsnün nuri-təcəllaya düşərmi?!**

Yeri gəlmişkən, 2-ci misra 1937-ci il nəşrində "Xətt yazsam, kağızda ayə düşərmi?!" şəklinə salınaraq məna təhrifinə yol verilmişdir. Mətləb isə budur: Həcər xanım, qaşın, gözün təhrində (oxşarında, bənzərində) xətt yazsam, Qurandakı ayə alınarmı? Ulu Nəqqaş insanı elə naxışlarla, cizgilərlə bəzəmişdir ki, oxuyan gərəkdir. Klassik ədəbiyyatda bu cizgilər ərəb əlifbasının hərflərinə bənzədilmişdir. Məlumdur ki, qaş "nun" hərfinə (ن), göz "sad" hərfinə (ص) oxşayır. Qurani-Kərimin "Sad" surəsi "sad" hərfi ilə, "Nun" surəsi "nun" hərfi ilə başlayır. Bu hərflərin hər biri ayrılıqda bir Quran ayəsi (dəlil, nişanə deməkdir) hesab olunur. Deməli, qaş, göz təhrində xətlər çəkilsə, Qurandakı "Sad", "Nun" ayələrini almış oluruq. Əgər gözəlin qaş-göz cizgilərini ayrı-ayrı deyil, bütövlükdə götürsək, "qaf" hərfinin tərsinə yazılışına bənzəmirmi? Qaf – (ق). Quranın "Qaf" surəsinin də birinci ayəsi "Qaf"dır. Digər misraların mənası isə vəhdəti-vücud təlimindən qaynaqlanır. İrfan əhlinə (ariflərə) görə, varlıqda hər şey Mütləq Gözəlin ad və sifətlərinin təcəllisidir (təzahürüdür). Dədə Ələsgər də Həcər xanımın ay camalını Mütləq Gözəlin camal sifətinin təcəlla nuru hesab edir.

**Haqqpərəstlik dərsi**. Dədə Ələsgər yaradıcılığı ictimai-siyasi həyatın, zamanın aynasıdır. O, həyatın hər üzünü nəzmə çəkib; xalqının da, dünya insanlarının da halı nəzərindən yayınmayıb. Haqqı-həqiqəti çəkinmədən söyləyib:

**Sözlərimin bir parasın saxlamışam, xəlvətdədi,**
**Zamana müxənnət olub, sur indi müxənnətdədi,**
**Bir az namus gözləyənin axır boynu kəmənddədi,**
**Dünyada "iyidəm" deyən, ölüb, ya qəzəmətdədi,**
**Bu dünyanın ləzzətini, bilin, biqıryat aparar.**

Xalqın müdrik ağsaqqalı el dərdini öz dərdi bilir, könlü odlanır bundan:

**Ələsgərəm, öz dərdimdən düşməmişəm bu bəhsə,**
**Yoxsulların günün gördüm, ah çəkib batdım yasa.**

**Psixologiya dərsi**. Böyük kəramətlər sahibi, qəlblərdən keçəni oxuyan ustad könül yaşantılarını elə zərifliklə, incəliklə verir ki, duyğulanmaya bilmirsən. Könüllərdəki sızıltıların duruşlarda təzahürü onu pərişan edir:

**Sən də yardan yaralısan,**
**Duruşundan qanıram mən.**

Məşhur "Düşdü" qoşmasındakı psixoloji mənzərə aşiqin ümid və məyusluğu, duyğu zərifliyi haqqında deyilən yüksək sənətkarlıq nümunəsidir.

"Dağladın sinəmi güləndə, yazıq!" ("Yazıq" qoşmasında) misrasında bir qəmli könülün qəmli gülüşündən sinəsi dağlanan şairin dərin psixoloji sarsıntısını görürük.

İnsanlar arasında münasibətlərin incə düsturunu verir Dədə Ələsgər: "Can" deməklə candan can əysik olmaz". Bəli, mehribanlıq, dilişirinlik kimi əfsun tapılmaz, bu əfsun məhəbbət yaradar.

**Təbiətşünaslıq dərsi.** Bu poeziyada çayın şırıltısını, çeşmənin zümzüməsini, çəmənin, dağın ətrini duyuruq. Ustad təbiətin ruhunu duyur, təbiətlə onun dilində danışır, onu şəxsləndirir, onun canlı obrazını yaradır: "Ağ xələt bürünər, zərnişan geyməz", "Ölsün Ələsgərtək qulların, dağlar", "Niyə pərişandı halların, dağlar?!", "Küsüb qonağın, Şah dağı" və s. "Əşyaların da ruhu var" – deyən Markesdən qabaq Dədə Ələsgər qozqara kötüyünü belə danışdırmışdır. Bu gün təbiət bizdən imdad diləmirmi? Ustadın təbiət dərsini dönə-dönə öyrənməli deyilikmi?

**Etnoqrafiya dərsi**. Ustadın irsi xalq adət-ənənələrinin, geyim tərzinin, məişətinin zəngin təsviriylə doludur. "Güləbatın qıyı tər sinən üstə", "Heratı kəlağay şala yaraşır", "Vəsməni yaxıb qaşına", "Alaçıq qurulcaq kəsər qurbanı" və s. təsvirlər o zamankı xalq həyatının real güzgüsüdür.

**Rəssamlıq dərsi**. Dədə Ələsgərin tərənnüm etdiyi nə varsa, elə bil ki, rəssam fırçasından çıxıb. Onun hər bir nəqşi yerli-yerindədir:

**Ləb qönçə, diş inci, yanağın lala,**
**Çəkilib qaşların yay, Sarıköynək.**

Sənətkarın böyük qüdrətlə yaratdığı "insan portretləri, təbiət mənzərə-

ləri sözlə rəsm olunmuş elə lövhələrdir ki, hünər istəyir ki, rənglə belə isti, alovlu, lakonik verə biləsən". Xalq rəssamı Mikayıl Abdullayevi heyrətləndirən təkcə sözlə nəqş çəkmək qüdrəti deyil, həm də sözün rəngini, hətta rəng çalarlarını görmək hünəridir: "Aşıq Ələsgər rəssam olub; o, bir sözün yüz rəng çalarını tapıb". Rəngi görə bilməyən rəssam ola bilmədiyi kimi, sözü görüb duymayan, sözü eşitməyən də böyük söz sərrafı ola bilməz. "Can" desin" şeirində "can" kəlməsini doqquz, "Kəsildi" şeirində "kəsildi" ifadəsini yeddi məna çalarında işlətmək, əlbəttə, söz sərrafının işidir.

**Bəstəkarlıq dərsi**. Ustadın şeirləri gözəl musiqi əsərləri kimi səslənir. Lirik şeirlərinin bir çoxuna musiqi bəstələnmişdir. Bunun sirri ondadır ki, şeirlərin məzmunu, mənası sözlərin ahəngi, musiqisi ilə səsləşir. "Can" deməklə candan can əysik olmaz" misrasında "c" səsinin, "Çal çəngəlin, çək ciyərin çataçat" misrasında "ç" səsinin, "Narın çalxan, narın silkin, narın üz" misrasında "n" səsinin təkrarı ilə xüsusi bir musiqi yaradılır.

Ustadın şeirlərində insan ruhunun müəyyən halları sözlərin musiqisi, ahəngində elə əks olunur ki, bu, şeirin gözəlliyini qat-qat artırır:

**Dəli könül dərya təki çalxanır,**
**Qeyzə gəlir xoş ahəngi qıjhaqıj.**

Burada könül təlatümü, coşğunluğu oxucunu da sarır. Xalq artisti Tofiq Quliyev demişdir: "Aşıq Ələsgər təkcə ədəbiyyatımızın yox, incəsənətimizin də xəzinəsində qiymətli incidir. O, həm də ən gözəl ifaçı olub. O, hələ çox şairin, çox bəstəkarın ustadı olacaqdır".

**Tarix dərsi**. Ustadın şeirləri həm də tariximizə güzgü tutur. O, çarizmə qarşı qaçaqçılıq hərəkatını alqışlayır və hətta şəyirdlərinə Dəli Alı və silahdaşlarına qoşduğu şeirləri hər yana yaymağı tapşırır. Bu şeirlərdə Dəli Alı silahdaşlarının adları, şəxsi keyfiyyətləri haqqında kifayət qədər məlumatlar var. Ümumiyyətlə, bu poeziya dövrü əks etdirən təsvirlərlə zəngindir.

**Dil dərsi**. Dədə Ələsgər sözümüzün bədii biçiminə ecazkar gözəllik gətirmişdir: "Hələ bədii sözlə onun kimi məharətlə, böyük zövqlə və incəliklə naxış vuran olmayıb" *(Xalq yazıçısı Mirzə İbrahimov).*

Dədə Ələsgər sözün dərin laylarına, qatlarına enməkdə, bir sözün neçə-neçə mənasını üzə çıxarmaqda, yeni deyimlər, yeni məcazlar, yeni aforizmlər yaratmaqda misilsiz sənətkardır. Ələsgər poeziyası səs düzümünün yaratdığı ahəngdarlıq, musiqililik baxımından da bənzərsizdir. Bir

sözlə, Dədə Ələsgər poeziyası dilimizin qüdrətini, əzəmətini göstərən bir aynadır. Aşağıdakı misralar artıq aforizm kimi səslənir: "Hər könül özünə bir padişahdı", "İman durar düz ilqarın içində", "Yadın oğlu yağlı aşa mehmandı", "Görürsən ki, baxtın yatdı, sən də yat", "Torbakeşlər tənə qılır peşəngə". Axırıncı deyimin mənasına varaq: əvvəllər çobanlar qocalıb əldən düşmüş heyvanların boğazından çörək torbaları asırdılar ki, ac qalmasınlar. Belə heyvanlar torbakeşlər (torbadaşıyanlar) adlanırdı. Məlumdur ki, sürünü çəkən təkəyə peşəng deyirdilər (yəni qabaqda gedən). Əgər həyatımıza tətbiq etsək, "özü yedəkdə gedən aciz insan yol göstərənə tənə edir" mənasını almış olarıq.

Dədə Ələsgər irsinin tədqiqi, nəşri ciddi məsuliyyət tələb edir. Ustadın şeirləri yaddaşlarda yaşayaraq bu günə çatdığına görə, onların əksəriyyətinin müxtəlif variantları meydana çıxmışdır. Eyni zamanda, bu irsə aid olmayan bəzi şeirlər də Ələsgər yaradıcılığı kimi təqdim olunmuşdur. Sənətkarın qardaşı Şair (Çoban) Məhəmmədin şeirləri bu qəbildəndir. Həyatını babasının yaradıcılığına həsr etmiş folklorşünas-alim İslam Ələsgər 2009-cu ildə nəşr etdirdiyi "Çoban Məhəmməd" kitabında bu xətanı aradan qaldırmış və "Bu dağlar mənim", "Gördüm", "Sinəmdə var", "Yeddidi" qoşmalarını, "Yara yetirər", "Ay "sin"ə, "sin"ə", "Ayağa, ayağa" təcnislərini, "Artıqdı", "Birə", "Betər" müxəmməslərini bu kitaba daxil etmişdir ("Yara yetirər", "Sinəmdə var" şeirləri dastanların içində verilmişdir). Bu nəşri hazırlayanda "Çoban Məhəmməd" kitabını da nəzərə almışıq.

Yeri gəlmişkən, "Ürəyimdə" şeiri "Qurbani" kitabında (1990-cı il nəşri) Aşıq Qurbaninin adına verilmişdir. Halbuki, bu, Aşıq Talıbın da təsdiq etdiyi kimi, ustadın Kəlbəcərin Qamışlı kəndində bir toy məclisində dediyi dörd şeirdən biridir (Bax: "Aşığın şəyirdləri ilə söhbət" (Aşıq Ələsgər, 1999).

Bu nəşrdə əvvəlki kitablarda rast gəlinən bəzi şeirləri və ələsgərsevərlərdən yeni əldə etdiklərimizi **"Ustada aid edilən şeirlər"** bölməsində yerləşdirməyi münasib bildik. Aşağıdakı şeirlər isə ilk dəfədir ki, bu kitabda işıq üzü görür: "Dəyməyib", "Çəksən", "Qaçaqaç", "Məni" "Gəldi", "Sarı qız", "Sənəm, gəl", "Nə içindədi", "Üç mindi", "Qaşları cəlladdı", "Deməsin", "Qərəz", "Vermərəm səni", "Ruhan məclisində, ər meydanında", "Ya Əli", "Yan gedir", "Yek-yek" və s.

İslam Ələsgərin arxivindən tapılmış natamam şeirləri **"Yaddaşlarda**

**qalanlar”** başlığı altında təqdim etməyi məsləhət bildik.

**“Xatirələr”** bölməsinə Aşıq Şəmşirin ustad haqqında xatirəsini əlavə etdik.

Ustadın şeirlərinin ayrı-ayrı misralarının müxtəlif variantlarını saf-çürük edərək daha düzgün variantları müəyyənləşdirməyə çalışdıq. Onlardan bəzilərini istəkli oxucularımızın müzakirəsinə veririk. Digər düzəlişləri **“Qeydlər”** bölməsində yerləşdirdik.

“Ola bilməz” şeirinin son nəşrlərdə ilk misraları belədir:

**Sərraf yüz bəzəsə səngi-siyahı,**
**Əsli mütəlladı, ləl ola bilməz.**

İkinci misranın “Üzdən mütəlladı, ləl ola bilməz” variantı daha düzgündür. Qara daşın üzü mütəlladı (parlaqdır), zatında, əslində ləllik yoxdur. Onu sərraf yüz bəzəsə də ləl olmaz.

“Düşdü” qoşmasında bir misranın müxtəlif nəşr variantları vardır:

**“Gözəl, sən dərdlisən, mən yaralıyam”** (1937, 1963, 1988)

**“Dedim: – Sən təbibsən, mən yaralıyam”** (1972, 1999 və sonrakı nəşrlərdə) “Sən dərdlisən” ifadəsi şən əhvallı, “gözündən gülən” (göz dərdi gizlətməz), əhli-dil (qəlb əhli) gözələ qətiyyən uyuşmur. Əslində dərdli sənətkar özüdür: “İşarət eylədim, dərdimi bildi”. Əvvəl dərdi özünə, sonra gözələ aid edərək “dərd” sözünü təkrarlamaq şeirə qüsur deyilmi? “Gözəl, sən dərdlisən, mən yaralıyam” misrasıyla sonrakı “Dedi: – Nişanlıyam, özgə malıyam” misrası məntiqi cəhətdən səsləşmir. Ancaq “Dedim: – Sən təbibsən, mən yaralıyam” eyhamı, işarəsi aşiqin öz eşqini bildirməsini ifadə edir: mənim yaramın təbibi sənsən. Gözəl isə: “nişanlıyam” – deyib, qol-qanadını qırır. Kimsə deyə bilər ki, şair hər elmdən halı olduğuna görə onun məcburən nişanlanmasını, “özgə malı” olduğunu əvvəlcədən duyub və onu “dərdli” adlandırıb. Əgər bu belədirsə, niyə “nişanlıyam” cavabından qol-qanadı yanına düşməliydi? Yaxud gözəlin nişanlı olduğunu bilə-bilə ona niyə eşq elan etməliydi? Beləliklə, bu misranın son nəşr variantını saxladıq:

**Dedim: – Sən təbibsən, mən yaralıyam.**

“Güləndam” qoşmasının aşağıdakı misraları son nəşrlərdə belədir:

**Mənim gözüm sənin kimi yardadı,**

**Hər cəfası mana xoşdu, Güləndam.**

Əslində belə olmalıdır:

**Mənim gözüm qoynundakı nardadı,**
**Aşığa lütf etsən, xoşdu, Güləndam.**

"Ürəyimdə" şeirində I bəndin 3-cü misrası əksər nəşrlərdə "Həsrət çəkdin, ortalığa qan əkdin", 1963-cü il nəşrində isə "Həsrət çəkdim, ortalığa gül əkdim" şəklindədir. Bizcə, "ortalığa həsrət çəkdin, ortalığa qəm əkdin" mənasında olan "Həsrət çəkdin, ortalığa qəm əkdin" variantı düzgündür.

"Töküldü" qoşmasında aşağıdakı misrada "qabar" sözü "qubar"la əvəz edilməlidir:

**Köhnə yaralarım eylədi qabar.**

Misrada söhbət qəlb yaralarından gedir; bu yaralar isə qubar edər, qövr edər, yenidən yada düşər, sızladar, göynədər qəlbi.

"Döndü, nə döndü" şeirində bir misranın variantları:

**İqbalım idbara döndü, nə döndü!**
**İqbalım şikara döndü, nə döndü!**

I variant məqbuldur, çünki iqbal tale, idbar talesizlik, tale dönüklüyüdür. Beləliklə, məna belə olur: taleyim tərsinə döndü, dönük çıxdı. M.P.Vaqif də bu mənada işlədib: "Gecəki iqbalı gör, gündüzdəki idbarə bax".

"Eyləmişəm" qoşmasında aşağıdakı misra 1988-ci il nəşri istisna olmaqla, həmişə bu şəkildə verilmişdir:

**Hicranın qəmiylə kef eyləmişəm.**

Əslində, "Hicranın dəmiylə kef eyləmişəm" kimi olmalıdır. Əgər ustad bəndin sonunda "Qəm satıb, dərd alıb nəf eyləmişəm" – deyirsə, qəmlə yox (onu satıb), qəmdən daha ağır olan dərdlə – "hicran dərdinin dəmiylə kef eyləmişəm" fikrini çatdırır. Yəni hicranın (ayrılığın) nəfəsiylə, nəşəsiylə kef eyləmişəm.

Burada irfani məna gizlənir: yarından ayrı düşüb qəmlənsə də, İlahinin eşqi, ona qovuşmaq dərdinin nəşəsiylə kef eyləyir.

"Ha lala çıxar" təcnisinin son misrası "Beygirin dümbündən hal ala çıxar" yox, "Beygirin dümbündən halala çıxar" variantında olmalıdır. Yə-

ni beygirin (yük atının) quyruğundan yara çıxar.

“Sini-sin” şeirində I bəndin 1-ci misrası “Hicran düşgünüyəm, gözəl müştağı” kimi yox, “Hicran tüccarıyam, qəm şikəstəsi” kimi olmalıdır. Hicran tüccarı (düşkünü) ilə qəm şikəstəsi (qəmdən solmuş, üzülmüş) ifadələri bir-birini tamamlayır.

“A yəməndədi” təcnisinin II bəndi belə gedib:

**Yox sazımın nə pərdəsi, nə simi,**
**Onu çalıb kim tərpədər nə simi?**
**Firdovsi, Füzuli, Hafiz, Nəsimi,**
**Onlar da yazdığı, ayə, məndədi.**

İkinci misrada cinasın pozulmaması üçün “nə simi” yox, “nəsimi” olmalıdır. Məna belədir: “Pərdəsiz, simsiz könül sazımı kim çalıb, könlümdə nəsim (meh) tərpədə bilər?” Onda cinas qafiyələr gözlənilir: birinci misrada sim, ikinci misrada səhər yeli, meh, üçüncüdə isə şair mənasında işlədilib. Onu da qeyd edək ki, çox vaxt məqalələrdə səhvən “ayə” ifadəsini xitab kimi yox, ayə kimi mənalandırırlar. Təcnisin yalnız son bəndində “ayə” ifadəsi Quran ayəsi mənasındadır:

**Altı min altı yüz ayə məndədi.**

“Nədi adı” şeirində I bəndin ilk misralarının müxtəlif variantları içində aşağıdakını məqbul hesab etdik:

**Təriqətlə həqiqəti seçənlər,**
**Həqiqətlə təriqətin nədadı? (nədir fərqi?)**

“Yarat, ərməni” təcnisində ilk misraların bu şəkildə olduğunu deyən aşıqlar da vardır (Aşıq Avdı və b.):

**Xudam onu, məni yoxdan yaradıb,**
**Ayırmaz, o yara yar edər məni.**

Bu variant sonrakı misralarla da səsləşir:

**Bir qönçə bitəydim dostun bağında,**
**Dilimlə deyəydim yara: dər məni!**

Təəssüf ki, şeirin hansı şəraitdə, nə münasibətlə deyildiyi məlum olmadığına görə, geniş yayılmış aşağıdakı variantı (Aşıq Talıbın da səs yazısında olanı) saxladıq:

**Xudam məni, səni yoxdan yaradıb,**
**Sən də bircə milçək yarat, ərməni.**

II bəndin ilk misraları belə gedib:

**Tutmuşam dəstimdə gözəl nizamı,**
**Firdovsi, Füzuli, gözəl Nizamı.**

Bizcə, 1-ci misra "Tutubdu dəstində gözəl nizamı" şəklində olmalıdır. Beytin mənası onda belə olur: adları çəkilən şairlər gözəl nizamı (söz nizamını) əldə tutublar.

III bəndin 1-ci misrasının da müxtəlif variantları vardır; gah "Hilal qaşın bənzədərəm dər yaya", gah "Hilal qaşın bənzətmərəm dər yaya" şəklində verilmişdir. Hilal qaşı yaya niyə də bənzətmək olmasın? Ustad digər şeirlərində də ("Sarıköynək" və s.) bu cür bənzədib. Bu bəndin 2-ci misrası həmişə "Yazıq Ələsgər, dastan elə dər yaya" şəklində verilmiş, cinas pozulmuşdur. Belə ki, dər yay 1-ci misradakı kimi yenə "yay" mənasında işlədilmişdir. Bizcə, "dər yaya" yox, "Dəryaya" olmalıdır (yəni dastan elə Dəryaya (gözələ)).

"Sə qalı tez-tez" şeirində sonuncu bəndin ikinci misrası da müxtəlif şəkildədir:

**Ağan təkdi, dəngi deyil səd ağa,**
**Ağan təki dəngi deyin sad ağa.**

I variant, göründüyü kimi, bir məna kəsb edir: ağan təkdir, yeganədir, ona yüz ağa tay deyil.

Ərsəyə yetirdiyimiz bu nəşrin daha mükəmməl variantını hazırlamaq üçün ələsgərsevərlərin dəyərli tövsiyələrini, məmnuniyyətlə, nəzərə almağa çalışacağıq. Dədə Ələsgərin bütün Qafqazboyu səpilmiş söz incilərini arayaq, axtaraq və ən başlıcası, ondan mənəvi-ruhi yaralarımıza məlhəm qoyaq.

**Fərzalı RÜSTƏMLİ**
***tədqiqatçı-şair***

# ƏLİF-LAM[1*]

İbtidada "Əlif" - Allah,
"Bə" - birliyə dəlalətdi.
"Tə" - təkdi vahidi-yekta,
Arif bu elmə bələddi.

"Sə" - sabitdi doğru yola,
"Cim" - ucadı, bax calala,
"Ha" - mehribandı halala,
Münkir ondan xəcalətdi.

"Xa" - birdi Xaliqi-əkbər,
"Dal" - doğru doqquz fələklər,
"Zal" - zikr eylə dildə əzbər,
"Ra" - rəsulumuz Əhməddi.

"Zə" - zəbanı aç Xudaya,
"Sin" - salam et, getməz zaya,
"Şin" - şövq elə o Mövlaya,
Qeyri söhbət məsiyətdi.

"Sad" - səbri Şahi-Heydərə,
"Zad" - zərbin vurdu Əntərə,
"Ta" - tərif çıxdı göylərə,
Ağam kani-şücaətdi.

"Za" - zülm edəcək düşmənə,
"Ayn" - həyati-çeşmanə,
"Ğayn" - ğül-ğüli-dövranə,
"Fə" - fəna, "qaf ' - qiyamətdi.

"Kaf" - "kun" ilə tutub qərar,
"Lam" - lal, necə hesab verər,
"Mim" - möminə yol göstərər,
İsmi-paki Məhəmməddi.

“Nun” - nida eylər hər zaman,
“Hə” - hamıya yetər fərman,
“Vav” - vay deyər, yatma, oyan,
Sanma səhni-zərafətdi.

Sidqini Allaha bağla,
Məhəmmədin yolun saxla,
Hüseyn əzasında ağla,
Dəmi-eynin* zəbərcəddi.

“Yə” - yekdi adil padişah,
“Lam - əlifla” - birdi Allah,
Ələsgər, tutduğun günah
Bağışlansa, çox hörmətdi.

* Dəmi-eynin – göz yaşın

# *QOŞMALAR*

## PEYĞƏMBƏRİN MERACI

Aşıqlar qövlilə, arifü aqil,
Peyğəmbər dörd dəfə meraca getdi.
Otuz altıyla cəm olubdu on yeddi,
Xəstə dilim bu yollara bələddi.

Şiə məzhəbində sulidin beşdi,
Üç müqərrər mələk bilmədi, keçdi,
Fərmani-qüdrətdən nida yetişdi:
Həbibim, nəleynin ərşə zinətdi.

Hər yandan səs gəldi: "Ya Məhəmmədа!"
Məscidi-Əqsaya yetişdi səda,
Musa ərz eylədi: "Ey Bari-Xuda,
Nə qurğu-mənzilət, nə fəzilətdi?!"

Haqdan peyğəmbərə yetişdi salam,
Gəldi şirü-birinc, qoyuldu taam,
Üz tutdu dərgaha həyyi-layənam*:
– Yalqız taam yemək bizə əziyyətdi.

Pərdeyi-hicabdan bir dəst gəldi,
Taamı yedilər, almanı böldü,
Nütfəsi, xilqəti, zatı gözəldi,
İnan, bu sözlərim, bil, həqiqətdi.

Nuri-irəhmətdən aldı dəstəmaz,
İki rükət əda eylədi namaz,
Üz tutdu dərgaha izd ilə niyaz:
– Xudaya, tavaqqam səndən ümmətdi.

* Həyyi-layənam (həyyi-layəmun) – həmişə oyaq, yatmayan

Həbibullah mindi İrəfrəf atın,
Xaliqi-ləmyəzəl verdi baratın,
Bizə vacib olan sövmü-salatın,
Üç hissəsin qoydu, birisin gətdi.

Əşrəfi-məxluqat, aləm sərvəri,
Oxudu təşəhhüd, qayıtdı geri,
Huri, qılman, mələk, neçə min pəri...
Əmr eylədi Haqq, göyləri bəzətdi.

Bağışlandı ümmətlərin günahı,
Şadü-xürrəm oldu islam pənahı,
Gəldi bir arslan, tutdu irahı,
Mustafa görəndə xatəmin atdı.

Yetişdi hücrəyə əzizü əzim,
Şahi-Mərdan dedi: “Meracın qədim!”
Göstərdi almanı, etdi təbəssüm,
Buyurdu: “Hər işin sirri-qüdrətdi”.

Şairin sinəsi haqq bazarıdı,
Satdığı kəlmələr ləl-mirvarıdı,
Alimin elmiylə helmi yarıdı,
Həcvü-hədyan demək nahaq söhbətdi.

Yazıq Ələsgərəm, azdı kamalım,
Vacibdi ki, bir ustaddan dərs alım,
Dərs aldım, öyrəndim, oldu öz malım,
Bizdən ustadlara nəfi-rəhmətdi.

## PƏNC ALİ-ƏBA

İbtida "əlif"dən dərsim almışam,
Ələst aləmində demişəm "bəli".
Həqiqətdən iki gözəl sevmişəm,
Birisi Məhəmməd, birisi Əli.

Əlidən dərs aldım, eylədim əzbər,
Ərşin sütunudu, yerlərə ləngər,
Fatimeyi-Zəhra, şafeyi-məhşər,
Onu seçdim gözəllərin gözəli.

Həsən əl-Müctəba, çoxdu şövkəti,
Ərşin güşvarəsi, yerin zinəti,
Məhşər günü darda qoymaz ümməti,
Əsğər qucağında Şah Hüseyn gəli.

Xaliqi-ləmyəzəl Vahid əl-yektay,
Qüdrətindən kamal verib mana pay,
Oxu "əlif", "ğayn", eylə haqq-say,
Arif seçər əbcəd ilə cəm əli.

Günahım dəryadı, özüm qanmışam,
Tutduğum işlərə çox utanmışam,
Püşti-pənahına daldalanmışam,
Adım Ələsgərdi, əslim - göyçəli.

## İMAMLAR

“Bismilləhir-Rahmanir-Rahim” - deyib,
Sidq ilə çağırram Şahi-Heydəri.
Xişmə gəlib, bir əlində götürdü,
Səksən min batmanlıq dəri-Xeybəri.

Həsən əl-Müctəba aləmə rəhbər,
Hüseyni-şəhiddi şafeyi-məhşər,
İmam Zeynalabdın dilimdə əzbər,
Qoyma darda mən zəlilü-müztəri!

Məhəmməd Bağıra var iltimasım,
İmam Cəfərə bağlamışam xilasım,
Borcluya zamindi Museyi-Kazım,
Qurtarıbdı dardan çox zəlilləri.

Qərib İmam Rza - Xorasan şahı,
Sidq ilə çağıran heç çəkməz ahı,
Məhəmməd Tağıdı aləm pənahı,
Ona qurban dedim bu canü-səri.

Əliyyən Nağıdı aləmdə əla,
Bir səri min dərdə olub mübtəla,
İstəyirsən, müşkül işin həll ola,
Sidqi-dillə çağır Həsən Əsgəri.

Mehdinin şəninə gəlibdi ayat,
İsminə möminlər verir salavat,
Yovmi-ərəsətdə etmə xəcalət,
Yandırma odlara qul Ələsgəri!

## ARASINDA[2]

Təzə aşnalıqla köhnə dostluğun
Fərqi var qış ilə yaz arasında.
Namərddə qaydadı: kəsər basdığın,
Hər kəs hesab çəksin öz arasında.

Qüdrətdən ucalan zülm ilə enməz,
Haqdan yanan çıraq bad ilə sönməz,
Dost dostdan inciyər, qəlbində dönməz,
Olar bir az ərki-naz arasında.

Ələsgərəm, qəmü-möhnətdi yüküm,
Fil çəkməz bu dərdi, mən necə çəkim?!
Haqq ilə nahaqqı axtaran hakim
Tapar qulaq ilə göz arasında.

## BAX, BAX![3]

Şəriət oxuyan, təriqət bilən,
Haqlıq eyləyirsən, haqq dinə bax-bax!
Qalmayıb dünyada "mənəm" deyənlər,
Həzrət Süleymanın taxtına bax-bax!

Oxuduğun Quran hardadı, hanı?!
Hansı yola dəvət edir insanı?!
Salıbsan zindana gözəl bir canı,
İqbalına bax, bax, baxtına bax, bax!

Ələsgərin könlü geyib qaralar,
Şəfa bulmur qəlbindəki yaralar,
Qoca səfa sürər, gözəl saralar,
Tarixinə bax, bax, vaxtına bax, bax!

## "BƏLİ", - DEYİB, YOL-ƏRKANA GƏLMİŞƏM

"Bəli", - deyib, yol-ərkana gəlmişəm,
Nəqş olub sinəmdə eşqin kitabı.
Çeşmi-nübüvvətə aşiq olmuşam,
Bir suala verrəm yüz min cavabı.

Gövhər sözüm məclislərdə yayılı,
Arif ondan mətləb qanıb ayılı,
İbadət eyləyən mömin sayılı,
Səxavətin ondan çoxdu savabı.

Haqdı sözüm, yetirəsən isbata,
Yemə riba, meyl eləmə qiybata*,
Şəriətdə haramdı zina-ləffata,
Ondan bəd yazırlar xəmri*-şərabı.

Xaliqindən utan, məndən utanma,
Şəcərətil-mövti* heç səhl sanma,
Miyata* qail ol, qafil dolanma,
Haqdı mizan, Sirat, qəbir əzabı.

Əgər zərrə qalsa xümsün, zəkatın,
Hərgiz qəbul olmaz sovmü-səlatın,
Haqq yanında möhr olunmaz baratın,
Salarlar boynuna oddan tənabı.

Dəyəndə yarpağa, səslənər guşun,
Dərk eylə cəm olsa idrakü huşun,
Sürüldü karvanın, köçdü tay-tuşun,
Fərmani-qüdrətin budu xitabı.

* Qiybata – qeybətə
* Xəmr – şərab deməkdir
* Şəcərətül-mövti – ölüm ağacı
* Miyat (miad) – axirət, o dünya

Aldanma dünyanın bu fənasına,
Gül olma gövhərli xəzanasına,
Özün yetir şahın astanasına,
Dərdlərə dərmandı dərin turabı.

Yazıq Ələsgərəm, zarü-binəva,
Elə iş tut, olsun dərdinə dəva,
Aldanıbsan nəfsə, tapıbsan həva,
Dərk eləyib qanmayıbsan hesabı.

## BƏYİSTAN

Dodağın qönçədi, dişlərin sədəf,
Qaşların qüdrətdən qara, Bəyistan!
Gəl elə süzdürmə ala gözləri,
Vurma ürəyimə yara, Bəyistan!

Eşq əhliyəm, dərd çəkməkdən üzülləm,
Nəsildən nəcibsən, əslini billəm,
Bir saat camalın görməsəm ölləm,
Görsəm də yanaram nara, Bəyistan!

Qəza-qədər məni kəc dolandırar,
Sevəni sevəndən tez usandırar,
Bülbül özün oda vurar, yandırar,
Qönçə meylin versə xara, Bəyistan!

Ələsgərəm, doğru yoldan azmaram,
Hərcayı gözələ tərif yazmaram,
Yüz il keçsə, əlim səndən üzmərəm,
Çəksələr dilimdən dara, Bəyistan!

## BƏYLƏRİN[4]

Arif məclisində vəsfin eylərəm,
Var yanımda amanatı Bəylərin.
Atadan, babadan çörək sahibi,
Mərdanədi əsli, zatı Bəylərin.

Elə ki yetişdim mən otağına,
Elə sandım, düşdüm Cənnət bağına,
Müşk, ənbər düzülüb hər bucağına,
İrəflərdə cavahratı* Bəylərin.

Markiz, mavzer, süzən, aynalı, berdon...
Səhv düşdüm sayında, doqquzdu, ya on,
Meşoğ ilə patron, qutuyla piston,
Yox kimsədən ehtiyatı Bəylərin.

Neçə padişahlar orda olub cəm,
İki dərviş "ya Hu!"– deyir dəmadəm,
Səddə İsgəndərdi, səxada - Hatəm,
Var evində xan büsatı Bəylərin.

Canım qurban olsun belə bir dosta,
Mərtəbəsi hündür, nəfsi şikəstə,
Müşküldə qalanlar gəlirlər bəstə,
Qan bağlayır məslahatı Bəylərin.

İbrahimtək hörmət qoyur mehmana,
Heydər kimi nərə çəkir düşmana,
Qələm Zülfüqartək kəsir hər yana,
Evlər yıxır "zarafatı" Bəylərin.

Coş edən dəryatək möc verir təbi,
Məddahi-mövladı, budu səbəbi,

---

* Cavahratı – cəvahiratı

Firəng, rusi, farsi, türki, ərəbi –
Beş dil ilə var savadı Bəylərin.

Ələsgər ərz etsin, sən mətləbi qan,
Olmaz bu təmkində nə sultan, nə xan,
Fağra mərhəmətli, dosta mehriban,
Yaxşı keçər qiyamatı Bəylərin.

## BİLƏ

Abbasdan Heydərə şikayətim var,
Göyüş təsdiq edə, hər mahal bilə.
İyid cavanlıqda dəli gərəkdi,
Qocaldıqca mərfət tapa, hal bilə.

Ağıldan nöqsanlı, kamaldan azam,
Haçan olsa, Göy Aşıqdan mən sazam,
İstəyirəm, sana bir dastan yazam,
Qubernat eşidə, yaranal* bilə.

Yazıq Ələsgərəm, abdal olmuşam,
Seçilib cövhərdən zülal olmuşam,
Sən ağ çalsan, mən də göy çal olmuşam,
Lazımdı ki, çalın qədrin çal bilə.

* Yaranal – “general” sözünün təhrif edilmiş şəkli

## BU DÜNYADA ÜÇ ŞEY BAŞA BƏLADI

Bu dünyada üç şey başa bəladı;
Yaman oğul, yaman arvad, yaman at.
İstəyirsən qurtarasan əlindən,
Birin boşla, birin boşa, birin sat.

Ov keçdi bərədən, ata bilməzsən,
Uçdu getdi əldən, tuta bilməzsən,
Yerisən, yüyürsən, çata bilməzsən,
Görürsən ki, baxtın yatdı, sən də yat.

Qılma Ələsgəri məhrumi-didar,
Lütf eylə ləbindən bir busə, ey yar.
İsmin üç hərf ilə eylərəm aşkar:
Biri "kaf"dı, biri "lam"dı, biri - "sad".

## "CAN" DESİN

Yaradan yaradıb külli-aləmi,
Arif olan bu fərmana "can" desin.
Yeddi yer, yeddi göy, yeddi də damu,
Səkkiz Cənnəti-rizvana "can" desin.

On iki aya qərar qoyub - bir ildi,
Altısı müttəsil, çox mötədildi,
Üçü bəddi, həmrah olmaq müşküldü,
Qəsd eylər qovğaya, qana "can" desin.

Novruzda bahara deyərlər "bəli",
Gah kamala yetər, gah olar dəli,
Gün vuranda, güneylərdən sel gəli,
Qüzey istər, zimistana "can" desin.

Yazın bir ayında xoş keçsə illər,
Zoğ verib rişədən, açılar güllər,
Qışın zəmhərini çəkən bülbüllər,
Şeyda olsun, gülüstana "can" desin!

Kükrər dağlar, bir-birindən deyini,
Seçmək olmaz gədasını, bəyini,
Fərvərdində səbzə* libas geyini,
Göydən yağan ağ neysana "can" desin!

Aranda qalanlar meyl eylər dağa,
İsti vurar, bürkü dolar otağa,
Bəzənər gözəllər, çıxar yaylağa,
Mənzilgahlar ol mehmana "can" desin!

Yaylaq müntəzirdi, yolların gözlər,
Boyun əyər bənövşələr, nərgizlər,

* Səbzə - yaşıl

Çeşməyə yetəndə gəlinlər, qızlar,
Göllərdə çalxanan sona "can" desin!

Olar gözəllərin əhdi-peymanı,
Alaçıq qurulcaq, kəsər qurbanı,
Ələsgər şəninə desin dastanı,
Fəxr eləsin, doğan ana "can" desin!

## ÇƏKİRSƏN

Müxənnət zamana, bimürvət fələk,
Şamı sübhə, sübhü şama çəkirsən.
Ləhzədə açırsan min cürə kələk,
Gah pozursan, gah nizama çəkirsən.

Çox həsrətlər görmür öz kimsəsini,
Vaya döndərirsən şadlıq bəhsini,
Tərəqqi-tənəzzül kəmənçəsini,
Gah zilləyib, gah da bəmə çəkirsən.

Rəhimsən, kərimsən, ədlü-ədalət,
Könüldən xəbərdar, hər dilə bələd,
Seyiddən, molladan, bəydən xəcalət,
Bu nə dağdı, sən sinəmə çəkirsən?!

Altmış il qurğuna qıldım tamaşa,
Səndə bir etibar görmədim, haşa...
Heç kəs dövran sürüb çıxmadı başa,
Əkməz kotan kimi xama çəkirsən.

Bərhəm olsun təqdir, pozulsun yazı!
Bu qurğuya heç kəs olmaz irazı,
Eşşəyə çullayıb əbrü-ətlazı,
Bədöy deyib, şahlıq dama çəkirsən.

Arpadan incikdim, bitmədi gəndüm*,
Darıyla dareqan heç deyil fəndim,
Candan bezdim, öz-özümdən iyrəndim,
Axırımı nə həngama çəkirsən?!

Ələsgər qəlbinə saldın işığı,
Məclislər zinəti, el yaraşığı,
Əzizliklə saxladığın aşığı,
Zəlilliklə intihama çəkirsən.

* Gəndüm – buğda

## ÇƏKMİYƏ

İnsan payız ölə, yazda dirilə,
Zimistanda boran-qarı çəkmiyə.
Günü-gündən işi düşər müşkülə,
Hər kəs namus, qeyrət, arı çəkmiyə.

İncik olma qoca aşığın yaşından,
Vaqif ol könlünün eşq ataşından,
Bülbül gül yolunda keçər başından,
Əgər gül köysünə xarı çəkmiyə.

Eşq ucundan tapdı xatalar məni,
Qul deyə Həbəşdə satalar məni,
Qoyub top ağzına atalar məni,
Bəlkə, canım bu azarı çəkmiyə.

Xəstə könül gəzir bu təmənnada,
Möminlər pənahı, sən yetiş dada!
Mərd iyidə ölüm haqdı dünyada,
Yoxsul olub, ahü-zarı çəkmiyə.

Ələsgər, dəstini üzmə damandan,
İstə mətləbini Sahib-Zamandan,
Məhəmməd ümməti çıxmaz zindandan,
Ta ki Ağam Zülfüqarı çəkmiyə.

## DAĞITSIN

O cəllad qaşların qəhri, qəzəbi
Qəsd eylər cismimdən canı dağıtsın.
Gözün talan salar Azərbaycana,
Dilin istər, Alosmanı dağıtsın.

Sürahi gərdənli, qəddi mötədil,
Zəbərcəd kəlməli, misali-bülbül,
Allahı sevərsən, bircə danış, gül,
Dərdi, qəmi, bu sevdanı dağıtsın.

Uruhum, cismanım, nəbzim, həyatım,
Zinətim, zivərim, adım, isbatım,
Lisanından gəlməyəndə baratım,
Naləm istər bu dünyanı dağıtsın.

Ələsgərəm, yandım, aman, əl-aman!
Belə mürvət olmaz, ay qaşı kaman!
Hər kim dostdan dosta qandırsa yaman,
Tufanasın kərəm kanı dağıtsın!

## DAĞLAR

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən alalı* dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən Abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar!

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəmhəri* qoyar virana,
Dağıdar üstündən calalı, dağlar!

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xalat bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib, xətrinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnuntək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar!

---

* Alalı – fərqli
* Zəmhər (zəmhərir) – çox bərk soyuq, şaxta

# DAĞLAR[5*]

Bir ay yarım nobahardan keçəndə,
Car olur köysündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəm-zəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu-büsatlar?!
Dərdiməndlər görsə, tez bağrı çatlar,
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Hanı bu yaylaqda yaylayan ellər?
Görəndə gözümdən car oldu sellər,
Seyr etmir köysündə türfə gözəllər,
Sancılımır buxağa güllərin, dağlar!

Hanı mərd iyidlər, boş qalıb yurdu?
Səxavətdə Eldar nurəlanurdu,
Erkək kəsib, ağır məclis qururdu,
Şülən çəkilirdi malların, dağlar!

Gözəllər çeşməndən götürmür abı,
Dad verə dahanda Kövsər şərabı,
Xaçpərəstlə düşdü bund inqilabı,
Onunçün bağlandı yolların, dağlar!

Sarınərdən top-tüfəngin atılı,
Qısır Murğuz, Şah dağına çatılı,
Bir əmliyin min tümənə satılı,
Xəzəl olu yenə pulların, dağlar!

Kəpəz, Murov, Qonur - gör neçə dağ var...
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkib üstündə salların, dağlar!

Elə ki şər gəldi, qaraltdı qaşı,
Dumana qərq olur dağların başı,
Düşəndə gürg* ilə kəlbin* savaşı,
Uzun çəkir qilü-qalların, dağlar!

Halıyam Eldarın var cümləsindən,
Gecə yatmır bir-birinin bəhsindən,
İyid nərəsindən, güllə səsindən,
Dəyməmiş tökülür kalların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı,
Arsız aşıq elsiz niyə yaşadı?!
Ölsün Ələsgərtək qulların, dağlar!

* Gürg - canavar
* Kəlb – it

## DAYANMAZ

Könlümün şişəsi, saqın ki, sınar,
Toxunarsa ayna daşa, dayanmaz.
Əl dəyməmiş yaralarım sızıldar,
Vursan sinəm üstə maşa, dayanmaz.

Xəstə könlüm istər narı görəndə,
Çaşır ağlım-huşum yarı görəndə,
Bülbül gül üstündə xarı görəndə,
Qan ağlar, ruxsarı yaşa dayanmaz.

Ələsgər də nazlı yara qul ola,
Yanıb cismi ataşına, kül ola,
Canı çıxar: dərd ürəkdə bol ola,
Qəm qalxıb başından aşa, dayanmaz.

## DƏLİ ALI[6]

Gün kimi aləmi tutubdu adı,
İyidlər sultanı, xanı Dəli Alı.
Pirim Şahi-Mərdan verib muradı,
Artırıb şövkəti, şanı Dəli Alı.

Götürüb süzəni, minəndə ata,
Fələk "əhsən!" deyir boya, büsata.
Nərə çəkib təpiləndə saldata,
Sel kimi axıdır qanı Dəli Alı.

Namərdlər əlindən çəkirlər haşa,
Namuslu iyidsən, səni yüz yaşa!
Tüfəngin gülləsi işləyir daşa,
Tək qaytarır yüz düşmanı Dəli Alı.

Dərs alıbdı o, Əliyyi-əladan,
Xof eyləmir Xeybər kimi qaladan,
Gəzən zəlzələdən, yaman bəladan,
Hifz eyləsin kərəm kanı, Dəli Alı!

Məclisində duran canlar sağ olsun!
Həmişə məclisdə bu damağ olsun!
Sərdar bağışlasın, üzün ağ olsun!
Sən sürəsən bu dövranı, Dəli Alı!

Ələsgərin toy işi var əlində,
İşi təhər tapmır Göyçə elində*,
Sənin kimi mərd iyidin yolunda,
Qurbandı aşığın canı, Dəli Alı!

---

* Ustad Dəli Alıya bildirir ki, həm Bəşirin toy işinə, həm də təsərüffat işlərinə görə yaylaqda çox ləngiyə bilməz. Əvvəlki nəşrlərin əksəriyyətində "İşi təhər tapıb Göyçə elində" şəklində işlənmişdir. Biz 1988-ci il nəşr variantını əsas götürdük.

## DƏYMƏMİŞ

Dad sənin əlindən, a qanlı fələk!
Könül həsrət qaldı yara dəyməmiş!
Köhnə yaram qövr eylədi təzədən,
Təbib neştər vurdu yara dəyməmiş.

Gözüm qaldı "əlif", "be"ydə, "yasin"də,
Yaradanım, kömək eylə ya sində,
Qaldım Səməndərtək qəm dəryasında,
Yandı balü-pərim nara dəyməmiş.

Ələsgər, üsyanın çıxıbdı sandan,
Öldürsən zənburu, əl çəkməz şandan,
Hərcayıdan, müxənnəsdən, nadandan,
Nə söz qaldı sənətkara dəyməmiş?!

## DOLANIR

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, neçə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

Afərin Xudanın haqq-sayına!..
Camalları bənzər bayram ayına,
Belə gözəllərin xaki-payına,
Mənim kimi çox qurbanlar dolanır.

Gördüm gözəlliyin bizə bildirir,
Qaş oynadır, xəstə könlüm güldürür,
İşvəyü-nazıyla adam öldürür,
Qəmzəsində nahaq qanlar dolanır.

Məni qoca gördü, rübəndin açdı,
Ala gözlərinə gözüm sataşdı,
Huş başımdan getdi, xəyalım çaşdı,
Mürği-ruhum asimanlar dolanır.

Adım Ələsgərdi, Göyçə - mahalım,
Dolanım başına, mən qadan alım,
Hüsnün şöləsinə xəstə xəyalım,
Pərvanədi, şəmistanlar dolanır.

## DOLANSIN[7]

Gərdəninə neçə şahmar dolanıb,
Könül istər, o şahmara dolansın.
Ərzim alıb, iltimasım tutmasan,
Məcnun olsun, bu dağlara dolansın.

Bəyənmişəm xəsyətini, halını,
Yaradan bol verib huş-kamalını,
Sən Allah, gizlətmə mah camalını,
Şöləsinə qoy füqara dolansın!

Bal ki bahalandı, qırıldı arı,
Yağ satanlar mala saldı azarı,
Min manata qalxdı dareqan, darı,
Nə gün çıxsın, nə sitara dolansın!

Dad sənin əlindən, çarxı-kəcmədar!
Ürəyimdə yüz dərmansız yaram var,
Aşıq - dəyirmançı, ağa - çarvadar,
Sərraf gəlsin bu bazara, dolansın!

Zalım cəllad nə giribdi qəsdinə,
Xəbər verin övladına, dostuna,
Şahlar şahı sayə salsın üstünə,
Ələsgərtək baxtı qara dolansın!

## DÖNDÜ, NƏ DÖNDÜ[8*]

Çarx dolandı, baxtım tapdı tənəzzül,
İqbalım idbara döndü, nə döndü!
"Can" deyən dostlarım, şux gözəllərim,
Ovsunalmaz mara döndü, nə döndü!

Fərhad gördü, sevdi Şirin camalın,
Şirin dost əlindən şirin cam alın,
Şirincə dövlətin, şirincə malın,
Axrı zəhrimara döndü, nə döndü!

Dad sənin əlindən, çarxı-kəcmədar,
Günüm qara keçdi, işim ahü-zar,
Hay verrəm, qıy vurram, eyləmir şikar,
Tərlan baxtım sara döndü, nə döndü!

Qəza-qədərinə fəhm eylə, bir gül,
Tərəqqidən təvəllüddü tənəzzül,
Muşriki göndərdi hakimi-adil,
Şümr sitəmkara döndü, nə döndü!

Bu dərd qaldı Ələsgərin canında,
Haqq-nahaqq seçilər Haqq divanında,
Gövhər zibil oldu nadan yanında,
Dünya mana tara döndü, nə döndü!

## DÖNÜBDÜ

Fələyin qəhrindən, el töhmətindən
Dərdim artıb, bir ümmana dönübdü.
Dostun firqətindən, yar həsrətindən,
Bahar mana zimistana dönübdü.

Eşqin girdabında düşmüşəm ləngə,
Torbakeşlər* tənə qılır peşəngə*,
Gürbə* şirə dönüb, muşlar* pələngə,
Bəqə qızıb, kərgədana dönübdü.

Arif, bu sözləri fikr eylə dərin,
Artırma dərdini sən Ələsgərin,
Qiblənüma məhəbbətli dilbərin,
Meyli bizdən qeyri yana dönübdü.

---

* Torbakeş – boynunda yemək torbası daşıyan zəif heyvan
* Peşəng – sürünü çəkən təkə (keçi)
* Gürbə - pişik
* Muş - siçan

## DÖNÜBDÜ

A bimürvət, axı səndən ötəri
Ah çəkməkdən bağrım qana dönübdü.
Qədd əyilib, gül irəngim saralıb,
Xəzan dəymiş gülüstana dönübdü.

Dindirirəm, danışmırsan, gülmürsən,
Xəbər alıb əhvalımı bilmirsən,
Endiribən məclisimə gəlmirsən,
Yoxsa taxtın Süleymana dönübdü?!

Dal gərdəndə siyah zülfün hörübsən,
İnkar eyləməynən, ilqar veribsən,
Yazıq Ələsgərdən üz döndəribsən,
Ya baxt yatıb, ya zamana dönübdü.

## DÜNYADA

Qafil dilim, bu nə yoldu tutubsan,
Sərf edirsən nə kamaldı dünyada.
Dövlətə gül olub*, gültək açılma,
Çox sənintək güllər soldu dünyada.

Kibridən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı,
Yüz sənintək ahu gəzən şahmarı,
Fələk kəməndinə saldı dünyada.

Guşumda* sırğadı, sinəmdə dağdı,
Ağıllı unutmaz, neçə ki sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Fələk bərhəm edib çox nizamları,
Söndürüb zülm ilə yanan şamları,
Hayıf cavanların gül əndamları,
Mara, mura qismət oldu dünyada.

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

* Gül olmaq – el arasında bağlanmaq, vurulmaq mənasında işlənir.
* Guş – qulaq

## DÜRDANƏNİ SƏNGİ-SİYAH İÇİNDƏ

Dürdanəni səngi-siyah içində
Həsrət gözüm görən kimi tanıdı.
Könül bivəfadı, heç salmır yada,
Göz doymur, gözünün mehribanıdı.

Yanaqları güldü, olubdu xəndan,
Cismidə mələkdi, nəsildə - insan.
Simi-zənəxdandı, mirvari-dəndan,
İnnabi ləbləri can dərmanıdı.

Adım Ələsgərdi, əslim – göyçəli,
Ələst aləmində demişəm "bəli!".
Həm aşığam, həm dərvişəm, həm dəli,
Canım gözəllərin yol qurbanıdı.

## DÜŞDÜ

Çərşənbə günündə, çeşmə başında,
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Cadu qəmzələri qanıma düşdü.

İşarət eylədim, dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi,
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam,
Dedim: – Sən təbibsən, mən yaralıyam,
Dedi: – Nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.

## DÜŞMÜŞƏM[9*]

Hərcayının, dilbilməzin ucundan
Dönə-dönə nə ziyana düşmüşəm.
Doymaq olmaz gözəllərin boyundan,
Pərvanətək yana-yana düşmüşəm.

Dövlətim çox oldu, qıymadım pula,
Kor oldu gözlərim, yapışdım dula,
Nə ölür, nə itir, canın qurtula,
Məcnun kimi biyabana düşmüşəm.

Ələsgər keçibdi namus, arından[*],
Aləm yatmaz mənim ahü-zarımdan,
Boşasam, qorxuram oğlanlarımdan,
Boşaya bilmirəm, qana düşmüşəm.

[*] İfadə zarafatla deyilmişdir. Bu misra bir sıra nəşrlərdə "Ələsgərəm, incimişəm yarımdan" şəklində getmişdir.

## EYLƏ

Yeri, göyü, ərşi, kürsü yaradan,
Adil padişahsan, ədalət eylə.
Könlümün nöqtəsin çıxart qaradan,
Məni doğru yola dəlalət eylə.

Bir sevdaya düşdüm, candan usandım,
Heç kəsə demədim, ürəkdən yandım,
Bir təmiz ad ilə ellər dolandım,
Nə "çor" deyən oldu, nə "qələt eylə".

Qəddim əyib, qəm xirqəsin geyirəm,
Məhəbbət odundan təam yeyirəm,
Leyli-nəhar "ya Hu!", "ya Hu!" – deyirəm,
Çıxıbdı qəlbimdən ibadət eylə.

Nə bəlaya düşdüm mən baxtı qara,
Eşqin ataşına heç olmaz çara,
Qalmışam zindanda aciz, avara,
Günahkar, sərgərdan, xəcalət eylə.

Xəstə könül, sürün dost irahına,
Müşkülü həll edən qul pənahına*,
Ələsgər, yön çevir şahlar şahına,
Yapış ətəyindən, şikayət eylə.

* Bu misranın "İslam sərdarına, dil pənahına" variantı da vardır.

## EYLƏMƏYNƏN

Nəfs ilə mərifət durub cahada,
Mərfət deyir: – Belə kar eyləməynən!
Nəfs deyir: – Baxma naqqal sözünə,
Xeyrin gələn yerdə ar eyləməynən!

– Günahkardı nə ki yoldan azan var,
İki mələk – xeyir-şəri yazan var,
Nəkreyin var, Qıl körpü var, qazan var,
Rövşən yollarını tar eyləməynən!

– Zimistan çəkmişəm, yeni yaz olub,
Üzüm gözəllərə payəndaz olub,
Sözüm bəyənilib, işim saz olub,
Sən Allah, siftəmi kor eyləməynən!

– Haqq bizə göndərib dəlili-ayət,
Oruc tut, namaz qıl, eylə ibadət,
Mehdi divanında olma xəcalət,
Məhşərdə yerini nar eyləməynən!

– Sən müztərsən*, lovğa-lovğa danışma,
Belə sualları məndən soruşma,
Nə xeyrimə, nə şərimə qarışma,
Qarışsan, çıx, yeri dar eyləməynən!

* Müztər – çarəsiz, zəif

## EYLƏMİŞƏM[10*]

Ala gözlüm, səndən ayrı düşəli,
Hicranın dəmiylə kef eyləmişəm.
Ah-vay ilə günüm keçib dünyada,
Qəm satıb, dərd alıb nəf eyləmişəm.

Səndən ayrı şad olmuram, gülmürəm,
Canımdan bezmişəm, ölə bilmirəm,
Nə müddətdi qulluğuna gəlmirəm,
Bağışla təqsirim, səf eyləmişəm.

Həsrət qoyma gözü-gözə, amandı!
Yandı bağrım, döndü közə, amandı!
Keçən sözü çəkmə üzə, amandı!
Hədyan danışmışam, laf eyləmişəm.

İnsafdımı gülə həmdəm xar ola,
Tülək tərlan ovlağında sar ola?!
Ələsgər istər ki, bir bazar ola,
Seçmişəm gövhəri, saf eyləmişəm.

## EYLƏR

"Can" deməklə candan can əysik olmaz,
Məhəbbət artırar, mehriban eylər.
"Çor" deyənin nəfi nədi dünyada,
Abad könlü yıxar, pərişan eylər.

Nakəs adam danışıqdan saz olar,
Kərəmdən kəm, səxavətdən az olar,
Nütfədən qarışan şeyitbaz olar,
Mərd də sığışdırmaz, nahaq qan eylər.

Bir gün Mansır qalxar, gələr toxmaq-yay,
Dağları atmağa eylər haqq-say,
Seçilməz məhşərdə nə şah, nə gəday,
Xaliqi-ləmyəzəl haqq divan eylər.

Məzəmmət eyləmə mən binəvanı,
Sahibi-səltənət, ey gövhər kanı,
Mənim sözüm yoldan çıxan mollanı,
İnşallah, qaytarar, müsəlman eylər.

Mən istərəm, alim, mömin yüz ola,
Meyli haqqa doğru, yolu düz ola,
Diliylə* zəbanı üzbəüz ola,
Ələsgər yolunda can qurban eylər.

* Dil- burada qəlb mənasında işlədilib.

# ƏVƏZDİ[11*]

Gözəllər sultanı, ay Səlbi xanım,
Sallanışın bir mahala əvəzdi.
Gözlərinə qiymət qoya bilmirəm,
Qaşın min tümənlik mala əvəzdi.

Sürahi gərdənli, qəddi-mötədil,
Səni gül yaradıb Cabbari-Cəlil,
Ləblərin şirəsi Abi-Səlsəbil,
Ləzzəti dünyada bala əvəzdi.

Ələsgərin ağlın aldın sərindən,
Saf gövhərsən, sərraf seçib dərindən,
Sən bir gülsən şəbnəmlərin tərindən,
Demək olmaz sana lala əvəzdi.

## GEDİBDİ

Eşidin, məclisdə arif olanlar,
Sərrafam, gövhərim, kanım gedibdi.
Ah çəkibən yar yoluna baxmaqdan,
Yəqin bilin, yarı canım gedibdi.

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi,
Şəkər söhbətlidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi.

Müddətdi gözümdən olubdu iraq,
Əridib cismimi dərdü-qəm, fəraq,
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Ala gözlü Səhnəbanım gedibdi.

İş sana agahdı, qadir İlahi!
Eşq əlindən itirmişəm irahı*,
Ələsgərəm, budu sözün kütahı:
Yar gedəli din-imanım gedibdi.

* İrahı (rahı) – yolu

## GETDİ

Addadı gül fəsli, gəldi zimistan,
Xəzan oldu, bağlar soldu da getdi.
Şeyitbazlıq edib, şərab içənlər
Canını odlara saldı da getdi.

Ribanı – sələmi halal bilənlər,
Orucdan, namazdan kənar olanlar,
Məhşər günü üzü qara gələnlər
Nari-Cəhənnəmə daldı da getdi.

Zülüm ilə enməz haqdan ucalan,
Yüksələr fağırın qeydinə qalan,
Hər kim çuğul oldu, söylədi yalan,
Şeytan imanını aldı da getdi.

Aldanıb dünyanın cah-cəlalına,
Haram qarışdıran öz halalına,
Xəyanət eyləyən qonşu malına,
Haqqın divanında qaldı da getdi.

Sol əldə kağız var, sağ əldə qələm,
Bir yanda nəşə var, bir yanda ələm,
Ələsgərtək şirin zəban, xoş kəlam,
Bivəfa dünyaya gəldi də getdi.

## GETMƏ, AMANDI[12*]

Gözəllər sultanı, mələklər şahı,
Alagöz cananım, getmə, amandı!
Dərdindən xəstəyəm, çəkirəm ahı,
Həkimim, loğmanım, getmə, amandı!

Camalın göyçəkdi bayram ayından,
Görən doymaz qamətindən, boyundan,
Layiq deyil qurban kəsim qoyundan,
Sana qurban canım, getmə, amandı!

Mən sənə nə dedim, ay mina gərdən,
Kəsmə mərhəmətin, gəl, Ələsgərdən,
Günahkar qulunam, salma nəzərdən,
Kərəmli sultanım, getmə, amandı!

## GETMƏ GÖZ ÖNÜNDƏN, AY ŞƏKƏR XANIM

Getmə göz önündən, ay Şəkər xanım,
Könül mayıl olub o qələm qaşa.
Gəl əyləş məclisdə, sən mənim canım,
Mən saz çalım, sən də eylə tamaşa.

Mən aşığam, yasaq yoxdu dilimə,
Şükr eylərəm Haqdan gələn zülümə,
Sənin kimi gözəl keçməz əlimə,
Yüz il gəzsəm bu dünyanı baş-başa.

Gözəllər sultanı, mələklər xanı,
Qaytarmazlar pirə gələn qurbanı,
Öldür Ələsgəri, qurtarsın canı,
Vay xəbərin göndər qohum-qardaşa.

## GƏLİBDİ

Xəstə könül dərdü-qəmdən ayıldı,
Bu gün məclisinə bir can gəlibdi.
Şöləsi aləmi edib münəvvər,
Zahir deyil, özü pünhan gəlibdi.

Onun bu gəlməyi gör nəyə bənzər,
Nə xana, sultana, nə bəyə bənzər,
Misirdən gətrilmiş köynəyə bənzər,
Kənanda Yaquba dərman gəlibdi.

Ələsgər görcəyin candan usanıb,
Camalından Şəmsü-Qəmər utanıb,
Nə behiştdə belə qılman yaranıb,
Nə dünyaya belə insan gəlibdi.

## GƏRƏKDİ

Aşıq olub, tərki-vətən olanın,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilən,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü-gövhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

## GÖRMƏDİM

Bivəfanın, müxənnəsin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Namərdi özümə mən dost eylədim,
Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihudə kollara gülüstan dedim,
Əbəs yerə bivəfaya “can” dedim,
Zəhmətin çox çəkdim, karın görmədim.

Huşum çaşdı, düşdüm olmaz oyuna,
Yetmədim gözəlin əsli-soyuna,
Aşiq oldum simasına, boyuna,
Hayıf ki, kamalda dərin görmədim.

Ələsgər, elmində olma nabələd,
Doğru söylə, sözün çıxmasın qələt,
Şahiddə iman yox, bəydə ədalət,
Qazıların düz bazarın görmədim.

## GÖRÜRSƏNMİ OĞRUN BAXAN GÖZƏLİ

Görürsənmi oğrun baxan gözəli,
Tərlan kimi necə cilvələnibdi?!
Öz nurundan xəlq eyləyib İlahi,
Gözləri qüdrətdən sürmələnibdi.

Xoş saatda xoş gəlibdi cahana,
Yoxdu gözəlliyə qüsur, bəhana,
Qənd əzilib dilə, dişə, dəhana,
Qaymaq dodaqlara bal bələnibdi.

Ələsgər qurbandı belə gəlinə,
Sona kimi cumub eşqin gölünə.
Gümüş kəmər xub yaraşır belinə,
Yaxası qızıldan düymələnibdi.

## GÖZƏLDİ

Ey şeyx, incik olma Yaxşı xanımdan,
Arif olan hər insana gözəldi.
Göz baxanda könül doymur zalımdan,
İstəyirsən məni qına, gözəldi.

Ruhun təzələnsin görəndə gərək,
Sən onun könlündə, o, səndə gərək,
Haqqa şükür qılsın hər bəndə gərək,
Kim nə deyir bu dövrana, gözəldi.

Çox baxıbsan, sənin gözün doyubdu,
Ələsgərin ciyərini oyubdu,
Çəkən çəkib, hər nişanın qoyubdu,
Xub yaraşır zinət ona, gözəldi.

## GÖZƏLLƏR[13*]

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə, gözəllər!
Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!

Qəmgin idim, sizi görüb gülürəm,
Qaşınız qiblədi, səcdə qılıram,
İkram ilə sizə sarı gəlirəm,
Siz də gəlin asta-asta, gözəllər!

Minəş Günə bənzər, Əsli bir Aya,
Şəms olub, aləmə salıbdı saya,
İncimərəm, qəsəm olsun Xudaya,
Qədəm bassa gözüm üstə gözəllər!

Sizi gördüm, çaşdı ağlım, kamalım,
Güllüyə qurbandı dövlətim, malım,
Olmayaydı bir qocalıq, bir ölüm,
Yaşayaydı bu həvəsdə gözəllər!

Pərzad məlakədi, Gövhər bir xanım,
Görən kimi yandı dinim, imanım,
Yazıq Ələsgərəm, sərgərdan canım,
Qurban sizin kimi dosta, gözəllər!

## GÜLƏNDAM[14*]

Səni gördüm, əl götürdüm dünyadan,
Ala gözlü, qələm qaşdı Güləndam!
Alma yanağını, ay qabağını,
Görən kimi ağlım çaşdı, Güləndam!

Tovuz kimi şux bəzənib durubsan,
Ala gözə siyah sürmə vurubsan,
Sağ ol səni, yaxşı dövran qurubsan,
Bu dünyanın sonu puçdu, Güləndam!

Heç demirsən, Ələsgərim hardadı?
Səbəb nədi, gülün meyli xardadı?!
Mənim gözüm qoynundakı nardadı,
Aşığa lütf etsən xoşdu, Güləndam!

## GÜLLÜ

Tovuz kimi qalxdın çeşmə başından,
Cəmi gözəllərin gözəli Güllü!
Almadı yanağın, büllur buxağın,
Dodaqların meyli, məzəli, Güllü!

Qıya baxdın, məni saldın zillətə,
Yusif kimi necə düşdüm qürbətə,
Hicran qəmi məni salıb möhnətə,
Səni gördüm, dərdim azalı, Güllü!

Ələsgər qurbandı, ay boyu minə,
İnci, mərcan xub yaraşır köysünə,
Tərsa üzün görsə, tez gələr dinə,
Alim görsə, gedər saz alı, Güllü!

## GÜLPƏRİ

Tanrı səni qüdrətindən yaradıb,
Gözəlliynə yox bəhana, Gülpəri!
Dodaqların batıb bala, qaymağa,
Qənd əzilib dil-dəhana, Gülpəri!

Ay gözəl, əlindən çəkirəm aman,
Səndən ayrılalı halımdı yaman,
Kirpiklərin oxdu, qaşların kaman,
Gözlərin qəsd eylər cana, Gülpəri!

Sızıldar həmişə, şan çəkər arı,
Gövhəri axtarıb tapar xirdarı,
Vallah, sənin kimi vəfalı yarı,
Dəyişməm sultana, xana, Gülpəri!

Ay gözəllər xası, əziz, mehriban,
Olmaz bərabərin huri, nə qılman,
Oğrun baxıb güldün yaşmaq altından,
Bir od saldın din-imana, Gülpəri!

Tovuz kimi sərdə telin oynaşır,
Onda eşqin bəhri qaynayıb daşır,
Yazıq Ələsgərəm, xəyalım çaşır,
Getmə göz önündən yana, Gülpəri!

## XOŞ GƏLDİN

Tərlan tamaşalı, maral baxışdı,
Qədəm qoyub, asta-asta xoş gəldin!
Yolun sadağası can ilə başdı,
Qurban sənin kimi dosta, xoş gəldin!

Biz ki ilqar keçirmişik aradan,
"Amin" desən, tez düzəldər Yaradan,
Könlüm yasdan çıxdı, qəlbim qaradan,
Gülə-gülə bu həvəsdə xoş gəldin!

Gözəllər sultanı, ay mələkzada,
Özün kimi gözəl yoxdu dünyada,
Sən ki Ələsgəri salıbsan yada,
O səbəbdən gözüm üstə xoş gəldin!

## XURŞİD

Camalın şöləsi nuri-təcəlla,
Çırağban eyləyib mahalı Xurşid!
Açıldı niqabı ay qabağından,
Aldı başdan ağlı, kamalı Xurşid!

Sərvi kimi sığal verib anası,
Guşunda güşvara, qızıl tanası,
Bağçalar bülbülü, göllər sonası,
Dağların ceyranı, maralı Xurşid.

Sağdışı Məlәkdi, var toy-büsatı,
Anası Nazənin, Həmzədi zatı.
Ələsgərəm, bu cür qızın qiymatı
Min tümən başlıqdı, bahalı Xurşid.

## İÇİNDƏ

On səkkiz min aləm, yetmiş iki dil,
Ülfət qılar bir bazarın içində.
Kimi ətlaz geyər, tirmə qurşayar,
Kimi üryan gəzər qarın içində.

Qafılsan, işindən tapmayıbsan baş,
Üz döndərər səndən qohum, yar, yoldaş.
Torpaq soyuq, bədən üryan, kəfən yaş,
Tək qalarsan dar məzarın içində.

Demək nə lazımdı, özün bilərsən,
Bir gün yaranıbsan, bir gün ölərsən,
Arsız-arsız nə gününə gülərsən?!
Yandırarlar səni narın içində.

Ələsgər söyləsin, sən mətləbi qan,
Belə qərar qoyub Qadiri-Sübhan:
Unutma ilqarı, itirmə iman,
İman durar düz ilqarın içində.

## İNCİMƏRƏM

İstər dara çəkdir, istər qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm.
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.

Firqətindən saralıban solanam,
İzin versən, yar, başına dolanam,
Əlli yol çapılam, yüz yol talanam,
Bir şey deyil dövlət-mal, incimərəm.

Ələsgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında,
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstündən yol, incimərəm.

## İTİBDİ

Müxənnət zamana, ay kəcirəftar,
Sitəmindən necə canlar itibdi.
Zülmünü nümayan eylədin aşkar,
Qurğular pozulub, sanlar itibdi.

Şər işdən nə tapdın, söyləsən, qanam,
Necoldu büsatım, dəmim, dəmxanam?!
Tülkü havalanıb, deyir aslanam,
Tüf dağıdan ac aslanlar itibdi.

Müxənnət meydanda "mənəm" deyibdi,
Bu dərd Ələsgərin qəddin əyibdi,
Kor yapalaq kəklik alıb yeyibdi,
Laçın ölüb, o tərlanlar itibdi.

## KAMİL OVÇU ÖLMƏYİNCƏ USANMAZ

Kamil ovçu ölməyincə usanmaz,
Əldən qoymaz belə sərxoş maralı.
Eşq oduna düşən aşkara yanmaz,
Mənim kimi pünhan-pünhan saralı.

Yolunda keçmişəm başu-canımdan,
Öldürsələr, qorxum yoxdu qanımdan,
Tərk oldum vətəndən, xanimanımdan,
İnsaf deyil, gəzmə məndən aralı.

Aşıq Ələsgərəm, söylənir adım,
Budu ürəyimdə mətləb-muradım:
Sənin ərin ölsün, mənim arvadım,
Gəzək hər ikimiz yaslı, yaralı.

## KƏSİLDİ[15]

Nagah badi-sərsər əsdi üzümə,
Ömür bostanımın tağı kəsildi.
Öz əlimdən xəta dəydi özümə,
Bədəndən qolumun sağı kəsildi.

Qəza tutdu, qədər məni budadı,
Ağlatdı dostları, güldürdü yadı,
Zəhrimara döndü ağzımın dadı,
Əlimdə şərbətim ağı kəsildi.

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Bu dərdü-möhnətdən, bu macəradan,
Dövlət getdi, hörmət qalxdı aradan,
Qapımızdan dost ayağı kəsildi.

Müqəddərdi, qaçmaq olmaz ölümdən,
Fələyin qılıncı dəydi belimdən,
Bir tülək tərlanım getdi əlimdən,
Ürəyimin bəndi, bağı kəsildi.

Çox qaçdım qəzadan, olmadı çara,
Bir vurmuşdu, bir də vurdu dübara,
Çinovniklər istədilər qurtara,
Dostlarım özümə yağı kəsildi.

Qul Ələsgər, işin müşküldü, müşkül,
Dərdini deməyə yoxdu əhli-dil.
Döy başına, fəğan eylə müttəsil,
Daha deyib-gülmək çağı kəsildi.

## KİMİ

Adı Tərlan, özü tərlan balası,
Cilvələnib tərlan tavarı kimi.
Üzün görən xəstə düşər müttəsil,
Turuncun novrəstə nubarı kimi.

Tökülüb zülfləri ayna qabağa,
Dodaq qaymaq, gül yapışıb yanağa,
Dolanır gözləri canlar almağa,
Şölə salır şahlıq fanarı kimi.

Bu gözəl Zeynəbin nışanasıdı,
Ləbləri qırxların peymanasıdı,
Dəhanı şahlığın xəzanasıdı,
Düzülüb dəndanı* mirvari kimi.

Mələklər şahıdı, gözəl sərvəri,
Xəstəyə dərmandı buxağın təri,
Camalını görən olur müştəri,
Misirdə Yusifin bazarı kimi.

Ələsgər gəlibdi əcəb yığnağa,
Şəki, Şirvan bir telinə sadağa,
Necə zinət verib eyvan, otağa,
Ətri qoxur Bağdad baharı kimi.

* Dəndan – diş

## KÖYNƏYİNƏ

Güləbətin qıyı tər sinən üstə,
Nə gözəl yaraşır, qız, köynəyinə.
Sinən Kəbə, köynək Kəbə örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Gözəl yaranıbsan qalu-bəladan,
Yanağın göyçəkdi güldən, laladan,
Zərgər gül doğrasın zərin tiladan,
Əlindən gəldikcə düz köynəyinə.

Ələsgər də dost yolunda sürünür,
Sinən üstə dərdə dərman görünür,
O köynəyə şux məmələr bürünür,
Onçu qurban olluq biz köynəyinə.

## QABAQDA[16]

Şəhrin şöləsindən buldum bələdi,
Xoş gəldi xoşuma halı qabaqda.
Pir mana göstərdi şah məqamını,
Gördüm cəmdi çox calalı qabaqda.

Neçə taxt qurulub nuri-münəvvər,
Neçəsi zəbərcəd, neçəsi gövhər!
Sağda, solda səf-səf yerir mələklər,
"Ya Hu!", "ya Hu!" – deyir qulu qabaqda.

"Ya Hu!" - deyib, bir-birinə uydular,
"Ya mən Hu!" – deyəndə təam qoydular,
Cümlə məxluq yemədilər, doydular,
Qaldı məcməyilər dolu qabaqda.

Neçə sirri gördüm, sir qaldım aşkar,
Səxavət əhlini yandırmadı nar.
Salavatnan işlər hər dükan, bazar,
Zay oldu dünyanın malı qabaqda.

Dünyada əl çəkmə sövmü-səlatdan,
Təmiz ver, qalmasın xümsü-zəkatdan,
Ələsgər, xof etmə puli-Siratdan*,
İrəhbərdi Cənab Əli qabaqda.

* Puli-Sirat (əslində poli-Sirat) – Sirat körpüsü

## QADAN ALIM

Səhər-səhər bağda gəzən nazənin,
Dəstinlə qönçəni üz, qadan alım!
Süsəndən, sünbüldən, lalə, nərgizdən,
Siyah tellərinə düz, qadan alım!

Sallanıb, sallanıb, özünü öymə,
Elə süzgün baxıb qəlbimə dəymə,
Yaralı bağrıma, gözəl, daş döymə,
Qoyma sinəm üstə köz, qadan alım!

Göyərçinsən, eyvanıma qonasan,
Ərz eliyəm, dərdi-dilim qanasan,
Əyri telli, yaşılbaşsız sonasan,
Gəl bizim göllərdə üz, qadan alım!

Durub hüsnün kitabına baxıram,
Şirin canım ataşına yaxıram,
Şövqə gəlib şirin-şirin oxuram,
Çatmır tərifinə söz, qadan alım!

Aşıq Ələsgərin dərdini bilsən,
Ağladıb, çeşminin yaşını silsən,
Əgər qədəm qoyub bir bizə gəlsən,
Yerin var, göz üstə, gəz, qadan alım!

## QALDI Kİ, QALDI

Durur nişanası Ağrı dağında,
Nuhun qiyamatı qaldı ki, qaldı.
Yarı tərəqqidi, yarı tənəzzül,
Çoxunun qisməti qaldı ki qaldı.

Özü öz işini bilməyən nadan
İbrət eləməzmi şahdan, gədadan?!
Hatəm nə müddətdi gedib dünyadan,
Bizə səxavəti qaldı ki, qaldı.

Ələsgər dönmədi öz ilqarınnan,
Biri xilaf deyil yüz ilqarınnan,
Sazınnan, sözünnən, düz ilqarınnan,
Ellərdə söhbəti qaldı ki, qaldı.

## QALMADI[17]

"Allah, Məhəmməd, Əli!" – deyənlər,
Pozuldu qurğular, mizan qalmadı.
Zamana bəd gəldi, insan bic oldu,
Seyiddə, mollada iman qalmadı.

Yığılın danışaq, qəlyan çəkənlər,
Bostan becərənlər, şitil əkənlər,
Ananov kağıza tütün bükənlər,
Qurtardı tənbəki, saman qalmadı.

Necoldu Serbiya, Çernoqoriya?
Əl-ayaq altında itdi İtalya,
German bir bomb atdı, qan oldu dərya,
Qırıldı, dünyada insan qalmadı.

Bağlanıb zavodlar, kəsilib qəndlər,
Qaynamır samavar, artıbdı dərdlər,
Niyə ağlamasın yazıq övrətlər,
Söküldü döşəklər, yorğan qalmadı.

Kül başına, iki arvad alanlar,
Öz evinə qüli-qalı salanlar,
………………………………
Kəsildi bərəkət, ayran qalmadı.

## QANAN OLA

Can qurban eyləsən, layıqdı, layıq,
Bir yar ki mətləbi tez qanan ola.
İşarətlə, qaş-göz ilə anlaya,
Özünə deməmiş söz qanan ola.

Canım qurban olsun o əhli-dilə,
Qaşların oynada, gözündən gülə,
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola.

Belə yar yetirə baxtın kövkəbi,
Dəsti qana ürəkdəki mətləbi,
Nə lazım dil deyib, tərpətmək ləbi,
Nə keçsə könlündən düz qanan ola.

Ələsgər söyləyər söz müxtəsərin;
Ağlı kamil ola, kamalı dərin.
Eşidənlər deyə "əhsən!", "afərin!",
Əgər məclisində yüz qanan ola.

## QAŞLARIN

Ay nazənin, ay qabağın altından
Nə göyçək çəkilib qara qaşların!
Gözlərin süzüldü, canım üzüldü,
Vurdu ürəyimə yara qaşların.

Əslin mələk, cismin huri, qılmandı,
Camalın şoxundan ciyərim yandı,
Zülümkardı, çox nainsaf divandı,
Rəhm eləmir günahkara qaşların.

Gözlərin görənin canını alır,
Həsrətini çəkən vaxtsız qocalır,
Sərdarı, sultanı taxtından salır,
Bərhəm vurur ürüzgara qaşların.

Gözüm qaldı hilal qaşın tağında,
Məcnun oldum, qaldım Leyli dağında,
Yazıq Ələsgəri qoca çağında,
Zülm ilə çəkdirir dara qaşların.

## QIJHAQIJ

Hər kəsin qəsdindən aşıqlıq keçir,
Qarşı gəlsin, edək cəngi qıjhaqıj.
Dəli könül dərya təki çalxanır,
Qeyzə gəlir xoş ahəngi qıjhaqıj.

Hər kəs istər qana aşıq sirrini,
Axtarsın dayazı, gəzsin dərini,
Qilü-qala salan olsa sərini,
Siyah çalar qızıl rəngi qıjhaqıj.

Ələsgərin qəddi Sinaya yetər,
Dərs alanlar gedər "sin" aya yetər,
Əzrayıl qəsd eylər, sinaya yetər,
Can alar dəstində çəngi qıjhaqıj.

## QIRMIZI

Yanağı qırmızı, buxağı ağdı,
Çırağban eyləyib ağı qırmızı.
Ala gözlərinə gözüm sataşdı,
Əridi ürəymin yağı qırmızı.

Qüdrətdən çəkilib qaməti-şahbaz,
Mərnus dizlik geyib, çəpgəni atlas,
Buxaq düyməlınib kağızdan bəyaz,
Mərcan düzüb boyunbağı qırmızı.

Sərrafam, gövhəri, kanı itirdim,
Dəftəri, hesabı, sanı itirdim,
Üzün gördüm, din-imanı itirdim,
Çəkdi sinəm üstə dağı qırmızı.

Ələsgərin meyli ondan üzülməz,
Əgər ayrı düşsə, şad olub gülməz,
Xəstə düşər, ölməsə də, dirilməz,
Müxtəsəri, sözün sağı, qırmızı.

## QOCA BAXTIM

Nə sevda tapıbsan, nəyə talıbsan,
Hansı qəflətdəsən, gəl, qoca baxtım!
Ya məndən küsübsən, ya qocalıbsan,
Bu sınıq könlümü, al, qoca baxtım!

Çəkilib pünhana, deyirsən: – Sən döz,
Qiyamət odundan pisdi tənə söz,
Gümüşüm tunc oldu, zərü zibam - bez,
Qəlp çıxır aldığım mal, qoca baxtım!

Özüm aşıq oldum, oğlum - gülləçi,
Bildim ki, qalacaq dövlətin üçü,
Qırıldı mal-qoyun, qalmadı keçi,
İndi də yıxılıb kal, qoca baxtım!

Mardan şirə çəkib, daşdan keçərdin,
Dəryalardan ləlü-gövhər seçərdin,
Pərvazlanıb Qafdan-Qafa uçardın,
Keçən günü yada sal, qoca baxtım!

Təqdir üçün yaxşı deyil bu adət,
Gah güldürür, gah eyləyir xəcalət,
İyidlər at vermir, gözəllər - xələt,
Gəlmir tənbəkiylə bal, qoca baxtım!

Səksəni, doxsanı ötübdü yaşım,
Gor deyə tərpənir bəlalı başım,
Əzrayıl həmdəmim, məzar yoldaşım,
Daha köç təblini çal, qoca baxtım!

Ələsgər kəsilib səbrü-aramdan,
Oxlayıbsan, qanlar axır yaramdan,
Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım!

## QOYMADI

Heç kəs mənim kimi keçib sərindən,
Sinəsin oxlara nişan qoymadı.
Könül pərvazlandı yarı görməyə,
Qar kəsdi yolları, boran qoymadı.

Yar çıxdı qarşıma yaman halımda,
Gözüm qaldı o nainsaf zalımda,
Söynalı başını qoydu yolumda,
Hüseyn pəl vurdu, Hasan qoymadı.

Ağ çit dizlik geyib, köbəsi ala,
Gör necə çinləyib qabağa, dala,
Əndamın quyruqdu, asta çalxala,
Aldı, məndə dinü-iman qoymadı.

## MƏNƏM

Ağıldan kəm, huşdan çaşqın, dildən küt,
Naqabil, kəlməsi bisəmər mənəm.
Məcnun kimi viranələr küncündə,
Sərgərdan, səhrayi-qələndər mənəm.

İbadət vaxtında müşkülhal oldum,
İblis əməlində pürkamal oldum,
Qəza vurdu, sin* içində lal oldum,
Hər sözü dillərdə bir dəftər mənəm.

Sənətim məsiyət, yoxdu savabı,
Nəkreyinə dilim tutmaz cavabı,
Ədalət hakimin payi-turabı,
Kamil ustadlara qul kəmtər mənəm.

Dolandım bihudə, gəzdim əfsana,
Tabe oldum nəfsə, uydum şeytana,
Xeyr əməlim yoxdu mərdü-mərdana,
Günahkar, günahkar, günahkar mənəm.

Dünyanın cifəsi aldatdı məni,
Unutdum üqbanı, tutdum dünyanı,
Bağışla təqsirim, ya kərəm kanı,
İrəhm eylə, yazıq Ələsgər mənəm!

* Sin – qəbir

## MƏNİ[18]

Xədd ağardı, isbat oldu qocalıq,
Bəyənmir gəlinlər, qızlar da məni.
İqbal üz döndərib, baxtım yatıbdı,
Gör necə qoyubdu düzlərdə məni!

Layiq deyil qəmzə sata yar yara,
Sərraf yoxdu, dərdim çəkəm bazara,
Məcnun kimi necə qoydu avara,
Tanrı burda səni, bizlərdə məni.

Yazıq Ələsgərdən dönüb üzləri,
Dost yad olub, yada salmır bizləri,
Bivəfa gözəlin tənə sözləri,
Yandırdı odlarda, közlərdə məni.

# MƏNİM[19]

Sulidin*, firudin* dilim əzbəri,
Oxusam, xoş gələr avazım mənim.
Qunut, rukum, bir də səcdəm səhv olsa,
Neyləsəm, səhihdi namazım mənim.

Günahkardı nə ki yoldan azan var,
İki mələk - xeyir-şəri yazan var,
Ərəsət var, Qıl körpü var, qazan var,
Orda qəbul olsun niyazım mənim.

Ələsgərə şərü-böhtan deyənlər,
Şeytana qul olub, riba yeyənlər,
Zəkatsız dövlətə halal deyənlər,
Onlardan halaldı bu sazım mənim.

* Sulidin – üsuli-din (dinin kökləri)
* Firudin – firui-din (dinin budaqları)

## MƏNİM

Bilmirəm ki, nə bəlalı qul oldum,
Əzəl qara gəldi iqbalım mənim.
Nə zaman ki, nəzərimə sataşır,
İtir ağlım, huşum, kamalım mənim.

Əsli-Kərəm kimi mən oda yandım,
Eşqə düşdüm, öz canımdan usandım,
Bimürvətin atəşinə qalandım,
Bir soruşan yoxdu əhvalım mənim.

Siyah zülfün dal gərdəndə hörəsən,
Əl uzadıb, qönçə gülün dərəsən,
İstəsən ki, Ələsgəri görəsən,
Göyçə mahalıdı mahalım mənim.

## MÜŞGÜNAZ[20]

Sübhün çağı mah camalın görəndə,
Xəstə könlüm gəldi saza, Müşgünaz!
Sonatək silkinib, gərdən çəkəndə,
Bənzəyirsən quba* qaza, Müşgünaz!

Camalın görəndə Aya bənzəyir,
Sallanışın Züleyxaya bənzəyir,
Qabaq ayna, qaşın yaya bənzəyir,
Qiymət yoxdu ala gözə, Müşgünaz!

Dörd tərəfin bənövşəli bağ olsun!
Həmişə yediyin bal-qaymağ olsun!
Sağ-solunda qardaşların sağ olsun!
Corabları yaxşı bəzə, Müşgünaz!

Könül qəmgin, ürək dərdli, vərəmli,
Səni gördüm səxavətli, kərəmli,
Bir mirzə lazımdı əli qələmli,
Mən deyəm, vəsfini yaza, Müşgünaz!

Ötkün sözüm, kəskin baxtım olaydı,
Ağ otağım, zərrin raxtım olaydı,
Ələsgərəm, cavan vaxtım olaydı,
Qəddim əyib qəhri-qəza, Müşgünaz!

* Quba – qırmızıya çalan ağ rəng mənasında olub, gözəllik rəmzi hesab olunur.

## NƏ DAMAĞI VAR

Göz gözə baxanda məhəbbət ilə,
Ciyər alışmağın nə damağı var!
Ortalıqda işvə, qəmzə, naz olar,
Küsüb-barışmağın nə damağı var!

Quşnarov tütünlə Ananov kağız,
Bükə paprosunu bir növrəstə qız,
Bir o ola, bir sən, bir otaq yalqız,
Deyib-danışmağın nə damağı var!

Dura qulluğunda canü-baş ilə,
Nazü- qəmzə ilə, gözü-qaş ilə,
Gah yalvarmaq ilə, gah savaş ilə,
Köysünü açmağın nə damağı var!

Könül müştaq ola xətti xalına,
Məlakə şəklinə, mah camalına,
Alma kimi yanağınıın alına,
Gözün sataşmağın nə damağı var!

Ələsgər, canını qurban elə sən,
Görməyibsən, ləzzətini biləsən,
Danışasan, oynayasan, güləsən,
Öpüb sarmaşmağın nə damağı var!

## NİŞANASI

Ay ariflər, gəlin sizə söyləyim,
Kəsilib üstümdən yar nişanası.
Dost uzaq olmaqla könül yad olmaz,
Ölüncə qəlbimdə var nişanası.

Nütfədən pak olan özü pak olar,
Mömindən törəyən xoşidrak olar,
Əndəlib qan ağlar, zəhri çak olar,
Görsə gül üstündə xar nişanası.

Ələsgərəm, qərq olmuşam bu qəmə,
Hədyan sözlər dağ çəkibdi sinəmə,
Nakəs, müxənnətdən mətləb diləmə,
Yoxdu namus, qeyrət, ar nişanası.

## OLA

Hər yetən gözələ "gözəl" demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Hər görəndə həsrət ilə sarışa,
Deyə, gülə, şirin-şirin danışa,
Əl dəyəndə tez-tez küsə, barışa,
Ortalıqda söhbət ola, saz ola.

Nə uzun, nə gödək, münasib gərək,
Ağzı, burnu nazik, dodaq kip gərək,
Əndam büllur, bədən güldən saf gərək,
Baxtın vura, bu nişanda qız ola.

Ərdən boşanmışdan bir az kənar dur,
Dul qalan gözələ bax, boynunu bur,
Ələsgər, torunu sən tərlana qur,
Bəlkə, tora düşən bir şahbaz ola.

## OLA BİLMƏZ[21*]

Sərraf yüz bəzəsə səngi-siyahı,
Üzdən mütəlladı, ləl ola bilməz.
Məgəs[*] fəqan eylər zənbur sövtilə,
Künhü yox, fəmində bal ola bilməz.

Qafil olma, dilim, düşmə həvəsdən,
Hərcayı sözüylə incimə dostdan,
Muşlar pələng olmaz, tülkülər aslan,
Danalar meydanda kəl ola bilməz.

Ustad dərin, kamal dərin, söz dərin,
Qoydun sinəm üstə eşqin közlərin,
Qabiliyyətsiz, mərifətsiz qızların,
Yüzü bir dərdimənd dul ola bilməz.

Müddətdi həsrətəm, camalın görəm,
Mətləbimi Mürtəzadan dilərəm,
Müxənnəsdə səxa, nakəsdə kərəm,
Namərdin cibində pul ola bilməz.

Könül, doğru yoldan gəl olma kənar,
Əyri yola gedən Haqdan utanar,
Bu, bir müəmmadı, ariflər qanar,
Nadan bu elmdən hal ola bilməz.

Ələsgərəm, cəm eylərəm dəftəri,
Mərdlərin vəsfidi dilim əzbəri,
Naxçıvan xanları, Şəril bəyləri,
Səxada Səmədə qul ola bilməz.

[*] Məgəs – milçək

## OLACAQDI

Dedim, könül, içmə eşqin camını,
İçsən, dünya sana dar olacaqdı.
Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran, qar olacaqdı.

Aldanma dövlətə, uyma dünyaya,
Kəsb eylə özünə halaldan maya,
Zinakar, haramxor yetişməz baya,
Dosta xain baxan kor olacaqdı.

Sərgərdan qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhaba!
Novrəstə gözəllər tapmasın hava,
Qönçənin həmdəmi xar olacaqdı.

Hesabdarlar gələr, çəkər hesabı,
Günahkarlar necə gətirər tabı?!
Mizan, Sirat, sual, qəbir əzabı –
Bu işlər qabaqda var, olacaqdı.

Ələsgər, axtarma qüdrətin sirrin,
Zülmətə işıq var, acıya – şirin.
Zikr eylə dilində mərdlərin pirin,
Qorxma, dar günündə yar olacaqdı.

## OLAR

Haqq meyi islama haram buyurub,
Dərd tüğyan eyləsə, mey içmək olar.
Dostun məzəmməti adam öldürür,
Düşmanla söyüşüb, döyüşmək olar.

İyid odu namusunu atmasın,
Dost ölüncə dosta yalan satmasın,
Bir baş ki ilqara qurban getməsin,
Onu bir qarpıza dəyişmək olar.

Ələsgərəm, mən yetiyəm hər işə,
Bir könül ki bir könüllə barışa,
Göz gözə baxanda halın soruşa,
Aləm düşman olsa, görüşmək olar.

## OLMAZ[22]

Bu dünyada mən təcrübə eylədim,
Nakəs körpüsündə heç bünyad olmaz.
Bir mərd ilə ağı yesən, şirindi,
Yüz namərdlə şəkər yesən, dad olmaz.

Yadın oğlu yağlı aşa mehmandı,
Dar günündə görərsən ki, usandı,
Düşman günü düşmanınla düşmandı,
Yüz il keçə, qohum sənlə yad olmaz.

Ələsgərin sözün yetir nisaba,
Sərf edənlər* səbt eləsin kitaba,
Heç namərdin adı gəlməz hesaba,
Mərd bir olar, onda iki ad olmaz.

---

* Sərf edənlər- seçənlər, ayırd edənlər, fərqləndirənlər

## OLMAZ

Arif məclisində bir söz söylərəm,
Nə hədyan, nə çaşqın, nə qələt olmaz.
Nütfədən pak olan, loğmadan halal,
Mərifət elminə nabələd olmaz.

Bir söz söyləyərəm, ariflər qanar,
Müxənnətlər etdiyindən utanar,
Varlıqda dost olma, yoxluqda - kənar,
"İyidəm" deyəndə bu adət olmaz.

O dünyanı, bu dünyanı gözləyən,
Həm savabı, həm üsyanı gözləyən,
Namus qədri bilib, nanı gözləyən,
İnşallah, heç yerdə xəcalət olmaz.

Bir şəxsin sənəti istəmək ola,
Səxavət eyləməz, Hatəm-Tey ola,
Dövlət tapa, gədalıqdan bəy ola,
Başı ərşə çıxsa, ədalət olmaz.

Ələsgər, mətləbin Xudadan istə,
Kərəm olmaz müxənnəsdə, nakəsdə,
Bəylik, göylük, səylik olan məclisdə,
Qaç ki, orda xeyir-bərəkət olmaz.

# OLMAZ[23]*

Qabiliyyətdə, mərfətdə, kamalda,
Bu cahanda sənin kimi can olmaz.
Camalını görən tapar imanı,
Görüb ayrı düşən müsəlman olmaz.

Səni görən aşiq düşməz həvəsdən,
Əl götürməz bu söhbətdən, bu bəhsdən,
Müxtəsəri, meylin dönsə hər kəsdən,
Gözündə nur, cəsədində qan olmaz.

Qüdrətdən çəkilib qaməti-şahbaz,
Sən gələn yollara üzüm payəndaz,
Mən ölüm, aç üzün, çox eyləmə naz,
Göz gözə baxmasa, mehriban olmaz.

Gözəlliyin Haqq isbata yetirib,
Əsmər yanağında güllər bitirib,
Züleyxa təmkini səndən götürüb,
Sənintək nə mələk, nə qılman olmaz.

Ələsgərəm, yandım-yandım, alışdım,
Pərvanətək ataşlara sarışdım,
Gizlin sirrim mən Loğmana danışdım,
Sənsiz bu dərdimə heç dərman olmaz.

## OLMAZ, OLMAZ

Aşiq olan eşqə düşər, dərd çəkər,
Mənim kimi dərdi yüz olmaz, olmaz.
Hər ağacdan sandal, hər yarpaqdan gül,
Hər torpağın tamı duz olmaz, olmaz.

Sözün yeri gəldi, qoy deyim barı,
Eşidənlər məni görməsin karı,
Aşığın nisyəsi, kürdün ilqarı,
Desələr, inanma, düz olmaz, olmaz.

Zikirsiz mömini şeytan aldadar,
Saygısız iyidi düşman aldadar,
Ağılsız cahili kirşan aldadar,
Günü keçmiş qarı qız olmaz, olmaz.

Görməmişəm öküz yeriyə yorğa,
Gədadan bəy olmaz, dəlidən darğa,
Suda çimmək ilə sağsağan, qarğa,
Göldə silkələnib, qaz olmaz, olmaz.

Ələsgər, sərrafsan, gövhəri tanı,
Dosta qurban olsun düşmanın canı,
Comərdin kisəsi, mərdlərin nanı,
İnşallah, ölüncə az olmaz, olmaz.

## OLMUŞAM

Ələstü bürəbbüküm qalu-bəladan,
Mərdin mövlasına nökər olmuşam.
Sürtmüşəm üzümü xaki-payına,
Elm tapıb, sinədəftər olmuşam.

On bir aydı, mənim üzüm gülmədi,
Qəza qəhri məndən heç üzülmədi,
Yaxşı dostlar yaman gündə gəlmədi,
Dost sarıdan çox mükəddər olmuşam.

Baxt yatanda qohum-qardaş yad olu,
Məğrurluq eyləyən namurad olu,
Bayram günü islam olan şad olu,
Mən qəmgin olmaqda kafər olmuşam.

Ələsgərəm, düşdüm qəza qəhrinə,
Fələk top bağladı ömrüm şəhrinə,
Eynim yaşı dönüb Ceyhun nəhrinə,
Ağlamaqdan zarü-müztər olmuşam.

## OYNAMASIN

İltimas eylərəm gedən canlardan,
Dost-düşman içində yar oynamasın!
Cavandı, oynamaq ona xoş gəlir,
Bizə əysikliyi var, oynamasın!

Xudam, mərdin işin salma müşkülə,
Əhli-dili yetir sən əhli-dilə,
Bülbülü gülə yaz, gülü-bülbülə,
Qönçənin üstündə xar oynamasın!

Ələsgərəm, gözəllərdi əzbərim,
Belə mürvət olmaz, Kərrari-Kərim!
Zəhmət-zillət çəkən yazıq əllərim,
İnsafdımı, səndə nar oynamasın?!

## ÖLDÜRÜR

Dərdim çoxdu, dindirməyin, həzarat!
Məni bir alagöz ceyran öldürür.
Qılıncsız, tüfəngsiz alır canımı,
Kimsə bilmir, pünhan-pünhan öldürür.

Heç bilmirəm neyləmişəm, neylərəm,
Xəncər alıb, qara bağrım teylərəm,
Bir canım var, yara qurban eylərəm,
El desin: "Aşıq da qurban öldürür".

Ələsgərəm, bir gözələ mehmanam,
Ölməyincə çətin dönəm, usanam.
Əzrayılı qanlı tutmasın anam,
Məni bir kirpiyi peykan öldürür.

## SALAMATDI[24]

Pasibanı oldum dost irahının*,
Soruşdum, öyrəndim, yar salamatdı.
Belə məlum olur, şahlar şahının
Bizə mərhəməti var, salamatdı.

Çox obadan, ağır eldən keçibdi,
Pələng, əjdahalı koldan keçibdi,
Coşqun dərya, daşqın seldən keçibdi,
Öldürməyib boran-qar, salamatdı.

Çox əziyyət verib yağmur, bərfü-bad*,
Xətrinə dəyməyib nə düşman, nə yad,
Gözün aydın olsun, könlün olsun şad,
Çəkməginən intizar, salamatdı.

Təb dəyişib, haldan-hala dönübdü,
Cilvələnib, bir marala dönübdü,
Ləblərinin şəhdi bala dönübdü,
Qoynundakı bir cüt nar salamatdı.

Ələsgərəm, baxtı qara çək məni,
Qul adına bir bazara çək məni,
Gülləynən öldürmə, dara çək məni,
Dil deyir: – Güllədən dar salamatdı.

---

* İrah (rah) – yol
* Bərfü-bad – qar-külək

## SANA QURBAN[25]

Bir sözüm var sana pünhan deməli,
Qayıl olsan, deyim, gül, sana qurban!
Nə müddətdi həsrətini çəkirəm,
Söyləyim, dərdimi bil, sana qurban!

Cünun olduğumu hər mahal bildi,
Dərd məni söylətdi, düşmanlar güldü,
Bivəfa qızlardan əlim üzüldü,
Eylərəm canımı, dul, sana qurban!

Ələsgəri gözdən qoyma irağa,
Könül tab gətirməz dərdi-fərağa,
Leyli kimi vədə versən bulağa,
Məcnuntək gözlərəm il, sana qurban!

## SARIKÖYNƏK

Cilvələnib, nə qarşımda durubsan,
Anam sana qurban, ay Sarıköynək!
Mələksən, çıxıbsan Cənnət bağından,
Heç kim olmaz sana tay, Sarıköynək!

Doymaq olmaz işvə, qəmzə, nazından,
Fərə kəklik kimi xoş avazından,
Yel vurdu, rübəndi atdı üzündən,
Elə bildim, doğdu Ay, Sarıköynək!

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala,
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, Sarıköynək!

Gərdənə yaraşır qızıl hamayıl,
Görənin ağlını eyləyib zayıl,
Həsrətin çəkənlər olubdu sayıl,
Yığır qapılardan pay, Sarıköynək!

Tutu dilli, sərvi boylu Salatın,
Yoxmu mərhəməti bu səltənətin?!
Göndər gəlsin Ələsgərin xələtin,
Eyləmə əməyin zay, Sarıköynək!

## SEÇİLMİŞ[26]

Xublar məclisinə güzar eylədim,
Gördüm gözəllərin xası seçilmiş.
Baxdım, diqqət ilə nəzər eylədim,
Gül əndamı, tər libası seçilmiş.

Olum sadağası bu gözəllərin,
Mərfətdə kamildi, kamalda dərin,
Əsəli-müsəffadı şəhdi-ləblərin,
“Əsəl” – baldı, “müsəffa”sı – seçilmiş.

Demə Ələsgərin ağlı zayıldı,
Şəmsü-Qəmər mah camala mayıldı,
Gözüm gördü, könlüm qəmdən ayıldı,
Şikəstə qəlbimin pası seçilmiş.

## SƏNSƏN[27]

Yüz iyirmi dörd min nəbi gəlibdi,
Cəmi ənbiyanın ədədi sənsən.
Sidqilə hər kim ki çağırsa səni,
Zahirdə, batində mədədi sənsən.

Haqq verməsə, qonşu payı pay olmaz,
Doğru yola əmək çəksən, zay olmaz,
Bəndədən bəndəyə bir haray olmaz,
Darda qalanların səmədi sənsən.

Ələsgər çağırır Əliyyül-əla,
Qeyzə gəldi, zərbə vurdu Salsala,
Zərbindən titrədi Xeybərtək qala,
Münkirin dünyada cəlladı sənsən.

## SÖZÜMDƏN İNCİMƏ, ÖZÜMDƏM KÜSMƏ

Sözümdən incimə, özümdən küsmə,
Şərti kəsək, şəriəti atmayaq.
Şen olsun ocağın, var olsun evin,
Bu işini o işinə qatmıyaq.

Bilirsənmi, nə deməkdi "Bismillah"?
Yadına düşürmü Kəbə – Beytullah?
Cümlə məxluqatı yaradıb Allah,
Allah yaradanı biz də satmıyaq.

Ələsgərin nəfsi binadan toxdu,
Səxavətin yoxdu, sözlərin oxdu,
Bizim borcumuzdan sizinki çoxdu,
İstəyirsən gedək, gecə yatmıyaq.

## ŞİRİNDİ[28]

Bir gözəl görmüşəm Çayqılışlıda*,
Boy-büsatı, hər növrağı şirindi.
Bəstə boyu, ağ əndamı, gül üzü,
Baxdıqca qaşının tağı şirindi.

Həsrət baxan doymaz ay qabağından,
Şahmar zülf tökülüb solu-sağından,
Öpən ölməz onun gül yanağından,
Əmmək üçün dil-dodağı şirindi.

İncik olub ulusundan, elindən,
Ənkabut*tək can asılır telindən,
Yazıq Ələsgərə nazik əlinnən,
Mərhəmət eyləsə ağı, şirindi.

---

* Çayqılışlı – Kəlbəcər rayonunda kənd adıdır.
* Ənkabut – hörümçək

## TELLİ

Şahmar zülflərini görəndən bəri,
Dərdim artıb, dönüb ümmana, Telli!
Ay kimi şox salır ayna qabağın,
Çoxların eyləyib divana, Telli!

Görən mayıl olur hər nizamına,
Neçə pərvanələr yanır şamına,
Yaraşır libasın gül əndamına,
Mən deyirəm mərdü-mərdana, Telli!

Yaradan pozmasın bu növrağını,
Başatan yandırsın şam-çırağını!
Ala gözlərini, gül yanağını,
Tərsa görsə, gələr imana, Telli!

Ağ buxağın işıqlıdı büllurdan,
Ləblərin innabı, dəhanın dürdan,
Yaradan xəlq edib bir qətrə nurdan,
Düşübsən ellərə nişana, Telli!

Ələsgərəm, şad olmadım dünyada,
Səni gördüm, dərdim oldu ziyada,
Üzün bəri döndər, ay mələkzada,
Səni and verirəm peymana, Telli!

## TÖKÜLDÜ[29*]

Bir dili qurumuş “kaf”, “lam”, “sad”– dedi,
Yandı, ürəyimin yağı töküldü.
Huş başımdan getdi, ağlım dağıldı,
Əlimdə istəkan sağı töküldü.

Abad könlüm yenə oldu tarimar,
Köhnə yaralarım eylədi qubar,
Qabağımda taam oldu zəhrimar,
Sanasan, süfrəmə ağı töküldü.

Ələsgərəm, bir ilqardan ötəri,
Xəstə könlüm ağlar nardan ötəri,
Bir gül bəsləyirdim yardan ötəri,
Xəzan vurdu, gül yarpağı töküldü.

## ÜRƏYİMDƏ[30*]

A bimürvət, nainsafın balası,
Mən səni seçmişdim sağ ürəyimdə.
Həsrət çəkdin, ortalığa qəm əkdin,
Qara nöqtə qoydun ağ ürəyimdə.

Mərfət şərbətini içə bilmirəm,
Şəriət dəryadı, keçə bilmirəm,
Sirr sözüm yadlara aça bilmirəm,
Qaldı qiyamətə dağ ürəyimdə.

Ələsgər heç çıxmır qəm libasından,
Göz doymur gözünün təmənnasından,
Cəhənnəm xofundan, eşq havasından,
Əridi, qalmadı yağ ürəyimdə.

## ÜZÜN BÜRÜMƏ

A bimürvət, həsrətini çəkməkdən
Yetişmişəm cana, üzün bürümə!
İllər ayrısıyıq, fürsət düşəndə,
Çəkilib pünhana, üzün bürümə!

Yusif kimi məni saldın azara,
Təbibimsən, eylə dərdimə çara,
Ya buyur cəllada, ya çəkdir dara,
Ya yetir dərmana, üzün bürümə!

Yazıq Ələsgərəm, mən sana qurban,
Xəstəyəm, dərdimə, gəl, eylə dərman,
Sən mələkzadasan, ay huri, qılman,
Gəlmişəm qurbana, üzün bürümə!

## VARDIR[31*]

Rişeyi-nübüvvət, nəsli-əlaya,
Əysik qulun ərzi-salamı vardır.
Üç yüz altmış altı gündü, qırx səkkiz həftə,
On iki ayın üç əziz bayramı vardır.

Beş - Pənci-Ali-Əbadı, əzimü-əziz,
On iki imam, çardəh məsum düzbədüz,
Yüz iyirmi dörd min peyğəmbərimiz,
Hər birinin ayrı məqamı vardır.

Altı min altı yüz altmış altı gül,
Yüz on dörd surədi Quran, yəqin bil.
Altmış nisfi[*], otuz cüzi-müttəsil,
Doxsan min kəlmədə tamamı vardır.

Elmi-ibadətdi əcayib Quran,
On yeddi rükətdi, on səkkiz xoş xan,
Əlli bir sünnətdi, yerbəyer qılan,
Məxrəci, səktəsi, idğamı vardır.

Ələsgərəm, qəmdən olmaram azad,
Haqdı mizan, Sirat - puli-qiyamat.
Üsyan, tüğyan, çaşqın, düşkün, bisavad...
Ah çəkmək dilimdə müdamı vardır.

---

[*]Nisfi- keçən nəşrlərdə səhvən “nisbi” getmişdir.

## VARIYMIŞ[32]

Nələr gördüm, gəşt elədim dünyanı,
Hər bir işin qilü-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış.

Haqq sözə gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun,
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış.

Qayım ağa, niyə fikrə dalırsan,
Yoxsa ki, özündən hesab alırsan?!
Sayılmaz mehmana keçə salırsan,
Sayılan qonağa xalı varıymış.

Çox gəzmişəm, az görmüşəm danəndə,
Deməliyəm sözün yeri gələndə,
İnsan üzün görməyəsən dönəndə,
Açılanda xoş camalı varıymış.

Ataş alıb, çox da yanma, Ələsgər,
Sənətindən heç usanma, Ələsgər,
Öz-özünə qubarlanma, Ələsgər,
Bu dünyanın Rüstəm-Zalı varıymış.

## YA ƏLİ

Sidq ilə tutmuşam, çağırram səni,
Xeybərin qalasın alan, ya Əli!
Hər kim ayırarsa yarı yarından,
Elə tacü-taxtın talan, ya Əli!

Aslan olub, merac yolunda yatan,
Əbu-Cəhlin daşın havaya atan,
Xurma lifəsiylə barmağın çatan,
Ağ devi zindana salan, ya Əli!

Ələsgərə nişan verən almanı,
İslam edən Qənbər ilə Salmanı,
Musaya öyrədən Turda kəlməni,
Cəbrayıla ustad olan, ya Əli!

## YAXŞIDI[33]

Gəşt elədim, bu dünyanı dolandım,
Kəlbəcərin xeyir-şəri yaxşıdı.
Məscid, minarəsi, məktəbxanası,
Torpağı şirindi, yeri yaxşıdı.

Züleyxa təmkinli gözəllər hamı,
Siması, libası, qurğu, nizamı,
“Qardaş” deyib, dindirirlər adamı,
Hörmətləri, mərfətləri yaxşıdı.

Hasanalı Kəlbəcərdə bir xandı,
Zümrüd kəlməlidi, fəsih zəbandı,
Kamal kamandardı, atıb-vurandı,
Qovğa günü iyidləri yaxşıdı.

Yeyin olsun Nəbi bəyin iqbalı,
İsgəndər calallı, Hatəm səxalı,
İnəyin kərəsi, beçənin balı,
Çayı, qəndi, samavəri yaxşıdı.

Ələsgər mərd gördü, bir dəftər açdı,
Tərlan qaynaqlıdı, aslan savaşdı,
İyidlərdə Nəbi hamıdan başdı,
Gözəllərdə Nənəpəri yaxşıdı.

## YAXŞIDI

Arif olan, gəlin sizə söyləyim,
İyid sözü mərd-mərdana yaxşıdı.
Kişi gərək dediyindən dönməsin,
Biilqardan bir zənana yaxşıdı.

Qəlbi düz olanın evi hac olu,
Qonşuya kəc baxan özü ac olu,
İkiarvadlılıq mardan ac* olu,
Bez geydirsən bir canana yaxşıdı.

Ələsgər Kövsərdən badə içəndə,
Gəşt eləyib, mərd iyidi seçəndə,
Güzəran xoş olub, gün xoş keçəndə,
Ağ otaqdan tövləxana yaxşıdı.

* Ac – acı

## YAXŞI HÖRMƏTİNƏN, TƏMİZ ADINAN

Yaxşı hörmətinən, təmiz adınan,
Mən dolandım bu Qafqazın elini.
Pirə ata dedim, cavana – qardaş,
Ana-bacı bildim qızı, gəlini.

Hər kəs bu dünyanı fanı bilməsə,
Həm savabı, həm üsyanı bilməsə,
Namusu gözləyib, nanı bilməsə,
Əli Zülfüqarı kəssin belini!

Bədəsildən hərgiz olmaz heç əsil,
Lənət sana gəlsin, pis soy, pis nəsil!
Firib-fəsad ondan qalxar müttəsil,
Ölüncə tərgitməz öz əməlini.

Yaxşı tanı, dağıtmaynan huşunu,
Dostun oğraşısan, qandım işini,
Badkeş* bənd eləmə, çək qəmişini,
Nəzmə cəzm eyləmə şeytan felini!

Yazıq Ələsgərəm, bir kəminə qul,
Əysik sözü hərgiz etmərəm qəbul,
Bəndeyi-Xudayam, ümməti-Rəsul,
Dost tutmuşam Şahi-Mərdan Əlini.

* Badkeş – 1) müalicə məqsədi ilə kürəyə qoyulan küpə; 2) divarda daşların arasına vurulan suvaq

## YANDIRIR

Arif olan insafından keçməsin,
Mən fağırı qəm ataşı yandırır.
Heç kimsəni eşq oduna düşməsin,
Ahəni* əridir, daşı yandırır.

Hər kim görmək istər yarı pünhandan,
Daim çəkər ahü-zarı pünhandan,
Atəşi ürəkdən, narı pünhandan,
Kirpiyi oxlayır, qaşı yandırır.

Bivəfa gözəli tez tapsın əcəl,
Yüz il qalsa ondan çıxmaz xeyr əməl,
Ərə "get-get" deyər, oynaşa "gəl-gəl",
Həm ərini, həm oynaşı yandırır.

Vaxtın keçdi, xəddin çaldı, Ələsgər!
Sərf edirsən nə kamaldı, Ələsgər!
Bir sirr gördü, heyran qaldı Ələsgər –
Ayaq oda yanmır, başı yandırır.

* Ahən – dəmir

## YARAŞIR

Sallana-sallana gələn Salatın,
O sərxoş yerişin yola yaraşır.
Salıbsan gərdənə heykəl-həmayıl,
Qızıl bazubəndlər qola yaraşır.

Sinəm dərd əlindən oldu yaralı,
Səni görənlərin çaşır xəyalı,
Bürüyüb zülfünü başının şalı,
Heratı kəlağay şala yaraşır.

Könül mayıl olub siyah telinə,
Nazik barmağına, şümşad əlinə,
Əcəb qurşanıbdı incə belinə,
Gümüş kəmər qəddi-dala yaraşır.

Olmaz sənin kimi bir qönçə dəhan,
Behiştdən gəlibsən, ay huri-qılman!
Tutubsan dəstində bənövşə, reyhan,
Gülgəz yanağına lala yaraşır.

Yazıq Ələsgərə çoxdu zavalın,
Aparır ağlını günəş camalın,
Nə göyçək görünür üzündə xalın,
Mərmər zənəxdanın xala yaraşır.

## YAŞILDI, YAŞIL[34]

Addadı zimistan, gəldi nobahar,
Şamamanın tağı yaşıldı, yaşıl.
Bəzənib nazənin, al-əlvan geyib,
Eyvanı, otağı yaşıldı, yaşıl.

Qafil olma bu bazarın içində,
Aldatma özünü varın içində,
İbrahim dayanıb narın içində,
Güldü, solu-sağı yaşıldı, yaşıl.

Ələsgər gözündən tökər qanlı yaş,
Əhli-dil ustada canıdı peşkaş,
Cəbrayıl dəryadan çıxardı bir daş,
İçində yarpağı yaşıldı, yaşıl.

## YAVAŞ GET

Bəzənib, qurşanıb seyrə çıxan yar,
Ala gözlü Səhnəbanım, yavaş get!
Bir qıya baxanda, evlər yıxan yar,
Cəllad olub tökmə qanım, yavaş get!

Mən sana aşiqəm, sən mana xata,
Dəhanın bənzəyir qəndə, nabata,
Ləbin tənə vurur Abi-həyata,
Qoynu Cənnət-irizvanım, yavaş get!

Ələsgərəm, oldum dəli, divana,
At müjganın, sinəm durub nişana,
Sallanışın bənzər huri-qılmana,
Kəbəm, qibləm, din-imanım, yavaş get!

## YAZIQ[35]

O qəmli könlünü, müşkül halını
Düşünən də yazıq, bilən də yazıq!
Ağlasan, ağlaram mən səndən betər,
Dağladın sinəmi güləndə, yazıq!

Bir mərdi sevəydin, sirdaş olaydın,
Könlün istəyənə peşkaş olaydın,
Ya da quruyaydın, bir daş olaydın,
Bəzənib bu evə gələndə, yazıq!

Ələsgər durarmı mətah satmasa,
İyid sarsıyarmı baxtı yatmasa?!
İki könül bir-birini tutmasa,
Alan da yazıqdı, gələn də yazıq!

## YETMƏDİ

Ömrüm ah-vay ilə keçdi dünyada,
Həsrət qaldım, əlim yara yetmədi.
Neçə namə yazdım canan elinə,
Heç birisi o diyara yetmədi.

Nə doyunca nazlı yarı görmədim,
Nə dilimlə əhvalını sormadım,
Bağ bəslədim, qönçə gülün dərmədim,
Xəzan oldu, bağçam bara yetmədi.

Dağların köysündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası,
Gözüm yolda, intizara yetmədi.

Gözü yaşlı, ey füqəra Ələsgər,
İşi müşkül, baxtı qara Ələsgər,
Olmadı dərdinə çara, Ələsgər,
Həsrət əlin o dildara yetmədi.

## ZÜLFLƏRİN

Ay nazənin, xətirinə dəyməsin,
Gərdəndən ayrılıb qara zülflərin.
Ala gözlərinə mayıl olmuşam,
Günahkaram, çəkir dara zülflərin.

Gözəl, sən də muradına çatmadın,
Bənna olub, sınıq könül yapmadın,
Tərlan idin, öz tayını tapmadın,
Getdi, qismət oldu sara zülflərin.

Ələsgər də eşqə düşüb oxuyur,
Müjganların sinəm üstə toxuyur,
Əndamından qızıl güllər qoxuyur,
Qoyma dağılmağa, dara zülflərin.

# *QOŞAYARPAQ QOŞMA*

## DÜŞDÜ

Sevdiciyim, hanı gözəllər xanı?
Güzarımız sizin otağa düşdü.
Buyursan fərmanı, alarlar canı,
Püşk atdıq, can sana sadağa düşdü.

Sallan, qələm qaşdı, yanı yoldaşdı,
Qalmışam ataşdı, mən başı daşdı,
Huş başımdan çaşdı, dilim dolaşdı,
Gözlərim sataşdı, buxağa düşdü.

Ətlazdan qəbalı, belinin şalı,
Gövhərdən bahalı üzünün xalı,
Geydin yaşıl-alı, yaxdın mahalı,
Əyri tellər ayna qabağa düşdü.

Yeriyəndə sana yaşılbaş sona,
Yaraşır canına ağ nazik cuna,
Tellərində şana, əlində həna,
Yəmən, yaqut, əhmər dodağa düşdü.

Çox çəkmişəm cəfa, gəl bir insafa,
And olsun Müshafa*, olmam bivəfa,
Gəlmişəm təvafa, verəsən şəfa,
Ələsgər xəstədi, ocağa düşdü.

* Müshaf – Müshəf (Quran)

## *MÜSTƏZAD QOSMA*

### DÖRD KİTAB HƏR YANA YOLU GÖSTƏRİR[36]

Dörd kitab hər yana yolu göstərir,
Nəfs ilə mərifət olur şeş cahat.
Belə əmr eləyib qüdrəti-qadir,
Bu əmrə qol qoyan tez tapar nicat,
Eylə etiqad.

Şəhr aydı, bayram onun gülüdü,
İki ay bir-birinin müttəsilidi.
Üç yüz altmış altı gün - bir ilidi,
Səkkiz min yeddi yüz səksən dörd - saat,
Gəl verim isnat.

Altıda qarışdı Nuhun tufanı,
Qırx ildə sərgərdan gəzdi hər yanı.
Altı min altı yüz insan, heyvanı,
Hərə öz diliylə eylədi fəryad,
İstədi imdad.

Neçə müddət qərq oldular tufana,
Əmr etdi, kəbutər gəzdi hər yana,
İki yüz otuzda tapdı bir dənə,
Nuh üçün fəmində gətirdi sovqat,
Qıldı ibadat.

Altmış altı ayə niyə danmısan?!
Belə məlum, bizi avam sanmısan,
Dünya cifəsinə sən aldanmısan,
Unutma üqbanı, bu dünyanı at,
Afərin, ustad!

Qasım "qaf" ınandı, Həsən "he"yinən,
Xeyir tapmaz ustadınan dəyinən,
İşim yoxdu seyyidinən, bəyinən,
İxtiyarımdadı qalan məxluqat,
Daimül-övqat.

Yazıq Ələsgərdi, soruşsan, adım,
Huş başımdan gedib, yoxdu savadım,
Sözlə mətləb yazmaq deyil muradım,
Arifə eyhamla yazıram hürfat,
Sədrin olsun "sad*"!

* Əvvəlki nəşrlərdə "sat" kimi getmişdir.

# *TƏCNİSLƏR*

## AYAĞA - QARQAR

Var olsun Qarabağ, əcəb səfadı,
Başa Xaçın axar, ayağa – Qarqar.
Göyçə qar əlindən zara gəlibdi,
Muğan həsrət çəkər: a yağa qar, qar...

Ahən gəzər, səngə verər mər dana,
Mərd oğulun qəhrin çəkər mərd ana,
Mərd iyid meydanda durar mərdana,
Müxənnət yapışar ayağa, qarqar.

Ələsgəri çəkməginən ala sən,
Geyinibsən, yar, qəddinə ala sən,
Lazımdı ki, qərib könlün alasan,
İncidərsən, sana, ay ağa, qarqar.

## AY ANA, ANA

Qarlı dağlar gəldi düşdü araya,
Qalmışam qürbətdə ay ana, ana!
Təbib yoxdu, dərman edə yaraya,
Sızıldaşır yaram a yana-yana.

Mən qurban eylərəm yara canımı,
Götürüb doğraya, yara canımı,
Alıb təpə-dırnaq yara canımı,
Bilmirəm dərmanı ay ana, ana*.

Geyibdir qəddinə yar alacanı,
At müjgan oxunu, yarala canı,
İstər Ələsgərdən yar ala canı,
Tökəndə zülflərin a yana, yana.

* Ana – ona

## A YARA MƏNDƏN

Müxənnət, seyraqub, xainü xəbis
Nə yaman qandırıb a yara məndən.
Lənətullah, ləin, şeytani-iblis
Nə dedi, dost kəsdi ay ara məndən.

Məcnun "Leyli" deyib, bu dağı bilər,
İçən zəhrin dadın, budağı*, bilər,
Gəzən ürəyimdə bu dağı bilər,
Arayıb axtarsan, ay ara məndən.

Ələsgər, təqsirin oldu nə, ayə*?
Kim inansın, qəsəm edim nə ayə?
Bu ahım qalmasın ilə, nə ayə,
Sağalmaz bu düyün, a yara məndən.

---

* Budağı – budu ağı
* Ayə (əyə) – xitab

## A YƏMƏNDƏDİ[37*]

Ahəngər deyiləm, naşı bəzirgan,
Gözüm dürdanədə, a yəməndədi.
Sinəmdədi eşqin şirin çeşməsi,
Ləzzəti meyl edib ay əməndədi.

Yox sazımın nə pərdəsi, nə simi,
Onu çalıb, kim tərpədər nəsimi[*]?!
Firdovsi, Füzuli, Hafiz, Nəsimi –
Onlar da yazdığı, ayə, məndədi.

Kişi gərək zəhmət çəksin, dər salsın[*],
Süfrə açsın, ad qazansın, dər[*] salsın,
Dərsi azlar Ələsgərdən dərs alsın,
Altı min altı yüz ayə məndədi.

---

[*] Nəsimi- nəsim, yel, meh
[*] Dər salsın (tər salsın) – tər töksün
[*] Dər – qapı

## A YÜZƏ TƏK-TƏK

O sərxoş yerişin, o sallanışın
Yetirdi dərdimi a yüzə tək-tək.
Camalın şoxundan ağlım dağıldı,
Əfşan eylə zülfün ay üzə tək-tək.

Məskən saldım astananda, dərində,
Dost bağını becərin də, dərin də,
Gövhər olar dəryalarda – dərində,
Onu qəvvas çəkər ay üzə tək-tək.

Ələsgərin az ömrünü üz, Gilə!
Sona sənsən, dəryalarda üzgilə*,
Bir salxımda peyvəst olub üz* gilə,
Kamil bağban gərək ay üzə tək-tək.

* Üzgilə (üzgilən) – üzgü vur
* Üz – yüz

## AY ÜZƏ-ÜZƏ

Ay nazənin, dərdin mənim canımı
Az qalıb incəldə ay üzə, üzə.
Alıbsan əlimdən din-imanımı,
Müştaq eyləyibsən ay üzə, üzə.

Yar, məskənim astanamı, dərdimi?
Kamil bağban gülü bağdan dərdimi?
A bimürvət, dərdin mənim dərdimi,
Artırıb, yetirib a yüzə, yüzə.

Yazıq Ələsgəri oda salıbdı,
Fələk gözdən salıb, o da salıbdı,
Çeşmə kənarında oda salıbdı,
Cumub sona kimi ay üzə, üzə.

## BİRİ "SİN"

İsmin üç hərifdi, ay çeşmi-xumar;
Biri "mim"di, biri "nun"du, biri "sin".
Həsrətindən yüz min gizlin dərdim var,
Kimsəm yoxdu, açam deyəm birisin.

Saldın məni ataşa hey, nara hey,
Gözüm ağlar, dilim çəkər nara* hey,
Müştəriyəm, dost, qoynunda nara hey,
Bimürvət, satmırsan, alam birisin.

Siyah zülfün nə tökübsən yana sən?!
Ya hurisən, ya pərisən, ya nəsən?
Demədim ki, eşq oduna yanasan,
Mən dedim ki, dur qıraqdan bir isin.

Ələsgərin yaz sözlərin varağa,
Yuyar qəssal*, bükər qəddin var ağa,
Bu səfərdə üç ehtiyat var, ağa:
Biri mizan, biri Sirat, biri sin.

* Nara – nərə
* Qəssal - yuyucu

## BU DALA BAX, BAX

Sağ dəstində qızıl şanə sevdiyim
Darar, zülfün tökər bu dala, bax, bax!
Bülbül müştaq olub gül qönçəsinə,
Onçu məskən salıb bu dala*, bax, bax!

Əylən məclisində, gəlməsini* gör,
Sağrı başmaq geyib, gəl, məsini* gör,
Bimürvət gözəlin gəlməsini gör,
Qəsd edər canıma, budala*, bax, bax!

Ələsgər səməndin yayında* minə,
Saqın seyraqubdan, yayın da, Minə!
Mərd verər sinəsin yayın dəminə,
Müxənnəs gizlənər bu dala, bax, bax!

---

* Dal – budaq
* Gəlməsini – əvvəlki nəşrlərdə bu ifadə “gəlmə adamını” mənasında izah edilmişdir. Fikrimizcə, misra bu şəkildə olmalıdır: “Əylən məclisində kəlməsini gör”.
* Məsini – məstini (ayaqqabısını)
* Budala – budu, ala
* Yayında – yay ayında

## DAĞIT "ƏMMƏ"Nİ

"Əlif"in hökmüylə, "cim" fərmanıyla,
Ara kəlmə-kəlmə, dağıt "Əmmə"ni.
Vədəm tamamdısa, gəl al canımı,
Qurtar bu düyündən, dağıdan məni.

Şux gözəldə bir sinə var, bir incə,
Gördüm, dərdim oldu dağlar birincə,
Roğənəm, həddində yetir birincə,
Yandırıb keçirmə dağıdan məni!

Sağ dəstinlə dərdli sərim ov, sına!
Lazımdı ki, ovçusundan ov sına*,
Gözün təmənnası salıb ovsuna,
Şahmartək endirir dağıdan məni.

Qürbətdə qalmışam, bir ay yarım var,
Qərib pəhlivanam, bir əyyarım var.
Lütf eylə, üstümə bir, ay yarım, var,
Dağılsın üstümdən dağıdan məni.

Ələsgərəm, bir dayım yox, bir əmim,
Dar günündə mədədkardı birə "Mim"*,
Göz deyir ki, qoy ləbindən bir əmim,
Dil deyir: – Məclisi dağıt, əm məni!

* Sına – sinə
* "Mim" – Həzrət Məhəmməd Əleyhissəlama işarədir

## DAL DALA

Gözəllər sultanı, mələklər şahı,
Şahmar zülfün nə tökübsən dal dala?!
Boyun sərv üstündə budağa bənzər,
Mürği-ruhum uçar qonar dal dala.

Geydim qəm libasın yasın içində,
Gələcək Nəkreyin ya sin içində,
Doxsan min kəlmədə, "Yasin" içində,
Neçə yerdə müttəsildi "dal" "dal"a?

Dərs almışam, oxumuşam hər aya,
Bayram ayı demək olmaz hər aya,
Şahlar şahı, özün yetiş haraya,
Mən yalqızam, düşman verib dal-dala!

Billəm, eytac deyil sənə mal indi,
Geyibsən qəddinə, Sənəm, al indi,
Can alansan, canım, sənəm, al indi,
Əzrayılın çəngəlindən daldala.

Ələsgər, əlindən getdi buta* yar,
Huşum çaşıb, ağlım olmaz, büt, əyar*,
Sinəm qoydum müjganına buta*, yar,
Əsirgəmə, at oxların dal-dala.

* Buta – sevgili
* Əyar – düzgün
* Buta – nişana

## Dİ BİR ÜZ, BİR ÜZ[38*]

Səndən ötrü ömrüm barın becərdim,
Mübarək dəstinlə di bir üz, bir üz!
Ölüb bu dünyadan həsrət gedirəm,
Qoysan üzüm üstə di bir üz, bir üz!

İpək nazbalışa Mina dayandı,
Həcər nalə çəkdi Minada, yandı,
Həsrətindən dərdim minə dayandı,
Sən gəlsən, əysilər di bir üz, bir üz.

Bayqu həsrət çəkdi, yara yetmədi,
Təbib neştər vurdu, yara yetmədi,
Qul Ələsgər, əlin yara yetmədi,
Çalxan qəm bəhrində, di bir üz, bir üz.

## HA BULAR, BULAR

Səba dost zülfünə şanə çəkəndə,
Yayılar gərdənə ha bular, bular.
Hər kim ki sidq ilə dilək diləsə,
Əlbəttə, mətləbin ha bular, bular.

Sərrafın dəstində nə danə* - dedim,
Könül, can quşuna nə danə* - dedim,
Dərdimi dərdbilməz, nadanə dedim,
Anlamaz, başını ha bular, bular.

Ələsgərəm, məskənimdi o diyar,
Al xəncəri, bağrım başın, odu, yar!
Evdən çıxdı yalın qılınc, odu yar,
Bilirəm, qanıma ha bular, bular.

* Danə (dənə) – daş-qaş dənəsi
* Danə (dənə) – dən

## HA LALA ÇIXAR[39*]

Addadı zimistan, gəldi nobahar,
İnşallah, dağlarda ha lala çıxar.
Neçə şey halaldan dönər harama,
Neçə şey haramdan halala çıxar?

Yar xəttiylə yazılıbdı a tarıx,
Mehtər bivec, əstər kökdü, at arıx,
Gözəllər fövcünə qürə atarıx,
Baxtım kora, şilə, ha lala çıxar.

Der Ələsgər, bağlayıbdı xala çar[*],
Dər bağlıdı, indi gələr xalaçar[*],
Əsil bədöy mənzil kəsər, xal açar,
Beygirin dümbündə halala[*] çıxar.

[*] Çar – burada "çarğat" (baş örtüyü) mənasında
[*] Xalaçar – xala açar
[*] Halala – yara

## HƏMAYIL EYLƏ

Şahmar zülfün bədnəzərdən daldala,
Çinlə gərdənində həmayıl eylə!
Aç niqab altından mah camalını,
Aləmi hüsnünə ha mayıl eylə!

Fərhad Şirin sevdi, Yetim Yaxşı yar,
Təbib sənsən, gəl yaramı yaxşı yar!
Yaxşı yara qismət olmaz yaxşı yar,
Həm sözdən mətləb qan, həm ayıl eylə.

Ələsgər, dər bağdan yaxşıca nana,
Mərd iyid kəc baxmaz yaxşıca nana,
Yaxşı can yetişsə yaxşı canana,
Həm günü xoş keçər, həm ay-il eylə.

## NARIN ÜZ

Könül, sən ki düşdün eşqin bəhrinə,
Narın çalxan, narın silkin, narın üz.
Dost səni bağına mehman eyləsə,
Almasın dər, gülün iylə, narın üz.

Tikdiribsən qəsr, eyvan, oda sən,
O nökərin, o sevdiyin, o da sən,
Qıya baxdın, məni saldın oda sən,
İnsaf eylə, gəl könlümün narın üz.

Aşıq olan sözün deməz tərsinə,
Tər gəzən dünyada gedər tər sinə,
Tər sinəyə qismət olsun tər sinə,
Qoy söykənsin narın üzə narın üz.

Ürüsxət ver, sözüm deyim, Qaymağa*,
Yuyar qəssal qəddim, bükər qayım ağa,
Ləzzət verər bal qatanda qaymağa,
Onlardan da şirin olar narın üz.

Tərlansan, ovlatma sarı, dur gedək!
Gəl, sınıq könlümü sarı, dur gedək!
Ələsgərəm, bizə sarı dur gedək!
Bir dərdimi eyləyibsən, Narın*, üz!*

---

* Qaymağa – Qayım ağa
* Narın – qız adı
* Üz – yüz (Ustadın yaradıcılığında "üz" ifadəsi bir sıra məqamlarda "yüz" mənasında işlənmişdir. Məsələn: "Bir salxımda peyvəst olub üz gilə".

## NƏQA* NƏ MİNDİ

İbtida xəlq oldu külli-kainat,
İnsan nəqa mindi, nəqa nə mindi?
Gözlərin canıma salıbdı afat,
Peykan kirpiklərin nə qana mindi?

Nə əysik din, nə artıq gül, nə dannan,
Müxənnətə zəhər olmur nədən nan?!
Dərdbilməzdən, dilqanmazdan, nadannan,
Nə qandım əzəldən, nə qanam indi?

Ələsgəri çəkməginən, yar, ala,
Lazımdı ki, yar könlünü yar ala,
Sınmış dəndan, nə yar ləbin yarala,
Əmmək istəyəndə, nə qan əm indi!

---

* Nəqa (naqə) – dəvə

## NƏS AĞI BELƏ

Zər-ziba xələti pünhan eylədin,
Biçdirdin qəddimə nəs ağı belə.
Al dillə gətirdin, mehman eylədin,
Qatdın şərbətimə nəs ağı belə.

Qəvvas, dəryalarda bağlar sal indi,
Keçən günü, dost, yadına sal indi,
Şahmar zülfün gərdənindən sal indi,
At boynuma, elə nasağı belə.

O Xoyun səhrası, o da Salmasın,
Rəqib dost kuyində oda salmasın,
Fələk Ələsgərtək oda salmasın,
Nə naxoşu belə, nə sağı belə.

## SARI GÖRƏNDƏ

Xudam səni nə xoş gündə yaradıb,
Meylim axır sana sarı, görəndə.
Həsrətindən yüz yara var sinəmdə,
İnsaf eylə, birin sarı, görəndə.

Tifiltək qoynunda nara aşiqəm,
Mürği-Səməndərəm*, nara aşiqəm,
Çəkərəm sübhədək nara, aşiqəm,
Tərlan ovlağında sarı görəndə.

Ələsgər sızıldar, bala yetişər,
Nardan Səməndərə bala yetişər,
Gözlərindən mana bəla yetişər,
Olur gül irəngim sarı, görəndə.

* Səməndər – od quşudur.

## SAYILAM, MƏNİ

Başına döndüyüm, ay telli sənəm,
Qovma dərgahından, sayılam, məni!
Ölləm bu dərd ilə, mən dirilmərəm,
Çalıb zülfün kimi say ilan məni.

Tifil fəğan eylər şirin* yolunda,
Rübah* dura bilməz şirin yolunda,
Ölsəm Fərhad kimi Şirin yolunda,
Adam sayar adam sayılan məni.

Ələsgər, səp dil mürğünə sağər dən,
Mövla məhəbbətin kəsməz sağ ərdən,
İnşallah, qurtarar nari-Səğərdən*,
Mərhəməti - "ayın", sayı "lam" məni.

* Şir - süd
* Rübah – tülkü
* Nari-Səğər – Cəhənnəmin qatlarından biridir.

## SİNİ-SİN[40*]

Hicran tüccarıyam, qəm şikəstəsi,
Axtarıram bu dünyanı sini-sin.
Mürği-ruhum getməz səndən irağa,
Qonşun ollam, qəbul etsə sini sin*.

Dost bağında bülbül qonmuş a dala,
Nazlı dilbər zülfün töküb a dala,
Mərd istər ki, çörək verə, ad ala,
Namərd gözlər mərd iyidin sinisin.

Ələsgərəm, mən də içdim bada hey,
Əbcəd hesabıyla seçdim "ba""da" "hey",
Xəstə cismim tab eyləmir bada hey,
Heç demirsən: – Gir qoynuma, sin, isin.

* Sin – qəbir

## YARAT, ƏRMƏNİ[41*]

Xudam məni, səni yoxdan yaradıb,
Sən də bircə milçək yarat, ərməni!
Bir qönçə bitəydim dostun bağında,
Dilimlə deyəydim yara: dər məni!

Tutubdu dəstində gözəl nizamı[*],
Firdovsi, Füzuli, gözəl Nizamı,
Təqdiri-qüdrətin gözəl nizamı,
Mana dərdi verib, yara - dərməni[*].

Hilal qaşın bənzədərəm dər yaya,
Qul Ələsgər, dastan elə Dəryaya[*],
İstəsə, kül eylər, qatar dəryaya,
İstəsə, təzədən yaradar məni.

[*] Nizamı – söz nizamını
[*] Dərməni – dərmanı
[*] Dəryaya – qız adı

## YAZIQ "ƏMMƏ"Nİ[42*]

"Əlif"dən dərs aldım, əbcəd oxudum,
Huş verdim, öyrəndim yazıq "Əmmə"ni.
Şirin canım müjganına toxudum,
Sən Allah, öldürmə, yazıqəm, məni!

Ərş üzündə Gün dolanar, Ay üzər,
Müxənnətə mərdi qoyma, ay üzər,
Həsrətindən ay incəldər, ay üzər,
Qışı dərdü-möhnət, yazı qəm məni.

Ələsgərəm, çətin adam sayılam,
Vacibatda hürufatın sayı "lam".
Ləblərinin həsrətindən sayılam,
Bimürvət, demirsən: – Yazıq, əm məni.

# *DODAQDƏYMƏZ TƏCNİSLƏR*

## A YAĞA-YAĞA

Gəldi yaz ayları, həsrət çəkər xak,
Deyər: - Neysan gələ, a yağa-yağa.
"Lənət şeytana!" - de, şər işdən əl çək,
Şeytan səni salar ayaq-ayağa.

Səyyad dəryalarda alar cəng ələ,
Həsrət çəkər: çiskin gələ, çən gələ!
Əzrayıl sinəni çəkər çəngələ,
Qəssal qəss eyləyər ay ağa, ağa.

Keçən qəncər* gər erkəkdi, gər dişi,
Dəllək çağır, çəkdirəcən gər dişi,
Qəzanın qədəri, çarxın gərdişi
Sərsəri tez salar ayağa, ayağa.

Ələsgərdən çəkilirsən a yana,
Gizli sirrin nahaq saldın əyana,
Çırağın ki İlahidən a yana,
Ehtiyacın nədi a yağa, yağa?!

---

* Qəncər – toğlu

## AY EYLƏR QIJ-QIJ

Qeyz eyləyər, çən çəkilər dağlara,
Qəhrindən yelləri ay eylər qıj-qıj.
Qarşı gəlsə həsrət çəkən yar yara,
Ağlı çaşar, səri ay eylər qıj-qıj.

Şin şəhər axtarar, şəcara dəyər,
Şeytan şər eyləyər, şəc ara dəyər,
Daşar çaylar, qalxar şəcara dəyər,
Hərlənər daşları, ay eylər qıj-qıj.

Aşıq çaşsa, dildə "qara" "qar" qalar,
Dağlar sinəsində qara qar qalar,
Gəştə çıxsa ərşə qara qarğalar,
Çalar qanadların, ay eylər qıj-qıj.

Qul Ələsgər, əlin yetsə nə nara,
Nə həsrət çək, nə ah eylə, nə nara,
Nə insandı, səngi salar nə nara,
Qaynadar dəryatək, ay eylər qıj-qıj.

## ÇATA-ÇAT

El yeridi, yalqız qaldın səhrada,
Çək əstərin, çal çatığın çata-çat.
Hərcayılar səni saldı irağa,
Həsrət əlin yar əlinə çata-çat.

Qışda dağlar ağ geyinər, yaz - qara,
Sağ dəstinlə ağ kağıza yaz qara,
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat.

Ələsgərin xəddi çıxdı çal indi,
"He"yi "ye"yə, "dal"ı "re"yə çal indi*,
Hərcayının kəlləsindən çal indi,
Çal çəngəlin, çək ciyərin çata-çat.

* Aşıq bu misrada "Heydəri çağır" demək istəmişdir. Heydər – Həzrət Əlinin adlarından biridir.

## NƏDİ ADI[43*]

Təriqətlə həqiqəti seçənlər,
Həqiqətlə təriqətin nədadı?[*]
Hansı şah Haqq ilə ilqar eylədi,
Nə incidi, nə ah çəkdi, nə dadı?

İstəyirsən seyr edəsən Sinanı,
Şər işlərdən saqın, saxla sinanı,
Sədət gətdi sin[*] içində si nanı[*],
Dildə qaldı nə ləzzəti, nə dadı!

Ələsgər də eşq içində qaladı,
Şirin canın ataşına qaladı,
Ər iyidin canı getsə, qal[*] adı,
Nakəslərin dəhr içində nədadı![*]

---

[*] Nədadı – nədi adı (fərqi nədi?)
[*] Sin - sini
[*] Si nan – üç çörək
[*] Qal- qalar
[*] Nədadı – nə də adı

## SƏQALI TEZ-TEZ[44*]

Sarsaq ilə seyrə çıxsan səhraya,
Gətirər sərinə sə qalı tez-tez.
Tərlan xəyal qalxar ərşi-əlaya,
Sardan şikarını sağ alı tez, tez.

Yel dəyir, tellərin, yar, a gəzdirir,
Saqi istəkanı yara gəzdirir,
Yar həsrəti canda yara gəzdirir,
Yar gəlsə, yaralar sağalı tez, tez.

Xədəngin neyləsin səng isə qala,
Eşq ataşın canda səngisə, qala,
Şah dəstin yetirsə səngi-səqala,
Qaldırar yerindən səqalı tez, tez.

Aşıq gərək sirrin desin ha lala,
Yanağından həya eylər ha lala,
Səxa əhli satdığını halala,
Siratdan keçəndə sağ alı tez, tez.

Səhər səyyad seyrə çıxarsa dağa,
Ağan təkdi, dəngi deyil səd ağa,
Qıl, yazıq Ələsgər, sərin sadağa,
Geydir yar qəddinə sağ alı tez-tez.

## *CIĞALI TƏCNİSLƏR*

### A YAĞA MƏNİ

Arif olan, bir od düşüb canıma,
Əridib döndərir a yağa məni.
Aşıq deyər, ay ağa,
Yetiş dada, ay ağa,
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa!
Ağa olan qulun salmaz nəzərdən,
Salma nəzərindən, ay ağa, məni!

Kamil ovçu, ovun görcək sin, ayə!
Oxu dərsin əzəl başdan "sin" ayə!
Aşıq deyər, sin, ayə!
Oxu dərsin "sin" ayə!
Xəstənin gözü düşmüş
Yetkin nar, tər sinayə.
Ömr azaldı, vədə yetdi sinə, ayə!
Bir gün də bükərlər ay ağa məni.

Mənim yarım yaşıl geyib, incidir,
İncə beldə gümüş kəmər incidir.
Aşıq deyər, incidir,
İnci - mərcan, inci - dür.
Yaman övlad, bəd qonşu,
Qohum-qardaş incidir.
Xəstə düşdüm, bu dərd məni incidir,
Tut dəstimdən, qaldır ayağa məni!

Ələsgərəm, dada gəldi, budu yar,
Bayquların məskənidi bu diyar.
Aşıq deyər, budu yar,
Gül bəsləyən budiyar.
Canım sadağa verrəm,
Qəbuldursa, budu, yar!
Al xəncəri, bağrım başın, budu, yar,
El içində salma ayağa məni!

## BAŞA-BAŞ

A bimürvət, həsrətini çəkməkdən,
İllər ilə xəstə düşdüm başa-baş.
Mən aşığam başa-baş,
Oxu dərsin başa-baş.
Eşqindən Səməndərəm,
Oda yandım başa-baş.
"Can" deyənə "can" deginən mərdana,
Baş qoyanın qoy yolunda başa-baş.

Səndən ayrı nə vaxt geysəm al, inci*,
Geyinərsən, yar, qəddinə al, inci*.
Mən aşığam al inci,
Gey qəddinə al, inci.
Dosta xəyanət olmaz,
Qurma mana al, İnci!
Bir canım var, alacaqsan, al, İnci!
Bir busə ver, sövdə vuraq başa-baş.

Ələsgərəm, dərdim budu, ay ağa!
Eynim yaşı neysan kimi a yağa.
Mən aşığam, ay ağa,
Piltə yanar a yağa.
Mərd sözün üzə söylər,
Heç yapışmaz ayağa.
Gah baş olan, gah da düşər ayağa,
Kimsə varmaz fələk ilə başa-baş.

* "Səndən ayrı nə vaxt geysəm al, inci"
* "Geyinərsən, yar, qəddinə al, inci" – Bu misralar əvvəlki nəşrlərdə aşağıdakı şəkildə getmişdir: "Səndən ayrı haçan geysəm al, inci; Geyinibsən, yar, qəddinə, al, inci". Göründüyü kimi, mənaca təhrifə yol verilmişdir.

## DAL-DALA

İsmin üç hərfnən eylərəm bəyan:
“Mim”di, “nun”du, “sin” yazılıb dal-dala.
    Mən aşığam dal-dala,
    Bayqu gəzər daldala.
    Açılıb yaxan bəndin,
    Çək, turuncun daldala!
Sədrin üstə şux məmələr görünür,
Bədnəzərdən pünhan elə, daldala!

Sürmə çək qaşına nə qara yaxşı,
Ağ üstdən yazıla nə qara yaxşı.
    Mən aşığam nə qara,
    Gözlərindi nə qara?!
    Həsrətindən Məcnunam,
    Günüm olub nə qara!
Saçların gərdəndə* nə qara, Yaxşı!
On dörd hörük çin-çin düşüb daldala.

Ələsgərəm, mən də nişana qoydum,
Təmiz ad saxladım, nişana qoydum.
    Mən aşığam nişana,
    Zülf üzündə nişana.
    Sinəmə dağ çəkilib,
    Qaldı elə nişana.
Sinəmi qarşına nişana qoydum,
Əsirgəmə, at oxların dal-dala.

---

* Gərdəndə – son nəşrlərdə səhvən “görəndə” şəklində getmişdir. Biz 1988-ci il nəşrini əsas götürdük.

## NƏ YAXŞI-YAXŞI
(dodaqdəyməz)

Əzizi-cani-dil, eyni-dirəxşan,
Yazırsan risalə nə yaxşı-yaxşı.
Qarşıda nə yaxşı,
Ləhcən gəlir nə yaxşı.
Canan candan əzizdi,
Nə Leylidi, nə Yaxşı.
Dil deyir: – Cananın sadağası can,
Cananı da deyir: – Nə yaxşı, yaxşı.

Yazıq canı yada saldın sən genə,
Səd həzar dərdinə gətdin sən ginə*.
Qarşıda səngi nə?
Atəş yana, səngînə.
Tərlan şikar eylədi,
Çıxdı dağlar səngînə.
Şəcər, ahən çalır səngi səngînə,
Yeyir dəni dəhan nə yaxşı-yaxşı.

Ələsgər, sən eşq atını yay indi,
Nakəslərin nəzərindən yayın di!
Qarşıda yay indi,
Çək xədəngin yayın di!
Aşıq, eşqin atını
Yayacaqsan, yay indi.
Ahu-zar eyləyər insan yay - indi:
Yağa ərşdən neysan nə yaxşı-yaxşı!

---

* Ginə (kinə) – həb

## ÜZ HA ÜZ

Mərifət bəhrində qəvvasam – deyən,
Gir dərin dəryaya, çalxan, üzhaüz.
 Mən aşığam, üz ha üz,
 Sonam, göldə üz ha üz.
 Bivəfadan yar olmaz,
 Ömür üzsən, üz, ha üz.
Qarı düşman bir də gəlib dost olmaz,
Əlin tutub yalvarasan üzhaüz*.

Qəvvas olan gedər gəzər dərində,
Yelkən açar dayazlarda, dərində.
 Mən aşığam, dərində,
 Dayazlarda, dərində.
 Qul olasan, qalasan
 Nazlı yarın dərində.
Əl açasan ərənlərin dərində,
Calayasan sınıq könül üz ha üz.

Ələsgərim, ağlayasan, güləsən,
Bülbül kimi aşiq idin gülə sən.
 Mən aşığam, güləsən,
 Danışasan, güləsən.
 Bağban öldü, bağ soldu,
 Həsrət qaldın gülə sən.
Naşı bağban, əl uzatma gülə sən,
Çək əlini qızılgüldən üz ha üz!

---

*Üzhaüz- yüzhayüz

## *MÜSTƏZAD TƏCNİS*

### "BİSMİLLƏHİR RAHMANİR RAHİM'' DEYİB

"Bismilləhir Rahmanir Rahim" – deyib,
Girirəm meydana, gəl eyləyək bəhs.
Sən toxundun, mən də sana toxunnam,
Şəriətdə halal qisasa - qisas,
Qoy ucalsın səs!

Bir xoş günü əvəz min aya billəm,
Boyum naqqaş çəkib Minaya, billəm.
Pirim dərsim verib, min aya billəm,
Bir sözünə min söz deyim dəsbədəs,
Sən eylə həvəs.

Mən dərdliyəm, mən ağlaram, bu da ağlar,
Eşq ucundan sinəmdə var bu dağlar,
Bir tərlanam, ovlağımdı bu dağlar,
Sənsən şahi-zərzər, şikarın məgəs,
Hökmün kəsakəs.

Ovsunçusan, ovsun eylə hi mara,
Bənna olsan, tərki axtar, him ara,
Səmin diraz, ləhcən bənzər himara,
Aləmə bədtərdi bu nitqü nəfəs,
Vüsali-hədəs.

Aşıq gərək bu meydanda bir qala,
Eşq ocağın bir ətəklə, bir qala,
Ələsgərdi Xeybər kimi bir qala,
Bacara bilməzsən, danışma əbəs,
Dur yerində pəs.

# *DİVANİLƏR*

## AĞA

Dar günümdə yetiş dada, ya Şahi-Mərdan ağa!
Nitq ver, meydan içində qoyma sərgərdan, ağa!
Həm Əlisən, həm vəlisən, həm səxisən, həm səxa,
Həmi dildə zikrim sənsən, həmi əzbərdən, ağa!

Can fəda qıllam yolunda, ya Əmir əl-möminan!
Tutdun Rəsulun irahın, xatəmin aldın nişan,
Yunisə munis olub, Nuha oldun kəştiban,
Xızırla irfana girdin, sirrini etdin nihan,
Nuri-pakın zülmatı göstərdi yerdən, ağa!

Günahkar, kəmtər qulunam, qəbul eylə duamı!
Zahir sənsən, batin sənsən, dü cahanın imamı,
Yet dada, Şahi-Qəşəmşəm, darda qoyma islamı!
Təbdil olub fani dünya, kəc dolanır nizamı,
Mərd iyidi xilas eylə böhtandan, şərdən, ağa!

Möminlərin pənahısan, aləmlərin sərvəri,
Fəth etdin Büllur-Əzəmi, neçə tilisimləri,
Əntərə zərbə vuranda lərzə saldın yerləri,
Ol Xudadan əmr olundu, Cəbrayıl tutdu pəri,
Şəninə “afərin!”, “əhsən!” – gəldi göylərdən, ağa!

Səmimə bir səda yetdi, bu xəbərdən qorxuram,
Əndamıma lərzə düşüb, yerbəyerdən qorxuram,
Sağ dəstimdə xeyir əməlim, solda şərdən qorxuram,
Həmi sindən, həm Siratdan, həm məhşərdən qorxuram,
Kəsmə zərrə iltifatın qul Ələsgərdən, ağa!

## BAŞ ENDİRİR

Ələstidə "bəli" deyən Sübhana baş endirir,
Məhəmmədə nazil olan Qurana baş endirir.
Özü birdi, adı minbir, vəhdəhu əl-laşərik,
Əhli-mömin görə bilməz, pünhana baş endirir.

Ölməyincə bu sevdadan çətin dönəm, usanam,
Həqiqətdən dərs almışam, təriqətdən söz qanam,
Şahi-Mərdan sayəsində elm içində ümmanam,
Dəryaların qaydasıdı, ümmana baş endirir.

Biçarə Aşıq Ələsgər, olma elmə nabələd,
Danışanda doğru danış, sözün çıxmasın qələt,
Çox qazansan, az qazansan, beş arşın ağdı xələt,
Mal-dövlətə baş endirən əfsana baş endirir.

## DALBADAL

Ol Xudadan Mustafaya endi aya dalbadal.
Ay ilə Gün gərdiş eylər bu dünyada dalbadal.
Eşq havası, el töhməti, padişahın sitəmi,
Bir sərimi gündə salır min bəlaya dalbadal.

Sirlər Haqqın yanında, kim kimin dərdin bilir,
Bəy yoxsulla bəhsə düşüb, həcv edir, tənə qılır,
Məhəmmədin ümmətinə ayda üç yol xərc gəlir,
Ey Xudaya, kim tab etsin bu cəfaya dalbadal?!

Ələsgərəm, öz dərdimdən düşməmişəm bu bəhsə,
Yoxsulların günün gördüm, ah çəkib batdım yasa,
Ərizələr atqaz qayıtsa, şahdan imdad olmasa,
Fanidən köçmək lazımdı ol üqbaya dalbadal.

## DÜNYADA

Sual-Sirat qabaqdadı, nə damaqdı dünyada?!
Kəlmeyi-şəhadət lazımdı ölən vaxtı dünyada.
Tut orucun, qıl namazın, şükür eylə Allaha,
Gül olma dünya malına, qalacaqdı dünyada.

Yalan deyib qeybət etmə, rəhmin gəlsin canına,
Öz-özünə fəxr eyləyib baxma şövkət-şanına,
Əzrayıl əlində çəngəl gələcəkdi yanına,
Qəzəbindən gül irəngin solacaqdı dünyada.

Şəyirdlikdə can çürütdüm, hərgiz ustad olmadım,
Nəfs öldürdüm, düz dolandım, dostumdan yad olmadım,
Ələsgərəm, qan ağladım, ölüncə şad olmadım,
Əzəl gündən fələk mana qara baxdı dünyada.

## ƏSSƏLATÜ HƏŞT ƏRKAN*
(dodaqdəyməz)

Əssəlatü həşt ərkan, əhli-dil, hal cəngинə,
Əhli-dil, hal gəldi ərlər, seyr elər ahənginə.
Əhli-dil, hal tirü-tiğü xədənginə, cənginə,
Cənginə, xədənginə, ahənginə, hər rənginə.

Əssəlatü şindi, aşıq, endirərsən yelkəni,
Şindi, aşıq, əldə sazın əl çalar gəstirgəni,
Ah edərsən, gəl deyər, getsən sana yazıq səni,
Yelkəni, gəstirgəni, get, səlsəli çal sənginə.

Əldən getdi ixtiyarın, ah edərsən, gəl deyər,
Həsrət çəkər ehtidarın, cəhd eylər, istər əsər,
Ah edərsən, gəl deyər, şindi səni tənzil edər,
Səd həzarın çətin yetər Ələsgərin dənginə.

* Şeirdə bir çox misraların mənasını aydınlaşdırmaq olmur. Güman ki, divani təhrif olunmuşdur. Buna baxmayaraq, Aşıq Talıbın hafizəsində qalmış olan variantda heç bir dəyişiklik aparmadıq (İ.Ə.).

## GƏDA
(dodaqdəyməz)

Gizlin sirrin nahaq yerə gizlətdin xandan, gəda!
Ah çəkər, nalə eylərsən, can gedər candan, gəda!
Etiqadla, sidqi-dillə çağır şahlar şahını,
Nahaq işdi, dilək dilər insan insandan, gəda!

Al çətirin, çıx səhraya, sal sərinə saya, gəz,
Qədər sənlə gəzəcəkdi, istər gir dəryaya gəz,
Sakin əyləş sin içində, həqiqətdən ayə gəz,
Ağ eylə sinən aynasın şəri-şeytandan, gəda!

Ələsgərlə danışanda al əlinə saz, danış,
İnci, səni istəyənlə eylə ərki-naz, danış,
Əyləşəndə ağır əyləş, danışanda az danış,
Eşidənlər "əhsən!" desin sana hər yandan, gəda!

## GÖZLƏ, GÖZLƏ SƏN

Səyyadısan, tor qurubsan, dağı gözlə, gözlə sən!
Bəzirgansan, yolun kəsər yağı, gözlə, gözlə sən!
Hərcayıyla aşna olma, namərdə bel bağlama,
Müxənnət qatar aşına ağı, gözlə, gözlə sən!

Hanı Həsən, hanı Heydər, hanı sərdar Mustafa?!
Sayeyi-mərhəmətindən bir müddət sürdük səfa,
Axırını zay eylədin, a bimürvət, bivəfa,
Aç, sinəmdə düyünə bax, dağı gözlə, gözlə sən!

Kığ satan, çaşır satanlar deyir “qaxdağan” bizə,
Çay içib plov yeyənlər heç göstərmir nan bizə,
Olsa nüsrət, versə fürsət Qadiri-Sübhan bizə,
Çoxlarına eylərəm nasağı, gözlə, gözlə sən!

Ələsgərlə bəd başladın cavan vaxtından, fələk!
Düşkün çağı əlin üzdün xabi-raxtından, fələk!
Neçə-neçə Süleymanı saldın taxtından, fələk!
Onlar oldu dərdü-qəm dustağı, gözlə, gözlə sən!

İsmimdi Aşıq Ələsgər, çox çəkirəm bu bəhsi,
İncidənlər, incidəcək, incidibsən hər kəsi,
Çarxı-fələyin sitəmi, ayrım-kürdün tənəsi,
Əridibdi ürəyimdən yağı, gözlə, gözlə sən!

## KEÇMİŞƏM

Bir bivəfa dost yolunda başu-candan keçmişəm,
Unutmuşam doğru rahı, din-imandan keçmişəm.
Zərrəcə gəlməz eynimə bu dünyanın cifəsi,
Tərk edib dövləti-malı, xanimandan keçmişəm.

Dərdim çoxdu, kimə deyim, yoxdu dərd bilən həkim,
Sərrafsansa, aç xırd eylə, ləlü-gövhərdi yüküm,
Şahi-Mərdan sayəsində kimsədən yoxdu bakım,
Sidqi-dillə sığınmışam, mən ümmandan keçmişəm.

İsmimdi Aşıq Ələsgər, budu dövranım mənim,
Qürbət eldə bir gözəldə qaldı peymanım mənim,
Öldürsələr bu sevdada, halaldı qanım mənim,
İncimərəm, dost yolunda bu ziyandan keçmişəm.

## MƏRD

Altı gündə xəlq eylədi aləmi Sübhani-mərd,
Aya, Günə qərar qoyub, dolanır dünyanı mərd.
Məhəmməd şəninə endi doxsan min kəlmə tamam,
Osman yığdı, cəm eylədi otuz cüz Quranı mərd.

İbrahimi-Xəlilullah əhdi-peyman eylədi,
Çıxartdı Mina dağına, oğlun qurban eylədi,
Həcər yandı, nalə çəkdi, ahü-fəğan eylədi,
Barilahim kərəm qıldı, göndərdi qurbanı mərd.

Ələsgər adın qurbanı, ya Məhəmməd Mustafa!
Şəninə ayə xətm oldu, “Həl-əta”san, “Qul kəfa”,
Dinini aşkar eylədi, münkirə verdi cəfa,
Qılıncı mərd, qüvvəti mərd, atı mərd, meydanı mərd.

## VERİR[45]

Gələndə ustad kalamı, köhnə yaram qan verir,
Mövcə gəlir bəhri-çeşmim, qətreyi-baran verir.
Danəni torpaq içində göyərdir kani-Kərəm,
Bir mələk müqərrar olmuş, bizlərə ərzan verir.

Anlamaz, nadan eşitsə, deyər, hədyandı bu söz,
Əhli-irfan məclisində ləlü-mərcandı bu söz,
Müxtəsəri, türki-zəban, bil, "dəyirman"dı bu söz,
Ab şəcərə, ahən səngə gör necə cövlan verir.

Şindandan dən gəlməyəndə düşər bir qeyri hala,
Dəhanından ataş qalxar, ah çəkər, eylər nala,
Qəzəbindən ləngər vurar  həm qabağa, həm dala,
Hay verdikcə aloy* səpir, dud qalxır, duman verir.

Haydı kola, xinzir oğlu, şindi durma qarşıda!
Paşol, malçi! İdi, durak! Səni verrəm padsuda!
Oxuram "İnna fətəhna", mətləb allam yuxuda,
Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.

Soruşur Aşıq Ələsgər: – Dərsi kimdən almısız?
Əbəs yerə saz götürüb elə qovğa salmısız,
Üç kəlmə sözdən ötəri siz ki mətəl qalmısız,
Nahaqdı qürbət vilayət sizlərə dövran verir*.

---

* Aloy – alov
*Bu misranın "Nahaqdı mədən tatları sizlərə dövran verir" variantı da vardır.

## YALVARIRAM

Sidqi dillə sığınmışam Sübhana, yalvarıram,
Məhəmmədə nazil olan Qurana yalvarıram.
Məzhəbim cəfəridi, Kəbədi qibləm mənim,
İlqarımda çox möhkəməm, imana yalvarıram.

Saldı şəhadət barmağın, atdı dəri-Xeybəri,
Hökm qıldı Zülfüqara, iki böldü Əntəri,
Çəkəndə "Allahu-əkbər!", qırdı min-min kafəri,
Zəlillərin ümidvarı, möminlərin sərvəri,
Şahi-Mərdan, Şiri-Yəzdan, mən ona yalvarıram.

Dar günümdə yetiş dada, ədalət şahım mənim,
Könlü qəmgin, gözü yolda, artıbdı ahım mənim,
Pərəstarım, ümidvarım, sənsən pənahım mənim,
İsmimdi Aşıq Ələsgər, çoxdu günahım mənim,
Günahkar aparma məni divana, yalvarıram!

## YÜKÜM

Ələstidə "bəli" dedim, əcəb xoşhaldı yüküm,
Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm.
Həm dərindi, həm dayazdı, həm acıdı, həm şirin,
Zəhmətdə zəhri-həlahil, ləzzətdə baldı yüküm.

Nütfəsindən əyri olan tez göstərər isbatın,
Hər ağac kökündən bitər, hər meyvə gözlər zatın.
Hərcayı hədyana sayar, naşı bilməz qiymatın,
Əhli-irfan məclisində gövhərmisaldı yüküm.

Biçarə Aşıq Ələsgər, sığın Şahi-Heydara,
Onun damənindən tutan məhşərdə yanmaz nara,
Pirim mana nüsrət verib, bu gün çıxdım bazara,
Sərrafsansa, aç xırd elə, bax gör, nə maldı yüküm!

## *MÜXƏMMƏSLƏR*

### APARAR

Mərd iyidin məclisindən aşıq gələr, at aparar,
Tər tökər, zəhmət çəkər, açar hər büsat, aparar.
Bu dünyanın şöhrətidi demə biisbat aparar,
Mərdlərə canım sadağa, zəhləmi bədzat aparar.

Ölmək var, dirilmək var, qayıl ol miyata*, gedən!
Qəlbində şeytan mətahın alıb sata-sata gedən!
Sirat əl-müstəqimdə tapar səni xata, gedən!
Zülm ilə, sələm ilə yığıb ziyarata gedən
Ziyarata getmək deyil, urusa sursat aparar.

Bilirsən ki, ölüm haqdı, bu nə təlaşdı dünyada?!
Kimi gördün ki, qəzadan qurtardı, qaçdı dünyada?!
Çoxlarını fələk qoyub gözü qan-yaşdı dünyada,
Səxavətsiz dövlət, bilin, barsız ağacdı dünyada,
Nəfi yox, zəhməti çox, sel gələr, afat aparar.

Ovçusan, bərədə dur, maral gəlir, at, keçməsin,
Möminsən, qafil olma, vaxtı-ibadat keçməsin,
Tülkü gəlib aslan olub, eşşək gəlib at keçməsin,
Müxənnəs ilə nakəsin əlinə fürsat keçməsin,
Halalı harama qatar, şeytana sovqat aparar.

Sözlərimin bir parasın saxlamışam, xəlvətdədi,
Zamana müxənnət olub, sur indi müxənnətdədi,
Bir az namus gözləyənin axır boynu kəmənddədi,
Dünyada "iyidəm" deyən ölüb, ya qəzəmətdədi,
Bu dünyanın ləzzətini, bilin, biqıryat aparar.

Qılışdı* qardaşlıqlarım dedi, bir dana vermədi,
Çarx dolandı, iqbal yatdı, döndü zamana, vermədi,

* Miyat (miad) – axirət, o dünya
* Qılışdı – Kəlbəcər rayonunda kənd adıdır.

İsmayıl ilə İrvaham mərdü-mərdana vermədi,
Sarıdaşlı* Bayramalı qaçdı pünhana, vermədi,
Aşığın danasın verməz, yüz manatın tat aparar.

Ələsgərəm, vəsf elərəm, budu təlaşım Xanlara*,
Şahi-Mərdan kömək olsun əziz qardaşım Xanlara!
Hatəm kimi mətləb verər düşəndə işim Xanlara,
Nə ki aşıq gördüm deyər: – Qurbandı başım Xanlara!
Kimiyə mal bağışlayar, kimi yüz manat aparar.

*Sarıdaşlı – Kəlbəcər rayonunda kənd adıdır.
* Xanlar – Kəlbəcər rayonunun Ağdaş kəndindən imiş

## BAHALIQ[46]

Görməmişdik səksən ildə bir belə yaman bahalıq!
Dad! Həzər dad! Əlindən çəkirik aman, bahalıq!
Mal satan, taxıl satan satırlar iman, bahalıq!
Gen dünya bizim üçün olubdu zindan, bahalıq!
Günü-gündən dərdimiz eyləyir tüğyan, bahalıq!

İndən belə başımızda namərdlərin töhmətidi,
Hansı məclisə gedirsən, arpa, darı söhbətidi,
Kartof ilə ayranaşı süfrəmizin zinətidi,
Buraya bahalıq salan qeyri yerin millətidi,
Nə işə əl atırıqsa, oluruq peşman, bahalıq!

Nə mal yoxdu sataq yerdə, nə də keçi, toğlu, qoyun,
Ehtiyatı saxlamadıq, başımıza gəldi oyun,
Ağ lavaşı bəyənməyən, indi arpa cadı yeyin,
Ələsgərin bu dərdini gedin, dərdbilənə deyin:
Ac, susuz, açıq, çılpaq sürürük dövran, bahalıq!

## BAXIN[47]

Ariflər, fəhm eləyin, bu gələn dildara baxın!
Eyləyib müjganları sinəmi sədpara, baxın!
Aşığa rəhm eləmir, zalım sitəmkara baxın!
Çəkirəm həsrətini mən yazıq bimara baxın!
Axırda salar çöllərə, eyləyər avara, baxın!

Yaraşır əndamına yaşılı, alı gözəlin,
Ayağına sağrı başmaq, başına şalı gözəlin,
Tərifi, səs-sorağı tutub mahalı gözəlin,
Hər yana şölə salır Günəş camalı gözəlin,
Açılıbdı yaxabəndi, ağ sinəsi qara baxın!

Tökülüb dal gərdənə gözəlin dəstə telləri,
Eyləyib Ələsgəri sağalmaz xəstə telləri,
Səf çəkib, ay qabağın tökülüb üstə telləri,
Necə qıvrım-qıvrım olub giribdi qəsdə telləri,
Gündə yüz yol canım alan o zülfü-şahmara baxın!

## BU GÜN

Aləmin padişahı, sən yetiş imdada bu gün,
Naqafil qarşımıza çıxdı mələkzada bu gün,
Göz gördü gül camalın, könül içdi bada bu gün,
Can cəsəddən ayrılır, gedir bu sevdada bu gün.

Ovçuyam, görməmişəm belə bir sərxoş maralı,
Tökülüb şahmar zülfü, bürüyübdü qəddi-dalı,
Hüsndə Züleyxadı, Loğmana bənzər kamalı,
Solmasın gül irəngi, pozulmasın bu calalı,
Mələklər də "amin" desin ərşi-müəllada bu gün.

Ələsgərəm, mən deyirdim, pərvana əfsana yanır,
Eşqdən bir od düşüb cismimə, mərdana yanır,
Deyirəm, danışıram, dönürəm hər yana, yanır,
Ürəyim bir Kərəmə, bir də Şeyx Sənana yanır,
Qəlbidən yas tuturam Məcnuna, Fərhada bu gün.

## DEYİN

Dəli Alının vəsfini yazmışam dastana, – deyin!
Afərin, şəyirdlərim, gedəndə hər yana deyin!
Eşidib Göyçə mahalı, külli-İrəvana deyin!
Addayın Şahtaxtından, Təbrizə, Tehrana deyin!

Üz tutun Alosmana, Qarsa, Qağızmana deyin!
Təmkini, hər büsatı bənzər Pənah xana - deyin!
Qorxmayın, utanmayın, mərd durun, mərdana deyin!
Kor olsun düşmanları, qalsın yana-yana, - deyin!

Gedərsiniz Alosmana, qərib qeyri ləzzətdədi,
Hamısının mərhəməti aşığa məhəbbətdədi,
Paşalar qəfə qəsdində, şahzadalar sovetdədi,
Soruşsalar: – Əcəm oğlu, ər hansı məmləkətdədi?
Əmənullah, paşa əfəndim, get, Gəncəbasana, - deyin!

Gülüstani-İrəmə bənzər yaylağının hər büsatı,
Yönü qibləyə çeşmənin, car olur Abi-həyatı,
Ağ alaçıq, əlvan çadır, naxış vurubdu xəyyatı.
Samuğun, Qarasaqqalın gəlibdi hər meyvəcatı,
Evinin ətri-ənbəri bənzər İrizvana, - deyin!

Sərim qurbandı sərinə, ay atanın nər balası,
Tüf dağıdıb, ordu pozan, səf yaran, sərdar balası,
Səxavətdə misli-Hatəm, səddə İsgəndər balası,
Qurşayıb kəmərini Şahi-Qəzənfər balası,
Qəniminə qan ağladır, bac vermir düşmana, - deyin!

Hansı yerdə dava düşüb, iyidlik Aslan eləyib,
Şahmar kimi gərdan çəkib, düşman bağrın qan eləyib,
Xod verib beşatana, dağıdıb, şan-şan eləyib,
Mirzələr qəzetə yazıb, aşıqlar dastan eləyib,
“Mərhəba”, “əhsən”, “afərin”, “can” belə oğlana, – deyin!

Sidqin Allaha bağlayıb, çağırır Şahi-Heydəri,
Öz nəslindən, öz soyundan var bir neçə iyidləri,
Hər biri qovğa günündə pozur bir fövci-ləşgəri,
Saxlayır aşpazxanada neçə zəlili, müztəri,
Hatəm kimi bir qapısı açılıb ehsana, – deyin!

Molla Qasım kamandardı, Əsədi gördüm mərdana,
Əl-ayağı od ələyir elə ki girdi meydana,
Mağar hündür tikilmişdi, alçaqdaydı aşpazxana,
Məcməyilər qol ağrıtdı, zəhmət verdi çox cavana,
Bu sözlər çapa vurulsun, getsin bir zamana, – deyin!

Balçılı Kalvayı Əli cavan bir oğlan kimidi,
Şəriətdən mətləb qanır, təriqətdə xan kimidi,
Həqiqətdən kəlmə kəsir, Ləli-Bədəxşan kimidi,
Hüsndə Yusifi-sanı, kamalda Loğman kimidi,
Padişah vəzir götürər addasa İrana, - deyin!

Silistçi, doxdur, pristav bezənhabezən yeridi,
Əyri işlərə sığal çəkib, verməyə düzən yeridi,
Dəli Alı at belində, çiynində süzən yeridi,
İsmayıl Mələkəlmövttək, candan can üzən yeridi,
Dedi: – Brat, bajolüstə, gəlməsin oğlana, - deyin!

Eldarda Qəhrəman koxa, Gəncədə Alı söylənir,
Dövləti, həşəməti, şəni-calalı söylənir,
Səddə İsgəndər kimidi, Hatəm səxalı söylənir,
Zəfəranlı ağ plovu, əmliyi, balı söylənir,
İlahim bərhəm vurmasın bu qurğu-dövrana, – deyin!

İyidlikdə yox əvəzi, sağ olsun Bala Məşədi!
Girəndə meydan içinə, alınmaz qala Məşədi,
Vəsfini dastan edirəm, düşsün mahala Məşədi,
Səvar olanda köhlənə, hamıdan əla Məşədi,
Rüstəmin Rəxşi kimi gətirir cövlana, - deyin!

İyidlərin sərkərdəsi Məşədi Məhəmməd hanı?!
Gəzən afatdan, bəladan hifz eyləsin kərəm kanı!
Sidqin Allaha bağlayıb, çağırır Şahi-Mərdanı,
Yeddi ağacdan - yeddi ağaca gözü görəndə düşmanı,
Süzən tüfəng cingildəyir, güllə qaçır qana – deyin!

Hər məclisdə duaçıyam, günbəgün ucalır səsim,
Barilahim, irəhm eylə, yerə düşməsin nəfəsim,
Oğul ver iki qardaşa, bir qurban da özüm kəsim!
Mən deyirdim, çox iyiddi Əsəd ilə Molla Qəsim,
Köhnə kişilər deyirlər: – İyid Bayramxana, – deyin.

Min iki yüz doxsan dörddə* Ələsgər tapdı əsəri,
Eşq ilə nəfs məni dolandırır bəhri-bəri,
Dilimdə ahi-canan, sərimdə zəhmətin təri,
Qəddimi xəm eləyib qəhri-qəzanın qədəri,
Xacə Nəsirdi, gəlib çıxıb bu meydana, – deyin!

* Miladi ilə 1875-ci il

## DOLANIR[48]

Bugünkü məclisimdə görün, necə can dolanır?!
Bəzənib tovuz kimi, huriyü-qılman dolanır,
Aləmə aşikardı, aşıqdan pünhan dolanır,
Qaşları cəllad olub, qəbzəsində qan dolanır,
Şəst ilə xaki-payına gör neçə qurban dolanır?!

Hər yanı axtarmışam, yaranmayıb böylə afat,
Xaliqin nurundandı, zikr olunur ismi – Həyat.
Üzünü görən kimsə gərək çevirsin salavat,
Diriyə ölüm yoxdu, mürdələr* də tapar həyat,
Meylini döndərəndə, çarx dönür, dövran dolanır.

Əndam ağ, bədən nazik, gərdən misli-sürahıdı,
Çöhrəsi şölə saçır, göylərin şəmsü-mahıdı,
Qaş qara, gözlər ala, bu ki mələklər şahıdı,
Qınamayın Ələsgəri, gözəlliyin məddahıdı,
Qüdrətin naqqaşına olubdu heyran, dolanır!

---

* Mürdə – ölü

## ELƏYİB[49]

Xaliqi-ləmyəzəl-Allah möcüz nümayan eləyib,
Görün, bir qətrə mənidən nə cürə insan eləyib?!
Ona fəthi-nüsrət verib, bəbir pəhləvan eləyib,
Səfalının yaylağında dörd dəfə meydan eləyib,
Hər kimə xişm ilə baxsa, xofu hərəsan eləyib.

Xaçpərəstli-müsəlmanlı cəm oldu Göyçənin eli,
Döyüləndə kus-nağara, xişmə gəlib, oldu dəli,
Əlini qoyub köysünə, hərdən çəkərdi: – Ya Əli!
Atdı göyə pəhləvanı, düşdü yerə, sındı beli,
Kalvayı Molla Hümməti bir dəstə reyhan eləyib.

Meydanalı şövq elədi, üstüncə bəylər yeridi,
Seyistandan Rüstəm qalxıb, Maliki-Əjdər yeridi,
Dərya kimi cuşa gəlib, şir kükrəyib, nər yeridi,
Gördü, bəylər qafil olub, Aşıq Ələsgər yeridi,
– Amandı, girmə meydana, çoxların peşman eləyib!

İqballarıyeyin olsun Əsədin, Molla Balının,
Qasım ilə Nağı bəyin, Mədəd ilə Sevdalının,
Müxənnətlər daldasında gizləndi dünya malının,
Kalvayı Söyün baxıb gördü, şoru çıxıb şorcalının*,
Aşığa bir cöngə verib, könlünü rövşan eləyib.

Kalvayı Söyün kimi iyid gəlməyib ruyi-zəminə*,
O kişi sidqin bağlayıb Haqqın ismi-əzəminə,
Yaşıl yüzlükləri beş-beş gedir çinelin* dəminə,
Çinellər baş-başa durub, işi salırlar "çəminə",
"İsgəndərə tənbeh yoxdu, şah belə fərman eləyib".

Yoxdu Göyçə mahalında İsgəndərtək iyid gəzən,
Dost yolunda başın qoyub düşmanının canın üzən,

---

* Şorca – Göyçədə kənd adıdır.
* Ruyi-zəmin – yer üzü
*Çinel (çlen) – məhkəmə üzvü mənasında

Yoxsulların əlin tutan, ac doyuran, əysik düzən,
Bir düjün tüfəngin gördüm, aynalı, berdanqa, süzən...
Berdanqaya nabələdəm, aynalı beş qan eləyib.

Sağ yanında Qərarxacın çox yaxşıdı bir adəti;
Samavar qaynayıb coşar, çatmadan qurtarmaz əti,
Hər gələnə hörməti var, aşığa cöngə xələti,
Peyğəmbər süfrəsin silkib, heç üzülməz bərəkəti,
Nəfi mindən-mindən gəlir, gədələri xan eləyib.

Alagöllər, Qaraxaç, Keytidi* başın, Səfalı!
Səndə əylənən xan olur, gəlir peşkaşın, Səfalı!
Çeşmələrin Abi-həyat, mərcandı daşın, Səfalı!
Gözəllərin zinətidi alın, qumaşın, Səfalı!
Aşıq Ələsgər bəyənib, vəsfini dastan eləyib.

---

* Keyti – dağ adı, Alagöllər və Səfalı yaylaq adlarıdır.

## GƏLİN[50]

Geyinibsən tər əndama tər-təzə libası, gəlin!
Məni valeh eyləyibdi qaşların qarası, gəlin!
Gözlərindən həya eylər göyün Sürəyyası, gəlin!
Yaxşıların yaxşısısan, gözəllərin xası, gəlin!
Könlümü şövqə gətirdi hüsnün təmənnası, gəlin!

İnanmıram, kamalına Həkimi-Loğman yetişə,
Bəlkə, səndən əlac ola, xəstəyə dərman yetişə,
Mərifətdə, qanacaqda hanı, sana can yetişə,
Kənar gəz seyraqubdan, qoyma ki, böhtan yetişə,
Amandı, gəl, uyma sara, tərlanın sonası, gəlin!

Süzgün baxış canlar alır, qəmzələrin qandı, gözəl!
Mürvət elə, Ələsgəri öldürmə, amandı, gözəl!
Kərəm Əslidən ötəri atəş tutub yandı, gözəl!
Fərhad Şirinin yolunda gör necə qurbandı, gözəl!
Sən məni Sənan elədin, tərsalar tərsası, gəlin!

## GƏLİR

Yetişib bahar fəsli, yar Leyli dağından gəlir,
Sanki Fərhadın Şirini sürüdən, sağından gəlir,
Dəstində lalə, nərgiz, behiştin bağından gəlir,
Sallanıb ala gözlüm sərin yaylağından gəlir,
Alvızın tərlanıtək yenə ovlağından gəlir.

Sonatək sığallanıb, bəzək veribdi başına,
Gözünə siyah sürmə, vəsməni yaxıb qaşına,
Təzəcə yetmiş olar on beş, on altı yaşına,
Allahın əziz bəndəsi gəlir hər kəsin xoşuna,
Tərifi düşüb ellərə, hamı sorağından gəlir.

Gəzmişəm, görməmişəm belə boyu bəstə xanım,
Camalın bayram ayı, görən düşər xəstə, xanım!
İncimən qədəm qoysan, əgər gözüm üstə, xanım,
Giribsən cəllad kimi can almağa qəsdə, xanım!
Məcnunun çöllər gəzib, sənin fərağından gəlir.

Necə yayınır, çalxanır, göllərin sonasına bax!
Başında Herat kəlağay, altının cunasına bax!
Bu Tanrı baxtavarının əlinin xınasına bax!
Boynunda mina silsilə, zülfünün şanasına bax!
Tökülüb burma birçəyi, ucu qulağından gəlir.

Qövr eylədi köhnə yaram, gözüm gördü yarı yenə,
Alışdı, təzələndi sinəmin dağları yenə,
Qoynu Cənnət bağıdı, yetişibdi barı yenə,
Bimürvət, Ələsgərdən əsirgər nubarı yenə,
Müşkü-ənbər qoxusu onun buxağından gəlir.

## GİLƏYƏ[51]

Ay ariflər, qulaq asın, deyim bir dastan Giləyə,
Qabliyyətdə, mərifətdə çatmaz bir insan Giləyə.
Bu təmkində gözəl yoxdu, olmuşam heyran Giləyə,
Yetmiş iki millət görsə, gərək desin "can" Giləyə,
Lazımdı kəsdirəsən gündə yüz qurban Giləyə.

Ağ ipəkdən dizliyi var, gül düzdürüb yaxasına,
Başında Herat kəlağay, bənzər göllər sonasına,
Deyib-gülmək halal olsun belə gözəllər xasına,
Libası əndama layiq, əndam uyur libasına,
Qızıldan kəmər yaraşır sinəsi meydan Giləyə.

Maşallah, ay qabağa gör necə tellər yaraşır,
Burun püstə, dodaq qaymaq, yanağa güllər yaraşır,
Ağ buxağa inci, mərcan, üstünə sim-zər yaraşır,
Minatək gərdəninə yaquti-əhmər yaraşır,
Halal olsun bu səltənət, bu qurğu-dövran Giləyə.

Məhəbbətə sədaqətli, ayrılmaz bir can kimidi,
Tovuz kimi cilvələnib, qırımı tərlan kimidi,
Ay qabaq şölə saçır, mehri-dirəxşan kimidi,
Mərifətdə yoxdu tayı, kamalda Loğman kimidi,
Hüsndə şəbahəti var Yusifi-Kənan Giləyə.

Şahid-əl-vahidi-yekta, dinimiz Məhəmməd dini,
Gərək salavat çevirsin hər kim ki görsə üzünü,
Mən Aşıq Ələsgərəm, söylərəm sözün düzünü,
Həm bu dünyada bacımdı, həmi qiyamatın günü,
Lənət gəlsin o kəslərə – söyləyə böhtan Giləyə.

# GÖZƏL[52]

Yaraşır əndamına geyindiyin sarı, gözəl!
Yaradan hifz eləsin sən kimi dildarı, gözəl!
Yetişib sinən üstə bağçaların barı, gözəl!
Lütf eylə, mən xəstədən əsirgəmə narı, gözəl!
Tök mətahın xırd elə, aç indi bazarı, gözəl!

Səni görəndən bəri olmuşam dəli-divana,
Az qalıbdı Kərəm kimi od tuta, cismim yana,
Kafər görsə irəhm eylər mənim kimi müsəlmana,
Bir üzünü bəri döndər, səni and verrəm Qurana!
Məcnuntək firqətindən gəzərəm dağları, gözəl!

A bimürvət, az qalıb canımı ala gözlərin,
Salıbdı mən yazığı nə qalmağala gözlərin,
Mən qiymət qoyammaram, dəyər mahala gözlərin,
Yüz ilin xəstəsini gətirir hala gözlərin,
Bir də görsəm üzünü, çəkmərəm azarı, gözəl!

Əl uzaq, qəlbim yaxın, bələdəm hər bir halına,
Görcəyin valeh oldum həbəşi xəttü-xalına,
Zənburam, sızıldaram dodaqlarının balına,
Yaylaqlar ceyranısan, əhsən o gül camalına!
Köysündə qərar tutub Savalanın qarı, gözəl!

Ağlımı sərdən aldı, baxdım gözün alasına,
Canımı qurban elərəm belə gözəllər xasına,
Libas əndama uyur, əndam uyur libasına,
Ələsgər Məcnun olub, düşüb Leyli sevdasına,
Sayiləm, bir sayə sal, üz döndərmə barı, gözəl!

## GÖZƏLƏ

Canımı qurban elərəm bir belə tərlan gözələ,
Hal bilən, şirin gülən, dosta mehriban gözələ,
Boy uca, gərdən mina, zülfü pərişan gözələ,
Dolanıb mürği-ruhum, olubdu mehman gözələ,
Xəstəyəm, yalvarıram, Həkimi-Loğman gözələ.

Gözəl xanım cilvələnib gözəllərin xası kimi,
Görəni Məcnun eyləyir, Leylinin sevdası kimi,
Ala gözlər şölə çəkir göyün Sürəyyası kimi,
Çəpgəni hər rəng çalır, Peyğəmbər xırqası* kimi,
Baratdı, Behiştdən gəlib, gətirib qılman gözələ.

Gözəl xanım al geyinib gözəllər xasından gözəl,
Silkinir, gərdən çəkir göllər sonasından gözəl,
Libas əndamına layiq, əndam libasından gözəl,
Qabiliyyət, mərfət tapıb ata-anasından gözəl,
Gözəlliyi cəm veribdi, Xaliqi-Sübhan gözələ!

Qəmgin idim, xələt verdi, məlul könlüm açdı gözəl,
Arifsən, əhli-ruhsan, can cana peşkaşdı, gözəl!
Ay qabaq şölə verir, qaşın göyçək qaşdı, gözəl!
Nə qədər gözəl görmüşəm, hamısından başdı Gözəl,
Cavanşir gözəllərinin cəmisi qurban gözələ!

Fələkdən gileyliyəm, günü mana qara verib,
Mömini zəlil eyləyib, suru günahkara verib,
Tərlanı sara yazıb, tər qönçəni xara verib,
Ələsgər Məcnun olub, meylini dağlara verib,
Unudub ibadəti, bağlayıb dastan gözələ.

---

*Xırqa (xirqə) – üst paltarı

## HƏCƏR[53]

Naqafil çıxdın qarşıma, gözəllər sultanı, Həcər!
Gəzmişəm, görməmişəm sən kimi insanı, Həcər!
Dişlərin dürr dənəsi, ağzın gövhər kanı, Həcər!
Ay qabaq şölə verir cahan çırağbanı, Həcər!

Başında Herat kəlağay, hər paltarı darayıdı,
Bəşərə bənzətmək olmaz, göydə mələklər tayıdı,
Turunclar baş göstərib, qoynu Behişt sarayıdı,
Aşıq görüb bu dünyada Cənnəti-Rizvanı, Həcər!

Ağ ipəkdən dizliyi var, köynəyini geyib sarı,
Gərdənə həmayıl salıb, ətəyə düzüb mirvarı,
Yaradandan istəmişəm, var əlində ixtiyarı,
Sara qismət eyləməsin sən kimi tərlanı, Həcər!

Gözəllərin gözüsən, sədan düşüb hər mahala,
Qaşların cəllad olub, qəsd eləyir canlar ala,
Mən sana “bacı” dedim, xalq düşməsin kəc xəyala,
Ələsgərdən incik olma, gözlərin qurbanı, Həcər!

## XIRDACA QIZ[54]

Naz ilə gəldin otağa, leylinişan Xırdaca qız!
Tovuz kimi cilvələnib, artırdın şan, Xırdaca qız!
Camalına mayıl olub huri, qılman, Xırdaca qız!
Səni görən cavanlarda qalmaz iman, Xırdaca qız!

Adı Kövsər, ləbi Kövsər, dür düzülüb zənəxdana,
Gərdəndə qızıl həmayıl, şölə salıbdı hər yana,
Aşiqinə zülm elədin, od qaladın şirin cana,
Kərəm eylə, ayaq saxla, getmə, dayan, Xırdaca qız!

Gözəlliyin binadandı, tanıram əsli-soyunu,
Səd afərin naqqaşına, şüşədən çəkib boyunu,
Allah bir vəsilə salsın, Hac* Alı tutsun toyunu,
Kəsilsin xaki-payında neçə qurban, Xırdaca qız!

Ələsgərəm, tərifini düzürəm dastana, gözəl!
Eşitsin, fəxr eləsin səni doğan ana, gözəl!
Şükür haqqa, Xudam yazıb tərlanı tərlana, gözəl!
Mehdi kimi ölkəmizdə yoxdu oğlan, Xırdaca qız!

* Hac- Hacı

## KİMİ

Dəli Alı bir sədd açıb Şah Abbas dövranı kimi,
Yanında yoldaşları var, Azərbaycan xanı kimi,
Zeynalabdın bəy bəzənib Misirin sultanı kimi,
Hər yana kağız dağıldı Süleyman fərmanı kimi,
Yetmiş iki millət gəldi, Ərəsət divanı kimi.

Neçə çinovniklər gəldi, çox ağır keçdi yığnağı,
Bir yanı Qanıq, Qavrı, bir yanı Qoşqarın dağı,
Aləm çırağban göründü, xoddananda cıl-çırağı,
Şəmkirdən düyü çəkildi, Sarıyaldan gəldi yağı,
Hər yana qəflə işlədi, xotkar bəzirganı kimi.

Günün günorta vaxtında gəldi Alının dəstəsi,
Hər birisi bir iyiddi, bir qoşunun sərkərdəsi,
Gördüm, asmana dayandı “öldürrəm”, “öldürrəm” səsi,
Yaponyadan tüfəng gəlib, yeddi ağac vurur gülləsi,
Zərbindən dağlar titrəşir, bərqin dirəxşanı kimi.

İyidliyin səbəbinə ona deyirlər: – Dəli Alı,
Şücaətdə Qəhrəmandı, Loğmana bənzər kamalı,
Barilahim, irəhm eylə, pozulmasın bu calalı,
Bir sərkərda camışı var, üç sərkərda qoyun-malı,
Mehtərdə qırx atın gördüm Cəlalın türkmanı kimi.

Alı kimi iyid yoxdu, onu tək doğub anası,
Süzən* əldə, ətək beldə, var iyidlik nişanası,
Vallahül-əzim belədi, açıq sözün mərdanası,
On beş gün şülən çəkildi, işlədi aşpazxanası,
Erkək yan-yana kəsildi Minanın qurbanı kimi.

Alı məclisə gələndə mətəl qaldım işlərinə,
Atanın sərdar oğludu, sərim qurbandı sərinə,
Səxavətdə əla gördüm, yazdım Hatəm dəftərinə.

---

* Süzən – tüfəng

Şabaşa beşlik qızıllar işlədi qəpik yerinə,
Neçə mücrülər açıldı sərrafın dükanı kimi.

İyidlikdə yox əvəzi, “afərin!” dedim Aslana,
Dağıstan formu geyinib, təmkini qızılbaşyana,
Süzən tüfəng cingildəyir, patronu səyrişir qana,
Koroğlutək nərə çəkir, coşub girəndə meydana,
Tüf dağıdır, ordu pozur qüdrətin aslanı kimi.

Ata-baba iyiddilər, bəyənmişəm əsli-zatın,
Doğruluğun səbəbinə Mövlam veribdi baratın,
Əli kəmərbəstəsidi, cəm eyləyib hər büsatın,
Fürsəti düşmənə verməz, əldən qoymaz ehtiyatın,
Kəpəzdə ovun gözləyir Alvızın* tərlanı kimi.

Cəfər ağa bir iyiddi girəndə meydan içinə,
Yalavıyır şimşək kimi, bələnir al qan içinə,
Zərrəcə gəlməz eyninə düşsə yüz düşman içinə,
İsgəndərtək səddi çıxıb yeddi Dağıstan içinə,
Şəninə dastan yazıram Rüstəmin dastanı kimi.

İçlərində bir seyid var, onlara rəhbər kimidi,
O ki Məşəd Məhəmməddi, bir nər oğlu nər kimidi,
Qızılhaclı* Allahverdi Maliki-Əjdər kimidi,
Min yaşasın İsmayılı, nərəsi Heydər kimidi,
Xaçbulaqda meydan açdı Koroğlu meydanı kimi.

Orucu çox bəyənmişəm, məhəbbətim var Qəfərə,
Qasımı mərdana gördüm, vəsfini yazdım dəftərə,
O kişilik, o səltənət halal olsun İsgəndərə,
Unudub dünya cifəsin, tabe olub peyğəmbərə,
İbadəti var məscidin qareyi-Quranı kimi.

* Alvız (Elbrus) – dağ adıdır.
* Qızılhaclı – Qızılhacılı

Beş min manat nağd yığıldı, dalda qalanın bilmədim,
Yüz erkək-öyəc kəsildi, toğlunun sanın bilmədim,
Xərcindən bərxurd olmadım, nəfin, ziyanın bilmədim,
Nisyə qalan xələtlərin doğru, yalanın bilmədim,
Nağdıdan mətləbim verdi kişi kərəm kanı kimi.

Biçarə Aşıq Ələsgər, gəldin, getdin, hər nə isə,
Haqq səni sərraf yaradıb, qiymət qoy yaxşıya, pisə,
Tat oğlu, Bala Məşədi – onlar gələndə məclisə,
Hamıdan çox pul verdilər, qızıl ilə dolu kisə,
Aşıqlar güzəran tapdı bəylər güzəranı kimi.

# MALADES[55]

Mərhəba, namxuda, afərin, əhsən, malades!
Cahanda yoxdu tayın, dünyada təksən, malades!
Həmi ağsan, həmi çağsan, həmi də köksən, malades!
Xudam səni xoş yaradıb, belə göyçəksən, malades!
Hurilər padişahı, nazlı mələksən, malades!

Mən sana qurban olum, ay səri sevdalı gözəl!
Ləblərin şəhdi-şəkər, misli beçə balı, gözəl!
Qüdrətdən nəqş olunub zənəxdanın xalı, gözəl!
Zərrəcə gəlməz eyninə bu dünyanın malı, gözəl!
Gözü tox, könlü təmiz, özünə bəysən, malades!

Aşıq Ələsgər deyər, bu duruşun xan kimidi,
“Xan” deyib, səhv olmuşam, huriyü-qılman kimidi,
Qabliyyət, mərifətin, kamalın Loğman kimidi,
Məclisdə dolanmağın alıcı tərlan kimidi,
Hansı evə qədəm qoysan qızıl dirəksən, malades!

## MƏLƏK[56]

Mən səni bənzətmişəm huriyə, qılmana, Mələk!
Baxışın canlar alır, qəmzən səkir qana, Mələk!
Qaşın qüdrətdən çəkilib, oxşayır kamana, Mələk!
Xalının bir dənəsin verməzəm cahana, Mələk!
Üzün görüb ayrı düşən qalar yana-yana, Mələk!

Geyinib əndamına əbrü ətlaz, alı gözəl,
Xara don, zərin nimtənə, başındakı şalı gözəl,
Bəxtəvər gümüş kəmər qucur qəddi-qalı gözəl,
Qulağında qızıl sırğa, zənəxdanda xalı gözəl,
Qılıbsan hüsnün şamına sən məni pərvana, Mələk!

Gözəlin məclisində şirin söhbət, saz dolanır,
Hüsndən könüllərə bahar keçir, yaz dolanır,
Süzür, gəlir səkə-səkə, sanki quba qaz dolanır,
Qaşında, kirpiyində işvə, qəmzə, naz dolanır,
Gözləri cəllada dönüb, qəsd eləyir cana Mələk.

Gözəllər dəstə-dəstə qulluğuna sana gəlir,
Ağa, rəiyyət, bəy, gədə əmrinə, fərmana gəlir,
Aşıq, alim, molla, seyid dad çəkir, amana gəlir,
Dəlilər dəxil düşür, mərizlər Loğmana gəlir,
Xəstədi, Ələsgəri sən yetir dərmana, Mələk!

## NƏDİ

Kalvayı, fəhm elə, gör, bu gələn insandı, nədi?!
Ay qabaq şölə verir, mehri-dirəxşandı, nədi?!
Titrəşir var əndamı, dərdlərə dərmandı, nədi?!
Gözləri canım alır, afəti-dövrandı, nədi?!
Huridimi, pəridimi, pələkdi, qılmandı, nədi?!

Göz gördü, könül sevdi gözlərinin alasını,
Gül görsə, xəcil olar yanağının lalasını,
Getmə gözüm önündən, alım boyun bəlasını,
Xəstə içsə dirili ləbinin piyalasını,
Şirəsi Abi-həyat, şərbəti-Loğmandı, nədi?!

Dünya təbdil olubdu, gözəl biilqar görünür,
Açılıb mərmər sinə, aləmə aşkar görünür,
Örtməynən sən üstünü, dünya mana dar görünür,
Qoynundu gülşən bağı, bir cüt qoşa nar görünür,
Ey Xudaya, sirr qaldım, Cənnəti-Rizvandı, nədi?!

Bu simi-zənəxdanın mirvarı xallarına bax,
Bərq verir büllur buxaq, Savalanın qarına bax,
Çarxı dönmüş fələyin sən kəc irəftarına bax,
Fəhm eylə, diqqət ilə özünə bax, yarına bax,
Çəkilib dal-qaməti sərvi-xuramandı, nədi?!

Həzərat, haqqa baxın, qəlbdən ehsan eləyin,
Mənim bu dərdi-dilimi dostlara əyan eləyin,
Ölürəm, mən xəstənin dərdinə dərman eləyin,
Aparın Ələsgəri, payında qurban eləyin,
Bimürvət, bəlkə, baxa, deyə: – Bu, qurbandı, nədi?!

## PİŞİK[57]

Dad! Siçanın əlindən yetişmişik cana, pişik!
Dünyanı bizdən ötəri döndərib zindana, pişik!
Dağıdıb kəndiləri, dadanıb yaxdana*, pişik!
Doğrayıb zər libası, eləyib əfsana, pişik!
Alagöz gəlinləri qoyub yana-yana, pişik!

Birisi boz dikqulaq, birisi qonur, balaca,
Dərmə-qayıq farmaşın hər yanından açıb baca,
Bez ilə irəftardı, qumaş ilə düşüb ləcə*,
Harda görsə zəri-ziba, istifa, tirmə, alaca,
Biləsən, nə hal kəsir döşəyə, yorğana, pişik!

Nə qədər əlləşirəm, bu məluna yoxdu çara,
Gündüzlər pünhan olur, gecələr çıxır aşkara,
Çırağı yandıranda qaçır, soxulur divara,
Dağıdıb quyuları, indi daraşıb anbara,
Müxtəsər, ruzumuzu döndəribdi qana, pişik!

O gödək zalimü fasiq belə bir azar elədi,
Aləmə gen dünyanı bizdən ötrü dar elədi,
Hamı dərddən ziyada bu dərd mana kar elədi,
Dəldi yağ dərilərin, xumları murdar elədi,
Axşamadək evlərdə qurulur zasdana*, pişik!

Bu sözləri eşidəndə, pişik bir tufan elədi,
Şeşəltdi bığlarını, gözləri rövşan elədi,
Ay qaranlıq gecədə yüz dəfə cövlan elədi,
Qisasa qisas aldı, bir qana yüz qan elədi,
Gördüm, on səkkizini düzübdü yan-yana pişik.

---
* Yaxdan – sandıq
* Ləc – höcət
* Zasdana (zasedanie) - iclas

Yatmadım sübhə kimi, mən baxdım qilü-qalına,
Öyrənib xəsyətini, bələd olmuşam halına,
Ədəb ilə əyləşibsən, səd afərin kamalına,
Aləmin padişahı dəstini çəkib dalına,
Qaynağın poladlanıb, dönübsən aslana, pişik!

Mən səni iyid bildim, verdim aran-dağı sana,
Alaçığı, ağ çadırı, eyvanı, otağı sana,
Müxtəsəri, vəssalam, budu sözün sağı sana,
Gözəllər əsirgəməsin pendiri, qaymağı sana,
Yeyəsən nəmilərdə, dönəsən sultana, pişik!

Xanım xələt bağışladı, Ələsgər yazdı dəftərə,
Göndərərəm tüllablara, məlum olsun hər şəhərə,
İyiddi, ölməyincə arxasını qoymaz yerə,
Pristav qubernata, qubernat yazsın sərdərə,
İnşallah, nişan verər sana divanxana, pişik!

## PƏRİ

Qəfil pəncərədən baxdın, elədin yüz qan, a Pəri!
Qaşlarının təhərini bənzətdim kamana, Pəri!
Neçə-neçə aşıqlara çəkdirdin aman, a Pəri!
Şah kimi taxtda əyləşib, eylərsən divan, a Pəri!
Yerə, göyə hökmün işlər, sənsən Süleyman, a Pəri!

Başında bir dəstə gözəl bağçanı seyran elədin,
Nərgiz ilə bənövşəni qəddinə heyran elədin,
Sallandın məclisimdə, bir dəli dövran elədin,
Çəkib almaz kirpiyini bağrımı şan-şan elədin,
Öz əlinlə gəl yarama sən eylə dərman, a Pəri!

Geyinibsən yeddi qələm, bürünübsən şalı gözəl,
Tumanın darayıdandı, kəmərçinin alı gözəl,
Yanaqların güldən təzə, zənəxdanın xalı gözəl,
Qoynun əttar dükanıdı, ləblərinin balı gözəl,
Qənd əzilib dilə, dişə, o qönçə dəhana, Pəri!

Gəlməyib yer üzünə belə yaman bəla, bilin,
Onu görən kimsələr düşər yüz xəyala, bilin,
Gözləri qan salıbdı böyük bir mahala, bilin,
Tökülüb şahmar zülfü çin-çin qəddü dala, bilin,
Boyundan xəcalət çəkir sərvi-xuraman, a Pəri!

Gözəl xanım, pişvazına neçə-neçə can yeridi,
“Əhsən, əhsən!” deyib yerdə səf çəkib insan yeridi,
Göydə huri, pəri, mələk, Behiştdə qılman yeridi,
Cümləsi gül qədəminə olmağa qurban yeridi,
Belə də mürvət olarmı, baxmadın qurbana, Pəri!

Süzürsən sona kimi yaylıq alıb ələ, gəlin!
Qurşanıb gümüş kəmər nazik, incə belə, gəlin!
Götürüb şirmayı şana, sığal verdin telə, gəlin!
Çoxunu Məcnun elədin, saldın çöldən-çölə, gəlin!
Bir bu qədər zülm eləmə nahaqdan insana, Pəri!

Ələsgər aşiq olubdu sənin qaşının tağına,
Ala gözlər canlar alır, gül yapışıb yanağına,
Üzün görüb ayrı düşən dözə bilməz fərağına,
Şəfa deyin ümid bildim, yön çevirdim ayağına,
Mərhəmət eylə, "get" demə, mən qərib mehmana, Pəri!

## YERİDİ

Cilvələndi tovuz kimi qarşıdan bir can yeridi,
Abad könlümün evini eylədi viran, yeridi,
Qaş oynatdı, bir ox atdı, bağrıma peykan yeridi,
Qulluğuna huri, pəri, məlakə, qılman yeridi,
Eylədi şux cavanların qəddini kaman, yeridi.

Dayanmadı, mətləb açım, qəsd elədi cana, keçdi,
Naz elədi, işvə satdı, qəmzələri qana keçdi,
Qolunda qızıl bilərzik, guşunda zər tana keçdi,
Aşığı çəkməyə dara şəst ilə meydana keçdi,
Şikar üçün ovlağına alıcı tərlan yeridi.

Əynində ətlaz küləçə, üstünün baftası qəşəng,
Qanovuz don, xara köynək, çəpkəni, qoftası qəşəng,
Tanrı bəxtəvərinin özü xub, libası qəşəng,
Şamına pərvanəyəm, sərimdə sevdası qəşəng,
Saymadı aşiqini, gözləri məstan yeridi.

Qamətinə heyran olan pirə, cavana baxmadı,
Ayağına üz döşəyən qıza, oğlana baxmadı,
Ərş üzündə məlakəyə, yerdə insana baxmadı,
Mənim ilə keçirdiyi əhdü-peymana baxmadı,
Qırdı qol-qanadımı, qəzəblənmiş xan yeridi.

Ələsgərəm, mayıl oldum bu xubların xasına mən,
Qaşlarının vəsməsinə, əlinin xınasına mən,
Düşmüşəm Məcnun kimi, Leylinin sevdasına mən,
Gəlmişdim təbibimə dərdimin davasına mən,
Bimürvət müşkül dərdimə etmədi dərman, yeridi.

## ŞAH DAĞI

Aləmdə dastan olub səddin, sorağın, Şah dağı!
Açılıb nərgiz, bənövşən, əcəbdi çağın, Şah dağı!
Abi-Kövsər kimi axır çeşmən, bulağın, Şah dağı!
Heyif ola, bu çeşmədə yoxdu bir sağın*, Şah dağı!
Müxənnət yaylar köysündə, pozar damağın, Şah dağı!

Haqq səni Cənnət yaradıb, qanan yoxdu, qədrin bilə,
Sədrin badi-səfasından xəstə könlüm gəldi dilə,
Mürğtək balü-pər açdım, oxudum döndüm bülbülə,
Bir gözəl keçdi qarşıdan gözlərindən gülə-gülə,
Dağıtdı ömrüm qəfləsin, nə çoxdu yağın, Şah dağı!

Süsən, sünbül, gül, ərğəvan köysündə laləzar verib,
Alan, satan gözəllərdi, gör nə rəvanc bazar verib,
Damənin çahar fəsil, hər meyvə bitib, bar verib,
Xudam səni xoş yaradıb, bir belə ixtiyar verib,
Dalın dənizə söykənib, Kürdü ayağın, Şah dağı!

Bir tərəfin Çənbərəkdi, görənin həvəsi gəlir,
Topaşandan qəflə işlər, Gəncənin meyvəsi gəlir,
İstanbulun al qumaşı, Bağdadın xurması gəlir,
Oxuyur türfə gözəllər, kəkliktək sədası gəlir,
Aşıq üçün Cənnət qoxur daşın, torpağın, Şah dağı!

Mən gəzmişəm Qafqazyanı, Haqq səni bir xəlq eləyib,
Ağrı dağı padişahdı, səni vəzir xəlq eləyib,
Çiçəklərin kimyədi, daşını dürr xəlq eləyib,
Boyun minadan çəkilib, sərində pir xəlq eləyib,
Murov, Muşov, Murğuz, Kəpəz olmaz yamağın, Şah dağı!

Hansı iyid dara düşsə, nəzir deyir, yada salır,
Yeddi kralın qaçağı pənahlanıb, səndə qalır,

* Sağı (saqi) – şərab paylayan

Kor gələndə şəfa tapır, müztər gəlsə, mətləb alır,
Saatda yüz çiçək açır, hər biri bir irəng çalır,
Belə məlum, qüdrətdəndi küpün, boyağın, Şah dağı!

Xudam səni xoş yaradıb, hər kim görsə, xoşlayacaq,
Yay gözəl seyrangahısan, qışda maral qışlayacaq,
Yazıq Ələsgər yolunda başü-can bağışlayacaq,
Aşıq səndən incik gedir, ərzi-giley başlayacaq,
Özünə də məlum olsun, küsüb qonağın, Şah dağı!

## ŞAPƏRİ[58]

Bir saat kərəm eylə, ərzim deyim qan, Şapəri!
Gəlməyib bu cahana sənin kimi can, Şapəri!
Hüsnünə mayıl olar Yusifi-Kənan, Şapəri!
Ya hurisən, ya pərisən, ya da ki qılman, Şapəri!
Xəstələr Loğmanısan, dərdlərə dərman, Şapəri!

Gəlməyib heç gözələ bu dünyada belə nişan,
Zülf bulud, qabaq ayna, qaşlarının tağı kaman,
Burun püstə, dodaq qaymaq, ağ buxaq, qönçə dəhan,
Hüsnünün zərrəsini gördü aşıq, tapdı iman,
Sənə nə bəşər deyilər, nə də ki insan, Şapəri!

Hüsnündə qüsur yoxdu, qeyri işində naşıyam,
Boyunun sadağası, məclisinin peşkaşıyam,
Dərdin məni tez öldürər, qoymaz dünyada yaşıyam,
Oldum hicran barkeşi, gərək qəm yükü daşıyam,
Səni gördüm, əl götürdüm evdən, əyaldan, Şapəri!

Saatın xoş vaxtında sən gəldin qabaq-qabağa,
Ağlımı başdan aldın, Məcnun kimi saldın dağa,
Sərraf olsa bir telini verməz külli-Qarabağa,
Şəki, Şirvan, Şamaxı olsun boyuna sadağa,
Doqquz mahal İrəvan da gözünə qurban, Şapəri!

Bu gözəl peyda olub Göyçə mahalında təzə,
Görənlər mayıl olur gül camala, şəhla gözə,
Bir kamil mirzə gərək, vəsfini dəftərə yaza,
Bir xalın Gürcüstana, bir xalın Çeçen-Çərkəzə,
Bir xalın Dağıstana olubdu sultan, Şapəri!

Gəlməyib bu dünyaya yəqin bilin, böylə sənəm,
Üstünə nur yağacaq hansı evə qoysa qədəm,
Bilmirəm, nə xoş gündə xəlq eləyib kani-kərəm,
Bir görən həsrət çəkir, deyir: – Nola, bir də görəm,
Qəddinə, qamətinə qalıblar heyran, Şapəri!

Silkinir, qumrovları zey-zey deyir, gəlir səsi,
Buxağı büllurdandı, mərmərdən ağdı sinəsi,
Əynində xas güləçə, ətəyində zər baftası,
Qaməti ərər* kimi, əcəb yaraşır libası,
Vəsfini söyləməyə olmuşam imran, Şapəri!

Aşıq Ələsgər deyər, bir od salıbsan canıma,
Açıb danışa bilmirəm dostuma, nə düşmanıma,
Qoy sərim qurban olsun sən kimi zivər xanıma,
Öldür xaki-payında, əllərin batsın qanıma,
Bəlkə, intizar getməyəm mən bu dünyadan, Şapəri!

* Ərər- sərv ağacı

# *GƏRAYLILAR*

## BİLMİRƏM

Küsmə, a bimürvət gözəl,
Dərdim çox, dözə bilmirəm.
Üz bürüyüb qaçma məndən,
Mən sənsiz gəzə bilmirəm.

Salmırsan üstümə saya,
Cavan ömrüm gedir zaya,
Qəvvastək düşüb dəryaya,
Çalxanıb üzə bilmirəm.

Ələsgərin məlul çağı,
Könlü olub qəm dustağı,
Sinəmin doxsandı dağı,
Yetişər yüzə, bilmirəm.

## CEYRAN

Durum dolanım başına,
Qaşı, gözü qara Ceyran!
Həsrətindən xəstə düşdüm,
Eylə dərdə çara, Ceyran!

Söz eşidib, ərzim qansan,
Mən yanıram, sən də yansan,
Özün bir tülək tərlansan,
Niyə uydun sara, Ceyran?!

Ələsgərəm, abdal ollam,
Eşqin girdabında qallam,
Küsdürmüşəm, könlün allam,
Yalvara-yalvara, Ceyran!

## XOŞ GƏLDİN[59]

Qədəm qoyub asta-asta,
Sən bu diyara xoş gəldin!
Süzdürüb ala gözləri,
Qaşları qara, xoş gəldin!

Oğrun durub, qıya baxdın,
Müjganın sinəmə çaxdın,
Cismimi yandırıb yaxdın,
Alışdım, nara xoş gəldin!

Qaynayıb, peymanam dolub,
Saralıb gül rəngim solub,
Həsrətin çəkməkdən olub,
Sinəm sədpara, xoş gəldin!

Dostun vəfasını gördüm,
Seçib, sevib, könül verdim,
Təzələndi köhnə dərdim,
Dərdimə çara, xoş gəldin!

Sinəmdi eşqin dəftəri,
Sənsən dilimin əzbəri,
Yazıq Aşıq Ələsgəri,
Çəkməyə dara, xoş gəldin!

## KEÇDİ

Pəncərədən qəfil baxdım,
Qarşıdan bir sona keçdi.
Oğrun baxdı, qaş oynatdı,
Müjganları cana keçdi.

Ala gözlərini gördüm,
Təzələndi köhnə dərdim,
Yolunda can qurban verdim,
Baxmadı qurbana, keçdi.

Sərvi boylu mələkzada,
Camalından içdim bada,
Ələsgəri saldı oda,
Qoydu yana-yana, keçdi.

## KƏKLİK[60]

Həsrətini çəkə-çəkə,
Dərdim yetdi yüzə, Kəklik!
Qız, sən Allahı sevərsən,
Rübənd tutma üzə, Kəklik!

Dostdan dosta bu nə fənddi,
Zülfün boynuma kəmənddi,
Dişin dürdü, dilin qənddi,
Dodaqların məzə, Kəklik!

Geydiyin yaşıl, əlvandı,
Eylədiyin nahaq qandı,
Ələsgər sana qurbandı,
Sən gələndə bizə, Kəklik!

## MƏN

Gözəl, sana məlum olsun,
Alışmışam, yanıram mən.
Ala gözlər süzüləndə,
Canımdan usanıram mən.

Hansı dağın maralısan?
Hayıf, bizdən aralısan!
Sən də yardan yaralısan,
Duruşundan qanıram mən.

Mənim adım Ələsgərdi,
Dərdim dillərdə əzbərdi,
Xalların dürrü-gövhərdi,
Sərrafıyam, tanıram mən.

## ÖLDÜRƏCƏK BU QƏM MƏNİ[61]

Ala gözlü, telli ceyran,
Öldürəcək bu qəm məni.
Həsrətindən oldum xəstə,
Öldürəcək bu qəm məni.

Təbibimsən, yetiş dada,
Pərvanəyəm, yandım oda,
Sən atlısan, mən piyada,
Öldürəcək bu qəm məni.

Ələsgərdi mənim adım,
Aləmi yandırır odum,
Heç yerdən yoxdu imdadım,
Öldürəcək bu qəm məni.

## TELLƏRİN

Gözəl, sənin nə vədəndi,
Kəsilib qısa tellərin?
Kəlağayı əlvan, qıyqacı,
Üstündən basa tellərin.

Yanaqların güldü, solmaz,
Oxlasan, yaram sağalmaz,
Qaşın cəllad, gözün almaz,
Bağrımı kəsə tellərin.

Bağban ağlar bar ucundan,
Alma, heyva, nar ucundan,
Ələsgərtək yar ucundan,
Batıbdı yasa tellərin.

## ÜZÜN MƏNDƏN NİYƏ DÖNDÜ

Gəl, ey mehri-məhəbbətim,
Üzün məndən niyə döndü?
Ağzı şəkər, ləbi qəndim,
Üzün məndən niyə döndü?

Ayrılıqdan ölüm yeydi,
Həsrətin qəddimi əydi,
Nə dedim, xətrinə dəydi,
Üzün məndən niyə döndü?

Aşığa yoxdu qadağa,
Müştaqdı dilə, dodağa,
Ələsgər sana sadağa,
Üzün məndən niyə döndü?

## YAYLAQ

Gözəllər seyrəngahısan,
Görüm səni var ol, yaylaq!
Açılsın gülün, nərgizin,
Təzə murğuzar ol, yaylaq!

Gözüm qaldı siyah teldə,
Bülbül öldü meyli güldə.
Bir kəsim yox qürbət eldə,
Sən mənə qəmxar ol, yaylaq!

Mən səni görəndən bəri,
Sinəm olub qəm dəftəri,
Öldür Aşıq Ələsgəri,
Özün günahkar ol, yaylaq!

## GƏLMƏDİ

Yaralandım yar əlindən,
Gözlədim yarı gəlmədi.
Məxmər köynək, qızıl kəmər,
Heç bizə sarı gəlmədi.

Mən yazıq çəkdim cəfanı,
Müxənnət sürdü səfanı,
Görürsənmi bivəfanı,
Kəsdi ilqarı, gəlmədi.

Ələsgərəm, mən neylədim,
Dosta müdam "can" söylədim,
Yolunda qurban eylədim,
Bu külli-varı, gəlmədi.

## GƏLSİN

Gedin, deyin o gəlinə,
Ölürəm, yanıma gəlsin.
Gəlsə, bəlkə, tapam şəfa,
Batmasın qanıma, gəlsin!

Dəryalarda olar balıq,
Mətləbini versin Xalıq,
Çit tuman, ətlaz arxalıq,
Yar geysin, yanıma gəlsin!

Dəryaların adası var,
Ələsgərin sədası var,
Nə ki dərdi, qadası var,
Yaralı canıma gəlsin!

## GÖRƏNDƏ

Köhnə yaram təzələndi,
Alagöz yarı görəndə.
Canım odlara qalandı,
Nazlı nigarı görəndə.

Qarşı gəldi qələm qaşdı,
Ay qabaqlı, siyah saşdı,
Huş dağıldı, ağlım çaşdı,
Çeşmi-xumarı görəndə.

Qurbanıyam bu dilbərin,
İncə bel, gümüş kəmərin,
Könlü güldü Ələsgərin,
Dürüst ilqarı görəndə.

## GÖZƏL

Nə baxırsan pəncərədən,
Xumar gözün süzən gözəl?!
Seyraqubla aşna olub,
Bağrım başın əzən gözəl?!

Büllur buxaq, bəyaz gərdən,
Ağlımı aparır sərdən,
Yaxasına hərdən-hərdən,
İnci, sədəf düzən gözəl!

Qəlbimi yandırdın oda,
Sirr sözümü vermə yada,
Uyubsan zalım xoryada,
Məndən kənar gəzən gözəl!

Gümüş kəmər, incə belli,
Ağ biləkli, nazik əlli,
Ay qabaqlı, siyah telli,
Ürəyimi üzən gözəl!

Xəyalım çaşır güləndə,
Pünhan dərdimi biləndə,
Ələsgər sizə gələndə,
Sığallanıb bəzən, gözəl!

## GÜLXANIM

Səhər-səhər sığal verir,
Ayna qabağa Gülxanım.
Tay olmaz dağlarda lala,
Gülgəz yanağa, Gülxanım!

Vəsfin yayılıb mahala,
Maşallah o xəttü-xala,
Müştağam ləbində bala,
Qaymaq dodağa, Gülxanım!

Mələkzada, huri, qılman,
Qəza qəddim qılıb kaman,
Məni həsrət qoyma, aman,
Büllur buxağa, Gülxanım!

Xub çəkilib qəddi-dallar,
Ağ üzündə qara xallar,
Mədhin eşidən cahallar,
Düşər sorağa, Gülxanım!

Ələsgərəm, qadan allam,
Getmərəm, yanında qallam,
Pərvanəyəm, qurban ollam,
Şama, çırağa, Gülxanım!

## MARAL

Səhər-səhər çeşmə üstə,
Durur boyu bala Maral.
Ala gözlər girib qəsdə,
İstər canım ala, Maral!

Sevdim zalım bağrı daşı,
Almaz kirpik, qələm qaşı,
Tərlan görüb yaşılbaşı,
Süzür, caynaq çala, maral!

Ağ üzdə xalın bənövşə,
Az qalır bağrımı deşə,
Məcnunluqdu mana peşə,
Düşmüşəm mahala, Maral!

Öpmədim ala gözündən,
Doymadım şirin sözündən,
Məni ayırıb özündən,
Salma daldan-dala, Maral!

Camalındı şəmsü-qəmər,
Vəsfin olub dildə əzbər,
Ucundan yazıq Ələsgər,
Dönübdü abdala, Maral!

## YERİDİ

Bir gözəl keçdi qarşıdan,
Sallandı, yana yeridi.
Kirpik çaxdı, oğrun baxdı,
Od saldı cana, yeridi.

Ovçutək bərədə durdu,
Qaşlarından kaman qurdu,
Müjganın sinəmə vurdu,
Qəmzəsi qana yeridi.

Hanı belə huri, qılman!?
Eyləmir dərdimə dərman,
Çeşmim yaşı olub ümman,
Yaşılbaş sona yeridi.

Camalın bənzətdim aya,
Əhsən qüdrət verən paya,
Endirib salmadı saya,
Dost-mehribana, yeridi.

Dedim: – Qız, getmə,amandı,
Ələsgər oduna yandı.
Dedi: – Qocadı, pirandı,
Mərdü-mərdana yeridi.

## *DİLDÖNMƏZ GƏRAYLI*

### BAX, BAX[62]

Əxi, biya, biya, bequ,
Bequ, biqof, ağa, bax, bax.
Həyyi, həqqü hakim sənsən,
Həyyə bax, bu dağa bax, bax.

Gözüm sağı, sübh ayağı,
Geyək ağı, gəzək bağı,
Könül sevdi bu damağı,
Qaymağa, həm yağa bax, bax.

Əziz ayə, müəmmayə,
Gərək sayə bu məvayə,
Səbəb sənsən bu sevdayə,
Böyük Ağa, sağa bax, bax.

# *BAĞLAMALAR*

## AY NƏDƏN OLDU

Yerin, göyün, ərşin, kürsün, insanın,
Künhü, bünövrəsi ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seçdi?
Hikmətin dəryası ay nədən oldu?

Yeddi qat göy nə növ ilə quruldu?
Neçə qəndil, neçə sütun vuruldu?
"Sən kimsən?", "Mən kiməm?" – kimdən soruldu?
Ustadlar ustası ay nədən oldu?

Nədən loh yarandı, nədəndi qələm?
Neçə hüruf o məclisdə oldu cəm?
Aləmi-ərvahda qurulan ələm,
Ayəsi, şüqqəsi ay nədən oldu?

Mansırın toxmağı, İsrafil suru,
Kəbənin Zəmzəmi, Musanın Turu,
Nitqimin quyası, didəmin nuru,
Sərimin sevdası ay nədən oldu?

Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar.
Elmi hardan tapdı cümlə aşıqlar?
Sirri-müəmması* ay nədən oldu?

*Mövcud nəşrlərdə bu ifadə "Şeiri, müəmması" şəklində getmişdir.

## BİLƏSƏN

Təriqətlə mərifətə qulaq ver,
Şəriətdə yol-ərkanı biləsən.
Həqiqətdə nədən xəlq eylədi Haqq,
Ərşi, kürsü, asimanı, biləsən.

Şəcərətil-yəqin harda bitibdi?
Təşbehi dünyada nəyə yetibdi?
Neçə kökdü, neçə budaq atıbdı?
Neçədi yarpağın sanı, biləsən?

Onları xəlq edən Xudam qənidi,
Səxavət əhlidi, kərəm kanıdı.
Əshabi-kəhf neçə nəfər can idi?
Adları nə idi, onu biləsən?

Süleyman, İsgəndər Zülqədər hanı?
Dolandı nə qədər, gəzdi hər yanı?
Belə qərar qoyub kəramin kanı:
Vacibdi, dünyanı fanı biləsən.

Yazıq Ələsgərəm, ona qulam mən,
Nurun hörmətindən əhli-diləm mən,
Buyurasan, xidmətinə gələm mən,
Sərimdəki bu sevdanı biləsən.

## BİZDƏN SALAM OLSUN ARİF OLANA

Bizdən salam olsun arif olana,
Haqq nə gündə xəlq eylədi dünyanı?
Yer ilə göy nə saatda bəhs etdi?
Yer nə üstə bəndə saldı asmanı?

Asman nə istədi Bari-Xudadan?
Xuda nə əmr etdi ərşi-əladan?
Kim gəldi apardı kimi haradan?
Nə surətdə gördü Məscid-Əqsanı?

Nə ab ilə orda aldı dəstəmaz?
Neçə rükət əda eylədi namaz?
Neçə kimsənəyə oldu pişnamaz?
Onlar baqidimi, olubmu fanı?

Tez verəsən bu sözlərin isbatın,
Nədəndi binası Abi-həyatın?
Hardadı məqamı Mələk əl-mövtun?
Nə tövr ilə alır insandan canı?

Bu təzə kəlamdı, olsun yəqini,
Kəbə – qibləm, dinim – Məhəmməd dini,
Atam – Alməmməddi, Göyçə sakini,
Adım Ələsgərdi, yaxşı bil, tanı!

## BU GÜNLƏRİ BİR HİKMƏTƏ TUŞ OLDUM[63]

Bu günləri bir hikmətə tuş oldum,
Adı-sanı hər aləmdə deyilir.
Şəriət ətini haram buyurub,
Halal olan sümükləri yeyilir.

Müdam ayağından kəsilməz abı,
Abını kəsəndə, heç olmaz tabı,
Çox əziz yaradıb kərəm sahabı,
Toxmaq ilə təpəsinə döyülür.

Ələsgər ərz eylər, ariflər qana,
Üç ayda, dörd ayda o gəlir cana,
Lətifdi xörəyi, qarışır qana,
Dərmanı var cəsədində yayılır.

## DANIŞAQ

Hikmət məclisində əyləşən alim,
Gəl, səninlə yol-ərkandan danışaq.
Ələst aləmindən, qalu-bəladan,
Nuri-Əhməd yaranandan danışaq.

Kürsü, loh, qələm nədən yarandı?
Neçə min il gərdiş vurdu dolandı?
Nə əmr oldu, qərar tapdı, dayandı?
Əvvəl nə xətt yazdı, ondan danışaq?

Təmusah balığın qədəri nədi?
Nə yeyir, nə içir, mədarı nədi?
Həqiqət qapsının açarı nədi?
Onu açıb-bağlayandan danışaq.

Əgər Haqq aşıqsan, "meydana gəl" – de!
Arifsənsə, bu sözlərə "gözəl" de!
Farsiyyət bilirsən, şeri-qəzəl de!
Ərəbxansan, gəl, Qurandan danışaq!

Ələsgər, qəm çəkmə, Xuda kərimdi!
Yetmiş iki yolun hansı qədimdi?
Həzrəti-Musanın anası kimdi?
Bir xəbər ver, o dövrandan danışaq!

## OLDU

Altı gündə dünya neçə don geydi,
Nə üstə əyləşdi, bərqərar oldu?
Əvvəli kim oldu ərşin bənnası?
Ulduzlar nə təhər yerbəyer oldu?

Neçə idi müqərrəbin mələyi?
Onların içində hansıydı bəyi?
Canlıdı, cansızdı ərşin dirəyi?
Nə ilə çalındı, mötəbər oldu?

Ələsgər əl çəkməz etiqadından,
Yerdə xəbər verir göy büsatından,
Haqq ilə peyğəmbər əhvalatından,
İslamam deyənə nə xəbər oldu?

## OLUR

İki bədən gördüm, altmış başı var,
Müttəsildi onda qeyri sirr olur.
İki uruh gərdiş vurub dolanır,
Gahdan iki olur, gahdan bir olur.

Birisi sultandı, gəzir taxt üstə,
Biri gah sağ olur, gah zaman xəstə,
Qocaldıqca olur təzə, novrəstə,
Cavanlıqda qoca olur, pir olur.

Yüz səksən qolu var, oynar ab ilə,
Üç yüz qulağı var, san-hesab ilə,
Beş kəlmə danışır afitab ilə,
Kəlməsində gövhər olur, dürr olur.

Oxudum, yetişdim mən bu hesaba,
Niyyəti ayrıdı, mənzili Kəbə,
On min qırx yol sərin qoyur turaba,
"Mu" kəlməsi Rəbbi ilə bir olur.

Ələsgər də bu hesaba yetişdi,
Onu cəm eyləyən bir dənə quşdu,
Gahdan bəzirgandı, gahdan dərvişdi,
Gah padişah olur, gah vəzir olur.

## SÜBHÜN ÇAĞI BİR HİKMƏTƏ TUŞ OLDUM

Sübhün çağı bir hikmətə tuş oldum,
Desəm inanmazlar, sirri-Sübhandı.
Yeddi qat qaladı, daşsız, kərpicsiz,
O qalada bir əjdaha pünhandı.

Nə qədər baxıram, yoxdu gözləri,
İki buynuzu var, bəhri-şeşpəri,
Nə əl-ayağı var, nə balü-pəri,
Seyr eləyir, nə gərdişi-dövrandı?!

Nə zaman ki, sərin çıxardır dərdən*,
Yeddi qat qalanı tərpədir yerdən,
Qaldım aciz, zəlil, heyran, sərgərdən,
Bilmədim çinidi, ya üstüxandı*?

Dindirrəm, dillənmir, yoxdu zəbanı*,
Ona tərtib verib kərəmin kanı,
Özü dincdi, heç incitmir insanı,
Heyif, ismi doğrulara düşməndı.

Səhərdən-səhərə edir seyranı,
Götürür qalanı, gəzir hər yanı,
Aşıq Ələsgər deyər bu müəmmanı,
Hər kəs tapsa, canım ona qurbandı.

---

* Dər - qapı
* Üstüxan - sümük
* Zəban - dil

## YETƏR

Bu gün bir əcayib gördüm, təşbehi heyvana yetər,
Ariflər, uzaq düşməyin, nisbəti ilana yetər,
Cəsədi qüdrətdəndi, əməli insana yetər,
Hərdən ki nərə çəkər, sədası ümmana yetər.

Yeddi bağırsağı var, qarnında aşkar dolanır,
Yalnız ki mən demirəm, onu görən hamı qanır,
Əjdahalar, pələnglər görəndə candan usanır,
Başını götürüb qaçar, hərəsi bir yana yetər.

Dümbünü çəkibdilər cəsədindən yön ziyada,
Adlanıb, isbatlanıb, hər tərəfə salıb səda,
Bəyləri minər gəzər, heç yana getməz piyada,
Nə ayağı yerdədi, nə səri asmana yetər.

Məqədindən təam yeyir, qəyy eyləyir dəhanından,
O vaxtında qarşı duran gərək ki, keçsin canından,
Üz görməz qardaşına, xof eyləməz düşmanından,
Hər kimə xişm ilə baxsa, ölməsə də, cana yetər.

Onun xörəyini deyim, təşbehi quş yumurtası,
Qarnında zikr eləyir, insana yetişir səsi,
Dilini ona vuranda, çıxır bir üryan balası,
Qanadı yox, quyruğu yox, uçar, biyabana yetər.

Hər kəsə nəfəsi dəysə, ölməsə də gedər huşdan,
Üç yerindən kəməri var, qurşayıb zərü gümüşdən,
Aşıq Ələsgər deyər: – Hər kəs baş tapsa bu işdən,
Ona bir tərif deyərəm, gedər Alosmana yetər.

# *HƏCVLƏR VƏ HƏRBƏ-ZORBALAR*

## BİR ŞAİR ÇIXIBDI YEKƏALLARDAN

Bir şair çıxıbdı Yekəallardan*,
Bəyənməyib göyçəlinin gərməsin.
Simeh tapıb, heç qurtarmaz azardan,
Onun dərdin heç gözlülər görməsin.

Birisi molladı, biri kalvayı,
Haqq özü buyurub mehmana sayı,
Adı şair, özü himarın tayı,
İncidib, qonağa zəhmət verməsin.

Molla Əli namə yazandan bəri,
Bu söz çox incidir qul Ələsgəri.
Tavaqqam var, Şəmsəddinin bəyləri,
Acıqlanın çal köpəyə, hürməsin!

* Yekəallar – Tovuz rayonunda kənd adıdır.

## BU YERDƏ TAPILMAZ

Yazıq aşıq, vermə ömrünü zaya,
Qədirbilən can bu yerdə tapılmaz.
Kişidə abır yox, arvadda – həya,
Nə ədalət xan bu yerdə tapılmaz.

Çarxı-fələk məni saldı kəməndə,
Bunların oduna düşmüşəm mən də,
Adları bəndədi, özü şərməndə,
Əsil müsəlman bu yerdə tapılmaz.

Bu gün tapıb azdan-çoxdan alırlar,
Sabahı gün qayğısına qalırlar,
Qırıq-quruq, fətir-fütür salırlar,
Ac doyuran nan bu yerdə tapılmaz.

İki məlakə var, asılıb dardan,
Sovm-səlat saqit olub bunlardan,
Xeyir məlakəsi qalıb sərgərdan,
Savabı-ehsan bu yerdə tapılmaz.

Bica işdi mən bu sözü deməyim,
Ölübdü sərdarım, tutulub bəyim,
Ağ otağım, əlvan yorğan-döşəyim,
O şövkətü-şan bu yerdə tapılmaz.

Ələsgər, viranda xəstə düşgünən,
Eyham anla, sözün üstə düşgünən,
Şahi-Xorasana bəstə düşgünən,
Dərdinə dərman bu yerdə tapılmaz.

## ÇIXIBDI

Ay həzərat, gəlin sizə söyləyim,
Bu dünyanın xəyanatı çıxıbdı.
İnsaflar azalıb, mürvət gödəlib,
Qazıların mazarratı çıxıbdı.

Əlimizi aparıbdı sərt ayaz,
Ruzumuz olubdu gündən-günə az,
Molla şeytan olub, axund şeyitbaz,
Məşədi, kalvayı lotu çıxıbdı.

Qoçular, quldurlar qatar taxırlar,
Fəqir-füqəraya yan-yan baxırlar,
Kimi istəsələr vurub yıxırlar,
Beşatanın çataçatı çıxıbdı.

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə,
Xərc* üstə çoxları düşüb kəməndə,
Qamçıda belinin qatı çıxıbdı.

Gəzirlər havalı ağalar, bəylər,
Çalışır qan-tərdə naxırçı, nökər,
Müxtəsərin deyir Aşıq Ələsgər –
Kovxanın, kattanın zatı çıxıbdı.

---

*Xərc- xərac

## DANIŞMA

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, ay səmi diraz!
Kar çıxmaz qovğadan, qaldan danışma!

Göyçənin qonağa çoxdu hörməti,
Qaysava qayğanaq verir ləzzəti,
Plov, dolma, kabab, əmliyin əti...
İnsaf elə, tək motaldan danışma!

Kalman çarıq bizə adəti-nasdı,
Müsəlmana "persoy" deyən xənnasdı,
Ulağın eşşəkdi, yükün kirbasdı*,
Əbrü-ətlaz, tirmə, şaldan danışma!

Əgər şairsənsə, gəl, eyləyək bəhs,
Bir sözünə min söz deyim dəsbədəs,
Himarın dümbündə lağəri-məgəs,
"Zənbur mənəm", - deyib, baldan danışma!

Neçə aşıq qaçırmışam meydandan,
İstəsən, birbəbir keçirim sandan,
Gəmirib kəngərdən*, içib ayrandan,
Coşub fildən, kərgədandan danışma!

Adım Ələsgərdi, mərdü-mərdana,
On iki şəyirdim işlər hər yana,
Tülküsən, aslanla girmə meydana,
Danasan, sürtünüb kaldan danışma!

* Kirbas – ucuz parça növü
* Kəngər - bitki

## DÜŞƏRSƏN

Məğrurluq eyləyib, "ustadam" demə,
Vaxt olar, bir yerdə dara düşərsən.
Baş tülək deyilsən, çolpa balasan,
Sərgərdan qalarsan, tora düşərsən.

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa,
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən.

Bizə satmagınan işvə, nazını,
Zimistana döndərərəm yazını,
Soyaram libasın, allam sazını,
Yal-quyruğu yolux yola düşərsən.

Saxla dilin, özün üçün yağıdı,
Aşıq Ələsgərin odlu çağıdı,
Çalar qaynağına səni, dağıdı,
Göydən yerə parça-para düşərsən.

## ELƏYƏK

Çağir Küküylə* Müxtəri otağa, yığnaq eləyək!
Özgə yerdən gələn varsa, gətirin, qonaq eləyək!
Dolduraq istəkanları, yoldaşları sağ eləyək!
Peyğəmbərin qulluğunda "üzümüzü ağ eləyək",
Keşisin tərifin deyim, kef çəkək, damağ eləyək!

Keşiş ağa damaxdadı, tellərinə şana çəkin!
Yazdırın qəzetlərə, qurdurun zastana* çəkin!
Bildirin məliklərə, sultan ilə xana çəkin!
Çağırın papasları, ədalət divana çəkin!
Boynuna zəncir vurun, xinziri dustaq eləyək!

Soruşdum əhvalını, "bəyəndim" halın keşişin,
Put yarım nişan gəlsin, boynuna salın keşişin!
Dağıdın fağırlara dövlətin, malın keşişin!
Kəc baxın məzhəbinə, qırxın saqqalın keşişin!
Çıxardaq məmləkətdən, ölkədən irağ eləyək!

Biçarə Aşıq Ələsgər sərgərdan qaldı bu işə,
Alimlər bəd əməli özlərinə edib peşə,
Gərək ki, ruhanilər Haqqın nəzərindən düşə,
.......................mollaya,..........................keşişə,
Xaçpərəstli-müsəlmanlı yığılsın, nasağ eləyək!

---

* Kükü-erməni adıdır.
* Zastana-zasedanie (iclas) sözünün təhrif edilmiş şəklidir.

## GƏLSİN

Hər kəs sərdən keçib mərdü-mərdana,
Baş qoysun bu yolda, meydana gəlsin!
Dərya dilim dalğa vurdu, bulandı,
Qərq olmaq istəyən ümmana gəlsin!

Dayansın qarşıda, gətirsin tabı,
Ayılsın qəflətdən, unutsun xabı,
Sualıma dərhal versin cavabı,
Gətirməsin üzr-bəhana, gəlsin!

Ələsgərəm, mən tutaram bu bəhsi,
Hardan çıxdı Abi-həyat çeşməsi?
Neçə fərddi "İsmi-əzəm" duası?
Zikr eləsin, dildə nişana gəlsin!

## HAYIFSAN

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma, hayıfsan!

Mövlam məni nəzərindən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb,
Fani dünya Süleymana qalmayıb,
Oyan bu qəflətdən, yatma, hayıfsan!

Siz təlaş eylərsiz iynə-biz ilə,
Bizimki də gəlib-gedər söz ilə,
Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan!

Düşəndə məclisə, ağır yığnağa,
Bizə hörmət qoyur irəncbər, ağa,
Söz uzansa, həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan!

Qəsəm olsun xudkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə,
Köhnə dağarcığı tumaş yerinə,
Aşıq Ələsgərə satma, hayıfsan!

## XƏBƏRİN VARMI[64]

Ala gözlü, nazlı dilbər,
Elindən xəbərin varmı?!
Dörd bir yanın bağça, söyüd,
Gülündən xəbərin varmı?!

Nə zaman ki, gəldim sizə,
Mayıl oldum qaşa, gözə,
Zibilin çıxıbdı dizə,
Külündən xəbərin varmı?!

O vədə ki, gəlin oldun,
Qabırğası qalın oldun,
Qaynanana zalım oldun,
Dilindən xəbərin varmı?!

Daha düşübsən hənəkdən,
Suyun qurtarıb sənəkdən,
Məmən çıxıbdı köynəkdən,
Tulundan xəbərin varmı?!

Ələsgərnən çəkmə dava,
Ariflər baxsın hesaba,
Cehizindi qırıq tava,
Malından xəbərin varmı?!

## KÖPƏKOĞLU[65]

Kim dedi, meşədən gətir cüt oxu,
Dördünü yan-yana çat, köpəkoğlu!
Heç kəs yeməmişdi sən yeyən ……
Nə ərəb, nə türkmən, tat, köpəkoğlu!

Bizim Ağkilsəyə xəbər olubdu,
Yaxın mənzilimiz Kəvər olubdu,
Get-gəldən ayağım qabar olubdu,
Hey çıxır altından qat, köpəkoğlu!

Deməynən Ələsgər olubdu naşı,
Hələ belə bir iş çəkməyib başı,
Tövlədən yabını, yükdən farmaşı,
Üstündən yorğanı sat, köpəkoğlu!

## GÖZÜM QALDI BİR ALAGÖZ GƏLİNDƏ*

Gözüm qaldı bir alagöz gəlində,
Sinəmi yandırır eşqin fərağı.
Gövhər qalıb qədirbilməz əlində,
Tərlan olub sar əlinin dustağı.

Ağıldan kəm, huşdan çaşqın, dilqanmaz,
Şərm eylə qonaqdan, ölməz, utanmaz!
Bu zəhmətə nəzikbədən dayanmaz,
Bimürvət, nainsaf, dilbilməz yağı!

Bihəqqi-sureyi-ayeyi-Quran,
Qırxına qalmasın azan, quduran!
Atam Mirzə Tağı, sakini-İran,
Anam göyçəlidi, öz adım – Nağı.

* Ustad bu şeiri şəyirdi Aşıq Nağının xahişi ilə onun adına bağlamışdır.

## QOHUM BİLDİK, QOYDUQ ADAM YERİNƏ[66]

Qohum bildik, qoyduq adam yerinə,
Xələt verdik, gəl Bəşirin toyuna.
Gədadan bəy olmaz, nakəsdən iyid,
Lənət müxənnətin əsli-soyuna.

Müxənnətlər vədə verdi, gəlmədi,
Qəza qəhr eylədi, iş düzəlmədi,
Bic sövdəgər xırda heyvan almadı,
Öküz getdi, cöngə getmir boyuna.

Ağıllılar belə qoydu şuruti:
Pulu bacarmayan göndərsin çiti,
Xaloğlu Qəfərdi – gəllədar iti,
Kem[*] salın başına, getsin qoyuna.

Sən niyə gəlmədin, bic İmamalı?!
Dağıtdın ölkəni, yıxdın mahalı,
Səni də aldatdı dünyanın malı,
Zəhər Qələndərin pencər payına.

Qara Cəfər irəşbərdi, ustadı,
Çıxıbdı hər yerdə söylənir adı,
Yoxsuldu, məzlumdu, yoxdu bir zadı,
Hayıf zəhmətinə, haqqı-sayına.

[*] Kem – bataqlıq bitkisi cildən hazırlanan ip

## MƏHƏMMƏD[67]

Üç yolla piyada gəldim qapına,
Olmadın dərdimdən halı, Məhəmməd!
Allahummə salli, - gördüm üzünü, -
Əla Məhəmmədin və ali Məhəmməd!

Təvəqqə eylərəm, gəl, keçəni sal,
Etibarın yoxdu, əvvəl haqqın al,
Qardaşlıqda uzun çəkər qilü-qal,
Pis keçər bu işin dalı, Məhəmməd!

Aşıq Ələsgərəm, zari-dil-xəstə,
Gözüm yolda qaldı, qulağım səsdə,
Bir gəliş gələrəm anlamaz dosta,
Dəyməmiş tökülər kalı, Məhəmməd!

## MOLLALAR[68*]

Göyçəyə məlum olsun, yıxıb İranı mollalar,
Millətə göz açmağa vermir amanı mollalar,
Fəxr ilə libas geyir, artırır şanı mollalar,
Yemə fağırın malını, yolunu tanı, mollalar!
Müztərə zülm eləyən Haqdan utanı, mollalar!

İrandan addıyan molla avam tapıb göyçəlini,
Adını binamaz qoyur, kəsir kasıbın əlini,
İrzini halal bilir, qəzayla yeyir malını,
Uzadır vələzzallini, qarışdırıb əhvalını,
Boylana-boylana qalır bizim ruhanı mollalar.

Ağılsız arvadları gör nə ilə fəndə salır,
…………………………………………..
Şeytana tabe olub, onçu [*] molla gec qocalır,
Harda bir vay eşitsə, quzğun kimi qanad çalır,
Dağıdır, viran qoyur, salır tufanı mollalar.

Harda bir gözəl görsə, dostluq qatır, yol eləyir,
Telindən cadu yazır, tez özünə mal eləyir,
Yığılır qarğa kimi, bir-biriylə qal eləyir,
Həmdini dürüst bilmir, ribanı halal eləyir,
Yalansa, sizə xəsm olsun Haqqın Quranı, mollalar!

Molladan gileyliyəm, dönüm əfəndi başına!
Əyləşir məclisimdə, söhbətim gəlir xoşuna,
“Can” deyir, mənə edir təcnisimi yoldaşına,
Qıy çəkir iştah ilə yığılır xeyrat aşına,
Pələng kimi pəncə vurur, yırtır yuxanı mollalar.

Nal yazıb oda salma, irəhmin gəlsin yazıya!
Şövqdən çörək yemir, nəzilib, dönüb tazıya,

[*] Onçu – onun üçün

Aşıq ilə bacarmazsız qoymayın bazı-bazıya*,
Sizi bu kefdə qoymazdım, qurban olasız qazıya,
Açmıram çox işinizi, ……….dünyanı mollalar!

Aşıq Ələsgər bilir, heç kəs bilməz bu hesabı,
Eşidin, ay camaat! Olmayın onlara tabı!
Bayquşdu, harya qonsa, kəsilməz vay inqilabı,
Sufi, şeyxi, maliki, hənəfi, hənbəli, babı…
Hansı məzhəb buyurur ki,…….….…. mollalar!?

* Bazı – bazu

## OLMAZ

Söyüddü zatınız, billəm, mollalar,
Uca boy verərsiz, barınız olmaz.
Dildən dost olarsız, könüldən əyri,
Doğru-dürüst etibarınız olmaz.

Yoxsulun malını halal bilərsiz,
Şeytani-ləindən mətləb dilərsiz,
Əysik danışarsız, artıq gülərsiz,
Namus, qeyrətiniz, arınız olmaz.

Ələsgər ərz eylər, ariflər qana,
Gövhər sözü eyləyirsiz əfsana,
Qəlbdən xainsiniz Şahi-Mərdana,
Məhşər günü mədədkarınız olmaz.

## OLSUN[69]

"Çəkildi" deməkdə sözün qələtdi,
Kalamın özünə aşikar olsun.
İnşallah, heç yerdə qalmaz avara,
Bir qula ki Şahi-Mərdan yar olsun.

Xoş xətt ilə xub yazıbsan yazını,
Haqq desən, eylərəm qəbul sözünü,
Bəd danışsan, ağladaram gözünü,
Sübhü-şəm, dəmbədəm əşki-bar olsun.

Axund gərək əyri yola getməsin,
Haqqın kalamına yalan qatmasın,
Heyvana dolaşıb, övrət tutmasın,
Alimdə də gərək etibar olsun.

Mövladan dərs alan heç düşməz ləngə,
Pünhan tutma məni topa, tüfəngə,
Mənlə bəhs eyləyən gəlməsə cəngə,
"Şairəm" deməyi ona ar olsun.

Bir qaynata ədəbini bilməsə,
Haqqı tanımasa, namaz qılmasa,
Ruhan məclisində adam olmasa,
El yanında gərək şərmsar olsun.

Dərs almışam o Əliyyül-əladan,
Xof etmərəm Xeybər kimi qaladan,
Bizə qismət olub qalu-bəladan,
Deyək, gülək, aləm murğuzar olsun.

Sidqini bağlayan Şahi-Heydara,
İnşallah, heç yerdə qalmaz avara,
Hər kəs bel bağlasa Qəni-Səttara,
Hər elmdən gərək xəbərdar olsun.

Şirin ləhcə, xub yazıbsan kalamı,
İnsaf məqamında “bəyənər” hamı,
Nizami, Füzuli, Firdovsi, Camı...
Nə həddi var, sana barabar olsun.

Ələsgərəm, ismim deyim aşikar,
Qədir bilən dosta başu-can nisar,
Təvəlla, təbərra şəriətdə var,
İstəyən şad olsun, düşman kor olsun.

## SIĞIŞMAZ

Baxtım tərəqqidə, işim tənəzzül,
İki sifət bir iqbala sığışmaz.
Şəriəti anla, mərifəti bil,
Şərü-böhtan doğru yola sığışmaz.

Nadansan, qanmırsan xeyir-şərini,
Tərsə oxuyaram xoş dəftərini,
Tanı adamını, bil müştərini,
Qarğı mizraq qıl çuvala sığışmaz.

Ələsgərə satma bu ərkinazı,
Heç kəs olmaz belə işdən irazı,
Tökərəm hörməti, götürrəm sazı,
Şişər başın, bu mahala sığışmaz.

## ŞAİR NAĞI

Qarışdırma Şəmşəddini, Göyçəni,
Gəndindən gəndimə yaz, Şair Nağı!
Hərca dilin salar bəlaya səni,
Çox da bilsən, danış az, Şair Nağı!

Arvadlar ki əlin vurar qalağa,
Yuyarlar, gün vurar, çıxardar sağa,
Xub yaraşır sənin kimi ulağa:
Noxta, torba, palan, biz, Şair Nağı!

Bir ocaqdı, hədyan demə təndirə,
Dədən çox yeyibdi, söymə pendirə,
Qəza vurdu, başın keçdi kəndirə,
Sağlıqdan ümidin üz, Şair Nağı!

Göyərib kicirtkən, baş verib çaşır,
Doldur dağarcığı, Göyçəyə aşır,
Elə billəm, qoca çaqqal ulaşır,
Olsa sənin kimi yüz Şair Nağı!

Şəmşəddin iyiddi, aləmdə məşhur,
Aldədədə olur möcüzat zühur,
Əl çəkmərəm səndən dəm olunca sur,
Vaxt ikən qəbrini qaz, Şair Nağı!

## UZAQ VİLAYƏTDƏN QIZ SEVƏN OĞLAN[70]

Uzaq vilayətdən qız sevən oğlan,
Yaxın qonşusundan soruş halını.
Bir kəlmə qulluğa buyurmaq olmaz,
Tanrı qırsın qız doğanın belini!

Altı aydı, düşüb bir çuxa bəhsi,
Üç aydan bir gəlmir cəhrənin səsi,
Paslanıbdı iyi, çıxmır düyçəsi,
Küllüklərdə gəzir corab milini.

İşə buyuranda, “naxoşam” deyir,
Öynədə bir bayda doğrama yeyir,
Qonşuyla dalaşır, uşağı döyür,
Kəsən yoxdu bu zalımın dilini.

Axşamdan yıxılır, çeştədək yatır,
Həftədə xanaya bir arğac atır,
Gün batan çağında balatı qatır,
Çırmamır qolunu, yumur əlini.

Ələsgər sözünü deyər üzünə,
Güllə dəysin pis övladın gözünə,
Zibil çıxıb uşaqların dizinə,
On beş fəhlə təmizləməz külünü.

# *DEYİŞMƏLƏR*

## ZÖHRƏ İLƏ DEYİŞMƏ

**Ələsgər:**

Söylə, qasid, müxtəsəri-vəssalam,
Ərzimi canana dedin, nə dedi?
Bülbültək asmana yetişib nalam,
Səhni-gülüstana dedin, nə dedi?

**Zöhrə:**

Gedib, ərzi-halın yara söylədim,
İnciməsin məndən - canana dedi.
Zülm əliylə məni yada verirlər,
Viran qalsın belə zamana - dedi.

**Ələsgər:**

Yadıma salanda boy-büsatını,
Xəstə könlüm minir eşqin atını,
Gah axtarır yerin yeddi qatını,
Gah çıxır asmana, dedin, nə dedi?

**Zöhrə:**

Nakəs müxənnətin boynu vurulsun,
Vay düşsün evinə, şivən qurulsun,
Məhərrəmin oğlanları qırılsın,
Qalmasın yurdunda nişana! - dedi.

**Ələsgər:**

Aşiq oldum bir nainsaf millətə,
Qolu bağlı məni verdi cəllətə*,
İncilə, Zəbura, Səhfə*, Tövrətə,
And verrəm Qurana, dedin, nə dedi?

---

* Cəllət - cəllad
* Səhfə – Səhifə (Suhuf)

**Zöhrə:**

Seyraqublar aralığı qatdılar,
Zülm ilə boynuma kəmənd atdılar,
Atam, anam məni pula satdılar,
Onlar yetişməsin imana - dedi.

**Ələsgər:**

Könül gərək istədiyin istəyə,
Dostun sözün dosta gərək dost deyə.
Rəhm elədin mən günahkar xəstəyə,
Dərdimi Loğmana dedin, nə dedi?

**Zöhrə:**

Zöhrəyəm, sinəmdə dərdü-qəm çoxdu,
Üstümə tökülən peykandı, oxdu,
Dünyada ədalət, haqq-divan yoxdu,
Yetirə dərdimi dərmana - dedi.

**Ələsgər:**

Kəc dolandırmasın xam xəyalını,
Can qoyan istəməz dünya malını,
Yazıq Ələsgərin ərzi-halını,
Sərvi-xuramana dedin, nə dedi?

## QOZQARA KÖTÜYÜ İLƏ DEYİŞMƏ

**Aşıq Ələsgər:**
Arpadan, buğdadan çıxmışdı əlim,
Zəhmət çəkdim, dedim bir az darı olsun.
Yolmasın yolmaqdan qırıldı belim,
Bundan gələn xeyir zəhrimar olsun!

**Kötük:**
Aşıq, nə meydanı yalqız alıbsan,
Söz deyim, sözünə barabar olsun!
Nahaq qaldı, ortalığa salıbsan,
Elə iş tut, ondan xeyir-kar olsun!

**Aşıq Ələsgər:**
Bel ilə bu yeri əkdim bir ayda,
Sulamaqdan su da qalmadı çayda,
Biçdim, döydüm, darım oldu bir bayda,
Qoy söyləyim, mahallarda car olsun!

**Kötük:**
Əfsana sözləri danışma barı,
Eşidənlər səni görərlər karı,
Sən orya səpmişdin bir istil* darı,
Umudluydun, ondan bir tağar* olsun?!

**Aşıq Ələsgər:**
Hər kimə göstərdim, dedilər göydü,
Eşidib bilənlər mana çox söydü,
Dən tutan yerlərin sağsağan döydü,
Qarğayla siçanın üzü qara olsun!

**Kötük:**
Eşidənlər qınamasın bizləri,

* İstil – bir girvəngə (400 qram)
* Tağar – yüz batman (600 kiloqram)

Sən də sal bordağa kəl-öküzləri,
Qoş kotanı, çevirginən düzləri,
Günlüyün* birindən bir anbar olsun.

**Aşıq Ələsgər:**
Ələsgər, başına qəhətdi peşə?!
Darı əkib yeməyibsən həmişə,
Sazı bas sinənə, təcnisdən döşə,
Yığ ruzunu, verən ellər var olsun!

**Kötük:**
Qara kötük deyər, tükənsin sözün,
Bu ilki işlərdən nə qorxub gözün?!
Bir qızındı, bir arvadın, bir özün;
Üç adamla dünya sana dar olsun!

* Günlük - kotanla bir gündə şumlanan əkin sahəsi

## HƏCƏR XANIMLA DEYİŞMƏ

### I DEYİŞMƏ

**Aşıq Ələsgər:**
Həcər xanım, qaşın, gözün təhrində
Xətt yazsam, Quranda ayə düşərmi?!
Götürsən niqabı mah camalından,
Hüsnün nuri-təcəllaya düşərmi?!

**Həcər xanım:**
Loğmadan kəc olan, nüftədən əyri,
Yüz dərs alsa, pürkamala yetişməz.
Bir qul düz dolansa Haqqın yolunda,
Qəza tapmaz, ona bəla yetişməz.

**Aşıq Ələsgər:**
Saxlasan, qapında mən ollam nökər,
Dişlərin mirvarı, dodağın şəkər,
Səni sevən bu dünyadan əl çəkər,
Daha qeyri təmənnaya düşərmi?!

**Həcər xanım:**
Gər hökmün işləsə Qaf ilə Qafa,
Bihuda xərc çəkmə, əfsana cəfa,
Qəvvas tapar ləli, satar sərrafa,
Nə aşığa, nə abdala yetişməz.

**Aşıq Ələsgər:**
Gözəl arif olub, mətləb qanmasa,
Yayınıb, yaşınıb, daldalanmasa,
Aşıq müştaq olub, qəlbi yanmasa,
Bir bu qədər ilticaya düşərmi?!

**Həcər xanım:**
Eşit bu sözləri, saxla yadıgar:
Gözəllərdə – həya, iyidlərdə – ar,

Axmaq köpək qaysavadan pay umar,
Nahaq düşüb o xəyala, yetişməz.

**Aşıq Ələsgər:**
Qamətin mələkdi, hüsnün pəridi,
Könül gözlərinə çox müştəridi,
Camalın şoxundan cismim əridi,
Zülfündən üstümə saya düşərmi?!

**Həcər xanım:**
Qəza insanatı tənabdan asar,
Leylü-nəhar - muşdu, cəhd eylər, kəsər,
Əjdaha ayaqdan çəkər sərasər,
Əlləşər, barmağı bala yetişməz.

**Aşıq Ələsgər:**
Yazıq Ələsgərin var etiqadı,
Möhr olunub gözəlliyin baratı,
Cismin sadağası, hüsnün zəkatı,
Sayıl olan binəvaya düşərmi?!

**Həcər xanım:**
Var Həcərin gözəllikdə isbatı,
Zər libasa naxış vurur xəyatı,
Olar gözəllərin xümsü, zəkatı,
Cavana yetişər, çala yetişməz.

## II DEYİŞMƏ

**Aşıq Ələsgər:**
Bilmirsənmi, subay gəzmək günahdı,
Şəriətə, yol-ərkana nə dedin?!
Hər könül özünə bir padişahdı,
Sındırdın, döndərdin qana, nə dedin?!

Yüz iyiddən birin bəyən, boyun əy,
Gələnin, gedənin qəlbinə az dəy.
İmirzə, Məhəmməd, Dünyamalı bəy,
Az qalıb eşqindən yana, nə dedin?!

Aşığam, gedirəm hər xeyir-şərə,
Eşitcək, vəsfini yazdım dəftərə.
O gümüş vəznəli gələn bəylərə,
Bilirsənmi, sən zənana, nə dedin?!

Kəsəmənli nə cür geyir papağı,
Sənə nə dəxli var, bimürvət yağı?!
Onların köysünə çəkibsən dağı,
Heç sağalmaz o nişana, nə dedin?!

**Həcər xanım:**

Arif olan bu sözlərə inansın,
İzin verib ata-ana, deyirəm.
Anlamaz anlasın, qanmayan qansın,
At sürməsin bu meydana, deyirəm.

**Aşıq Ələsgər:**

Məşəd İsə gəldi səni görməyə,
Kimin nə həddi var, qəlbinə dəyə,
Baş əymir sərdara, sultana, bəyə,
Söylə görüm, o tərlana, nə dedin?

**Həcər xanım:**

İnanma hədyana, lafi-kəzzafa[**],
Bu sevdaya düşən heç tapmaz şəfa,
Əlac Haqqa qalıb, insaf - sərrafa,
Yetirsin gövhəri kana, deyirəm.

[**] Kəzzaf (kəzzab) – yalançı

**Aşıq Ələsgər:**
Bilmirsən, ərz edim, olgunan halı,
Onlara möhtacdı Göyçə mahalı,
Sana müştaq oldu bəy Molla Balı,
İsgəndərtək ac aslana nə dedin?!

**Həcər xanım:**
İşim yoxdu dövlət ilə, var ilə,
Əhdim var Xudayi-kirdigar ilə,
Gül xar ilə uymaz, tərlan sar ilə,
Qarğa qonmaz gülüstana, deyirəm.

**Aşıq Ələsgər:**
Ələsgər də hər elmdən halıdı,
Mövla baratıdı, öz kamalıdı,
Çəkdiyim özgənin qilü-qalıdı,
Axırında, mən cavana nə dedin?

**Həcər xanım:**
Mən Həcərəm, əbrü ətlaz geymərəm,
Öz-özümə sultan mənəm, bəy mənəm,
Şövq əhlisən, xətirinə dəymərəm,
Səhv düşübsən sən pirana, deyirəm.

## *QƏZƏLLƏR*

### BİLİN, BU DƏHRİ-DÜNYADA HƏRƏ BİR NÖV CALAL İSTƏR

Bilin, bu dəhri-dünyada hərə bir növ calal istər,
Kimi talibdi üqbaya, kimi dünyada mal istər.

Kimi sidq ilə könüldən tutub Haqqın damənindən,
Kimi məddahi-mövladı, kimi göyçək camal istər.

Kimi mətləbinə yetmiş, edibdir kami-dil hasil,
Kimi həsrət qalıb yara, fələkdən bir macal istər.

Kimi qəvvas olub cummuş qəhərlə qəri-dəryaya,
Kimi səyyad olub çıxmış, uca dağdan qəzal istər.

Ona dağdan verir ruzi, buna ol qəri-dəryadan,
Bu mətləbi qanan kimsə haram gəzməz, halal istər.

Bu mətləbi qanan çoxdur, mütəlləq etiqad etməz,
Bu əmrə etiqad etmək dərin mərfət, kamal istər.

Bilirsən, dünyada, qafil, qalır bu dünyanın malı,
Beş arşın ağ geyən kimsə utanmaz, yaşıl, al istər.

Bilirsən, dünyada, zalım, Mələk əl-mövt alır canı,
Yuyar qəssal, qoyar qəbrə, gələr Nəkreyn sual istər.

Demə, zahid, mənəm alim, oxuram əntə-sübhanı,
Siratdan istəyən keçmək Xudadan pərü-bal istər.

İyidlər olmasın məğrur, fəthi-nüsrət Xudadandı,
Bir Allah istəyən şəxsi sevər, külli-mahal istər.

Ələsgər zari-dil-xəstə deyər: – Sərvi-xuramanım,
Mənim bu natəvan könlüm səni aşüftəhal istər.

## QALX, KÖNÜL, PƏRVAZ ELƏ, EYLƏ TƏLƏB BİR SƏFƏRİ

Qalx, könül, pərvaz elə, eylə tələb bir səfəri,
Xabi-röyada qasid verdi mana vay xəbəri.

Ölümü sal yadına, gül olma dünya malına,
Yaradan öldürəcək, qoymayacaq bir bəşəri.

İbtida, soruşarlar səndən qonşunun sualın,
Eşitmişəm alimdən, var hədisi-mötəbəri.

Yığasan bu dünyanın malını, anbar edəsən,
Beş arşın ağdı payın, yoxdu sana heç səməri.

Hanı Şəddad, hanı Nəmrud, hanı Fironi-ləin,
Hanı ol Dalü ibni-Dal, cəm eylədi Şəhri-Zəri?!

Məcnunun ərzi-halın Leyli əyan xidmətinə,
Tuli-təfsil nə lazım, söylə bəyan müxtəsəri...

## *MƏRSİYƏ*

### BU GÜNDƏ

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Bu gündə, bilin, ərşü-samavat qan ağlar,
Gav ilə səmək, külli-kainat qan ağlar,
Dostları - Əli daimül-övqat qan ağlar,
Bir ləhzə baxan Zeynəbi-nalana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

İndiki deyil, qalu-bəladandı bu peyman,
İncimə, olum haşimi xallarına qurban!
İlqar eləyib Haqq ilə ol şahi-şəhidan,
Əsğəri verə oxlara nişana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Bir yanda gərək doğrana ol Əkbəri-novrəs,
Bir yanda Qasım toyu ola, zülm ilə gör yas,
Bir yanda qələm ola uzun qollari-Abbas,
Bir yanda gərək xeymələr odlana bu gündə.

Qan ağla, gözüm şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Xeyməyə yanar eyvanı, otağı olanlar,
Əsirə yanar əsiri, dustağı olanlar,
Ey sinəsində qardaş, oğul dağı olanlar,
Gərək gələsiz şur ilə əfqana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Zəhra baş açar, ərşdə şəmsü-qəmər ağlar,
Mur ilə mələx, cinni-bəşər sərbəsər ağlar,
Şümrün sitəmindən qəza ağlar, qədər ağlar,
Taziyanə vurur Səkneyi-suzana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

İnsaf deyil dəhrdə bu zülm-sitəmlər,
Gör nə növ ilə qarət olur xaneyi-Heydər,
Qırxa yaxın ol qara məcər nazlı hərəmlər,
Suvar olacaq naqeyi-üryana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Bu cövr-cəfaya, bilin, heç can da dayanmaz,
Qəlbi daş ola, cismi gər ahan* da dayanmaz,
Leyla neyləsin, vallah, heç insan da dayanmaz,
Nizədə gedən kəkili-əlvana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

Mədəni-səxa dəstinə ol qanı tutubdu,
Atıb havaya, sorx olub, asmanı tutubdu,
Yazıq Ələsgər, üsyanın dünyanı tutubdu,
Bəstə düşərəm şafeyi-üsyana bu gündə.

Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,
Oğlunu verib ümmətə qurbana bu gündə.

---

* Ahan (ahən) – dəmir

# *USTADA AİD EDİLƏN ŞEİRLƏR*

## DƏYMƏYİB[71*]

Bircə sözüm dost-aşnanın qəlbinə,
Niyə dəyə, bir inciyə, dəyməyib.
Şahmar gözüm çox göz görüb incidən,
Sözlərimtək bir inciyə dəyməyib.

Şahlar şahı, sal üstümə sayə sən,
Təqlid elə, vahid ol sən, sayə sən,
Di güvənmə miqdarə sən, sayə sən,
Min qara daş bir inciyə dəyməyib.

Səyyad olan götürərmi oxu tək,
El arxandır, meydan al tək, oxu tək,
Hələ bir ox Ələsgərin oxutək,
Nişanada birinciyə dəyməyib.

## ÇƏKSƏN[72*]

Görübsənmi gədə oğlu bəy ola,
Enəcək alçağa, yüz başa çəksən,
Qüdrət gözəlliyi bir kəsdə yoxsa,
Sürmə əfsanədi, yüz qaşa çəksən.

Yoxla dost-tanışı dar gündə qəsdən,
Həmişə gen dolan yaltaqdan, pisdən,
Kərənti düzəltsən dəyərli misdən,
Qılova gələrmi, yüz daşa çəksən.

Ələsgər, mətahın çək tök bazara,
Arif qiymət versin ləli-gövhara,
Qanmazın üzündən gəlmişəm zara,
Nadanın əlindən yüz haşa çəksən.

## QAÇAQAÇ[73*]

Bund inqlabı düşdü, dağıldı Göyçə,
Al külfəti, bu diyardan qaçaqaç.
Ədalət gəlincə başın daldala,
Zimistanda boran-qardan qaçaqaç.

Nərədüzdən qoşun gəldi birbaşa,
İgidlər səf çəkib girdi savaşa,
Xınalı kəkliklər doldular daşa,
Saqın, tərlan, böylə tordan qaçaqaç.

Ələsgərin qəddin əydi müşkül iş,
Çərxi-fələk, nə sitəmdir bu gərdiş?
Zamananın qulağını bir dəyiş,
Qurtar bizi bu diyardan qaçaqaç.

## GƏLDİ[74*]

Şükür dərgahına Qadir Allahın,
Məclisə Peyğəmbər ətiri gəldi.
Yazılıb: – Bismilləhir Rahmanir Rahim! –
Quranın nə gözəl sətiri gəldi.

Fatimə təmkinli, mehparə üzlü,
Gözünün altından məclisi süzdü,
Gətirdi neməti süfrəyə düzdü,
Elə bil anamın fətiri gəldi.

Köynəyi Kəbədən qaldı nişana[*],
Təkəffüldü[*] əhli-hala, qanana,
Ələsgər qurbandı Şahi-Mərdana,
Üstümə ağanın çətiri gəldi[*].

---

[*]Aşıqlar arasında "Köynəyi Kəbədən gəldi nizama" variantı da var.
[*] Təkəffül – zamin olmaq
[*] "Eynimə ağamın qəsiri gəldi" variantı da var.

## DÜNYADA

Varlıynan dost olub, yoxsula gülmə,
Çox da havalanıb coşma, dünyada.
El səni istəyib, qabağa çəksə,
Ağır ol, alçağa düşmə dünyada.

Dərdini bölüşdür qədir bilənnən,
Vəfalı dost olmaz üzə gülənnən,
Bir adam ki "sən öl" desə yalannan,
Onun körpüsündən keçmə dünyada.

Bu sözü bəyənər bir arif, əyyar,
Bədəsil kimsəyə nə yapış, yalvar,
Qonşuya söyləyib, aləmə yayar,
Sirrin seyraquba açma dünyada.

Yaxşı oğul əksə bir yaxşı ata,
Ölüncə heç kəsə yetirməz xata,
Yeri gəlsə, xeyir verər elata,
Onun arxasından qaçma dünyada.

Ələsgər, söylənir sözün adınan,
Arif məclisində hər isbatınan,
Bir dost sənlə olsa, sirri yadınan,
Onu düşmənindən seçmə dünyada.

## DEMƏSİN*

Bəhərsiz bağlara çox çəkdim cəfa,
Hər yetən özünə bağban deməsin.
Fələyin tərəqqi, tənəzzülü var,
Hər kəs bu gərdişə dövran deməsin.

Eşqim ərənlərin butasındadı,
Könlüm qəm-hicranın adasındadı,
Loğmanlıq müşküllər atasındadı,
Həkimlər özünə Loğman deməsin.

Bu çarxı-gərdişə sən olma naşı,
Dananın nə işi, kala sataşı,
Vurarlar, bədəndən üzülər başı,
Hər gədə meydanda qan-qan deməsin.

Fələyin əlindən çəkdiyim azar,
Kimiyə gizlindi, kimiyə aşkar,
Bil ki, bu dünyanın əjdahası var,
Hər ana oğluna aslan deməsin.

Ələsgər, qəvvassan, dolan dərində,
Qılıncdan kəskindi hər söz yerində,
Üzüb çeşmələrdə, çay göllərində,
Mənəm qəvvaslara ümman, – deməsin.

---

*Qeyd: Bu şeiri kimsə yazıb Aşıq Talıba verib.

## QAŞLARI CƏLLADDI[75*]

Yandırdı cismimi büryan eylədi,
Qaşları cəlladdı, ol eyni cim-cim.
Çeşmim yaşı sel-sel oldu yeridi,
Doldu tər lalalar, gəl onda çim-çim.

Kim idi eynini vermədi xaba?
Kim idi hökm etdi o mahitaba?
Ərqaba harada oldu mübtəba?
Mehracda almanı bölüşən kim-kim?

Ələsgər də mayıl oldu məddinə,
Gözəllik yaraşır cədbəcəddinə,
Ay nazənin, geyinibsən qəddinə,
Başdan-ayağadək zərinən sim-sim.

## AĞ DAMAR, DAMAR[*]

Sənə qurban olum, Qadiri-Sübhan,
Sənin hikmətindən yağ damar, damar.
Bir şəyird ki ustadına kəm baxa,
Onun gözlərinə ağ damar, damar.

Sən aşıq elmindən halısan, halı,
Sözü çox uzatsan, uzanar dalı,
Mən də sevməz idim qovğanı, qalı,
Sağlam canım nədən, bax damar-damar.

Ələsgərəm, kamil ustad dərindi,
Bir bağım var, barı, onu dər indi,
Çox ömrün var, bağlanmayıb dər indi,
Kükrə şimşək kimi, çax damar-damar.

[*] Şeiri Gədəbəy rayonunun Arıqıran kənd sakini Qurbanov Arzu Nazim oğlu təqdim etmişdir. Ələsgərşünas İ.Ələsgərin arxivindən tapılan aşağıdakı misra göstərir ki, bu şeir, çox ehtimal ki, üç bənddən ibarət deyildir: "Neştərə qan verməz, ağ damar, damar".

## QƏRƏZ[76*]

Ərşin səmasında, merac evində,
Adəmi yazdılar harayə qərəz?
Aşıq deyər harayə,
Səda gəldi harayə,
Buyurdular Cəbrayıla,
O da gəldi harayə.
O kim idi mənəm-mənəm söylədi?
Çaldılar şapərin harayə qərəz?

İbtida katiblər ayə yazanda,
Külli-kainata ayə yazanda.
Aşıq deyər yazanda,
Yazıçılar yazanda,
Hökm olundu Osmana,
Ol Quranı yazanda[*].
Üç min kəlmə gəldi ol Mustafayə,
Sürdü səməndini harayə qərəz?

Qırxlar məclisində dedim "bəli"ni,
Sərdar gördüm Şahi-Mərdan Əlini.
Aşıq deyər Əlini,
İsmi-Heydər Əlini,
Dar günündə harayla,
Şahi-Mərdan Əlini.
Ələsgər, daməndən üzmə əlini,
Çəksən əl nizayə harayə qərəz.

[*] Bu misrada Osmanın Quran nüsxələrini yığıb cəm etməsi nəzərdə tutulur.

## VERMƏRƏM SƏNİ*

Sallana-sallana gələn Salatın,
Can içində cana vermərəm səni.
Yığalar dünyanın gəncü-malını,
Qoyalar bir yana, vermərəm səni.

Qurban olum o qamətə, o boya,
Haqq yetirsin səni bayrama, toya,
İrəvandan Təbrizə, Mərənddən Xoya,
Külli-Gürcüstana vermərəm səni.

Qul Ələsgər deyər, cana can gəlir,
Ağlamaqdan, yar, didəmdən qan gəlir,
Tamaşana hər tərəfdən xan gəlir,
Külli-Dağıstana vermərəm səni.

*Qeyd: Bu şeir Aşağı Şorca kənd sakini Aşıq Bəylər Alı oğlundan 12.08.1967-ci ildə yazıya alınmışdır.

## RUHAN MƏCLİSİNDƏ, ƏR MEYDANINDA

Ruhan məclisində, ər meydanında,
Öz kəndinnən kalam gəti, qabaqlaş.
Gərək olsun eşq əhlinin canında,
Ərəbcən nar, türkücən od, fars – ataş.

Nə qafilsən, yox xəbərin özündən,
Söz deyinən, mətləb çıxsın sözündən,
Neysan kimi car eylərəm gözündən,
Ərəb – düxab, farsıcan ab, türkü – yaş.

Ümman olsan, çətin səndən doyaram,
Mansır kimi təpə-dırnaq soyaram,
Anlamırsan, sana bir ad qoyaram:
Ərəb – himar, farsıcan xər, türkü – toş*.

* Toş – uzunqulağa işarə edir.

## SARI QIZ[78*]

Gedən, getmə, mən də gəlim yetirim,
Ay qabaqlı, qələm qaşlı, sarı qız.
Qul olaydım, qulluğunda qalaydım,
Danışaydım kəlmə-kəlmə barı, qız.

Başına örtmüsən İlahi pürcü,
Səni sevən neylər o malı, mülkü,
Mən öləndə vəsiyyətim budu ki,
Zülflərinlə tabutumu sarı, qız.

Ələsgərin deyər: – Qadan alaydım,
Qulac qolum, yar, boynuna salaydım,
Ağ üzündən bir cüt busə alaydım,
İncimənən, qardaşların varı qız.

## SƏNƏM, GƏL[79*]

Səni gördüm, əl götürdüm dünyadan,
Yaşıllı, zərbablı*, allı Sənəm, gəl!
Ovçunu görəndə maral baxışlı,
Ay üzü, birçəyi, xallı Sənəm, gəl!

Möhnətindən qəfil düşdüm azara,
Təbibimsən, eylə dərdimə çara,
Bilsəydim gəlməzdim mən Şəvəkara,
Qaymaq dodaqları ballı Sənəm, gəl!

Bir üzün şəmsdir, bir üzün qəmər,
Həsrətini çəkən ləbindən əmər,
Guşunda sırğadır, belində kəmər,
Mən bədbəxtəm, uzaq yollu Sənəm, gəl!

Daraba* dalından qıya baxırsan,
Ələsgəri yandırırsan, yaxırsan,
Müjganları sinəm üstə çaxırsan,
Olmaginən qalmaqallı, Sənəm, gəl!

---

* Zərbab – zər (qızıl) və güləbətinlə işlənmiş parça
* Daraba – taxta hasar

## SİNƏN ÜSTƏ

Müddətdi gəzirəm mən "təbib" deyə,
Xəstəyəm, dərmanım var sinən üstə.
Süddən ağdı, baldan şirin məmələr,
Qüdrətdən xəlq olub, yar, sinən üstə.

Düşübsən nadanla gövhəri bilməz,
Olmasa gər məhək o, zəri bilməz,
Nə qocalmaz, nə köhnəlməz, nə ölməz,
Hər kimsə ki görsə nar sinən üstə.

Fidan əkib, şəcərləri bitirrəm,
Bağbanıyam, tər şamama götürrəm,
Vədə versən, ilqarıma yetirrəm,
Bülbüləm, qoymaram xar sinən üstə.

Ələsgər qurtarmır dərdü-fəraqdan,
Söhbət nə lazımdı belə uzaqdan,
Əmib kam alaydım, dildən, dodaqdan,
Etsələr də qanım car sinən üstə.

## LƏZZƏT ÇƏKƏR

İki sevgi bir araya gələndə,
Həsrət qucaqlaşar, qol ləzzət çəkər.
Ortalıqda işvə, qəmzə, naz olar,
Zənəxdan tərində xal ləzzət çəkər.

Gəlin gəldi, təzə gərdək qurulu,
Oğlan öpər, əldən düşüb yorulu,
Aralıqda şux məmələr qırılı,
Şövqdən düşüncə əl ləzzət çəkər.

Ələsgər də eşq oduna alışı,
Göz gözə baxanda halın soruşu,
Yar ki yara həsrət ilə qovuşu,
Dodaq busə içər, dil ləzzət çəkər.

## MƏNİ[80*]

Mərizəm, dərdimə bulunmaz dava,
Təbib yox, incidir yaralar məni.
Nə müddətdir "Loğman" deyib gəzirəm,
Nə ola, tapaydı çaralar məni.

Fələk mənə qarğayıbdı, bunu bil,
Gül üstündə fəğan eyləyir bülbül,
Çarxı-fələk, etmə bu zülmü qəbul,
Müxənnət ox atıb yaralar məni.

Ələsgərəm, dərdim həddən ziyada,
Ölübdü köhlənim, qaldım piyada,
Çox cafalar çəkdim fani dünyada,
Qurtarmır bu düyün, paralar məni.

## NƏ İÇİNDƏDİ[81*]

Bizdən salam olsun arif olana,
Behiştin çırağı nə içindədi?
Nədən piltə tutub, nədəndi yağı,
Kim tutub dəstində, nə içindədi?

Bilirsənmi Peyğəmbərin yaşını?
Hansı gündə qırxdırıbdı başını?
Hansı gündə şəhid etdi dişini?
De: – Nəyə bükülüb, nə içindədi?

Nə eşqinə yaradıbdır insanı?
Niyə çəkdi imtahana Musanı?
Nəyə görə göyə çəkdi İsanı?
Mənzili nə yerdə, nə içindədi?

Ələsgər sözlərin bilməsə, deməz,
Ustaddan dərsini almasa, deməz,
Sövmü-səlatını qılmasa, deməz,
De: – Nədən cəm olub, nə içindədi?

## ÜÇ MİNDİ[82*]

Məhəmməd merac üstə varanda,
Səməndini iki mindi, üç mindi.
Peyğəmbər dörd dəfə meraca getdi,
Hədis eylə, görən desin – üç mindi.

Merac üstdə hasil etdi gülünü,
Bir kimsə bilmədi onun sirrini,
Şir-aslan donunda kəsdi yolunu,
Verdi xatəmini, atdı – üç mindi.

Haqq-təala səfiynən çağırdı qonaq,
Rəf-rəfi mindi, dayandı Buraq,
Ələsgər der: – Bir sütundu, min budaq,
Hər budağın gülləri var – üç mindi.

## ANNAX BƏY

Eyvanın, otağın mübarək olsun,
İmarətin al qumaşdı, Annax bəy!
Bu yerdə gördüyüm bəylər içində,
Səxada hamıdan başdı Annax bəy!

Qazax bəylərindən qonağı gəldi,
Bir həftə ziyafət göyə yüksəldi,
Şah Abbas şülənli məclis düzəldi,
Hatəm süfrəsini aşdı Annax bəy!

Bəylərin bəyisən, xanların xanı,
Unutma insafı, satma imanı,
Əldə əsas tutma qəni-dövranı,
Neçələri gəldi keşdi, Annax bəy!

Vaxt olacaq ömür yetəcək başa,
Hörmət qoy hamıya, hörmətlə yaşa,
Bu dünya  işinə qılsan tamaşa,
Mal-dövlətin sonu puşdu, Annax bəy!

Yazıq Ələsgərin çoxdu nalası,
Silinmir, könlünün açılmır pası,
Hər zaman qəm çəkir, saxlayır yası,
Gəşt eyləyir gözü yaşdı, Annax bəy!

## HACININ[83*]

Nurdan xəlq eləyib Xaliqi-Sübhan,
İlahidən qisməti var Hacının.
Xoş güzəran, yaxşı dövran qurubdu,
Varı, mülkü, dövləti var Hacının.

Pəhləvan cüssəli, bir kəmər bəstə,
Mərtəbəsi uca, öz kökü üstə,
Arxadır, köməkdir qohuma, dosta,
Rüstəm kimi qeyrəti var Hacının.

Qızıl naxır, ağ sürülər yataqda,
Mis qazanlar gecə-gündüz ocaqda,
Qonaq-qara sazlı-sözlü otaqda,
Səxası var, mürvəti var Hacının.

Aldanmaz dünyanın cah-cəlalına,
İlahi bəxş edib nur kamalına,
Zərrə haram qatmaz halal malına,
Alın təri, zəhməti var Hacının.

Yerində danışar, yerində gülər,
Böyüyün, kiçiyin qədrini bilər,
Səsi gah Göyçədən, Kür üstən gələr,
Həm ad-sanı, şöhrəti var Hacının.

İgid bir kişidir, qaməti çinar,
Hər dara düşənin halına yanar,
Qalmaz nə xeyirdən, nə şərdən kənar,
El-obada hörməti var Hacının.

Bir baxışla dost-düşməni tanıyır,
Həm yaxşını, həm yamanı tanıyır,
Sərrafdı, gövhəri-kanı tanıyır,
Ağıl adlı sərvəti var Hacının.

İnşallah həmişə canı sağ olar,
Qiyamət günündə üzü ağ olar,
Zəhməti bar verər, bağça-bar olar,
Haqq dərgahda Cənnəti var Hacının.

Nəfsi təmiz, paklıq gəzir canında,
Mərifət, mərhəmət axır qanında,
Aşıq Ələsgərin hər vaxt yanında,
Dünyalarca hörməti var Hacının.

## İNDİ

Mikayil, sən tanı qoca babanı,
Kəm ağlın nə kəsir bu toydan indi?
İrazı olmurdun sazı çalmağa,
Döşə bozartmadan, piloydan indi.

Bəlkə Qayım ağa düz eyləyirdi,
Artırıb dərdimi yüz eyləyirdi,
Dinmirdim, qəlbimi köz eyləyirdi,
Ancaq ki qurtardım aloydan indi.

Mərd adam görəndə ər kimi tanı,
Dolandır gözünü, hər kimi tanı,
Ustan Ələsgəri nər kimi tanı,
Sanasan açıldı ciloydan indi.

## FATMANIN

Tutubdu yer üzünü bəhsi, sədası Fatmanın,
Yayılıb günəş kimi şoxu, ziyası Fatmanın,
Qabiliyyət-mərfət verib ata-anası Fatmanın,
Bayramdan nişanadı əldə hənası Fatmanın,
Qaf dağının maralı, Kürün sonası Fatmanın.

Bu gələn Fatmadımı? Hüsnünün cəlalına bax!
Yanaqlar gül yarpağı, zənəxdanın xalına bax!
Dişləri dürr dənəsi, ləblərinin balına bax!
Geyinib zər-zibanı, tirməsinə, şalına bax!
Yaraşır qamətinə cəmi libası Fatmanın.

Yaradan tay yaradıb huriyə, qılmana, yəqin,
Düşübdü yer üzünə behiştdən nişana, yəqin,
Hər kim görsə üzünü, olacaq divana, yəqin,
Baxanda ala gözlər lərzə salır cana, yəqin,
Qəsdi can almaqdımı, nədi davası Fatmanın!?

Qadir Mövlam bəxş eyləyib dövlətü-varından gözəl,
Buxağı ağ yaranıb dağların qarından gözəl,
Məmələri baş verib behiştin narından gözəl,
Yarı özünə layiq, özü də yarından gözəl,
Yetibdi mənzilinə əhdə vəfası Fatmanın.

Saatın xoş vaxtında xəlq eləyib kərəm kanı,
Belə gözəl görməmişəm, çox gəzmişəm bu dünyanı,
Görərsə, camalını, kafər də tapar imanı,
Yazıq Aşıq Ələsgər olsun payının qurbanı,
Dəysin şirin canına dərdi, qadası Fatmanın!

## YAYLAQ

Könlüm qaranquştək uçub qoynuna,
Gəzir hər yamacı, hər yalı, yaylaq!
Ruhum təzələnir, məst olur ürək,
Görəndə bu çağı, bu halı, yaylaq!

Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,
Bənövşə, qantəpər, qızlar örpəyi,
Qoyun mələşməsi, çoban tütəyi,
Çəkir uzaqlara xəyalı, yaylaq!

Qırxqız, Alaqaya, Çilgöz, Narışlar,
Muroy, Uzunyoxuş, Dəlidağ, Qoşqar!
Hansı oğul, deyin, sizi unudar,
Düşərmi el sizdən aralı, yaylaq?!

Ələsgər köynəkdən çıxartsın sazı,
Yenə cuşa gəlsin eşqi, avazı,
Tərifləsin allı-yaşıllı yazı,
Unutma bu böyük kamalı, yaylaq!

## YAXŞI XANIM

Xeyir-duam sənin üstündə qalsın,
Süz gətir çayımı, dur, Yaxşı xanım!
Mərifət əhlisən, nəcibzadəsən,
Tökülür üzündən nur, Yaxşı xanım!

Aşığın lisanı gərək dür tökə,
Əysik danışmağa xəcalət çəkə,
Könlü azğın olsa, ürəyi ləkə,
Yeriyərmi onda sur, Yaxşı xanım!

Ələsgər ərz eylər, yoldan çıxanın,
Kələk işlədənin, evlər yıxanın,
Dosta, duz-çörəyə xain baxanın,
Alacaq gözünü tor, Yaxşı xanım!

## YA ƏLİ*

Sərim fəda olsun, cismim sadağa,
Canım qurban gözəl ada, ya Əli!
Sənə agahdımı çəkdiyim zillət?
Hicranlıyam bu dünyada, ya Əli!

Ağam badə verdi, mən içdim cəmnən,
Hicran atəşləri qalxır sinəmnən,
Xalq oxur eşqinən, mən isə qəmnən,
Dərdim olub lap ziyada, ya Əli!

Mürği-ruhum, qaçma kənar, gəl bəri,
Yoxla sinəmdəki qəmli dəftəri,
Bu dərdlə öldürmə qul Ələsgəri,
Özün yetiş bir imdada, ya Əli!

* Qeyd: Bu şeiri kimsə yazıb Aşıq Talıba verib.

## YAN GEDİR*

Subaylıq sultandı, xandı dünyada,
İndi qocalmışam, əl də yan gedir.
Könül istər dostu sala bir yada,
Dost məni bəyənmir, el də yan gedir.

Könlüm istəklisi bahar, yaz idi,
Baxtım çox qalxmışdı, kefim saz idi,
Başıma yığılan gəlin-qız idi,
Qarılar endirmir, dul da yan gedir.

Köhnə dostlar məni heç salmır yada,
Göz-gözə baxanda bir gülmürsə da,
Dərdim çox artıbdı həddən ziyada,
Dövlətim azalıb, pul da yan gedir.

* Qeyd: Bu şeir 12.08.1967-ci ildə daşkəndli Xasay müəllimin dəftərindən yazılmışdır.

## YEK-YEK*

(dodaqdəyməz təcnis)

Səhər-səhər nəzər qıldı Salatın,
Qatdı sədasını sədaya yek-yek.
Gər natiqsən, nitq eylə sən dilində,
Danış ayələrdən səd aya yek-yek.

Qaç nakəsdən, səni çəkər, yar, ala,
Çək xəncərin, kəs ciyərin, yarala,
Hansı gecə, haçan keçsə yar ələ,
Dəyər hər saatı səd aya yek-yek.

İlahidən səda gəldi harada?
Neçə sirri saxla, – dedi harada?
Ələsgər də zikr eyləyər hər ada,
İşlədər şeirində səd aya yek-yek.

* Qeyd: Bu təcnis Qazax rayonunun İkinci Şıxlı kənd sakini Aşıq Məhəmməddən və Tovuz rayonunun Aşağı Öysüzlü kəndindən olan Aşıq Məhəmməd Çovdar oğlundan yazılmışdır (31.07.1980-ci ildə).

## LEYLİ[84*]

Dönə-dönə axtaralar dünyanı,
Olmaz sənin kimi qələmdaş, Leyli!
Əyninə geyibsən zərü-zibanı,
Üstündən düzübsən daşu-qaş, Leyli!

Ah çəkibən niyə köysün ötürdün?
Göz yaşınla şəcərləri bitirdin,
Hayana göndərdin, harda itirdin?
Hanı yanındakı yaşılbaş, Leyli?

Əhli-halam, dərdin nədi, qanıram,
Yaralı canımdan çox usanıram,
Ələsgərəm, alışmışam, yanıram,
Alova düşərsən, geri qaş, Leyli!

## BU QIZ*

Sallananda sərv boylum
Yerə eylər minnəti.
Gah satar eşqə qəmzəsin,
Gah eylər nəzakəti.
Qoynunda yatan kimsənə
Neynər səkkiz Cənnəti?
Çıxıbdı Behişt içindən,
Huri-qılmandı bu qız!

Gəl böylə baxma bu hüsnə,
Saxla bir sayə, gözüm.
Naməhrəmdən üz daldala,
Eylə bir hayə, gözüm.
Görsədir günəş camalın,
Salıbdır ayə, gözüm.
Şölə verib təcəllaya,
Nə əcəb candı, bu qız!

Ələsgər der, görməmişəm,
Bu cür gərdən sürahı.
Yazılıbdır sinəm üstə
Gözəllərin nigahı.
Bu tərkibdə gözəl görən
Məcnun olar billahı!
Qaşları yay, kirpiyi ox,
Teli müjgandı bu qız!

--------------------------

* Qeyd: "Bu qız" rədifli şeiri akademik İsa Həbibbəyli orta məktəb müəllimi kimi çalışdığı illərdə Şərur rayonunun Danzik kənd sakini Məhəmməd Səfiyevdən yazıya almış və geniş elmi şərhlə nəşr etdirmişdir (*"İşıqlı yol" qəzeti, 14 dekabr 1971-ci il, №127 (711); "Azərbaycan müəllimi" qəzeti, 9 iyun 1972-ci il, №47 (2415).* Söyləyici Məhəmməd Şəfiyevin məlumatına görə, o, bu şeiri Aşıq Ələsgəri şəxsən dinləmiş Əli Qurbanəli oğlundan eşitmiş və əzbərləmişdir.

## *YADDAŞLARDA QALANLAR*

### TAPŞIRRAM SƏNİ*

Şahi-şəhidanın cismi pakına,
Dəşti-Kərbəlanın qanlı xakına,
Zeynəb, Leyla, Ümmü Gülsüm, Səkinə,
Etdiyi əfqana tapşırram səni!

### HƏFTƏDƏN-HƏFTƏYƏ DOLANSIN GƏLSİN*

Həftədən-həftəyə dolansın gəlsin,
Hər qulun əməyi öz qabağına.
Şahi-Mərdan sayə salsın üstünə,
Dolansın gərdişin solu-sağına.

### ƏLƏSTÜ BÜRƏBBÜKÜM QALU-BƏLADAN*

Ələstü bürəbbüküm qalu-bəladan,
Kamalıynan hərə tapıb bir peşə.
Sənətindən əl çəkmiyən ac qalmaz,
Yorulma, usanma, ölüncə döşə.

---

* Qeyd: Şeir Çamırlı Hacı Şıxı ziyarətə gedən zaman deyilmişdir. Aşıq Talıbdan yazılmışdır.
* Qeyd: Şeir Aşıq Ağayardan yazılmışdır.
* Qeyd: Şeir Aşıq Talıbdan yazılmışdır.

## AYIRMA*

Dörd qardaşıq, dörd kitaba bağışla,
Dənəsini üzüb, sandan ayırma!
..................................................
..................................................

Məhəmmədə Quran göndərən Allah,
İsmayıla qurban göndərən Allah,
Əyyub üçün dərman göndərən Allah,
Bu cismi də o dərmandan ayırma!

## GÖYÇƏNİN*

Qızıl olub irəşbərin dəmiri,
İmirzə Bəylərin artsın ömürü,
Toxum verməsəydi, əkməzdi biri,
Pərişan keçərdi halı Göyçənin.

## OLU*

Belədimi peyğəmbər şəriəti?!
İslam olan dinə qoyar hörməti,
Yada salın Cəhənnəmi, Cənnəti,
Gürz təpədən dəyər, beyin qan olu.

................................................
Nainsaflıq olar, fəqiri basaq,

* Qeyd: Şeir Aşıq Talıbdan yazılmışdır.
* Qeyd: Şeir Aşıq Talıbdan yazılmışdır.
* Qeyd: Şeir Aşıq Nəcəfdən yazılmışdır.

Əgər irz üstündə olmasa nasaq,
Millət yoldan çıxar, biiman olu.

## SƏMƏD*

Bəylik sənin şənindədi, var olasan, sarı Səməd!
İslam dininin dirəyi, mahalın pərgarı, Səməd!
Zəlillərin ümidvarı, müşkülün açarı Səməd!
O, vaxtında yada saldı əbdi-günahkarı Səməd,
.......................................................................
.......................................................................

## YAŞASIN*

Məşəd İsə bu cahana gəlibdi bir can, yaşasın!
Bəli deyib, nüsrət tapıb qalu-bəladan, yaşasın!
Yanında sağdiş, soldişi, toy edən oğlan yaşasın!
Özlərinə qismət olsun bu köşkü-eyvan, yaşasın!

Xaçpərəstli-müsəlmanlı cəm oldu Göyçənin eli,
Ərəsət məhşər oldu gətir-götür, gəlhagəli,
Vurmaq, tutmaq, asmaq, kəsmək – işlətdilər hər əməli,
Zəfəranlı pilov döşəndi, dörd yanı meyli, məzəli,
Görənlər dedi: – Mərhəba, afərin, əhsən, yaşasın!
..........................................................................
..........................................................................

*Qeyd: Şeir Aşıq Talıbdan yazılmışdır.
* Qeyd: Şeir Aşıq Talıbdan yazılmışdır.

# DASTAN-RƏVAYƏTLƏR

## BİR NEÇƏ SÖZ

Aşıq Ələsgərin bir sıra şeirlərinin deyilmə səbəbləri barədə müəyyən söhbətlər məlumdur. Aşıqlar bunlara bir qədər bəzək-düzək vurub, dastan şəklində danışırlar. Amma aşıqlar belə söhbətləri "dastan" yox, "əhvalat", ya da "hekayət" adlandırırlar ("Dəli Alının əhvalatı", "Həcər xanımın hekayəti" və s.).

Aşıq Ələsgər özü dastan yaratmışdırmı? Oxucuları maraqlandıran bu suala cavab vermək üçün Ələsgərin oğlu Aşıq Talıbın və qardaşı oğlu Aşıq Nəcəfin söylədiklərini yada salaq. Onlar deyirdilər: "Bir gün belə oturmuşduq. Tufarqannı Abbasdan, Qurbanidən, Aşıq Valehdən, Kərəmnən söz düşdü. Onnarın dəstannarı haqqında söhbət getdi. Bir azdan sonra soruşduq ki, ay Dədə (Ağkilsə kəndinin adamları Aşıq Ələsgərə "Dədə" deyirmiş), sən Abbasdan, Qurbanidən əysik aşıq ha deyilsən; sən niyə bir dəstan bağlamadın? İrəhmətdik gülüb dedi ki, dəstannarın çoxu uydurmadı, yalandı. Adam bir aylıq yolu bir göz qırpımında gedə bilərmi!? Adam öz-özünə alışıb-yanarmı!?.. Mən dəstan düzəldərdim, yalan danışmaq istəmədim. Mənim başıma gələn hadisələri düzgün danışsanız, sözdərimi düzgün oxusanız, elə hərəsi bir dəstandı".

Özünün dediyi kimi, aşıqlar onun bircə qoşmasının deyilmə səbəbini düzgün, yerli-yataqlı danışıb, şeiri düzgün oxuyanda, dinləyiciyə gözəl bir dastan təsiri bağışlayır.

Aşıq Ələsgər dastan yaratdığını etiraf eləməsə də, onun bədii irsinə nəzər salanda görürük ki, istər Zöhrənin, istər Qozqara kötüyünün, istərsə də Həcər xanımın dili ilə öz şeirlərinə cavab verməsi dastan əlamətləridir. "Həcər xanım" dastan-rəvayətinin hələ Ələsgərin sağlığında aşıqların repertuarında yer tutması deməyə əsas verir ki, bu sənət nümunəsinin ərsəyə gəlməsində onun özünün də rolu az olmamışdır.

Aşığın adı ilə bağlı dastan-rəvayətlər çoxdur. Bunların bəzilərinin variantları da mövcuddur. Biz Aşıq Talıbın, Aşıq Nəcəfin və Aşıq Ağayarın söylədikləri, həqiqətlə daha yaxından səsləşən variantı məqbul saymışıq. Dilçilik baxımından əhəmiyyətini nəzərə alaraq, dastan-rəvayətlərdən ikisini ("Ələsgərnən Səhnəbanı" və "Dəyirmançı aşıq"), eləcə də Aşıq haqqında söylənmiş xatirələrin bir çoxunu dilimizin Göyçə şivəsində oxuculara təqdim etməyi lazım bilmişik.

**İslam ƏLƏSGƏR**

# ƏLƏSGƏRNƏN SƏHNƏBANI*

Mənim əzizdərim, sizə hardan xəbər verim, Göyçə mahalının Ağkilsə kəndinnən. Ağkilsə kəndində kimnən, Alməmməd kişidən.

Alməmməd kişi yoxsul bir adamıydı. Heç kəsnən alı-qalı olmazdı. Adam kasıb olanda nə olar, Alməmməd kişi hər şeyin yerini bilən, yaxşıya-pisə qiymat qoyan, qanacaxlı, mərifətdi bir adamıydı. Özünnən yaxşı söz də deyirdi. Kənddə hamı onun hörmətini saxlıyırdı. Çoxları bir iş görəndə onnan məsləhətdəşərdi.

Alməmməd kişinin uşağı çoxuydu. O, külfətini dolandırmaxdan ötrü hər zəhmətə qatdaşırdı. Çox zaman əkin-biçinnən sonra Cavanşir mahalının meşələrindən ağac, taxta daşıyar, kürək, şana qayırıb satar, uşaqlarmı birtəhər dolandırardı. Alməmməd kişi çətinliklərə düşsə də, ürəyini sıxmazdı, yeri düşəndə: “Danalı darıxmaz, Allah kərimdi”, - deyərdi.

Ay dolandı, il keçdi, Alməmməd kişinin böyük oğlu Ələsgər 14-15 yaşına çatdı. Ələsgər boy-buxunnu, yaraşıqlı, üzüyola, qoçaq bir oğlan oldu. Kəndin varrı adamlarınnan bir neçəsi Alməmməddən xayış eləmişdilər ki, Ələsgəri nökər versin, əmə Alməmməd oğluna qıymamışdı.

Bir gün kəndin varrılarınnan olan Kalvayı Qurban Alməmmədin yanına gəldi. Bir az o yannan-bu yannan söhbət eliyənnən sonra dedi:

– Alməmməd, özün bilirsən ki, mənim köməyim yoxdu. Əyər irazı olsan, Ələsgəri apararam, 3-4 il mana kömək eliyər.

Kasıblığın üzü qara olsun, bu dəfə Alməmməd kişi yumşaldı. Arvadı Pərizadın yanına getdi, məsələni ona dedi. Götur-qoy eliyib, bu fikrə gəldilər ki, Ələsgəri Kalvayı Qurbana nökər versinnər.

Kalvayı Qurban qonum-qonşuynan çox mehriban dolanan bir yaxşı adamıydı. Bu vaxta kimi heç kəs onnan bir zərrə qədər inciməmişdi.

Alməmməd kişi Kalvayı Qurbannan danışdı-barışdı, Ələsgəri Kalvayı Qurbanın öyünə göndərdi.

Kalvayı Qurban Ələsgərə bir dəs paltar tikdirdi, görəcəyi işdəri ona tapşırdı. Ələsgər işini tanıyannan sonra onu buyurmazdılar. O hər işi öz vaxtında görərdi.

Kalvayı Qurbanın Səhnəbanı addı gözəl-göyçək bir qızı varıydı. İki ilə qədər işdədikdən sonra Ələsgərnən Səhnəbanı arasında bir mehriban-

* Göyçə şivəsi saxlanılmışdır.

çılıq əmələ gəldi. Çox zaman Ələsgərin görəcəyi işdərə Səhnəbanı da kömək eliyirdi.

Ələsgər mollaların hədisdərinə, dərvişdərin nağıllarına, aşıqların söz-söhbətinə qulaq asmaxdan doymazdı. Kalvayı Qurban Ələsgərin xətirinə dəyməzdi. Ələsgər aşıq məclisdərinin hamısına gedərdi.

Ələsgər on beş-on altı yaşdarınnan söz deməyə başdamışdı. Tay-tuşdarı onun sözdərini əzbərriyərdilər.

Ələsgərin Kalvayı Qurbana nökər olması üç ilini atıb, dördüncü ilinə əyaq qoymuşdu. Bu vaxta qədər Kalvayı Qurban Ələsgərə güldən ağır bir söz deməmişdi. Kalvayı Qurbannan arvadı deyirdi ki, nə olaydı, nə olaydı, Alməmməd kişi Ələsgəri burdan aparmıyaydı.

Ələsgərnən Səhnəbanı arasındakı mehribançılıq yavaş-yavaş məhəbbətə çöyrülmüşdü. Bir saat bir-birinnən ayrı dura bilmirdilər. Elə bil ikisi də deyirdi: "Getmə gözümnən, gedərəm özümnən!" Novruz bayramı günüydü. Kalvayı Qurban bir dəs Ələsgərə, bir dəs də Səhnəbanıya paltar tikdirmişdi. Səhnəbanı sənəyi götürüb bulağa getmişdi. Ələsgər mal-qaranı irahatdıyannan sonra təzə paltarını geyindi.

Bu zaman Səhnəbanı bulaqdan qayıtdı. Ələsgəri görən kimi dedi:

– Ələsgər, paltarın mübarək olsun! Nə yaxşı yaraşır. Gərək şirinliyi verəsən.

Ələsgər Səhnəbanının gül camalına, xətti-xalına diqqətnən tamaşa elədi. Gördü kü, Səhnəbanının təzə geydiyi qoftanın bir düyməsi açılıb, altınnan köynəyinin naxışdı yaxası görünür. Elə bil ki, bu bayram günündə Səhnəbanının gözəlliyi birə-beş artmışdı. Ələsgərin könlü cuşə gəldi. Əyər qızın anası burda olmasaydı, sinəsinə gələn sözdəri ucadan oxuyardı. Səhnəbanıya bircə bu cavabı verdi:

– Paltarın şirinliyi mənim gözüm üstə!

O gün keçdi, sabah hamınızın üzünə xeyirriknən açılsın, sabah açıldı. Kalvayı Qurban pəyiyə gedəndə gördü ki, Ələsgər camışın axurunda oturub, astadan zümzümə eliyir. Ələsgər bu zümzüməsində Səhnəbanının köynəyinnən danışır, öz təzə paltarının şirinliyini hazır eliyirdi. Ələsgər Kalvayı Qurbanı görəndə səsini kəsdi.

Kalvayı Qurban sazdan-sözdən o qədər baş tapan adam döyüldü. Elə başa düşdü ki, Ələsgər özgə aşıqların sözdərinnən oxuyur, dedi:

– A bala, yaxşı çağırırsan, çağır utanma!

O günün sabahısı Kalvayı Qurban atını mindi, Kalvayıdan qayıdan

adamlarnan görüşmək üçün Zərzibil kəndinə getdi. Həmən gün Ağkilsədə toy tədarükü varıydı. Aradan bir az keçməmişdi ki, Səhnəbanının anasını da yuxa üstünə apardılar. Ələsgər öyə gələndə gördü ki, Səhnəbanı təkdi, dedi:

– Əmi qızı, mən təzə paltar geyəndə sən mənnən şirinlik istədin.

Mənim də gümanım, sən bilirsən ki, sözdən başqa heç bir şeyə gəlmir. İndi qulaq as.

Ələsgər aldı görək nə dedi, Səhnəbanı nə eşitdi:

Gülavatın qıyı tər sinən üstə,
Nə gözəl yaraşır, qız, köynəyinə.
Sinən Kəbə, köynək Kəbə örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Gözəl yaranıbsan qalu-bəladan,
Yanağın göyçəkdi güldən, laladan.
Zərgər gül doğrasın zərin tiladan,
Əlinnən gəldikcə düz köynəyinə.

Ələsgər də dost yolunda sürünü,
Sinən üstə dərdə dərman görünü.
O köynəyə şux məmələr bürünü,
Onçu qurban olluq biz köynəyinə.

Səhnəbanı dedi:

– Ələsgər, aman günüdü, dədəm eşitməsin. Əyər eşitsə, səni burda qoymaz.

Ələsgər bu dəfə bir az da ucadan aldı görək nə dedi:

İstər dara çəkdir, istər qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm.
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.

Firqətinnən saralıban solanam,
İzin versən, yar, başına dolanam.
Əlli yol çapılam, yüz yol talanam,
Bir şey deyil dövlət-mal, incimərəm.

Ələsgəri tər basmışdı. Öydə Səhnəbanıdan başqa heç nəyi görmürdü.

Səhnəbanı maddım-maddım Ələsgərə baxırdı, dillənməyə təhəri yoxuydu.

Ələsgər sözün o biri bəndini aldı:

Ələsgərəm, yandım eşq ataşında,
Sözüm qaldı kirpiyində, qaşında,
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstünnən yol, incimərəm.

Ələsgər sözü qurtaran kimi Səhnəbanı dedi:

– Ələsgər, sana gələn ölüm mana gəlsin, sən mənim qəbrimin üstünnən yol sal! Sən ki mana yar dedin, mən də sana yar deyirəm. Öldüm – qara torpağınam, qaldım – sənin yarınam.

Aradan bir müddət keçdi. Bir gün Kalvayı Qurban öz arvadına dedi:

– Arvad, Allah döyləti verdi, əmə bir oğulu əsirgədi. Bir gün yıxılıb ölərəm, qız da çıxıb birinə gedər, sən də qurdnan qiyamata qalmıyajaxsan ki! Onda yurdumuzda bayquş uluyar.

– A kişi, açıx danış görüm, nə deməkistiyirsən?

– Arvad, sözün doğrusu, Ələsgər mənim çox xoşuma gəlir. Mənim fikrim budu ki, qızı verək Ələsgərə, saxlıyaq öyümüzdə. Elə bilirəm ki, qız özü də buna irazı olar.

– A kişi, mən də irazıyam, əmə bilmirəm bu işə camahat nə deyər?

– Nə deyər desin. Ələsgərdən yaxşı oğlan harda var!

Bu məsələ qonşudan-qonşuya yayıldı, gəlib Pərizadın qulağına çatdı. Pərizad məsələni Alməmməd kişiyə dedi. Alməmməd Kalvayı Qurbannan qohum olmağa cannan-başnan irazıydı, əmə elə hesab elədi ki, uydurma sözdü. Düzünü örgənmək üçün Kalvayı Qurbanın yanına getdi, salamnan-safadan sonra dedi:

– Kalvayı, əmrim aşmır, icazə versən, Ələsgəri apararam.

Kalvayı Qurban bir az fikirrəşənnən sonra dedi:

– Alməmməd, Allaha şükür, sənin köməyin, qolundan tutanın var, əmə Ələsgərsiz mənim əmrim heç aşmaz. Əyər irazı olsan, Ələsgər həməşəlik bizim öydə qalar.

Alməmməd kişi arif adamıydı. Bildi ki, Kalvayı Qurban nə deyir, əmə özünü o yerə qoymadı, dedi:

– Kalvayı, necə yəni Ələsgər həməşəlik sizin öydə qalsın? Biz ki belə danışmamışdıq.

– Alməmməd, Ələsgəri aparsan da, burda qoysan da ixtiyar sahabısan. Ancaq mənim məqsədim budu ki, irazılaşsan, iki ildən sonra Ələsgərnən

Səhnəbanının toyunu eliyərəm, qalar həməşəlik bizim öydə.

Alməmməd kişi bir az fikirrəşəndən sonra gülümsünüb dedi:

– Kalvayı, mən sənin fikrini dörd il bunnan qabaq başa düşmüşdüm ki, Ələsgəri mənim əlimnən alajaxsan.

Hər ikisi güldü, məsələ bunnan qurtardı. Kalvayı Qurbanın arvadı çay-çörək hazır elədi, yedilər, içdilər, bir az da o yannan-bu yannan danışdılar, Alməmməd kişi durub öylərinə gəldi.

Atalar deyibdi: "Sən saydığını say, gör fələk nə sayır".

Kalvayı Qurbanın Məhərrəm addı bir qardaşı varıydı. Çox varrı olduğuna görə "Pullu Məhərrəm" deyirdilər. Özü də çox zalım adamıydı.

Kalvayı Qurban onnan elə qorxurdu ki, əyər desəydi ki, üç gün çörək yemə, yeməzdi.

Pullu Məhərrəm bu məsələni eşitdi. Tez adam göndərdi, Kalvayı Qurbanı yanına çağırtdırdı, qeyizdi-qeyizdi soruşdu:

– Qardaş, bu nə zurnadı, camahat çalır?

Kalvayı Qurban gördü ki, Məhərrəm məsələni olduğu kimi eşidib, danmaq olmaz, dedi:

– Məhərrəm, Ələsgər üzüyola, tərbiyəli, qoçaq bir oğlandı. Əyər o olmasa, bizim mal-heyvan dolanmaz. Alməmməd kişi gəlmişdi ki, onu apara, mən Ələsgəri bir-iki il də işdətməkdən ötrü yalan bir sözüydü dedim. Onun da ağlı kəsdi, aparmadı.

– Yox, Ələsgəri bu saat qov getsin, özgə adam tap, işdət. Qaldı kı Səhnəbanı qızımız varsa, oğlumuz da var. Öz daşımız, öz tufarımız Səhnəbanıyı oğlum Mustafıya alajam. Di durma, get Ələsgərin şələsini ver qoltuğuna!

Kalvayı Qurban öylərinə qayıtdı. Əmə elə bil ki, başına bir qazan qaynar su tökmüşdülər. Bilmirdi ki, arvadına nə desin, Ələsgəri necə qovsun. Odu ki, Ələsgəri göndərib, Alməmməd kişiyi çağırtdırdı, dedi:

– Alməmməd, gərək o günü mən sənin sözünə baxaydım. Qohum-qardaş deyir ki, Ələsgəri nahaq saxlıyıbsan, qoy getsin atasına kömək eləsin. İndi istiyirsən Ələsgəri apar.

Alməmməd kişi işin nə yerdə olduğunu başa düşdü. Əvvəlki söhbəti heç təzələmədi. Ələsgəri də götürdü, kor-peşman evlərinə qayıtdı.

Alməmmədgil də, camahatın hamısı da bildi ki, bu işi pozan Pullu Məhərrəmdi, arğac onnan keçibdi.

Ələsgər baş qaldırıb camahat içində gəzə bilmədi. Fikirdən, qüssədən

saralıb-solmağa başdadı. Axırda xəstələndi, yorğan-döşəyə düşdü.

Alməmməd kişi eşqin, məhəbbətin nə olduğunu bilirdi. Fikir elədi ki, Ələsgərə bir saz tapsın, bəlkə, çalıb-oxuya, dərdi-qəmi dağıla.

Getdi Qannıkənd kəndindən bir saz gətirdi. Ələsgər meylini saza saldı, az bir müddətdə əli saza yatdı, çalıb-oxumağı örgəndi. Yanına kim gəlib dərdini soruşurdusa, ona söznən cavab verirdi.

Bir gün Alməmməd kişinin qohumları, istiyənnəri yığılıb, Ələsgərin yanına gəldilər. Hərə bir yannan ürək-dirək verdi ki, sənin nəyin var, niyə yatırsan?! Məşədi Nədir sazı Ələsgərə verib dedi:

– Oğul, çal görüm örgənə bilibsənmi?

Ələsgər sazı götürdü, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, “Yanıq Kərəmi” havasıynan görək dərdini necə dedi:

Dərdim çoxdu, dindirməyin, həzarat!
Məni bir alagöz ceyran öldürür.
Qılıncsız, tüfəngsiz alır canımı,
Kimsə bilmir, pünhan-pünhan öldürür.

Heç bilmirəm neyləmişəm, neylərəm,
Xəncər alıb, qara bağrım teylərəm,
Bir canım var, yara qurban eylərəm,
El desin: – Aşıq də qurban öldürür.

Ələsgərəm, bir gözələ mehmanam,
Ölməyincə çətin dönəm, usanam,
Əzrayılı qannı tutmasın anam,
Məni bir kirpiyi peykan öldürür.

Məşədi Nədir dedi:

– Oğul, nə çoxdu el qızı eldə. Kalvayı Qurbanın qızı olmasın, ayrı adamın qızı olsun. Onnan ötrü bu qədər ah-zar eləmə. Elə gözəl qızdar var, Kalvayı Qurbanın qızı onnarın yanında nədi ki! Günü sabah, hansı kənddən deyirsən, kimin qızını deyirsən, sana alarıq.

Ələsgər bu sözdəri eşidəndə elə bil dərdinin üstünə dərd gəldi. Onun gözündə Səhnəbanıdan gözəl heç kim ola bilməzdi. Bu dəfə aldı görək nə dedi:

Eşidin, məclisdə arif olannar,
Sərrafam, gövhərim, kanım gedibdi.
Ah çəkibən yar yoluna baxmaqdan,
Yəqin bilin, yarı canım gedibdi.

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi,
Şəkər söhbətlidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi.

Müddətdi gözümnən olubdu iraq,
Əridib cismimi dərdü-qəm, fəraq,
Büllur buxaq, lala yanaq, ay qabaq,
Ala gözdü Səhnəbanım gedibdi.

İş sana agahdı, qadir İlahı,
Eşq əlindən itirmişəm irahı*.
Ələsgərəm, budu sözün kütahı,
Yar gedəli din-imanım gedibdi.

Söz tamama yetişdi, əmə Ələsgər sazı əlinnən yerə qoymadı. Hərə bir yannan onu dannamağa, öyüd-nəsihət verməyə başdadı ki, Səhnəbanının fikrini başından çıxart. Dünya dağıla, Pullu Məhərrəm qoymaz ki, bu iş düzələ.

Aldı görək, "Kərəm gözəlləməsi"ynən bu dəfə Ələsgər ordakılara nə dedi:

Ay ariflər, gəlin sizə söyləyim,
Kəsilib üstümdən yar nişanası.
Dost uzaq olmaxnan könül yad olmaz,
Ölüncə qəlbimdə var nişanası.

Nütfədən pak olan özü pak olar,
Möminnən törəyən xoş idrak olar,
Əndəlib qan ağlar, zəhri çak olar,
Görsə gül üstündə xar nişanası.

---

* İrah (rah) – farsca "yol" deməkdir.

Alməmməd kişi davam gətirə bilmədi, ağladı, dedi:

– Məşədi Nədir, dünyanın işdəri belədi. Əyər mənim də varım, halım olsaydı, başıma bu iş gəlməzdi.

Aldı görək Ələsgər sözünü necə tamamladı:

Ələsgərəm, qərq olmuşam bu qəmə,
Hədyan sözdər dağ çəkifdi sinəmə,
Nakəs, müxənnətdən mətləb diləmə,
Yoxdu namus, qeyrət, ar nişanası.

Gördülər ki, öyüd-nəsihət heç bir əsər eləmədi, Ələsgər elə dediyini deyir. O günnən camahatın içinə yayıldı ki, Ələsgərə vergi verilib, sazı götürüb sinədən deyir. Ələsgər Səhnəbanıdan sarı nə sirr sözü olsaydı, oğlannardan dostu Paşıya deyərdi, qızdardan da əmisi qızı Zöhriyə. Onnar Ələsgərin yanına tez-tez gedib-gəlirdilər.

Paşaynan Zöhrə Ələsgərin yanına gəlmişdilər. Bunnar gələndə Ələsgər elə hesab eləmişdi ki, Səhnəbanıdan bir xəbər gətiriblər. Əmə nə Zöhrə, nə də Paşa bu dəfə bir xəbər gətirməmişdi. Ələsgər qəm dəryasına qərq oldu. Gördu ki, nə Səhnəbanıdan ona bir xəbər gətirən var, nə də onun ah-naləsini Səhnəbanıya yetirən. Sazı sinəsinə basdı.

"Hicran Kərəmisi"ynən görək nə dedi, Paşaynan Zöhrə nə eşitdi:

Ömrüm ah-vayınan keçdi dünyada,
Həsrət qaldım, əlim yara yetmədi.
Neçə namə yazdım canan elinə,
Heç birisi o diyara yetmədi.

Ələsgər bu sözü deyəndə Zöhrə köyrəldi, dedi:

– Əmin qızı ölmüyüb ki, sənin dediyini ona yetirməsin. Allah qoysa, sabah onnan sana bir xəbər gətirərəm.

Ələsgər sözün ikinci bəndini aldı:

Nə doyunca nazdı yarı görmədim,
Nə dilimnən əhvalını sormadım,
Bağ bəslədim, qönçə gülün dərmədim,
Xəzan oldu, bağçam bara yetmədi.

Dağların köysündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası,
Gözü yolda, intizara yetmədi.

Gözü yaşdı, ey fiqara Ələsgər,
İşi müşkül, baxtı qara Ələsgər,
Olmadı dərdinə çara, Ələsgər,
Həsrət əlin o dildara yetmədi.

Mənim əzizdərim, o günü keçdi, sabah hamımızın üzünə xeyirriknən açılsın, sabah açılanda Zöhrə sənəyi götürüb bulağa getdi. Gecdəngec Səhnəbanı da bulağa gəldi. Öpüşdülər, görüşdülər, Səhnəbanı soruşdu:

– Sən Allah, de görüm Ələsgər necədi?

– Necə olajax, Allah onu elə oda qalıyıb ki, dilnən deyiləsi döyül. Sazı götürüb deyəndə də başınnan duman qalxır.

– Neylim, əlimnən nə gəlir! Allah əmimin oğlannarını qırsın, yurdu düzdənsin!

Bulağa gedib-gələn çoxuydu. Odu ki, artıq danışa bilmədilər. Zöhrə sənəyini gətirib öylərinə qoydu, birbaş Ələsgərin yanına gəldi. Ələsgər Zöhrənin hərəkətinnən bildi ki, Səhnəbanının yanınnan gəlir.

Sazı başının üstünnən götürdü, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi. "Dilqəmi" havasıynan görək Zöhrədən nə soruşdu, Zöhrə ona nə cavab verdi:

Söylə, qasid, müxtəsəri-vəssalam,
Ərzimi canana dedin, nə dedi?
Bülbültək asmana yetişib nalam,
Səhni-gülüstana dedin, nə dedi?

Ələsəgərin bu yanıxlı havaynan belə oxumağı Zöhrənin də qəlbini cuşə gətirdi. Hörüklərinnən birini ayırıb sinəsinə basdı, Ələsgərə belə cavab verdi:

Gedib ərzi-halın yara söylədim,
İnciməsin mənnən canana, – dedi.
Zülm əliynən məni yada verillər,
Viran qalsın belə zamana, – dedi.

**Aldı Ələsgər:**

Yadına salanda boy-büsatını,
Xəstə könlüm minir eşqin atını,
Gah axtarır yerin yeddi qatını,
Gah çıxır asmana, dedin, nə dedi?

**Aldı Zöhrə:**
Nakəs müxənnətin boynu vurulsun,
Vay düşsün öyünə, şivən qurulsun,
Məhərrəmin oğlannarı qırılsın,
Qalmasın yurdunda nişana! – dedi.

**Aldı Ələsgər:**
Aşiq oldum bir nainsaf millətə,
Qolu bağlı məni verdi cəllətə,
İncilə, Zəbura, Söhvə, Tövrətə,
And verrəm Qurana, dedin, nə dedi?

**Aldı Zöhrə:**
Seyrağıblar aralığı qatdılar,
Zülmünən boynuma kəmənd atdılar,
Atam, anam məni pula satdılar,
Onnar yetişməsin imana, – dedi.

**Aldı Ələsgər:**
Könül gərək istədiyin istiyə,
Dostun sözün dosta gərək dost deyə.
Rəhm eləsin mən günahkar xəstiyə,
Dərdimi loğmana dedin, nə dedi?

**Aldı Zöhrə:**
Zöhrəyəm, sinəmdə dərdü-qəm çoxdu,
Üstümə tökülən peykandı, oxdu,
Dünyada ədalət, haqq-divan yoxdu,
Yetirə dərdimi loğmana, - dedi.

**Aldı Ələsgər:**
Kəc dolandırmasın xam xəyalını,
Can qoyan istəməz dünya malını,
Yazıq Ələsgərin ərzi-halını,
Sərvi-xuramana dedin, nə dedi?

Zöhrə söznən dediyi kimi, dilcavabı da bulağa necə getməyinnən, necə görüşməyinnən danışdı. Ələsgərin ürəyi bir az sakit oldu. Danışığının sonunda Zöhrə dedi:

– Ələsgər, Səhnəbanı deyir ki, nə olaydı, bu günnərdə Ələsgəri görəydim. Əyər durub bir az gəzsən, eşiyə-bacıya çıxsan, bəlkə Səhnəbanıynan görüşə biləsən.

Deyəllər umud çox yaxşı şeydi; əyər xəstənin sağalmağına özünün umudu olmasa, həkimin dərmanı kömək eləməz.

Aradan bir neçə gün keçdi. Ələsgər əyağa durdu, yavaş-yavaş qapıya-bajıya çıxdı, yoldaşları, tay-tuşdarı onu yazın ətirri havasında çöllərə, çəmənnərə apardılar, gözü-könlü açıldı, sapasağ oldu.

Günnər keçdi, həftələr dolandı, bir gün kəndin qızdarı bulaq başında sözü bir yerə qoydular ki, sabah dağa pencər yığmağa getsinnər.

Səhnəbanı bunu bilən kimi Zöhriyə xəbər verdi. Zöhrə Ələsgərə dedi, Ələsgər Paşaynan barabar heç kim yerinnən durmamış Çalmalı dağına tərəf üz qoydu. Gəlhagəl gəlib gün çıxan vaxtı dağa çatdılar. Paşa göy otun üstündə uzandı, gün kürəyinin arasını qızdıranda şirin yuxuya getdi. Ələsgər gözdərini tikdi kənddən gələn yola. Bir saat gözdədi, iki saat gözdədi, bir də gördü ki, qızdar karvanının ucu göründü. Ələsgər diqqət eliyəndə Səhnəbanıyı tanıdı. O saat könlü cuşə gəldi, sazı köynəyinnən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi.

Bu zaman sazın səsinə Paşa ayıldı, soruşdu ki:

– Ələsgər, nə oldu ki, qoymursan yatam?

Ələsgər dedi:

– Qulaq as, gör nə olub:

Dürdanəni səngi-siyah içində
Həsrət gözüm görən kimi tanıdı.
Konul beyvafadı, heç salmır yada,
Göz doymur, gözünün mehribanıdı.

Paşa yerinnən dikələndə gördü ki, qızdar gəlir. Ələsgər aldı sözün o biri bəndini:

Yanaqları güldü, olubdu xəndan,
Cismidə mələkdi, nəsildə insan,
Simi-zənəxdandı, mirvari - dəndan,
İnnabı ləbləri can dərmanıdı.

Adım Ələsgərdi, əslim – göyçəli,
Ələst aləmində demişəm "bəli!"
Həm aşığam, həm dərvişəm, həm dəli,
Canım gözəllərin yol qurbanıdı.

Qızdar ordan durub birbaşa Qıvla bulağının üstünə – Ələsgərgilin yanına gəldilər. Ələsgər çoxdan bəri Səhnəbanını görüb kəlmə verib, kəlmə almamışdı. Qızdar çatar-çatmaz Ələsgər əyağa durdu, sazı sinəsinə basdı, görək Səhnəbanını necə qarşıladı:

Tərlan tamaşalı, maral baxışdı,
Qədəm qoyub, asta-asta xoş gəldin!
Yolun sadağası canınnan basdı,
Qurban sənin kimi dosta, xoş gəldin!

Qızdar Ələsgəri ortalığa aldılar. Hamı başa düşdü kü, o, bu sözü Səhnəbanıya deyir. Səhnəbanı utandığınnan yerə baxırdı, qızdarın da çoxu Səhnəbanıya baxıb gülümsünürdülər. Ələsgərin yadına Səhnəbanının ona "yar" deməsi düşdü. Aldı görək nə dedi:

Biz ki ilqar keçirmişik aradan,
"Amin" desən, tez düzəldər Yaradan,
Konlum yasdan çıxdı, qəlbim qaradan,
Gülə-gülə bu həvəsdə xoş gəldin!

Gözəllər sultanı, ay mələkzada!
Özün kimi gözəl yoxdu dünyada,
Sən ki Ələsgəri salıbsan yada,
O səbəbdən gözüm üstə xoş gəldin!

Doğrudu, bu söz tamama yetişdi, əmə Ələsgər Səhnəbanıya bircə "xoş gəldin!" eləmişdi, ürəyində deməli sözü çoxuydu. Zöhrə qızlara dedi ki, oturun dincələk. Ələsgər də bir az oxusun, könlümüz açılsın.

Pullu Məhərrəmin qızı Cavahir dilləndi:

– Burya saza qulaq asmağa gəlmişik?! Durun pencərimizi yığaq. Hər kəsin könlü istəsə, kənddə saz çaldırıb, qulaq asar.

Cavahir belə deyəndə Səhnəbanı bildi ki, nə təhər olsa, kəndə gedən kimi əhvalatı xəbər verəcək; bir də ya qismət, Ələsgəri bir də görə, ya görmüyə. Odu ki, qızdarın məclisi dağılacağınnan qorxdu, ölümünü gözünün qabağına gətirdi, Cavahirə belə cavab verdi:

– Əşi, penər qaçmır ha!... Kənddə bu qızdar hardan bir yerə toplanıb

məclis quracaq?! Kəndə aşıq gələndə də çox vaxt kişilər gedib qulaq asır, heç qızdarı yada salan da olmur.

Səhnəbanının belə deməyinə qızdarın çoxu tərəfdar çıxdı, yerrərinnən tərpənmədilər. Ələsgər bu dəfə "Təcnis" havasıynan aldı görək nə dedi, Səhnəbanı nə eşitdi:

Sənnən ötrü ömrün barın becərdim,
Mübarək dəstinlə di bir üz, bir üz!
Ölüb bu dünyadan həsrət gedirəm,
Qoysan üzüm üstə di bir üz, bir üz!

İpək nazbalışa Mina dayandı,
Həcər nalə çəkdi, Minada yandı,
Həsrətinnən dərdim minə dayandı,
Sən gəlsən, əysilər di bir üz, bir üz.

Düzdü, Ələsgər Səhnəbanının qarşısında çox həvəsnən oxuyurdu, əmə ona yetişməyə umudu yoxuydu. Bilirdi ki, Pullu Məhərrəm neçə ki sağdı, iki sevgilini qovuşmağa qoymaz. Ələsgər aldı, görək sözün axırıncı bəndində nə dedi:

Bayqu həsrət çəkdi, yara yetmədi,
Təbib neştər vurdu, yara yetmədi,
Yazıq Ələsgər, əlin yara yetmədi,
Çalxan qəm bəhrində, di bir üz, bir üz.

Sözə diqqətnən qulaq asan qızdar gördülər ki, Səhnəbanının gözdərinnən yaş süzülməyə başdıyıfdı. Zöhrənin də ürəyi davam gətirmədi, ağladı. Qızdarın məclisi qəm-qüssə içində dağıldı. Ələsgərnən Paşa bulağın başında qaldı, qızdar ordan yavaş-yavaş uzaqlaşdılar.

Ələsgərin əlacı olsaydı, Səhnəbanını gözünnən uzaxlaşmağa qoymazdı. Səhnəbanı tez-tez dönüb Ələsgərə baxırdı. Ələsgər sazı sinəsinə götürdü, görək bu dəfə Səhnəbanıya nə dedi:

Bəzənib, qurşanıb seyrə çıxan yar,
Alagözlü Səhnəbanım, yavaş get!
Bir qıya baxanda öylər yıxan var,
Cəllad olub tökmə qanım, yavaş get!

Mən sana aşiqəm, sən mana xata,
Dahanın bənzəyir qəndə, nabata,

Ləbin tənə vurur Abi-həyata,
Qoynu Cənnət-irizvanım yavaş get!

Ələsgərəm, oldum dəli, divana,
At müjganın, sinəm durub nişana,
Sallanışın bənzər huri-qılmana,
Kəbəm, qibləm, din-imanım, yavaş get!

Axşam qızdar öylərinə qayıdanda dağda olan əhvalatı danışdılar.

Cavahir də nə olmuşdusa hamısını anasına xəbər verdi. O günnən sonra Pullu Məhərrəm Səhnəbanıya öydən çölə çıxmağı, bulaqdan su gətirməyi də qadağan elədi.

Yaz keçdi, yay addadı, payız girdi. Kimin xeyir işi varıydı yavaş-yavaş görməyə başdadı. Nişan eliyən kim, toy eliyən kim...

Molla oğlu Əli oğluna toy eliyirdi. Toya Qızılvəngli Aşıq Alıyı təklif eləmişdi. Hələ Aşıq Alı söhbəti başdamamış biri dedi ki, Alməmməd kişinin oğlu özünnən yaman söz deyir. Paşıyı göndərdilər, gəldi Ələsgəri çağırdı, Aşıq Alının yanına gətirdi. Aşıq Alı Ələsgəri danışdırıb gördü ki, çox mərifətdi, qanacaxlı oğlandı. Aşıq Alı saz çaldı, Ələsgərdən xayış elədi ki, oxusun. Ələsgər Aşıq Alının çaldığı havaynan söz oxumağa başdadı. Sonra bir-iki qatar da öz sözünnən oxutdu. Gördü kü, doğrudan da, dediklərinə görə varıymış.

Aşıq Alı çalmaxda olsun, Ələsgər oxumaqda, kəndin qız-gəlini dəstə-dəstə toya gəlirdi. Səhnəbanı da qohum-qonşuların qızdarıynan barabar toya gəldi. Səhnəbanı qapıdan girəndə Ələsgər onu gördü, bilmədi ki, oxuduğu sözü necə qurtardı. Səhnəbanı keçib üzü örtülü oturdu. Elə bu dəmdə Aşıq Alı Ələsgərə dedi:

– Oğul, saz çala bilirsənmi?

– Bekara dınqılladıram.

– Buyur görüm, necə dınqılladırsan.

Aşıq Alı sazı Ələsgərə verdi. Ələsgər sazı alıb, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, çalmağa başdadı. Ələsgərin gözü Səhnəbanıdaydı. Gördü ki, dirəyin dibində oturub, əmə üzü ürbənddidi. Ələsgər çoxdan bəri Səhnəbanının üzünü görməyin həsrətini çəkirdi. Aldı görək Səhnəbanıya nə dedi, camahatnan Aşıq Alı nə eşitdi:

A bimürvət, həsrətini çəkməkdən
Yetişmişəm cana, üzün bürümə!

İllər ayrısıyıq, fürsət düşəndə,
Çəkilib pünhana, üzün bürümə!

Yusif kimi məni saldın azara,
Təbibimsən, eylə dərdimə çara,
Ya buyur cəllada, ya çəkdir dara,
Ya yetir dərmana, üzün bürümə!

Yazıq Ələsgərəm, mən sana qurban,
Xəstəyəm, dərdimə gəl eylə dərman,
Sən mələkzadasan, ay huri, qılman,
Gəlmişəm qurbana, üzün bürümə!

Bu sözdəri eşidəndə Səhnəbanı üzünün bir tərəfini açdı. Ələsgər gördü ki, Səhnəbanı onun sözünü başa düşdü. Bu dəfə aldı görək nə dedi:

Can qurban eyləsən, layıqdı, layıq,
Bir yar ki mətləbi tez qanan ola,
İşarətnən, qaş-gözünən annıya,
Özünə deməmiş söz qanan ola.

Canım qurban olsun o əhli-dilə,
Qaşdarın oynada, gözünnən gülə,
Dilin tərpənməmiş dərdini bilə,
Qurbanam gözünə, göz qanan ola.

Belə yar yetirə baxtın kövkəbi,
Dəsti qana ürəkdəki mətləbi,
Nə lazım dil deyib, tərpətmək ləbi,
Nə keçsə konlunnan düz qanan ola.

Ələsgər söylüyər söz müxtəsərin,
Ağlı kamil ola, kamalı dərin,
Eşidənlər deyə: – Əhsən, afərin,
Əgər məclisində yüz qanan ola.

Aşıq Alı o vaxt Göyçənin ən ustad aşığıydı. Onun bilmədiyi söz yoxuydu. Ələsgərin oxuduğu sözdərə fikir verdi, gördü ki, çox qiymətdi sözdərdi, özü də bu sözdəri elə burda dedi. Aşıq Alı belə hazırcavablığı

hələ heç kəsdə görməmişdi.

Çaldılar, oxudular, oynadılar, toy məclisi qurtarannan sonra Aşıq Alı Ələsgərnən barabar onnara getdi. Alməmməd kişiynən dünyanın gəlmişinnən-getmişinnən söhbət elədilər. Sabah hamınızın üzünə xeyirriyə açılsın, sabah açılanda çay-çörəkdən sonra Aşıq Alı Alməmməd kişiyə dedi:

– Alməmməd, Ələsgərdən çox yaxşı aşıq olar. Əyər irazılaşsanız, onu yanımcax aparıf örgədərəm.

Alməmməd kişi cannan-başnan irazı oldu. Aşıq Alı öz sazını, Ələsgər də öz sazını götürdü, bir neçə hava çaldılar, oxudular. Sonra Aşıq Alı üzünü Ələsgərə tutub dedi:

– Oğul, sözdərin də xoşuma gəldi, oxumağın da, saz çalmağın da.

Az kəm-kəsirin var. Onu da tezdiknən düzəldərsən. Əmə aşıxlığın özgə şərtdəri də çoxdu. De görüm onnardan da halısanmı?

– Alı dayı, icazə versən, bildiyim o şərtdəri söznən deyərəm.

– Oğul, mən buna çox şad olaram söznən de.

Ələsgər sazı sinəsinə basdı, görək nə dedi:

Aşıq olub, tərki-vətən olanın,
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin biə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymatın bilə,
Kəlməsinnən ləlü-gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyhamınan söz qana,
Naməhrəmnən şərm eyliyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

Söz tamam olan kimi Aşıq Ali Ələsgərin boynunu qucaqlayıb üzünnən öpdü, dedi:

– Oğlum, aşıq olana çalıb-oxumaqdan əvvəl bu dediklərin lazımdı.

Aşıq Alı Ələsgəri götürüb, özüynən barabar apardı. Onnar gedənnən bir neçə gün sonra Pullu Məhərrəm toy elədi, Səhnəbanıyı ağlada-ağlada oğlu Mustafıya aldı. Leyliyi Məcnunnan, Məcnunu Leylidən, Əsliyi Kərəmnən, Kərəmi Əslidən eliyən zalım fələk Ələsgəri Səhnəbanıdan, Səhnəbanıyı da Ələsgərdən elədi...

Ələsgər kəndə qayıdanda gördü ki, lələ köçüb, yurdu ağlıyır Səhnəbanı gedibdi. Kərəm Əslisiz, Əsli Kərəmsiz, Məcnun Leylisiz, Leyli Məcnunsuz yaşıya bilmədi, əmə Ələsgər Səhnəbanısız, Səhnəbanı da Ələsgərsiz yaşadı. Ələsgər 40 yaşına qədər öylənmədi, məclislərdə, qanan adamların yanında öz dərdinnən danışdı, nalə çəkdi. Axırda Cavanşir mahalının Yanşaq kəndinnən Nəbinin qızı Anaxanımnan öyləndi, ömrünün axırına qədər onnan yaşadı, gün keçirib uzun ömür sürdülər. Sizin də ömrünüz uzun, günnəriniz xoş keçsin!..

## AŞIQ ƏLƏSGƏR YANŞAQDA

Mənim əzizlərim, sizə hardan xəbər verim, kimdən deyim? Göyçə mahalının Ağkilsə kəndindən – Aşıq Ələsgərdən.

Aşıq Ələsgər el arasında yaxşı bir aşıq kimi tanınandan sonra çoxları toy eləyəndə Aşıq Ələsgəri aparırdı. Ələsgərin aşıqlığı ilə bərabər, onun xasiyyəti, mərifət və qanacağı hamıya xoş gəlirdi. Onda bir xüsusiyyət də var idi ki, deməzdi bu ağadı, bu bəydi, bu rəncbərdi, bu varlıdı, bu kasıbdı... Kim onu toya, ayrı xeyir işə çağırırdısa, "yox" deməzdi. Odur ki, hamı onun xətrini çox istəyirdi.

Onu da deyim ki, Aşıq Ələsgər qırx yaşına çatmışdı, amma hələ evlənməmişdi. Səhnəbanıdan əli üzüləndən sonra elə bil baxtından küsmüşdü. Atası, anası, o biri qohumları nə qədər öyüd-nəsihət eləyirdilərsə də, beyninə batmırdı.

Bir gün Aşıq Ələsgər səfərdən qayıdanda, yenə qohum-qardaş başına yığıldı. O, səfərdə gördüklərindən danışdı. Sonra sazını götürdü qızlara, gəlinlərə dediyi tərifləmələrdən oxudu, hamıya ləzzət verdi.

Gecənin bir vaxtına qədər çaldılar, oxudular. Qonu-qonşu dağılıb evlərinə gedəndən sonra Alməmməd üzünü Ələsgərə tutub dedi:

– Oğul, sənin evlənmək vaxtın keçir. Aranı, dağı gəzirsən, nə qədər gözəl qız görürsən, çoxuna da tərifləmə deyirsən, gəl daşı ətəyindən tök, bu bəyəndiyin qızlardan birini al!

Ələsgərin anası Pərizad da Alməmmədin sözünə qüvvət verdi:

– Oğul, o biri qardaşların da böyüyüb. Sən evlənməsən, səndən keçib onlar da evlənməyəcək.

Alməmməd bir də dilləndi:

– Oğul, Allaha şükür, indi səni hamı tanıyır. Kimə ağız açsaq, kimin qızını istəsək, bizə "yox" deməz. Nə qədər adlı-sanlı adam varsa, o da bizlə qohum olmağı canına say bilər.

Ələsgər yenə ata-anasını cavabsız qoydu. Bircə bunu dedi ki, hələ evlənməyin vaxtı deyil.

Bir müddət də keçdi. Bir gün Kəlbəcərin Yanşaq kəndindən Söyün bəy adam göndərdi ki, Aşıq Ələsgər, xeyir isimiz var; xahiş eləyirik, sazını da götürüb gələsən!

Aşıq Ələsgər elə o günün səhəri tezdən həmin adamla bərabər Yanşağa yola düşdü.

Söyün bəy Göyçənin Zod kəndindən olan Səməd ağanın bacısı Xırda xanımın əri idi. O, Göyçəyə gələndə həmişə Səməd ağanın qonağı olardı. Səməd ağa da Aşıq Ələsgəri çağırtdırar, yaxşı bir məclis düzəldərdi. Söyün bəy Aşıq Ələsgəri çox xoşlayırdı.

Aşıq Ələsgərgil Yanşağa çatanda gördülər ki, Söyün bəy onların yolunu gözləyir. Xoş, beş, on beş... Görüşdülər, öpüşdülər...

Toy Söyün bəygilin qohumlarının idi. Toya hələ iki gün var idi.

Söyün bəy heyvan kəsdirdi, yaxşı çay-çörək hazır elədilər, dost-qohumları, qonu-qonşuları yığıldılar. Aşıq Ələsgər sazını götürdü, onlara yaxşı söhbət elədi, hamı razı qaldı.

Axşamdan bir az keçmiş qonu-qonşu hərə öz evinə getdi. Aşıq Ələsgərlə Söyün bəy söhbət eləyirdilər. Bir də gördülər ki, siçanlar evin künclərində o tərəf-bu tərəfə qaçışır. Söhbət dəyişildi siçanın üstünə. Xırda xanım da söhbətə qarışdı. Siçanların palazı, xalı-gəbəni, yorğan-döşəyi doğramasından, yağ dərilərini, motalı murdarlamasından, sandığın içində olan puxça paltarlarını külə döndərməsindən, kəndiləri deşib, taxılı daşımasından yanıqlı-yanıqlı şikayətləndi.

Doğrudan da, o ili bir Yanşaqda yox, elə hər yerdə siçan o qədər artmışdı ki, öhdəsindən gəlmək mümkün deyildi. Göyçədə də vəziyyət belə idi. Quyunun ağzını açırdılar ki, siçan taxılı yarıdan keçirib.

Birdən Aşıq Ələsgər gözünü gəzdirəndə gördü ki, pişik bir qədər aralıda oturub bunlara tamaşa eləyir. Dedi:

– Sizin bu pişiyiniz bəs nə iş görür ki, siçan bu qədər artıb?!

Söyün bəy dedi:

– Pişik gündə bir-ikisini öldürməklə başamı gələr? Çöllərdə də qarışqa kimidi. Bu il taxılın yarısı da ələ gəlmədi.

Gecədən xeyli keçmiş o biri evdə yer düzəltdilər ki, Aşıq Ələsgər yatsın. O, bir çimir almışdı-almamışdı baxdı ki, şıqqıltı gəlir. Fikir verəndə gördü ki, pişikdi. Burdan vurur, ordan çıxır, ordan vurur, burdan çıxır, o evə gedir, bu evə qayıdır... Xülasə, pişiyin şıqqıltısı-tıqqıltısı Aşıq Ələsgəri yatmağa qoymadı

Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açılanda Aşıq Ələsgər gördü ki, pişik gecə 18 siçan öldürüb, gətirib onun yatağının ayaq tərəfində cərgə ilə düzüb.

Aşıq Ələsgər bunu Söyün bəyə dedi. Söyün bəylə Xırda xanım gəlib baxdılar, məəttəl qaldılar. Xəbər qonşulara çatdı. Hamı gəlib baxdı,

pişiyin bu hərəkətinə təəccüb elədilər. Onlar pişiyin bu qədər siçan öldürdüyünə təəccüb eləmirdilər; ona təəccüb eləyirdilər ki, niyə cərgə ilə düzüb? Bir də niyə Aşıq Ələsgərin yerinin ayaq tərəfinə düzüb?

Söyün bəy dedi:

– Aşıq Ələsgər, indiyə qədər pişik niyə belə hünər göstərmirdi?! Öldürdüyü siçanları sənin yerinin ayaq tərəfinə düzməkdə onun məqsədi var.

Hamı gülüşdü.

Aşıq Ələsgər gördü ki, doğrudan da, pişiyə tərif yaraşır. Sazı götürdü, simlərin düzəltdi, tərifə başladı, görək necə başladı. Bu gecəki əhvalatı görək, necə nəzmə çəkdi. Biz də saz ilə deyək, şad olun.

Dad! Siçanın əlindən yetişmişik cana, pişik!
Dünyanı bizdən ötəri döndərib zindana, pişik!
Dağıdıb kəndiləri, dadanıb yaxdana, pişik!
Doğrayıb zər libası, eləyib əfsana, pişik!
Alagöz gəlinləri qoyub yana-yana, pişik!

Birisi boz dikqulaq, birisi qonur, balaca,
Dərmə-qayıq farmaşın hər yanından açıb baca,
Bezinən irəftardı, qumaşınan düşüb ləcə,
Harda görsə, zər, ziba, istifa, tirmə, alaca,
Biləsən nə hal kəsir döşəyə, yorğana, pişik!

Nə qədər əlləşirəm, bu məluna yoxdu çara,
Gündüzlər pünhan olur, gecələr çıxır aşkara,
Çırağı yandıranda qaçır, soxulur divara,
Dağıdıb quyuları, indi daraşıb anbara,
Müxtəsər, ruzumuzu döndəribdi qana, pişik!

O gödək, zalimü fasiq belə bir azar elədi,
Aləmə gen dünyanı bizdən ötrü dar elədi,
Hamı dərddən ziyada bu dərd mana kar elədi,
Dəldi yağ dərilərin, xumları murdar elədi,
Axşamadək evlərdə qurular zasdana, pişik!

Bu sözləri eşidəndə pişik bir tufan elədi,
Şeşəltdi bığlarını, gözləri rövşan elədi,

Ay qaranlıq gecədə yüz dəfə cövlan elədi,
Qisasa qisas aldı, bir qana yüz qan elədi,
Gördüm on səkkizini düzübdü yan-yana pişik.

Aşıq Ələsgər gördü ki, adamlardan bir az aralıda, divarın üstündə pişik rahatca əyləşib, saza qulaq asır. Aldı, görək bu dəfə nə dedi:

Yatmadım sübhə kimi, mən baxdım qilü-qalına,
Öyrənib xəsyətini, bələd olmuşam halına,
Ədəbinən əyləşibsən, səd afərin kamalına!
Aləmin padişahı dəstini çəkib dalına,
Qaynağın poladlanıb, dönübsən aslana, pişik!

Mən səni iyid bildim, verdim aran-dağı sana,
Alaçığı, ağ çadırı, eyvanı, otağı sana,
Müxtəsəri, vəssalam, budu sözün sağı sana:
Gözəllər əsirgəməsin pendiri, qaymağı sana,
Yeyəsən nəmilərdə, dönəsən sultana, pişik!

Söhbətə qulaq asanlardan biri dilləndi:

– Xırda xanım, Aşıq Ələsgər pişiyinizi belə ki, tərifədi, xələti nə olacaq?

– Evdə bir çıxarlıq göy mahud var. Onu xələt verirəm.

Aşıq Ələsgər dedi:

– O çıxarlıq mənim dediyim tərifin xələtidi. Ən böyük mükafatlar hünər göstərənindi. Söyün bəy dedi:

– Hünər göstərəni nə ilə mükafatlandırmaq olar?

– Onda qulaq as!

Aldı, görək Aşıq Ələsgər nə dedi, ordakılar nə eşitdi:

Xanım xələt bağışladı, Ələsgər yazdı dəftərə,
Göndərərəm tüllablara, məlum olsun hər şəhərə,
İyiddi, ölməyincə arxasını qoymaz yerə,
Pristav qubernata, qubernat yazsın sərdərə,
İnşallah, nişan verər sana divanxana, pişik!

Mənim əzizlərim, pişiyin tərifini eşidəndə, hamı Aşıq Ələsgərə dönə-dönə "sağ ol!" dedi. Aşıq Ələsgər sazı köynəyinə qoyanda qonum-qonşu da öz evlərinə getdi.

O günü axşam elədilər. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabahısı günü toy başladı.

Camaat bu iki gündə pişikdən, Aşıq Ələsgərin onu tərifləməsindən danışırdı. Axşam məclis qurulanda Aşıqdan xahiş elədilər ki, pişiyə dediyi tərifi oxusun. O, camaatın xahişini yerə salmadı.

Yanşaqda nə qədər adam varıydısa, bu məclisə cəm olmuşdu. Kişilər bir tərəfdə, arvadlar da bir tərəfdə əyləşmişdilər.

Ağsaqqalların məsləhəti ilə Aşıq Ələsgər Abbas Tufarqanlının dastanını başladı. Camaat elə diqqətlə qulaq asırdı ki, gecənin necə keçdiyindən xəbərləri olmadı. Bir də baxdılar ki, xoruz banladı. Aşıq Ələsgər söhbəti burda saxladı, qalanını sabah gecə danışacağını bildirdi.

Onu da deyim ki, Aşıq Ələsgər məclisə göz gəzdirəndə gördü ki, arvadların arasında, dirəyin yanında bir gözəl əyləşibdi, gəl görəsən.

Elə gözəl var ki, baxırsan camaldan yaxşıdı, amma duruşu, tərpənişi, baxışı bildirir ki, diyişdi. Aşıq Ələsgər gördü ki, bu gözəl o gözəllərə bənzəmir. Görkəmindən bilinir ki, qanacağı, mərifəti yerindədi.

Aşıq Ələsgərin fikrindən keçdi ki, bu gözələ bir tərif desin. Amma dastanın arasına belə söz salmaq istəmədi. Həm də Söyün bəydən onun kim olduğunu öyrənmək üçün tərifi o biri axşama saxladı.

Məclis dağılandan sonra Söyün bəy yenə Aşıq Ələsgəri evlərinə apardı. Aşıq Ələsgər gecə rahat oldu. Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah çay-çörəkdən sonra Aşıq Ələsgər Söyün bəyə dedi:

– Söyün bəy, maşallah, Yanşağın da qız-gəlinləri çox gözəldilər.

– Aşıq Ələsgər, bunlar ki, gözəldilər, bəs niyə birini təriflədin? Yoxsa tərifə layıq olanı yoxdu?

– Niyə yoxdu, var. Çoxusu tərifə layıqdı. Axşamkı məclisdə dirəyin yanında əyləşən gözələ də ki, heç söz ola bilməz. Duruşu, tərpənişi də xoşuma gəldi. Saza-söhbətə qulaq asmağından da gördüm ki, həm də əhlihaldı.

Aşıq Ələsgərlə Söyün bəyin danışığına qulaq verən Xırda xanım söhbətə qarışdı, üzünü Söyün bəyə tutub dedi:

– Anaxanımı deyir.

Söyün bəy də Xırda xanımın sözünü təsdiqlədi, sonra dedi:

– Anaxanım bu tərəflərdə bir gözəldi. Hayıf ki, yazığın baxtı gətirmədi.

– Nə olub?

– Bədbaxtı bir gözəl, qoçaq oğlana vermişdilər. Bir il çəkmədi, oğlan Allah rəhmətinə getdi. Ondan bəri də 3-4 ildi ki, neçə yerdən istəyirlər, baxtından küsüb, ərə getmək istəmir. Qardaşları, ata-anası nə qədər öyüd-

nəsihət eliyirlərsə də, qız elə dediyini deyir.

Söyün bəy belə deyəndə, Aşıq Ələsgərin öz baxtından küsdüyü yadına düşdü. Ata-anasının öyüd-nəsihətləri, yalvarışları gəldi durdu gözünün qabağında. Bircə bunu dedi:

– Söyün bəy, Anaxanımı qınama.

Bu söhbətdən sonra Anaxanım Aşıq Ələsgərin gözündə ucaldı, daha da gözəlləşdi...

Dastanın sonrasını eşitmək üçün camaat axşam olmağı gözlədi. Elə ki, şər qarışdı, camaat mal-heyvanını rahat elədi, yenə toy evinə toplaşdılar.

Aşıq Ələsgər gördü ki, Anaxanım yenə dünənki yerində əyləşib, Ay kimi işıq salır. Aşıq Ələsgər dastandan qabaq bir-iki qatar oxudu, sonra gözucu Anaxanıma bir də baxdı, aldı görək nə dedi, camaat nə eşitdi:

Bir sözüm var sana pünhan deməli,
Qail olsan, deyim, gül, sana qurban!
Nə müddətdi həsrətini çəkirəm,
Söyləyim, dərdimi bil, sana qurban!

Cünun olduğumu hər mahal bildi,
Dərd məni söylətdi, düşmanlar güldü,
Bivəfa qızlardan əlim üzüldü,
Eylərəm canımı, dul, sana qurban!

Bu bəndi deyəndə Söyün bəy də, Xırda xanım da başa düşdülər ki, Aşıq Ələsgər bu sözü Anaxanıma deyir. Anaxanım özü də bir şey hiss eləyən kimi oldu.

Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Ələsgəri gözdən qoyma irağa,
Konul tab gətirməz dərdi-fərağa,
Leyli kimi vədə versən bulağa,
Məcnuntək gözlərəm il, sana qurban!

Anaxanım yəqin elədi ki, Aşıq sözü buna deyir, həm də vəfalı olacağını bildirir.

Harda qalmışdısa, Ələsgər dastanı ordan başladı danışmağa. Camaat bir də gördü ki, yenə nağılın şirin yerində xoruz banaldı. Aşıq Ələsgər söhbəti dayandırdı, sabah gecə nağılı qurtaracağına söz verdi.

Məclis dağıldı, hərə öz evinə getdi.

Aşıq Ələsgərlə Söyün bəy evə gələndə Söyün bəy məsələni açdı:

– Aşıq Ələsgər, sən o sözü Anaxanıma dedin. O özü də bunu başa düşdü. Sən nə vaxta kimi subay qalacaqsan?! Fikrindən keçirsə, Anaxanım sana "yox" deməz. Qardaşları da canla-başla bu qohumluğa razı olarlar.

Aşıq Ələsgər dedi:

– Görək.

Aşıq Ələsgərlə Söyün bəyin bu gecəki söhbəti bu "görək"lə qurtardı.

Belə xəbər tez yayılan olur. Xırda xanım bu məsələni Anaxanıma çatdırdı. O, nə "hə", nə "yox" bir söz demədi. Bircə onu dedi ki, qardaşlarım bilər. Bu söz elə onun "hə" deməyi idi.

Axşam camaat yenə toy evinə yığışdı. Aşıq Ələsgər dastanı səhərə qədər söyləyib qurtardı, camaat çox razı qaldı.

Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah tezdən Söyün bəy Aşıq Ələsgəri çox hörmətlə yola saldı. Camaat nə qədər dövran pulu yığmışdısa, onu bilmirəm, Söyün bəy nökərinin qabağına beş erkək qatdı ki, bunu Göyçəyə – Aşıq Ələsgərgilə apar.

Aşıq Ələsgər Söyün bəyə əl verib xudafisləşəndə Söyün bəy dedi:

– Aşıq Ələsgər, Anaxanım kimi adam tapmaq çətindi. Yolunu gözləyəcəm.

Aşıq Ələsgər Yanşaqdan şad-xürrəm Göyçəyə qayıtdı. Yenə qohum-qardaş axşam onun başına toplaşdı. Yedilər, içdilər...

Aşıq Ələsgər həmişə səfərdən gələndə soruşurdular ki, təzə söz deyibsənmi? Əgər demiş olsaydı, həmin sözləri onlara oxuyardı. Bu dəfə başına toplaşanlara pişiyin əhvalatını danışdı, onun tərifini oxudu, xeyli gülüşdülər. Sonra qardaşı Məşədi Salah soruşdu:

– Ay qağa, ayrı söz demiyibsən?

Aşıq Ələsgər bir az duruxdu, dilini sürüyə-sürüyə "yox" dedi. Başa düşdülər ki, ayrı söz də deyibdi. Əl çəkmədilər. Anaxanıma dediyi sözü də dedirtdilər.

Alməmməd gördü ki, işlər düzəlib. Axşam qonu-qonşu öz evinə gedəndən sonra Alməmməd dedi:

– Oğul, Allaha şükür, görürəm ki, tərif dediyin qızı bəyənibsən.

Günü sabahdan bu işin dalına düşmək lazımdı.

Pərizad da ərinin sözünə qüvvət verdi. Aşıq Ələsgər daha dillənib bir söz demədi. Evin külfətinin hamısı şad oldu.

Bir müddət keçəndən sonra Alməmməd bir neçə adamla Yanşağa

getdi. Söyün bəyi də götürdü, özünü Anaxanımın atası Nəbi kişinin qapısına yetirdi.

Qonaqları çox yaxşı qarşıladılar, Anaxanımın "hə"sini verdilər.

Alməmməd kişi hazırlıq gördü, toy çaldırmasa da, "peyğəmbəri" qaydada yaxşı toy elədi, Anaxanımı Aşıq Ələsgərə gətirdi. Allah hamını öz arzusuna yetirsin!

Mənim əzizlərim, deyərlər ki, gəlinin günü qayınata evində nə qədər xoş keçsə də, yenə gözü bir müddət atası evində olar. Bir də deyirlər ki, "doğma yurd şirin olar". Anaxanım Yanşağı, qohum-qardaşını, bir yerdə gün keçirdiyi qız-gəlinləri bir gün də yadından çıxara bilmirdi.

Anaxanım Ələsgərə gəldiyi iki il yarım, üç il olardı. Belə bir az müddətdə Anaxanımın qohum-qonşu ilə, bir yerdə gün keçirdiyi qız-gəlinlərə görüşmək arzusunu bilən Aşıq Ələsgər onu bir neçə dəfə atası evinə aparmışdı, həftələrlə orada qalmışdılar.

Anaxanımın Yanşaqdakı qohumları, qardaşları – Rüstəm, Aslan, Kalvayı Zeynal onun xətrini çox istəyirdilər. Onlar da tez-tez Göyçəyə gəlib, bacılarına baş çəkirdilər.

Ağkilsə ilə Yanşağın arası bir günlük piyada yoludu. Hər saatlığına gedib-gəlmək də olmurdu. Qışda qar yolları bağlayanda dağlardan aşmaq hər oğulun işi deyildi...

Anaxanım Yanşağı yaddan çıxartmadığı kimi, onun qardaşları da Anaxanımı yaddan çıxarda bilmirdilər.

Bir gün Anaxanımın qardaşlarının fikrinə gəldi ki, Aşıq Ələsgər qış aylarının çoxunu aranda aşıqlıqda keçirir. Bizim də Göyçəyə gedib-gəlməyimiz çətinə düşür, bacımız darıxır. Yaxşısı budur ki, Ələsgərlə Anaxanımı köçürüb Yanşağa gətirək. Alməmməd kişinin evi Ələsgərsiz də dolanar.

Qardaşları fikirlərini Anaxanıma bildirdilər, Anaxanım da Aşıq Ələsgərə dedi. Ələsgər razılaşmaq istəmədi. Amma Anaxanım ona tez-tez ağız açırdı, dilə tuturdu, razı salmağa çalışırdı. Bir gün belə, beş gün belə, axırda Ələsgər razılaşmalı oldu.

Anaxanımın Niyar adlı bir qızı da var idi. Bir gün Kalvayı Zeynal Ağkilsəyə gələndə Ələsgərin razılığını bildi. Onlara kömək elədi, köçürdüb Yanşağa apardı.

Kalvayı Zeynal evlərinin bir gözünü Aşıq Ələsgərgilə verdi. Buranı səliqə-sahmana salıb, yaşamağa başladılar.

Aşıq Ələsgər əkin-biçin vaxtı əlini işdən üzmədi. O, qar işdə işləməsə, rahat ola bilmirdi. Yanşağa gələndən sonra da yer əkib-becərmək fikrinə düşdü. Anaxanımın qardaşları bunu biləndə Ələsgəri qınadılar, Rüstəm dedi:

– Allaha şükür, gül kimi sənətin var, əkin sənin nəyinə lazımdır?! Taxıl əkməsən, dolana bilməyəcəksən?!

– Əkinsiz də yaxşı dolanaram amma bir məsələ var ki, işləməsəm dura bilmirəm.

– Axı taxıl əkininin vaxtı keçibdi. Onda gərək darı əkəsən, darı əkininin vaxtına hələ var.

– Darı əkərəm.

– İndi boş yer hardadı ki, əkəsən?! Hamısını şumlayıb səpiblər.

– Özüm əkiləsi bir yer tapıb, orada qurdalanaram.

Rüstəm gördü ki, hardan deyir, Ələsgər ordan kəsir, daha söz güləşdirmək istəmədi. Bircə onu dedi ki, özün bilərsən.

Aşıq Ələsgər kəndin ətrafını dolandı, örüşü axtardı, axırda Yuxarı Yanşağın dəyirmanının qabağında əkiləsi bir yer seçdi. Başladı buranı ayaqla belləməyə. Axşamın, sabahın sərinində düz bir ay burada əlləşdi, yeri yaxşı şumladı. Sonra darını səpdi. Sığalladı. Ora sututası yer deyildi. Gördü ki, il quraq keçsə, darı yanacaq. Düşəri götürdü, başladı yuxarı tərəfdən, çaydan əkin yerinin üstünə arx çəkməyə. Darı göyərənə qədər on beş gün Fərhad kimi külüng vurdu, daşı, qayanı yardı, arxı da başa çatdırdı. Darı üzünü alandan sonra onu yaxşı suladı, arxayın oldu.

Toy eləmək istəyənlər Aşıq Ələsgəri Göyçədə axtarıb, Yanşaqda tapırdılar. Yaylaq vaxtı idi. Qaraqabaq camaatının çoxu xeyir işlərini yaylaqda keçirirdilər. Aşıq Ələsgəri toya aparırdılar. Xeyir işlər bir-birinin dalınca olurdu. Aşıq Ələsgər vaxt tapıb, evinə baş çəkə bilmirdi. Yaylağa çıxanlarda belə bir qayda var: hər kimin ki xeyir işi olasıdı, növbəyə qoyurlar.

Hamı bilir ki, filan ayın filan günü filankəsin xeyir işi olacaq. Daha heç kəs növbəni qabaqlaya bilməz.

Xeyir işlər bir-iki gün ara verəndə Aşıq Ələsgər evlərinə gəlirdi. Hər dəfə gələndə darıya baxmağı yaddan çıxartmırdı. Birində gördü ki, darı su istəyir, suladı. Bir dəfə gələndə gördü ki, hava yağarlıq keçdiyinə su istəmir, həm də elə gəlişib ki, elə bil Tanrı bunu qəsdən belə bitirib; heç kəsin zəmisi belə deyil.

Mənim əzizlərim, onu da deyim ki, Aşıq Ələsgər darı yerini şumla-

yanda yerin ortasında bir qozqara kötüyü var idi. Ağacı adamın dizi bərabəri yuxarıdan kəsmişdilər, o yenə şiv verib budaqlamışdı. Aşıq Ələsgər istədiyi müddətdə həmişə bu kötüyün kölgəsində çörək yeyib, qəlyan çəkib dincələrdi. Kötük həm də ona bir növ həyan olmuş, yoldaşlıq etmişdi.

Aşıq Ələsgər yenə gəlib kötüyün kölgəsində əyləşdi, bir qəlyan çəkdi, xeyli istirahət elədi. O, zəmidən ayrılmaq istəmirdi. Durub evə gələndə üzünü Qozqara kötüyünə tutub dedi:

– A kötük, darını sana tapşırıram, yaxşı gözlə!

Aşıq Ələsgər evə gələndə darının çox yaxşı gətirdiyini Anaxanıma da dedi və ona da tapşırdı ki, arada bir baxsın.

Aşıq Ələsgər yenə yaylaqlara qayıtdı. Toy sahibləri onu gözləyirdilər. Bir qədər keçəndən sonra Ələsgər Yanşağa gələndə Kalvayı Zeynalla birlikdə gedib darıya baxdı. Darı qarğı kimi durmuşdu. Kötüyün kölgəsində əyləşdilər, bir qədər söhbət elədilər. Kalvayı Zeynal dedi ki, darının vaxtına hələ on beş gün var.

Aşıq Ələsgər yenə yaylağa qayıtdı. On-on beş gün toy məclisləri keçirəndən sonra Yanşağa gələndə zəmiyə baxıb gördü ki, darı çarğat kimi qızarır. Yəqin elədi ki, yetişib. O, birdən-ikiyə darı əkib becərməmişdi ha, biləydi ki, yetişib, ya yetişməyib. Sən demə hələ yaxşı yetişməyibmiş.

Gecə qonu-qonşu Aşıq Ələsgərin başına toplaşdı. Aşıq Ələsgər yenə sazını götürdü, çaldı, oxudu, hamının qəlbini şad elədi. Sazı köynəyinə qoyanda cavanlardan xahiş elədi ki, darını biçmək üçün sabah köməyə gəlsinlər. Cavanların hamısı birağızdan dedilər ki, səhər tezdən bizi darı zəmisinin içində görərsən.

Hərə dağılıb öz evinə getdi.

Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah açılanda Aşıq Ələsgər Anaxanıma dedi:

– Xörək qayır, fəhlələrə aparım.

Anaxanım qazanı asdı, yaxşı bir plov bişirdi. Ələsgər xörəyi götürüb yola düşdü. Zəmiyə yaxınlaşanda gördü ki, cavanların hərəsi bir yumşaq daşın üstündə rahatca əyləşiblər. O elə başa düşdü ki, zəmini biçmək üçün haqq danışmadıqlarına görə cavanlar əllərini işə vurmaq istəmirlər. Aşıq Ələsgər gəlib çatdı.

– Salaməleyküm.

– Əleyküməsalam.

– Uşaqlar, niyə məəttəlsiniz?

Cavanların ağsaqqalı dilləndi:

– Ələsgər əmi, darı hələ göydü.

Aşıq Ələsgər darıdan bir sünbül qoparıb ovcunda ovxaladı, dəninə baxdı. Sonra yaxınlıqdan keçən bir kişiyə göstərdi. O kişi də dedi ki, göydü, beş-altı gün gözləmək lazımdı.

Aşıq Ələsgər süfrə açdı, cavanları məcburi süfrənin qırağında əyləşdirdi.

Onlar çəkinə-çəkinə plovu yedilər. Bayaqkı oğlan yenə dilləndi:

– Ələsgər əmi, nə zaman darını biçmək istəsən, biz hazır.

Cavanlar gedəndən sonra Aşıq Ələsgər darını yenə bir-iki adama göstərdi, hamısı dedi ki, göydü.

Aşıq Ələsgər qab-qazanı yığışdırıb, dəstərxanın arasına bağladı, götürüb evə qayıtdı.

Anaxanım soruşdu:

– Ələsgər, niyə tez qayıtdın?

– Biçəsi olmadıq.

– Niyə?

– Dedilər göydü.

– Kim dedi?

– Hər kimə göstərdimsə, dedi göydü. Beş-altı gündən sonra biçərik.

Aşıq Ələsgər yenə yaylağa qayıtdı.

Mənim əzizlərim, Aşıq Ələsgər yaylağa qayıtmaqda olsun, sizə Yanşaqdan deyim. Aşıq Ələsgər gedən günün səhəri Yanşağın yaylağından camaat mal-heyvanını da gətirib kəndə gəlməyə başladı.

Kənddə hamı arpa, buğda, darı zəmisini biçib, məhsulunu götürmüşdü.

Aşıq Ələsgər hamıdan gec əkdiyinə görə, bircə onun darı zəmisi bitili idi. Yaylaqdan gələn mal-heyvanın çoxu buraxma idi. Bir də baxırdın, qoyun-keçi özünü verdi darının içinə. Axşam kimin bir danası qapıya gəlmirdisə, gedib darının içində axtarırdı. İnsafı olanlar darının içində heyvan görəndə qovurdu. Bununla başamı gələrdi?! Gərək bir adam əlində ağac, gecə-gündüz darının yanında dayanaydı. Saxsağan, qarğa, siçan da bir tərəfdən öz işini görürdü. Xülasə, üç-dörd günün içində darıda tutar qalmadı.

Aşıq Ələsgərin bu dəfə yaylaqdan qayıtması düz bir həftə çəkdi; yeddi ötüb, səkkiz deyən günü Yanşağa gəldi. Çay-çörəkdən sonra Anaxanıma dedi:

– Gedim darıya baxım, görüm yetişibmi?

Aşıq Ələsgər uzaqdan zəmiyə baxanda gördü ki, darı heç əvvəlkinə oxşamır. Elə hesab elədi ki, yetişib deyə belə görünür. Gəlib çatanda gördü ki, darı nə gəzir, yel vurub, yengələr oynayır. Kosa saqqalı kimi bir dəstə burda qalıb, bir dəstə orda. Onların da çoxusunun başı yoxdu, quş aparıb...

Aşıq Ələsgər ordan kor-peşman evə qayıtdı. Anaxanım soruşdu:

– Ələsgər, darı biçiləsidimi?

– Darının əsl biçiləsi vaxtıdı.

– Sabah fəhlən olacaqmı?

– Fəhlə lazım deyil. Özüm tək bəsəm.

Anaxanım təəccübləndi:

– Onu tək biçib haqq eləyə bilərsənmi?!

– Əkəndə niyə tək əkə bilirdim?! Biçəndə tək biçə bilməyəcəm?!

Anaxanım gördü ki, yox, burda bir iş var. Ələsgər düzünü demir.

Bu dəfə yalvarıb soruşdu:

– Ələsgər, sən Allah, de görüm, nə olub?

– Əgər mana kömək eləmək istəyirsənsə, sabah kilimdən-zaddan götür, gedək darının yanına, orda bilərsən nə olub.

Anaxanım əl çəkmədi, Ələsgər darının başına gələn əhvalatı ona danışdı. Anaxanım çox peşmanladı. Bir azdan sonra dilləndi:

– Onda daha orya nəyə gedirik ki?!

– Yox, Anaxanım, gedib elə gələnini yığmasaq, başımıza qaxınc olar. Bu töhməti götürmək olmaz. Elə neçə ki dünya var, danışıb, üstümüzə gülərlər...

Anaxanım da hərdənbir gəlib zəmiyə baxırdı. Ağlına gəlməzdi ki, bu bir həftənin içində darı Ələsgər deyən kökə düşə. Səhər tezdən durdu, çörək-xörək hazır elədi, bir də bir kilim götürüb zəmiyə getdilər.

Anaxanım zəmini görəndə qurudu. Darı nə qədər yeyilmişdi, yeyilmişdi, qalanını da mal-heyvan çığnayıb yerə yapışdırmışdı. Biçiləsi deyildi, gərək yolunaydı.

Xülasə, darının biçiləsi yerlərini biçdilər, yolunası yerlərini də yolub, bir az dincələndən sonra kilimi sərdilər, darıdan dəstə-dəstə kilimin üstünə tökdülər. Ələsgər əlinə bir paya aldı, döyməyə başladı, döy ki, döyəsən. Anaxanım da döyməyə kömək elədi. Döyüb qurtarandan sonra sovurdular. Baxıb gördülər ki, az miqdarda məhsul oldu.

Aşıq Ələsgər qəlyanını doldurdu, gəlib Qozqara kötüyünün dibində

əyləşib çəkməyə başladı. Bir qədər fikrə gedəndən sonra gördü ki, yox, darının əhvalatı uzun haqq-hesab oldu. Ürəyinə bir neçə xana söz gəldi. Darı döydüyü payanı götürüb sinəsinə basdı, görək nə dedi, Anaxanım nə eşitdi. Biz də saz ilə deyək şad olun:

Arpadan, buğdadan çıxmışdı əlim,
Zəhmət çəkdim, dedim bir az darı olsun.
Yolmasın yolmaqdan qırıldı belim,
Bundan gələn xeyir zəhrimar olsun!

Aşıq Ələsgər bu bəndi deyəndə eşitdi ki, hardansa həzin səs gəlir. O tərəf-bu tərəfə diqqət eləyəndə gördü ki, Qozqara kötüyünün üstündəki şivlərdi. Yel əsdikcə onlar səslənirlər, özü də onlar elə-belə səslənmir, nə isə deyirlər. Aşıq Ələsgər fikir verəndə gördü ki, onun bu şikayətinə Qozqara kötüyü cavab verir. Görək necə cavab verir:

Aşıq, nə meydanı yalqız alıbsan,
Söz deyim, sözünə barabar olsun.
Nahaq qalı, ortalığa salıbsan,
Elə iş tut, ondan xeyir kar olsun!

**Aldı Aşıq Ələsgər:**

Belinən bu yeri əkdim bir ayda,
Sulamaqdan su da qalmadı çayda,
Biçdim, döydüm, darım oldu bir bayda,
Qoy söyləyim, mahallarda car olsun!

**Aldı kötük:**

Əfsana sözləri danışma barı,
Eşidənlər səni görərlər karı,
Sən orya sərmişdin bir istil* darı,
Umudluydun, ondan bir tağar* olsun?!

**Aldı Aşıq Ələsgər:**

Hər kimə göstərdim, dedilər göydü,
Eşidib bilənlər çox mana söydü.
Dən tutan yerlərin saxsağan döydü,

* İstil - bir girvəngə (400 qram)
* Tağır - yüz batman (600 kiloqram)

Qarğaynan siçanın üzü qara olsun!

**Aldı kötük:**

Eşidənlər qınamasın bizləri,
Sən də sal bordağa kal-öküzləri,
Qoş kotanı, çevirginən düzləri,
Günlüyün* birindən bir anbar olsun.

Aşıq Ələsgər gördü ki, kötük yaman haqlı söz deyir. Aldı sözün tapşırmasını:

Ələsgər, başına qəhətdi peşə?!
Darı əkib yeməyibsən həmişə,
Sazı bas sinənə, təcnisdən döşə,
Yığ ruzunu, verən ellər var olsun!

Görək Qozqara kötüyü sözünü necə tamamladı:

Qara kötük deyər, tükənsin sözün,
Bu ilki işlərdən nə qorxub gözün,
Bir qızındı, bir arvadın, bir özün;
Üç adamnan dünya sana dar olsun!

Aşıq Ələsgər də, Anaxanım da gördülər ki, Qozqara kötüyünün dediyi çox haqlı, həm də çox töhmətli söz oldu.

Aşıq Ələsgər öz ürəyində bir az özünü danladı. Axı bu zəhmətlə niyə darı əkirdin ki, başına da bu iş gəlirdi. Sənin nə dolanmaz başın vardı!..

Darı zəmisinin yanından evə gələn kimi Aşıq Ələsgər dedi:

– Anaxanım, hazırlaş!

– Ələsgər, nəyə hazırlaşım?

– Şələ-barxananı yığışdır, Göyçəyə qayıdaq!

Anaxanım Aşıq Ələsgərin sözünü daha çevirmədi. Ev-eşiyi yığışdırdılar, elə həmin günün səhəri köçüb Ağkilsəyə gəldilər.

Bundan sonra Aşıq Ələsgər harada toy eləyirdisə, darının əhvalatını danışdırıb, ləzzət alırdılar.

Allah heç kəsin zəhmətini itirməsin! Allah hamının öz qazancını özünə qismət eləsin! Allah heç kəsi öz doğma yurd-yuvasından eləməsin!

---

* Günlük – kotanla bir gündə şumlanan əkin sahəsi

# AŞIQ ƏLƏSGƏRLƏ ŞƏMKİRLİ AŞIQ HÜSEYNİN GÖRÜŞÜ

Mənim əzizlərim, sizə hardan xəbər verim, Azərbaycanın Şəmkir mahalından. Şəmkir mahalında kimdən, Şəmkirli Aşıq Hüseyndən.

Şəmkirli Aşıq Hüseyn çox qabil sənətkar idi. Onun bilmədiyi söz, öyrənmədiyi dastan yox idi. Aşıq Hüseyn Tufarqanlı Abbasa, Qurbaniyə, Xəstə Qasıma bərabər şair idi. Toy məclislərində aşıqların oxuduqları sözlərin çoxu Şəmkirli Aşıq Hüseyndən olardı. Aşıq Hüseyn həm də çox mərifətli, hər şeyin yerini bilən bir el ağsaqqalı idi. Hamı istəyirdi ki, onun toy şənliyini Aşıq Hüseyn yola salsın. Aşıq Hüseyn dastanları elə şirin danışır, sözləri elə məlahətlə oxuyurdu ki, onun məclisində olan cavanlar aşıq olmaq həvəsinə düşərdi. Aşıqlıq öyrənmək istəyənlər arzu eləyirdilər ki, nə olaydı, nə olaydı, Şəmkirli Aşıq Hüseynə şəyird olaydı. Ermənilərdən də bir çox cavanlar Aşıq Hüseynə şəyird olmağa çalışırdılar...

Şəmkirli Aşıq Hüseynin vaxtında Göyçə aşıqları məclislərdə ən çox Aşıq Ələsgərin sözlərindən oxuyurdular. Şəmkir, Qazax, Şınıx mahallarına gedən Göyçə aşıqlarından məclisdəkilər xahiş eləyirdilər ki, bir söz başqa aşıqdan oxuyanda birini də Aşıq Ələsgərdən oxusunlar. Aşıq Ələsgərin sözləri Azərbaycan torpağının hər tərəfinə yayılmışdı.

Şəmkirli Aşıq Hüseyn də Aşıq Ələsgərin sözlərini eşitdi: gördü ki, çox qiyməli sözlərdir. Onun təcnisləri Aşıq Hüseyni elə tutdu ki, onlardakı ustalığa heyran qaldı. Dodaqdəyməzlərini eşidəndə hələ heç bir aşıqda rast gəlmədiyi belə sözlər Aşıq Hüseyni heyrətə saldı. Özü də bu cür sözlər düzəltdi və gördü ki, bu, çox çətin işdir, hər aşıq bunu bacarası deyil. Odur ki, Aşıq Ələsgərlə görüşmək həvəsinə düşdü.

Amma xeyli müddət gözlədi, Aşıq Ələsgərin yönü Şəmkirə düşmürdü ki, görüşələr.

O vaxt Göyçə mahalında Alı, Ələsgər, Məhərrəm, Musa, Alışan, Qəhrəman, Qasım, Mehdi, Qulu, Qurban, Nəcəf, Əsəd, Yunus kimi adlı-sanlı aşıqlar var idi. Bunların hamısı ustada qulluq eləmiş, aşıqlıq elmini tamam-kamil öyrənmişdilər. Amma Göyçədə eləleri də var idi ki, öz-özünə saz çalmağı öyrənmişdi və bir neçə qatar da söz əzbərləyib, ortalığa düşmüşdü ki, mən də aşığam. Belə aşıqlardan bir də Hüseynquluağalı Aşıq Mikayıl idi.

Aşıq Mikayıl üç-dörd il idi ki, saz götürüb aşıqlıq eləyirdi. Ancaq Göyçədə şətəli o qədər də işləmirdi. Tanınmaz yerlərə gedər, səsinə güc

verər, qəpik-quruş yığardı.

Bir gün Aşıq Mikayıl yenə sazını götürüb o kənd mənim, bu kənd sənin, gəzə-gəzə gəlib Gədəbəyə çıxdı. Bir toy məclisində Aşıq Mıqıçla rastlaşdılar.

Aşıq Mıqıç Şəmkirli Aşıq Hüseynin şəyirdi idi. O, Şəmkir mahalının Çardaxlı kəndindən idi. Erməni olsa da, türkcə çox düzgün və gözəl oxuyurdu. Amma onda bir xasiyyət var idi ki, tanımadığı aşıq görəndə pisikdirməyə çalışardı.

Aşıq Mıqıç bir məclisdə bir-iki qatar oxuyandan sonra ustadının bir bağlamasını dedi və Aşıq Mikayıldan tələb elədi ki, cavabını versin.

Mikayıl qaldı məəttəl, nə qədər fikirləşdisə də, bir yana yoza bilmədi.

Mıqıç Mikayılın sazını aldı, dedi:

– Nə zaman bağlamanı açdın, onda gəlib sazını apararsan!

Mikayıl bağlamanı ordakıların birinə yazdırıb, cibinə qoydu, kor-peşman Göyçəyə qayıtdı. Evə gələndən sonra da nə qədər fikirləşdi, bir şey çıxmadı. Dost-tanışına üz tutdu, bağlamanı aça bilmədilər. Elə hesab elədilər ki, dolaşdırmadı, sözün kökü yoxdu. Mikayılın əlacı kəsildi, Aşıq Ələsgərin yanına gəldi. Aşıq Ələsgər elə hesab elədi ki, Mikayıl ona şəyird olmağa gəlib. Çay-çörəkdən sonra Aşıq Ələsgər soruşdu:

– Mikayıl, nə yaxşı gəlibsən?

Mikayıl başına gələni olduğu kimi danışdı. Aşıq Ələsgər onu bir az danladı ki, niyə aşıqlığı ustaddan öyrənməmiş çöllərə düşüb, özünüzü də, Göyçəni də biabır edirsiniz?! Mikayıl dilləndi:

– Ələsgər əmi, bu, bağlama deyil, ağlına gələni yalandan quraşdırıb. Sözün kökü yoxdur, dolaşdırmadır.

Mikayıl kağızı cibindən çıxarıb, Aşıq Ələsgərə verdi. Aşıq Ələsgər üzünü oğlu Bəşirə tutdu:

– Oğul, al, oxu görüm.

Bəşir kağızı oxumağa başladı. Biz də sazla oxuyaq, şad olun:

Bir gün bir heyvanat gördüm, zənbur kimi şan verir,
Xörəyi yük ilə gəlir, nəfəsi duman verir,
Dindirirsən danışmağa, nalə çəkir asmana,
Nə yerdədi, nə göydədi, sədri üstə yan verir.

Bir başı var, bir ayağı, gör neçə barmağı var?
İki qolu, bir boğazı, tək bircə dodağı var,

Əyləşibdi bir məqamda, hər yanda oylağı var,
Qoy eşitsin, hamı bilsin, hər gələnə nan verir.

Gəl biçarə Aşıq Hüseyn, qıl sözünü müxtəsər,
Onun abı gur gələndə olur dəli, dəngəsər,
Eşidənlər, fikir verin bu sözümə sərbəsər,
Əgər ki ağam olmasa, sidqinə güman verir.

Mənim əzizlərim, elə ki söz qurtardı, Aşıq Ələsgər üzünü Mikayıla tərəf tutub, acıqlı-acıqlı dilləndi:

– Sən deyirsən bu sözün evi yoxdur! Ustada belə qiymət verirlər?! Gör sadə bir şeyin üstündə nə gözəl bağlama düzəldib!

– Ələsgər əmi, sən Allah, nəyin üstündə düzəldib?

Aşıq Ələsgər Mikayıla cavab vermədi. Sazı dirəkdən endirib köynəyindən çıxardı, zilini zil, bəmini bəm elədi, düzəltdi. Bəşirə dedi ki, kağız-qələm gətir. Bəşir kağız-qələm gətirdi. Aşıq Ələsgər sazı sinəsinə basdı. “Osmanlı divanisi” havası ilə görək nə dedi, Bəşir nə yazdı. Biz də sazla deyək şad olun:

Gələndə ustad kəlamı, köhnə yaram qan verir,
Mövcə gəlir bəhri-çeşmin, qətreyi-baran verir,
Dənəni torpaq içində göyərdir kanı-kərəm,
Bir mələk müqərrər olmuş, bizlərə ərzan verir.

Aşıq Ələsgər üzünü Bəşirə tutub dedi:

– A bala, yazdınmı?

– Ay dədə, yazdım.

Aşıq Ələsgər aldı o biri bəndini:

Anlamaz, nadan eşitsə, deyər hədyandı bu söz,
Əhli-irfan məclisində ləlü-mərcandı bu söz,
Müxtəsəri, türkü-zəbam, bil, “dəyirmandı” bu söz,
Ab şəcərə, ahən səngə, gör neçə cövlan verir.

Mikayıl dilləndi:

– Ələsgər əmi, fikirləşdim, çox fikirləşdim, amma dəyirman heç ağlıma gəlmədi.

– Səndə ağıl var ki, ağlına da gələ!

Aşıq Ələsgər aldı sözün o biri xanəsini:

Şindandan dən gəlməyəndə, düşər bir qeyri hala,
Dahanından ataş qalxar, ah çəkər, eylər nala,

Qəzəbindən ləngər verər həm qabağa, həm dala,
Hay verdikcə aloy səpir, dud qalxar, duman verir.

Mikayılın əl-ayağı yerə dəymirdi. Bu bəndi eşidəndə dilləndi:

– Sağ ol, Ələsgər əmi!

Aşıq Ələsgərin Mikayıla bərk acığı tutmuşdu. Onun təlim-tərbiyəsiz saz götürüb aşıq sənətini biabır eləməsini Aşıq Ələsgər heç cür bağışlaya bilmirdi. Mikayılın ona "sağ ol!" deməsindən də acığı gəlirdi. Əgər evi olmasa idi, ona bir-iki çırpardı da...

Aşıq Ələsgər aldı sözün o biri xanəsini:

Haydı kola, xınzır oğlu, şindi durma qarşıda!
Paşol, molçi! İdi, durak! Səni verrəm padsuda!
Oxuram "İnna fətəhna", mətləb allam yuxuda,
Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.

Soruşur Aşıq Ələsgər; dərsi kimdən almısız?
Əbəs yerə saz götürüb, elə qovğa salmısız,
Üç kəlmə sözdən ötəri siz ki mətəl qalmısız,
Nahaqdı qürbət vilayət, sizlərə dövran verir.

Bəli, mənim əzizlərim, elə ki, söz tamama yetişdi, Mikayıl söyüşü, hədə-qorxunu eşitməzliyə vurdu. Sözün üzün köçürtdürüb cibinə qoydu.

Elə bil ki, dünyanı buna bağışlamışdılar.

Aşıq Ələsgər soruşdu:

– Mikayıl, bu sözü götürüb nə edəcəksən?

– Aparıb Mıqıça verib, sazımı alacam.

– Bundan sonra yenə aşıqlıq edəcəksən?

– Bəli, edəcəyəm.

– Yox, sənin aşıq olmağına hələ çox var. Get bir ustada qulluq elə, bilmədiklərini öyrən, kəm-kəsirini düzəlt.

– Kimin yanına getdim, şəyird götürmədi.

Aşıq Ələsgər bir az yumşaldı:

– Səndə ki aşıqlığa həvəs var, mən öyrədərəm. Get sazını al, qayıdanda mənim yanıma gələrsən.

Mikayıl sevinə-sevinə evlərinə getdi. Səhər tezdən yol başladı Çardaxlıya. İki günə gəlib Çardaxlıya yetişdi. Soruşub Mıqıçın evini tapdı. Qonşuluqdan bir oğlan gedib Mıqıçı çölə çağırdı. Mıqıç çölə çıxanda gördü ki, Mikayıl gəlib. Əlindən tutub əhvalını soruşdu, evə təklif elədi. Mi-

kayıl evə getmək istəmədi. Qonum-qonşu məsələdən hali oldu ki, Mıqıçın bağladığı aşıq gəlib. Bir göz qırpımında burya bir məclisin adamı toplaşdı. Qonşuluqdan ağsaqqal bir erməni Mikayılı da, Mıqıçı da evlərinə apardı. Mikayıl kağızı çıxartdı. Oxudular, gördülər ki, Mıqıç məclisdə oxuduğu bağlamanın cavabıdır. Özü də çox ustalıqla açılıb. Mıqıç Mikayılın sazını özünə qaytarmaq istəmədi, dedi:

– Bağlamanı sən açmış olsaydın, sazını verərdim. Aşıq Ələsgər açıb, sazı verməyəcəm.

Mıqıç belə deyəndə həmin ağsaqqal erməni işə qarışdı:

– Aşıq Mıqıç, bağlama sənin olsaydı, sən deyən idi. Bağlama özgənindi, o da gedib özgəyə açdırıb. Oğlanın sazını ozünə ver.

Aşıq Mıqıç gördü ki, bu, çox tutarlı söz oldu. Dillənməzcə Mikayılın sazını özünə qaytardı.

Mikayıl sazını götürüb, birbaş Göyçəyə gəldi. Gələn kimi özünü Aşıq Ələsgərin yanına yetirdi. Aşıq Ələsgər Mikayılı yanında şəyird saxladı.

Mənim əzizlərim, Mikayıl Aşıq Ələsgərin yanında şəyird qalmaqda olsun, sizə deyim Şəmkirli Aşıq Hüseyndən. Mıqıç sözü götürdü, ustadının yanına getdi. Məsələni Aşıq Hüseynə danışdı. O, bu işə görə Mıqıçı bir az danladı. Sonra bağlamanın açmasını oxutdurdu.

Mıqıç elə hesab edirdi ki, ustadı bağlamanın açılmasına pərt olacaq. Amma belə olmadı; Aşıq Hüseyn bu cavabdan razı qaldı. Mıqıça dedi ki, Aşıq Ələsgər bağlamanı çox gözəl və düzgün açıb. Aşıq Hüseyni razı salan bir də o idi ki, Aşıq Ələsgər özündən yaşca böyük olan ustada ehtiram göstərmiş, onun bağlamasını ləl, mərcan kimi qiymətləndirmişdi.

Aşıq Ələsgərin bu mərifəti Aşıq Hüseynin onunla görüşmək həvəsini bir qədər də artırdı.

Aşıq Hüseyn çox arzu edirdi ki, Aşıq Ələsgər Şəmkir tərəfə gəlsin, görüşsünlər. Amma Aşıq Ələsgər gəlmirdi ki, gəlmirdi...

Aşıq Hüseynin səbri kəsildi. Bir istədi ki, kağız göndərib, Aşıq Ələsgəri çağırtdırsın, amma bu fikirdən tez əl çəkdi. Ona görə ki, bağlamanın açılmasından sonra çağırtdırmaq onu meydana çağırmaq kimi başa düşülərdi. Çox götür-qoydan sonra belə qərara gəldi ki, özü Aşıq Ələsgərlə görüşə getsin.

Bəli, mənim əzizlərim, payız getdi, qış gəldi, qış hərləndi yaz oldu. Günlərin bir günü Aşıq Hüseyn atını mindi, sazını da çiyninə saldı, Göyçəyə yola düşdü. Gəlhagəl, gəlhagəl, axşamtərəfi gəlib Ağbulaq kəndinə

yetişdi. Ağbulaq kəndində Aşıq Hüseyni tanıdılar. O gecə onu saxladılar, yaxşı söhbət elətdirdilər. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah Aşıq Hüseyn yola düşəndə Kalvayı İrvaham soruşdu:

– Aşıq Hüseyn, Allah qoysa, səfərin harayadır?

– Aşıq Ələsgərlə görüşməyə gedirəm.

– Xahiş edirəm, qayıdanda bizi görməmiş olma!

– Baş üstə!

Səhər tezdən Aşıq Hüseyn Göyçə dənizinin kənarı ilə yol başladı Ağkilsəyə.

Dağ otu biçilirdi. Aşıq Ələsgər də biçinə gedirdi. Bu gün o, biçinə getmədi. Arvadı Anaxanım onun yanına gəlib dedi:

– A kişi, camaat biçinə getdi, sən niyə yubanırsan?

– Arvad, mən bu gün getməyəcəm.

– Niyə?

– Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

Anaxanım daha bir söz soruşmadı. Başladı ev-eşiyi səliqəyə salmağa. Aşıq Ələsgər qardaşı Məhəmmədi yanına çağırıb dedi:

– Məhəmməd, durma, get yaylaqdan heyvan gətir.

– Ay qağa, xeyirdimi?

– Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

– Ay qağa, kim dedi?

– Yuxuda görmüşəm. Sən durma, get heyvan gətir. Gerçək olar, qonağımıza kəsərik, qonaq gəlməsə, özümüzə kəsərik.

Məhəmməd atı mindi, heyvan gətirməyə getdi.

Aşıq Ələsgər qapı-bacada hərlənib, qonağın yolunu gözləməyə başladı. Bir də gördü ki, Zod yolu ilə bir atlı gəlir. Atlı gəlib kəndə yaxınlaşanda yolun qırağında yer sulayan Məşədi Paşanın yanında dayandı. Nə danışdılarsa, Məşədi Paşa əlini kəndə tərəf uzatdı. Sonra atlı yenə yoluna davam elədi. Aşıq Ələsgərin ürəyinə damdı ki, Aşıq Hüseyn olacaq. Damın üstündən aşağı düşdü, qonağı qarşılamaq üçün yola tərəf getdi. Qarama deyilən suyun yanında bir-birinə çatdılar.

Aşıq Ələsgər gördü ki, boz atlı, qara yapıncılı, sarıyağız, qırmızı saqqal, üzündə tək-tək çopuru olan bu nurani kişi həmin yuxuda gördüyü adamdır. Aşıq Hüseyn dilləndi:

– Salaməleyküm, ay Aşıq Ələsgər!

– Ələyküməsalam, ay Aşıq Hüseyn!

– Əyə, xalası göyçək, sən nə bildin ki, mən Aşıq Hüseynəm?

– Bacısı göyçək, bəs sən mənim Aşıq Ələsgər olduğumu nədən bildin?

– Mən iki gündür, soraqlaşa-soraqlaşa gəlirəm. İndi də o yer sulayan qonşundan soruşdum, dedi ki, o ev Aşıq Ələsgərin evidir, damın üstündəki də Aşıq Ələsgərdir.

– Sənin də gələcəyini mənə demişdilər.

Aşıq Hüseyn təəccübləndi. Aşıq Ələsgərlə görüşəcəyi barədə Zodda bir söz deməmişdi. Ağbulaqla Ağkilsənin arası da birgünlük yoldur. Bəs bu xəbəri Aşıq Ələsgərə kim gətirmiş olar?!

Aşıq Hüseyn atdan düşdü, görüşdülər, öpüşdülər...

Aşıq Ələsgərlə Aşıq Hüseyn danışa-danışa evə tərəf gəlməyə başladılar. Bunlar qapıya çatanda Məhəmməd də çatdı. Məhəmməd əlini Aşıq Hüseynə uzatdı:

– Hüseyn əmi, xoş gəlibsən!

– Xoşbəxt olasan! A bala, sən mənim "Hüseyn əmi" olduğumu haradan bildin?

– Vallah, Hüseyn əmi, qağam dedi ki, Şəmkirli Aşıq Hüseyni yuxuda görmüşəm, bizə qonaq gələcək. Bu heyvanı da ona görə gətirtdirdi.

Aşıq Hüseyn şübhədən çıxdı, daha heç bir söz demədi. Məhəmməd heyvanı kəsdi, soymağa başladı. Aşıq Ələsgərlə Aşıq Hüseyn evə keçdilər. Çay-çörək hazırlandı. Yedilər, içdilər. Axşam oldu. Camaat Aşıq Hüseynin gəldiyini eşitdi. Aşıq Ələsgərin evində məclis quruldu.

Bir qədər keçəndən sonra Aşıq Hüseyn dedi:

– Aşıq Ələsgər, sazını götür, bir-iki qatar oxu.

– Ay Hüseyn əmi, camaat mənim oxumağımı çox görüb. Bu gün sənin səsini eşitmək üçün buraya yığılıbar. Yaxşı olar ki, özün bir-iki kəlmə deyəsən.

– Aşıq Ələsgər, camaat mənim səsimi eşitmək istəyirsə, mən də sənin səsini eşitmək istəyirəm. Gəl ikimiz də oxuyaq. Məclisdəkilər bu təklifə çox razı qaldılar. Aşıqlar sazlarını götürdülər, çalıb-oxumağa başladılar. Ustad aşıqların sözlərindən bir qədər oxuduqdan sonra Aşıq Hüseyn dedi:

– Aşıq Ələsgər, sənin yaxşı-yaxşı sözlərin gəlib qulağıma çatıb.

Bir az da özündən oxu.

– A Hüseyn əmi, sənin kimi ustadın yanında üzə çıxası elə sözüm yoxdu. Sən öz sözlərindən oxusan, bizim üçün çox xoş olar.

– Eləsə ikimiz də özümüzdən oxuyaq.

Aşıq Ələsgər başa düşmüşdü ki, Aşıq Hüseyn bunun şələsini yoxlamağa gəlib. Yoxlamamış əl çəkməyəcək. Odur ki, dedi:

– Hüseyn əmi, məsləhət sənindir.

Aşıq Hüseyn aldı, görək nə dedi, məclisdəkilər nə eşitdi:

Analar oğlan doğanda qoy doğsun oğlanı mərd,
Atası kamil olan tez tapar dövranı mərd,
Axşamadək ac da qalsa, bir tikə yalqız yeməz,
Gedəni yoldan qaytarar, xub saxlar mehmanı mərd.

Aşıq Hüseyn sözü dilcavabı deyəndən sonra Aşıq Ələsgər dedi:

– Hüseyn əmi, mənim də bu qafiyədə "Mərd" sözüm var. İcazə versən, mən də onu oxuyaram.

– Çox şad olaram, buyur.

Aldı Aşıq Ələsgər:

Altı gündə xəlq eylədi aləmi Sübhanı mərd,
Aya, Günə qərar qoyub, dolanır dünyanı mərd,
Məhəmməd şəninə endi doxsan min kəlmə tamam,
Osman yığdı, cəm eylədi otuz cüz Quranı mərd.

**Aldı Aşıq Hüseyn:**

Bir mərd ilə ülfət qılan axır bir gün mərd olu,
Namərd ilə ülfət qılan çöl-biyaban gərd olu,
Namərd bir mehman görəndə iki gözü dörd olu,
Mərd çəkər alar əlindən, gen açar süfranı mərd.

**Aldı Aşıq Ələsgər:**

İbrahimi-Xəlilullah əhd-peyman eylədi,
Çıxartdı Mina dağına, oğlun qurban eylədi,
Həcər yandı, nalə çəkdi, ahü-fəğan eylədi,
Barilahim kərəm qıldı, göndərdi qurbanı mərd.

**Aldı Aşıq Hüseyn:**

Aşıq Hüseyn deyər, namərd binişan olu,
Bir məclisdə namərd olsa, məclis pərişan olu,
Mərd bir məclisə varanda məclis ürövşan olu,

Hər yerdə bir xanə yapar, gəşt eylər cahanı mərd.

**Aldı Aşıq Ələsgər:**

Ələsgər adın qurbanı, ya Məhəmməd Mustafa!
Şəninə ayə xətm oldu, “Həl-Əta”san, “Qul kəfa”,
Dinini aşkar eylədi, münkirə verdi cəfa,
Qılıncı mərd, qüvvəti mərd, atı mərd, meydanı mərd.

Sözlər tamam olanda Aşıq Hüseyn dilləndi:

– Sağ ol, Aşıq Ələsgər! Sözün çox xoşuma gəldi. Qiymətli sözdür.

– Hüsyen əmi, sənin sözünün isə heç əvəzi yoxdur. Mənim sözüm hara, sənin sözün hara?! Mənim sözüm mollalardan eşitdiyim hədisdir, amma səninki ustadnamədir, nəsihətdir.

Aşıq Hüseyn başqa bir söz başladı. Aşıq Ələsgər də həmin qafiyədə ona münasib söz oxudu. Sonra üçüncüsünü, dördüncüsünü... hər iki aşıq bir-birin sözlərini tərifləyə-tərifləyə 7-8 qatar özlərindən söz oxudular. Hər dəfə Aşıq Hüseyn sözün birinci bəndini deyəndən sonra Aşıq Ələsgərdən soruşurdu ki, bu qafiyədə də sözün varmı? Aşıq Ələsgər deyirdi ki, var. Aşıq Hüseyn yəqin elədi ki, Aşıq Ələsgər sözlərin çoxusunu buradaca bədahətən dedi.

Camaat çox diqqətlə qulaq asırdı. Axşama qədər ot biçən adamların yorğunluğundan əsər-əlamət qalmamışdı. Aşıq Hüseyn üzünü Aşıq Ələsgərə tutub dedi:

– Aşıq Ələsgər, sənin dodaqdəyməz sözlərini də eşitmişəm. İndiyə qədər heç bir aşıqda belə sözlər yoxdur. Söz deyəndə dodaqların bir-birinə dəyməməsi çox çətin işdir. Mən də belə bir söz düzəltmişəm. Gör xoşuna gəlirmi?

– Hüseyn əmi, bizim üçün çox xoşdur, buyur.

Aşıq Hüseyn indiyə qədər heç kəsin yanında oxumadığı “Ay eylər qıj-qıj” dodaqdəyməz təcnisini oxumağa başladı, görək necə başladı.

Deyək, şad olun:

Qış çilləsi, Xıdır İlyas gələndə,
Hərlənər gərdişi, ay eylər qıj-qıj,
Qış ayından yaz ayına keçəndə,
Ərşdən neysan yağar, ay eylər qıj-qıj.

Aşıq Hüseyn sözü dilcavabı deyəndən sonra Aşıq Ələsgərdən soruşdu:

– Aşıq Ələsgər, buna oxşar sözün yoxdur ki?

– Hüseyn əmi, bu sözünü də aşıqlardan eşitmişdim. Çox xoşuma

gəldi. İstəmədim ki, tək oxuna; bunu da cütləmişəm. İcazə versən oxuyaram.

Aşıq Hüseyn az qaldı ki, Aşıq Ələsgərin yalanının üstünü aça. Deyə ki, bu söz hələ heç kəsə məlum deyil. Birtəhər özünü saxladı. Ürəyində gülümsünüb dedi:

– Əgər cütləmisənsə, oxumağın çox yaxşı olar.

Aşıq Ələsgər sazı sinəsinə basıb başladı, görək necə başladı:

Qeyz eyləyər, çən çəkilər dağlara,
Qəhrindən yelləri ay eylər qıj-qıj.
Qarşı gəlsə həsrət çəkən yar yara,
Ağlı çaşar, səri ay eylər qıj-qıj.

**Aldı Aşıq Hüseyn:**

Acıqlandın əğyara: – Nəsən ki?!
Eşqin artdı, hey yanınan, nə səngi,
Ağılkarlar qayıranda nə səngi,
Ayaqda şəcəri ay eylər qıj-qıj.

**Aldı Aşıq Ələsgər:**

Şin şəhər axtarar, şəcarə dəyər,
Şeytan şər eyləyər, şəc ara dəyər,
Daşar çaylar, qalxar şəcarə dəyər,
Hərlənər daşları, ay eylər qıj-qıj.

**Aldı Aşıq Hüseyn:**

Ağılkarlar hey çəkərlər xəyatı,
“Hey” “yeyinən” al dərsini xəyatı,
Sədairlər qayırarlar xəyatı,
Çarx hərlənər, səsi ay eylər qıj-qıj.

**Aldı Aşıq Ələsgər:**

Aşıq çaşsa, dildə qara qar qalar,
Dağlar sinəsində qara qar qalar,
Gəştə çıxsa ərşə qara qarğalar,
Çalar qanadların, ay eylər qıj-qıj.

**Aldı Aşıq Hüseyn:**

Yeri sən canana qarşı gələndə,
Saxla sədaqəti qarşı gələndə,
Aşıq Hüseynin yarı qarşı gələndə,
Ağılı sərindən ay eylər qıj-qıj.

**Aldı Aşıq Ələsgər:**

Yazıq Ələsgər, əlin yetsə nə nara,
Nə həsrət çək, nə ah eylə, nə nara,
Nə insandı səngi salır nə nara,
Qaynadar dəryatək ay eylər qıj-qıj.

Gecə yarıdan keçmişdi. Camaat söhbətdən ayrılmaq istəmirdi. Aşıq Hüseyn Aşıq Ələsgərə dedi:

– Aşıq Ələsgər, bir dodaqdəyməzim də var. Onu da eşitmək istəyirsənmi?

– Hüseyn əmi, sənin sözlərin bir-birindən gözəldir. Görürsən də! Camaat sabah işə gedəcəyini də yaddan çıxardıb. Hamı səni eşitmək istəyir.

Aldı Aşıq Hüseyn, görək bu dəfə nə dedi, məclisdəkilər nə eşitdi. Deyək şad olun:

Sən şəyirdsən, hey deyirlər: – Dərs al ərkandan, gədə!
Həqiqətdən dişarısan, keçirsən yandan, gədə!
Aşıq isən, saz çalırsan, şər ilə işin nədir?!
Dəryalardan xərac alsan, həya qıl kandan, gədə!

Aşıq Hüseyn bu bəndi deyəndən sonra üzünü yenə Aşıq Ələsgərə tutdu:

– Aşıq Ələsgər buna oxşar sözün varmı?

– Hüseyn əmi, var.

– Onda de gəlsin!

**Aldı Aşıq Ələsgər:**

Gizli sirrin nahaq yerə gizlətdin xandan, gədə!
Ah çəkər, nalə eylərsən, can gedər candan, gədə!
Etiqadla, sidq dillə çağır şahlar şahını,
Nahaq işdi, dilək dilər insan insandan, gədə!

**Aldı Aşıq Hüseyn:**

Səyyad isən, seyrə çıxsan, gəşt elə dağlara sən,
Eşq əhlisən, axtargınan yetişəsən yara sən.

Eşq ataşı canda getsin getsən hər diyara sən,
Arı təki hey sızılda, şirə çək şandan, gədə!

**Aldı Aşıq Ələsgər:**

Al çətirin, çıx səhraya, sal sərinə sayə, gəz,
Qədər sənlə gəzəcəkdir, istər gir dəryaya gəz,
Sakin əyləş sin içində, həqiqətdən ayə gəz,
Ağ eylə sinən aynasın şəri-şeytandan, gədə!

**Aldı Aşıq Hüseyn:**

Hüseyndən kənar hərlən, səni salar əngələ,
Yenə dağlar nalə çəkir, çiskin gələ, çən gələ,
Əzrayıl nər kişidi, sinən çəkər çəngələ,
Keçərsən xirdar əlinə, addadar sandan, gədə!

**Aldı Aşıq Ələsgər:**

Ələsgərnən danışanda, al əlinə saz, danış,
İnci, səni istəyənlə, eylə ərki-naz, danış,
Əyləşəndə ağır əyləş, danışanda, az danış,
Eşidənlər "əhsən!" desin sana hər yandan, gədə!

Sözlər tamama yetişəndən sonra Aşıq Hüseyn üzünü camaata tutub dedi:

– Camaat, icazə versəniz, söhbətimizi qurtararıq. Siz də işdən gəlibsiniz, sabah da işə gedəcəksiniz.

Ağsaqqallardan biri dilləndi:

– Bəs Aşıq Hüseynlə Aşıq Ələsgərin söhbətindən doymaq olar?!

Aşıq Hüseyn gördü ki, camaat yerindən tərpənmək istəmir, dedi:

– Yaxşı, oxu deyirsiniz, oxuyaq.

Aşıqlar bu dəfə başqa ustadların sözlərindən oxumağa başladılar. Bir neçə qatar oxumuşdular, xoruz banladı.

Aşıq Hüsyen gülümsünüb dedi:

– Yenə oxuyaqmı?

Bayaqkı kişi gülə-gülə cavab verdi:

– Çox sağ olun! Xoruzun əmrindən çıxmaq olmaz.

Camaat istədi ki, aşıqlara dövranpulu yığsın, Aşıq Hüseyn razılaşmayıb dedi:

– Mən buraya qazanca gəlməmişəm, Aşıq Ələsgərlə görüşməyə gəl-

mişəm. Məqsədim ancaq bu idi. Çox sağ olun!

Camaat şad-xürrəm dağılıb evlərinə getdi.

Aşıq Ələsgər Aşıq Hüseyni bir neçə gün də qonaq saxladı, yaxşı hörmət elədi. Aşıq Hüseyn yola düşəndə qucaqlaşıb öpüşdülər...

Aşıq Hüseyn gəlib Ağbulaq kəndinə çatanda gördü ki, camaat onu gözləyir. Molla Əli soruşdu:

– Aşıq Ələsgəri görə bildinmi, necə aşıqdı?

Aşıq Hüseyn Ağkilsədə olanların hamısnı bunlara danışandan sonra dedi:

– Aşıq Ələsgər kimi aşıq hələ dünyaya gəlməyib, indən belə də gəlməyinə inanmıram, o, Haqq aşığıdır...

Aşıq Hüseynin belə deməyi onun hörmətini daha da artırdı. O gecə onu Ağbulaqda saxladılar, məclis qurdular, çox razı yola saldılar.

Bu əhvalatdan sonra harada söz düşdüsə, Aşıq Hüseyn Aşıq Ələsgəri, Aşıq Ələsgər də Aşıq Hüseyni təriflədi.

## AŞIQ ƏLƏSGƏR QARABAĞLILARIN YAYLAĞINDA

Mənim əzizlərim, indi sizə haradan xəbər verim, Qarabağın Xanqərvənd kəndindən. Buranın camaatı da göyçəlilər kimi sazı-sözü çox xoşlayır. Məclislərinə aşıq gələndə elə bil, dinə-imana gəlirlər.

Qarabağın camaatı yayda Qonur, Söyüdlü, Göllər yaylağına çıxırdılar. Payız girənə qədər bu dağların cah-calalı dillə deyiləsi olmurdu. Hansı dərəyə baxsan, elə bil, bir kənd vardı; alaçıq alaçığa söykənirdi. Gecələr səhərə qədər toy səsi, saz səsi, aşıq səsi dağları başına götürürdü. Çoxları xeyir işlərini yaylaqda keçirirdi.

Bir ili də Xanqərvəndin adlı-sanlı adamlarından Əhməd bəy, Hacı Baba, Mədinə oğlu Kürd, Baxşalı kişi, Murad kişi, Zamanxan oğlu Məşədi Qara, bir neçəsi də bunlardan başqa toy tədarükü ilə yaylağa çıxdılar. Camaatın köçü gəlib yaylağa toxtayan kimi, toy eləyəsi adamlar bir yerə yığışdılar, toylara vaxt qoydular. Əvvəlcə Mədinə oğlu Kürd oğlunun toyunu başlamalı oldu. Yaxındakı kəndlərə qonşu yaylaqlara xəbər verildi, nəmər paylandı...

Buranın camaatı Aşıq Ələsgəri çox yaxşı tanıyırdı. İstər aranda, istərsə də yaylaqda toy eləyəndə çox zaman Aşıq Ələsgəri aparırdılar.

Əgər Aşıq Ələsgəri tapa bilməsələr, özgə aşıq çağırırdılar. Aşıq Ələsgərin dalınca atlı göndərmək lazım oldu. Kağız yazdılar, bir cavan oğlana verdilər ki, Göyçəyə yola düşsün. Mədinə oğlu Kürd razılaşmadı; Məşədi Qaranın yanına gəlib dedi:

– A Məşədi, Aşıq Ələsgərin dalınca özün get! Əgər evdə olmasa, yerini öyrən, harada olsa, tap gətir!

Zamanxan oğlu Məşədi Qara Aşıq Ələsgərlə siğə qardaş idi. Bu qış Aşıq Ələsgər Qarabağa getməmişdi. Odur ki, Qara qardaşını görməyə çox darıxırdı. Kürd belə deyən kimi Məşədi Qara "baş üstə" deyib, atını mindi, birbaş düz Ağkilsəyə gəldi.

Aşıq Ələsgər qapıda cüt nizamlayırdı. Qara qapıya yetişdi:

– Salaməleyküm!

– Əleyküməsalam!

Aşıq Ələsgər başını qaldırdı ki, Məşədi Qaradır. Bilmədi ki, əlindəki kərkini haraya qoydu. Öpüşdülər, görüşdülər. Dost-qohumların hamısı Qaranın başına yığıldı. Heyvan kəsdilər, yaxşı yemək-içmək düzəltdilər. Gəlmişdən-getmişdən danışdılar. O günü Qara macal tapıb Aşıq Ələsgərə

deyə bilmədi ki, nə məqsədlə gəlib. Gecədən xeyli keçənə qədər söhbət elədilər, yatdılar.

Gecə bir yağış başladı, bir yağış başladı ki, gəl görəsən. Səhər açılanda gördülər ki, yağış hələ kəsməyib; yerlə göyün arası tamam qovuşubdur.

Qara gördü ki, gediləsi deyil, heç fikrini demədi. O gecə də qaldı, sabah tezdən çox gözəl bir hava oldu. Qara üzünü Aşıq Ələsgərə tutub dedi:

– Qardaş, xeyir işimiz var, sazını götür gedək!

– A Qara, bəs bilmirsən, mən məhərrəmlikdə bir yana getmirəm.

– Məhərrəmlik çoxdan çıxıb ki.

– Hələ İmamın qırxı çıxmağına üç gün var.

– Əşi, qırxına bənd olma. Mədinə oğlu Kürd də, Əhməd bəy də nəməri paylayıb. Mən gələndə qonaqları da bir ucdan gəlirdi. Toy sənə mətəldi. Gərək biz dünəndən orada olaydıq.

– A Qara, onda sən get, bu toyu başqa aşıqla yola salın; mən üç gündən sonra gələrəm, o biri toyları mən elərəm.

Qara çox pərt oldu. Çırtıq vursan, qanı damardı. Bilmədi ki, Aşıq Ələsgərə nə desin. İncimiş halda Aşıq Ələsgərin oğlu Bəşirə dedi:

– A bala, mənim atımı gətirin!

Bəşir Qaranın atını gətirdi. Qara atın irəşməsinin bir ucun Aşıq Ələsgərə uzatdı, dedi:

– Tut!

Aşıq Ələsgər ipin ucundan tutanda Qara cibindən bir bıçaq çıxartdı, dedi:

– Əgər mənlə getməsən bu mənə ölümdən betərdi. Qarabağ camaatı bilir ki, biz siğə qardaşıq. Odur ki, nə cür olsa, səni aparmaq üçün məni göndəriblər. Ya gərək gedək, ya da qardaşlıq ipini kəsirəm.

Aşıq Ələsgər gördü ki, yamanca yerdə axşamlayıb, qardaşlıqdan keçmək olmaz, dedi:

– Gedək!

Aşıq Ələsgərin də atını tövlədən çəkdilər. Aşıq Ələsgər sazını da götürdü, yol başladılar Göllər yaylağına. Bir mənzil gedəndən sonar Zod kəndi ilə Zərzəbil kəndinin arasında Qarabulaq deyilən bir otlu yerdə atdan düşdülər ki, atlar bir az otlasın. Aşıq Ələsgər yenə də fikirliydi.

Düzdü, gedirdi, amma əlacı olsa, getməzdi. Fikir Aşıq Ələsgərin ürəyini darıxdıranda dayana bilmədi. Sazı köynəyindən çıxartdı, çalmaq istəyəndə Qara dedi:

– Qardaş, bəs bayaqdan məhərrəmliyin qırxını gözləyirdin, indi saz çalmağa tələsiyirsən!

– Evin tikilsin, vurhavuru görmürsən?!

– Nə vurhavur?

– Bu saat mənim qəlbimdə iki padşahın davasıdır.

– Hansı padşahların?

– Qulaq as, gör hansı padşahların.

Aşıq Ələsgər belə deyəndən sonra sazı sinəsinə basdı, görək Məşədi Qara nə eşitdi:

Nəfs ilə mərifət durub cahada,
Mərfət deyir: - Belə kar eyləməynən!
Nəfs deyir: - Baxma naqqal sözünə,
Xeyrin gələn yerdə ar eyləməynən!

Qara indi başa düşdü ki, Aşıq Ələsgərin qəlbində hansı padşahlar dava eləyirmiş. Aşıq Ələsgər aldı o biri bəndi, görək Mərifət nə deyir:

Günahkardı nə ki yoldan azan var,
İki mələk - xeyir-şəri yazan var,
Nəkreyin var, Qıl körpü var, qazan var,
Rövşən yollarını tar eyləməynən!

Aşıq Ələsgər qışın son ayında bir yana getməmişdi. Ondan sonra məhərrəmlik araya düşmüşdü. Bu il birinci dəfəydi ki, xeyir işə gedirdi.

**Aldı Nəfs:**

Zimistan çəkmişəm, yeni yaz olub,
Üzüm gözəllərə payəndaz olub,
Sözüm bəyənilib, işim saz olub,
Sən Allah, siftəmi kor eyləməynən!

**Aldı Mərifət:**

Haqq bizə göndərib dəlili-ayət,
Oruc tut, namaz qıl, eylə ibadət,
Mehdi divanında olma xəcalət,
Məhşərdə yerini nar eyləməynən!

**Aldı Nəfs:**

Sən müztərsən, lovğa-lovğa danışma,
Belə sualları məndən soruşma,

Nə xeyrimə, nə şərimə qarışma,
Qarışsan, çıx, yeri dar eyləməynən!

Qardaşlıq məsələsi də Nəfsin tərəfini saxladı, Mərifəti kiritdilər. Aşıq Ələsgərlə Məşədi Qara atlarını minib, yollarına davam elədilər. Gəlib Urumbasar gədiyini aşdılar, Söyüdlü yaylağına baxanda gördülər ki, Söyüdlü qəbiristanlığında böyük yığıncaq var.

Mənim əzizlərim, o gecə Qonur yaylağına çox güclü yağış yağmışdı. Təzə toyu olmuş bir oğlanla bir qızı da sel aparmışdı. Camaat meyitləri basdırmağa gətirmişdi. Qəbiristanlıqdakı yığıncaq həmin yığıncaq idi.

Aşıq Ələsgərin yolu qəbiristanlığın yanından keçirdi. Bir də camaat gördü ki, Aşıq Ələsgər gəlir. Ölən oğlanın atası, anası, qohumları başladılar təzədən özlərini döyüb ağlamağa. Oğlanın anası camaatdan ayrıldı, Aşıq Ələsgərin qabağına yeridi, saçını yola-yola dillə ağladı:

– Ay Aşıq Ələsgər, oğlumun toyunamı gəlibsən? Ay Allahı istəyən, mana daha sağlıq lazım deyil, öldürün məni!.. Allah, bu zülmü kimin başına gətiribsən?!..

Arvad özündən getdi. Üzünə su səpib ayıltdılar. Oğlanın o biri qohumları, atası özlərini döyməkdən haldan-dildən düşmüşdülər.

Aşıq Ələsgərgil atdan düşdülər, cənazələrə sarı getdilər. Bir kişi meyitlərin üzündən örtüyü götürdü. Aşıq Ələsgər gördü ki, oğlan pəhləvan kimi iri gövdəli, enli kürəkli, çatma qaşlı bir gözəl oğlandır ki, gəl görəsən. Qızın gözəlliyi də ki, dillə deyiləsi deyil. Bunları belə görəndə Məşədi Qara da özünü saxlaya bilmədi, hönkür-hönkür ağladı.

Doğrudu, Aşıq Ələsgər ağlamadı, amma dünya gözündə qaranlıq oldu.

Mənim əzizlərim, insan belədir ki, ölü görməyəndə, qəbiristanlıq görməyəndə çox zaman ölmək yadına düşməz. Elə bilər ki, dünya durduqca yaşayacaqdır. Bu pərişanlığı görəndə Aşıq Ələsgəri də fikir götürdü. Gördü ki, dünya çox vəfasızdı. Nə qədər çalışsan, nə qədər əlləşsən, nə qədər var toplasan, axırı yenə ölümdür; dünyanın malı dünyada qalacaqdır. Aşıq Ələsgərin sinəsi doldu, dərdi tüğyan elədi.

Ona kimi ölən oğlanın atası dilləndi:

– Aşıq Ələsgər, oğlumun toyunda ələ keçmədin, çalmadın, oxumadın, tərif demədin, səsini eşitmədik. Vay günündə öz ayağınla gəlib çıxıbsan. Allahın bu işinə sən nə deyirsən?!

Aşıq Ələsgər gördü ki, bu kişi söz istəyir. Fikirləşdi ki, gəl elə söz de, həm qəmli olsun, həm də ölən cavanların ata-anasına təskinlik versin.

Sazı köynəyindən çıxartmadı ki, saz çalmaq buradakı adamlara pis gələr. Elə dilcavabı öz könlünə üzünü tutdu, dedi:

Qafil dilim, bu nə yoldu tutubsan,
Sərf edirsən nə kamaldı dünyada?!
Dövlətə gül olub, gültək açılma,
Çox sənintək güllər soldu dünyada.

Aşıq Ələsgər belə deyəndə kişi dilləndi:

– Aşıq Ələsgər, axı sən Aşıq Ələsgərsən, sazını çıxart, saz ilə de! Oğlumun toyunu eləyə bilmədin, vayını elə!

Kişi belə deyəndə camaat yenə təzədən ağlaşdı. Aşıq Ələsgər sazı köynəyindən çıxartdı, "Hicran Kərəmi" havası ilə görək nə dedi:

Kibridən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı,
Yüz sənintək ahu gəzən şahmarı,
Fələk kəməndinə saldı dünyada.

Guşumda sırğadı, sinəmdə dağdı,
Ağıllı unutmaz neçə ki sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qovğadı, qaldı dünyada.

Atalar deyibdi: "Ölüm var ölüm kimi, ölüm var zülüm kimi". Bu cavanların ölümü çox zülümlü ölüm idi.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Fələk bərhəm edib çox nizamları,
Söndürüb zülm ilə yanan şamları.
Hayıf cavanların gül əndamları,
Mara-mura qismət oldu dünyada.

Camaat bu bəndi eşidəndə yenə hönkür-hönkür ağlaşdı. Aşıq Ələsgər yenə fikirləşdi ki, gəl bunlara de ki, heç kəs dünyada qalası deyil, hamı bu yolun yolçusudur. Mən özüm də bu gün varam, sabah yoxam. Aldı, görək özünün axır gününü necə yad elədi:

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada!

Söz tamama yetişəndən sonra ölüləri dəfn elədilər. Aşıq Ələsgərgil

atlarını mindilər, Göllər yaylağına yola düşdülər. Qəbiristanlıqdakı adamlar da ağlaşa-ağlaşa öz yaylaqlarına qayıtdılar. Aşıq Ələsgərgil Göllər yaylağına çatanda gördülər ki, toy adamları gediblər. Məşədi Qara arvadından soruşdu:

– Camaat nə zaman gedib?

Arvadı dedi:

– Dünən axşama qədər sizi gözlədilər, gəlib çıxmadınız. Bu gün Alağalı yaylağına gəlini gətirməyə getdilər. Dedilər ki, Aşıq Ələsgərgil gələndə bizim dalımızca Alağalı yaylağına gəlsinlər.

Aşıq Ələsgərgil tələsik çay-çörək yedilər, atlarını minib, Alağalı yaylağına yola düşdülər. Çay Alxaslısı kəndinə yetişəndə gördülər ki, qabaqda bir dəstə qız-gəlin, az qalıblar ki, Hacı Ələmşahın körpüsünə çatsınlar. Bunlar da həmin toya gedirlər.

Sel aparan cavanların qəm-qüssəsi Aşıq Ələsgərin əhvalını çox pərişan eləmişdi. Düzdü, toya gedirdi, amma könlü heç açılmırdı.

Qız-gəlinlər Aşıq Ələsgəri görən kimi tanıdılar. Bir-biri ilə nə danışdılarsa, körpünün üstünə çatanda əl-ələ tutub, yolu kəsdilər. Aşıq Ələsgərgil körpüyə çatanda Məşədi Qara üzünü qızlara tutub dedi:

– A bala, bu tərəfə durun, keçək!

Qızların biri dilləndi:

– Aşıq Ələsgər, bizim üçün bir qatar oxumasan, qoymarıq keçəsiniz.

Aşıq Ələsgər dedi:

– Qızlar, tələsiyirik. Gedək, toyda sizin üçün nə qədər desəniz oxuyaram.

– Heç elə şey olmaz. Burada bizə tərif deməsən, yoldan çəkilmərik. Bizi atla ayaqlayıb keçəcəksinizsə keçin.

Aşıq Ələsgər gözünü qızlara gəzdirdi, gördü ki, doğrudan da, bunlara tərif yaraşır. Yerindən gözəl olan qızlar toy paltarını da ki, geyiblər, olublar hərəsi bir mələkə. Yavaşca atdan düşdü, sazını köynəyindən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi. Aldı görək bu körpünün üstündə gözəllərə nə dedi:

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə, gözəllər!
Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!

Qəmgin idim, sizi görüb gülürəm,
Qaşınız qiblədi, səcdə qılıram,
İkram ilə sizə sarı gəlirəm,
Siz də gəlin asta-asta, gözəllər!

Dilavər qızlardan biri dilləndi:

– Aşıq Ələsgər, nə çoxdu bizdə dövlət, Şuşa qalasının alverçilərində də çit. Hərə bir dəs paltar geyməklə hamı gözəl olmadı ha! Sən gərək buraya yığılanlardan kim gözəldirsə, adını deyəsən.

Aşıq Ələsgər qızların danışığına da fikir vermişdi. Çoxusunun adını eşitmişdi. Eləsi də var idi ki, dost-tanışının qızı idi, adını bilirdi. Aldı görək bu bənddə gözəllərin hansının adını çəkdi:

Minəş günə bənzər, Əsli bir aya,
Şəms olub, aləmə salıbdı saya,
İncimərəm, qəsəm olsun Xudaya,
Qədəm bassa gözüm üstə gözəllər.

Sizi gördüm, çaşdı ağlım, kamalım,
Güllüyə qurbandı dövlətim, malım,
Olmayaydı bir qocalıq, bir ölüm,
Yaşayaydı bu həvəsdə gözəllər!

Aşıq Ələsgər sazı çıxardıb oxumağa başlayanda qızlar yavaş-yavaş körpüdən çəkilib, yolun qırağındakı göy çəmənliyə toplaşdılar. O tərəfdən gələn adamlar da, bu tərəfdən gələn adamlar da ayağını burada saxlayıb, Aşıq Ələsgərə qulaq asırdı. Nə başınızı ağrıdım, böyük bir məclis düzəlmişdi.

Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Pərzad məlakədi, Gövhər bir xanım,
Görən kimi yandı dinim, imanım,
Yazıq Ələsgərəm, sərgərdan canım,
Qurban sizi kimi dosta, gözəllər!

Qızlara bir də diqqət edəndə Aşıq Ələsgər gördü ki, sarı geyimli bir gəlin var, boy-buxunda, qəddü-qamətdə çox düzgündür. Hörükləri də düz topuğuna dəyir. Amma üzü rübəndlidir; sifəti görünmür ki, bilə camalı necədir. Aşıq Ələsgər istədi ki, sazı köynəyinə qoya, ona qədər meh əsdi, həmin gəlinin üzündən örtüyü atdı. Aşıq Ələsgər gördü ki, hələ bu gözəllikdə adama rast gəlməyib. Elə bil ki, belindəki qızıl kəmər öz parıltısını

gəlinin üzündən alıb. Aşıq Ələsgər sazı sinəsinə basdı, görək bu sarı geyimli gəlini necə təriflədi:

Cilvələnib nə qarşımda durubsan,
Anam sana qurban, ay Sarıköynək!
Mələksən, çıxıbsan Cənnət bağından,
Heç kim olmaz sana tay, Sarıköynək!

Doymaq olmaz işvə, qəmzə, nazından,
Fərə kəklik kimi xoş avazından,
Yel vurdu, rübəndi atdı üzündən,
Elə bildim doğdu Ay, Sarıköynək!

Gözəlsən, tərifin düşüb mahala,
Zər kəmər yaraşır qaməti-dala,
Ləb qönçə, diş inci, yanağın lala,
Çəkilib qaşların yay, Sarıköynək!

Gərdənə yaraşır qızıl hamayıl,
Görənin ağlını eyləyib zayıl,
Həsrətin çəkənlər olubdu sayıl,
Yığır qapılardan pay, Sarıköynək!

Ona kimi qızlar bir-birinə dedi ki, Aşıq Ələsgər bu tərifi təkcə Salatına deyir. Aşıq Ələsgər bu sarı geyimli qızın adını eşitdi, görək tapşırmada nə dedi:

Tuti dilli, sərvi boylu Salatın,
Yoxmu mərhəməti bu səltənətin?!
Göndər gəlsin Ələsgərin xələtin,
Eyləmə əməyin zay, Sarıköynək!

Mənim əzizlərim, bu tərifi deyəndən sonra Aşıq Ələsgər istədi ki, sazı köynəyinə qoysun. Bu zaman qızlardan biri hirsli-hirsli dilləndi:

– Düz deyiblər ki, yekə gözdən yiyəsinə xeyir yoxdur. Aşıq üzü örtülü qızları təriflədi, üzünə tamaşa eləyən əsl gözəlləri görə bilmədi.

Aşıq Ələsgər başa düşdü ki, bu qız nə deyir. Amma özünü o yerə qoymayıb dedi:

– Burada heç gözəl olmayan qız yoxdur. Toya gedək, qalanını da orada deyərəm.

– Axı özün deyibsən: "Aşığın nisyəsi..." Elə bu nisyə də o nisyə kimidir. Toyda bizdən gözəl qız görəndə, onu tərifləyəcəksən, heç biz yada düşməyəcəyik. Mənə tərif yaraşmırsa, bu tərifli qızlarla getmirəm.

Qız belə deyəndən sonra yoldaşlarından ayrılıb, geri qayıtmaq istədi. Qızlar onun qolundan tutub yalvardılar:

– Ay Şəkər, sən getməsən, biz də getməyəcəyik. Hamımızdan sən gözəlsən. Aşıq Ələsgər sənin də tərifini orada deyər.

Şəkər ipə-sapa yatmadı. Aşıq Ələsgər gördü ki, bu qızın, doğrudan da küsməyə haqqı var, elə bil ki, qaşı, gözü qələmlə çəkilib. Sazı sinəsinə basdı, görək Şəkərin könlünü necə aldı:

Getmə göz önündən, ay Şəkər xanım,
Könül mayıl olub o qələm qaşa.
Gəl əyləş məclisdə, sən mənim canım!
Mən saz çalım, sən də eylə tamaşa.

Mən aşığam, yasaq yoxdu dilimə,
Şükr eylərəm Haqdan gələn zülümə,
Sənin kimi gözəl keçməz əlimə,
Yüz il gəzsəm bu dünyanı baş-başa.

Gözəllər sultanı, mələklər xanı,
Qaytarmazlar pirə gələn qurbanı,
Öldür Ələsgəri, qurtarsın canı,
Vay xəbərin göndər qohum-qardaşa.

Söz tamama yetişəndən sonra Şəkər də bu qızlara qoşuldu, gülüşə-gülüşə, danışa-danışa şad-xürrəm yol başladılar Alağalı yaylağına.

Aşıq Ələsgərgil də atlarını minib, birbaş toya gəldilər. Yaylağa çatanda gördülər ki, qonşu kəndlərdən, yaxındakı yaylaqlardan buraya o qədər adam gəlibdir ki, sayı-hesabı yoxdur. Camaat Aşıq Ələsgəri görəndə çox şad oldu. Məşədi Qaradan o qədər razı qaldılar ki, az qaldılar götürüb başlarında gəzdirsinlər.

Böyük bir mağar tikmişdilər. Axşam oldu, camaat mağara toplaşdı. Bir tərəfdə kişilər, bir tərəfdə arvadlar əyləşdilər. Aşıq Ələsgər sazı götürüb söhbətə başladı. Gözünü gəzdirəndə gördü ki, arvadların içində bir gözəl gəlin əyləşib. Ay kimi dörd tərəfə işıq salır. Nə qədər gözəl görübsə, bundan gözəlinə rast olmayıb. Aldı görək "Köhnə gözəlləmə" havası ilə nə dedi:

Xəstə könül dərdü-qəmdən ayıldı,
Bu gün məclisinə bir can gəlibdi.
Şöləsi aləmi edib münəvvər,
Zahir deyil, özü pünhan gəlibdi.

Onun bu gəlməyi gör nəyə bənzər,
Nə xana, sultana, nə bəyə bənzər,
Misirdən gətrilmiş köynəyə bənzər,
Kənanda Yaquba dərman gəlibdi.

Ələsgər görcəyin candan usanıb,
Camalından şəmsi qəmər utanıb,
Nə Behiştdə belə qılman yaranıb,
Nə dünyaya belə insan gəlibdi.

Aşıq Ələsgər sözü başlayanda gözəl qızların çoxusu elə hesab elədi ki, tərifi ona deyir. Amma camaat başa düşdü ki, Aşıq Ələsgər kimi tərifləyir.

Aşıq Ələsgər o gecə Qurbaninin nağılını başladı, xoruz banına kimi danışdı, eşidənlərə ləzzət verdi. Camaat aşığa yaxşı dövran pulu yığdı. Pul yığılanda gördülər ki, bir qadın gətirib Aşıq Ələsgərin qabağına bir bağlama qoydu. Aşıq Ələsgər soruşdu:

– A bacı, bu nədir?

– Aşıq Ələsgər, adın çəkməsən də, hamı bildi ki, axşamkı tərifi mənim qızıma dedin. Bağlamada elə artıq bir şey yoxdur, bir çıxalıq mahuddur. Sağlıq olsun, arana yönün düşəndə xələtini orada verərik.

O gecə qaldılar, səhər hamınızın üzünə xeyirliklə açılsın, səhər açıldı. Yemək-içməkdən sonra gəlini atlandırdılar, Göllər yaylağına gəldilər.

Hava çox xoş idi. Gəlin mənzilə çatanda qurban kəsdilər. Aşıq Ələsgər bir neçə oyun havası çaldı, cavanlar oynadı. Camaat halqa vurub əyləşmişdi. Aşıq Ələsgər də dizinin altına bir mütəkkə qoyub, dizi üstə söhbət eləyirdi. Ağsaqqalların çoxusu Aşıq Ələsgərin yanındaydı. Dəmirçidamlı Kərbəlayı Ocaqqulu onun sağ tərəfində qəlyan çəkirdi.

Aşıq Ələsgərgilə çay gətirdilər. Aşıq Ələsgər sazını o tərəfə qoydu ki, çayını içsin. Bir də gördü ki, budur, bir dəstə qız-gəlin Ələm ağacından bəri töküldü. Amma bunların içində bir gözəl var, iki ağaclıqdan adamın gözünü qamaşdırır. Aşıq Ələsgərin təbi cuşə gəldi, sazını götürəndə

Kərbəlayı Ocaqqulu dedi:

– Aşıq Ələsgər, çayın soyuyur, sonra çalarsan.

Elə bil ki, Aşıq Ələsgər onun sözünü eşitmədi. Sazını sinəsinə basdı, görək nə dedi:

Kalvayı, fəhm elə, gör bu gələn insandı, nədi?!
Ay qabaq şölə verir, mehri-dirəşxandı, nədi?!
Titrəşir var əndamı, dərdlərə dərmandı, nədi?!
Gözləri canım alır, afəti-dövrandı, nədi?!
Huridimi, pəridimi, mələkdi, qılmandı, nədi?!

Camaat gördü ki, Aşıq Ələsgəri qınamalı deyil, doğrudan da, zalımın balası elə gözəldir ki, tayı-bərabəri bu dünyada yoxdur. İsti gündə yoxuşu çıxıb, enişi enib tərləyən qızın al yanaqları bir az da qızarıb. Elə bil ki, təzə açılmış dağ lalasıdır. Boğazının iki düyməsini açıbdır, sinəsi quzey qarı kimi ağarır. Ala gözləri az qalır ki, cəllad kimi adamın canını ala.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Göz gördü, könül sevdi gözlərinin alasını,
Gül görsə xəcil olar yanağının lalasını,
Getmə gözüm önündən, alım boyun bəlasını,
Xəstə içsə dirili ləbinin piyalasını,
Şirəsi Abi-həyat, şərbəti-Loğmandı, nədi?!

Dünya təbdil olubdu, gözəl biilqar görünür,
Açılıb mərmər sinə, aləmə aşkar görünür,
Örtməynən sən üstünü, dünya mana dar görünür,
Qoynundu gülşən bağı, bir cüt qoşa nar görünür,
Ey Xudaya, sir qaldım, Cənnəti-rizvandı, nədi?!

O, oradan dedi bu kimdir, bu buradan dedi bu kimdir?.. Tanıyanlar dedilər ki, güneypəyəli Dilbərdi, filankəsin də gəlinidir.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Bu simi-zənəxdanın mirvari xallarına bax,
Bərq verir billür buxaq, Savalanın qarına bax,
Çarxı dönmüş fələyin sən kəc irəftarına bax,
Fəhm elə, diqqət ilə özünə bax, yarına bax,
Çəkilib dal-qaməti, sərvi-xuramandı, nədi?!

Dilbər Aşıq Ələsgərin gözünün qabağından sallana-sallana keçdi, qız-gəlinlərin yığıncağına qarışdı. Buradakı qızlar ona dedilər ki, sən oradan

çıxandan Aşıq Ələsgər səni təirfləyir. Dilbər də öz tərifinin son bəndinə diqqətlə qulaq asmağa başladı. Aldı Aşıq Ələsgər sözün son bəndini:

Hazarat, haqqa baxın, qəlbdən ehsan eləyin,
Mənim bu dərdi-dilimi dostlara əyan eləyin,
Ölürəm, mən xəstənin dərdinə dərman eləyin,
Aparın Ələsgəri, payında qurban eləyin,
Bimürvət, bəlkə, baxa, deyə: – Bu, qurbandı, nədi?

Aşıq Ələsgər o gecə də orada qaldı. Qurbaninin nağılının qalanını danışdı. Camaat on beş gün Aşıq Ələsgəri buraxmadı. O, bir-birinin dalınca altı toy elədi. Sizi də həmişə sazda, söhbətdə, kefdə-damaqda olasınız!

## ANAXANIMIN KÜSMƏYİ

Aşıq Ələsgər Eldar yaylağından təzəcə Ağkilsə kəndinə qayıtmışdı. Camaat yığılıb onun yanına gəldi. Aşıq Ələsgər başlarına nə gəlmişdi, hamısını danışdı. Şəyirdi Aşıq Usuf Aşıq Ələsgər bu səfərində nə qədər söz demişdisə, hamısını əzbərləmişdi. O, sazı köynəyindən çıxartdı, ustadının qızlara, gəlinlərə dediyi tərifləri oxudu, camaata ləzzət verdi. Aşıq Ələsgərin arvadı Anaxanım da bu təriflərə çox diqqətlə qulaq asdı.

Aradan iki gün keçdi. Elə ki, axşam oldu, çıraq yandı, Aşıq Ələsgər sazın açılan simlərinin yerinə təzəsini qoşdu. Saz nizamlanandan sonra Anaxanım dedi:

– Ələsgər, gəzmədiyin yer qalmadı, tərif demədiyin də gözəl. Nə olar, mənə də bir tərif deyəsən!

Aşıq Ələsgər zarafatla dedi:

– Anaxanım, tərif dediyim gözəllər mənə xələt verir, sənə tərif desəm, mənə nə verərsən?

– Evində nə var, ondan.

– Onda dur, bir ballı qayğanaq bişir yeyim, huşum cəmləşsin, deyim.

Aşıq Ələsgər belə deyən kimi Anaxanım yerindən durdu, ocağı qaladı, bir tava qayğanaq bişirdi, dəridən beçə balı çıxartdı, qayğanağın üstünə tökdü, külfətlikcə yedilər. Çay gətirdi, içdilər, sonra sazı Aşıq Ələsgərə verdi. Aşıq Ələsgər sazı aldı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, görək arvadını necə təriflədi:

Ala gözlü, nazlı dilbər,
Elindən xəbərin varmı?
Dörd bir yanın bağça, söyüd,
Gülündən xəbərin varmı?

Elə ki, Aşıq Ələsgər sözün bu bəndini oxudu, Anaxanım iki dəfə "sağ ol!" dedi. Aşıq Ələsgər gülümsündü:

– Arvad, bu da olsun sənin tərifin.

– A kişi, sözü yarımçıq qoymayacaqsan ha! Hələ nə deyibsən ki?! Qalanını de.

Aşıq Ələsgər gördü Anaxanım əl çəkmir, götürdü o biri bəndini:

O zaman ki, gəldim sizə,
Mayıl oldum qaşa, gözə,

Zibilin çıxıbdı dizə,
Külündən xəbərin varmı?

– A kişi, deyəsən axı, burasını yaxşı demədin? Zibil nə idi ortalığa qatdın?!

– Arvad, söz düz gəlmirdi, ona görə elə dedim.

– A kişi, sən Allah, sabah onun orasını düzəlt. El içinə çıxası deyil.

– Baş üstə! Sabah bir qayğanaq da bişirərsən, düzəldərəm. Ancaq gəlsənə daha demiyəm. Huşum yaxşı gətirmir, qorxuram yaxşı deyə bilməyəm.

– A kişi, qorxma de. Amma bu dəfə yaxşı de!

Aşıq Ələsgər aldı o biri bəndini:

O vədə ki, gəlin oldun,
Qabırğası qalın oldun,
Qaynanana zalım oldun,
Dilindən xəbərin varmı?

Bu bəndi deyəndə Anaxanımdan başqa hamı gülüşdü. Aşıq Ələsgər götürdü o biri bəndini:

Daha düşübsən hənəkdən,
Suyun qurtarıb sənəkdən,
Məmən çıxıbdı köynəkdən,
Tulundan xəbərin varmı?

Bu bəndi deyəndə yenə bərk gülüşdülər. Anaxanım lap pərt oldu. Üst-başına baxanda gördü ki, uşağı əmizdirdikdən sonra köynəyinin yaxası açıq qalıb. Yaxasını düymələyəndən sonra acıqlı-acıqlı dilləndi:

– Daha mən bu evdə dura bilmərəm, talağımı ver, çıxıb gedəcəm! Otuz ildir, sənə ev düzəldirəm, uşaq saxlayıram, bu da mənim evliliyimin əvəzi!.. Evindən bir şey də aparmaram; dədəm evindən gətirdiyimi sabah bir ulağın belinə qoy, məni yola sal, gedəcəm!

Aşıq Ələsgər Anaxanımın xətrinə dəydiyini bilirdi. Amma onun bu sözlərini gerçək hesab eləmədi, aldı o biri bəndini:

Ələsgərnən çəkmə dava,
Ariflər baxsın hesaba,
Cehizindir qırıq tava,
Malından xəbərin varmı?!

Sazını bir tərəfə qoyanda Aşıq Ələsgər gördü ki, Anaxanımın halı hal deyil, dedi:

– Arvad, mən sənə dedim ki, huşum gətirmir, razılaşmadın. Anaxanım dinib cavab da vermədi.

Anaxanım iki gün küsülü durmuşdu ki, qardaşı Kərbəlayı Zeynal gəlib çıxdı. Amma Anaxanımın Ələsgərdən küsülü olduğunu bilmədi. Sabahısı kovxa Aşıq Ələsgəri çağırtdırdı. Bu zaman Kərbəlayı Zeynal da getməyə hazırlaşdı. Anaxanım qardaşına dedi:

– Mən də səninlə gedəcəyəm.

Sual-cavabdan Kərbəlayı Zeynal məsələni başa düşdü, bacısını çox danladı, öyüd-nəsihət verdi, olmadı. Qəsdən yubandı ki, bəlkə, Aşıq Ələsgər gələ çıxa. Amma Aşıq Ələsgər gəlmədi ki, gəlmədi. Əlacı kəsildi, yola çıxmalı oldular.

Günortadan xeyli keçmiş Aşıq Ələsgər evə gəldi. Gəldi gördü ki, nə Kərbəlayı Zeynal var, nə də Anaxanım...

Anaxanım elə hirslənmişdi ki, kiçik oğlu Talıbı da nənnidə qoyub getmişdi. Aşıq Ələsgərin qardaşı arvadları uşağa baxırdılar. Amma altı aylıq uşağa anasından başqa kim baxa bilər? Uşağın səsi kəsilmirdi ki, kəsilmirdi. Aşıq Ələsgərin əlacı kəsildi. Kərbəlayı Zeynalgilin dalınca yol başladı Yanşağa. Sazını da götürdü ki, bəlkə, sazın gücünə qaytara. Gethaget, gethaget, Arıqallarda Kərbəlayı Zeynalgilin dalından çatdı. Bir az Kərbəlayı Zeynala məzəmmət elədi. Kərbəlayı Zeynal işarə elədi ki, gör özün yola gətirə bilərsənmi? Aşıq Ələsgər dillə nə qədər dedisə, Anaxanım yola gəlmədi. Aşıq Ələsgər gördü ki, olmayacaq, sazı köynəyindən çıxartdı, görək Anaxanımı qaytarmaqdan ötrü nə dedi:

Gözəllər sultanı, mələklər şahı,
Alagöz cananım, getmə, amandı!
Dərdindən xəstəyəm, çəkirəm ahı,
Həkimim, loğmanım, getmə, amandı!

Camalın göyçəkdi bayram ayından,
Görən doymaz qamətindən, boyundan,
Layiq deyil qurban kəsəm qoyundan,
Sana qurban canım, getmə, amandı!

Anaxanımın küsməyə haqqı var idi. Gözəllikdə Aşıq Ələsgərin tərif dediyi gözəllərdən heç də əskik deyildi. Mərifət-qanacaqda da Ağkilsə kəndində bir adam idi. Əlinin işi, qabiliyyəti də çox gözəl, çox səliqəli idi. Bu səbəblərə görə qonum-qonşu onun hörmətini saxlayırdı. Qaynı

uşaqları da Aşıq Ələsgərə "dədə" dedikləri kimi, buna da "ana" deyirdilər. Anaxanım Aşıq Ələsgərdən tərif istəyəndə elə hesab eləmişdi ki, doğrudan da, onu tərifləyəcəkdir. Tərifin əvəzinə onu pisləməsi Anaxanıma çox yoxuş gəlmişdi; "Qabırğası qalın oldun, qaynanana zalım oldun" deməsi də ki, onu yandırıb-yaxmışdı...

Sözün bu bəndini deyəndə Anaxanım dilləndi:

– Dünəndən bəri "mələklər şahı" olmuşam? Özünü qurban eləmə ki, qayıdası deyiləm!

Aşıq Ələsgər fikirləşdi ki, gəl günahını boynuna al, de ki, sənə zarafat eləmişəm, bağışla. Aldı görək bu dəfə nə dedi:

Mən sənə nə dedim, ay mina gərdən,
Kəsmə mərhəmətin, gəl, Ələsgərdən,
Günahkar qulunam, salma nəzərdən,
Kərəmli sultanım, getmə, amandı!

Bu sözdən sonra da Anaxanım yola gəlmədi ki, gəlmədi. Kərbəlayı Zeynal da nə elədi, olmadı. Kərbəlayı Zeynal Aşıq Ələsgərə dedi:

– Ələsgər, indi qayıtmağından keçdi. Qoy kəndə çatsın, qonu-qonşu bir az danlasın, sən də sabah gəl, görək nə edirik.

Kərbəlayı Zeynal ilə Anaxanım Yanşağa getdilər, Aşıq Ələsgər Qanlıkəndə qayıtdı. Gecə Qara Mərdanın evində qaldı. Sabah açılanda sazını da götürdü, üz qoydu Yanşağa.

Aşıq Ələsgər birinci dəfə idi ki, Anaxanımın xətrinə dəymişdi. O da zarafat eləmişdi; elə bilmişdi ki, o da bu sözə güləcək, çıxıb gedəcək. Nə biləydi ki, bü sözün, bu zarafatın üstündə başına bu həngamə gələcək. Arvadlar var ki, gündə əri döyür, söyür, sabah da yadından çıxardır...

Aşıq Ələsgər gəlib Yanşağa yetişəndə gördü ki, Kərbəlayı Zeynal qapıda onun yolunu gözləyir. Görüşdülər, içəri keçdilər. Aradan bir az keçmədi ki, Aşıq Ələsgərin gəldiyini eşitdi, camaat da yığışdı. Hamı işdən halı oldu. Nə qədər öyüd-nəsihət elədilərsə, Anaxanım yola gəlmədi. O, evin bir küncündə yönü o tərəfə küsülü oturmuşdu, heç Ələsgərin üzünə də baxmırdı. Axırda Aşıq Ələsgərin əlacı kəsildi, sazı köynəyindən çıxartdı, görək bu dəfə Anaxanıma nə dedi, oradakılar nə eşitdilər:

A bimürvət, axı səndən ötəri
Ah çəkməkdən bağrım qana dönübdü!
Qədd əyilib, gül irəngim saralıb,
Xəzan dəymiş gülüstana dönübdü!

"Sağ ol"un biri bir qəpiyə çıxdı. Amma Anaxanım dinib danışmırdı. Aşıq Ələsgər aldı o biri bəndini:

Dindirirəm, danışmırsan, gülmürsən,
Xəbər alıb, əhvalımı bilmirsən,
Endiribən məclisimə gəlmirsən,
Yoxsa taxtın Süleymana dönübdü?!

Dal gərdəndə siyah zülfün hörübsən,
İnkar eyləməynən, ilqar veribsən,
Yazıq Ələsgərdən üz döndəribsən,
Ya baxt yatıb, ya zamana dönübdü.

Bu sözləri eşidəndən sonra Anaxanım ağladı. Doğrudan da, bu vaxta qədər Aşıq Ələsgərlə Anaxanım çox məhəbbətli dolanmışdılar.

Aşıq Ələsgərin "üz döndəribsən", "baxt yatıb" deməyi Anaxanımı ağladırdı. Uşağın fikri də ki, Anaxanımı heç rahat olmağa qoymurdu.

Anaxanım üzünü Aşıq Ələsgərə tutub soruşdu:

– Görəsən uşaq necə oldu?!

– Nə bilim, mən də sənlə bərabər evdən çıxmışam. Mən evə gələndə gördüm ki, ağlayır. Öydən çıxanda da çır-çır çığırırdı.

Bu dəfə Anaxanım Aşıq Ələsgərdən bərk tələsməyə başladı. Camaat dağılan kimi, Anaxanımla Aşıq Ələsgər Yanşaqdan Göyçəyə yol başladılar. Mənim əzizlərim, Qarabağın Qərvənd camaatı Söyüdlü yaylağında idi. Qərvənddə Zamanxan oğlu Məşədi Qara ilə Aşıq Ələsgər siğə qardaş idilər. Qara da həmişə yaylağa çıxardı.

Söyüdlüyə yaxınlaşanda Aşıq Ələsgər dedi:

– Arvad, gəl bu tərəfki yol ilə gedək.

– A kişi, niyə?

– Əgər bura ilə getsək, bizi tanıyacaqlar, yubanacayıq.

Aşıq Ələsgərgil bu biri yol ilə getməkdə, Zamanxan oğlu Məşədi Qara da həmin yol ilə Göllər yaylağından Söyüdlü yaylağına gəlməkdə; birdən-birə qabaqlaşdılar. Xoş-beş, on beş... Görüşdülər. İş tərs gələndə gəlir. Əgər düz öz yolları ilə getsə idilər, bəlkə də, heç tanıyana rast olmayaydılar.

Məşədi Qara Aşıq Ələsgərgili obaya dəvət elədi.

Aşıq Ələsgər razı olmadı, dedi:

– Tələsirik. Gərək axşama özümüzü evə çatdıraq.

Məşədi Qara əl çəkmədi, Aşıq Ələsgərgili məcburən öz alaçıqlarına apardı. O saat bir heyvan kəsdi, yaxşı kabab bişirdilər. Sizdən də xoş, yedilər, içdilər, axşam oldu. Obadakı adamlar Aşıq Ələsgərin gəldiyini eşitdi, Qaranın alaçığının qabağına toplaşdı. Aşıq Ələsgər sazını köynəyindən çıxartdı, bir-iki qatar oxudu. Sonra sazı köynəyinə qoydu, dedi:

– Bağışlayın, bir az yorulmuşam.

Oradakı adamlar bir az da o yandan-bu yandan söhbət elədi, sonar çıxıb hərəsi öz alaçığına getdi.

Səhər tezdən Aşıq Ələsgərlə Anaxanım Məşədi Qaragillə xudafizləşib, Ağkilsəyə yol başladılar. İndi Aşıq Ələsgərgil Ağkilsəyə gəlməkdə olsun, sizə haradan xəbər verim, Ağkilsədən.

Aşıq Ələsgər Anaxanımın dalınca gedəndən sonra qonu-qonşu hərə bir söz dedi. Kimi dedi: Aşıq Ələsgər Anaxanımı bu gün qaytarıb gətirəcək; kimi dedi: Anaxanım gəlməyəcək; kimi dedi: Aşıq Ələsgər Anaxanımı boşayıb gələcək... Bir gün gözlədilər, Aşıq Ələsgər gəlmədi, iki gün gözlədilər, gəlmədi. Üçüncü gün qorxuya düşdülər ki, Aşıq Ələsgərin başına görəsən, nə iş gəldi. Salahla Xəlil hazırlaşırdılar ki, dallarınca getsinlər, bir də gördülər ki, Qarabulaq yolu ilə budur, gəlirlər.

Gəlib evə çatanda Anaxanımın gözü uşağı axtardı. Gördü ki, nənnidə yatıb. Qıyıb qaldırmadı.

Aşıq Ələsgərin zarafatca arvadına söz dediyini, bundan ötrü Anaxanımın küsüb getdiyini camaatın hamısı eşitmişdi. Elə ki, Aşıq Ələsgərgil gəldilər, qonu-qonşu toplaşdı, danışdılar, gülüşdülər... Məşədi Cabbar Anaxanımın qulağı eşidə-eşidə Aşıq Ələsgərə zarafatla dedi:

– Ay Ələsgər, sənə arvadmı qəhətdir?! Bu ki səni bu qədər incidir, boşa, özgəsini al da!..

Bu sözə hamı gülüşdü, Anaxanım dönüb, əyri-əyri ona baxdı. Aşıq Ələsgər sazı köynəyindən çıxartdı. Sinəsinə basdı, görək buraya yığılanlara nə dedi:

Hərcayının, dilbilməzin ucundan,
Dönə-dönə nə ziyana düşmüşəm!
Doymaq olmaz gözəllərin boyundan,
Pərvanətək yana-yana düşmüşəm.

Ona qədər uşaq yuxudan ayıldı. Anaxanım onu çox həsrətliklə qucağına götürdü; elə bil ki, bir ildir ayrılıbdır. Aşıq Ələsgər gördü ki, Anaxanımın başı qarışıb uşağa, aldı sözün o biri bəndini:

Dövlətim çox oldu, qıymadım pula,
Kor oldu gözlərim, yapışdım dula,
Nə ölür, nə itir, canım qurtula,
Məcnun kimi biyabana düşmüşəm.

Məşədi Cabbar yenə dilləndi:

– Boşa da!.. Bu saat kimi istəsən, sənə gələr. Daha niyə biyabana düşürsən ki?! Anaxanım gördü ki, Aşıq Ələsgər zarafat eləyir, dedi:

– Boşayaydı da!.. Çıxıb dədəm evinə getmişdim ki!

Aşıq Ələsgər aldı sözün axırıncı bəndini:

Ələsgər keçibdi namus, arından,
Aləm yatmaz onun ahü-zarından,
Boşasam, qorxuram oğlanlarımdan,
Boşaya bilmirəm, qana düşmüşəm.

Elə ki, Aşıq Ələsgər sözünü tamam elədi, məclisdəkilərin hamısı gülüşdü. Bildilər ki, Aşıq Ələsgər bu sözü zarafatla deyir, arvadını boşamaq onun heç fikrinə də gəlməz.

Aşıq Ələsgərlə Anaxanım ömürlərinin axırına qədər bir-biri ilə məhəbbətli dolandılar. Siz də həmişə yoldaşınızla məhəbbətli olasınız.

Aşıq Ələsgərgil kimi uzun ömür sürəsiniz!

## AŞIQ ƏLƏSGƏRİN ŞINIX SƏFƏRİ

Mənim əzizlərim, sizə haradan xəbər verim, kimdən deyim, Göyçə mahalının Ağkilsə kəndindən, Aşıq Ələsgərdən.

Aşıq Ələsgər adlı-sanlı aşıq olandan sonra çoxları gəlib, ona şəyird olmaq istəyirdi. Aşıq Ələsgər bunları seçərdi; səsi yaxşı olanları, sifətdən düzgünlərini, mərifətlilərini şəyird götürərdi. Şəyirdlərini də tamam-kamal aşıq eləməmiş buraxmazdı. Yeri düşəndə həmişə deyərdi: "Aşıqlıq çox çətin peşədir. Aşığın dilində "bilmirəm" sözü olmamalıdır".

Aşıq Nağı altı il idi ki, Aşıq Ələsgərə şəyirdlik eləyirdi. Amma aşıq olmağına hələ var idi. Aşıq Ələsgər çox zaman toylarda məclis aparmağı Nağıya tapşırırdı, özü də məclisdəkilər kimi, qulaq asırdı ki, görüm kəm-kəsiri nədir.

Bir gün Nağının fikrinə gəldi ki, sən nə vaxta kimi şəyirdlik eləyəcəksən! Məclisdə ən çox sən çalıb-oxuyursan; Aşıq Ələsgər bir-iki qatar oxuyur, ya oxumur, pulu də sənlə yarı bölür. Yaxşısı budur ki, ayrıca aşıqlıq elə, qazancının hamısı da özünün olsun.

Toyların birindən qayıdanda Aşıq Ələsgər gördü ki, Nağı bikefdir, soruşdu:

– Oğul, nə fikir eləyirsən?

– Ələsgər əmi, atam-anam yadıma düşüb. Bu gecə də yuxumu qarışdırmışam. Evə getmək istəyirəm.

– Oğul, evinizə getsən, Allah qoysa, nə zaman qayıdacaqsan?

– Evin işini nə bilmək olar; qayıdam, ya qayıtmayam.

Aşıq Ələsgər Nağının fikrini başa düşdü, dedi:

– Qayıdıb-qayıtmamaq öz işindir, amma onu bil ki, mən sənə "aşıq" deməmişəm; sən hələ aşıq deyilsən (Aşıq Ələsgərdə belə bir xasiyyət var idi: neçə ki, şəyirdi bu sənətə yiyələnməyib, onun adını deyərdi; elə ki aşıqlığı tamam öyrəndi, ona "aşıq" deyərdi – Aşıq Nəcəf, Aşıq Əsəd, Aşıq Qurban, Aşıq Qiyas... Bax, belə. Şəyirdi bundan başa düşərdi ki, o, aşıqlığı öyrənib, ayrıca aşıqlıq eləyə bilər).

Bəli, mənim əzizlərim, Aşıq Ələsgər Nağıya dedi ki, əgər qayıtmasan, heç harada demə ki, mən Aşıq Ələsgərə şəyird olmuşam.

Aşıq Ələsgər qazandıqları pulu Nağı ilə yarı böldü. Nağı pulu götürdü, sevinə- sevinə evlərinə getdi.

Bir-iki gün keçəndən sonra Nağı aşıqlığa başladı. Qazaxda, Ağstafada,

Tovuzda bir neçə toy yola saldı, yaxşı da qazancı oldu. Özü-özünü danladı ki, niyə iki il bundan irəli ayrılmayıbdır.

Nağı hərlənə-hərlənə bir gün Qarayazıya gəlib çıxdı. Burada toy var idi. Toya Aşıq Əsədullahla Aşıq Cəfərqulunu çağırtmışdılar.

Qonaqların hamısı gəldi, məclis düzəldi, amma aşıqlar gəlib çıxmadılar.

Ona kimi biri dedi ki, filankəsin evinə cavan bir aşıq gəlib.

Tez gedib, Nağını gətirdilər. Nağı söhbəti başladı.

Məclisin şirin vaxtı bir də gördülər ki, Aşıq Əsədullahla Aşıq Cəfərqulu gəldi. Bunlar məclisə daxil olub, Nağını görəndə Aşıq Əsədullah toy sahibinə dedi:

– Aşığınız ki var idi, bəs bizi niyə çağırtdırırdınız?!

Toy sahibi dedi:

– Bu aşığın özü gəlib. Söhbət sizindi.

Nağı gördü ki, məclisdən çıxıb getməyi yaxşı olmayacaq, dedi:

– Ay usta, burada bir çətin iş yoxdu ha. Üçümüz də söhbət eləyərik.

Aşıq Əsədulla üzünü Nağıya tutub, qeyzli-qeyzli dilləndi:

– Bəs sən gələndə soruşmadın ki, bu toyun aşığı var, ya yoxdu? Bəs bilmirsən ki, toyun aşığının üstünə aşıq getməz?!

Nağı gördü ki, Aşıq Əsədullahın fikri özgədi, özünü cəmləşdirdi, dedi:

– Birincisi, mən özbaşıma gəlməmişəm, çağırıblar, gəlmişəm; ikincisi, məclis keçirən aşığın üstünə aşıq gəlməzsə, onda gərək siz məni burada görəndə, qapıdan qayıda idiniz.

Aşıq Əsədullah gördü ki, bu, çox tutarlı cavab oldu. Bilmədi nə eləsin. Üzünü şəyirdinə tutub dedi:

– Aşıq Cəfərqulu, sazını çıxart, bir-iki qatar oxuyun!

Aşıq Əsədullah bununla işarə eləyirdi ki, bu aşığı pisikdir, məclisdən çıxart. Aşıq Cəfərqulu sazını götürdü, Nağı ilə çalıb-oxumağa başladılar.

Cəfərqulu sözün birinci bəndini oxuyandan sonra bir bağlama bayatı çəkdi:

... Dəh nədi?
Atı vurdun, "dəh" nədi?!
Beş nədi, on beş nədi?
İki nədi, tək nədi?

Nağı nə qədər fikirləşdisə, bir yana yoza bilmədi. Özünü o yerə qoymadı, bir bənd də bu oxudu, bayatı çəkdi.

Aşıq Əsədullah yerindən dilləndi:

– Özün öləsən! Oxumaq elə olmur. Aşıq Cəfərqulunun bayatısını mənə elə!

Nağı qaldı məəttəl. Aşıq Əsədullahgil Nağını bozartdılar, sazını da əlindən aldılar. Ağsaqqallar minnət elədi, sazı alıb verdilər...

Nağı məclisdən çıxdı, suyu süzülə-süzülə evlərinə qayıtdı.

Bir neçə gün keçdi. Nağı durub-dincələ bilmirdi. Gördü ki, fikirləşməkdən fayda yoxdu. Aşıq Ələsgərin yanına qayıtdı.

Aşıq Ələsgər Nağıgilin evlərinin vəziyyətini xəbər aldı, sonra soruşdu:

– Oğul, niyə bu qədər ləngidin?

Nağı bir qədər key dilləndi:

– Nə bilim, oldu da.

– Oğul, yoxsa bir yana aşıqlığa getmişdin?

Nağı gördü ki, əvvəl-axır bu məsələ açılacaq, başına gələnləri olduğu kimi Aşıq Ələsgərə danışdı. Aşıq Ələsgər bir qədər Nağını danladı, sonra dedi:

– Oğul, keçib. İndi getsək, onları harada taparıq?

– Qazaxda, Tovuzda-zadda olarlar.

Aşıq Ələsgər Nağını da götürdü, yol başladılar o tərəfə. Gəlhagəl, gəlhagəl, gəlib Aşağı Ayıblı kəndinə çıxdılar. Camaat Aşıq Ələsgərin gəldiyini eşitdi. Gecə qonaqçı evinə toplaşdılar. Yaxşı bir məclis quruldu.

Məclis qurtarandan sonra Aşıq Əsədullahgildən söhbət saldılar, öyrəndilər ki, Şınıx mahalındadırlar. Aşıq Ələsgərə də elə bu lazım idi. Camaat evlərinə dağılandan sonra bir yağış başladı, gəl görəsən. Sabah duranda gördülər ki, yağış hələ kəsməyib.

Aşıq Ələsgər Nağıya dedi:

– Durmaq vaxtı deyil, gedək!

– Bu yağışda necə gedək?! Zığ dizə çıxır!

– Ləngimək olmaz. Yağış papağımı zay eləyər, məst ilə də gedə bilmərəm. Sən buralardan ayağıma olası bir çarıq tap, bir də bir papaq, köhnə də olsa olar.

Nağı ev yiyəsinə dedi, qonşudan yekə, qıllı bir çoban papağı alıb gətirdilər, amma çarıq tapılmadı. Evdə mal gönü var idi. Nağı tez bundan bir cüt kəsdi, tükünü qaşımamış beş-altı yerindən deşdi, bir cüt çarıq düzəltdi.

Yağış bir az səngimişdi. Çay-çörəkdən sonra Aşıq Ələsgər çarığı geyindi, gətirdikləri papağı da, məsti də büküb heybəyə qoydu, yola düşdülər.

Şınığa yaxınlaşanda yağış yenə başladı. Aşıq Ələsgər papağını dəyişdi. Bir ayağına baxdı, bir başına baxdı, gördü çox qəribə görkəmi var. Nağıya dedi:

– Oğul, papaqla çarıq məni lap tanınmaz şəklə salıb. Bunları çıxartmayacağam, dilimi də dəyişəcəyəm. Heç kəsə bildirmə ki, bu Aşıq Ələsgərdir. Soruşan olsa, de ki, şəyirdimdir.

Nağının bu kənddə bir qonaqçısı var idi. Bunlar gedib, qapıya yetişəndə, bir qadın çıxdı, Nağıya "xoş gəldin" elədi. Gördü ki, Nağının yanında bir kişi var, üç adam böyüklükdə. Qadın Nağıdan soruşdu:

– A Nağı, bu kimdi?

– Mənim şəyirdimdi.

Arvad bir də Aşıq Ələsgəri başdan-ayağa süzdü; başındakı papağa, ayağındakı qıllı çarığa bulaşmış bir batman qədər palçığa baxandan sonra dedi:

– Bəs bu yekəlikdə aşıqmı olar?! Bunu öyrətməkmi olar?!

Arvadın dediklərinin hamısını Aşıq Ələsgər eşitdi, amma heç üstünü vurmadı.

Nağı dedi:

– Nə eləyim, yalvardı, əl çəkmədi, mənimlə bərabər gəldi. Öyrənər, öyrənər, öyrənməz də öyrənməz. Öz işidi.

Arvad gördü ki, bu kişinin əynindəki çuxa çox qiyməlidir. Nağıdan soruşdu ki, onu haradan alıb? Nağı dedi ki, Aşağı Ayıblıda toy elədim, mənə bağışladılar. Gördüm ki, əynimə yekədi, ona verdim. Arvad bir az da bərkdən dilləndi:

– Deyirəm axı.

Aşıq Ələsgər ürəyində dedi ki, yaxşı, sənə bir dağ çəkərəm.

Evin kişisi evdə yox idi. Nağı dalanda çəkmələrini çıxartdı, içəri keçdi. Arvad Aşıq Ələsgərə dedi ki, çarığını çıxart. Aşıq Ələsgər özünü eşitməzliyə vurdu. İçəri keçmək istəyəndə, arvad qolundan tutdu, dedi:

– Əşi, xalı-gəbəni bulayacaqsan, çarığını burada çıxart!

– İçəridə çıxardacam. Burda çıxartsam, it aparar, ayaqyalın qalaram.

Arvad Aşıq Ələsgərin qolundan tutmaqla saxlayamı bilərdi. O, ayaqlarının bir o tərəfini, bir də bu tərəfini qapıdakı odun kötüyünə sildi, içəri keçdi, çarığını çıxartdı, gəbənin qulağını qaldırıb, altına qoydu. Arvad bilmədi gülə, bilmədi ağlaya. Nağı onu bir az "danladı", sonra üzünü arvada tutub dedi:

– Fatma bacı, bağışla!

Nağı səsini bir az alçaltdı, dedi:

– Bu kişinin qulağı ağır eşidir, ağlı da dəm-dəm gəlir.

Bu zaman evin kişisi gəldi. Xoş, beş, on beş... Nağı ilə opusdü, görüşdü. Aşıq Ələsgərin də əlindən tutub, “xoş gəldin” elədi. Tez iki beçə kəsdi. Fatma samavara su tökdü, od saldı. Aşıq Ələsgər dilləndi:

– A Nağı lələ, mənim dünyada bilmədiyim bir şey yoxdu; əmə bircə bunu bilmədim ki, Fatma bacı niyə odnan suyu bir yerə doldurdu?

– Əşi, samavardı da. Odun yeri ayrıdı, suyun yeri ayrıdı. Bunda çay qaynadırlar.

Aşıq Ələsgər ləhcəsini bir qədər də dəyişib, yastılaya-yastılaya dedi:

– Allah, yaratmana şükür!

Fatma əlini əlinə vurdu, bərkdən güldü. Sonra beçələrin ətini ocağın üstünə qoydu, çölə çıxdı. Qonşuda kimi gördüsə, dedi bizə bir kişi gəlib; elə bil ki, heç dünya görməyib. Özü də aşıqlıq öyrənmək istəyir.

Qonum-qonşu gəlib qapıdan “dünya görməmiş” kişiyə tamaşa eləməyə başladı.

Fatma xörəyi hazır elədi. Yaxşı tikələrini seçib Nağı ilə ərinin boşqabına yığdı; qanadlarını, qabırğalarını, boyun sümüyünü də bir boşqaba yığıb Aşıq Ələsgərin qabağına qoydu. Nağı istədi ki, qabını dəyişə, Aşıq Ələsgər işarə elədi ki, tərpətmə. Sonra öz qabındakı xörəyi də Nağının boşqabına tökdü, dedi:

– Mən ustadımnan barabar yeməsəm, canıma sinməz.

Xörəyi yedilər. Fatma qablarını yığışdırandan sonra çay gətirdi.

Nağıgilin istəkan-nəlbəkisi bəzəkli idi, Aşıq Ələsgərinki sadə. Aşıq Ələsgər istəkanı əlinə götürdü, nəlbəkinin üstünə saldı, hər ikisi qırıldı.

Fatmanın acığı tutdu, amma üstünü vurmadı.

Nağı dilləndi:

– Əşi, nə iş gördün?!

– A Nağı lələ, andır nə yaman istiymiş?!

– Çay isti olar da.

– Mən bunu içə bilmyəjəm, su içəjəm.

Fatma bir istəkan su gətirdi, dedi:

– Gözlə, indi də soyuq olar, salıb qırarsan!

Aşıq Ələsgər suyu birnəfəsə içdi, istəkanı yerə qoyub dedi:

– Bax, belə ha.

Aşıq Ələsgər gözünü evə gəzdirəndə, küncdə yekə bir qarpız gördü, dilləndi:

– A Nağı lələ, o nədi?

– Əşi, nenirsən nədi?!

– Sən Allah, nədi?

– Qarpızdı.

– Mənim dünyada görmədiyim şey yoxdu, əmə bunnan heş görməmişəm. Onu nə təhəri qayırıflar?

– Əşi, bostanda bitir, yeməli şeydir.

– Onun ağacı nə yekəlihdə oloy?

Nağıdan qabaq Fatma dilləndi:

– Onun ağacının başı buluda dəyir.

– Allah, yaratmana şükür!

Fatma durdu, qarpızı bir siniyə qoydu gətirdi. Nağıya dedi ki, kəsin, bu kişi doyunca yesin. Ev sahibi qarpızı dilimlədi, yeməyə başladılar.

Bunlar qarpız yeməkdə olsun, sizə camaatdan deyim. Xəbər qonşudan-qonşuya bütün kəndə yayıldı ki, Həsəngilə (Fatmanın ərinin adı Həsən idi) bir aşıqla bir canlı kişi gəlib, dünyada heç-zad görməyib; çay içməyi, çörək yeməyi də bilmir, özü də aşıqlıq öyrənmək istəyir.

Bu xəbər gedib toy evinə də çatdı. Aşıq Əsədullahgil də bunu eşitdi.

Soruşdular ki, aşığın adı nədi? Dedilər, Nağıdı, özü də bu nişan cavan bir adamdır.

Aşıq Əsədullahın yadına düşdü ki, bu, bir qədər bundan irəli bozartdıqları aşıq olacaq. O saat adam göndərdilər ki, gedin o aşığı da buraya çağırın, yanındakı kişini də, deyin ki, sazlarını da götürüb gəlsinlər.

Toy evindən göndərilən adam Həsənə dedi:

– Aşıq Əsədullah xahiş elədi ki, axşam toya gələndə qonaqlarını da gətirsin. Fatma dilləndi:

– Həsən, biz Nağını da götürüb gedək; bu kişi evdə qalsın, heç üzə çıxası deyil.

Gələn adam dedi:

– Camaat da, aşıqlar da o kişini görmək istəyirlər. Tapşırdılar ki, sazlarını da gətirsinlər.

İş yaxşı səmtinə düşmüşdü. Bir qədərdən sonra Aşıq Ələsgərgil sazlarını da götürdülər, toy evinə gəldilər.

Məclisə daxil olan kimi Nağı salam verdi, ayaq tərəfdə bir yerdə əy-

ləşdi. Amma Aşıq Ələsgər düz baş tərəfə addadı, Aşıq Əsədullahın yanındakı boş yerdə əyləşdi. Bura Aşıq Cəfərqulunun yeri idi. O, ayaq üstə söhbət eləyirdi.

Fatma pərdənin dalına addadı, arvadların arasında əyləşdi, başladı "dünya görməmiş" bu kişinin işlərindən nağıllamağa. Arvadlar pərdənin o tərəf-bu tərəfindən Aşıq Ələsgərə tamaşa eləyirdilər. Bir gülüşmə, bir qaqqıltı var idi, gəl görəsən.

Aşıq Əsədullah üzünü Nağıya tutub dedi:

– A Nağı, sən nə abırsız adamsanmış! Ondakından üzündə su olmadı, bir də sazını götürüb, kəndlərə düşdün?!

– Ay usta, kəndlərə düşəndə, mən kimə nə eləyirəm ki!

– Bundan artıq nə eləmək istəyirsən?! Bizi hara çağırırlarsa, görürük ki, bizdən qabaq gəlib gözləyirsən! Sən gərək baş qaldırıb, el içində gəzməyəsən. Utanmaz-utanmaz yenə saz götürüb, aşıqlıq eləyirsən!

– Ay usta, sazı özünüz qaytarıb verdiniz, mən də aşıqlıq eləyirəm.

– Bu dəfə alanda, təpənə vurram, ağlın başına gələr! O kişi nə işin sahibidir?

– O kişi aşıqlıq öyrənmək istəyir. Əl çəkmədi, mənlə gəldi.

– Deməli, sən şəyird də gəzdirisən! Eləsə, şəyirdinə de, bir-iki kələm oxusun, səsini eşidək.

Nağı üzünü Aşıq Ələsgərə tutub dedi:

– Əşi, dur, bir-iki qatar oxu!

Aşıq Ələsgər yerindən durdu, sazı köynəyindən çıxartdı. Sol əli ilə çalmağa başlayanda, yenə hamı gülüşdü. Aşıq Əsədullah da əvvəlcə güldü, sonra acıqlı- acıqlı dedi:

– Aşıq Cəfərqulu, bunların haqq-hesabını qurtar! Camaat bizə məəttəldi!

Aşıq Ələsgər üzünü Nağıya tutub dedi:

– A Nağı lələ, o nə deyey?

– Deyir ki, siz ikiniz bir olun, biz ikimiz də bir, deyişək.

– Vallah, sən də lazım döyülsün; bunnarın ikisinin də boynunu qayış kimi eşərəm.

Camaat yenə bərk gülüşdü. Nağı dedi:

– Əşi, döyüşmək demir ey, deyişmək deyir.

– Deyişmək nə təəri oloy?

– Deyişmək odur ki, sən də onun oxuduğu kimi söz oxuyasan, sual-

larına sözlə cavab verəsən.

– Hə, indi başa düşdüm.

Aşıq Cəfərqulu sazı sinəsinə basdı, görək Aşıq Ələsgərə nə dedi, camaat nə eşitdi:

> Əzəldən "can" deyib, "can" eşidirik,
> İndi bivəfalıq ay nədən oldu?!
> Deyirdin, ölüncə dönmərəm səndən,
> Yad ilə aşnalıq ay nədən oldu?!

Aşıq Ələsgər dedi:

– Bu söz Tufarqannı Abbasındı. Onu mən də billəm. Orta bəndini də mən oxuyacam.

– Elə şey ola bilməz; indi ki mən oxumuşam, mənimdi. Gərək sən də belə bir söz oxuyasan!

Aşıq Ələsgər dedi:

– Nolar ki! İki bəndi sənin olsun, bircə bəndi mənim!

– Yox, olmaz! Sazı bəri ver!

Bunlar belə cəhl çəkirdilər, çöldən xəbər gətirdilər ki, Qazaxdan Annax bəy gəldi bir dəstə hörmətli adamla. Aşıq Ələsgər Nağıya işarə elədi ki, çölə çıx. Əlini də dodağının üstünə qoydu. Yəni ki, de ki, tanışlıq verməsinlər.

Nağı Aşıq Ələsgərin işarəsini başa düşdü, çölə çıxdı. Annax bəyə dedi ki, o biri adamlara da de, tanışlıq verməsinlər, Aşıq Ələsgər içəridədir.

Bəylər bir-birini bu məsələdən halı elədilər, içəri daxil olub, yaxşı yerlərdə əyləşdilər. İsrafil ağa, Kazım ağa, Poxes Musa, Xoxanoğlu Alı... gəlmişdilər.

Kazım ağa Aşıq Əsədullaha üzünü tutub soruşdu:

– Bu ayaq üstündəki aşıq kimdir?

– Kim olmağını bilmirəm, aşıq deyil, aşıqlıq öyrənmək istəyir.

Aşıq Cəfərqulunun sözünün qabağına söz oxuya bilmir, qalıb ayaq üstündə. A başına dönüm, hər yetirən bir çömçə götürüb. Belələrinin sazını alıb təpəsinə vurmasan, ağlı başına gəlməz.

İsrafil ağa yerindən dilləndi:

– Aşıq Əsədullah, yazıq adamdı, buraxın getsin, uşağını dolandırsın!

– Başın üçün buraxmaram! O biri tayını bir neçə gün bundan əvvəl nə abıra saldıq; bu gün gəlib, yenə aşıqlıq eləyir. Hələ utanmaz-utanmaz bunu da yanınca şəyird gətirib.

– Aşıq Əsədullah, mən indi bu kişidən ötrü minnət eləyirəm; bir də səndən ötrü minnət eləməyəcəm ha! Başına da and içibsən, bundan sonra özün bilərsən.

Aşıq Ələsgər gördü ki, iş möhkəmləndi, Aşıq Cəfərquluya dedi:

– Mən də "Ay nədən oldu" oxuyacağam, görək kimin sözü qurtarır?! Sözünü tərcüman elə!

Aşıq Cəfərqulu oxuduğu bəndi dilcavabı deyəndən sonra, aldı görək Aşıq Ələsgər həmin sözün müqabilində nə dedi, deyək, şad olasınız:

Yerin, göyün, ərşin, kürsün, insanın,
Künhü, bünövrəsi ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seçdi?
Hikmətin dəryası ay nədən oldu?

Məclisdəkilər gördülər ki, bu heç bayaqkı adama oxşamır. Düzdü, sazı soləlli çalır, amma insan kimi danışdırır.

**Aldı Aşıq Cəfərqulu:**

Başına döndüyüm, gözəl şah hanı?!
Şahın dövlətindən yol budur, tanı,
Deyirdin həftəyə alarsan kamı,
Həftə ilə döndü, ay nədən oldu?

**Aldı Aşıq Ələsgər:**

Yeddi qat göy nə növünən quruldu?
Neçə qəndil, neçə sütun vuruldu?
"Sən kimsən?", "Mən kiməm?" – kimdən soruldu?
Ustadlar ustası ay nədən oldu?

**Aldı Aşıq Cəfərqulu:**

Gözəl şah üstümə sala bir saya,
Rəhm eləyə mənim kimi gədaya,
Abbas təəccüb eylər sirri-Xudaya,
Pəri ki bəşərdi, ay nədən oldu?!

**Aldı Aşıq Ələsgər:**

Nədən loh yarandı, nədəndi qələm?
Neçə hüruf o məclisdə oldu cəm?

Aləmi-ərvahda qurulan ələm,
Ayəsi, şüqqəsi ay nədən oldu?

Növbə Aşıq Cəfərquluya çatanda, dayandı. İstədi sazın kökünü dəyişə, özgə söz başlaya, Aşıq Ələsgər dedi:

– Aşıq Cəfərqulu, sonrasını de!

– Bəs, eşitmədinmi, tapşırmasını dedim.

– Mənim sözüm hələ qurtarmayıb, qulaq as:

Mansırın toxmağı, İsrafil suru,
Kəbənin Zəmzəmi, Musanın Turu,
Nitqimin quyası, didəmin nuru,
Sərimin sevdası ay nədən oldu?

Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar:
Elmi hardan tapdı cümlə aşıqlar,
Sirri-müəmması ay nədən oldu?

Aşıq Cəfərqulu gördü ki, çalmır, oxumur, ayaq üstündə boş durmaq biabırçılıqdır. İstədi ki, keçib yerində otura, Aşıq Ələsgər qolundan tutdu:

– Aşıq Cəfərqulu, haraya gedirsən?! Sənin oxuduğun sözün müqabilində mən bağlama dedim. Mənim oxuduğum bağlamanın üç bəndi sən oxuduğun sözün əvəzi. İkicə bəndin cavabını ver, sonra əyləşə bilərsən.

Aşıq Cəfərqulu dedi:

– Burada nə böyük iş oldu! Bir söz mən Abbasdan oxudum, birini də sən Aşıq Ələsgərdən. İndi sana elə söz deyəcəm ki, məəttəl qalacaqsan.

Məclisdəkilər hərə bir yandan dedilər ki, indi də bu aşıq deyəcək. Aşıq Cəfərqulu istər-istəməz razı oldu.

**Aldı Aşıq Ələsgər:**

Bizdən salam olsun arif olana,
Haqq nə gündə xəlq eylədi dünyanı?
Yer ilə göy nə saatda bəhs etdi,
Yer nə üstə bəndə saldı asmanı?

Aşıq Cəfərqulu qaldı məəttəl, Aşıq Ələsgər dedi:

– Aşıq Cəfərqulu, de gəlsin!

– O biri bəndini də de; ikisinə birdən cavab verəcəm.

Aşıq Ələsgər aldı o biri bəndini:

Asman nə istədi Bari-Xudadan?
Xuda nə əmr etdi ərşi-əladan?
Kim gəldi apardı kimi haradan?
Nə surətdə gördü Məscid-Əqsani?

– Aşıq Cəfərqulu, buyur!

– Sən de, hamısına birdən cavab verəcəm.

**Aldı Aşıq Ələsgər:**

Nə ab ilə orda aldı dəstamaz?
Neçə rükət əda eylədi namaz?
Neçə kimsənəyə oldu pişnamaz?
Onlar baqidirmi, olubmu fani?

Tez verəsən bu sözlərin isbatın,
Nədəndi bənası Abi-həyatın?
Hardadı məqamı Mələk əl-mövtun?
Nə tövr ilə alır insandan canı?

Bu təzə kəlamdı, olsun yəqini,
Kəbə – qibləm, dinim – Məhəmməd dini,
Atam Alməmməddi, Göyçə sakini,
Adım Ələsgərdi, yaxşı bil, tanı!

Tanıyanlar tanıyırdı, tanımayanların da çoxusu bildi ki, bu, Aşıq Ələsgərdir. Aşıq Əsədullahın əhvalı elə qarışmışdı ki, o da bu aşığın Ələsgər olduğunu bilmədi. Elə hesab edirdi ki, Aşıq Ələsgərdən oxuyur.

Hamı tələb elədi ki, Aşıq Cəfərqulu ya sözün cavabın desin, ya da sazı versin. Cəfərqulu sazı yerə qoymağa məcbur oldu. Nağı sazı götürüb, arxa tərəfinə addatdı.

Aşıq Əsədullah meydana çıxdı. Bir o tərəfə, bir bu tərəfə hərləndi, qeyzli-qeyzli Aşıq Ələsgərə dedi:

– Gör bu saat sənin başına nə iş gətirəcəm!

Aşıq Ələsgər halını pozmadı, dedi:

– Buyur!

Aşıq Əsədullah sazın kökünü dəyişdi, görək “Misri” havası ilə nə dedi, məclisdəkilər nə eşitdi:

Solaxay aşıqsan, azdı kamalın,
Qilü-qallı bir bazara düşərsən.
Altmış yaşda təzə şəyird olubsan,
Vəzifəndən tez kənara düşərsən.

**Aldı Aşıq Ələsgər:**
Məğrurluq eyləyib, ustadam demə,
Vaxt olar, bir yerdə dara düşərsən.
Baş tülək deyilsən, çolpa balasan,
Sərgərdan qalarsan, tora düşərsən.

**Aldı Aşıq Əsədullah:**
Nabələdsən aşıqlığın işinə,
Dözəmməzsən məntək nər savaşına,
Yönünü salaram dağlar başına,
Çovğuna, borana, qara düşərsən.

**Aldı Aşıq Ələsgər:**
Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa,
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən.

**Aldı Aşıq Əsədullah:**
Sən Əsədullahla girmə meydana,
Onu aşıqlıqda tək doğub ana,
Şəyirdli-ustadlı sallam zindana,
Gözü yolda intizara düşərsən.

**Aldı Aşıq Ələsgər:**
Satmaynan Nağıya ərkinazını,
Zimistana döndərərəm yazını,
Soyaram libasın, allam sazını,
Yal-quyruğu yolux yola düşərsən.

Aşıq Ələsgər sözünü tərcüman eləyəndən sonra dedi:

– Aşıq Əsədullah, sözünü nə tez tamam elədin?! De gəlsin! Aşıq Əsədullah dillənə bilmədi. Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Saxla dilin, özün üçün yağıdı,
Aşıq Ələsgərin odlu çağıdı,
Çalar qaynağına, səni dağıdı,
Göydən yerə parça-para düşərsən.

Söz tamama yetişən kimi hərə bir yandan Aşıq Əsədullaha dedi ki, sazı versin. Aşıq Əsədullah dedi ki, elə şey ola bilməz. Mən oxuduğum elə-belə söz idi, o da onun qabağını oxudu. İndi bağlama deyəcəm, gərək açsın.

Aşıq Ələsgər dilləndi:

– Bağlamanı da de!

Aşıq Əsədullah irəvanlı Mir Məcidin bir bağlamasını yadına saldı; götürdü, görək bu dəfə nə dedi, məclisdəkilər nə eşitdilər:

Xilafət mülkünün, şahənşahının,
Üç yüz altmış altı qulamı vardır.
On iki köşkdü, qırx səkkiz hücrə,
Üç əzim şəhrində nizami vardır.

**Aldı Aşıq Ələsgər:**

Rişeyi-nübüvvət, nəsli-əlaya,
Əysik qulun ərzi-salamı vardır.
Üç yüz altmış altı gündü, qırx səkkiz həftə,
On iki ayın üç əziz bayramı vardır.

Bəlkə yüz yerdən Aşıq Ələsgərə "afərin!" dedilər. Aşıq Ələsgər oxuduğunu tərcüman eləyəndən sonra Aşıq Əsədullaha dedi:

– Aşıq Əsədullah, yaxşı olar ki, bazara öz bağının meyvəsindən çıxardasan.

Aşıq Ələsgərin nə dediyini məclisdəkilərin çoxu da başa düşdü. Aşıq Əsədullah dedi:

– İndi ki, mən oxuyuram, mənimdi. Sən cavabını ver!

– Onda de gəlsin!

**Aldı Aşıq Əsədullah:**

Bir gülşəndə gördüm beş qönçə xəndan,
On iki dəstə gül, on dördü reyhan,
Bir çeşməsin gördüm, nur idi əlan,
Yüz iyirmi dörd min sücamı vardır.

**Aldı Aşıq Ələsgər:**

Beş - pənci-Ali-Əbadı əzimü əziz,
On iki imam, çardəh məsum düzbədüz,
Yüz iyirmi dörd min peyğəmbərimiz,
Hər birinin ayrı məqamı vardır.

**Aldı Aşıq Əsədullah:**

Bir məscidin gördüm əcəb mötəbər,
Altı min altı yüz altmış altı dər,
Altmış pəncərədi, yüz on dörd minbər,
Otuz sütun üstə davamı vardır.

**Aldı Aşıq Ələsgər:**

Altı min altı yüz altmış altı gül![*]
Yüz on dörd surədir Quran, yəqin bil.
Altmış nisfi, otuz cüzi-müttəsil,
Doxsan min kəlmədə tamamı vardır.

**Aldı Aşıq Əsədullah:**

Bir mehrabda gördüm əcayib Quran,
On yeddi səhifədi, on səkkiz xoş han,
İyirmi sətirdi, əlli bir bəyan,
Beş cilid içində tamamı vardır.

**Aldı Aşıq Ələsgər:**

Elmi-ibadətdi əcayib Quran,
On yeddi rükətdi, on səkkiz xoş han,
Əlli bir sünnətdi, yerbəyer qılan,
Məxrəci, səktəsi, idğamı vardır.

Aşıq Əsədullah gördü ki, Aşıq Ələsgər bağlamanı açdı. Fikirləşdi ki, sözü öz adına tapşırmağın başı yoxdur. Aldı, görək sözün tapşırmasını necə dedi:

Əgər əsli-nəslim bilmək etsə çak,
Görüm ki, dur etsin dövrünü əflak,
İrəvan, Mir Məcid seyyidi-qəmnak,

[*] Gül – Quran ayəsinə işarədir.

Bisəmər-bisəmər kalamı vardır.

İndi bilməyənlərə də aydın oldu ki, söz Aşıq Əsədullahın deyilmiş, irəvanlı Mir Məcid ağanın imiş.

Görək Aşıq Ələsgər sözünün tapşırmasında nə dedi:

Ələsgərəm, qəmdən olmaram azad,
Haqdı mizan, Sirat - puli-qiyamat,
Üsyan, tüğyan, çaşqın, düşgün, bisavad...
Ah çəkmək dilimdə müdamı vardır.

Ələsgərin bu cavabından sonra Aşıq Əsədullah sazın kökünü dəyişmək istədi ki, bir bağlama da desin. İsrafil ağa yerindən dilləndi:

– Aşıq Əsədullah, ataların belə bir sözü var: "Adın nədi, Rəşid, birini de, birini eşit". İndi də Aşıq Ələsgər deyəcəkdir.

Aşıq Əsədullah İsrafil ağanın sözünü çöndərə bilmədi. Hamı İsrafil ağanın sözünü təsdiq elədi. Aşıq Əsədullah çar-naçar razılaşmalı oldu. Amma bir şərt qoydu ki, mən oxumamışam, gərək dediyi bağlama dindən, şəriətdən, Qurandan olmasın; gözümüz gördüyü şeylərdən desin, mən də cavab verim. Aşıq Cəfərqulunun bağlamağı da düzgün olmadı. Cəfərqulu molla ha deyildi, bilə idi ki, dünya nə günü yaranıb, göy Allahdan nə istəyib, Məscidi Əqsaya gedən kim imiş, neçə rükət namaz qılıb, Əzrayılın yeri haradadı, daha nə bilim nə...

Aşıq Ələsgər üzünü camaata tutub dedi:

– Mən də Aşıq Əsədullahın bu sözünün tərəfdarıyam. Aşıq Ələsgər gözünü məclisə gəzdirdi, sazı sinəsinə basdı, aldı görək "Müxəmməs" havası ilə nə dedi, Aşıq Əsədullah və məclisdəkilər nə eşitdi. Biz də sazla deyək, şad olun:

Bu gün bir əcayib gördüm, təşbehi heyvana yetər,
Ariflər, uzaq düşməyin, nisbəti ilana yetər,
Cəsədi qüdrətdəndi, əməli insana yetər,
Hərdən ki, nərə çəkər, sədası ümmana yetər.

Aşıq Əsədullah nə qədər fikirləşdisə, yadına belə bir heyvan düşmədi. Aşıq Ələsgər saz çalmağı dayandırdı, Aşıq Əsədullahın üzünə baxdı. Aşıq Əsədullah dedi:

– O biri bəndini de. Mən ikisinə birdən cavab verəcəm.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Yeddi bağırsağı var, qarnında aşkar dolanır,
Yalnız ki mən demirəm, onu görən hamı qanır,

Əjdahalar, pələnglər görəndə candan usanır,
Başını götürüb qaçar, hərəsi bir yana yetər.

Aşıq Əsədullah yenə dillənmədi, fikirləşdi. Məclisdəkilərdən bir çoxu ona dedi ki, cavab verə bilmirsənsə, sazı yerə qoy!

Aşıq Əsədullah dedi:

– Bu, nədirsə, bir şeydir. O biri bəndlərini də desin, hamısına birdən cavab verəcəm.

Aldı, görək bu dəfə Aşıq Ələsgər nə dedi:

Dümbünü çəkibdilər cəsədindən yen ziyada,
Adlanıb, isbatlanıb, hər tərəfə salıb səda,
Bəyləri minər gəzər, heç yerə getməz piyada,
Nə ayağı yerdədir, nə səri asmana yetər.

Aşıq Əsədullah dilləndi:

– Ay camaat, bu aşıq hamıya sataşmışdı, bircə qalmışdı bəylər. Görün elə də heyvan olarmı ilana oxşaya; əjdahalar, pələnglər ondan qorxa; qarnında yeddi bağırsağı ola, həm də bəyləri minə?!

Aşıq Əsədullah belə deyirdi ki, bəlkə, bəylər onun tərəfini saxlaya. Gördü yox, bəylərdən də ona bir kömək olmadı. Yenə fikirləşməyə başladı.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Məqədindən taam yeyir, qəyy eyləyir dahanından,
O vaxtında qarşı duran, gərək ki, keçsin canından,
Üz görməz qardaşına, xof eyləməz düşmanından,
Hər kimə xişm ilə baxsa, ölməsə də, cana yetər.

Onun xörəyini deyim, təşbehi quş yumurtası,
Qarnında zikr eləyir, insana yetişir səsi,
Dilini ona vuranda, çıxır bir üryan balası,
Qanadı yox, quyruğu yox, uçar, biyabana yetər.

Bu dəfə Aşıq Əsədullahın ayağı lap yer aldı, dedi:

– Ay camaat, siz bir yalana baxın; görün elə də heyvan olarmı ki, gerisindən yeyə, ağzından xaric eyləyə?! Qanadsız-quyruqsuz uça?! Bu söz tamam dolaşdırmadı. Əgər bu dediklərini özü bir şeyə yozdu, sözüm yoxdu; yox, yoza bilməsə, mən bir bağlama deyəcəm, cavab versin!

Aşıq Əsədullahın belə deməyinə tərəfdar çıxanlar da oldu. Çünki bir Əsədullah yox, məclisdəkilərin çoxu fikirləşə-fikirləşə qalmışdı.

Aşıq Ələsgər "baş üstə", - dedi, aldı sözün tapşırmasını:

Hər kəsə nəfəsi dəysə, ölməsə də, gedər huşdan,
Üç yerindən kəməri var, qurşayıb zəri-gümüşdən,
Aşıq Ələsgər deyər, hər kəs baş tapsa bu işdən,
Ona bir tərif deyərəm, gedər Alosmana yetər.

Bəli, mənim əzizlərim, elə ki, sözünü tamamladı, məclisdəkilərin hamısı Aşıq Ələsgərə diqqət elədi ki, görək bu bağlamanı necə açacaq.

Aşıq Ələsgər dayandı, Aşıq Əsədullahın üzünə baxdı. Aşıq Əsədullah dedi:

– Sözünü özün izah elə!

Aşıq Ələsgər bəylərin birinin qucağındakı rus beşatanını göstərib dedi:

– O tüfəngə baxın; görün dediyim nişanlar o tüfəngdə var, yoxsa dolaşdırma demişəm?!

Məclisdəkilərin hamısı Aşıq Ələsgərin tüfəng üstündə belə bir bağlama düzəltdiyinə heyran qaldılar. Hərə bir tərəfdən Aşıq Əsədullaha dedi ki, kişinin bağlamasına söz ola bilməz, səni bağladı, sazı ver!

Aşıq Əsədullah sazı yerə qoydu, pisikmiş halda keçib yerində oturdu. Nağı bu sazı da o birinin yanına qoydu.

İsrafil ağa dilləndi:

– Aşıq Əsədullah, sənə demədimmi bu kişini burax getsin?! Sözümə baxmadın. İndi səndən ötrü minnət eləməyəcəm.

Aşıq Əsədullah dedi:

– Mən nə bilə idim ki, bu, Aşıq Ələsgər imiş?!

Aşıq Ələsgər dedi:

– Aşıq Əsdullah, siz bir bayatı ilə mənim şəyirdimi bağlayıbsınız.

Amma bilin ki, bağlamaq elə olmur, belə olur. Gəlin sazlarınızı da götürün, pulunuzu da. Bir də siz olun, qatırçının qatırını hürküdün!

Aşıq Ələsgər Aşıq Əsədullahgilin sazlarını da, yığılan pulu da onlara verdi. Nə qədər dedilər ki, pul sizindir, Aşıq Ələsgər razı olmadı, dedi:

– Mən pul qazanmağa gəlməmişəm; məqsədim bu aşıqlar ilə görüşmək idi ki, görüşdüm.

Aşıq Əsədullahla Aşıq Cəfərqulu məclisdə qala bilmədilər; sazlarını da götürüb getdilər. Aşıq Ələsgərlə Nağı təzədən camaata yaxşı söhbət elədilər, toyu yola saldılar.

Bu əhvalatdan sonra Nağı iki il də yenə Aşıq Ələsgərə şəyirdlik elədi, bilmədiklərini öyrəndi, yaxşı bir aşıq oldu.

Sizi həmişə sazda, söhbətdə, kefdə, damaqda olasınız!

## AŞIQ ƏLƏSGƏRLƏ ŞAİR NAĞI

Mənim əzizlərim, sizə haradan xəbər verim, Şəmşəddin mahalından. Şəmşəddin mahalında Şərif bəy adlı bir bəy var idi. Onun atası varlı bəylərdən biri idi. Şərif bəyin evlənmək vaxtı çatanda atası öldü. İki ilin içində qonu-qoşu, nökər-naib mal-dövləti elə dağıtdı ki, Şərif bəyin bircə "bəy" adı qaldı; necə deyərlər "quru bəy" oldu. Amma yenə də camaat ona "Şərif bəy" deyirdi. Adam kasıb olanda nə olar; bu zalım oğlunun adamlığı, qanacaq-mərifəti də yox idi. Danışanda dəvə-dəvədən dəm vurardı.

Bir gün Şərif bəy evlənmək fikrinə düşdü. Kimin qızını istədisə, vermədi. Şərif bəyin xasiyyətini bilənlər ona qızını verərdi?! Axırda özü kimi bir kişinin qızı ilə evlənməli oldu.

Aşıq Ələsgərlə şəyirdi Aşıq Usuf Şəmşəddin mahalına getmişdilər.

Toyların birində Şərif bəy bunlara rast oldu. Xahiş elədi ki, Aşıq Ələsgər, filan vaxt toy eləyəcəm, bir yana getməyin! Bunu eşidənlərdən, Aşıq Ələsgəri tanıyanlardan çoxusu dedi ki, o, hüllükbazın birisidir; sən onun toyuna getmə. Amma Aşıq Ələsgərdə belə bir xasiyyət var idi ki, istər ağa olsun, istər nökər olsun, istər varlı olsun, istər yoxsul olsun, hamının toyuna gedərdi. Şərif bəyə də söz verdi ki, dediyin vaxt sizdə olaram.

Aşıq Ələsgərgil söz verdikləri vaxt Şərif bəyin evinə getdilər. Bəyin toy tədarükü hələ düzəlməmişdi. Aşıq Ələsgərə dedi ki, üç gündən sonra toyu başlayacam. Şərif bəy əysik işlərinin dalınca getdi. Evdə də Aşıq Ələsgərgilə hörmət eləmədilər. Bəyin anası aşıqların "tez gəlməsinə" bir az donquldandı da. Kəndin qanan adamları aşıqları evlərinə apardı, yaxşı hörmət elədi.

Üç gündən sonra toy başlandı. Şərif bəy özünə layiq də toy elədi.

Heç bilmədi ki, bu altı gündə Aşıq Ələsgərgilin vəziyyəti necə keçdi. Toydan sonra Şərif bəy aşıqları evə apardı. Anası qonaqlara şor-çörək qoydu. Çörək nə çörək, darı fətiri. Sonra da bir dəsmal gətirdi ki, bu da sizin toy xələti. Aşıq Ələsgər gördü ki, yox, Şərif bəy aşıqları sarıdı. Neçə ilin aşığı idi, başına belə bir iş gəlməmişdi. Daha bilmədi ki, Şərif bəyin elə qandığı bu qədərdir.

Aşıq Ələsgər oradan durandan sonra Şərif bəyə bir həcv dedi.

Həcv iki günün içində oradakı kəndlərin hamısına yayıldı. Şərif bəy

də həcvi eşitdi, qaldı yana-yana. Şərif bəy kimi adam Aşıq Ələsgərə nə edə bilərdi ki?!

Aşıq Ələsgərgil daha orada qalmadılar; toyun sabahısı günü kefləri pozğun halda Göyçəyə qayıtdılar.

Şərif bəy baş qaldırıb kənd içində gəzə bilmədi. Axırda Yekallar kəndinə gəldi. Şair Nağını tapdı, yalvardı ki, gərək Göyçəyə bir həcv deyəsən! Sən demə, Şair Nağı da ağıldan bir az yuxa imiş. Ağlına gələni yazdı, söyüşlə, latayırla Göyçəni həcv elədi. Nədənsə, həcv yaman tez yayılan olur. Beş-on günün içində yaxın kəndlərin hamısı eşitdi ki, Şair Nağı Göyçəni yaman bəzəyib.

Bəli, mənim əzizlərim, indi sizə haradan xəbər verim, Göyçənin Ağbulaq kəndindən. Ağbulaq kəndində Molla Əli, bir də Kalvayı İrvaham adlı iki kişi var idi. Bunların ikisi də dana alveri ilə məşğul idilər.

Deməli, payız olanda gedib oradan-buradan ucuz qiymətə dana alırdılar; qışda birtəhər saxlayıb, yaza çıxarırdılar. Payıza dönəndə dananın hərəsi olurdu bir cöngə. Aparırdılar şəhərlərdə birə-beş qiymətinə satırdılar.

Kalvayı İrvaham ilə Molla Əli dana almaq üçün Şəmşəddin mahalının Yekallar kəndinə gəlmişdilər. Bir evdə yığıncaq var idi. Molla Əligil də burada idilər. Ona kimi Şair Nağı da gəldi buraya. Bir az o yandan-bu yandan söhbət eləyəndən sonra mərdimazarın biri dedi:

– A Şair Nağı, Göyçəni bəzədiyini de, qulaq asaq!

Şair Nağı başladı, görək nə başladı. Biz sazla deyək, siz qulaq asın:

Düşəsiniz Şəmşəddinin əlinə,
Tərlan kimi sizi yola, göyçəli!
Kənd içində olanda diliniz ötür,
Çöldə dönürsünüz mala, göyçəli!

Molla Əli ilə Kalvayı İrvaham bir rəng aldı, bir rəng verdi. Amma dillənib heç biri bir söz demədi.

Şair Nağı sözü başlayanda qoşma ilə başlamışdı, dalını çevirdi müxəmməsə:

Cavanları qulampara, qocaları felmanıdı,
Ayaqlarında çöpük corab, çarıqları kalmanıdı,
Oxşayırlar persoylara, haranın müsəlmanıdı,
Səhər-səhər püş səbətin alırlar dala göyçəli.

Ağbirçək qarıları baş-başa kərmə çatırlar,

Ağsaqqal qocaları təndirə saşqı atırlar,
Yığılırlar hamısı kürsünün altda yatırlar,
Ala qarğa kimi püşü dağıdır çölə göyçəli.

Molla Əligil elə olmuşdular ki, çırtıq vursan, qanları töküləndi. Şair Nağı aldı o biri bəndini:

……………….............göyçəlinin qalağına,
İrisini arvadlar döşünə yığır, xırdasını balağına,
Hər yerin mundar eyləyir, ……………………
Qanmırlar murdar, təmiz, vururlar şələ göyçəli.

Ayıflarna kor olmurlar, bəyənmirlər bizim şoru,
Südün üzünü alırlar, suyu qalır qabda duru,
Qıcqırmış pendir tuturlar, itə versən, it quduru,
……………………… vurmaram dilə, göyçəli!

Yahya oğlu Şair Nağı düşmürmü onların yadına,
Ocaqlarına ……………həsrət qalıblar oduna,
Mən söymüşəm………………………………..
Şəmşəddin əşrəfidi, siz qara pul, a göyçəli!

Söz tamama yetişən kimi bəziləri güldü; qanan adamlar Şair Nağını məzəmmət elədilər ki, bu, yaxşı iş deyil! Molla Əli ilə Kalvayı İrvaham nə çörək yedi, nə də çay içdi. Oradan durdular, bilmədilər ki, nə eləsinlər. Çox fikirdən sonra belə məsləhətləşdilər ki, sözü yazıb, Aşıq Ələsgərə aparsınlar. Bəlkə, bu işə Aşıq Ələsgər bir əncam çəkə.

Kəndin içində bir oğlan uşağına rast gəldilər. Molla Əli onu yanına çağırıb dedi:

– A bala, oxuyubsanmı?

– Oxumuşam, indi də oxuyuram.

– Haraya qədər oxuyubsan?

– Altıncı baba qədər.

Molla Əli əlini cibinə saldı, bir qədər xırda pul çıxartdı, dedi:

– Al bu on şahını; get Şair Nağının yanına, Göyçəyə dediyi sözü yaz gətir. Gələndə on şahı yenə verəcəm.

Oğlan pulu aldı sevinə-sevinə getdi. Bir azdan sonra əlində kağız qayıtdı. Oxutdular, gördülər ki, olduğu kimi yazıbdır. Uşağa on şahı da verdilər, özləri də dana-zad almadılar, düz birbaş Ağbulağa qayıtdılar.

Molla Əli Aşıq Ələsgərlə çoxdan dost idi. Götürdü Aşıq Ələsgərə belə bir məktub yazdı: “Ey nuri-çeşmanım Aşıq Ələsgər! Atam öldü, sarsılmadım; qardaşım öldü, korşumadım; oğlum öldü, porsumadım; amma Yekaallar kəndində başımıza bir iş gəldi, bu dərdlərin hamısından betər oldu. Bir məclisdə “Şair Nağı” deyilən, bizi də pəsinmədi, Göyçənin adına bir həcv dedi. Ölüm bizə fərz oldu. Vuruş meydanı olsa, ölüncə vuruşardım. Söz meydanında Göyçənin kilidi sənsən. Şair Nağının dediyi həcvi yazıb sənə göndərirəm. Buradan beləsini sən özün bilərsən...”

Molla Əli Şair Nağının həcvinin üzünü köçürdü, yazdığı kağızın arasına qoydu, Kalvayı İrvahama dedi:

– Bu kağızı kimnən göndərək?

Kalvayı İrvaham dedi:

– Heç kimə verməк olmaz; mən özüm aparacam.

Kalvayı İrvaham atını mindi, yol başladı Ağkilsə kəndinə.

Payız günü idi. Hava qaraldı, yağış başladı, dalını qara çevirdi. Kalvayı İrvaham yağış-qar vura-vura günortadan xeyli keçmiş Ağkilsə kəndinə çatdı. Aşıq Ələsgərin evini xəbər aldı, atını sürdü qapıya.

Aşıq Ələsgərin qardaşı Məhəmməd qapının qarını kürüyürdü.

– Salaməleyküm!

– Əleykümə salam!

– Aşıq Ələsgərin evi buradır?

– Bəli, buradır, düş!

Kalvayı İrvaham atdan düşdü, içəri keçdilər. Məhəmməd çay-çörək hazır elətdi. Çay qabağa gələndə Kalvayı İrvaham soruşdu:

– Aşıq Ələsgər hanı?

Məhəmməd cavab verdi ki, Kəlbəcərə gedib.

Kalvayı İrvaham əlini dizinə vurdu:

– Bay sənin! Zəhmətim necə hədər getdi!

– Əşi, Aşıq Ələsgər evdə yoxdu, evi, qohum-qardaşı buradadır. Nə mətləbə gəlibsənsə, düzələr. Daha niyə vayışdanırsan!

– Mənə Aşıq Ələsgərin özü lazımdır.

Məhəmməd elə hesab elədi ki, toy işləri var, ona görə Aşıq Ələsgərin dalınca gəlibdir. Qonağı sakit eləmək üçün dedi:

– Əşi, çayını iç, Allah kərimdir!

Ona kimi Aşıq Ələsgərin qardaşı Məşədi Salah, Xəlil, oğlu Bəşir qapıdan girdilər, qonaqla görüşüb əyləşdilər. Çay içdilər, çörək yedilər.

Amma gördülər ki, qonağın boğazından çörək getmir, çox fikirlidir.

Məşədi Salah soruşdu:

– Kalvayı, nə fikir eləyirsən?

– Məşədi, fikirdir, bəs fikir deyilmi. Oradan buraya Aşıq Ələsgərin dalınca gəlmişəm, baxtımdan, o da evdə yoxdur.

– Toyunuz havaxt başlayır?

– Əşi, nə toy, nə filan! Mənim başıma gələn iş sənin başına gəlsə, bir saat da durub dincələ bilməzsən.

– Əşi, başına nə iş gəlib?

Kalvayı İrvaham Yekallar kəndində başlarına gələn əhvalatı Məşədi Salahgilə nağılladı. Sonra da Molla Əli yazdığı kağızı çıxartdı.

Məşədi Salah kağızı Bəşirə verdi, dedi:

– Oğul, oxu görüm, nə yazılıb!

Bəşir Molla Əlinin məktubunu da, Şair Nağının həcvini də oxudu. Bir az gülüşdülər, bir az da pərt oldular.

Kalvayı İrvaham dilləndi:

– İndi görün mənim yerimə siz olsanız, fikir eləyərsiniz, yoxsa eləməzsiniz?!

Məhəmməd dedi:

– Əşi, bu barədə heç fikir eləmə. Aşıq Ələsgər burada yoxdursa da, onun qohum-qardaşı buradadır. O içən sudan biz də içmişik. Allahın köməkliyi ilə Şair Nağının cavabını biz də qaytara bilərik.

Kalvayı İrvaham az qaldı ki, Məhəmmədi qucaqlayıb öpə:

– Ay sənin dilinin qadasın alım! Mənim istədiyim də elə bu deyilmi?!

Məhəmməd üzünü Bəşirə tutub dedi:

– Kağız-qələm gətir!

Bəşir kağız-qələm hazır elədi. Məhəmməd götürdü, görək nə dedi, Bəşir nə yazdı:

Eşitmişəm, hədyan yazıb bizim mahala Yahyoğlu,
Altmışında zurna tapıb, istəyir çala Yahyoğlu,
Gözünü tikib harama, baxmır halala Yahyoğlu,
Qızların odun şələsin alırlar dala, Yahyoğlu!

Yahya oğlu Şair Nağı bəyənmir kürsü, təndiri,
Odun şələsi çəkməkdən çiynini kəsib kəndiri,
Dədən Yahya çox yeyibdi, murdarramaynan pendiri,

…………………………… altını qala, Yahyoğlu!

Səhər-səhər xörəyindir pencər, kəngər, kortun, çaşır,
Qıjı, çiriş, cincilim, sündürük həddindən aşır,
İçirsən darı hörrəsi, saqqalın, bığın bulaşır,
Görən deyir: – Ağzını sil, batıbdır yala, Yahyoğlu!

Mən deyirəm bu sözləri, çünki sən düşəsən başa,
Yeyirsən darı cadını, qursağında dönür daşa,
……………………………………………
…………………………..…………………..

……………………………bu oldu bədələ bədəl,
Göyçəliynən bəsə girdin, çox çəkərsən cəngü-cədəl,
Gizlənmə tülkü kimi, Çənbərək meydanına gəl,
Şairliyin isbat olsun, düşsün mahala, Yahyoğlu!

Kalvayı İrvahamın əl-ayağı yerə dəymirdi; elə sevinirdi ki, elə bil, bütün dünyanı buna bağışlayıblar. Bu bəndi eşidəndə özünü saxlaya bilmədi:

– Ay sənin başına dönüm, bax belə ha!

Məhəmməd aldı sözün tapşırmasını:

Sözümdə rəkik tutma; həm çobanam, həm naşıyam,
Müxənnətə xan olmaram, mərd yolunun peşkaşıyam,
Öz adım Məhəmməddi, Ələsgərin qardaşıyam,
Nə sözün var, əsirgəmə, göndər dal-dala, Yahyoğlu!

Məhəmməd dedi:

– Bəşir, oxu görüm, necə yazıbsan!

Bəşir sözü oxudu, xeyli gülüşdülər. Hərəsinin qabağına yenə bir istəkan çay gətirdilər. Birdən Məhəmməd dilləndi:

– Aha, qağam gəldi.

Məşədi Salah dedi:

– Nə bildin gəldi?

– Eşikdə ayağının qarını çırpdı. Qağamdan başqa, heç kəsin ayağının səsi içəridə eşidilmir.

Bir də gördülər ki, Aşıq Ələsgər qapıdan girdi. Xoş, beş, on beş!

Öpüşdülər, görüşdülər. Aşıq Ələsgər çuxasını çıxartdı, əl-üzünü so-

yuq su ilə yudu, gəlib əyləşdi. Ona da bir istəkan çay gətirdilər.

Birdən Aşıq Ələsgərin gözü Bəşirin əlindəki kağıza sataşdı.

– A bala, o nə kağızdır?

– Məhəmməd əmim Şair Nağıya deyib, odur.

– Şair Nağı kimdir?

Bu dəfə Kalvayı İrvaham dilləndi. Yekallar kəndinə getməklərindən başladı, başlarına nə gəlmişdisə, hamısını təzədən Aşıq Ələsgərə nağılladı.

Aşıq Ələsgər əvvəl Molla Əli yazdığı kağızı Bəşirə oxutdurdu, sonra Şair Nağının yazdığı həcvi oxutdurdu, gülümsünüb dedi:

– Zalım oğlu lap aşıqlısına vurub. Siz yazdığınızı oxu, görüm necədir?

Bəşir Məhəmməd dediyi həcvi də oxudu. Qurtarandan sonra Aşıq Ələsgər başını buladı:

– Yox, bu olmadı. Bu sözü göndərsək, biz də olarıq Şair Nağının tayı. Özgə yerə göndərilən sözdə belə latayır, belə hədyan lazım deyil. Qabaqkını söysən də gərək mərifətlə söyəsən.

Ona qədər bir qab xörək gətirib Aşıq Ələsgərin qabağına qoydular. Aşıq Ələsgər qabı Kalvayı İrvahamın qabağına sarı elədi. Kalvayı İrvaham dedi ki, biz bu saat yemişik, sən ye. Aşıq Ələsgər xörəyi qabağına çəkdi, iştahla yedi. Sonra də üstündən bir istəkan qaynar çay içdi, üzünü Bəşirə tutdu:

– Oğul, sazı mənə ver, özün də kağız-qələm götür!

Aşıq Ələsgər belə deyəndə hamı bildi ki, nə deyir. Bəşir sazı Aşıq Ələsgərə verdi, özü də kağız-qələm hazır elədi. Aşıq Ələsgər sazın zilini zil, bəmini bəm, sinəsində müstəkam elədi, aldı görək Şair Nağıya nə dedi, Bəşir nə yazdı:

Qarışdırma Şəmşəddini, Göyçəni,
Gəndindən gəndimə yaz, Şair Nağı!
Hərca dilin salar bəlaya səni,
Çox da bilsən, danış az, Şair Nağı!

Arvadlar ki əlin vurar qalağa,
Yuyarlar, gün vurar, çıxardar sağa,
Xub yaraşır sənin kimi ulağa,
Noxta, torba, palan, biz, Şair Nağı!

Bu bəndi deyəndən sonra Bəşirdən soruşdu:

– Oğul, yazıb çatdıra bilirsənmi?

– Ay dədə, lap sənlə bərabər gedirəm. Sən de gəlsin!

Aşıq Ələsgər aldı o biri bəndini:

Bir ocaqdı, hədyan demə təndirə,
Dədən çox yeyibdi, söymə pendirə,
Qəza vurdu, başın keçdi kəndirə,
Sağlıqdan ümidin üz, Şair Nağı!

Göyərib gicirtkən, baş verib çaşır,
Doldur dağarcığı, Göyçəyə aşır,
Elə billəm qoca çaqqal ulaşır,
Olsa sənin kimi yüz Şair Nağı!

Şəmşəddin iyiddir aləmdə məşhur,
Aldədədə olur möcüzat zühur,
Əl çəkmərəm səndən dəm olunca sur,
Vaxt ikən qəbrini qaz, Şair Nağı!

Aşıq Ələsgər Bəşirə dedi:

– Oğul, oxu görüm, düzmü yazıbsan!

– Ay dədə, qurtardın?

– Qurtardım.

– Bəs tapşırması hanı? Nə bilsinlər ki, kimin sözüdür?

– Oğul, elə kimin sözü olduğunu bilməsələr yaxşıdır. Bu sözdə də hədyan var. Hələ oxu görüm, nə təhəri yazıbsan!

Bəşir yazdığını oxudu. Gördülər ki, çox düzgün yazıb.

Düzdü, Aşıq Ələsgər bu sözü qurtarmışdı, amma Şair Nağıya deyiləsi sözünü hələ qurtarmamışdı. O yenə üzünü Bəşirə tutdu:

– Oğul, kağız-qələmini götür, bu dəfə tapşırmalı söz deyəcəm.

Bəşir kağız-qələmini götürdü. Aşıq Ələsgər sazı sinəsinə basdı, görək bu dəfə nə dedi:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, ay səmi diraz!
Kar çıxmaz qovğadan, qaldan danışma!

Göyçənin qonağa çoxdu hörməti,
Qaysava qayğanaq verir ləzzəti,

Plov, dolma, kabab, əmliyin əti...
İnsaf eylə, tək motaldan danışma!

Kalman çarıq bizə adəti-nasdı,
Müsəlmana "persoy" deyən xənnasdı,
Ulağın eşşəkdi, yükün kirbasdı,
Əbrü-ətlaz, tirmə, şaldan danışma!

Əgər şairsənsə, gəl eyləyək bəhs,
Bir sözünə min söz deyim dəsbədəs,
Himarın dümbündə lağəri-məgəs,
"Zənbur mənəm", – deyib, baldan danışma!

Bu bəndi deyəndə Məhəmməd də güldü, Bəşir də. Qalan adamlar da bunlara baxıb gülüşdülər. Aşıq Ələsgər özü də güldü. Məhəmməd dedi:

– Ay Qağa, bəs deyirdin ki, özgə yerə göndərilən sözdə söyüş, latayır, hədyan yaxşı deyil.

– Əvvəla, buradakı söyüş təkcə Şair Nağını tutur; elə, mahala söymürəm. İkincisi, bir az örtülü söyürəm. Çox adam bilməz ki, nə deyirəm, Şair Nağı oxuyanda hesabını qanacaq.

Kalvayı İrvaham dilləndi:

– Səni mənə yetirən Allaha qurban olum! Əsirgəmə, de gəlsin!

Aşıq Ələsgər aldı o biri bəndini:

Neçə aşıq qaçırmışam meydandan,
İstəsən, birbəbir keçirim sandan,
Gəmirib kəngərdən, içib ayrandan,
Coşub kərgədandan, fildən danışma!

Aşıq Ələsgər üzünü Bəşirə tutdu:

– A bala, yazdınmı?

– Ay dədə, yazdım.

– Deyim, tapşırmasını da yaz!

Aşıq Ələsgər aldı görək sözün tapşırmasını necə dedi:

Adım Ələsgərdi mərdü mərdana,
On iki şəyirdim işlər hər yana,
Tülküsən, aslanla girmə meydana,
Danasan, sürtünüb, kaldan danışma!

Bəli, mənim əzizlərim, sözü tamam eləyəndən sonra, Aşıq Ələsgər bu

sözü də Bəşirə oxutdu. Gördü ki, çox düzgün yazıb.

Bəşir Aşıq Ələsgərin dediyi sözlərin ikisinin də üzünü çox səliqə ilə köçürtdü, Kalvayı İrvahama verdi. Kalvayı İrvaham pul kisəsini çıxartdı, ağzını açdı, kağızı içinə qoydu. Aşıq Ələsgər Kalvayı İrvahamdan soruşdu:

– A Kalvayı, bu sözləri kimnən göndərəcəksən?

– Molla Əli ilə bərabər özüm aparacağam.

– Aparıb kimə verəcəksən?

– Düz Şair Nağının özünə.

– Yox, Şair Nağıya verməyin; özgə adama verin. Əgər Şair Nağıya versəniz, sözləri üzə çıxartmaz. Amma özgə adama versəniz, camaat eşidəcək, Şair Nağının da qulağına çatacaq.

– Bəs kimə verək?

– O mahalda sazı-sözü qanan, mərifətli, qanacaqlı adamlardan Nəsib bəy, bir də Usuf bəy adlı iki qardaş var; aparıb onlara verərsən.

Aşıq Ələsgər fikirləşdi ki, Molla Əligil kağızı oraya çatdırandan sonra söz yayılacaq. Ola bilər ki, Şair Nağı bu sözlərin üstündə Molla Əligili incidə. Yaxşısı budur ki, gəl qonaqları amanatla.

Aşıq Ələsgər yenə sazını götürdü, Bəşirə dedi:

– Oğul, kağız-qələmini götür, birini də yaz!

Bəşir kağız-qələmini götürdü. Görək bu dəfə Aşıq Ələsgər nə dedi, Bəşir Nəsib bəylə Usuf bəyə nə yazdı:

Bir şair çıxıbdı Yekaallardan,
Bəyənməyib göyçəlinin kərməsin.
Simeh tapıb, heç qurtarmaz azardan,
Onun dərdin heç gözlülər görməsin.

– Oğul, yazdın?

– Ay dədə, yazdım.

Aşıq Ələsgər aldı görək bu bənddə Molla Əligili bəylərə necə tapşırdı:

Birisi molladı, biri kalvayı,
Haqq özü buyurub mehmana sayı,
Adı şair, özü himarın tayı,
İncidib, qonağa zəhmət verməsin!

Molla Əlinin məktubu Aşıq Ələsgərin yadından heç çıxmırdı. Şair Nağının Molla Əligili o məclisdə pisikdirməsi Aşıq Ələsgərə çox yoxuş gəlirdi.

Aşıq Ələsgər aldı, görək sözünü necə tamamladı:

Molla Əli namə yazandan bəri,
Bu söz çox incidir qul Ələsgəri.
Tavaqqam var, Şəmşəddinin bəyləri,
Acıqlanın çal köpəyə, hürməsin!..

Aşıq Ələsgər sazı köynəyinə qoydu, Bəşirə dedi:

– Oğul, Şair Nağının yazdığı həcvin də üzünü köçürt, bu sözlərin içinə qoy. Nəsib bəygil bilsinlər ki, bu sözlər onun cavabıdır.

Bəşir Şair Nağının yazdığı sözün də üzünü köçürtdü, Kalvayı İrvahama verdi. Kalvayı İrvaham yenə kisəsini çıxartdı, bu kağızları da kisənin içinə qoydu.

Elə bil ki, dünya varının hamısını Kalvayı İrvahama bağışlamışdılar. İstədi ki, yola düşə, qoymadılar ki, axşamdır. O gecə keçdi, səhər hamınızın üzünə xeyirliklə açılsın, səhər açılan kimi Kalvayı İrvaham yol başladı Ağbulağa, Ağbulaqdan Molla Əlini də götürdü, Şəmşəddin mahalına getdilər. Nəsib bəylə Usuf bəyi tapdılar, kağızı verdilər, başlarına nə gəlmişdisə, başdan-ayağa hamısını bunlara danışdılar.

Nəsib bəygil Şair Nağını çağırtdırdı. Fikirləşdilər ki, birdən başqa adam "Şair Nağı" adı ilə o həcvi yazmış olar, nahaq yerə bunu incidərik.

Nəsib bəy dedi:

– Şair Nağı, eşitmişik, Göyçəyə bir yaxşı həcv deyibsən; onu oxu, qulaq asaq! Şair Nağı elə hesab elədi ki, həcv onların xoşuna gəlib. Ona görə yazdığı həcvi ürəkli-ürəkli oxudu.

Usuf bəy hirsli-hirsli dilləndi:

– İndi qulaq as, gör Aşıq Ələsgər sənə nə yazıb?!

Aşıq Ələsgərin göndərdiyi sözləri oxudular. Şair Nağı qıpqırmızı qızardı. Usuf bəy Aşıq Ələsgərin sözünün bir bəndini təkrar bir də oxudu:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, ay səmi diraz!
Kar çıxmaz qovğadan, qaldan, danışma!

– Şair Nağı, get, bu sözləri yadında yaxşı saxla! Bir də belə iş tutsan, qulağından elə dartaram ki, "səmi diraz olarsan!"

# AŞIQ ƏLƏSGƏRLƏ HƏCƏR XANIM

Mənim əzizlərim, sizə haradan xəbər verim, Göyçə mahalının Qızılvəng kəndindən. Qızılvəng kəndində kimdən, İsgəndər kişidən. İsgəndər kişinin iki yaxşı oğlu var idi; birinin adı Məhəmməd, o birinin adı Məmmədsöyün. Amma Həcər adlı bir qızı var idi, çox təhərsiz gözəl idi.

Həcər 12 yaşına çatanda qızılgül kimi açıldı. 14 yaşına yetəndə dilə-düşə düşdü, kəndin cavanları ona aşiq oldular. 16 yaşında onun gözəlliyinin səs-sorağı bütün Göyçəyə yayıldı. Doğrudan da, Həcər bir gözəl olmuşdu, bir gözəl olmuşdu ki, gəl məni gör, dərdimdən öl; əlini vurma, gendə durma. Aya deyirdi sən çıxma, mən çıxacam, Günə deyirdi sən çıxma, mən çıxacam. Kəndin cavanları deyirdilər ki, bizə yemək-içmək verməyələr, amma Həcərin xətti-halına, gül camalına doyunca tamaşa eləyək.

Həcərgilin kəndində Mirzə adlı bir qoçaq oğlan var idi. Bir gün bunlardan Həcərə elçi gəldi. Amma Məhəmməd Həcəri çox bikef gördü, atasına dedi:

– Ata, görürsən ki, qızı istəyən çoxdur; qız kimi bəyənsə, ona verək.

İsgəndər kişi razılaşdı, Mirzəgilin elçiləri məyus qayıtdılar.

Məhəmməd adlı bir oğlan da var idi, bu da Həcərin dərdindən ölürdü. Mirzəgilin elçiləri qayıdan kimi o, elçi göndərdi. Məhəmməd Mirzədən çox şəxsiyyətli idi. Elə hesab elədilər ki, Mirzəyə vermədilər, yəqin ki, Məhəmmədə verərlər. Qız buna da razılıq vermədi. Bu elçilər də kor-peşman geri qayıtdılar.

Atalar deyibdir: “Qız ağacı – qoz ağacı, hər yetirən bir daş atar”.

Elçilər gedib-gəlməkdən yolları yağır elədilər, Həcər heç kəsi bəyənmədi ki, bəyənmədi.

Bir gün qəza işi əydi, Həcərin qardaşlarının əlindən xata çıxdı, ikisini də tutdular. Məhəmməd qalaya getməmişdən əvvəl İsgəndər kişiyə dedi:

– Yeddi il bir iyidin ömrüdür; deməyin ki, adamımız tutulubdur, Həcər kimi bəyənsə, ona verərsən.

Həcəri də ayrıca çağırıb dedi ki:

– Bizim qayıtmağımızı gözləyib, ömür-gününü çürütmə. Özün öz vəkilinsən, kim xoşuna gəlsə, ona gedərsən.

Bəli, Həcərin qardaşları getdi, qaldı köməksiz. İsgəndər kişi o qədər vuran-tutan adam deyildi. Cavanların bəziləri fikirləşdilər ki, Həcəri götürüb qaçsınlar. Bu məsələ qonşudan-qonşuya gəlib Həcərin qulağına

çatdı. Həcər utanmağı yerə qoydu, atasına dedi:

– Kəndin içində özgə söz danışırlar. Birdən axmağın biri gəlib qolumdan tutar, yaxşı olmaz, get mənə silah al.

İsgəndər kişi maldan-puldan verdi, bir onatılan tapança aldı. Kənddə bunu eşidən cavanlar elə kiridilər ki, elə bil qurbağanın gölünə daş atdılar.

İndi sizə kimdən xəbər verim, Göyçənin Alçalı kəndində Dünyamalı bəydən. Dünyamalı bəy atan, vuran, varlı-karlı bir adam idi. Elə ki, Həcərin tərifini eşitdi, arvadı ikiləmək fikrinə düşdü. Atını minib, birbaş İsgəndər kişinin evinə gəldi. Aradan bir az keçəndə İsgəndər kişi soruşdu:

– Bəy, nə əcəb, siz də bizi yada salıbsınız?

– İsgəndər kişi, sözün doğrusu, sənin qızın Həcərdən ötrü gəlmişəm.

– Bəy, yaxşı eləyib gəlibsən, amma mən bir söz deyə bilmərəm, qızın ixtiyarı özündədir.

– Yəni qız mənlə danışar ki?

– Bəli, danışar.

– Di çağır gəlsin.

İsgəndər kişi Həcəri çağırdı, məsələ açıldı.

Həcər dedi:

– Dünyamalı bəy, gəlməyinə bir söz demirəm, amma işin axırını fikirləşməyibsən.

– İşin axırı nə təhərdi ki?

– Sənin boy-buxununa, qoçaqlığına, ad-sanına söz ola bilməz. Amma arvad-uşağın var. Mən sənə "hə" desəm, evinə ziddiyyət düşəcək. Ahnalə də qoymaz ki, biz xoşbəxt olaq. Sən bu fikrindən əl çək.

Dünyamalı bəy nə dedisə, Həcər cavabını verdi, sözünü kəsdi. Dünyamalı bəy atını mindi, kor-peşman geri qayıtdı.

İndi sizə kimdən xəbər verim Məşədi İsədən. Məşədi İsə 18 kəndin qılavası idi. Eşitdi ki, Qızılvəngdə belə bir gözəl peyda olub, strajnikinə dedi:

– Bu saat atları minin, gedək; əvvəl xoşla, olmasa zorla o qızı gətirək. Məşədi İsəgil atlandılar, birbaş Qızılvəngə. Bunlar kəndə yetişməkdə, Həcər də damın üstündə olmaqda. Atları İsgəndər kişinin qapısına tərəf sürdülər. Həcər bunları belə görəndə dedi:

– A qardaş, bura el yolu deyil, el yolu odur ha.

Məşədi İsə dilləndi:

– El yolunu bizə göstərmə, İsgəndər kişinin evini göstər.

– İsgəndər kişinin evi elə budur.

Həcər evə getdi, İsgəndər kişi atlıların qabağına çıxdı. Məşədi İsənin atının cilovundan tutdu:

– A Məşədi İsə, niyə düşmürsünüz, düşün.

– A İsgəndər kişi, düşməyəcəm. Açığı, gəlmişəm ki, verdin, Allah əmri ilə, vermədin, yan dəmiri ilə qızın Həcəri aparam.

İsgəndər kişi kövrəlib dedi:

– A Məşədi İsə, kaş mənim oğlanlarım da burada olaydı, atışaydınız, vuruşaydınız, onları öldürəydin, qızı da aparaydın, mənə o qədər kar eləməzdi. İndi oğlanlarım qalada, bu saat özüm də eləyəm ki, bir dul arvad da qızı mənim əlimdən zorla alıb aparar. Elə deyil ki, mən sənlə meydana girəm. İş qalıb öz namusuna; zorla aparırsan, apar.

İsgəndər kişi belə deyəndə Məşədi İsə pis oldu, dedi:

– A İsgəndər kişi, yan dəmirini boşladım; Allah əmri ilə qızını mənə verərsənmi?

– Qızın ixtiyarı özündədir. Atdan düş, danışdır. Əgər getsə, mən nə deyirəm ki.

Atdan düşdülər, içəri getdilər. İsgəndər kişi Həcərin yanına gəlib dedi:

– Qızım, bu gələn Məşədi İsədir. Özü də 18 kəndin qılavasıdır. Gəl gör sözün nədir.

Həcər içəri gəldi, qonaqlara “xoş gəldin” elədi, soruşdu:

– Nə yaxşı gəlibsiniz?

– Ay qız, buraya gələn sənin dədənin qara qaşına, ala gözünə tamaşa eləməyə ha gəlmir, gələnin hamısı səndən ötrü gəlir. İndi de görüm, mənə sözün nədir?

– A Məşədi İsə, eşitmişəm, çox qoçaq adamsan. Yaşının keçməyini hesaba almazdım, amma deyəsən, səndə hərdəmxəyallıq var.

– A qız, mənim hərdəmxəyal olduğumu nədən bilirsən?!

– Ondan bilirəm ki, anadan olanda adını qoyublar “İsə”. Bir az böyüyəndə sən bu adla razılaşmayıbsan; uşağının boğazından kəsib, ziyarətə gedib olubsan “Məşədi İsə”. Bu ad da qalıb bir tərəfdə; Nikolayın nişanını salıbsan boynuna, olubsan qlava. İndi sənin adın üçdür. Sabah da birini qondaracaqsan. Bundan bilirəm ki, sən hərdəmxəyalsan. Mən sənə gedə bilmərəm.

Məşədi İsəyə belə cavab qaytaran olmamışdı. Həcərin sözü ona güllə kimi dəydi. Bunlar da atlarını minib geri qayıtdılar.

Mənim əzizlərim, indi sizə kimdən xəbər verim, irəvanlı Ələşrəf bəy-

dən. Ələşrəf bəyin sürü ilə qoyunu, naxırla malı, sandıqla qızılı var idi. Özü də hələ evlənməmişdi. Həcərin tərifini eşidən kimi atını mindi. Bir heybə qızıl götürdü, tüfəngi də çiyninə salıb, birbaş Qızılvəngə gəldi.

Həcər qapı-bacanı süpürürdü. Gördü ki, qonşuluqdan biri İsgəndər kişinin evini xəbər alır. İrəli yeridi ki, bir yaraşıqlı oğlandır, amma başı yaylıqla sarıqlıdır (Oğlan kürd idi. Kürdlərin bəziləri papaq əvəzinə başını sarıyır). Həcər elə hesab elədi ki, oğlan atdan yıxılıb, ona görə başını sarıyıbdır. Tez gəlib atasını çağırdı. İsgəndər kişi çölə çıxdı.

Oğlan atdan düşdü, içəri keçdilər, Həcər də bunların yanına gəldi. İsgəndər kişi soruşdu:

– Oğul, nə yaxşı gəlibsən?

– A İsgəndər əmi, buraya gələn nədən ötrü gəlir? Minib gəldiyim at köhləndir. Heybədəkinin hamısı da qızıldır. Bir də bu "aynalı"dır, yüz də patronu var. Bircə "hə" desən, bunların hamısını qoyub gedəcəm.

Nişanı, toyu da necə eləyərəm, o da mənim işimdir.

İsgəndər kişi meylləndi, Həcərin üzünə baxdı. Amma əlacı olsa, "hə" deyərdi. Həcər atasının fikrini başa düşdü, dedi:

– Oğlan, çox yaraşıqlı, boy-buxunlu, mallı-pullu oğlansan. Amma bir iş var: əgər biz evlənsək, uşaq sahibi olacağıq. İndi, bəlkə, birdən mal-dövlət əldən getdi. Onda mənim də başımda yaylıq var, sənin də. Bəs, onda axırımız necə olar?!

Ələşrəf bəyin dillənməyə təhəri olmadı. Atını minib geri qayıtdı.

İndi Həcərə "Həcər" demirdilər, hər yerdə "Həcər xanım" deyirdilər.

Bəli, mənim əzizlərim, Göyçənin Kəsəmən kəndindən olan cavanlar sözbir elədilər ki, sıra ilə gedək, hamımız özümüzü Həcər xanıma göstərək, bəlkə, bizim birimizi bəyənə, bizim kəndə düşə. Elə bunun özü də bir addır.

Cavanların içində Məhəmməd adlı şəxsiyyətli bir oğlan var idi, amma kasıb idi, yaxşı paltarı da yox idi. Kimin yaxşı paltarı var idi gətirdi, kimin yaxşı çuxası var idi gətirdi... Məhəmmədi bəzədilər, başına bir çal papaq qoydular, yüz manat pulla Qızılvəngə yola saldılar.

Məhəmməd Qızılvəngə yetişdi, İsgəndər kişinin qapısında atdan düşdü. İsgəndər kişi onun əlindən tutub, halını xəbər aldı, sonra soruşdu:

– A bala, nə yaxşı gəlibsən?

Məhəmmədin dili tutar-tutmaz dedi:

– İsgəndər əmi, yaxşı gününüz olsun. Həcər xanımdan ötrü gəlmişəm.

İsgəndər kişi Ələşrəf bəyin boş qayıtmağından çox kəmşavağat ol-

muşdu. Odur ki, təzə gələnlərin üzünə baxmaq da istəmirdi. Oğlana dedi:

– A bala, birdəfəlik bilin ki, qızın ixtiyarı özündədir.

Elə bu dəmdə Həcər xanım evdən çıxdı. İsgəndər kişi:

– A bala, gör bu oğlan nə deyir? – elədi, öz işinin dalınca getdi.

Həcər xanım baxdı gördü ki, bu oğlan sir-sifətdən düzgündü, amma əynindəki paltarın heç biri yaraşmır (Andıra qalsın özgənin paltarı; kimisi gödək gəlir, bəzi yeri gen olur, bəzi yeri dar olur, xülasə, kənardan baxan kimi məlum eləyir ki, özgənindir). Həcər xanım da başa düşdü ki, əynindəki paltar özünün deyil.

Həcər xanım oğlanı içəri təklif elədi. Məhəmməd atı pəyəyə bağladı, otağa gəldilər. Bir az o yandan-bu yandan söhbət elədilər, oğlan mətləbi açdı:

– Həcər xanım, bu atı da, yüz manat pulu da “hə” deməyinə gətirmişəm.

– Çox yaxşı eləyibsən. Qal, bu axşam söhbət eləyək.

Məhəmməd elə başa düşdü ki, iş düzəlib. Öz-özünə dedi: “Məni də bəyənməyəndə, bəs kimi bəyənəcək!”

Axşam oldu, çay-çörək gətirdilər. Oğlan iştahla çörək yedi, çay içdi; elə bil ki, qayınatasının evidir. Sonra Həcər xanım oğlanı tutdu danışığa.

O qədər danışdırdı ki, baxdı gördü oğlanın başı gedib-gəlir, dedi:

– Məhəmməd, deyəsən yuxun gəlir, gəlsən yerini salam yatasan.

– Həcər xanım, salırsan, sal.

Həcər xanım yer düzəltdi. O biri evə getdi. Oğlan papağını çıxartdı, ağac çarpayının başına keçirtdi, paltarını soyundu, yerinə uzanan kimi başladı xoruldamağa. Həcər xanım iynə-sap gətirdi papağı götürdü, ağ sapla papağın içindən bir belə sırıq getdi, bir də belə. Öz-özünə dedi ki, əgər başa düşsə, bu, çal-çarpaz dağdır, onun sinəsinə çəkmişəm.

Həcər xanım papağı yerinə qoydu, gedib o biri evdə yatdı.

Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı. Məhəmməd yerindən durdu, tələsik paltarını geyindi, papağı başına qoydu.

Həcər xanım otağa gələndə dedi:

– Həcər xanım, bəs mənə sözün nə oldu?

– Get, bir xəbər göndərərəm.

Məhəmməd çay-çörəyə də qalmadı. Atını mindi, yol başladı Kəsəmənə.

Məhəmməd Kəsəmənə gəlməkdə olsun, sizə kimdən xəbər verim, kəsəmənlilərin yerdə qalanlarından. Gördülər ki, Məhəmməd axşam qayıtmadı, kimi dedi: yəqin, qız söz verdi, Məhəmməd də Kəvərə parça, toy

ayın-oyunu almağa getdi. Kimi dedi: paltarı, pulu götürdü qaçdı, xərcləyəndən sonra qayıdacaq. Kimi dedi: bəlkə, qızın bəyəndiyini bildilər, qızı istəyənlər yolda-izdə öldürdülər. Xülasə, camaat yüz xəyal elədi.

Kəsəməndə Əbdüləzim adlı yaraşıqlı bir oğlan var idi. Əbdüləzimi bəzədilər. Bunun da cibinə yüz manat qoydular, yola saldılar. Tapşırdılar ki, Məhəmmədi tapsa, qız Məhəmmədi bəyənmiş olsa, bu yüz manatı xərcləsinlər. Yox, əgər qız Məhəmmədi bəyənməyibsə, Məhəmməddəki yüz manatı da alsın, bu getsin, bəlkə Həcər xanım bunu bəyənə.

Əbdüləzim Basarkeçərə çatanda Məhəmmədlə qabaqlaşdı:

– Əyə, Məhəmməd, çox şükür, sağ-salamatsan. De görüm, iş nə təhər oldu?

– Balam, qız məni axşamdan lap yaxşıca bəyənmişdi, bilmirəm arada nə mərdimazarlıq eləyən oldusa, sabah, deyəsən, fikrini dəyişdi.

– Əyə, bəs nə dedi?

– Dedi ki, get, bir xəbər göndərərəm.

– Sənin işin düzəlməyib. Allahı çağırım, mən gedim. Geyimimin hamısı yaxşıdır, amma papağım köhnədir. Papağını ver, başıma qoyum.

Papaqları dəyişdilər. Əbdüləzim Məhəmməddəki yüz manatı da aldı. Məhəmməd Kəsəmənə qayıtmaqda olsun, Əbdüləzim Qızılvəngə getməkdə.

Həcər xanım bulaqdan su gətirirdi. Bir də gördü ki, bir atlı düz onlara sarı gəlir; nə at o atdır, nə adam o adam, amma papaq həmin papaqdır.

Atlı qapıda İsgəndər kişi ilə salamlaşdı. Aradan nə söhbət keçdisə, ikisi də Həcər xanıma baxmağa başladı. Həcər xanım gəlib çatanda İsgəndər kişi dedi:

– Qızım, bu oğlan səndən ötrü gəlib.

– Çox yaxşı eləyib, atdan düşsün.

Oğlan sevincək atdan düşdü. Həcər xanım sənəyi evə qoyub qayıtdı.

Əbdüləzim ürəkli-ürəkli dedi:

– Həcər xanım, "hə" deməyinə ikiyüz manat pulla bu atı gətirmişəm.

– Özün çox yaxşı oğlansan, pul gətirməsən də olardı. Geyiminə də söz ola bilməz. Papağın lap xoşuma gəlir. Allah qoysa, qardaşlarım gələndə bu papaqdan hərəsinə birini tikdirəcəm. Ver bir onun dərisinə baxım. Oğlan, deyəsən, sizin tərəflərdə malınızda, geyiminizdə ayrı-seçkilik yoxdur. Mən sənə gedə bilmərəm.

Elə bil ki, Əbdüləzimi götürüb, qaynar qazana basdılar. Ağ bir, qara iki dillənə bilmədi. Suyu süzülənə-süzülənə qayıtdı.

Mənim əzizlərim, indi sizə haradan xəbər verim, Göyçənin Söyünbulaqlı kəndində Hacıalıoğlu Molla Balıdan. Molla Balı qardaşı Abbasa toy eləyirdi. Atlı göndərdi ki, Aşıq Ələsgəri toya gətirsin. Bu zaman Kəvərdən Molla Balıya teleqram gəldi ki, pulumuz gəlib, gəlin aparın.

Molla Balı çox varlı adam idi. Elə olurdu ki, birdən şəhərə min əyəcerkək göndərirdi. Bu il də Göyçənin Qayabaşı kəndindən olan Hacı Xıdıroğlu İsgəndərlə güclü mal-qoyun aparıb satmışdılar, hərəsinin 9 min manat pulu olmuşdu. Yolda-izdə oğrunun-quldurun qorxusundan pulu Bakıdan poçta salmışdılar, özləri arxayın kəndə gəlmişdilər. İndi Kəvərdən gələn həmin pulun teleqramı idi. Hacı Xıdıroğlu İsgəndər Qayabaşı kəndindən Söyünqulağalı kəndinə gəldi. Molla Balının da atını yəhərləyib çölə çəkirdilər ki, Aşıq Ələsgər gəldi.

Molla Balı Aşıq Ələsgərə dedi:

– Aşıq Ələsgər, bizim pullar gəlib, biz onun dalınca gedirik. Sən rahat ol. Allah qoysa, axşama Kəvərdəyik, sabah bu vaxtı burada. Gələn kimi toyu başlayarıq.

Molla Balıgil atları minib, Kəvərə yol başladılar. Atları bərk sürdülər, günortadan xeyli keçmiş Kəvərə çatdılar. Yetirən kimi pulu alıb geri qayıtdılar. Günbatanda Yarpızlı kəndinə yetişdilər. Gecə qonaqçı evində Həcər xanımın söhbəti ortalığa düşdü. Yarpızlı ilə Qızılvəngin arası yaxındır. Ona görə İsgəndər kişinin evinə gələn elçilərdən yarpızlılar halı idilər. Molla Balıgil danışılanların hamısına diqqətlə qulaq asdılar. Səhər tezdən atları minib, yola düşdülər. Kənddən azca aralanmışdılar, Molla Balı İsgəndərə dedi:

– A İsgəndər, dünyanın azını da gördük, çoxunu da. Süleymana qalmayan dünya bizə də qalmayacaq. Bu gün-sabah yıxılıb öləcəyik, dünyadan nə aparacağıq?! Gəl bu on səkkiz min manatı Həcər xanımın yolunda qoyaq, hansımızı bəyənsə alaq.

– A Molla Balı, lap ürəyimdən xəbər verdin. Elə mən istəyirdim ki, ağzımı açam, sən məndən qabaq dilləndin.

Bunlar da atları sürüb, Qızılvəngə gəldilər. İsgəndər kişinin evinə yaxınlaşanda bir qadın rast oldu. Molla Balı dedi:

– A bacı, İsgəndər kişinin evi hansıdır?

– Qardaş, o ev İsgəndər kişinin evidir, damın üstündəki də İsgəndər kişinin qızı Həcər xanımdır.

– A bacı, sən də ol qiyamətin günü bizim bacımız, bir söz desək, gedib Həcər xanıma deyərsənmi?

– A qardaş, özgənin sözünü özgəyə deməyə nə var; nə deyirsiniz, gedim deyim.

– Həcər xanıma de ki, o, Söyünquluağalı Hacıalı oğlu Molla Balıdır. Bu saat yanında on səkkiz min manat pul var. Elə bilməsin ki, pulu buncağazdır; Söyünquluağalıdan Qızılvəngə qədər yüzlüyü düzdürərəm, onu üstü ilə apararm. Gör mənə sözü nədir.

Həcər xanımla bunların arası yaxın idi. Danışdıqlarının hamısını yaxşı eşitməsə də, üzlərini aydın görürdü. Qadın gəlib Molla Balının dediyini Həcər xanıma çatdırdı. Həcər xanım atlılara bir də diqqətlə baxdı, nə isə qadına dedi. Qadın geri qayıtdı:

– A qardaş, Həcər xanım deyir ki, o kişi cavan vaxtında çox yaxşı imiş. Əgər vaxtı keçməsə idi, pulu-zadı da lazım deyildi; canla-başla gedərdim. Bu gündən sonra o, alnını yerə qoyub, əllərini göyə qaldırıb, "Allahu-əkbər" deyəcək, mən də deyib-gülmək istəyəcəm. Onunla mənimki tutmaz.

İsgəndər Molla Balıdan bir az cavan idi. İrəli yeridi dedi:

– Bacı, on səkkiz min manat da mən gətirmişəm; gör mənə sözü nədi.

Qadın qayıdıb İsgəndərin də sözünü Həcər xanıma dedi. Həcər xanım bir qədər ucadan dilləndi:

– Get, ona denən ki, qabaqkının gözəl qəddi-qaməti var; bunda heç o da yoxdu. Mən ona getmərəm. Getsin, itiyini axtarsın!

İsgəndərgil bu sözləri öz qulaqları ilə eşitdilər, qadının qayıtmasını gözləmədilər. Atların başını döndərdilər, ölüləri ölmüş kimi kor-peşman kəndə tərəf üz qoydular. Günorta olmamış Söyünquluağalıya çatdılar. Camaat gördü ki, Molla Balıgil çox məyusdur. Soruşdular ki, yoxsa qaçaqquldura rast gəldiniz?

Molla Balı dedi:

– Kaş, yolda bizi öldürüb, pulumuzu da aparaydılar, amma başımıza bu iş gəlməyə idi.

Molla Balı başlarına gələni danışdı. Biri dedi, Məşədi İsəyə belə deyib... Xülasə, Həcər xanım kimə nə demişdisə, hamısını bu məclisdə danışdılar.

Aşıq Ələsgər iki gün toyda qaldı, ağır məclis keçirdi, evlərinə qayıtdı. Yolda fikir elədi ki, Həcər xanım bəyi bəyənmir, qlavanı bəyənmir, mollanı bəyənmir, hacını bəyənmir, məşədini bəyənmir, taciri bəyənmir, bəs kimi bəyənəcək. Yəqin ki, bunun meyli aşıqdadır. Get, bir bunu yoxla.

Aşıq Ələsgər evə çatan kimi dəllək çağırtdırdı, saqqal-başını yaxşı düzəltdirdi, getməyə hazırlaşdı.

Böyük oğlu Bəşir Aşıq Ələsgərdən soruşdu:

– Ay dədə, haraya gedirsən?

– Oğul, Qızılvəngə gedirəm, toya çağırıblar.

Aşıq Ələsgər atını mindi, sazını çiyninə saldı, yol başladı Qızılvəngə.

Yolda üst-başına fikir verdi, gördü ki, hər geyimi yaxşıdır, amma məsti bir az köhnə kimidir.

O zaman Şuşa qalasından Həmid adlı bir çəkməçi var idi. Basarkeçərdə işləyirdi. Həmidin gəldiyi bir ilə yaxın olardı, amma Aşıq Ələsgəri görməmişdi. Arzu eləyirdi ki, bir onun məclisinə düşəydi.

Bir də gördü ki, bir canlı kişi gəldi, çiynində də saz var.

– Salaməleyküm!

– Əleykümsalam!

– Usta, hazır məstin var?

– Bəli, var.

– Zəhmət çək, bir cüt mənə ver.

Yeddi cüt hazır məst var idi. Heç biri Aşıq Ələsgərin ayağına olmadı; xırda gəldi.

Aşıq Ələsgər dedi:

– Usta, bir təzəsini tik.

Həmid Aşıq Ələsgərin ayağının ölçüsünü götürdü.

Aşıq Ələsgər soruşdu:

– Usta, nə zaman hazır olacaq?

– Sabah bu zamana hazır eləyəcəm.

Aşıq Ələsgər gördü ki, iki gün burada gözləyə bilməyəcək. Öz-özünə dedi ki, əşi, kimdi sənin ayağına diqqət eləyən, elə belə gedim.

Həmidə dedi:

– Usta, onda məsti tik, sabah bu zaman gəlib apararam. Amma məsti əməlli tikərsən; altına padoş qoyarsan, üstü də ki yaxşı xromdan olacaq.

– Baş üstə!

O zaman məstin birini on şahıya tikirdilər, Aşıq Ələsgər bir manat verdi.

Həmid soruşdu:

– Əşi haralısan?

– Ağkilsədənəm.

– Adın nədir?

– Ələsgərdir.

Həmid axtardığını tapmışdı. Heç işin üstünü vurmadı. Aşıq Ələsgər atını minib, Qızılvəngə yola düşdü. Həmid o saat nə qədər xromu var idi, nə qədər padoşu var idisə, gətirdi, seçdi, bir cüt sən deyən məst tikdi. Aşıq Ələsgər verən manatı da içinə qoydu, götürüb saxladı. Bir cüt də dağarcıqdan boyanma dəridən cələvi bir məst kimi şey kökərtlədi, bunu da götürüb saxla-dı. Həmidin müştəriləri çox idi. Tez-tez onun yanına gəlib-gedirdilər. Gördülər ki, Həmid əlindəki işi yarımçıq qoydu, iki cüt məst tikdi.

Brini elə tikdi ki, lap qızqaytaran; o birini başından elədi. Ermənilərdən biri soruşdu:

– Usta, nə təhər şeydir ki, əlinin işinin ikisi bir-birinə oxşamadı?

Həmid məsələni açdı:

– O məstin ikisini də Aşıq Ələsgərə tikdim. Elə mən onu görmək istəyirdim. Allah öz ayağı ilə yetirdi. Deyirlər, çox hazırcavab aşıqdır. Mən onu sınayacam.

– Həmid, qəza səni dolaşdırıb. Özünü biabır elətdirəcəksən. O çox belə sınaqlardan çıxıb.

– Biabır elətdirsəm də, sınayacam.

– Yaxşı, nə zaman gələsidir?

– Sabah bu zaman.

Bu məsələ ağızdan-ağıza yayıldı. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı. Basarkeçərin saz-söz həvəskarları çəkməçinin yanına yığışdılar. Aşıq Ələsgərin yolunu gözləməyə başladılar.

Mənim əzizlərim, bunlar Aşıq Ələsgərin yolunu gözləməkdə olsunlar, sizə Aşıq Ələsgərdən deyim.

Aşıq Ələsgər atını sürüb, Qızılvəngə yetişdi. Qızılvəngli Aşıq Usuf Aşıq Ələsgərin şəyirdlərindən idi. Aşıq Ələsgər birbaş Aşıq Usufgilə gəldi. Aşıq Usuf onu çox böyük hörmətlə qar-şıladı. O saat bir erkək kəsdi, yaxşı yemək-içmək hazırladı. Aşıq Ələsgərin gəldiyini bilən qonşular oraya toplaşdılar. Aşıqlar bir qədər çaldılar, oxudular, bir xeyli də o yandan-bu yandan söhbət elədilər, axşam oldu. Adamlar dağılandan sonra Aşıq Usuf dedi:

– Ələsgər əmi, nə yaxşı gəlibsən?

– A bala, Həcər xanımı görməyə gəlmişəm. O nə qədər artıq adamdır ki, heç kəsi bəyənmir, hərədə bir eyib tapır.

– Ələsgər əmi, o kişi kimi bir qızdır, dilinin də qoruq-qadağası yoxdur. Gedərsən, sənə ağır cavab qaytarar, el içində yaxşı olmaz.

– Yaxşı ola, yaxşı olmaya, gərək onu görəm, sözümü deyəm.

Aşıq Usuf gördü ki, Aşıq Ələsgər əl çəkəsi deyil, dedi:

– Ələsgər əmi, İsgəndər kişi sınıqçıdır. Sabah mən qolumu boynumdan asım, guya ki, at yıxıbdır. Gedək İsgəndər kişinin yanına. Onda, yəqin ki, Həcər xanımı görəcəksən. Nə sözün olsa, deyərsən.

Aşıq Ələsgər bu fikirlə razılaşdı. Gecə yatdılar, sabah tezdən çay-çörəkdən sonra Aşıq Ələsgər sazını götürdü, Usuf da qolunu boynundan asdı, İsgəndər kişigilə getdilər.

İsgəndər kişi Aşıq Ələsgəri görəndə həddindən artıq şad oldu.

Xoş, beş, on beş... Qonaqları içəri təklif elədi. Həcər xanım sənəyi götürüb, su gətirməyə getdi. Aşıq Ələsgər İsgəndər kişiyə dedi ki, Usuf atdan yıxılıb, onun qoluna bax.

İsgəndər kişi Usufun qolunu yoxladı, dedi:

– Qırığı yoxdur, bir az ağrıyıbdır. Heç bir şey olmaz.

İsgəndər kişi Aşıq Ələsgərin nə fikirlə gəldiyini bilmədi, qızından giley eləməyə başladı; elçilərin gəlib-getməyindən uzun-uzadı danışdı.

Həcər xanım sudan qayıtdı, çay-çörək hazırlamağa başladı. Məhlənin adamları Aşıq Ələsgərin buraya gəldiyini eşitdi, İsgəndər kişinin evinə toplaşdılar. İsgəndər kişi vəziyyəti belə görəndə Aşıq Ələsgərə dedi:

– Aşıq Ələsgər, camaat buraya nədən ötrü yığılıb?

Aşıq Ələsgər cavab vermək əvəzinə, sazı köynəyindən çıxartdı.

Çalmağa başlayanda Həcər xanım da gəlib, məclisin bir tərəfində dayandı, diqqətlə tamaşa eləməyə başladı. Aşıq Ələsgər nə qədər gözəl görmüşdüsə, beləsini görməmişdi. Aldı, görək Həcər xanıma nə dedi, ordakılar nə eşitdi:

Həcər xanım, qaşın, gözün təhrində
Xətt yazsam, Quranda ayə düşərmi?!
Götürsən niqabı mah camalından,
Hüsnün nuri-təcəllaya düşərmi?!

İsgəndər kişi sazdan-sözdən o qədər başı çıxan adam deyildi. Gördü ki, Aşıq Ələsgər Həcəri tərifləyir, çox şad oldu. Həcər xanım sözə diqqətlə qulaq asırdı. Bu bəndi eşidəndə qızılgül kimi açıldı. Aşıq Ələsgər qızı belə görəndə fikirləşdi ki, gəl sözünü bir az açıq de, görək nə cavab verir. Aldı, sözün o biri bəndini:

Saxlasan, qapında mən ollam nökər,
Dişlərin mirvari, dodağın şəkər,

Səni sevən bu dünyadan əl çəkər,
Daha qeyri təmənnaya düşərmi?!

Gözəl arif olub mətləb qanmasa,
Yayınıb, yaşınıb, daldalanmasa,
Aşıq müştaq olub, qəlbi yanmasa,
Bir bu qədər ilticaya düşərmi?!

Həcər xanım bir kəlmə də olsun dillənmirdi. Elə bil ki, sözlərin hamısını sinəsinə yazırdı. Aşıq Ələsgər aldı o biri bəndini:

Qamətin məlәkdi, hüsnün pəridi,
Könül gözlərinə çox müştəridi,
Camalın şoxundan cismim əridi,
Zülfündən üstümə saya düşərmi?!

Yazıq Ələsgərin var etiqadı,
Möhr olunub gözəlliyin baratı,
Cismin sadağası, hüsnün zəkatı,
Sayıl olan binəvaya düşərmi?!

Bu sözləri eşidən kimi Həcər xanım gülə-gülə o biri evə getdi.

Aşıq Ələsgər elə hesab elədi ki, iş düzəldi. Sazı köynəyinə qoydu, Usufa dedi ki, gedək. Məclis dağıldı. Aşıq Ələsgər Usufgilin qapısına çatanda dedi:

– A bala, atı çölə çək.

– Əşi, nə danışırsan, bu gün qal.

– Qalmağa təhərim yoxdur, gedəcəm.

Aşıq Ələsgər gördü ki, çəkməçinin yanında bir məclisin adamı var.

Erməni dostlarından Səfəroğlu Hovanes, Ağabəy, Aspadur, Yanıq Tatos, Qara Tatos-zad hamısı burdadır. Bilmədi ki, nə işdir. Çəkməçi dağarcıqdan tikdiyi məsti Aşıq Ələsgərə uzatdı:

– Buyur.

Aşıq Ələsgər məsti əlinə aldı, gördü ki, çəkməçi buna kələk gəlib, dedi:

– Usta, axı biz belə danışmamışdıq. Sən söz verdin ki, yaxşı məst tikəsən.

– Yaxşı məst deyil, bəs nədir?! İki gündür, bunun üstündə əlləşirəm.

– Əlləşməyə bir söz demirəm, amma bir şey tikə bilməyibsən.

– Əşi, xoşuna gəlir, pulunu ver, apar; xoşuna gəlmir, başqasına sataram.

Aşıq Ələsgər gördü ki, dillə dava çəkməklə olmayacaq. Çəkməçi pulu da danmaq fikrindədir. Yavaşca sazı köynəyindən çıxartdı. Sazın səsini eşidən kimi bazarda nə qədər adam var idisə, hamısı oraya yığıldı.

Aşıq Ələsgər görək çəkməçiyə nə dedi, qulaq asanlar nə eşitdi:

Danışdıq, barışdıq mərhəmət ilə,
İnciklik araya qatma, hayıfsan!
Sən tacir olmazsan bir manat ilə,
Namusu, qeyrəti atma, hayıfsan!

Həmid dedi:

– Əşi, nə manat?!

– Oğul, dünən verdicəyim manatı deyirəm da!

– Əşi, sən havaxt mənə pul verdin? Düzdür, əlində bir manat var idi, yenə qaytarıb cibinə qoydun. Elə bilibsən ki, mənə verdin.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Mövlam məni nəzərindən salmayıb,
Huşum cəmdi, ağlım heç azalmayıb,
Fani dünya Süleymana qalmayıb,
Oyan, bu qəflətdən, yatma, hayıfsan!

Siz təlaş eylərsiz iynə-biz ilə,
Bizimki də gəlib-gedər söz ilə,
Əyri ol əyriylə, düz ol düz ilə,
Hər yetəni sən aldatma, hayıfsan!

Həmid dedi:

– Allah xatirinə, pulunu da istəmirəm, məsti apar, yaxamdan əl çək!

Aşıq Ələsgər gördü ki, bu, çox ağır söz oldu. Haraya gedəsən, hörmətin başdan artıq ola, bir çəkməçi səni biabır eləyə...

Aldı sözün o biri bəndini:

Düşəndə məclisə, ağır yığnağa,
Bizə hörmət qoyur irəncbər, ağa...
Söz uzansa, həcv çıxar qurşağa,
Sözün dalın çox uzatma, hayıfsan!

– Ay camaat, görün bu məstin malından yaxşı mal var ki, aşıq bunu bəyənmir?! Aşıq Ələsgər aldı, görək tapşırmada nə dedi:

Qəsəm olsun xudkeşlərin sərinə,
Yalan söz iyidi salar dərinə,

Köhnə dağarcığı tumaş yerinə,
Aşıq Ələsgərə satma, hayıfsan!

Ətrafına baxanda Aşıq Ələsgər gördü ki, buradakı dost-tanışların hamısı gülür. Özgə zaman olsaydı, işə qarışardılar, ona tərəfdar çıxardılar. Başa düşdü ki, burada bir iş var. Həmid o biri məsti çıxartdı:

– Aşıq Ələsgər, sənə qurban olum, mənim gəzdiyim elə bu idi. Buyur, məstini götür.

Aşıq Ələsgər məsti aldı. Baxtı gördü ki, zalım oğlu elə tikib ki, elə bil heç üstündə əl gəzməyib; iki göz gərək tamaşa eləyə. İçinə baxanda gördü ki, həmin verdiyi manat içindədir. Manatı çıxartdı, neylədisə, Həmid almadı, dedi:

– Sənə peşkəş tikmişəm. Amma qadan alım, bu söz burada qalsın, özgə yerdə oxuma.

– Qorxma, toydan başqa heç yerdə oxumaram.

Aşıq Ələsgərin bu sözünə də hamı gülüşdü. Səfəroğlu Hovanes Aşıq Ələsgəri evlərinə təklif elədi. Aşıq Ələsgər getmədi; dedi ki, tələsiyirəm, vacib işim var.

Aşıq Ələsgər atını mindi, birbaş Ağkilsəyə gəldi.

Ağkilsə kəndinin qonşuluğundakı Zod kəndində Bəhlul adlı bir kişi var idi. O həmişə qoyun alveri ilə məşğul olurdu. Aşıq Ələsgər kəndə çatan kimi Bəhlula xəbər göndərdi ki, 5-10 heyvan satacam, səhər gəl, sövdələşək.

Mənim əzizlərim, zodlu Bəhlula xəbər getməkdə olsun, sizə deyim Həcər xanımdan. Aşıq Ələsgər sazı köynəyinə qoyanda Həcər xanım gördü ki, Aşıq Ələsgər şaddır. Aşıq Ələsgərgil gedəndən bir qədər sonra Həcər xanımın ağlına gəldi ki, Aşıq Ələsgərə bir cavab vermədim. O bədbəxt özgə xəyala düşəcək. Hörmətli adamdır, el içində sonra biabır olacaq. Yaxşısı budur ki, nə deyəcəksənsə, kağıza yazdır, xəlvətcə özünə göndər, qoy rahat olsun. Qonşuluqdan bir uşaq göndərdi ki, get, buraya bir molla çağır.

Bir evdə yığıncaq var idi. Kəndin oxumuşlarının hamısı burada idi. Oğlan gəldi, yığıncağın ayağından dedi ki, Həcər xanım bir molla çağırır.

Məclisdə bir oxumuş adam var idisə də durdu, beş oxumuş adam var idisə də. Bir-birinin dalınca Həcər xanımgilə yüyürdülər. Həcər xanım bunları belə görəndə dedi:

– Mən birinizi çağırmışam. Bu qədər adam nə gəzir?!

Biri irəli yeriyib dedi:

– Həcər xanım, oğlan demədi ki, Həcər xanım hansımızı çağırır; ona görə hamımız gəldik.

Molla Məhəmməd adlı biri var idi, çox yaxşı da xətti var idi, həm də əhli-hal idi. Həcər xanım bunu saxladı, qalanları getdilər.

Molla Məhəmməd kağız-qələm hazır elədi. Həcər xanım dedi, Molla Məhəmməd gözəl xətlə yazdı, bir paketə qoydu. Həcər xanım paketin üstünə yazdırdı: – "Çatacaq Ağkilsə kəndində Aşıq Ələsgərə."

Bivədə idi. O günü Həcər xanım bir adam tapıb kağızı göndərə bilmədi. Sabah tezdən gördü ki, tanımadığı bir oğlan qonşu evdə atının belindəki yükü açdı, ev sahibindən bir qədər pul aldı. Atını minib getmək istəyəndə Həcər xanım irəli gedib soruşdu:

– A qardaş, kirəçisən?

– Bəli, kirəçiyəm.

– Hansı kənddənsən?

– Böyük Qaraqoyunludanam.

– Adın nədir?

– Camaldır.

– Camal, Ağkilsə ilə sizin kəndin arası yaxındırmu?

– Bəli, yaxındır.

– Kirəçilik eləyən günü nə alırsan?

– Nə bilim, olur da, altı abbası, bir manat alıram.

– Camal, həm evinizə gedərsən, həm də bu kağızı aparıb Ağkilsədə Aşıq Ələsgərə verərsən. Al, bu da bir manat sənin zəhmət haqqın.

Camal gördü ki, bu elə bir gözəl qızdır ki, yemə, içmə, bunun xətti-halına, gül camalına tamaşa elə.

– Əşi, pul-zad lazım deyil, apararam.

Həcər xanım pulu güclə verdi. Camal kağızı da, pulu da cibinə qoydu, ata dəydi.

Camal Ağkilsəyə gəlməkdə olsun, sizə xəbər verim Aşıq Ələsgərdən. Aşıq Ələsgər tezdən çobana tapşırmışıdı ki, qoyunu kəndin qırağında otar, müştəri gələcək, heyvan satacam. Zodlu Bəhlula xəbər yetişdi. Gün bir az qalxmışdı, Bəhlul gəldi.

– Salaməleyküm!

– Ələykəssalam!

– Aşıq Ələsgər, heyvan satacaqsan?

– Bəli, satacam. Bir az pul lazımdır. Əgər alacaqsansa, heyvanlar kəndin qırağındadır, gedək, bax.

Aşıq Ələsgərlə Bəhlul getdilər sürünün yanına. Aşığın nə qədər heyvanı olacaq idi ki! Aşıq Ələsgər bir-bir qoyunları göstərdi, Bəhlul hamısına baxdı. Bu zaman Aşıq Ələsgər gördü ki, Hüseynquluağalı yolu ilə bir atlı gəlir. Atlı gəlib arxa çatanda döndü, başladı arxla enişə onlara tərəf getməyə. O saat Aşıq Ələsgərin ürəyinə damdı ki, bu atlıda bir xəbər var. Bəhlula dedi ki, heyvanlara baxdın, gedək, qiymətini evdə danışaq.

Atlı bunlardan qabaq çatdı, çatan kimi də qayıtdı. Aşıq Ələsgər Bəhlulu otağa apardı, özü evə getdi. Gördü ki, oğlu Bəşir əlində bir kağız oxuyur, amma gah gülür, gah rəngi qaçır.

– Oğul, nə kağızdır?

– Nə kağız olacaq?! Durdun, durdun, saqqalının ağ vaxtında özünü biabır elətdirdin.

– Oğul, kağızı gətirən kim idi, göndərən kimdir?

– Qaraqoyunlu Camal gətirdi, göndərən də Həcər xanımdır.

Belə deyəndə Aşıq Ələsgərin dizi qırıldı. Ona qədər Aşıq Ələsgərin qardaşı Məşədi Salah evə gəldi. Aşıq Ələsgər dedi ki, qonaq var, otağa get. Məşədi Salah gedəndən sonra dili tutar-tutmaz Bəşirə dedi:

– Oğul, oxu görüm, nə yazıb?

Bəşir kağızı oxumağa başladı, görək nə oxudu; biz də sazla oxuyaq, siz qulaq asın:

Loğmadan kəc olan, nüftədən əyri,
Yüz dərs alsa, pürkamala yetişməz.
Bir qul düz dolansa Haqqın yolunda,
Qəza tapmaz, ona bəla yetişməz.

– Oğul, burada nə var ki! Bu, çox nəsihətli sözdür. O biri bəndini oxu görüm. Bəşir o biri bəndini oxudu:

Gər hökmün işləsə Qaf ilə Qafa,
Bihuda xərc çəkmə, əfsana cafa.
Qəvvas tapar ləli satar sərrafa,
Nə aşığa, nə abdala yetişməz.

Aşıq Ələsgər gördü ki, Həcər xanım burada yaman toxunub. Həm də işarə eləyib ki, fikrini dəyişdirib, özünü xərcə-borca salma, düzələsi iş deyil. O saat yadına Bəhlul düşdü.

Bəşir sözün o biri bəndini oxudu:

Eşit bu sözləri, saxla yadigar:
Gözəllərdə həya, iyidlərdə ar.
Axmaq köpək qaysavadan pay umar,
Nahaq düşüb o xəyala, yetişməz.

Aşıq Ələsgər gördü ki, zalımın qızı bu bənddə lap belinin nəziyindən vurub. Bəşir də çox pərt olub dedi:

– Bunumu istəyirdin?!

– Hə, a bala, burada bir balaca toxunub.

– Balaca yox, lap yekəcə toxunub, lap biabır eləyib.

Bəşir sözün o biri bəndini oxudu:

Qəza insanatı tənabdan asar,
Leyli-nəhar-muşdu, cəhd eylər, kəsər,
Əjdaha ayaqdan çəkər sərasər,
Əlləşər, barmağı bala yetişməz.

– Ay dədə, mən bundan bir şey başa düşmədim. De görüm, nə deyir?

– Oğul, bu bəndin mənası çox dərindir. El arasında deyərlər ki, Əzrayıl bir qızmış dəvə donunda insanı qovar ki, öldürsün. İnsan ha yana qaçsa, dəvə dalınca gələr. İnsan axırda gəlib bir quyunun yanına çıxar. Görər ki, quyunun üstündə ağaca bağlı bir kəndir var. Kəndirdən tutub aşağı sallanar ki, dəvədən canını qurtarsın. Bu zaman görər ki, bir ağ siçanla qara siçan gəlib kəndiri kəsməyə başladılar. Aşağı baxar ki, quyunun dibində bir əjdaha var; ağzını açıb ki, düşən kimi onu kamına çəksin. İnsan gözünü quyunun qırağına gəzdirəndə görər ki, bir çöl arısı burda yuva salıb. Bu zaman insan dəvəni də yadından çıxardır, siçanların kəndiri kəsməyini də, quyunun dibindəki əjdahanı da; çalışar ki, arının yuvasından bal çıxardıb yesin. Başı o qədər qarışar ki, siçanlar kəndiri kəsər, insan gumbultu ilə quyunun dibinə düşər.

Oğul, ağ siçanla qara siçan gündüz ilə gecədir ki, insanın ömrünü kəsir. Əjdaha Cəhənnəmdir ki, ağzını açıb, hazır durub; gözləyir ki, kəndir üzülsün. Quyunun qırağındakı arı yuvasında olan bal da dünya malının şirinliyi deməkdir; dünya malı insanı aldadar, ölümü, Cəhənnəmi yadından çıxardar, bir gün yıxılar ölər. Oğul, bir də burada onu deyir ki, qəzadan qaçıb qurtarmaq olmaz. Ha yana getsən, nə tədbir görsən, ölüm insanın boynunda haqdır; buna əlac olmaz.

– Dədə, afərin bu qızın kamalına! Çox qiymətli sözdür.

– Oğul, o biri bəndini oxu görüm!

Bəşir sözün tapşırmasını oxudu:

Var Həcərin gözəllikdə isbatı,
Zər libasa naxış vurar xəyatı,
Olar gözəllərin xümsü, zəkatı,
Cavana yetişər, çala yetişməz.

Sözə fikir verəndə, Aşıq Ələsgər gördü ki, Həcər xanım onun qocalığına da işarə eləyib, lap ümidi üzüldü, Bəhlulun yanına qayıtdı, Bəhlul dedi:

– Əşi, haraya getdin, gəl qoyunların qiymətini de, tələsiyirəm.

Qoyunun biri gedirdi beş manata. Aşıq Ələsgər dedi yeddi manata. Nədir ki, almasın. Bəhlul nə qədər elədisə, Aşıq Ələsgər aşağı enmədi. Bəhlul çıxdı getdi. Aşıq Ələsgər Bəşirin yanında özünü vermədi; Həcər xanım onun ciyərinə dağ çəkmişdi.

Gün gəldi axşam oldu. O gecə ilan vuran yatdı, Aşıq Ələsgər yatmadı. Öz-özünə deyinməyə başladı: "Belə də iş olarmı! Sən Aşıq Ələsgər olasan, mollaya, alimə, müctəhidə cavab verəsən, bir qız səni bu abıra sala!"

Aşıq Ələsgər tezdən durdu, atını yəhərlədi ki, yola düşə, Bəşir soruşdu:

– Ay dədə, haraya gedirsən?

Aşıq Ələsgər istədi ki, bu məsələni heç kəsə bildirməyə, Bəşirə dedi:

– Toya çağırıblar.

Bəşir gördü ki, dədəsi toya çağırılana oxşamır, dedi:

– Düzünü de görüm, haraya gedirsən?

Aşıq Ələsgər gördü ki, cidanı çuvalda gizlətmək olmaz, bu məsələ açılacaq, dedi:

– Həcər xanımla deyişməyə gedirəm. Allah ya ona verər, ya mənə!

Bəşir üzəngisini basdı, gülümsünüb dedi:

– Yaxşı yol! Amma gözlə ki, dünənki muştuluq olmasın.

Aşıq Ələsgər yol başladı Qızılvəngə.

Mənim əzizlərim, Aşıq Ələsgər Qızılvəngə getməkdə olsun, sizə kimdən xəbər verim, Qızılvəngdə Məşədi Əhməddən.

Məşədi Əhməd oğluna toy eləyirdi. İstədi ki, toyu başlaya, camaat bir səslə dedi ki, əgər Aşıq Ələsgəri gətirməsən, sənin toyuna gəlməyəcəyik.

Məşədi Əhmədin əlacı kəsildi, atını mindi, yol başladı Ağkilsəyə. Qoşabulaq suyunda Aşıq Ələsgərlə qabaqlaşdılar.

– Salaməleyküm!

– Əleykəssalam!

Məşədi Əhməd başladı Allaha şükür eləməyə. Aşıq Ələsgər soruşdu:

– Əşi, nə olub, de görüm?

– Aşıq Ələsgər, oğlumun toy yuxası bişib, sənə məəttəlik. Bu gün burada olursan, sabah Qarabağda, biri gün Qazaxda... səni evdə tapmağıma heç ümidim yox idi. Ona görə sükür eləyirəm ki, Allah səni yolun ortasında mənə yetirdi. De görüm, haraya gedirsən?

– Mən də elə düz sizin kəndə gedirəm.

– Xeyir ola, nə işdən ötrü gedirsən?

– Bilmirsənmi, sazlı gedəndə xeyir olar. Sözün doğrusu, Həcər xanımla deyişməyə gedirəm.

– Aşıq Ələsgər, Həcər xanım bilsə ki, sən onunla deyişməyə gəlibsən, sənin meydanına çıxmaz. Yaxşısı budur ki, sən heç işin üstünü vurma, toyu başla. Mən Həcər xanımı da toya gətirdim, nə sözün var, orada de.

Aşıq Ələsgər bu fikirlə razılaşdı, gedib toyu başladı. Həcər xanımı da toya gətirdilər. Bundan əvvələ toyda kişilərin mərəkəsi ayrı olardı, arvadların mərəkəsi də ayrı. Aşıq Ələsgər kişilərin mərəkəsində bir neçə qatar oxuyandan sonra dilavər qadınlardan biri xəbər gətirdi ki, Həcər xanım deyir ki, bizi Allah yaratmayıb?! Aşıq Ələsgər gəlsin, bir az da bizim üçün oxusun. Həcər xanımın məqsədi Aşıq Ələsgəri görüb, onun hərəkətindən bilmək idi ki, görsün yazdırıb göndərdiyi söz xatirinə dəyməyib ki.

Aşıq Ələsgər arvadların məclisinə gələndə gördü ki, Həcər xanım tovuz kimi bəzənib, başda əyləşib. Amma ağ ipək qoftanın altından tapançanın ucu görünür. Aşıq Ələsgər tapançanı görəndə bir az ehtiyat elədi. Amma baxdı ki, Həcər xanım acıqlı adama oxşamır. Fikirləşdi ki, Həcər xanım qorxmur ha. Əgər o günü sözlərim xoşuna gəlməsə idi, gülə-gülə getməzdi. Ola bilər ki, kağızı istəməyənin biri Həcər xanımın dilindən yazar göndərər. Yaxşısı budur ki, hələ deyişmək fikrindən əl çək; bundan soruş ki, axı sənin ərə getmək vaxtın keçir, bu qədər istəyəndən niyə birini bəyənmirsən.

Aşıq Ələsgər sazın zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, görək Həcər xanıma nə dedi, məclisdəkilər nə eşitdi:

Bilmirsənmi, subay gəzmək günahdı,
Şəriətə, yol-ərkana nə dedin?!
Hər könül özünə bir padişahdı,
Sındırdın, döndərdin qana, nə dedin?!

Həcər xanım başa düşdü ki, Aşıq Ələsgər bu sözləri buna deyir. Diq-

qətlə qulaq asmağa başladı. Aşıq Ələsgər aldı o biri bəndini:

Yüz iyiddən birin bəyən, boyun əy,
Gələnin, gedənin qəlbinə az dəy,
İmirzə, Məhəmməd, Dünyamalı bəy,
Az qalıb eşqindən yana, nə dedin?!

Aşığam, gedirəm hər xeyir-şərə,
Eşitcək vəsfini yazdım dəftərə,
O gümüş vəznəli gələn bəylərə,
Bilirsənmi, sən zənana nə dedin?!

Aşıq Ələsgər gördü ki, Həcər xanım gülümsünür. Öz-özünə belə mülahizə elədi ki, o kağızı mənə özgə adam yazıbmış. Başladı ürəyində deyinməyə: "Camalın kağız gətirən evi yıxılsın". Bircə ayaq gec gəlsə, heyvanları satmışdım, işim də düzəlmişdi. Bir də mən Bəhlulun dalınca necə adam göndərəcəm... Götürdü sözün o biri bəndini:

Kəsəmənli nə cür geyir papağı,
Sənə nə dəxli var, bimürvət yağı?!
Onların köysünə çəkibsən dağı,
Heç sağalmaz o nişana, nə dedin?!

Həcər xanım gördü ki, Aşıq Ələsgər burada haqlı danışmır. Özünü saxlaya bilmədi, qızılquş kimi yerindən durdu. Aşıq Ələsgər elə hesab elədi ki, Həcər xanım onu tapança ilə vurmaq istəyir. Bir az geri çəkildi. Həcər xanım utanmağı yerə qoydu dilləndi:

– Aşıq, niyə məni suala tutubsan?! Qəbahətini qanmayanlara nə deyəcəksən de, bir hesabdır. İndi qulaq as, gör nə deyirəm.

Həcər xanım hörüklərindən birini ayırdı, sinəsinə basdı, Aşıq Ələsgərin çaldığı hava ilə başladı:

Arif olan bu sözlərə inansın,
İzin verib ata-ana, deyirəm.
Anlamaz anlasın, qanmayan qansın,
At sürməsin bu meydana, deyirəm.

**Aldı Aşıq Ələsgər:**

Məşəd İsə gəldi səni görməyə,
Kimin nə həddi var, qəlbinə dəyə,
Baş əymir, sərdara, sultana, bəyə,

Söylə görüm, o tərlana nə dedin?!

**Aldı Həcər xanım:**

İnanma hədyana, lafi-kəzzafa,
Bu sevdaya düşən heç tapmaz şəfa,
Əlac Haqqa qalıb, insaf - sərrafa,
Yetirsin gövhəri kana, deyirəm.

Ona qədər kişilərin məclisinə xəbər oldu ki, Həcər xanım Aşıq Ələsgərlə deyişir. Kimi saxlamaq olardı; hamı gəlib qulaq asmağa başladı.

**Aldı Aşıq Ələsgər:**

Bilmirsən, ərz edim, olgunan halı,
Onlara möhtacdı Göyçə mahalı,
Sana müştaq oldu bəy Molla Balı,
İsgəndərtək ac aslana nə dedin?!

**Aldı Həcər xanım:**

İşim yoxdu dövlət ilə, var ilə,
Əhdim var Xudayi-kirdigar ilə,
Gül xar ilə uymaz, tərlan sar ilə,
Qarğa qonmaz gülüstana, deyirəm.

Aşıq Ələsgər fikirləşdi ki, xalqın dərdi sənəmi qalıb; öz mətləbini de, gör nə cavab verir. Aldı tapşırmasını:

Ələsgər də hər elmdən halıdı,
Mövla baratıdı, öz kamalıdı,
Çəkdiyim özgənin qilü-qalıdı,
Axırında, mən cavana nə dedin?

Həcər xanım Aşıq Ələsgərin fikrini əvvəldən başa düşmüşdü. Gördü ki, burada lap ağ elədi. Fikirləşdi ki, qanana bir işarə bəsdir, acılı söz nəyə lazım. Aldı görək Aşıq Ələsgərə nə cavab v erdi:

Mən Həcərəm, əbrü ətlaz geymərəm,
Öz-özünə sultan mənəm, bəy mənəm,
Şövq əhlisən, xətirinə dəymərəm,
Səhv düşübsən sən pirana, deyirəm.

Aşıq Ələsgər sazını yerə qoydu, üzünü camaata tutub dedi:

– Mən bu yaşa gəlmişəm, hələ belə tutarlı cavab eşitməmişəm. Həcər

xanım məni bağladı.

Həcər xanım yerindən dilləndi:

– Yox, ay Aşıq Ələsgər, səni heç kim bağlaya bilməz. Mən qıfılbənd deyib səni aciz qoymamışam ha.

– Həcər xanım, mən qıfılbəndlə bağlamağı bağlamaq hesab eləmirəm. Ola bilər ki, biri yerdən, göydən Cənnətdən, Cəhənnəmdən sual verə, o biri cavabını bilməyə. Bu, tapmacadır. Aşıqlıq aləmində əsl bağlamaq odur ki, birinin oxuduğu sözün qafiyəsində ondan yaxşı, sanballı söz deyəsən. İnsaf məqamına qalanda, sənin sözlərin mənimkindən qiymətlidir. Ona görə dedim ki, məni bağladın. Bu gündən belə mən sənin atanam, sən də mənim qızım. Kimi ürəyin istəsə, ona gedərsən; toyunu da mən özüm eləyəcəm. Amma gününü keçirtmə.

– Ələsgər əmi, bilirəm nə deyirsən. Bu qədər istəyənin birini bəyənmədim, ancaq əhdim var.

Aşıq Ələsgər bildi ki, Həcər xanım qardaşlarının gəlməyini gözləyir, dedi:

– Qızım, Allah əhdinə çatdırsın!

Aşıq Ələsgər o gecə Qızılvəngdə söhbət elədi, səhər evlərinə qayıtdı.

Mənim əzizlərim, gün o gün oldu ki, Həcər xanımın qardaşlarının ikisi də sağ-salamat qayıtdılar.

Qızılvəngin özündən Musa adlı bir oğlan var idi. Atmaqda, vurmaqda, iyidlikdə o qədər adı-sanı yox idi, amma ağılda, mərifət-qanacaqla tək bir oğlan idi. Bunların elçiləri gəldi, Həcər xanımı ona verdilər. Toy tədarükü görüləndə Həcər xanım qardaşı Məhəmmədə dedi:

– Toyu Aşıq Ələsgər eləyəcək.

Atlı göndərdilər, Aşıq Ələsgər gəldi, toyu başladı. Üç gün, üç gecə Tufarqanlı Abbasın nağılını danışdı. Məclisin axırında Həcər xanımgilə xoş gün dilədi, uzun ömür arzuladı.

Həcər xanımla Musa ömürlərinin axırına qədər şad və xoşbəxt yaşadılar.

Sizi də ömrünüzün axırına qədər şad və xoşbəxt yaşayasınız!

## BƏŞİRİN MOLLA RƏHİMİ VURMASI

Mənim əzizlərim, sizə haradan xəbər verim, Göyçənin Ağkilsə kəndindən. Ağkilsə kəndində kimdən, Aşıq Ələsgərdən.

Aşıq Ələsgərin ana tərəfdən qohumları çox idi. Onun anası Göyçənin Zərzibil kəndindən idi. Adı da Pərizad idi. Onlar doqquz bacı olublar. İndinin özündə də Göyçədən başqa, Gəncə, Qarabağ, İrəvan tərəflərdə bu bacıların törəmələrinə çox rast gələrsən.

Aşıq Ələsgərin Ağkilsədəki xalasının Rəhim adlı çox yaraşıqlı, qanacaqlı-mərifətli bir oğlu varıydı. O vaxt uşağı oxutmaq çətin idi. Atası gördü ki, Rəhim çox sərrast uşaqdı, varına-yoxuna baxmadı, onu mollaxanaya qoydu. Uşaq vaxtından tez Quranı çıxdı. Bir kitab qoymadı; əlinə keçənlərin hamısını oxudu. İrandan gəlmiş mollaların, müctəhidlərin yanında bir neçə il də oxudu, bir molla kimi xalq içində ad qazandı. Qazı ona ölü götürməyə, kəbin kəsməyə icazə verdi. İndi ona Rəhim yox, "Molla Rəhim" deyirdilər.

Molla Rəhim xasiyyətcə bir qədər tünd idi. Heç sözgötürən deyildi. Bir deyənə beş cavab qaytarmasaydı, ürəyi soyumazdı.

Molla Rəhim bir gün kənddə birisi ilə sözə gəldi, vuruşdular. Molla Rəhim onu öldürdü.

Qohumlar Molla Rəhimin xətrini çox istəyirdi. Nə qədər çalışdılar, Molla Rəhimin işi yüngül keçmədi. Ölüm işi olduğuna görə, ona 25 illik Sibir sürgünü kəsdilər. Molla Rəhim qolubağlı getdi.

O vaxtı Sibirə göndərilənlərdən tək-tək adam qayıdırdı. Kimə ki Sibir kəsib apardılar, elə bil ki, bir daş bir quyuya düşdü. Çoxunun səsi-bəsi kəsilərdi. Sibirdən qayıdanlar yüzdə bir adamdan xəbər gətirərdilər ki, filankəsi gördüm...

Qohumlar, istəyənlər 4-5 il gözlədilər, onu gördüm deyən olmadı...

25 il tamam oldu, vaxtdan iki il də keçdi, Molla Rəhim gəlmədi.

Qohum-qardaş onun tələf olduğunu yəqin elədilər və ümidlərini tamam üzdülər.

Molla Rəhimdən söz düşəndə çoxları onun öldüyünü güman eləsə də, Aşıq Ələsgər deyirdi: "Molla Rəhim sağdı. Onun polad kimi sağlam bədəni var; Sibirin əzab-əziyyətlərinə davam gətirər. Atalar deyib: – Öydə birim ölüncə, çöldə beşim olsun. Öldü xəbəri çıxanlardan çoxu gəlib. Allaha pənah!"

Molla Rəhim tutulandan sonra evdə onun qoyduğu çox şeyləri yerindən tərpətmişdilər. O, içində qara neft olan bir şüşə qabı iplə evin dirəyindən asmışdı. Gündə onu neçə dəfə görsəydilər, Molla Rəhimi yada salıb kökslərini ötürərdilər...

Molla Rəhimin getdiyi 28-ci ilə ayaq qoymuşdu. Bir gün evdə nahar elədikləri zaman bir şıqqıltı onları səksəndirdi. Gördülər ki, dirəkdən asılmış şüşənin ipi çürüdüyü üçün düşüb qırılıb. Bunu hərə bir cür yozdu: kimi dedi, Molla Rəhim indiyə qədər sağıydısa da, indi öldü; kimi dedi: Molla Rəhim azad oldu, şüşənin qırılmağı tilsimin sınmağıdı...

Çoxları şüşənin qırılmağını xeyirliyə yozdu. Bir müddət keçdi, şüşə söz-söhbəti də kəsildi.

Mənim əzizlərim, bunlar burda qalmaqda olsun, indi sizə Molla Rəhimdən deyim. Molla Rəhim tutulandan sonra çox müsibətlər gördü. Onu həftələrlə, aylarla piyada apardılar. Yoruldu, əldən düşdü, ayaqları qabar oldu. Xülasə, uzun müddətdən sonra Sibirə çatdı. Burda dustaqlara çox ağır işlər gördürürdülər. Ayazda çoxlarının əl-ayağını soyuq apardı. Neçələri tab gətirmədi, xəstələndi, öldü. Molla Rəhim bu əzab-əziyyətə dözdü. İki il keçəndən sonra orada evləndi, vəziyyəti yaxşılaşdı.

Göyçə, qohum-qardaşları Molla Rəhimin heç yadından çıxmırdı. O elə bir yerdəydi ki, orada poçt-filan yox idi. Molla Rəhim illəri sanayırdı. 25 il düzələndə onun azadlıq kağızını verdilər. Molla Rəhim gəlmək fikrinə düşəndə, oradakı qohumları onu buraxmaq istəmədilər.

Elə oldu ki, arvadı xəstələndi, vəfat elədi. Bundan sonra qayınatası, qayınanası onu qalmağa məcbur eləmədilər. Molla Rəhimin Mikayıl adlı 25 yaşında bir oğlu da var idi. Molla Rəhim oğlunu da götürdü, uzun müddət yol gəldi, nəhayət, gəlib Göyçəyə yetişdi.

Bir gün camaat gördü ki, Zod yolu ilə bir atlı elə gəlir, elə gəlir ki, toz dumana qarışıb. Atlı o gəlişə Aşıq Ələsgərin qapısına yetişdi. Aşıq Ələsgəri görən kimi dedi:

– Aşıq Ələsgər, muştuluğumu ver, Molla Rəhim gəldi!

Sevindiyindən Aşıq Ələsgərin ağlı az qaldı başından çıxa. Bilmədi ki, nə eləsin. Muştuluqçudan soruşdu:

– Hardadı?

– Qəfərgildədi.

Qəfər Aşıq Ələsgərlə, Molla Rəhimlə doğmaca xaloğlu idi. O, Yarpızlıqda olurdu. Muştuluğa gələn də o kənddən idi. Üst-başından bilinirdi

ki, kasıbdı. Qəfər özü onu göndərmişdi ki, yoxsulluğun daşın atsın.

Camaat, qohum-qonşu muştuluqçu gəldiyini eşitdi, Aşıq Ələsgərin evinə toplaşdı. Kimin qulpundan nə qopurdusa, muştuluqçuya xələt verdi. Aşıq Ələsgər sandığın ağzını açdı, əli az tutar az, çox tutar çox, qızıl verdi.

Aşıq Ələsgər, onun qohumları, kəndin bir çox adamları atlarını mindilər, muştuluqçu ilə birlikdə Yarpızlıya – Molla Rəhimin qabağına getdilər.

Qəfər qurban kəsib, yaxşı bir qonaqlıq təşkil eləmişdi. Yemək-içməkdən sonra Molla Rəhimi də gətirib Ağkilsəyə gəldilər.

Molla Rəhimin yanında sarıyağız, pəhləvan kimi bir cavan oğlan var idi. Bu, onun oğlu Mikayıl idi.

Kəndə çatan kimi qurban kəsdilər. Camaat Molla Rəhimin görüşünə gəldi. Gecənin bir vaxtına qədər yedilər, içdilər, çaldılar, oxudular, danışdılar, gülüşdülər...

Camaat durub evlərinə gedəndən sonra Molla Rəhim burada qalan cavanları tanımağa çalışdı. Bəzilərini tanıdı, bəzilərini tanımadı. Onun gördüyü uşaqlar bu 28 ildə böyüyüb, doğrudan da, tanınmaz olmuşdular.

O gedəndən sonra neçələri dünyaya gəlmişdi. Tanımadıqlarını bir-bir soruşurdu ki, bu kimdi? Sıra Bəşirə çatanda, Aşıq Ələsgər dedi:

– Bəşirdi – böyük oğlumdu.

Molla Rəhim Bəşirin üzünə diqqətlə baxdı, "Həə" dedi. Aşıq Ələsgər başa düşdü ki, bu "həə"də bir şey var. Amma işin üstünü vurmadı.

Molla Rəhim tanımadığı o biri cavanların da kimliyini öyrəndi.

Gecə yatdılar. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açılanda cavanların hərəsi bir işin dalınca getdi. Aşıq Ələsgər, Molla Rəhim, Məşədi Salah, Xəlil gəlmişdən-getmişdən söhbət eləyirdilər. Amma axşamdan bəri Aşıq Ələsgəri bir fikir narahat eləyirdi. Daha səbir edə bilmədi, üzünü Molla Rəhimə tutub dedi:

– Xaloğlu, dünən Bəşirə baxanda niyə "hə" elədin?

– Aşıq Ələsgər, nə bilim, elədim da.

Aşıq Ələsgər gördü ki, Molla Rəhim sözlü adama oxşayır, əl çəkmədi:

– Xaloğlu, sənin bizdən gizlin nə sirrin ola bilər?!

Molla Rəhim dedi:

– Aşıq Ələsgər, mənim sizdən gizli heç bir sirrim, heç bir sözüm ola bilməz. Burada elə bir deyiləsi söz də yoxdur.

Gördülər ki, Molla Rəhim dilini sürüyür. Qəlbindəkini demək istəmir. Aşıq Ələsgər dedi:

– Xaloğlu, əgər deyiləsi söz deyilsə, demə.

Bundan sonra heç kəs dillənmədi; hamı fikirləşdi ki, görəsən, nə sözdür ki, Molla Rəhim demək istəmir?

Molla Rəhim gördü ki, hamı narahatdı, deməsə olmayacaq; gülümsünüb dilləndi:

– Aşıq Ələsgər, mən Sibirə getdiyim vaxtdan iyirmi il keçmişdi. Oraya bir baxıcı gəldi. Dedilər ki, hər şeyi bilir. Mən də taleyimə baxdırdım. Fikrimdə tutdum ki, öz yerimə salamat gedib çıxacağammı? Baxıcı dedi: qorxma, sən burada nə qədər çətinliyə düşsən də, ölüm yoxdu. Öz torpağına sağ-salamat gedəcəksən. Sənin əcəlin öz qohumlarından ya Həşim, ya da Bəşir adlı bir oğlanın əlindədi. Dünən sən Bəşiri mana tanıdanda, həmin baxıcının sözü yadıma düşdü. Düzü ki, ona görə "hə" elədim.

Hərə bir yandan Molla Rəhimi yasaladılar ki, heç elə bir şey ola bilməz. Baxıcı yalançının biri imiş, ağlına gələni danışmış...

Bu söz elə burada da qaldı, nə Bəşirin, nə də başqalarının qulağına çatmadı. Amma baxıcının belə deməsi, Bəşirin də dəlisovluğu Aşıq Ələsgəri fikrə salmışdı. Hər dəfə Bəşir tüfəngi əlinə alanda deyirdi:

– Oğul, qadan alım, ehtiyatlı ol. Tüfəng əlində açılıb adama dəyər!

Bəşir də belə cavab qaytarırdı:

– Mən uşağam ki, əlimdə açılıb adama dəyə?!

Bir müddət keçdi.

Novruz bayramına iki gün varıydı. Hamı hazırlıq görürdü. Küsülülər barışırdı, ürəyi istəyənlər bir-birini qonaq çağırırdı, gecələr tonqal yandırırdılar, gündüzlər kəndin cavanları yumurta döyüşdürürdülər, nişana qoyub, güllə atırdılar... Bir şadlıq varıydı ki, gəl görəsən.

Aşıq Ələsgərin dayısı Kalvayı Bayram Aşıq Ələsgəri, Məşədi Salahı, Xəlili, Məhəmmədi, bir də Molla Rəhimlə oğlu Mikayılı Zərzibil kəndinə qonaq çağırmışdı. Sabah tezdən Kalvayı Bayram özü gəldi, çay-çörəkdən sonra bu adamları da götürdü, Zərzibilə yola düşdülər.

Zərzibilnən Ağkilsənin arası iki kilometr ancaq olar. Bu adamlar bir-birinin dalınca qarın üstündəki cığıra cərgələnib, piyada gedirdilər. Ağkilsə kəndində tüfəngi olanlar o günü nişana qoyub güllə atdılar. Bəşir təzə bir şişlikli berdanqa tüfəng almışdı. Nə qədər güllə atan var idisə Bəşirdən yaxşı vuran olmurdu.

Mərdimazarın biri dedi ki, görəsən, bu tüfəngin gülləsi Zərzibilə çatarmı? Burdakıların bəzisi dedi, çatar, bəzisi dedi, çatmaz. Bir qonaqlıqdan

mərc gəldilər.

Aşıq Ələsgərgil az qalmışdılar ki, Zərzibilə çatalar. Dedilər ki, o gedən adamların başının üstündən bir güllə atın, əgər güllə Zərzibilə addasa, o adamlar vıyıltısını eşidəcəklər. Onlar Zərzibildən qayıdanda xəbər alarıq.

Bəşir ağılsız-ağılsız tüfəngi çevirdi adamlara tərəf. Bir qədər hündür, bir qədər də yana tutdu. İstədi ki, tətiyi çəkə, yeznəsi Abdulla (Bəstinin əri) "əyə, atma," – deyib, qolundan dartdı. Bəşirin tətiyi çəkməyi ilə Abdullanın onun qolundan tutmağı bir oldu. Güllə atıldı. Bəşirin Abdullaya bərk acığı tutdu ki, niyə qoluma dəydin! Gördülər ki, Zərzibilə gedən adamlar toplaşdılar. Bəşir özünü döydü ki, yəqin güllə dədəmə dəydi.

Bəşirgil buradan o adamlara tərəf yüyürdülər. Zərzibilə gedən adamlardan da biri ayrıldı, Ağkilsəyə tərəf yüyürdü. Yolun yarısında qabaqlaşdılar. Gördülər ki, Xəlildi.

Bəşir soruşdu:

– Güllə dədəmə dəydi?

– Yox, Molla Rəhimə dəydi.

Bəşir bu fikrə düşmüşdü ki, əgər güllə Aşıq Ələsgərə dəyibsə, özünü öldürsün. Bəşir oradan qayıtdı, qalan adamlar Molla Rəhimin harayına getdilər.

Bəşir atını mindi, tüfəngini də çiyninə saldı, aradan çıxdı. Molla Rəhimi Ağkilsəyə qaytardılar. Aşıq Ələsgər Hacı Nağını gətirməyə adam göndərdi.

Hacı Nağı Göyçənin Qannı kəndindən idi. Çox bilən həkim idi. Ortasından güllə keçmiş olan çox yaralıları sağaltmışdı.

Hacı Nağı gəldi, Molla Rəhimə baxdı, başını buladı. Hansı xəstə sağalası olmasa, hacı Nağı ona baxanda, başını bulayardı. Aşıq Ələsgərin ümidi üzüldü. Amma yenə həkimə yalvardı:

– Hacı, qadan alım, gör neyləyirsən!

Hacı Nağı astadan Aşıq Ələsgərin qulağına dedi:

– Aşıq Ələsgər, sağalası deyil, güllə haram iliyi qırıb.

Hacı Nağı çox qalmadı. O gedəndən sonra hamı Molla Rəhimdən əlini üzmüşdü. Molla Rəhim özü də öləcəyini başa düşmüşdü. Tez-tez huşunu itirirdi. Üzünü qardaşı İsmayıla və oğlu Mikayıla tutub dedi:

– Qiyamətin günü yanıma üzü qara gələsiniz, əgər Bəşirlə dava eləsəniz! Mən qanımı Bəşirə halal eləyirəm. Bəşiri tapın gətirin, gözümün qabağında barışın!

Dedilər ki, Bəşir hökumətin qorxusundan atını minib, Kəlbəcər tərəfə

aşıb.

Molla Rəhim dedi:

– Aşıq Ələsgərin əlindən öpün, onunla barışın!

İsmayıl da, Mikayıl da Aşıq Ələsgərin əlindən öpdü.

Aşıq Ələsgər özünü saxlaya bilmədi; bir gözü oldu, min yaşı, hönkür-hönkür ağladı. Buradakı adamların hamısı ağlaşıb, bir-birinə qarışdı.

Molla Rəhimi də ağlamaq tutdu, dedi:

– Xaloğlu, elə bilmə ki, mən ölümümdən ötrü ağlayıram; sənin ağlamağın məni ağlatdı. Kaş mən ölüb, Sibirdə qalaydım, amma sənin belə ağlar gününü görməyə idim!

Bəşirin Molla Rəhimi güllə ilə vurması xəbəri bütün kəndlərə yayıldı. Hökümət adamları da bunu eşitdi, həmin günün səhərisi Ağkilsəyə gəldilər, silist aparmağa başladılar.

Üzdə özünü dost kimi göstərən, amma əslində Bəşiri istəməyənlərdən bir neçəsi şahid keçdi ki, gülləni Bəşir atdı, özü də qəsdən atdı. Əgər Bəşir atmayıbsa, niyə qaçıbdır?! Odur ki, o biri şahidlər Bəşiri nə qədər müdafiə edib, "Bəşirin günahı yoxdur; Molla Rəhimə naməlum bir adamın atdığı yaylım gülləsi dəyib," – desələr də, çinovnikləri inandıra bilmədilər. Bəşirin günahkar olması təsdiqləndi. Amma onu da deyim ki, çinovniklərdən Aşıq Ələsgərə xəlvətcə deyəni də oldu ki, əgər bu adamlar sözlərini dəyişsələr, Bəşirin işi yüngül keçər, bəlkə də, təqsirkar sayılmaz...

Bir gün də keçdi. Novruz bayramı Ağkilsə kəndində əvvəlki illərdə olduğu kimi qarşılanmadı. Qohumların hamısı qəm-qüssə içində idi. Molla Rəhimin vəziyyəti çox ağırlaşmışdı. Tez-tez huşunu itirirdi.

Birdən özünü doğruldub, yastığa dirsəklənmişdi, üzünü Aşıq Ələsgərə tutdu:

– Xaloğlu, sənin sazın-sözün dünyaya səs saldı. Amma mənim bəxtim qoymadı ki, sənin çalıb-oxumağına doyunca qulaq asam. Fikrimdən keçirdi ki, bu günlərdə bir söhbət eləyəsən. İndi də belə.

Molla Rəhim belə deyəndə onun yanına yığılanların hamısı ağlaşdı. Aşıq Ələsgər gözünün yaşını sildi, son nəfəsində saz-söz istəyən xalası oğluna və onun ətrafına toplaşıb ağlaşanlara dərdini sazsız dedi:

Ələstü bürəbbüküm, qalu bəladan,
Mərdin mövlasına nökər olmuşam.
Sürtmüşəm üzümü xaki-payına,
Elm tapıb, sinədəftər olmuşam.

On bir aydı, mənim üzüm gülmədi,
Qəza qəhri məndən heç üzülmədi,
Yaxşı dostlar yaman gündə gəlmədi,
Dost sarıdan çox mükəddər olmuşam.

Baxt yatanda, qohum-qardaş yad olu,
Məğrurluq eyləyən namurad olu,
Bayram günü islam olan şad olu,
Mən qəmgin olmaqla kafər olmuşam.

Ələsgərəm, düşdüm qəza qəhrinə,
Fələk top bağladı ömrüm şəhrinə,
Eynim yaşı dönüb Ceyhun nəhrinə,
Ağlamaqdan zarü-müztər olmuşam.

Aşıq Ələsgər "Sızıldatma kərəmi" havası üstündə astadan ağlaya-ağlaya oxuyurdu. Hər benddən sonra ağlaşanların səsi ucalırdı.

Aşıq Ələsgərin əvvəlki xoş günləri, gözəl dövranları, sazlı-sözlü məclisləri... gözünün qabağına gəlirdi. Gördü ki, yox, bu müsibət yerə-göyə sığışası deyil. Əvvəlki günlər hara, indiki hara?! Gözünün yaşını sildi, görək bu dərdini ordakılara necə bildirdi:

Çarx dolandı, baxtım tapdı tənəzzül,
İqbalım idbara döndü, nə döndü!
"Can" deyən dostlarım, şux gözəllərim,
Ovsunalmaz mara döndü, nə döndü!

Fərhad gördü, sevdi Şirin camalın,
Şirin dost əlindən şirin cam alın,
Şirincə dövlətin, şirincə malın,
Axrı zəhrimara döndü, nə döndü!

Dad sənin əlindən çarxı-kəsmədar,
Günüm qara keçdi, işim ahu-zar,
Hay verrəm, qıy vurram, eyləmir şikar,
Tərlan baxtım sara döndü, nə döndü!

Molla Rəhim ağır-ağır nəfəs alırdı. Arada bir gözünü açıb, Aşıq Ələsgərin üzünə baxırdı. Dillənməyə halı yox idi.

Görək, Aşıq Ələsgər sözünə necə davam elədi:

Qəza qədərinə fəhm eylə, bir gül,
Tərəqqidən təvvəllüdü tənəzzül,
Müşriki göndərdi hakimi adil,
Şümr sitəmkara döndü, nə döndü!

Bu dərd qaldı Ələsgərin canında,
Haqq-nahaqq seçilər Haqq divanında,
Gövhər zibil oldu nadan yanında,
Dünya mana tara döndü, nə döndü!

Molla Rəhim yenə gözünü açdı. Camaatın ağlaşdığını görəndə, nəfəsi kəsilə-kəsilə dedi:

– Ağlaşmayın! Bü gün bayram günüdür. Mən Sibirdə olanda, gecə-gündüz əllərimi göyə qaldırıb yalvarırdım ki, ey məni yaradan, burada mən öz cəzamı çəkirəm. Elə et ki, mən öləndə vətənimdə məni torpağa qoysunlar. Allaha çox şükür eləyirəm ki, mənim diləyimi tutdu. Öz elimin-günümün içində dünyadan gedirəm. Belə ölüm toy-bayramdı ki, bayram gününə də düşübdür.

Molla Rəhim yenə huşunu itirdi. Bir qədərdən sonra gözünü açıb, üzünü Aşıq Ələsgərə tutdu:

– Xaloğlu, baxıcının dediyi düz çıxdı. Mənim də alnıma belə yazılıbmış.

Molla Rəhim belə deyəndən sonra gözlərini yumdu, sakitləşdi. Aşıq Ələsgər onun nəbzini tutdu və "xaloğlu", – deyib hönkürdü.

"Xaloğlu" deməklə xaloğlu hardaydı; gördü ki, canını tapşırıb. Qohum-qardaş, yığılanların hamısı vay-şivən qopardılar...

Molla camaatı sakitləşdirdi. Quran oxumağa başladı. Oxuyub qurtarandan sonra üzünü Aşıq Ələsgərə tutub dedi:

– Aşıq Ələsgər, bizə bir məsələ aydın olmadı.

– Hansı məsələ?

– Molla Rəhimin dediyi "baxıcı" məsələsi.

Molla Rəhim gələndə Aşıq Ələsgərgilə söylədiklərini, onun əcəlinin Bəşir adlı bir oğlanın əlində olduğunu Aşıq Ələsgər də buradakı adamlara söylədi. Hamı heyrət elədi... Molla Rəhimi yuyub kəfənlədilər, bayıra çıxarıb, namazına durdular.

Molla Quran oxudu. Cənazəni yerdən qaldırmaq istəyəndə, Aşıq Ələsgər dedi:

– Bir az dayanın. Bu kişi dünyasını dəyişdi, canını qurtardı. İndən belə zülmə qalan, canı odlara qalanan mənəm. Deyiləsi sözüm var.

Camaat Aşıq Ələsgərə diqqət elədi. Aşıq Ələsgər başladı:

Nagah badi-sərsər əsdi üzümə,
Ömür bostanımın tağı kəsildi.
Öz əlimdən xəta dəydi özümə,
Bədəndən qolumun sağı kəsildi.

Qəza tutdu, qədər məni budadı,
Ağlatdı dostları, güldürdü yadı,
Zəhrimara döndü ağzımın dadı,
Əlimdə şərbətim ağı kəsildi.

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Bu dərdi-möhnətdən, bu macəradan,
Dövlət getdi, hörmət qalxdı aradan,
Qapımızdan dost ayağı kəsildi.

Aşıq Ələsgər gördü ki, ona hər yandan zülm oldu. Həm nər kimi xalası oğlu öldü, həm də Bəşir evdən didərgin düşdü. Ya qismət, onu da hökumət tutub başına nə iş gətirə?! Görək, bu barədə nə dedi:

Müqərrərdi, qaçmaq olmaz ölümdən,
Fələyin qılıncı dəydi belimdən,
Bir tülək tərlanım getdi əlimdən,
Ürəyimin bəndi, bağı kəsildi.

Çox qaçdım qəzadan, olmadı çara,
Bir vurmuşdu, bir də vurdu dübara,
Çinovniklər istədilər qurtara,
Dostlarım özümə yağı kəsildi.

Aşıq Ələsgərin deməli sözü çox idi. Dərdindən nə qədər danışsa, qurtarası deyildi. Amma gördü ki, cənazəni yerdə çox saxlamaq yaxşı deyil, sözünü belə tamamladı:

Yazıq Ələsgər, işin müşküldü, müşkül,
Dərdini deməyə yoxdu əhli-dil.
Döy başına, fəğan eylə müttəsil,
Daha deyib-gülmək çağı kəsildi.

Mənim əzizlərim, söz tamama yetişəndən sonra cənazəni götürdülər. Molla Rəhimi aparıb haqq evinə qoydular.

Aşıq Ələsgər Bəşiri qurtarmaq üçün xeyli əziyyət çəkdi. İsmayıl da, Mikayıl da şikayətçi olmadılar. O biri şahidlər sözlərini dəyişdilər.

Bəşir həbs edilmədi.

Allah heç kimin işini çətinliyə salmasın!

Allah hamınızı qəzadan, bədbəxt hadisələrdən uzaq eləsin!

## AŞIQ ƏLƏSGƏRLƏ DƏLİ ALI

Mənim əzizlərim, sizə haradan xəbər verim, Gəncəbasarın Qarasuçu kəndindən. Qarasuçu kəndində kimdən, Dəli Alıdan.

Alı cavan vaxtlarında çobanlıq eləyirdi. Bir gün xərc üstündə yüzbaşı bunların ailəsini incitdi. Alı axşam evə gələndə məsələni eşitdi.

Gəlib xəncərlə yüzbaşını öldürdü, qaçdı. Hökumət Alının qohumlarına bu işin üstündə çox əzab-əziyyət verdi. Bunların da çoxu qaçıb, Alının dəstəsinə qoşuldu. Az bir zamanda Alının dəstəsi böyüdü.

Hökumət neçə dəfələrlə Alının üstünə silahlı adamlar göndərdi ki, onu tutsun, bacarmadı; Alı gələnlərin hamısını qırdı. Göyəzən dağında, Acıbulaqda, Qarasuçuda, Samıxda, Zincirlidə olan vuruşmalarda Alının dəstəsi yüzlərlə adam qırmışdı, sel kimi qan axıtmışdı. İyidliyinə görə xalq ona "Alı" yox, "Dəli Alı" deyirdi.

Dəli Alı 25 il idi ki, qaçaq idi. Onun səddi-sorağı Nikolaya da yetişmişdi.

Nikolayın qızı Nikolayın əmisindən xahiş eləmişdi ki, gedər o iyidin şəklini çəkdirər, mana gətirərsən.

Qoçaqlıqda, qəhrəmanlıqda Dəli Alının adı söyləndiyi kimi, aşıqlıqda da Aşıq Ələsgərin adı bütün Qafqazı götürmüşdü. Amma bu qədər vaxtda nə Dəli Alı Aşıq Ələsgəri görmüşdü, nə də Aşıq Ələsgər Dəli Alını.

Dəli Alının Zeynalabdın adlı bir bacısı oğlu var idi. Dəli Alı onun xətrini çox istəyirdi. Bir gün Zeynalabdını evləndirmək fikrinə düşdü.

Öz-özünə fikir elədi ki, heç belə şey olmaz ki, Aşıq Ələsgərin adı dünyanı götürə, sən onun məclisində olmayasan. Gərək nə cür olsa, Zeynalabdının toyuna Aşıq Ələsgəri gətirəm.

Yaylaq vaxtı Zincirlidə olanda toy tədarükü görməyə başladı. Sabah ertə Dəli Alı yoldaşları ilə bərabər Göyçəyə gələn yolun qırağında əyləşmişdi. Bir də gördülər ki, bir dəstə adam gəlir. Gələn adamlar Dəli Alıgili tüfəngli görəndə qorxdular, istədilər ki, ayaqlarını saxlasınlar. Dəli Alının yoldaşları əl elədilər ki, qorxmayın, gəlin.

Adamlar gəlib yetişdi.

– Salaməleyküm!

– Ələykümərsəlam!

Dəli Alı soruşudu:

– Niyə bizi görəndə dayandınız?

– Düzü ki, ehtiyat elədik.

– Gəlişiniz haradandı?

– Arandan, fəhləlikdən.

– Bu dəstə Dəli Alının dəstəsidi. Bizim camaata xeyrimizdən başqa, ziyanımız dəyməz. İndi deyin görüm, haradansınız?

– Başına dönüm, Ağkilsədənik.

Bunlar belə deyən kimi, Aşıq Ələsgər Dəli Alının yadına düşdü.

– Bir kağız versəm, aparıb Aşıq Ələsgərə verə bilərsinizmi?

– Verərik, özgə nə tapşırığın da olsa, yerinə yetirərik.

Dəli Alı tez kağız yazdırdı, adamların birinə verdi.

Fəhlələr Ağkilsəyə gəlməkdə olsun, sizə kimdən xəbər verim, Ağkilsədə Aşıq Ələsgərdən.

Aşıq Ələsgərin oğlu Bəşir böyümüşdü; evlənmək vaxtı idi. Aşıq Ələsgər fikirləşdi ki, payız girən kimi Bəşirin toyunu eləsin. Yavaş-yavaş tədarük görməyə başladı.

Ot biçininin vaxtı idi. Araba ilə dağdan kəndə ot daşıyırdılar. Arandan gələnlər axşam kağızı gətirib, Aşıq Ələsgərə verdi. Aşıq Ələsgər kağızı Bəşirə oxutdu, gördü ki, Dəli Alı göndərib. Kağızda yazıb ki, xeyir işimiz var, gəl məni Zincirlidə tap.

Aşıq Ələsgər bərk fikrə düşdü. Bəşir soruşdu:

– Ay dədə, nə fikir eləyirsən?

– Oğul, işin-gücün bu vaxtında bilmirəm necə gedim?

– Ay dədə, işdən sarı fikir eləmə. Otu Əbdüləzimlə mən daşıyıram, üç-dörd günə qədər də özün gələrsən.

Sabah hamınızın üzünə xeyirliklə açılsın! Sabah açılanda Aşıq Ələsgər Daşkəndə də, Böyük Qaraqoyunluya da xəbər göndərdi, bir azdan sonra şəyirdləri Aşıq Nəcəflə Aşıq Əsəd sazlarını götürüb gəldilər.

Aşıq Nəcəf soruşdu:

– Ələsgər əmi, bu vaxtı hara belə?

– Oğul, bir yerə çağırıblar.

Aşıq Əsəd soruşdu:

– Ələsgər əmi, hara çağırıblar?

– Yaylağa toya çağırıblar.

Aşıq Ələsgər də sazını götürdü atlarını mindilər, yola düşdülər.

Gəlhagəl, gəlib Layışqırılana yetişdilər. O tərəf-bu tərəfə baxdılar ki, heç bir şey görünmür. Bir az da irəli gedəndə gördülər ki, Sarı Məyəlin

döşünə bir dəstə atlı tökülüb. Ehtiyat elədilər, atların başını çəkib dayandılar. Elə bu vaxt üst tərəf qayadan səsləndilər:

– Ey, a yolla gedənlər, niyə dayandınız? Atlarınızı sürün, düz o görünən adamların yanına!

Aşıq Ələsgərgil atlarını sürüb, adamların yanına yetişdilər.

– Salaməleyküm!

– Əleyküməsalam!

Aşıq Ələsgər gördü ki, bunların içində dağıstanformu geyinmiş, başında qabardini buxara papaq olan bir adam var. Həmin adam yerindən dilləndi:

– Aşıq, atdan düşün!

Aşıq Ələsgərgil atdan düşdülər. Sonra o adam yoldaşlarına dedi:

– Əyə, aşıqların atlarını tutun!

Tez gəlib, aşıqların atlarını tutdular.

– Aşıq, əyləşin!

Aşıq Ələsgərgil dinməzcə əyləşdilər.

Həmin adam üzünü Aşıq Ələsgərə tutub dedi:

– Aşıq, adın nədi?

– Adım Ələsgərdi.

– Yoxsa göyçəli Aşıq Ələsgər sənsən?

– Bəli, mənəm.

– Bəs bu aşıqlar kimdi?

– Bunlar də mənim şəyirdlərimdi.

– Aşıq Ələsgər, bəs, Allah qoysa, səfəriniz harayadı?

Aşıq Ələsgər gördü ki, burda yaman dolaşdı. Əgər desə ki, Dəli Alı çağırıb, oraya gedirdik, bəlkə də, Dəli Alının düşmənlərindəndi, sözsüzcə öldürəcəklər. Yox, əgər desə ki, özgə yerə gedirik, bəlkə, elə bu, Dəli Alıdı, deyəcək ki, səni mən çağırtdırmışam, məni qoyub haraya gedirsən?! Yenə yaxşı olmayacaq. Bir də fikir elədi ki, düzünü demək hamısından yaxşıdır. Əgər düşmən adamdı, səni öldürsə də, Dəli Alı eşidər, qanını yerdə qoymaz. Dost adam olsa da, səni Dəli Alının yanına aparar. Aşıq Ələsgər dedi:

– Alı çağırıb.

– Nə bilim, o qədər Alı var ki, hansını deyirsən?

– Qaçaq Alı çağırıb.

– Qaçaq dəstələrinin çoxunda Alı adlı adam var. Haraya, hansı dəstəyə getmək istəyirsən?

Aşıq Ələsgər gördü ki, olmadı, dedi:

– Dəli Alı çağırıb. Oraya gedəcəyik.

– Dəli Alını görübsən?

– Yox, görməmişəm.

– Əşi, bəs, bir dəlinin sözündən ötrü niyə dağlara, daşlara düşübsən? Yaxşı olsa, "Ağıllı Alı" deyərdilər də!..

– O, qoçaq adam olduğuna görə "dəli" deyirlər. Bu dəli ağılsız dəlilərdən deyil. Dəli Alı çox adlı adamdır.

– Dəli Alının özünü görməyibsən, bəs, hansı işlərini eşidibsən ki, deyirsən adlı adamdır?

Aşıq Ələsgər Dəli Alının qoçaqlıqlarından danışmağa başlayanda, söhbət elədiyi adam dedi:

– Aşıq, deyəsən axı, sən Aşıq Ələsgər deyilsən?!

– Niyə, nədən bildin ki, mən Aşıq Ələsgər deyiləm?

– Əgər Aşıq Ələsgər olsan, Dəli Alının haqqında nə bilirsənsə, sözlə deyərdin; sən Dəli Alının haqqında eşidibsənsə, mən də Aşıq Ələsgər haqqında eşitmişəm.

Aşıq Ələsgər gördü ki, çox hesabı söz deyir. Sazı köynəyindən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, aldı görək Dəli Alının haqqında buradakı adamlara nə dedi:

Gün kimi aləmi tutubdu adı,
İyidlər sultanı, xanı Dəli Alı.
Pirim Şahi-Mərdan verib muradı,
Artırıb şövkəti, şanı Dəli Alı.

Götürüb süzəni, minəndə ata,
Fələk "əhsən" deyir boya, büsata,
Nərə çəkib, təpiləndə saldata,
Sel kimi axıdır qanı Dəli Alı.

Aşıq Ələsgər gördü ki, bunu danışdıran adamdan başqa, o biri adamların hamısı gülümsünür. O saat bildi ki, burda bir iş var. Üzünü həmin adama tutub, görək bu dəfə nə dedi:

Namərdlər əlindən çəkirlər haşa,
Namuslu iyidsən, səni yüz yaşa!
Tüfəngin gülləsi işləyir daşa,
Tək qaytarır yüz düşmanı Dəli Alı.

Aşıq Ələsgər yanılmamışdı; doğrudan da, bu, Dəli Alı idi. Dəli Alı gördü ki, Aşıq Ələsgər onu tanıdı, daha dillənib bir söz soruşmadı.

Aşıq Ələsgər bir Dəli Alıya baxdı, bir yoldaşlarına baxdı, gördü ki, bir-birindən say-seçmə oğlanlardır. Bunların axır günlərini fikirləşdi ki, görəsən, necə olacaqdır; hansı vuruşmada başlarına nə iş gələcək? Elə olaydı ki, arxayınlıq olaydı, sazla, sözlə belə məclislər keçirəydilər.

Aşıq Ələsgər aldı, görək bu dəfə Dəli Alıya, onun yoldaşlarına nə arzuladı:

Dərs alıbdı o, Əliyyi-əladan,
Xof eyləmir Xeybər kimi qaladan,
Gəzən zəlzələdən, yaman bəladan,
Hifz eyləsin kərəm kanı, Dəli Alı!

Məclisində duran canlar sağ olsun!
Həmişə məclisdə bu damağ olsun!
Sərdar bağışlasın, üzün ağ olsun!
Sən sürəsən bu dövranı, Dəli Alı!

Dəli Alı dedi:

– Aşıq Ələsgər, Dəli Alı mənəm. Sənə kağız göndərən də mənəm. Xeyir işimiz var, səni bir ay saxlayacam.

Dəli Alı belə deyəndə, Aşıq Ələsgərin evdəki işləri: otun daşınması, Bəşirin toy işi yadına düşdü. Gördü ki, bir ay burada qalsa, taxılın biçini də düşəcək, işlər kənddə bir-birinə qarışacaq. "Qalmıram" demək də olmaz. Fikirləşdi ki, gəl de ki, işlərimi pəjmürdə qoyub gəlmişəm; bəlkə, bir az tez buraxa. Aldı, görək bu dəfə öz işlərinin vəziyyətini Dəli Alıya necə bildirdi:

Ələsgərin toy işi var əlində,
İşi təhər tapmır Göyçə elində,
Sənin kimi mərd iyidin yolunda,
Qurbandı aşığın canı, Dəli Alı!

– Aşıq Ələsgər, yoxsa səni özgə yerə toya çağırıblarmış, onu qoyub buraya gəlibsən?

– Yox, a Dəli Alı, sizinkilərlə bərabər Allah sağ eləsin! Öz oğluma toy tədarükü görürəm. Ona toy eləyəcəm.

– Bir xırda toy da bizim var. Sənə ona görə zəhmət vermişəm. Hələ hər şeydən qabaq, səndən bir xahişim var: gərək "Həcər xanımın əhvalatı"nı

danışasan qulaq asaq!

Bəli, mənim əzizlərim, Aşıq Ələsgər Qızılvəngə gedib, Həcər xanımla deyişəndən sonra bu məsələ bircə ilin içində bütün Azərbaycana yayılmışdı. Məclislərin çoxunda camaat aşıqlara bunu danışdırırdı.

– Aşıq Ələsgər, bu pul olsun oğlunun toy xərci. İndi zəhmət çəkin, bizim yaylağa gedin. Üç gündən sonra gəlib toyu başlayacam.

Dəli Alı Aşıq Ələsgərə bu sözü deyəndən sonra ucaboy, cavan bir oğlana üzünü tutub dedi:

– Zeynalabdın, aşıqları apar, alaçıqda rahat olsunlar. Zeynaba da de ki, tədarük görsün, üç gündən sonra gəlib toyu başlayacam.

Zeynalabdın Aşıq Ələsgərgili Xaçbulaq yaylağına gətirdi. Dəli Alının bacısı Zeynab aşıqlara "xoş gəldin" elədi, sonra alaçığa aparıb çay-çörək qoydu.

Bir qədər keçəndən sonra Aşıq Ələsgərgil alaçığın qapısına çıxdılar. Gördülər ki, alaçıqdan xeyli aralı çoxlu at var, amma hamısı hörüklüdür.

Saydılar ki, düz qırx atdır. Aşıq Ələsgər Zeynalabdından soruşdu:

– Oğul, o hörükdəkilər nə atdı?

– Ələsgər əmi, Alı dayımındı. Atları yorulduqca gəlib dəyişdirirlər.

Aşıq Ələsgər gördü ki, dağın döşündə üç sürü qoyun otlayır. Ondan aşağıda – dərədə bir naxır camış var. Bu tərəfdə bir naxır mal otlayır.

Gözünü o tərəf-bu tərəfə gəzdirdi, Dəli Alıgilin alaçıqlarından başqa, nə bir oba gördü, nə bir alaçıq. Zeynalabdından soruşdu:

– Oğul, bu mal-heyvan hansı kəndindir?

– Ələsgər əmi, burada nə qədər mal-heyvan varsa, hamısı Alı dayımındır.

Aşıq Ələsgər neçə ilin aşığı idi, belə dövləti heç kəsdə görməmişdi. Gecə yatdılar, sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı.

Aşıq Ələsgərgil gördülər ki, beş-altı ulaq hazır oldu. Zeynabla Zeynalabdının danışığından başa düşdülər ki, bu ulaqları Şəmkirdən düyü gətirməyə göndərirlər. Ulaqları iki adamın qabağına qatdılar, bunlar getdi. Aradan bir az keçməmiş beş-altı ulaq da hazır elədilər.

Aşıq Ələsgər bu dəfə Zeynalabdından soruşdu:

– Oğul, bu ulaqları haraya göndərirsən?

– Ələsgər əmi, Gəncəyə göndərirəm, oradan qənd, şirniyyat gətirsinlər.

İki adam da bu ulaqları götürüb getdi. Bir azdan sonra gördülər ki, iki adamın da qabağına dörd ulaq qatıb yola saldılar. Aşıq Ələsgər yenə

Zeynalabdından soruşdu:

– Oğul, bəs, bunları haraya göndərdin?

– Ələsgər əmi, onları da Sarıyaldan yağ gətirməyə göndərdim.

– Oğul, Allaha şükür, bu qədər mal-qoyununuz var, niyə özgələrdən yağ gətirirsiniz?

– Ələsgər əmi, dayım dedi ki, yağı oradan gətirin. Oranın yağı yaxşıdır.

Aşıq Ələsgərgil bu gördüklərinə inanmırdı; fikir eləyirdilər ki, bunun yüz qonağı olar, yüz də özləri olar, bu eləyər iki yüz. Daha bu qədər düyü, bu qədər qənd, bu qədər yağ nəyə gərəkdir? Elə belə fikirlərlə o günü keçirtdilər.

Səhər Aşıq Ələsgər gördü ki, doğrudan da, düyüyə, qəndə, yağa gedənlər ulaqları yüklü gətirdilər.

Üçüncü günə keçəndə qonağın ağzı açıldı. Dəli Alının dostları gəlməyə başladılar. Zeynalabdın gələn qonaqlar üçün heyvan kəsdirdi, kabab verdi. Günorta olanda, bir də gördülər ki, dağın döşü ilə Dəli Alının dəstəsi gəlir. Bir dəstə bu yandan töküldü, bir dəstə o yandan...

Bəli, toy başlandı. Qonağın arası kəsilmirdi, elə hey gəlirdi. Yağışdan ehtiyat eləyirdilər; iki yerdə böyük mağar tikdilər. İncəvara, yağış-zad olmadı, hava çox xoş keçdi.

Axşam Aşıq Ələsgərgil söhbəti başladı. Ortaya dəsmal açdılar. Aşıqlar oxuduqca qızıllar cınqıltı ilə dəsmalın üstünə tökülürdü. Elə olurdu ki, adlı qaçaqlar bir-birinin bəsinə şabaşa beş manat qızıl verirdilər.

Qaçaqlardan başqa, ayrı-ayrı yerlərdən bir çox adlı-sanlı adamlar da toya gəlmişdilər. Məclisi yola salan, hər işə qarışan, zəhmli bir adam var idi. Bu da dağıstan formu geyinmişdi. Üst-başı yaraqlı-yasaqlı idi. Aşıq Ələsgər öyrəndi ki, Dəli Alının qardaşı Aslandır.

O gecə keçdi. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah yeməkiçməkdən sonra qaçaqlar meydan düzəltdilər, at oynatdılar, güllə atdılar, cıdıra çıxdılar... Axşama qədər bir şənlik, bir vurhavur oldu ki, gəl görəsən.

Dəli Alının qonağı bir ucdan gəlib, bir ucdan gedirdi. Toy on beş gün idi ki, davam eləyirdi. Hər gecə bir-birindən şərafətli məclis düzəldib, xoruz banına qədər aşıqları oxudurdular.

Aşıq Ələsgərgilin hər gün nə qədər xeyiri olurdusa da, yenə darıxırdı; fikirləşirdi ki, görəsən, ot necoldu, taxılın biçini düşdümü?..

Aşıq Ələsgər başının tükü sayı toy eləmişdi, amma nə ağanın, nə bəyin, nə heç kəsin belə məclisini görməmişdi. Fikrindən keçirdi ki, bu toya

bir tərif desin, amma bu məclisdə deməyi lazım bilmirdi, çünki məclisdəkilər elə hesab eləyərdilər ki, Aşıq Ələsgər bu tərifi nəmər almaq üçün dedi. Bu fikirdə idi ki, kəndə qayıdanda, ya da başqa bir toy məclisində burda gördüklərini desin. Çox götür-qoy elədi, gördü ki, doğrudan da, bu ondan çox şərafətli düşər.

Aşıq Ələsgər öyrəndi ki, gələn qonaqlar toya beş min manat xələt gətiriblər. Qəssabdan halı oldu ki, xırda toğludan başqa, yüzə qədər erkəköyəc kəsilib.

Dəli Alı iki dəllək gətirmişdi ki, gələn qonaqların üz-başını qırxsın, amma pul almasın, hesabını yadında saxlasın. İki nalbənd gətirdib tapşırmışdı ki, Göyçədən Arana, Arandan Göyçəyə nə qədər atlı, ulaqlı keçsə, hamısının atının, ulağının nalını təzələsin, amma heç birindən pul almasın, hesabını yadında saxlasın.

Elə ki qonaqlar bir az seyrəkləşdi, Dəli Alı Aşıq Ələsgərə dedi:

– Aşıq Ələsgər, bilirəm, evdən sarı darıxırsan. Amma mənim indən belə on gün qonağım gələcək. Bu on günü də qala bilirsənsə, qal, yox əgər getmək istəyirsənsə, yaxşı yol! Nə təmənnan da var, de, utanma!

– A Dəli Alı, çox sağ ol! Elə sənin sağlığın mənə bəsdir. Əgər icazə versən, gedərəm. İndi bizim taxılın biçini düşdü.

Dəli Alı aşıqların atlarını gətirtıdirdi. Aşıq Ələsgər gördü ki, atların hərəsinin belinə bir Qarabağ yəhəri qoyublar, nəyə desən dəyər.

Aşıq Ələsgərgil atlarını mindilər. Xudahafizləşib ayrılan vaxtı Dəli Alı dedi:

– Aşıq Ələsgər, dünya bu saat oğru ilə, quldur ilə doludur. Birdən sənin toydan getdiyini bilib, yolunu kəsərlər, onda dünya malından ötrü özünüzü güdaza verməyin. Qoy, sizi soysunlar, amma canınız salamat qurtarsın. Sizi soyanlardan bircəciyinin nişanını yadınızda saxlayın, mənə deyin. Onları tapıb, özüm hesablaşaram.

Mənim əzizlərim, Aşıq Ələsgərgil yol başlayıb, Göyçəyə gəlməkdə olsun, sizə kimdən xəbər verim, Xuluflu Məşədi Yolçudan.

Məşədi Yolçu da qaçaq idi. Özü də Dəli Alının dostlarından idi.

Dəli Alının toy eləməsi xəbəri bir az ona gec çatmışdı. Aşıq Ələsgərgil atlarını minib, Xaçbulaqdan ayrılandan azca sonra Məşədi Yolçu gəlib çıxdı. Gec gəldiyinə görə üzrxahlıq eləyəndən sonra soruşdu:

– Aşığınız varmı?

Dəli Alı dedi:

– Varıydı, elə indicə yola düşdülər.

– Kim idi?

– Aşıq Ələsgər idi.

Məşədi Yolçu aşığa gəlib çata bilmədiyinə görə çox heyifsiləndi. O, Aşıq Ələsgər haqqında çox eşitmişdi, amma özünü görməmişdi. Soruşdu ki, burada olduğu neçə gün idi?

Dəli Alı dedi:

– On beş gün idi.

– Bəs, özündən bir söz, təzə tərif-zad dedimi?

– Öz sözündən də çox oxudu, amma bu toya bir söz demədi. Düzü, mənim də ürəyimdən keçdi ki, bir tərif desin, amma üzümdən gəlmədi ki, eşitdirim.

– Bəlkə, o heç Aşıq Ələsgər deyilmiş, səni aldadıb?

– Aşıq Ələsgər olmağına, Aşıq Ələsgər idi, toydan əvvəl, tanışlıq verməmiş mən sınamışam.

– Əgər Aşıq Ələsgər olsaydı, bu toya tərif deməmiş olmazdı. Gərək nə cür olsa, mən də onu sınaqdan keçirdəm. Əgər o sübut elədi ki, Aşıq Ələsgərdi, baxtı kəsdi; yox, sübut eləyə bilmədi, gərək məndən inciməyəsən. Onda onun toyunu da mən özüm eləyəcəm.

Dəli Alı bir az fikirləşdi, dedi:

– A Məşədi, yox, hər kim olursa-olsun, hamı bilir ki, o bizim toydan gedir. Bu bizə əskiklik gətirər. Amma elə-belə yoxlamaq istəyirsənsə, o, sənin işindi.

– Əşi, elə şey olar ki, bir bulağın başında bir qız görməkdən ötrü ona bir sicilləmə tərif desin, amma burda bu qədər cah-calalı görsün, nə qədər də xeyiri olsun, bircə qatar da söz deməsin! Onu yoxlamasaq olmaz!

– Yoxlamaq istəyirsən, yoxla, amma bayaqkı sözümü yaddan çıxartma!

Məşədi Yolçu özündən başqa, doqquz adam da götürdü, hərlənib Motaluçanın ayağında yolu kəsdi.

Aşıq Ələsgərgil şad-xürrəm, söhbət eləyə-eləyə Qoşqarın döşü ilə Bəzirgan yolu gəlirdilər. Bəzirgan bulağına çatanda gördülər ki, yolun qırağında bir adam əyləşib, amma tüfəngliydi, düz adama oxşamır. Ehtiyat elədilər, istədilər ki, geri qayıdalar. Bu zaman yolun üst tərəfindəki ağ qayalardan səsləndilər:

– Aşıq, nə üçün dayandınız?! Yolunuzla düz gedin!

Yuxarı baxdılar ki, qayadan tüfənglər ilan kimi boğazlarını uzadıblar.

Bunları belə görəndə qorxdular. Bilmədilər ki, nə eləsinlər. Aşıq Ələsgər astadan Nəcəflə Əsədə dedi:

– A bala, keçib, qorxmayın, gəlin! Nə olacaq, olacaq! Həmişə ehtiyatlı olun ki, qəza sizi tapmasın. Elə ki, tapdı, daha qorxmağın faydası yoxdur. Gərək mərdana durasan.

Atları sürüb, qabaqdakı adama yetişdilər.

– Salaməleyküm!

– Ələykümməsalam! Atdan düşün!

Aşıq Ələsgər özünü o yerə qoymayıb dedi:

– Sağ ol! Yolumuz uzaqdır, gedəcəyik.

– Məni lağa qoyursan?! Düşmürsünüz, özüm düşürdüm!

Bu adam belə deyəndən sonra tüfəngi hərlədi. Aşıq Ələsgərgil gördülər ki, iş özgə cürdür, atdan düşdülər. Həmin adam boz-boz soruşdu:

– Haradan gəlirsiniz?

Nəcəf də sərt cavab verdi:

– Nenirsən, haradan gəlirik?!

Ona qədər Əsəd dilləndi:

– Mədəndən gəlirik.

– Əyə, xalası göyçək, mədənin yolunu mənə öyrədirsən?! Düzünü deyin görüm, haradan gəlirsiniz?

Aşıq Ələsgər fikir elədi ki, düzünü demək yaxşı olar. Bəlkə də, Dəli Alının dostudur? Dedi:

– Yaylaqdan gəlirik.

– Necə yaylaqdan?

– Xaçbulaq yaylağından. Dəli Alı toya çağırtmışdı.

– Dəli Alı-zad tanımıram; toydan gəlirsiniz, gətirin görüm, nəyiniz var?!

Bu adam belə deyəndə, Dəli Alının tapşırığı Aşıq Ələsgərin yadına düşdü. Dəli Alının əvvəl verdiyi pulu dillənməzcə çıxardıb, kisəli-zadlı qoydu yerə, toyda yığılan pulu göstərmədi. Bu kişi yoldaşlarından birini çağırdı ki, gəl say, görək adama nə düşür?

Qayadakı adamlardan biri gəldi, kisənin ağzını açdı, pulu yerə tökdü, saymağa başladı. Aşıq Ələsgər özü bilmirdi ki, Dəli Alının verdiyi bu pul nə qədərdir. Pul Aşıq Ələsgərin gözünün qabağında sayıldı, gördülər ki, üç yüzdən beşcə manat əksikdir. Əvvəlki kişi kisənin ağzını bağlayıb dedi:

– Allah bərəkət versin! Yüzlərlə erkək aparıb satan çovdarları soyanda, bu qədər pul çıxmırdı.

Aşıq Ələsgər dedi:

– Allah o pulu verən iyidlərin kisələrinə bərəkət versin! Aşığın dədəsinin bangımı var?!

Qayadan biri səsləndi:

– A Məşədi, aşıqların o boz atı nə yaxşı atdı. Onu aparacam, nökərçəniz minsin.

Aşıq Ələsgər bu qədər qızılı verdi, dillənmədi, amma atı almaq istəyəndə, dayana bilmədi:

– Nə çoxdur at. Gör o kisədə neçə atın pulu var?!

Kişi dedi:

– Uzun danışma!

– Dünya dərəbəylikdir ki, həm pulu alasan, həm də atı ala-san, özümü piyada qoyasan?!

– Dərəbəylik olmayanda bəs nədir?! Pulunu almışam, atını da alacağam. Piyada qalmaq istəməsən, başına da bir güllə vurub, tullayacağam bir dərəyə. Görüm kim gəlib, sənin qanını kimlə dava eləyəcək!

Aşıq Ələsgər gördü ki, çox pis yerdə axaşamlayıblar, Dəli Alıdan da haray olmadı. Fikirləşdi ki, gəl tanışlıq ver, bəlkə, hörmət eləyə.

Onun sözünü haqlayıb dedi:

– Öldürməyinizə bir söz demirəm; fürsət əlinizdədir. Onu da bil ki, mən Aşıq Ələsgərəm. Məni hamı tanıyır. Mənim bu yaylağa atlı gəlib, piyada getməyim mənə ölümdən artıqdır.

– Aşıq, sən Aşıq Ələsgərsən?

– Bəli, Aşıq Ələsgərəm.

– Bəs onlar kimdir?

– Onlar da mənim şəyirdlərimdir.

– Əgər sən Aşıq Ələsgərsənsə, Dəli Alının toyunun necə keçdiyini gərək bizə sözlə deyəsən. Düzdür, mənim Dəli Alı ilə aram yoxdur, amma eşitmişəm ki, toyu necə keçir. Əgər düzünü dedin, canını qurtardın. Atını da özünə verəcəm. Yox, düzünü deməsən, üzünüzü bir-birinizə söykəyib, bircə güllə vuracam.

Aşıq Ələsgərə belə bir fürsət lazım idi. O saat sazı köynəyindən çıxartdı, zilini zil, bəmini bəm, sinəsində müstəkəm elədi, aldı görək bu yolkəsənlərə Dəli Alının toyundan nə xəbər verdi. Deyək, şad olun:

Dəli Alı bir sədd açıb Şah Abbas dövranı kimi,
Yanında yoldaşları var Azərbaycan xanı kimi.
Zeynalabdın bəy bəzənib Misirin sultanı kimi,
Hər yana kağız dağıldı, Süleyman fərmanı kimi,
Yetmiş iki millət gəldi Ərəsət divanı kimi.

Aşıq Ələsgər bu bəndini deyəndə, Məşədi Yolçu bir daşın üstündə oturdu, qayadakılar da tüfənglərini geri çəkdilər, diqqətlə qulaq asmağa başladılar. Məşədi Yolçu dedi:

– Aşıq, dağın başında Dəli Alı bu "yetmiş iki millət"in azuqəsini haradan aldı? Elə şey de ki, adamın ağlı kəssin.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Neçə çinovniklər gəldi, çox ağır keçdi yığnağı,
Bir yanı Qanıq, Qavrı, bir yanı Qoşqarın dağı,
Aləm çırağban göründü, xoddananda çil-çırağı,
Şəmkirdən düyü çəkildi, Sarıyaldan gəldi yağı,
Hər yana qəflə işlədi, xotkar bəzirganı kimi.

Məşədi Yolçu dilləndi:

– Aşıq, gərək nə görübsənsə, düzünü deyəsən ha!... İstəmədiyim adamı mənim yanımda yalandan təriflələsən, işin yaxşı olmaz.

Aşıq Ələsgər bu dəfə görək nə dedi:

Günün günorta vaxtında gəldi Alının dəstəsi,
Hər birisi bir iyiddir, bir qoşunun sərkərdəsi,
Gördüm asmana dayandı "öldürrəm", "öldürrəm" səsi,
Yaponyadan tüfəng gəlib yeddi ağac vurur gülləsi,
Zərbindən dağlar titrəyir bərqin dirəxşanı kimi.

Məşədi Yolçu yenə dilləndi:

– A kişi, onu niyə bu qədər şişirdirsən?! Onun gülləsinə də bələdəm, tüfənginə də. Bir adama ki, "dəli" deyələr, ona bu qədər tərif yaraşarmı?!

– O, dəli olsa, o qədər cah-calalı olmaz.

– Axı, nə qədər cah-calalı var?

– Qulaq as, gör nə qədər cah-calalı var, dəlidir, yoxsa necədir:

İyidliyin səbəbinə ona deyirlər: – Dəli Alı,
Şücaətdə Qəhrəmandı, Loğmana bənzər kamalı,
Barilahim, irəhm eylə, pozulmasın bu calalı,
Bir sərkarda camışı var, üç sərkarda qoyun-malı,
Mehtərdə qırx atın gördüm Cəlalın türkmanı kimi.

Alı kimi iyid yoxdu, onu tək doğub anası,
Süzən əldə, ətək beldə,var iyidlik nişanası,
Vallahiləzim, belədi, açıq, sözün mərdanası,
On beş gün şülən çəkildi, işlədi aşpazxanası,
Erkək yan-yana kəsildi Minanın qurbanı kimi.

– Aşıq, toy on beş gün çəkdi?

– Mən toyda on beş gün oldum. Toy hələ davam eləyir. Allah bilir, hələ nə qədər də çəkə. Mən tələsirdim deyin tez gəldim.

– Dəli Alının bu qədər ki dövləti var, səxavəti də varmı?

– Onda qulaq as:

Alı məclisə gələndə, mətəl qaldım işlərinə,
Atanın sərdar oğludu, sərim qurbandı sərinə,
Səxavətdə əla gördüm, yazdım Hatəm dəftərinə,
Şabaşa beşlik qızıllar işlədi qəpik yerinə,
Neçə mücrilər açıldı sərrafın dükanı kimi.

Aşıq Ələsgər bu bəndi deyəndən sonra toyda yığılan pulu da belindən açdı, qoydu ortalığa. Məşədi Yolçu gördü ki, bu kisədə beş bayaqkı boyda qızıl var. Sayıb eləmədi. Bunu da qoydu o biri kisənin yanına, dedi:

– Aşıq, deyəsən, axı dediklərinin hamısı düzdür. Onun dəstəsində Alıdan başqa, Alı kimi iyid adam varmı, yoxsa elə təkcə özüdürmü?

– Qulaq as, gör varmı:

İyidlikdə yox əvəzi, “afərin” dedim Aslana,
Dağıstanformu geyinib, təmkini qızılbaşyana,
Süzən tüfəng cingildəyir, patronu səyrişir qana,
Koroğlutək nərə çəkir coşub girəndə meydana,
Tüf dağıdır, ordu pozur qüdrətin aslanı kimi.

– Yox, Aşıq Ələsgər, bu olmadı. Mən Aslanı tanıyıram; Dəli Alının qardaşıdır. Doğrudur, o da qoçaqdır, amma ondan qoçaq oğlanlar var. Sən iki qardaşı tərifləməkdə düz eləmədin. İyidlik, qoçaqlıq bu nəslin adına yazılmayıb ha!.. Dəli Alı sayğısız adamdır. Qaçağın da sürü ilə qoyunu, naxırla malı, ilxı ilə atı olarmı?! Qaçağın bir atı olar, bir tüfəngi, bir qatar da patronu; bax mənim kimi. Bir gün görərsən ki, Dəli Alını arvadının yanında yatdığı yerdə tutdular. Görüm ondan sonra iyidliyi harada qalacaq?! Qaçaq bu gün bu dağda səs verər, sabah o dağda.

Aşıq Ələsgər Xaçbulağa çatıb bu cah-calalı görəndə, onun da ağlına belə şey gəlmişdi. Amma axşamtərəfi görmüşdü ki, bir dəstə silahlandı,

Kəpəz dağına getdi. Zeynalabdından soruşmuşdu ki, bunlar kimdir? Zeynalabdın demişdi ki, Kəpəzdə gözətçilər var, bunlar gedir ki, onlar gəlsin.

Məşədi Yolçu belə deyəndə, bu da gəldi Aşıq Ələsgərin yadına düşdü, aldı görək nə cavab verdi:

Ata-baba iyiddilər, bəyənmişəm əsli-zatın,
Doğruluğun səbəbinə Mövlam veribdi baratın,
Əli kəmərbəstəsidi, cəm eyləyib hər büsatın,
Fürsəti düşmənə verməz, əldən qoymaz ehtiyatın,
Kəpəzdə ovun gözləyir Alvızın tərlanı kimi.

Cəfər ağa bir iyiddi girəndə meydan içinə,
Yalavıyır şimşək kimi, bələnir al qan içinə,
Zərrəcə gəlməz eyninə düşsə yüz düşman içinə,
İsgəndərtək səddi çıxıb yeddi Dağıstan içinə,
Şəninə dastan yazıram Rüstəmin dastanı kimi.

İçlərində bir seyid var, onlara rəhbər kimidi,
O ki Məşəd Məhəmməddi, bir nər oğlu nər kimidi,
Qızılhaclı Allahverdi Maliki-Əjdər kimidi,
Min yaşasın İsmayılı, nərəsi Heydər kimidi,
Xaçbulaqda meydan açdı Koroğlu meydanı kimi.

Məşədi Yolçu dedi:

– Aşıq Ələsgər, qaçaqların qorxusundan onların hamısını tərifləyirsən; yalan-gerçək, bizi inandırırsan. İndi de görüm, qaçaq olmayan adamlardan da o məclisdə elə adlı-sanlısı, qoçağı var idi, yoxsa yox?

Aşıq Ələsgər aldı, görək bu bənddə kimlərin adlarını çəkdi:

Orucu çox bəyənmişəm, məhəbbətim var Qəfərə,
Qasımı mərdana gördüm, vəsfini yazdım dəftərə,
O kişilik, o səltənət halal olsun İsgəndərə,
Unudub dünya cifəsin, tabe olub peyğəmbərə,
İbadəti var məscidin qareyi-Quranı kimi.

– Aşıq Ələsgər, o qədər ki, qonaq gəldi, on beş gün yemək-içmək oldu; deyə bilərsənmi, Dəli Alının bu toyda xərci çox olardı, yoxsa ona gətirilən nəmər?

– Mən gördüyümü deyim, siz hesablayın:

Beş min manat nağd yığıldı, dalda qalanın bilmədim,
Yüz erkək-öyəc kəsildi, toğlunun sanın bilmədim,
Xərcindən bərxurd olmadım, nəfin, ziyanın bilmədim,
Nisyə qalan xələtlərin doğru, yalanın bilmədim,
Nağdıdan mətləbim verdi kişi kərəm kanı kimi.

Məşədi Yolçu daha dillənib bir söz demirdi. Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Biçarə Aşıq Ələsgər, gəldin, getdin hər nə isə,
Haqq səni sərraf yaradıb, qiymət qoy yaxşıya, pisə,
Tatoğlu, Bala Məşədi – onlar gələndə məclisə,
Hamıdan çox pul verdilər, qızıl ilə doldu kisə,
Aşıqlar güzəran tapdı bəylər güzəranı kimi.

Aşıq Ələsgər sazı köynəyinə qoyan vaxtı, səkkiz nəfər də qayadan çıxdı, oldular on. Aşıq Ələsgər gördü ki, bunların çoxusu toydakı adamdır.

Məşədi Yolçu pul kisələrini Aşıq Ələsgərin qabağına qoyub dedi:

– Aşıq Ələsgər, bil ki, sənin qabağını kəsən bu adamlar Dəli Alının dostlarıdır. Çox sağ ol! O ad sənə halal olsun! Doğrudan da, deyilənlərə görə varsanmış. Pulunu götür!

Bu dəfə Aşıq Ələsgərin ayağı yer aldı:

– Yox, götürməyəcəyəm! O pul götürüləsi olsaydı, heç kisədən çıxmazdı. Mən pul təmənnasında deyiləm. Atımıca özümə verin, bəsdir mənə!

Məşədi Yolçu əlini cibinə salıb, bir onluq qızıl çıxartdı, kisənin üstünə qoydu. Qalan yoldaşlarının hərəsi də bir onluq qoydu, yüz manat oldu. Məşədi Yolçu dedi:

– Aşıq Ələsgəri, hamımız təvəqqe edirik ki, bunu da bizim dövran pulu hesab eləyəsən. Sənin bu söhbətin on beş günlük söhbətin hamısına dəydi. Belə tərif indiyə kimi heç bir yerdə deyilməyib.

– Mən Dəli Alıya, onun yoldaşlarına, keçirdiyi toy məclisinə çox böyük tərif demək fikrində idim. Amma siz elə elədiniz ki, yarı-yarımçıq oldu. Fikrimdə olanların çoxusu durur. Onları evə çatanda deyəcəm.

– Yəni, deyiləsi sözün yenə qaldı?

– Burada nə dedim ki?! Siz sual verdiniz, mən də cavab verdim.

Tərifi evdə deyəcəyəm.

– Di yaxşı, pulu götür!

– Sənə dedim ki, götürməyəcəyəm.

Məşədi Yolçunun yoldaşlarının hamısı xahiş elədi, Aşıq Ələsgər əv-

vəlki pulları götürdü, bunlar yığdığı yüz manatı götürmədi.

Məşədi Yolçu ilə gələn adamların içində yaxşı yazan bir adam var idi. Məşədi Yolçu tapşırmışdı ki, Aşıq Ələsgər nə söz desə, onu yazsın, Dəli Alıya aparsınlar. Həmin adam Aşıq Ələsgərin dediyi bu tərifi qayanın dalında tər-təmiz yazmışdı. Elə ki Aşıq Ələsgər dedi ki, Dəli Alının tərifini evdə deyəcəm, Məşədi Yolçu sözü yazan adamı Aşıq Ələsgərlə Göyçəyə göndərmək fikrinə düşdü. Ondan başqa bir adamı da bir az o tərəfə çağırıb tapşırdı:

– Aşıqlarla bərabər gedərsiniz. Aşıq Ələsgər Dəli Alıya nə tərif desə, onu yazıb gətirərsiniz!

Məşədi Yolçu Aşıq Ələsgərgilin yanına qayıdıb dedi:

– Aşıq Ələsgər, yolda oğruya, əyriyə rast ola bilərsiniz; deyirəm, uşaqların ikisi sizlə getsin.

– Siz bilərsiniz.

Məşədi Yolçu o yüz manatı o adamlara xəlvətcə verib, Aşıq Ələsgərgillə yola saldı.

Bəli, mənim əzizlərim, Aşıq Ələsgərgil Ağkilsəyə gəlməkdə olsun, sizə xəbər verim Ağkilsədən.

Aşıq Ələsgərgil Dəli Alının çağırışına gedəndən üç gün sonra Ağkilsədə onların yolunu səbirsizliklə gözləməyə başladılar. Dörd gün gözlədilər, gəlmədilər; beş gün gözlədilər, gəlmədilər; bir həftə gözlədilər, gəlmədilər...

Bu dəfə qorxuya düşdülər ki, yəqin başlarında bir iş var. Aşıq Ələsgərgilin gəlməməyi hamını narahat elədi. Qonşu kəndlərə də xəbər yayıldı. Kimi dedi: toydan sonra Gəncəyə parça-zad almağa getmiş olarlar, kimi dedi: bəlkə, yaylaqda çox adamın xeyir işi var imiş, ona görə ləngidilər; kimi dedi: bəlkə, qaçaq-quldur toydan gəldiklərini bildi, qabaqlarını kəsdi; kimi dedi: bəlkə, Aşıq Ələsgər Dəli Alının xətrinə dəyəsi söz oxudu, öldürdülər... Hərə bir fikir eləyirdi.

Bəşir hazırlaşdı ki, dallarınca gedə, camaat yalvar-yaxar elədi, qoymadı. Qorxdular ki, gedər, bunun da başına bir iş gələr. Kəndin ağsaqqalları Aşıq Ələsgərgilin qohumlarına ürək-dirək verirdi ki, qorxmayın; Aşıq Ələsgər olan yerdə salamatçılıq olar.

On altı gün idi ki, Aşıq Ələsgərgil getmişdi. Günortadan xeyli keçmiş, bir də gördülər ki, Zod kəndindən bəri beş atlı çıxdı. Boz atın üstündəki iri adamlardan tanıdılar ki, bunlar Aşıq Ələsgərgildir. Gəlhagəl, gör-

dülər ki, bunların ikisi aşıq deyil; bunların çiyinlərindəki tüfəngdir.

Bəşirgil dağda idi. Tez dağa, qonşu kəndlərə muştuluğa qaçdılar.

Aşıq Ələsgərin dostları, tanışları, istəyənləri axşama qədər xəbər tutdu, Aşıq Ələsgərin evinə toplaşdılar. Bəşir iki erkək kəsdi. Çay-çörəkdən sonra Bəşir soruşdu:

– Ay dədə, niyə belə gec gəldiniz?

– Oğul, hələ tələsdim; toyu yarımçıq qoyub gəlmişəm.

Hamı gülüşdü. Elə bildilər ki, Aşıq Ələsgər gec gəlib deyin, zarafatla belə deyir.

Bəşir dedi:

– Yaxşıca tələsiyibsən.

Bəşirin bu sözünə də gülüşdülər.

Aşıq Nəcəf yerindən dilləndi:

– Niyə gülüşürsünüz?! Ələsgər əminin birdən ikiyə yalan danışdığı var?! Biz toyda on beş gün olduq, hələ indən belə on gün də davam eləyəcək.

Aşıq Əsəd də, qonaqlar da Nəcəfin sözünü təsdiq eləyib, camaatı inandırdılar. Hamı bu toya təəccüb elədi.

Aşıq Nəcəf burdan yola düşməklərindən başladı, ta qayıdana qədər başlarına nə gəlmişdisə, hamısını camaata danışdı. Aşıq Ələsgərin Dəli Alıya, onun yoldaşlarına dediyi tərifləri Əsədlə bərabər oxudular.

Aşıq Ələsgərgilin 16 günlük qorxulu səfərdən sonra sağ-salamat qayıtdıqlarını eşidən Göyçə aşıqlarının çoxu onlarla görüşməyə gəlmişdi.

Yaxın kəndlərdə olan şəyirdlərinin biri də qalmamışdı. Bəziləri bu səfərdə olmadığına çox heyifsilənirdi.

Aşıq Nəcəfgil söhbəti qurtarandan sonra Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Qurban dilləndi:

– Ay dədə, maşallah, bu sözlərin də çox gözəldir. Barı adlarını çəkdiyin adamlar bu tərifə görə varmı?

– Oğul, olmasa, deməzdim; var ki demişəm. Hələ deyiləsi sözümün çoxu durur. Sazımın bəm siminin biri qırılıb. Onu qoş, mənə ver.

Aşıq Qurban Aşıq Ələsgərin sazını köynəkdən çıxartdı, qırılmış simin yerinə təzəsini qoşdu, düzəltdi, Aşıq Ələsgərə verdi.

Aşıq Ələsgər üzünü şəyirdlərinə tutub dedi:

– Dəli Alı kimi bir iyidin bizim torpaqda olması hamımızın başının ucalığıdır. Onun toyunda gördüyüm adamların çoxusu heç Dəli Alıdan əksik deyillər. Məsəl var ki: “Qoyun ayağı gödəlir, quzu ayağı uzanır”.

Mənim yaşım keçib. Bəlkə, uzaq yerlərə gedə bilmədim. İndən belə söz də, söhbət də sizindir. Odur ki, sizə tapşırığım var; gərək əməl eləyəsiniz.

Şəyirdlərinin hamısı bir ağızdan dilləndi:

– Ələsgər əmi, buyur, nə tapşırığın olsa, canla-başla yerinə yetirərik.

Məşədi Yolçunun göndərdiyi adamlardan biri kağız-qələm çıxartdı, hazır dayandı. Məclisdəkilərin hamısının gözü dikildi Aşıq Ələsgərə.

Aşıq Ələsgər sazı sinəsinə basdı, görək "Baş müxəmməs" havası ilə şəyirdlərinə nə tapşırdı, məclisdəkilər nə eşitdi, Məşədi Yolçunun göndərdiyi adam nə yazdı:

Dəli Alının vəsfini yazmışam dastana, – deyin!
Afərin, şəyirdlərim, gedəndə hər yana deyin!
Eşidib Göyçə mahalı, külli-İrəvana deyin!
Addayın Şahtaxtından, Təbrizə, Tehrana deyin!

Üz tutun Alosmana, Qarsa, Qağızmana deyin!
Təmkini, hər büsatı bənzər Pənah xana, – deyin!
Qorxmayın, utanmayın, mərd durun, mərdana deyin!
Kor olsun düşmanları, qalsın yana-yana, deyin!

Sözün bu bəndini deyəndə, Aşıq Qurban güldü, soruşdu:

– Ay dədə, bu nə təhər söz oldu? Müxəmməs səkkizdən, ondan olar; sənin bu bəndin düz on altı yarpaq oldu.

– Oğul, mən də bildim, artıq oldu. Düzü ki, söz sinəmə dalbadal gəldi, mən də arasını kəsmək istəmədim. İndən belə bəndləri dedikcə yarpaqlarını sayaram.

Aşıq Ələsgərin belə deməyinə də güldülər.

Aşıq Ələsgər aldı o biri bəndini:

Gedərsiniz Alosmana, qərib qeyri ləzzətdədi,
Hamısının mərhəməti aşığa məhəbbətdədi,
Paşalar qəfə qəsdində, şahzadalar sovetdədi,
Soruşsalar: – Əcəm oğlu, ər hansı məmləkətdədi?!
Əmənullah, paşa əfəndim, get Gəncəbasara, – deyin!

– Oğul, artıq olmadı ki?

Bu sözə də güldülər. Qurban dedi:

– Ay dədə, çox gözəldir, dalı gəlsin.

Aşıq Ələsgər götürdü o biri bəndini:

Gülüstan-İrəmə bənzər yaylağının hər büsatı,
Yönü qibləyə çeşmənin, car olur Abi-həyatı,
Ağ alaçıq, əlvan çadır naxış vurubdu xəyyatı,
Samuğun, Qarasaqqalın gəlibdi hər mevəcatı,
Evinin ətri-ənbəri bənzər İrizvana, – deyin!

Sərim qurbandı sərinə, ay atanın nər balası!
Tüf dağıdıb, ordu pozan, səf yaran, sərdar balası!
Səxavətdə misli-Hatəm, səddə İsgəndər balası!
Qurşayıb kəmərini Şahi-Qəzənfər balası,
Qəniminə qan ağladır, bac vermir düşmana, – deyin!

Hansı yerdə dava düşüb, iyidlik Aslan eləyib,
Şahmar kimi gərdən çəkib, düşman bağrın qan eləyib,
Xod verib beşatana, dağıdıb, şan-şan eləyib,
Mirzələr qəzetə yazıb, aşıqlar dastan eləyib,
Mərhəba, əhsən, afərin, can belə oğlana! – deyin!

Sidqin Allaha bağlayıb, çağırır Şahi-Heydəri,
Öz nəslindən, öz soyundan var bir neçə iyidləri,
Hər biri qovğa günündə pozur bir fövçi-ləşgəri,
Saxlayır aşpazxanada neçə zəlili, müztəri,
Hatəm kimi bir qapısı açılıb ehsana, – deyin!

Molla Qasım kamandardı, Əsədi gördüm mərdana,
Əl-ayağı od ələyir, elə ki girdi meydana,
Mağar hündür tikilmişdi, alçaqdaydı aşpazxana,
Məcməyilər qol ağrıtdı, zəhmət verdi çox cavana,
Bu sözlər çapa vurulsun, getsin bir zamana, – deyin!

Balçılı Kalvayı Əli cavan bir oğlan kimidi,
Şəriətdən mətləb qanır, təriqətdə xan kimidi,
Həqiqətdən kəlmə kəsir, ləli-Bədəxşan kimidi,
Hüsndə Yusifi-sanı, kamalda Loğman kimidi,
Padişah vəzir götürər addasa İrana, – deyin!

Selistçi, doxdur, pristav bezənhabezən yeridi,
Əyri işlərə sığal çəkib, verməyə düzən yeridi,
Dəli Alı əl belində, çiynində süzən yeridi,
İsmayıl Mələk əl-mövttək candan can üzən yeridi,
Dedi: – Brat, bajalüstə*, gəlməsin oğlana, – deyin!

Bəşir yerindən dilləndi: – Ay dədə, bu nə təhəri haqq-hesabdır?

– Oğul, padişah tərəfindən adam göndərmişdilər ki, Dəli Alının şəklini çəksinlər. İsmayıl o tərəfdən bəri çıxanda, həmin adamlardan biri bərk qorxdu; xahiş elədi ki, o oğlana deyin, yaxın gəlməsin.

– Gələn adamlar Dəli Alının şəklini çəkdilərmi?

– Dəli Alının da şəklini çəkdilər, bizim də şəklimizi çəkdilər.

Aşıq Ələsgər aldı sözün o biri bəndini:

Eldarda Qəhrəman koxa, Gəncədə Alı söylənir,
Dövləti, həşəməti, şəni-calalı söylənir,
Səddə İsgəndər kimidi, Hatəm səxalı söylənir,
Zəfəranlı ağ plovu, əmliyi, balı söylənir,
İlahim bərhəm vurmasın bu qurğu-dövrana, – deyin!

İyidlikdə yox əvəzi, sağ olsun Bala Məşədi!
Girəndə meydan içinə, alınmaz qala Məşədi,
Vəsfini dastan edirəm, düşsün mahala Məşədi,
Səvar olanda köhlənə, hamıdan əla Məşədi,
Rüstəmin Rəxşi kimi gətirir cövlana, – deyin!

İyidlərin sərkərdəsi Məşədi Məhəmməd hanı?!
Gəzən afatdan, bəladan hifz eləsin kərəm kanı!
Sidqin Allaha bağlayıb, çağırır Şahi-Mərdanı,
Yeddi ağacdan-yeddi ağaca gözü görəndə düşmanı,
Süzən tüfəng cingildəyir, güllə qaçır qana, – deyin!

Hər məclisdə duaçıyam, günbəgün ucalır səsim,
Barilahim, irəhm eylə, yerə düşməsin nəfəsim,
Oğul ver iki qardaşa, bir qurban da özüm kəsim,
Mən deyirdim çox iyiddi Əsəd ilə Molla Qəsim,
Köhnə kişilər deyirlər: – İyid Bayramxana deyin!

* Bajalüstə – "pojaluyusta" sözünün təhrif olunmuş formasıdır.

Min iki yüz doxsan dörddə* Ələsgər tapdı əsəri,
Eşq ilə nəfs məni dolandırır bəhri-bəri,
Dilimdə ahi-canan, sərimdə zəhmətin təri,
Qəddini xəm eləyib qəhri-qəzanın qədəri,
Xacə Nəsirdi, gəlib çıxıb bu meydana, – deyin!

Mənim əzizlərim, söz tamam olandan sonra, Məşədi Yolçunun göndərdiyi adamlar dəftər-qələmi yığışdırdılar. Bu zaman Aşıq Ələsgər sözü yazana dedi:

– Oğul, oxu görüm, düzmü yazıbsan?

Həmin adam yazdığını oxudu. Gördülər ki, Aşıq Ələsgərin ağzından necə çıxıbsa, olduğu kimi köçürüb.

Aşıq Ələsgər sazı köynəyinə qoydu. Məşədi Yolçunun göndərdiyi adamlar elə hesab eləyirdilər ki, dövranpulu yığılacaq. Amma gördülər ki, pul-zad yığılmadı, bu barədə heç söz də düşmədi. Aşıq Ələsgər həmişə səfərdən qayıdanda, camaata pulsuz söhbət eləyərdi. Camaat Aşıq Ələsgərdən çox razı qaldı. Hərə öz evinə getdi.

Məşədi Yolçunun göndərdiyi adamlar gecə qaldılar, səhər tezdən atlarını mindilər getdilər.

Qonaqların hamısı gedəndən sonra Aşıq Ələsgər üzünü Aşıq Nəcəfə tutub dedi:

– A bala, pulumuzu gətirin, bölün.

Aşıq Nəcəf pulları ortalığa qoydu. Bu zaman Aşıq Əsəd də xırdaca bir bağlama çıxardıb, pulların yanına qoydu. Aşıq Ələsgər üzünü Aşıq Əsədə tutub soruşdu:

– A bala, bu nədir?

– Ələsgər əmi, bizlə gələn qaçaqlar gedəndə mənə verdi. Özü də tapşırdılar ki, biz tamam uzaqlaşmayınca Aşıq Ələsgərə bildirmə.

Aşıq Ələsgər bildi ki, bu bağlamadakı Məşədi Yolçugilin yığdığı pullardır. Təzədən nə eləmək olardı.

Aşıq Nəcəf Dəli Alının siftə verdiyi pulu Aşıq Ələsgərin yanına qoydu, o biri pulları sanamağa başladı. Sayıb qurtarandan sonra Aşıq Ələsgər yanındakı pulu da Nəcəfə uzatdı.

Aşıq Nəcəf dedi:

– Qoy, o pul dursun.

* Miladi 1875

– Niyə dursun?

– Onu Dəli Alı ayrıca Bəşirə toy xərcliyi veribdir.

– Dəli olma. Qat oraya. Payıma düşən pul 4-5 toy yola salar.

– O pulu Dəli Alı təkcə sənə verib.

Aşıq Ələsgər gördü ki, cəhl uzun çəkəcək, kisənin ağzını açdı, dalından qaldırdı, dedi:

– Siz aşıq olandan bəri, sizdən artıq bir qəpik pul götürmüşəm?

İkisi də dedi:

– Yox.

– Ortadakı üç yüz manatdan yüz manatı öz payıma düşür. Ömrümün çoxu gedib, azı qalıb, siz də razı olmayın ki, iki yüz manatdan ötrü mənim adıma ləkə gəlsin!

Gördülər ki, çox qiymətli sözdür, heç biri dillənmədi. Aşıq Ələsgər o pulu da qatdı, üç yerə böldü.

Aşıq Nəcəflə Aşıq Əsəd pullarını götürüb şad-xürrəm evlərinə getdilər.

Aşıq Ələsgər Bəşirin toyunu çox şərafətli keçirdi.

Siz də həmişə toyda, nişanda, kefdə, damaqda olasınız!

# QOCA BAXTIM

Mənim əzizlərim, indi sizə hardan xəbər verim, Ağkilsə kəndindən. Ağkilsə kəndində kimdən, Aşıq Ələsgərdən. Aşıq Ələsgər çox zaman qış aylarında Aran torpağında aşıqlıq eləyərdi, yaz-yay aylarında öz kəndində əkin-biçinlə çalışardı.

Bir il Aşıq Ələsgər Arana gedəndən sonra Göyçədə mala azar düşdü. Çoxlarının mal-heyvanı qırıldı. Aşıq Ələsgərin də malı elə qırıldı ki, bir kəldən başqa, dördayaqlıdan bircə “mə” deyəni qalmadı.

Yaz əkininin vaxtı yetişdi. Gözlədilər, Aşıq Ələsgər gəlib çıxmadı. Qorxuya düşdülər ki, görəsən, başında nə iş var.

Yazın düz bir ayı gedəndə Aşıq Ələsgər gəldi. Hərə bir işin dalınca getmişdi. Ələsgər qapıdan girəndə gördü ki, Anaxanım təkcə oturub, cəhrə əyirir. Görüşdülər. Anaxanım soruşdu:

– A kişi, niyə belə gəldin?

– Arvad, xeyir iş çox olduğuna görə camaat buraxmadı.

Anaxanım tez ocağı qaladı, çay qoydu.

Aşıq Ələsgər soruşdu:

– Arvad, kənddə nə var, nə yox, salamatlıqdırmı?

Anaxanım cavab vermək istəyəndə qəhərləndi, özünü saxlaya bilmədi, ağladı. Anaxanım ağlayanda, dünya Aşıq Ələsgərin gözündə qaranlıq oldu, tez bir də soruşdu:

– Arvad, sən Allah, de görüm, nə olub?

– Bundan artıq nə olacaq; dövlət təmiz batdı.

– Uşaqlar, qohum-qardaş salamatdımı?

– Salamatdı.

– Allaha çox şükür! Sən ağlayanda, ürəyim üzüldü; dedim, görəsən uşağın başında nə iş var. Dövlətdən ötrü adam da ağlayarmı?! Heç fikir eləmə, iki elə dövlətin pulunu gətirmişəm.

– Pul gətirməklə haradan alacan? Bir inəyi on inəyin qiymətinə də ala bilməzsən. Göyçənin hər yerində mal qırılıb.

Aşıq Ələsgər Anaxanıma təskinlik verməyə başladı:

– Arvad, darıxma. Atalar deyib ki, “elnən gələn qara gün toy-bayramdı”. Bircə canımız sağ olsun, hər iş düzüləcəkdi.

Camaat Aşıq Ələsgərin gəldiyini eşitdi, onun görüşünə gəldi. Aşıq Ələsgər başına gələnlərdən camaata danışdı, təzə dediyi sözlərdən oxudu.

Gecədən xeyli keçənə qədər söhbət elədilər. Camaat evlərinə dağıldı. Aşıq Ələsgər durdu, pəyəyə getdi. Gördü ki, doğrudan da, dövlət qırılıb, bircə kəl qalıb. Pəyə soyuq olduğuna görə onu da çullayıblar.

Aşıq Ələsgər pəyədən evə fikirli qayıtdı. Anaxanım onu belə görəndə gülümsünüb dedi:

– A kişi, niyə fikir eləyirsən?

– Arvad, malın qırılmağından ötrü fikir eləmirəm. Ona görə fikir eləyirəm ki, yeri nə ilə əkəcəyik?

– Vaxtında gəlib çıxsaydın, bir ilə modyam olardıq. Hamı taylaşıb, bircə biz qalmışıq.

Aşıq Ələsgərin fikrinə gələn bu oldu ki, kələ bir tay tapsın, bəlkə, yeri birtəhər əkə.

Aşıq Ələsgər səhər tezdən atını mindi, sazını da çiyninə salıb, Kəlbəcər tərəfə yola düşdü. Onun buralarda dostları çox idi. Belə dostlardan biri də Çay Alxaslısı kəndində Məmiş idi. Aşıq Ələsgər birbaşa Məmişgilə gəldi. Gecə camaat Aşıq Ələsgərin gəldiyini eşidib, Məmişin evinə yığıldı. Yenə həmişəki kimi, Aşıq Ələsgər camaata yaxşı söhbət elədi. Camaat dağılandan sonra Aşıq Ələsgər bu gəlişinin məqsədini Məmişə bildirdi.

Məmiş dedi:

– Doqquz öküzüm var; hamısı sana qurbandı! Sabah hamısını apar!

– Çox sağ ol! Sənin kotanını açdırsam, camaat da mənə yaxşı deməz. Bir kəl qalıb. Bir canlı öküz aparsam, birtəhər yola gedərik.

Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah tezdən Məmiş seçdi, bir zorba öküz ayırdı və nökərinə tapşırdı ki, öküzü Aşıq Ələsgərlə bərabər Göyçəyə aparsın.

Çay-çörəkdən sonra nökər öküzü qabağına qatdı, Aşıq Ələsgər də atını mindi, yola düşdülər. Kəndin qırağına çıxmışdılar, bir kişi soruşdu:

– Aşıq Ələsgər, bu nə öküzdü? Niyə, Göyçə dağılıb ki, sən buradan öküz aparırsan?! Tək öküz nə təhəri gedəcək?!

Aşıq Ələsgər gördü ki, bu, çox tənəli söz oldu. Göyçədəki mal qırğınını, başına gələnləri bir də burada nağıllamayacaqdı ki! Daha cavab vermədi.

Aşıq Ələsgərlə nökər yavaş-yavaş, danışa-danışa Göyçə yolu ilə gəlirdilər. Aşıq Ələsgər gördü ki, öküz heç yoldan çıxmır; atın qabağına düşüb gedir. Özünün atlı, nökərin piyada olması Aşıq Ələsgəri narahat eləyirdi. Gəlhagəl-gəlhagəl gəlib Bədir bəyin yaylağına çatanda Aşıq Ələsgər nökərə dedi:

– Oğul, çox sağ ol! Deyəsən, öküz rahat gedəcəkdi. Sən qayıt, mən özüm apararam.

Nökər qayıtdı, Aşıq Ələsgər yoluna davam elədi.

Öküz bir müddət çox ağıllı gəldi. Elə ki Göyçənin axar-baxarına yetişdi, birdən atın qabağından çıxdı, geri qaçmağa başladı. Aşıq Ələsgər atı sürdü, öküzə çatdı. Gördü ki, öküz getməyəcək. Atdan düşdü ki, atı da öküzün yanına qatsın, bəlkə, öküz atın səbəbinə gedə. Hohaho ilə birtəhər bayaqkı yerə gələndə, öküz bir də ağzını çevirdi, geri qaçdı. Aşıq Ələsgər bir az öküzün dalınca yüyürdü. Yüyürməklə dağın kəlləsindən öküzün dalından çatmaqmı olardı. Qayıtdı ki, atı minə. Ata yetişəndə, at arxasını çevirib, ona elə qoşa təpik atdı ki, əgər tutsaydı, çıra kimi söndürərdi. At da qaçıb Göllər tərəfə aşdı.

Aşıq Ələsgərin hövsələsi lap daraldı. Bir daşın üstündə oturdu. İstədi, qəlyan çəkə. Əlini atanda gördü ki, qəlyan da, kisə də belindən açılıb düşüb. Bir az axtardı, tapa bilmədi. Aşıq Ələsgər gördü ki, yox, bu hesab özgə hesabdı. İşlərin belə gəlməsi baxtın geri sarımağıdı.

Gördü, dayana bilmir; ürəyini boşaltmasa olmayacaq. Alnının tərini sildi, sazı köynəyindən çıxartdı, görək dağın başında nə dedi; biz də saz ilə deyək, şad olun:

Nə sevda tapıbsan, nəyə talıbsan,
Hansı qəflətdəsən, gəl, qoca baxtım!
Ya məndən küsübsən, ya qocalıbsan,
Bu sınıq konlumu al, qoca baxtım!

Aşıq Ələsgərin yadına kənddən bəri çıxanda o kişinin dediyi tənəli söz düşdü. Aldı görək nə dedi:

Çəkilib pünhana, deyirsən: – Sən döz!
Qıyamat odunnan pisdi tənə söz.
Gümüşüm tunc oldu, zəri-zibam - bez,
Qəlp çıxır aldığım mal, qoca baxtım!

Özüm aşıq oldum, oğlum gülləçi,
Bildim ki, qalacaq dövlətin üçü,
Qırıldı mal-qoyun, qalmadı keçi,
İndi də yıxılıb kal, qoca baxtım!

Aşıq Ələsgər gördü ki, baxtı heç əvvəlkinə oxşamır. Aldı görək bu dəfə nə dedi:

Mardan şirə çəkib, daşdan keçərdin,
Dəryalardan ləli-gövhər seçərdin,
Pərvazlanıb, Qafdan Qafa uçardın,
Keçən günü yada sal, qoca baxtım!

Təqdir üçün yaxşı deyil bu adət,
Gah çox sevir, gah eyləyir xəcalət,
İyidlər at vermir, gözəllər - xələt,
Gəlmir tənbəkiylə bal, qoca baxtım!

Səksəni, doxsanı ötübdü yaşım,
Qovğaya düşübdü bəlalı başım,
Əzrayıl həmdəmin, məzar yoldaşım,
Daha köç təblini çal, qoca baxtım!

Ələsgər kəsilib səbrü-aramdan,
Oxlayıbsan, qanlar axır yaramdan,
Sövdə qıl haqq ilə, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım!

Bəli, mənim əzizlərim, söz tamam olandan sonra Aşıq Ələsgər sazı köynəyinə qoydu. Fikirləşdi ki, dursun piyadaca Ağkilsəyə gəlsin. Ayağa durdu, bir az gəlmişdi, qəlyan-kisəni tapdı. Elə bil, dünyanı ona bağışladılar. Tez bir daşın üstündə əyləşdi, qəlyanını doldurub yandırdı, bir-iki nəfəs aldı. Ayağa durub bir az da bəri gələndə gördü ki, at yalın Göyçə tərəf üzündə, yolun qırağında otluyur, öküz də hərlənib gəlib, atdan bir az aralı yolun içində yatıbdı. Aşıq Ələsgər atın yaxınına gələndə ehtiyat elədi ki, yenə birdən təpik atar. Amma at yerindən tərpənmədi; elə bil ki, bir adam onun cilovundan tutub saxlayıb. Aşıq Ələsgər atı mindi, öküzün yanına gəldi. “Oha” deyən kimi öküz yerindən qalxdı, düşdü atın qabağına, ta gəlib qapıya çatana qədər bir dəfə də yoldan çıxmadı.

Aşıq Ələsgər öküzü kələ tay elədi, kənddə əkini qalanlarla dördboyunluq bir kotan düzəltdilər, yerlərini şumlamağa başladılar.

Aşıq Ələsgər Ağkilsə kəndinin qənşərindəki dağın döşündə ikigünlük yer şumladı, arpa səpdi, tapanladı və belə hesab elədi ki, bu yerin arpasamanı atları da, nə qədər mal-qara olsa da, hamısını yaza çıxardacaq. Kəndin alt tərəfindəki yerlərdə də ikigünlük yer şumladı, buğda səpdi, taxıldan sarı da rahat oldu.

Aradan bir müddət keçdi, otun biçini başladı. Aşıq Ələsgər oğlanlarını da yanına aldı, otu biçdi, öküzlə kəli arabaya qoşdu, otu daşıdı, tayaya yığdı. Otdan sarı da arxayın oldu.

Taxıl biçininin vaxtı yetişdi. Kimin taxılı biçiləsi idisə, qonu-qonşudan fəhlə tutub biçdirirdi. Aşıq Ələsgər də taxılları biçdirdi.

Küləşi daşıyıb xırmana tökdülər, gəm qoşub döydülər, tığa vurub sovurdular. Dəni çuvallara yığıb gözlədilər, qalanını quyulara töküb, üstünü basırdılar.

Xülasə, Aşıq Ələsgər məhsulu yığışdırandan sonra öküzü sahibinə qaytarmalı oldu. Bir gün atını mindi, sazını da çiyninə saldı, öküzü qatdı atın qabağına, yol başladı Çay Alxaslısı kəndinə. Gəlib Məmişin evinə çatdı. Öküzlə görüləsi işlərini qurtardığına görə, ona çox razılıq elədi.

Camaat Aşıq Ələsgərin gəldiyini eşitdi. Axşam yenə Məmişin evinə toplaşdılar və Aşıq Ələsgərdən xahiş elədilər ki, bir nağıl danışsın.

Aşıq Ələsgər sazını köynəyindən çıxartdı, simləri köklədi, Qurbaninin nağılını danışdı. Məclisdəkilərin hamısı razı qaldı. Buraya qonşu kəndlərdən də gələnlər var idi. Qamışlının, Sarıdaşın, Ağdaşın adlı-sanlı adamlarının da bir çoxu burdaydılar. Söhbət qurtarandan sonra ağsaqqallardan biri üzünü Aşıq Ələsgərə tutub dedi:

– Aşıq Ələsgər, eşitmişik ki, Göyçədə mal qırılıb; sənin də malların tələf olub. Bu söhbətinə görə sana mal damazlığı verəcəyik.

– Versəniz də sağ olun, verməsəniz də. Mən nə vaxt söhbət eləyəndə sizdən haqq istəmişəm ki! Hər nə veribsinizsə, qəbul eləmişəm.

Yazı bilənlərdən biri kağız-qələm götürdü, bir siyahı tutdu. 18 adam hərəsi bir dana yazıldı. Məmiş dana yazılan adamların siyahısını aldı, saxladı.

Həmin ağsaqqal kişi yenə dilləndi:

– Aşıq Ələsgər, indi hələ inəklər sağılır. İnəklər quruyanda, danaları yığarıq. Ya özümüz göndərərik, ya da özün gələndə apararsan.

Aşıq Ələsgər dedi:

– Məsləhət sizindi.

Ağdaşlı Xanlar dedi:

– Aşıq Ələsgər, mənim nisyə ilə işim yoxdu; mən indi bir düyə verirəm.

Aşıq Ələsgər o günü qaldı. Səhər tezdən çay-çörəkdən sonra Göyçəyə yola düşəndə gördü ki, qapıda qarnıboğaz bir düyə bağlanıb.

Aşıq Ələsgər atını minəndə bir oğlan düyəni açdı, yedəyinə aldı, Aşıq Ələsgərə dedi:

– Ələsgər əmi, bu düyəni Xanlar dayım sana göndərib. Mana tapşırdı ki, apar Göyçəyə.

– A bala, Xanlar dayının payı çox olsun!

Oğlan düyə yedəyində Aşıq Ələsgərlə bərabər Göyçəyə gəldi. Düyəni pəyəyə bağladılar. Oğlan səhər tezdən qayıtdı getdi.

Düyə Anaxanımın çox xoşuna gəldi. Aşıq Ələsgərdən soruşdu:

– A kişi, bu düyəni satın aldın?

– Yox, arvad, bir gecə söhbət elədim, camaat bu düyədən başqa mana 18 də dana verdi.

– Bəs, danalar hanı?

– Bir aydan sonra gedib gətirəcəm. Maldan sarı çox darıxırdın. İndi inəyin yerinə düyə bağlarsan, öküzün yerinə cöngə.

Anaxanım həddindən artıq şad oldu. Başladı günləri sanamağa. 29 gün düzələndə Aşıq Ələsgərə dedi:

– Kişi, sən o üzdən gəldiyin sabah düz bir aydı. Danaları gətirməyə gedəcəksənmi?

– Arvad, qoy bir az da keçsin, gedəcəm.

– Axı niyə?

– Dedilər ki, inəklər quruyanda, danaları apararsan. Bəlkə, eləsi var ki, hələ inəyi sağılır. İndi getsəm, danasını verəcək, inəyi quruyacaq, arvad-uşağı da qarğışçımız olacaq.

Anaxanım daha dillənib bir söz demədi.

Bir müddət də keçdi.

Havalar soyumağa başlamışdı. Dağların başına arabir qar yağırdı. Anaxanım Aşıq Ələsgərə tez-tez deyirdi ki, qar yağıb yolları bağlayacaq, get, danaları gətir.

Bir gün tezdən Aşıq Ələsgər atını mindi, sazını da çiyninə saldı, danaları gətirmək məqsədilə Çay Alxaslısı kəndinə yola düşdü. Gəlib kəndə yetişdi. Axşam yenə adətincə camaat Aşıq Ələsgərin başına toplaşdı. Aşıq Ələsgər sazını götürdü, çaldı, oxudu, hamının qəlbi açıldı. Amma gördü ki, dana yazılanların çoxu bu gecə məclisə gəlmədi. Camaat dağılandan sonra yatışdılar. Sabah hamınızın üzünə xeyirliklə açılsın, sabah açıldı. Məmiş dana borcu olanla-rın dalınca uşaq göndərdi ki, Aşıq Ələsgər gəlib, danaları gətirsinlər.

Aşıq Ələsgərlə Məmiş xeyli gözlədilər, 18 adamdan cəmi dörd adam hərəsi bir dana gətirib, Məmişin tövləsinə qatıb getdi. Qalanlarından ki-

misi gizləndi; kimisi dedi ki, dana ölüb; kimisi dedi ki, inəyi sağılır, yazda verəcəm... Hərə bir bəhanə elədi.

Aşıq Ələsgər axşama qədər də gözlədi, bir şey çıxmadı. Məmiş gördü ki, bu hörmətsizlik oldu. Özü kəndin içinə çıxdı ki, borclu olanları danlasın, danaları gətirsinlər. İsmayılnan İrvahamı bir yerdə tapdı, dedi:

– O kişi Göyçədən burya nisyənin dalınca gəlib. Söz veribsiniz, sözünüzün üstündə durun. Danaları yığın gətirin!

İsmayıl dilləndi:

– Nə dana?

– Əşi, kişi bir gecə sabaha qədər sizə söhbət elədi, konlunuz şad oldu. Sizin də hərəniz bir dana söz vermədinizmi?!

– A Məmiş, o söz oxudu, bizim konlumuzu şad elədi, biz də dana söz verib, onun konlunu şad elədik; daha bizdən nə istəyir!

Məmiş o biri adamlardan da bir neçəsini gördü, bir mətləb hasil olmadı. Kor-peşman evə qayıtdı. Aşıq Ələsgər gördü ki, Məmiş çox fikirlidi. Dərdindən halı oldu. Məmiş İsmayılın cavabını olduğu kimi Aşıq Ələsgərə dedi, Aşıq Ələsgər güldü...

Axşam yenə camaat Aşıq Ələsgərin başına yığıldı. Amma dana borcu olanlardan heç biri gəlməmişdi. Aşıq Ələsgər sazı götürdü, bir qədər çaldı, oxudu. Onun ürəyində camaata deyiləsi sözü var idi. Dana yazılanların çoxunun yalançı çıxmağı, onu aldatmaları Aşıq Ələsgərə çox yoxuş gəlirdi. Aldı, görək camaata nə dedi:

Aşıq olan eşqə düşər, dərd çəkər,
Mənim kimi dərdi yüz olmaz, olmaz.
Hər ağacdan sandal, hər yarpaqdan gül,
Hər torpağın tamı düz olmaz, olmaz.

Sözün yeri gəldi, qoy deyim barı,
Eşidənlər məni görməsin karı,
Aşığın nisyəsi, kürdün ilqarı,
Desələr inanma, düz olmaz, olmaz.

Aşıq Ələsgər bu bəndi oxuyanda məclisdəkilər gülüşdülər. Yerdən biri dilləndi:

– Aşıq Ələsgər, atalar yaxşı deyib ki, soğan olsun, nağd olsun. Aşığın nisyəsi yox, hamının nisyələrinin sonrası düz çıxmır. Nisyə yaxşı sövdə deyil.

Aşıq Ələsgər dedi:

– Burada sövdə yoxdur. Özünüz görübsünüz ki, neçə dəfə bu camaata söhbət eləmişəm, heç kəsdən bir şey ummamışam. Gərək onlar söz verməyəydilər. Sözündən qaçmaq namərdlikdir.

– Allah pis adamların üzünü qara eləsin! Yanında hamımız xəcalət olduq. Sözün dalını de gəlsin.

Aşıq Ələsgər aldı, görək nə dedi:

Zikrsiz mömini şeytan aldadar,
Sayğısız iyidi düşman aldadar,
Ağılsız cahalı kirşan aldadar,
Günü keçmiş qarı qız olmaz, olmaz.

Görməmişəm öküz yeriyə yorğa,
Gədadan bəy olmaz, dəlidən darğa,
Suda çimmək ilə saxsağan, qarğa.
Göldə silkələnib, qaz olmaz, olmaz.

Ələsgər, sərrafsan, gövhəri tanı,
Dosta qurban olsun düşmanın canı,
Comərdin kisəsi, mərdlərin nanı,
İnşallah, ölüncə az olmaz, olmaz.

Söz hamının xoşuna gəldi, hərə bir tərəfdən "sağ ol!" deyib, razılıqlarını bildirdilər. Bayaqkı kişi yenə dilləndi:

– Aşıq Ələsgər, keçibdi. İşə bax ki, sözündən qaçanların çoxu hacı, məşədi, kalvayıdı. Kimə də olsa, gərək sənə fırıldaq, kələk gəlməyəydilər.

Məmiş dilləndi:

– Elə hər işləri fırıldaqdı ki, fırıldağa da düşürlər. Bir həftə bundan əvvəl Məşədi Bayramalının nökəri sandıqdan yüz manatını çalıb, o gedən gedibdi. Məşədi Bayramalı dalınca hələ də Arazın o tayına baxır. Aşıq Ələsgər, sən işində ol.

Aşıq Ələsgər sazın kökünü dəyişdi, "Baş müxəmməs" havası ilə aldı, görək nə dedi. Biz də sazla deyək, şad olun.

Mərd iyidin məclisindən aşıq gələr, at aparar,
Tər tökər, zəhmət çəkər, açar hər büsat, aparar,
Bu dünyanın şöhrətidi, demə biisbat aparar,
Mərdlərə canım sadağa, zəhləmi bədzat aparar.

Ölmək var, dirilmək var, qail ol miyata, gedən,

Qəlbində şeytan mətahın alıb sata-sata gedən,
Siratəlmüstəqiminən tapar səni xata, gedən!
Zülmünən, sələminən yığıb, ziyarata gedən,
Ziyarata getmək deyil, urusa sursat aparar.

Bilirsən ki, ölüm haqdı, bu nə təlaşdı dünyada?!
Kimi gördün ki, qəzadan qurtardı, qaşdı dünyada?!
Çoxlarını fələk qoyub gözü qan-yaşdı dünyada,
Səxavətsiz dövlət, bilin, barsız ağaşdı dünyada,
Nəfi yox, zəhməti çox, sel gələr, afat aparar.

Ovçusan, bərədə dur, maral gəlir, at, keçməsin,
Möminsən, qafıl olma, vaxtı-ibadat keçməsin,
Tülkü gəlib aslan olub, eşşək gəlib at keçməsin,
Nakəsin, müxənnətin əlinə fırsat keçməsin,
Halalı harama qatıb şeytana sövqat aparar.

Sözlərimin bir parasın saxlamışam, xəlvətdədi,
Zamana müxənnət olub, sur indi müxənnətdədi,
Bir az namus gözləyənin axır, boynu kəməndədi,
Dünyada "iyidəm" deyən ölüb, ya qəzəmətdədi,
Bu dünyanın ləzzətini, bilin, biqıryat aparar.

Bayaqkı kişi yenə dilləndi:

– Aşıq Ələsgər, örtülü-örtülü camaatı çox döydün. Yaxşı olardı ki, səni incidən adamlardan bir-ikisinin adını deyəydin.

Aşıq Ələsgər aldı, görək nə dedi:

Qılışdı qardaşlıqlarım dedi bir dana, vermədi,
Çarx dolandı, iqbal yatdı, döndü zamana, vermədi,
İsmayılınan İrvaham mərdü-mərdana vermədi,
Sarıdaşlı Bayramalı qaçdı pünhana, vermədi,
Aşığın danasın verməz, yüz manatın tat aparar.

Bunu eşidəndə camaat bərk gülüşdü. Aşıq Ələsgər aldı sözün tapşırmasını:

Ələsgərəm, vəsf elərəm, budu təlaşım Xanlara,
Şahi-Mərdan kömək olsun əziz qardaşım Xanlara,
Hatəm kimi mətləb verir düşəndə işim Xanlara,
Nə ki aşıq gördüm, deyir: – Qurbandı başım Xanlara!.

Kimisinə mal bağışlar, kimi yüz manat aparar.

Mənim əzizlərim, söz tamam olandan sonra, camaat istədi ki, Aşıq Ələsgərə dövranpulu yığa, Aşıq Ələsgər dedi:

– Camaat, özgə fikrə düşməyin. Mən pul-zad götürməyəcəm. Bu söhbəti sizə pulsuz eləmişəm.

Məclisdəkilər durub evlərinə getdilər.

O gecə keçdi. Səhər hamınızın üzünə xeyirliklə açılsın, səhər açıldı. Çay-çörəkdən sonra Məmiş mallarının içindən yanı buzovlu cavan bir inək ayırdı, dünən gətirdikləri dörd dana ilə birlikdə nökərinin qabağına qatdı ki, Ağkilsəyə aparsın. Aşıq Ələsgər atını mindi, Göyçəyə yola düşdülər.

Anaxanım gözləyirdi ki, Aşıq Ələsgər 18 dana gətirəcək. Aşıq Ələsgərgil gəlib qapıya çatanda Anaxanım gördü ki, beş dana, bir də bir inək gətiriblər. Səbir eləyə bilmədi, Aşıq Ələsgərdən soruşdu:

– A kişi, bəs, danaların qalanı hanı?

Aşıq Ələsgər arvadının qəlbini sındırmaq istəmədi, gülümsünüb dedi:

– Arvad, dedilər ki, ələfiniz azlıq eləyər; danaları yaza qədər saxlayaq, yazda gəlib apararsan.

– A kişi, Allah onların dadına yetsin! Nə yaxşı adamlardı.

O günü keçdi, sabah günorta gördülər ki, bir oğlan bir göy öküzün buynuzuna ip keçirib yedəyinə alıb, biri də arxasınca əlindəki çubuqla vura-vura gəlir. Gəlib qapıya yetişdilər.

Aşıq Ələsgər bunları görəndə soruşdu:

– A bala, bu nə maldı?

Oğlanın biri dilləndi:

– Ələsgər əmi, bu öküzü sarıdaşlı Məşədi Bayramalının oğlu Tahar göndərdi. Özü də xahiş elədi ki, dədəmin adını o sözdən çıxartsın.

Aşıq Ələsgər gülüb dedi:

– A bala, mən çıxartsam da, camaat çıxartmaz. Nahaq zəhmət çəkibsiniz.

Öküzü çəkib tovlaya bağladılar. Öküzü gətirən oğlanlar gecə qalmaq istəmədilər; çay-çörəkdən sonra qayıtdılar.

Öküz dörddoğan canlı bir öküz idi. Kələ tay olardı. Qohum-qonşu maraqlandı, Aşıq Ələsgər başına gələnləri bunlara danışdı. Anaxanım Aşıq Ələsgərin bu söhbətini eşidəndən sonra qalan danalardan gözünü kəsdi. Bir kəl, bir öküz, bir inək, bir düyə, beş də dana az dövlət deyildi.

Anaxanım ürəyində buna da şükür eləyirdi...

Allah hamınızı dərddən, qayğıdan, fikirdən xilas eləsin!

## DƏYİRMANÇI AŞIQ

Mənim əzizlərim, sizə hardan xəbər verim, Göyçə mahalınnan. Buranın camaatı da Niqalaydan çox narazıydı. Hamı ona qarğıyıf deyirdi: Allah, bunun çarxını çöyür! Allah, bunun taxtını tarac elə!..

1917-ci ildə Niqalay yıxılanda hamı söyündü. Qurban kəsən kim, şaddıx eliyən kim, toy çaldıran kim...

Gözlədilər, təzə hökumət Göyçüyə gəlib çıxmadı. Oldu başdıbaşınalıx. Hərənin əlinə bir tüfəng keşdi. Kimin kimə acığı tutdusa, ortasını oddadı. Bir az keşməmiş Göyçədə daşnaxlar peyda oldular. Başdadılar camaatın əlində olanını almağa. Daşnaxların qoşunu harya gedirdisə, o kəndi soyurdu.

Bir gün daşnaxların bir dəstəsi Göyçənin Zod kəndinə gəldi. Ağsaqqalları çağırdılar ki, bu qədər mal verməlisiniz, bu qədər qoyun verməlisiniz, bu qədər qoyun verməlisiniz, bu qədər taxıl verməlisiniz, bu qədər yağ verməlisiniz... Əyər verməsəniz, kəndi odduyajıyıx.

Camaat gördü ki, bu qədər şeyi düzəldif verə bilmiyəjəhlər, daşnaxlar da kəndi odduyajax. Göyçənin say-seçmə iyid oğulları sözü bir yerə qoydular, daşnaxların Zoddakı dəstəsini qırdılar. Əyər ki, qırmasaydılar, bilirdilər ki, daşnaxlar kəndi oddamaxnan əl çəkməyəjəhlər; İrəvan tərəflərdə olduğu kimi, burda da camahatı qırajaxlar. Onnarın mal-heyvan istəməkləri bir mahnadı.

Daşnaxlar Zodun üstünə hücüm çəhdi. Musurman kənddəri Zoda köməyə gəldi. Ara qarışdı, atışma başdandı. Göyçədə bir vurhavur oldu, gəl görəsən...

Musurmannar daşnaxları qovdular, Basarkeçərə tofladılar. İstədilər ki, Basarkeçəri də dağıdalar, musurmannarın başbilənnəri – Səməd ağa, Məşədi İsə bir çoxları da onnardan başqa qoymadılar ki, Basarkeçər camahatının nə günahı var?! Arada onnar qırılajax!

Bir az keşməmiş daşnaxlara ingilisdən kömək gəldi. Bu dəfə daşnaxlar üstələdi. Musurman kənddərinin çoxunu yandırdılar. Əmə gənə çataçat vuruşma gedirdi.

Göyçənin ağsaqqallarınnan bir neçəsi Aşıq Ələsgərin yanına gəldi, tədbir istədi ki, barışıx qoyulsun.

Mənim əzizlərim, onu da deyim ki, 1905-ci ildə ermənilər gənə bu iki millət arasına çaxnaşma salmışdılar. Çox yerdə qırğın törətmişdilər. Əmə

Göyçədə bir az sakitdiyiydi. Gördülər ki, Göyçədə də qırğın ola bilər; Səməd ağa, Böyük ağa, Məşədi İsə, Kor Tanrıvedi, Dəli Şirin, Aşıq Ələsgər; ermənilərdən Səfəroğlu Hovanes, Ağabəy; Aspadur, Yanıq Tataos və başqaları Çaxırlı kəndində Böyük Ağanın öyünə yığışıb. Qurana, İncilə əl basıf, Göyçədə qırğına yol verməyəjəhlərinə and içmişdilər. Ona görə də o vaxt Göyçədə erməni-müsurman davası olmadı. Bu dəfə də camahat Aşıq Ələsgərin yanına həmən umudnan gəlmişdi.

Aşıq Ələsgər dedi:

– 1905-ci ildəkinə baxmayın; bu dəfə barışıx baş tutmaz.

Dedilər:

– Niyə?

Aşıq Ələsgər dedi ki, Göyçə camahatına qalsa, bəlkə də, barışılardı; əmə daşnaxlarnan barışmax çətindi.

– Bəs neyliyək?

– Köşməhdən başqa çarası yoxdu.

Camahat gördü ki, doğrudan da, davam gətirmək mümkün döyül, çoxusu qoca-qarıları, əlsiz-əyaxsızdarı, uşaq-muşağı Azərbaycana aşırdı.

Aşıq Ələsgərin Kəlbəcər tərəfdə dostdarı çoxuydu; Qannıkənddən Mərdan oğlu Abbas, Dal, Usuf, Seyid Əziz... Bunlar bir neçə ulax göndərdi, Aşıq Ələsgərgili köçürdüf apardılar.

Bəşir də, qardaşları da, o biri qohumlardan əli tüfəng tutannarın hamısı da daşnaxlarnan vuruşmaq üçün Göyçədə qaldı.

Bəşir düşmanın üstünə gülləni dolu kimi yağdırırdı. Onun bir gülləsi də boşa çıxmırdı. Bir tüfəng əlində qızıb partdamışdı. Odu ki, yanına iki tüfəng qoymuşdu; biri qızanda o birini götürürdü.

Bu minvalnan ta Noyruz bayramınnan 17 gün keçənə qədər Göyçənin iyid oğulları ermənilərnən vuruşdular. Ermənilərə gənə qüvvə gəldi, musurmannarın gülləsi qurtardığına görə, Göyçədən çıxmağa məcbur oldular. Həmən gün hava da sərtləşdi. Dağların aşırımında qar-boran camaatı tutdu. Nə qədər adam, nə qədər mal-heyvan qırıldı...

Dizində taqəti olannar birtəhər aşıb Kəlbəcərə gedə bildi. Hava bir az sakitdəşəndə Kəlbəcərin adamları gəlib meyiddəri aparıb dəfn elədilər. Çoxlarını aparmaq mümkün olmadı; elə həmən qırıldıxları yerdə basırdılar...

Bəli, mənim əzizlərim, bir az keçəndən sonra Sultan bəy Aşıq Ələsgərgilin Qannıkəndə gəldiyini eşitdi, adam göndərdi ki, köçürdüb öz yannarına

aparsınnar. Aşıq Ələsgər dedi:

– Allah Sultan bəydən irazı olsun! Belə bir gündə ki yadına salıf; bu bizim üçün bəsdi. Dostdarın sağlığına burda da vəziyyətimiz pis döyül. Bir də şələ-bərxananı ora dartmaq artıq əziyyətdi...

Aşıq Ələsgər Sultan bəygilin yanına gedərdi, Bəşirdən ehtiyat eliyirdi; fikirrəşirdi ki, onnarın hər hansı bir hərəkəti, hər hansı bir sözü Bəşirə xoş gəlməz, Bəşir bir xata çıxardar. Bəşir heç sözgötürən döyüldü; kim olur-olsun, bir deyənə beş deməsə, ürəyi soyumazdı. Aşıq Ələsgər Sultan bəygilnən olan çox möhkəm dostluğu itirəcəyinnən qorxurdu. Ona görə onnarın yanına getməyə irazılıx vermədi.

Bir müddət keçəndən sonra Aşıq Ələsgər gördü ki, yox, burdakı bəzi adamlar onnara gəlmə kimi baxırlar. Göyçədə Aşıq Ələsgərə "dost" deyif, həftələrnən qonağı olannarın bəziləri gəlif onun heç əhvalını da soruşmur...

Allah yoxsulluğu, ajdığı, qəhətdiyi göstərməsin. Atalar deyib: "tövbə toxluqdandı, üz-göz yoxluxdan." Aşıq Ələsgərin oğlannarı ailəni ajdıxdan korrux çəhməyə qoymasalar da, Ələsgər Göyçənin veran edilməsini, günahsız insannarın qırılmasını, indiki başdıbaşınalığı özünə dərd eləmişdi.

Bir gün Bəşir onu qəmli görəndə soruşdu:

– Ay dədə, niyə fikir eliyirsən? Çoxunnan kı biz yaxşı dolanırıx.

– Oğul, bir biznən döyül ha! Görmürsənmi millət nə gündədi?! Qaşqınnarın çoxusu Cəhənnəm əzabını bu dünyada çəkir. Ajdıx, qəhətdik bir tərəfdən; bir tərəfdən də ağzının sözünü bilmiyənnər onnara "qaxdağan,"- deyif, lağa qoyur. Bu heç çəkiləsi dərd döyül. Kağız-qələm gəti, deyim, dərdimi yaz!

Bəşir daha sözü çöyürmədi, kağız-qələm gətirdi. Görək Aşıq Ələsgər nə dedi, Bəşir nə yazdı:

Səyyadısan, tor qurufsan, dağı gözdə, gözdə sən!
Bəzirgansan, yolun kəsər yağı, gözdə, gözdə sən!
Hərcayıynan aşna olma, namərdə bel bağlama,
Müxənnət qatar aşına ağı, gözdə, gözdə sən!

Mənim əzizdərim, Aşıq Ələsgərin Göyçədə dostları çoxuydu. Çamırrı kəndində üç qardaş varıydı; birinin adı Həsən, birinin adı Heydər, birinin də adı Mustafa. Bunnar həm çörəkli, həm də çox iyid adamıydılar.

Mustafa şəxsiyyətdə, Mustafa yaraşıxda insan, elə bil ki, dünyaya hələ gəlməmişdi. Onu musurmannar da, ermənilər də "Hajı Nağı oğlu Mustafa" adıynan tanıyırdılar. O, Göyçənin bir dayağıydı.

Elə ki, ermənilər basqın elədi, Mustafagil erməniləri kəndə girməyə qoymadılar. Yüzdərnən erməni öldürdülər. Camahata da tapşırmışdılar ki, kənddən çıxmasınnar. İki gün atışannan sonra Mustafa ağır yaralandı. Gördü ki, daha kəndi qorumax çətindi, camahata xəbər göndərdi ki, çıxsınnar. Camahat birtəhər qaçıb canını qurtardı, qardaşlar şəhid oldular. Bu xəbər Aşıq Ələsgərin də sinəsinə dağ çəkmişdi. Aşıq Ələsgər onnarı yada saldı, görək bu dəfə nə dedi, Bəşir nə yazdı:

Hanı Həsən, hanı Heydar, hanı sərdar Mustafa?!
Sayeyi-mərhəmətinnən bir müddət sürdük səfa,
Axırını zay eylədin, a bimürvərt, bivəfa,
Aç sinəmdə düyünə bax, dağı gözdə, gözdə sən!

Kığ satan, çaşır satannar deyir "qaxdağan" bizə,
Çay içib, piloy yeyənnər heç göstərmir nan bizə,
Olsa nüsrət, versə fürsət Qadiri-Sübhan bizə,
Çoxlarına eylərəm nasağı, gözdə, gözdə sən.

Ələsgərnən bəd başdadın cavan vaxtınnan, fələk!
Düşgün çağı əlin üzdün xabi-raxtınnan, fələk!
Neçə-neçə Süleymanı saldın taxtınnan, fələk!
Onnar oldu dərdü-qəm dustağı, gözdə, gözdə sən!

İsmimdi Aşıq Ələsgər, çox çəkirəm bu bəhsi:
İncidənnər, incidəjək incidifsən hər kəsi,
Çarxı-fələyin sitəmi, ayrım-kürdün tənəsi,
Əridifdi ürəyimnən yağı, gözdə, gözdə sən!

Mənim əzizlərim, söz tamam olandan sonra Aşıq Ələsgər gənə bir ah çəkdi. Bəşir kağız-qələmi yığışdırdı.

Axşam oldu, külfət bir yerə yığıldı. Gecənin bir vaxtına qədər gəlmişdən-getmişdən danışdılar. Birdən eşitdilər ki, güllə səsi gəlir. Çox təşvişə düşdülər ki, görəsən nə işdi. Sonra ara səngidi.

Sabah tezdən xəbər yayıldı ki, Qannıkənddən Elləzallar kəndinə oğurluğa gediflərmiş. Biliflər, atışmada bir adam Qannıkənddən, iki adam da Elləzallardan öldürülüf. İndi Qannıkəndnən Elləzalların adamları hazırlaşırlar ki, bir-birini qırsınnar.

Gördülər ki, işdər çox çətin olajax, kənddərin ağsaqqalları arıya düşdü,

gəlif Aşıq Ələsgəri də apardılar, cavannara öyüd-nəsiyət elədilər ki, bu, Allahın kəsmişdiyidi. Qanı qannan yumazdar, hərə çəkilşin öz yerində otursun, daha qan tökülməsin.

Düzdü, cavannar ağsaqqalları eşidif əllərini saxladılar, əmə düşmançılıq qaldı. Bu kənddən o kəndə bir nəfər də gedif-gələ bilmirdi.

Bu kəndlərin işi bir yerdə çox çətinə düşmüşdü; iki kəndin bir dəyirmanı varıydı. Belə ağır, qəhətlik ildə əllərinə düşən bir ovuc taxılı üyütmək üçün heç kəs cürət eliyif dəyirmana gələ bilmədi. Unnan sarı çox korrux çəhməyə başdadılar.

Camahat gördü ki, yox, dəyirmansız dolanmax heç cür mümkün döyül. Mərdan oğlu Abbas, Usuf, Dal, Heydar oğlu Əli bir neçə ağsaqqal da bunnardan başqa yığılıf Aşıq Ələsgərin yanına gəldilər. Aşıq Ələsgərdən xayış elədilər ki, camahat dəyirmansız çox əziyyət çəkir; heş kəs, heş bir düşman sənnən keçif, sənin yanında bir-birinə əl qaldırmaz. Ara düzələnə qədər gəl dəyirmanda dur.

Bəşir əvvəl heç cür irazılaşmax istəmədi. Sonra gördülər ki, doğrudan da, camahat dəyirmansız dolana bilmir. Bir də ki, ağsaqqalların da xayışını yerə salmax yaxşı döyül. Aşıq Ələsgər günü savahdan dəyirmana getdi. O kənddən də, bu kənddən də kim dən gətirirdisə, üyüdüf aparmağa başdadı.

Dəyirman Qannıkənddi Mərdan oğlu Abbasnan Seyid Fəttahınıydı.

Bir gün biri, bir gün o biri dəyirmanda dururdu. Əmə Aşıq Ələsgər hər gün dəyirmana gəlirdi.

O vaxtı taxıl az tapılırdı. Bir də görürdün ki, biri bir dağarcıx arpa gətirdi; biri bir torva darı gətirdi... Onda dəyirmançılar dəyirmanı işə salar, gətirilən dəni un eliyif, camahatı yola salırdılar. Dən olmuyanda, dəyirmanın suyunu soğar, axşama qədər Aşıq Ələsgərnən dünyanın gəlmişinnən-getmişinnən söhbət eliyərdilər.

Aşıq Ələsgərin işi dəyirmanın yanında rahat bir yerdə əyləşif, təbiətin gözəlliklərinə tamaşa eliyə-eliyə "fələyin at işdəməz yolları" nı fikirrəşmək olardı.

Bəli, dünyaya səs salan Aşıq Ələsgəri yaşının bu qoja vaxtında zamana beləcə "dəyirmançı" eləmişdi.

Kim Aşıq Ələsgərnən görüşmək istəsə, onun söhbətinə qulaq asmaq istəsə, dəyirmana gəlirdi. Uşaqlar, ən çox qızdar tez-tez gəlib onu danışdırır, dediyi tərifləri onun öz dilinnən eşitməkdən ləzzət alırdılar.

Qannıkənddə Dərələyəzdən də qaçqın varıydı. Dərələyəzin Ayısəsi

kəndinnən Seyid Qara da ayiləsini burya gətirmişdi. Onun Cəmil, Şəmil addı iki oğlu, Müşgünaz addı da bir qızı varıydı.

Müşgünaz saza-sözə çox maraxlıydı. Aşıq Ələsgərin qız-gəlinnərə dediyi təriflərin çoxunu əzbər bilirdi. Bir gün onun fikrinə gəldi ki, görəsən, Aşıq Ələsgər mana da bir tərif deyərmi? Bir gün keşdi, bu fikir onun yadınnan çıxmadı, beş gün keşdi, bu fikir onu irahat buraxmadı.

Axırda gördü ki, bu fikirdən əl çəkə bilmir, gətirdi ağ yunnan bir cüt elə gözəl coraf toxudu ki, elə bil, heç üstündə əl gəzmiyif. Corafları yudu, qurutdu, götürüf saxladı.

Müşgünaz gözdədi ki, unnarı qurtarsın, qardaşları dəyirmana dən aparanda, bu da onnarnan getsin. Elə ki, unnarı qurtardı, qardaşları hərəsi bir dağırcıx dən götürdü kü, dəyirmana getsin, Müşgünaz atasına dedi ki, qızdar Aşıq Ələsgərin yanına gedir, istiyirəm, mən də Cəmilgilnən gedim. Atası irazılıx verdi. Müşgünaz qonşudakı qızdara da xəbər verdi, bir dəstə bağladılar dəyirmana endilər.

Xoş bir hava varıydı. Aşıq Ələsgər dəyirmanın qavağında əyləşmişdi. Qızdar gəlif yetişdilər, öz doğma nəvələri kimi, Aşıq Ələsgərin ətrafında cərgələnif əyləşdilər. Qızdar başdadılar Aşıq Ələsgəri sorğu-suvala tutmağa: filan tərifi harda deyifsən? Tərif dediyin qız haralıydı? Kimin qızıydı?.. Qızdardan ən çox suval verəni Müşgünazıydı. Axırda mətləbini dedi:

– Ələsgər əmi, burdakı qızdara da tərif yaraşırmı?

Aşıq Ələsgər çox kəsə cavab verdi:

– Niyə yaraşmır!

Bunnan sonra Aşıq Ələsgər qızı suala tutdu:

– A qızım, adın nədi?

– Müşgünazdı.

– Kimin qızısan?

– Seyid Qaranın.

Aşıq Ələsgər Seyid Qaranın qaçqın olduğunu bilirdi. O, çox məriflətdi, əhli-hal adamıydı. Bu dilli-dilavər qızın da tərbiyəli ailədə böyüdüyünü onun duruşu, tərpənişi bildirirdi. Qız boy-buxunnu, həm də camaldan çox yaraşıxlıydı. Müşgünazın mətləbi Aşıq Ələsgərə aydın olmuşdu. Qız sözü bir də təzələdi:

– Ələsgər əmi, mana da tərif yaraşırmı?

– Qızım, lap yaxşı yaraşır.

– Nə olar, mana da bir tərif de!

Aşıq Ələsgər gülümsünüb, zarafatnan dedi:

– Qızım, tərif çox bahalı şeydi. Tərif dediyim qızdarın atası, qohum-qardaşı mana at bağışdıyırdı, mal bağışdıyırdı, xələt verirdi... sənin atan qaçqın adamdı, tərifin əvəzinə mana nə verəjək ki!

– Ələsgər əmi, atalar deyif ki, "Bir atın əvəzi bir alma olar." Mən də sana bir cüt corab toxuyaram.

Qızın bu sözü Aşıq Ələsgərin çox xoşuna gəldi, dedi:

– Qızım, onda qulaq as!

Aşıq Ələsgər sazsız başdadı alçaq səsnən Müşgünazı tərifləməyə. Görək nejə tərifلədi; biz saznan deyək, şad olun:

Sübhün çağı mah camalın görəndə,
Xəstə könlüm gəldi saza, Müşgünaz!
Sonatək silkinib, gərdən çəkəndə,
Bənziyirsən quba qaza, Müşgünaz!

Camalın görəndə Aya bənziyir,
Sallanışın Züleyxaya bənziyir,
Qabaq ayna, qaşın yaya bənziyir,
Qıymat yoxdu ala gözə, Müşgünaz!

Dörd tərəfin bənövşəli bağ olsun,
Həmişə yediyin bal-qaymağ olsun!
Sağ-solunda qardaşların sağ olsun!
Corafları yaxşı bəzə, Müşgünaz!

Aşıq Ələsgər belə deyəndə, Müşgünaz qoynunnan corafları çıxardıf onun qabağına qoydu. Coraf, nə coraf! Süd kimi ağ toxunuf, üstündəki burma naxışdarı adamı valeh eliyir. İki göz gərəkdi, tamaşa eliyə.

Aşıq Ələsgər corafları əlinə alıb baxannan sonra dedi:

– Qızım, bu mərfətdə ki, əlinin işi var, bu coraf mana bir atdan artıxdı.

Aldı sözün o biri bəndini:

Konül qəmgin, ürək dərddi, vərəmli,
Səni gördüm səxavətdi, kərəmli,
Bir mirzə lazımdı əli qələmli,
Mən deyəm, vəsfini yaza, Müşgünaz!

Ötgün sözüm, kəskin baxtım olaydı,
Ağ otağım, zərrin raxtım olaydı,
Ələsgərəm, cavan vaxtım olaydı,
Qəddim əyib qəhri-qəza, Müşgünaz!

Sevinci yerə-göyə sığmayan Müşgünaz gəlib Aşıq Ələsgərin əlinnən öpdü, sonra dedi:

– Ələsgər əmi, bu sözü burda dedin, burda da qaldı, bizdən başqa kim eşitdi ki?! Mirzə istədin, burda yoxuydu kü, yaza.

– Qızım, fikir eləmə. Yazan olmasa da, sabah hər yana yayılajax.

Seyid Fəttah Müşgünazgilin də, o biri qızdarın da gətirdiyi dəni üyütdü, onnarı şad-xürrəm yola saldı.

Axşam Aşıq Ələsgər öyə gələndə heybədən corabı çıxardıf, göstərdi. Anaxanım soruşdu ki, bu nə corabdı? Aşıq Ələsgər dedi:

– Seyid Qaranın qızı dəyirmana dən gətirmişdi, mənnən tərif istədi, mən təriflămə dedim, o da bu corabı mana xələt verdi.

Öydəkilərin hamısı coraba bir də diqqətnən baxdı. Gördülər ki, elə zərif, elə gözəl toxunuf kü, iki göz gərək tamaşa eliyə. Bəşir zarafatnan dedi:

– Ay dədə, sən də tərifləməni de, görək coraba görə varmı?!

Bəşir kağız-qələm hazır elədi, Aşıq Ələsgər tərifi dedikcə o yazdı, Talıb da elə oradaca əzbərrədi. Sabah Müşgünazın tərifi kənddərə yayıldı.

Bir gün Aşıq Ələsgər dəyirmannan gəlif yeni öyə çatmışdı, arxasınca bir atdı da qapıya yetişdi:

– Salaməleyküm!

– Ələykümәsalam!

Atdı atdan düşdü, əl verif görüşdülər. Aşıq Ələsgər soruşmamış o, gəlişinin məqsədini dedi:

– Ələsgər əmi, məni Səməd ağa göndərdi. Dedi ki, ermənilər arıya barışıx qoymax istiyillər. Xəbər göndəriflər ki, ağsaqqalları, addı-sannı adamları gətirsin, barışax, Göyçənin musurmannarı öz yerinə qayıtsın. Bəşirin dalıncax gəlmişəm.

Göyçə dağılanda Səməd ağagil Kəlbəcərin İstibulax kəndinə gəlmişdilər, orda yaşıyırdılar.

Bəşir öydə yoxuydu; Yanşağa – dayısıgilə getmişdi.

Aşıq Ələsgər oğlana bir cavaf verməmiş, onu öyə təhlif elədi. Dedi ki, keçək, öydə danışax.

Bu xəbərdən Aşıq Ələsgər çox narahat oldu. Hələ ortuya çay-çörək gəlməmiş fikrini bildirdi:

– Oğul, Səməd ağıya de ki, ermənilər tələ quruf. Selikovgilin hayıfını almax istiyillər. Əyər getsələr, hamısını qırajaxlar. Bu fikirdən əl çəksin!

Bu dəmdə Bəşir də gəlif çıxdı, qonaxnan görüşdü, çörək yedilər, çay işdilər.

Bəşir qonağın nə məqsədnən gəldiyini biləndə, o da irazı olmadı, dedi:

– Səməd ağıya denən, varrı, addı-sannı olsa da, Basarkeçərdə mənim dostum onunkunnan az döyül. Amma mən bu dəmdə ermənilərə ehtivar eliyə bilmərəm. Mən getmirəm, başqalarının da getməyinə irazı döyüləm.

Gələn adam gördü ki, atanın da, oğulun da cavabı birdi. İstədi, atını minif qayıda, qoymadılar ki, axşamdı, savah gedərsən. Qonaq savah qayıdıf, Səməd ağıya xəbəri çatdırdı.

Səməd ağa inanmırdı ki, ermənilər ona xəyanət eliyə. Çünkü musurmannar Basarkeçəri dağıtmax istiyəndə, Səməd ağa qoymamışdı. Basarkeçər erməniləri bunu bilirdilər.

Səməd ağa Göyçənin başbilənnərinnən, hörmətdi adamlarınnan bir neçəsini də özüynən apardı. İki günnən sonra xəbər çıxdı ki, ermənilər onnarın hamısını qırıflar. Qırılannarın içində Aşıq Ələsgərin şəyirdi daşkənddi Aşıq Nəcəf də varıydı. Onu soyunduruf, belinə qaynar samavar bağlıyıf, çox əzafnan öldürmüşdülər.

Bu bəd xəvər hər yerdən tez Kəlbəcərə yayıldı. Camahat qırx gün yas saxladı. Aşıq Ələsgərin bir dərdi beş oldu...

Bir gün Aşıq Ələsgər dəyirmanın qabağında əyləşif, dünyaya tamaşa eliyirdi. Bir də gördü ki, aşağıdan yedəyində yüklü at olan bir adam gəlir. Gəlhagəl, gəlif dəyirmanın tuşuna çatanda, Aşıq Ələsgəri görüf dayandı. Sonra onun yanına gəldi, salam verdi.

Aşıq Ələsgər salamı alannan sonra gələn adam onun üzünə diqqətnən baxdı, köyrək səsnən dilləndi:

– Aşıq Ələsgər, məni tanıdınmı?

– Niyə tanımadım, Zoddu Həmid bəy döyülsənmi?!

Təzədən əl tutuf görüşdülər. Hər ikisi köyrəlif ağladı. Ermənilərin Səməd ağagili qırmağınnan, camahatın güzəranının ağırrığınnan... xeyli danışdılar. Həmid bəy dedi:

– Aşıq Ələsgər, bu müsibət yerə-göyə sığmaz. Gör fələk bizi nə günə qoydu?! Kaş ölüf Göyçədə qalaydım, bu günümüzü görməyəydim!

– Həmid bəy, neynəmək olar?! Çarx hərrənif, zamana dəyişilifdi. Hər zamanın bir hökmü var. İndi müxənnət zamanasıdı. Günah zamanadadı. Yoxsa ermənilər Göyçənin başına belə müsibəti gətirə bilərdimi?!

Həmid bəyi gənə ağlamax tutdu. Aşıq Ələsgər köyrək səsnən dedi:

– Həmid bəy, ağlama, qulaq as!

Aşıq Ələsgər dodaqaltı zümzümə eləməyə başdadı:

Müxənnət zamana, ay kəcirəftar,
Sitəmindən necə cannar itifdi?!
Zülmünü nümayan eylədin aşkar,
Qurğular pozuluf, sannar itifdi.

Şər işdən nə tafdın, söyləsən, qanam,
Necoldu büsatım, dəmim, dəmxanam?!
Tülkü havalanıf, deyir aslanam,
Tüf dağıdan ac asdannar itifdi.

Müxənnət meydanda "mənəm" deyifdi,
Bu dərd Ələsgərin qaddin əyifdi,
Kor yapalax kəhlik alıf yeyifdi,
Laçın ölüf, o tərlannar itifdi.

Həmid bəy dəsmalını çıxardıf, gözünün yaşını sildi, dedi:

– Aşıq Ələsgər, hər ağrıya-ajıya dözmək olar, əmə vətən həsrətinə, torpax dərdinə dözmək çətindi. İndi Göyçədə dığalar at oynadır; buna necə dözmək olar?!

– Həmid bəy, darıxma, Allah kərimdi! Harda olursunuz?

– Dəmirçidamında.

At yükün altında əziyyət çəkirdi. Həmid bəy salamatdaşıf, yoluna davam elədi.

Bu görüş də Aşıq Ələsgərə bir dərd oldu. Fikrə getdi. Keçmiş ağalı-bəyli məclisdəri gözünün qabağına gəldi...

Gün günortadan xeyli keçmişdi. Abbas gördü ki, daha dən gətirən yoxdu, dəyirmanın qapısını qıfılladı, öyə tərəf yola düşdülər. Gəlif Armıtdı çəpərə yaxınnaşanda gördülər ki, köç tökülüf. Gəlif bunnarın yanına çatanda Aşıq Ələsgəri tanıdılar. Sən demə, bunnar hardasa Aşıq Ələsgəri toyda görüflərmiş. Kişilər gəlif, onun əlinnən tutuf, əhvalını soruşdular, vəziyyətinnən halı oldular, onun halına yandılar, çox təəssüfləndilər.

Bu köçdəkilər də ermənilərin əlinnən baş götürüf, bu tərəfə gəlmişdilər. Bir qədər dərddəşdilər, Aşıq Ələsgərin keçirdiyi toy məclisdərini yada saldılar...

Aşıq Ələsgər gördü ki, burda beş-altı qız-gəlin var. Bunnarın biri yönü o tərəfə əyləşif, saçının hörükləri kürəyinin arasıynan birdi.

Utandığınnan üzünü çöyürüf kişilərə baxmır. On dörd gejəlik ay kimi sufatı yannan görünür. Yanağının irəngi ağ kalağayıda bildirir. Bunun gözəlliyi hələ bir tərəfə, mərifət-qanacağı, avır-həyası Aşıq Ələsgərə çox xoş gəldi.

Köçün ağsaqqalı Əhməd addı nuranı bir kişiydi. Aşığın, sazın, sözün qədrini bilən adamıydı. Odu ki, Aşıq Ələsgəri söhbətə tutmuşdu, buraxmax istəmirdi. Dedi:

– Aşıq Ələsgər, elə o sazdı-söhbətdi günnərimiz olaydı! Görəsən, Allah bizə o günnəri bir də qismət eliyəjəhmi?!

– Məsdahat o kişinindi. Onnan başqa umud yoxdu. Qismət eləmək istəsə, eliyər.

Aşıq Ələsgərin ürəyi bu gün dolmuşdu, söz deməyə fürsət axtarırdı. Əhmədin dediyinnən də gördü ki, o da söz istiyir, dedi:

– Əhməd, daha mənim saz çalmağımnan, toy məclisi yola salmağımnan keçif. Sənin xətrin üçün burda elə-belə bir-iki kəlmə deyərəm.

– Dilinin qadasın alım de!

Aşıq Ələsgər alçaxdan oxumağa başdadı. Görək, əvvəlcə köçdəki gözələ nə dedi, biz də saznan deyək, şad olun:

Gərdəninə neçə şahmar dolanıf,
Konul istər o şahmara dolansın.
Ərzim alıf, iltimasım tutmasan,
Məcnun olsun, bu dağlara dolansın.

Bəyənmişəm xəsyətini, halını,
Yaradan bol verif huş-kamalını,
Sən Allah, gizdətmə mah camalını,
Şöləsinə, qoy, füqara dolansın!

Aşıq Ələsgərin yadına yoxsullux, bahalıx, qəhətdik, camahatın pis güzəranı düşdü. Aldı görək bu dəfə nə dedi, köçdəkilər nə eşitdi:

Bal ki bahalandı, qırıldı arı,
Yağ satannar mala saldı azarı,

Min manata qaldırdılar onnarı,
Nə gün çıxsın, nə sitara dolansın!

Aşıq Ələsgər hər şeyi özünə dərd eləmişdi. Həmid bəynən onun bugünkü görüşü heç yadınnan çıxmırdı. Səməd ağagilin belə zülümnən öldürülmələrinin fikri onun ürəyində yara bağlamışdı. Özünün düşkün çağında çəhdiyi bu əzab-əziyyəti də göz qabağına gətirdi, aldı, görək bu dəfə nə dedi:

Dad sənin əlinnən, çarxı-kəcmədar!
Ürəyimdə yüz dərmansız yaram var.
Aşıq - dəyirmançı, ağa - çarvadar,
Sərraf gəlsin, bu bazara dolansın!

Köçdəkilər hər bənddən sonra "sağ ol!" – deyif, aşığın astadan oxuduğu sözdəri yaxşı eşitmək üçün diqqətnən qulaq asırdılar. Aşıq Ələsgər aldı sözün tafşırmasını:

Zalım cəllad nə girifdi qəsdinə,
Xəbər verin övladına, dostuna,
Şahlar şahı saya salsın üstünə,
Ələsgərtək baxtı qara dolansın!

Mənim əzizlərim, elə ki söz tamama yetişdi, buradakı adamların hamısı dönə-dönə Aşıq Ələsgərə "sağ ol!" dedi. Onnan çox irazı qaldılar.

Əhməd kişi yönünü qıvlıya çöyürüf, əllərini göyə qaldırdı, uca səsnən dedi:

– Ey Xudaya, sən milləti bu zəlalətdən qurtar!

Hamı birağızdan "amin!" dedi.

Aşıq Ələsgərgil ordan ayrılıf öylərinə gəldilər.

Axşam gənə külfət bir yerə toplaşanda, Aşıq Ələsgər bu gün başına gələnnəri danışdı. Onun dediyi təzə sözdəri Bəşir yazdı, eşidənnər əzbərrədilər.

Bəli, mənim əzizdərim, Aşıq Ələsgərgilin ailəsi üç il Kəlbəcərin Qanıkənd kəndində köşkün yaşadı. Ara düzələnnən sonra gənə Göyçüyə qayıtdılar, doğma Ağkilsə kəndində yaşamağa başdadılar.

Allah heç kəsə qaşqınnıx, köşgünnük əzabı göstərməsin!

Allah darda qalannarın hamısının dadına yetsin!

Allah heç bir mərdi namərdə möhtac eləməsin!

# XATİRƏLƏR

## SAZIN, SÖZÜN AŞİQİ

Mən aşıx məclislərinə həməşə Ələsgərnən barabar gedərdim. Biz aşıx məclisdərinin birini də buraxmazdıx. Mən də, qalan uşaqlar da axşamnan aşığın söhbətinə bir qədər qulax asannan sonra yuxumuz gələrdi, yatardıx. Ələsgər məni oyadanda görərdim ki, aşıx söhbəti qurtarıf.

Səhər tay-tuşlarımız bir yerə toflaşanda xayış edərdik ki, Ələsgər axşamkı nağılı (dastanı – İ.Ə.) danışsın. O, xayışımızı yerə salmazdı, danışardı.

Ələsgər bir nağıla iki-üç dəfə qulax asannan sonra sözdərini də yadında saxlardı.

**Məşədi PAŞA***

## DAŞIN SİRRİ

Ot biçininin vaxtı imiş. Həmişə olduğu kimi, Ağkilsə kəndinin camaatı səhər tezdən Çalmalı dağındakı biçənəklərə yollanır. Yol Daşlı güney adlanan bir dağın ətəyindən keçir. Bu dağa ona görə Daşlı güney deyirlər ki, burada sıldırım qayalar üst-üstə qalaqlanıb, yerin üstünün çox hissəsini daş örtüb.

Yağışın, qarın, şaxtanın, günəşin təsirindənmi, yoxsa zəlzələdənmi iki ildə bir, üç ildə bir bu dağın qayalarından daş qopub aşağı hellənir.

Camaat işə gedən vaxtı elə olur ki, biri lap gecədən yola düşür, biri gün çıxandan sonra. Eləsi də var ki, əlinə başqa iş dolaşdığına görə xeyli gecikir. Xülasə, dağa biçinə gedəndə də adamlar üç bir, beş bir... yol yoldaşı olurlar.

Dörd-beş adam gəlib Daşlı güneyin döngəsinə çatanda görürlər ki, yuxarıdan bir böyük daş qopub gəlib yolun ortasında dayanıb. Daş elə düşüb ki, araba keçəsi deyil. Bunlar istəyirlər ki, daşı helləyib yoldan çıxartsınlar. Nə qədər güc verirlər, daşı tərpədə bilmirlər. Biri deyir ki, axşam

* Ağkilsəli, 1940-cı ildə 115-120 yaşlarında vəfat etmişdir.

işdən qayıdanda adam çox olacaq, onda daşı yoldan çıxardarıq.

Camaat axşam işdən qayıdanda gəlib görürlər ki, daşı yolun alt tərəfinə çıxarıblar. O, ondan soruşur, bu bundan soruşur ki, daşı yoldan kimlər çıxarıb? "Gördüm" deyən olmur. Deyirlər ki, bəlkə, yola daş düşdüyünü kimsə kəndə xəbər verib, kənddən gəlib çıxardıblar. Camaat kəndə gələndə də soraqlaşırlar, yenə bir şey öyrənə bilmirlər. Başqa kəndin adamlarının da nəyinə lazımıydı ki, gəlib Ağkilsənin yolundakı daşı çıxartsın!?

Bir gün keçir, beş gün keçir, bir ay keçir, bir il keçir.... daşın yoldan necə çıxarıldığı bir sirr olaraq qalır.

Aşıq Ələsgər vəfat elədiyi günün axşamı duadan, Qurandan sonra, rəhmətlik Şükür kişi üzünü hüzür yerinə toplaşanlara tutub deyir:

– Yaxşı vaxtında deyirsən! Bəs indiyə qədər dilin necə olmuşdu?!

– Vallah, Aşıq Ələsgər and verib tapşırmışdı ki, mən ölənə qədər bu sirri açma.

– Bəs, o daşı yoldan necə çıxarda bilmişdi?

Şükür kişi nağıllamağa başlayır:

– Mən o günü işə gecikmişdim. Dağa təkcə gedirdim. Daşdı güneyin ayağındakı döngüyə çatanda gördüm ki, Aşıq Ələsgər qollarını çirmələyib çayda əl-üzünü yuyur. Fikirrəşdim ki, tələsik işə getdiyi yerdə yol üstündə bu yuyunmaq nədi? Özümü görsətmədim; bir daşa daldalandım, dedim görüm, bu nə işdi? Sonra gördüm ki, başladı düz-əməlli namaz qılmağa. Gənə təəccübləndim ki, öydə namaz qılıb gəlib, bu nə vaxtın namazıdır?! Namazı qurtarannan sonra gəlib yoldakı həmən daşın arxasında yönü qıvlaya düz dayandı. Əlinin hərəkətinnən, dodaxlarının tərpənməsinnən bildim ki, duva oxuyur. Duvanı qurtarannan sonra əyildi, döşünü verdi daşa. Başa düşdüm ki, daşı helləmək istiyir. Tez yanına yüyürdüm ki, kömək eliyim. Mən çatana qədər daşı iki təkannan yoldan çıxartdı. Elə bil ki, bu, daş döyülmüş, saman çuvalıymış. Qəddini düzəldəndə çatdım.

– Səlaməleyküm!

– Əleyküməssalam!

– Ələsgər əmi, bu kömək işidi, özünü niyə zora salırsan?

– Oğul, köməyim varıydı. Sənnən bircə tavaqqam odu ki, gördüyünü mən ölənə qədər dilinnən qaçırmayasan!

Mən bu sirri saxlayacağıma and içdim. Odu ki, bu günə qədər heç bir söz deməmişəm.

**Şükür ƏZİZOĞLU**

## MOLLANIN SƏHVİ

Bir gün kənddə ölü düşmüşdü. Camaat axşam Baba oğlu Nəcəfin öyünə yığılmışdı. Çay-çörəkdən sonra molla əzbərdən Quran oxumağa başdadı. Molla Quranı oxuyub qurtarannan sonra, dədəm dedi:

– Molla, filan yerdə filan sözü düz demədin.

Molla dədəmə bir əyri-əyri baxdı, dilləndi:

– Aşıq Ələsgər, sən ki, oxumuyubsan; nə bildin ki, düz demədim!?

Dədəm dedi:

– Molla, bilməsəm demərəm.

Xülasə, molla dedi, dədəm dedi, söhbət uzandı. Axırda, molla gətirib Quranı açdı, həmin ayəni tapdı, oxudu, sonra da oxumağı bacaranların qabağına tutdu. Hamı gördü ki, molla deyən kimi yazılıb.

Biz qohumlar, həm də elə Aşıq Ələsgərin xətrini istiyənnər çox pis olduq. Əmə dədəm heç əhvalını pozmadı. Bir az duruxannan sonra dedi:

– Bu kitabda həmin söz səhv gedib, gedin Quranın Tehran çapını gətirin!

Dedilər, görəsən, Tehran çapı harda olar?

Dədəm dedi:

– Böyük Qaraqoyunluda Kalvayı Cəfərdə var.

Cavannardan biri atı mindi, bir saat çəkmədi, Quranı gətirdi. Açıb həmən yeri tapdılar, gördülər ki, dədəm deyən kimi yazılıb.

Molla yerinnən qalxıb, dədəmin yanına gəldi, əlinnən öpüb dedi:

– Aşıq Ələsgər, innən belə kim sana şəkk eləsə, kafərdi.

**Aşıq TALIB**

## ƏFSUNÇU AŞIQ

*(Xatirə maqnitofon lentinə alınmışdır. Biz onu yazıya köçürərkən kiçik ixtisarlar aparsaq da, aşığın ifadələrini və dilinin şivə xüsusiyyətlərini saxlamağı lazım bilmişik!)*

İ.Ələsgər

**İ.Ələsgər**. Ağayar dayı, dedin ki, 6-7, bəlkə də, 8 il Aşıq Ələsgərin yanında qulluq eliyibsən. O etdiyiniz səfərlərdən, gördüyünüz yerlərdən

bir şey danışarsanmı?

**Aşıq Ağayar.** Səfərimizin biri Qazağa oluf.

**İslam Ələsgər.** Qazağa nə təhər getdiniz?

**Aşıq Ağayar.** Getdik Karvansaraya. İndi İcevan deyillər. Molla İrəhim varıydı, karvansaralı. Telfunnan zada, Annax bəyə xavar verdi ki, Aşıq Ələsgər, göyçəli Aşıq Ələsgər Qazağa gəlir.

Aradan bir 3-4 saat keçmişdi, bir də baxdıq ki, faytun gəldi. Faytun gəldi, aşıx varmı, var. Faytuna mindik, getdik şəhərə. Yetişəndə gördük ki, çayçı Urustam varıydı, bunun qavağı elədi-elədi, and olsun Allaha hesab elə, belə ərəsat əyağıdı. İnsan elədi. Ələsgər kişi düşən, Annax bəy yeridi. Annax bəy bunu harda görüf? Zadın toyunda; Eldarda Alı koxanın toyunda. Eldarlı Alı koxanın. Dedi, camahat, mən dediyim adam budu. Yetirən kişinin əlinnən, yetirən kişinin əlinnən öpdü.

Gəlif oturuf çay içirdik, bir də baxdıq ki, iki adam qapıdan girdi. Annax bəyə bir kağız verdilər. Annax bəy oxudu, dedi:

– Ələsgər əmi, Tiflisdən gəlin aparıllar, vaqzaldadılar. Eşidiflər ki, sən burdasan, mana yazıflar ki, o aşığı bizə versinnər, üççə sahat. Onatan poyuz gələr, biz poyuznan gedəjiyik..

Durdux, faytuna mindik, getdik. Görüşdülər, elədilər. Dedilər ki, Aşıx Ələsgər, o ki, sənin bir söhbətini eşitmişik; dedi, darı əkifsən, nə iş görüfsən... Oncuğazı bizə söhbət elə, maşın gələjək. Bu, darı əkdiyi əhvalatı söhbət elədi... Qurtarannan sonra dedilər, maşın gəldi, poyuz. Bunnar da bizim muzdumuzu verdi. Bunnar çıxdı getdi.

Qayıtdıx gəldik. Gəldik ki, Annax bəy bir kağız göndərif ki, Urustam, aşıxları gətir, sünnət eliyəjəm. Bircə oğlu var. Burdan faytuna mindik, Xəlifəyə getdik. Xəlifəliyə gedəndə bir oğlan çıxdı qavağa, Mikayıl adında. Urustama bir kağız verdi. Dedi, ay Urustam, bu kağız sana çatajax. Urustam oxuyanda dedi: Ələsgər əmi, Annax bəydən kağız alıflar ki, bunnarın bu gejə sünnəti var, orda qal, savah başdıyajıyıx biz... Qaldıx gejə burda. Söhbəti başdadıx. Söhbət də Tafdığın oğlunundu.

**İ.Ələsgər.** Tafdıq hansı kənddən idi?

**Aşıq Ağayar.** Zaddan, Xəlifəli şenniyinnən. Söhbəti elədik, gejə nağıl qurtarannan sonra dedilər, anarkı otağa addıyın, Ələsgər baba, bura yığnaxdı. Sabah gərək toyda olasınız. Gedin, orda dincəlin. Getdik anarkı otaqda çay içdik, yaxşı irahat oldux. Mana da Dəli Alının oğlu Cahangir bir balaca xançal verif, bir beləcə xançaldı. Bunu böyrümnən açanda, bu

Tafdıx dedi, mana ver. Aldı belinə bağladı.

Savah duruf gəlmək məqamında dedim:

– A Tafdıx, mənim xançalımı gəti!

Dedi:

– Xançalı vermiyəjəm, oğul!

Dedim:

– Niyə?

Dedi:

– Onu maa sat!

Dedim:

– Əyə, yediyardı, mən xançal satan döyüləm; xançalı bəri gəti!

Dedi:

– Canın üçü vermiyəjəm!

Ələsgər əmim də faytundadı, minif faytuna. Dedi:

– Oğul, niyə gəlmirsən?

Dedim:

– Ələsgər əmi, mənim xançalımı vermir.

Dedi:

– A bala, niyə vermirsən?

Dedi:

– Ələsgər əmi, onu maa satın. Yox, vermiyəjəm!

Dedi:

– Yani, başını tutufsan!? (Oğurlanmış bir şey oğrunun, ya da başqasının əlində tutulanda, buna "oğurluğun başı tutuldu" deyirlər. – İ.Ə.)

Dedi:

– Hər nə isə, o mənim xoşuma gəlir, haqqını al!

Dedi:

– Əyə, gəl min faytuna!

Molla Əsgər varıdı. Bir yaxşı da adamdı. Molla Əsgərə dedi:

– Mola Əsgər, bu mənim şəyirdimin xançalını vermədi. Bu gejə gərək o bir balıya irast ola, savahnan Aşıq Ələsgəri burya gətirələr.

O (Molla Əsgər – İ.Ə.) da qayıtdı, tavaqqa elədi, vermədi.

Çıxdıx getdik. Yolda dedi, a bala, deyib-eləmə Annax bəyə-zada ha! Dedim, ay əmi, nə işimə qalıf.

Getdik, gejə söhbət elədik.

Bu gecə bu (Tapdıq – İ.Ə.) bir yığınağa düşsün. Uşağı-zadı döysün.

Əmisi dursun zad eliyəndə, bassın əmisinin boynunu qırsın, yıxsın böyrü üstə.

Onatan camahata xavar düşür. Camahat yığılır, bunu tutur... Bunu aparıllar, öy damıın dirəyinə beləcə dik sarıyıllar. Savahnan Molla (Molla Əsgər – İ.Ə.) deyir ki, ay camahat, o aşıx bizə dedi ki, o, bu gecə bir balıya irast olmalıdı. Gedin, onu gətirin!

Bir də baxdıq ki, dedilər, Ələsgər baba, səni çağırıllar eşdə. Durdu getdi. Mən söhbət eliyirəm. Qayıtdı gəldi, dedi:

– Oğul, mən gedirəm, bir-iki sahadatan gələjəm. Söhbət elə qonaxlara.

Bunu (Aşıq Ələsgəri – İ.Ə.) gətirillər, gəlillər. Gələndə görür ki, qapı elə-belə tutuşuxludu. Deyir, əşi, nədi? Deyəndə deyillər hal-nağıl belə-belə... Qapıyı aşdırır. İçəri girən kimi buna bir oysun. Salır, üzünə üfürür. Deyir (Tapdıq deyir – İ.Ə.):

– Ələsgər baba, qadan alım, məni burdan qutar!

– Əyə Tafdıx, qutarajam, qutarajam, qutarajam, arxeyin ol!

Deyir, bunu açdı yedəyinəcə aldı, çıxartdı qapıya. Qapıya çıxan kimi deyir, bir inək bunun qavağında qurvan kəsdilər. Camahat deyir, elə eşdə dağıtdı yetim-yesir. Onnan sonra gətirillər xançalı Aşıq Ələsgərə verillər. Pul da qoyullar, pulu götürmür. Deyir, mən pul tamahında döyüləm... Bunu (xəncəri – İ.Ə.) gətirdi gəldi. Biz də toyu elədik, o yannan bəricə qayıtdıx gəldik.

Ələsgərin belə-belə işdəri varıydı, oğul! Allah ona irəhmət eləsin!

**İ.Ələsgər.** Allah atana rəhmət eləsin!

**Aşıq AĞAYAR**

## BALIQLARIN TORDAN XİLAS OLMASI

Bəşir Məşədi Qasımı gülləynən vuranda, Əbdüləzimi də, Xəlil əmimi də bu işin üstündə günahlandırıb tutmuşdular. Onnar Kəvərin qalasında yatırdılar.

Bir gün dədəm (Aşıq Ələsgər – İ.Ə.) oldu, Məşədi əmim (Məşədi Salah – İ.Ə.) oldu, Məhəmməd əmim oldu, Nəcəf oldu, bir də mən oldum, Kəvərə – Xəlil əmimgilnən görüşməyə getdik. Piyada gedirik. Axşam tərəfi Kəvərə yetişdik. Görüş verdilər. O gejə Kəvərdə qaldıx.

Sabah hamınızın üzünə xeyiriknən açılsın! Sabah tezdən yola düşdük.

Dənizin (Göyçə gölünün – İ.Ə.) qırağıynan gəlirdik, gördük ki, ermənilər tor atıf. Torun çıxmağına az qalmışdı. Dədəm dedi ki, gözdüyək, tor çıxsın, balıq alax.

Qıraxda üç-dörd erməni dayanmışdı. Bunnara yaxınnaşdıq. Dədəm dedi:

– A kirva, bizə balıx verərsinizmi?

Bunnarın içində bir yoğun erməni varıydı. Bəlkə də, onnarın böyüyüydü, o dilləndi:

– Yox, verə bilmərik!

Dədəm dedi:

– Ay kirva, elə-belə istəmirəm; puluynan bizə beş-altı balıx ver!

– Heç qızıl da versən, balıx vermiyəjəm!

Dədəm bir cür oldu. Bu dəfə bir az kinayəli dedi:

– Ay erməni, bu tordan tək bircə balıx istiyirəm!

Erməni də belə kinayəli cavab qaytardı:

– Ay musurman, heç para balıx da vermiyəjəm!

Bu cavafdan sonra gördük ki, dədəm gənə ayağını saxlayır. Məşədi əmim dilləndi:

– Daha niyə dururux, gedək da!

Dədəm bir daşın üstündə əyləşib dedi:

– Bir az gözdəyin görək tora balıx çıxırmı.

Daha dədəmin sözünü çöyürən olmadı, gözdəməyə başladıx.

Suyun içindəki ermənilər "kaşahakaşa" ("kaşa" ermənicə "çək" deməkdir – İ.Ə.) bir çətinniknən toru qırağa çıxartdılar. Torda bir dənə də balıx yoxuydu. Tor cırılmış, balıqların hamısı xilas olmuşdu. Dədəm bunu görəndə, "Allah, çox şükür!" eləyib, bizə dedi:

– Di durun, gedəyin!

Torun cırılmasında ermənilər öz dillərində mırtıldaşıb, bir-birini günahlandırırdı.

Yolda dədəm gənə bir –iki dəfə şükür oxudu. Məşədi əmim dilləndi:

– Ay qağa, ermənilərin torunun cırılmasına niyə şükür eləyirsən?

– A Məşədi, torun cırılmağına şükür eləmirəm, ona şükür eləyirəm ki, hələ Allahın yanında diləyim tutulur.

**Aşıq TALIB**

## MUSANIN XORUZU

Çox pis vaxtıydı. Niqalay yıxılmışdı, təzə hökümət də hələ yoxuydu. Başdı-başınalığıydı. Hərədə bir tüfəng varıydı. Bir yanda bir güllə səsi eşidiləndə, deyirdilər, görəsən, kim kimi vurdu. Günortaya yaxınıydı. Şanavat (Bəşirin ikinci arvadı – İ.Ə.) çörək bişirirdi. Dədəm bir az aralıqda əyləşmişdi. Birdən çöldə bir güllə atıldı. Səs hamımızı səksəndirdi. Sonra qarışıq səs-küy eşidildi. Hamımız bərk qorxuya düşdük. Bəşir öydə yoxuydu. Güllə yaxında atıldığına görə ağlımıza gələn bu oldu ki, Bəşir kimisə vurdu. Dədəm bizi belə görəndə dedi:

– A bala, qorxmayın, elə bir şey yoxdu. Bəşir Musanın xoruzunun başına güllə atdı, güllə dəydi. Musa ağlıyır. Bəşirin acığı tutub. Durun qoymayın, Bəşir Musanı döyəcək...

Durub çölə çıxdıq ki, Musa ağlıyır, Bəşir də onu dannıyır ki, sən irazılaşdın, mən də atdım, daha niyə ağlıyırsan?!

Musa Bəşirin oğulluğuydu; Şanavatın oğluydu. 7-8 yaşı olardı. O, toyux-cücələrin içində bir xoruzu çox istiyirdi. Əlinə dadandırmışdı. Xoruzu çağıranda yanına gəlirdi. Ona görə buna "Musanın xoruzu" deyirdilər. Xoruz əldə bəsdəmə olduğunnan yaxşı kökəlmişdi. Bəşirin iştahınnan keçirdi ki, xoruzu kəsib yesin. Musuya deyir:

– Musa, gəlsən xoruzunu kəsib yeyək!

Musa deyir:

– Yox, kəsmiyək!

Bəşir genə uşağı dilə tutur:

– Musa, qoy xoruzunun başına bir güllə atım. Dəysə, kəsib yeyək, pul da sənin olsun. Dəyməsə, genə pul da sənin olsun, xoruzunu da kəsmiyək.

Xoruz xeyli uzaqdaymış. Musa fikirləşir ki, bu qədər aralıdan xoruzun başına güllə dəyməz, həm də pul mana qalar. Deyir:

– Onda xoruzun başına at ha!

Bəşir "yaxşı" deyir, tüfəngi üzünə götürür. Güllə açılan kimi xoruz partdıyır. Musa vay-şüvən qoparıb ağlamağa başdıyır.

Gördük ki, Bəşirin bərk acığı tutub, xoruzu da iki parça eliyib atıb. İstiyir ki, Musuyu döyə. Qoymadıq, yasalıyıb, bir az sakitdəşdirdik.

Xoruza baxanda gördük ki, güllə xoruzun gözünnən keçib.

**Aşıq TALIB**

## BƏDBƏXT İMAN

Bədbəxt İman (Aşıq Talıb Novrəs İman haqqında xatirələr danışarkən ona "bədbəxt İman", ya da İman bədbaxt" – deyirdi – İ.Ə.) təzə söz yazdığı vaxtlarıydı. Nəcəfin (Aşıq Nəcəfin) əlində İmanın sözləri yazılmış bir varax varıydı. Dədəm onu görəndə soruşdu:

– A bala, o nə kağızdı?

Nəcəf dedi:

– İmanın sözüdü.

– Oxu görüm.

Nəcəf sözü oxudu, dədəm qulaq asırdı. Bir də baxdıq ki, dədəmin gözlərindən yaş axır. İman təəccübnən soruşdu:

– Ay dədə, niyə ağlıyırsan?!

– A bala, sənin halına ağlıyıram.

– Niyə, mana nə olub ki?

– Bu təb axırda səni puç eliyəcək.

İman heç söz götürən döyüldü. Elə bil ki, dədəmin belə deməsi onun xətrinə dəydi, boz-boz cavaf verdi:

– Səndə olan təb heş kimdə yoxdu. Bəs səni niyə puç eləmədi?

– A bala, mənim də bədənimə bax, öz bədəninə də. Mənim bədənim səninkinnən iki-üç dəfə böyük olar. Bir də ki, mən həməşə öz bədənimin həkimi olmuşam, sən bunu eləmiyəjəksən; nə qədər çox işdəsəm də, istirahətimi də pozmamışam, sən bunu eləmiyəjəksən. Zamana bəd gəlir, sənin xasiyyətin zamana ilə tutmuyajax, bədbaxt olajaxsan. Ona görə ağlıyıram, – deyif, dəsmalıynan gözünü sildi.

Dədəmin dediyi düz çıxdı: axırda İman bədbaxt oldu.

**Aşıq TALIB**

## QURANIN VƏRƏQLƏRİ

İman Kəlbəcərin Bağırrı kəndində məktəb təşkil eliyib, uşaqlara Quran oxudurdu. İman özü çox oxumuşdu. Onun Qurannan, dinnən, şəriətdən bilmədiyi şey qalmamışdı. Heç bir molla, axund, qazı İmannan danışa bilməzdi.

Bir gün Bağırrıdan bizə qonaq gəlmişdi. Göyçədə işi varıydı. O günü

qaldı, səhər tezdən kənddərin hansınasa getdi. Gedəndə bizə dedi:

– İman xayış elədi ki, uşağın birinin kitabı yoxdu. Söyünquluağalıda, Molla Nəcəfdə bir Quran var; onu alıb versinnər, gələndə gəti. Sabah qayıdacam. Adam göndərin kitabı gətirsin, gedəndə aparım.

Dədəm də söhbətimizi eşidirdi. İstədik Söyünqulağalıya kitabı gətirməyə adam göndərək, dədəm dedi:

– A bala, hədər zəhmət çəkməyin, o Quranın uşaq oxuyası cüzləri tökülübdü. Ayrı kitab tapın.

Dedim:

– Ay dədə, nə bilirsən ki, tökülübdü?

Dedi:

– Bala, bilməsəm demərəm.

Kəndimizdən soraqlaşdıq, kitab olmadı. Dədəmə bildirmədik, Söyünquluağalıya adam göndərdik. Molla Nəcəf Quranı görsədib demişdi:

– Mən İmannan canımı da əsirgəmərəm. Bu kitab, aparırsınız aparın, əmə uşaq oxuyası vərəqləri tökülübdü.

Sonra Sarıyaqubdan bir kitab tapıb göndərdik.

**Aşıq TALIB**

## BORDAXLAR

Qonağımız, gəlib-gedənimiz çox olardı. Allah ölənnərinizə irəhmət eləsin, irəhmətdik dədəmin görüşünə hər yerdən gəlirdilər.

Bəşirdə belə bir xasiyyət varıydı: öydə təzə ət nə qədər olsa da, elə ki, qərib qonaq gəldi, gərək onun adına təzə heyvan kəsəydi. Odu ki, qış aylarında bordaxlar tayanın üstündə buraxma yeyərdi. Tezdən toyladan çıxardıb, tayanın üstünə buraxardıq, qarannıq basanda toylaya salardıq. Dədəm özü belə məsləhət bilmişdi.

Bir dəfə soruşduq ki, ay dədə, ələf həmən ələfdi, niyə toylada yedirtmirik? Demişdi ki, oğul, ələf həmən olsa da, çöldə yeyən heyvanın tamıynan içəridə yeyən heyvanın ətinin tamı bir olmur. Bu da var ki, tayanın üstündə yeyən heyvan elə hesab edir ki, çöldə otduyur, hansı ot xoşuna gəlirsə, seçib onu yeyir. Odu ki, qışda hava nə qədər sərt olsa da, heyvannarı tayanın üstünə ötürərdik.

Bir dəfə qışın oğlan vaxtıydı. Göyçəyə qalın qar düşüb, göydən töküb

yenə yağır.

Toylanın başında otağımız var. O vaxt belə otaqlara "toyla otağı" deyirdilər. Toyla otağı beləydi ki, onu yanacaxnan qızdır-maq lazım gəlmirdi; ara açıq olduğuna görə toyladan malın, heyvanın nəfəsi özü qızdırırdı.

Toyla otağında gecədən xeyli keçənə qədər söhbət elədik, gəlmişdən-getmişdən danışdıq. İrəhmətdik anam durub toylaya getdi, tez də qayıtdı, dedi ki, bordaxlar yoxdu.

Öydə külfət çox olanda belədi ki, o ona umuddu olur, bu buna umuddu olur, görüləsi iş yaddan çıxır.

Bəşirin bərk acığı tutdu, bizi danlamağa başdadı. Belə hesab elədik ki, it-pişik heyvannarı ürkütdü, kənddən çıxartdı. Yəqin ki, canavara irast gələcək, hamısını qıracaq. O ili canavar yaman çoxuydu, tez-tez kəndə hücum çəkirdi, itdəri aparırdı.

Camaatın çoxu yatmışdı. Əbdüləzimnən mən hərəmiz əlimizə bir ağac alıb kəndi hərrəndik, qonum-qonşudan soruşduq. Gördüm deyən olmadı. Qar izi basırdığına görə bordaxların hansı tərəfə getdiyini bilmədik. Kor-peşman öyə qayıtdıq.

Dədəm ağac çarpayının üstündə oturub qəlyan çəkirdi. Hamımız bordaxların fikrindəydik. Birdən dədəm dilləndi:

– A bala, narahat olmayın – Müseyib heyvannarı gətirir.

Müseyib bizim yaxın qonşumuzuydu, qohumluğu da varıydı.

Bəşir dedi:

– Bu vaxt Müseyib hardadı; heyvannarı harda görüb ki, gətirə də! O indi çoxdan yatıb.

Dədəm dedi:

– Müseyib Qaraqoyunnudan gəlir, bordaxlar da yolnan cər-gələnib Qaraqoyunnu tərəfə gedirdi. Yolda irast gəldi, qabağına qatıb gətirir.

Hamımız bir-birimizin üzünə baxdıq. Daha heç kəs dillənib bir sözü demədi. Bir az keçmişdi, bir də gördük ki, Müseyib otağın bacasınnan səsləndi:

– Ələsgər əmi, heyvannarı niyə dama salmayıbsınız!? Yolu əlinə alıb, Qaraqoyunnu tərəfə gedirdi, kəndin üstündə rast gəldim.

Müseyibə irazılıq eliyib, bordaxları toylaya saldıq.

**Aşıq TALIB**

## KEÇİLƏRİN TAPILMASI

1918-ci ildə daşnaxlar Göyçəni viran elədilər. Qaçannarın bir hissəsini dağlarda boran qırdı. Salamat qalannar üç il orda-burda qaşqın yaşadı, çox əziyyət çəkdi.

Şura höküməti qurulannan sonra Göyçənin adamları öz yerrərinə qayıtdılar.

Məmməd əmimgil Göyçəyə qayıdanda, Kəlvəcərri dostları ona üç keçi vermişdilər ki, uşaxları süddən korrux çəhməsinnər.

Hər yeri ot basmışdı, yarıf yerimək olmurdu. Keçiləri qapıdan ötürürdülər, özdəri gedif ottuyuf, gənə qayıdıf qapıya gəlirdilər.

Gündə üç dəfə sağılırdılar...

Bir gün keçilər qapıya gəlmədi. Məmməd əmim axşama qədər gəzdi, tapa bilmədi. O gecə keşdi, səhər tezdən bir də örüşü axtardı, tapa bilmədi.

Gün xeyli qalxmışdı. Allah keçənnərinizə irəhmət eləsin! İrəhmətdik dədəm damın üstündə altına bir mütəkkə qoyub əyləşmişdi.

Bir də gördük, Məmməd əmim yorğun halda gəldi.

– Salam əleyküm!

– Əleyküməssalam!

Bir az durannan sonra üzünü dədəmə tutuf dedi:

– Ay qağa, axı keçiləri tapa bilmədim.

Dədəm dedi:

– Mən neyləyim, tapa bilmədin! Məni çoban ha tutmamışdın, mənnən xəbər alırsan?! Yaxşı gözdüyəydin, itmiyəydi.

Dədəm belə deyəndə Məmməd əmim birtəhər oldu. Daha bir söz demədi. Tənbəki qutusunu cibinnən çıxartdı, bir papuruz bükdü, yandırdı, damağına aldı. Papuruzdan bir-iki nəfəs çəkdi, sonra fikrə getdi. Elə bil ki, dədəmin belə deməsi onun xətrinə dəymişdi.

Gördüm ki, dədəm də fikirrəşir. Gecdən-gec dilləndi:

– Durma, get Zoda (Zod kəndi Ağkilsəyə çox yaxındır. Örüşləri də bir-birinə söykəklidir. Bu kəndin adamları bir-birini yaxşı tanıyır – İ.Ə.), Sarı Allahverdinin oğlu Alını tap. Keçiləri o aparıf. Əyər boynuna almasa, get İnəkdağına (İnəkdağı Zodun o biri tərəfindəki kəndin adıdır – İ.Ə.). Alı keçiləri İnəkdağında filankəsə (adı yadımda döyül) verif. Keçilər bu sahat kəndin əyağında təzə tikilmiş bir damdadı. Qapısı hələ asılmıyıf, eninə qoyuflar ki, keçilər çıxmasın.

Məmməd əmim sözü daha çöyürmədi, birbaş Zoda getdi. Axşamtərəfi bir də gördük ki, keçiləri qabağına qatıf gətirir. Gəlif çatanda soruşdux ku, necə tafdın? Başdadı nağıllamağa:

– Zoda getdim. Alı öydə yoxuydu. Dedilər, kəndin içindədi. Bir az gözdədim, çıxdı. Əlimnən tutuf, əhvalımı soruşdu. Mən irazılıx eliyənnən sonra dedim:

– Alı, mənim üç keçim varıydı. Dünən onnar otduya-otduya sizin tərəflərə gəlif. Bəlkə, sana irast gəlmiş ola?

Alı dedi:

– Yox, mana keçi-zad irast gəlmiyif.

Dedim:

– Bəlkə, başqasının apardığını görmüş olasan? Əyər görüfsənsə de, muştuluğunu verəjəm.

Alı hürüt-mürüt dandı ki, keçilərdən qəti xəbərim yoxdu.

İstədim, qayıdıf kəndə gələm. Bir də fikirrəşdim ki, kənddə qağam soruşacax kı, İnəkdağına da getdinmi? Onda nə cavab verəjəm?! Yaxşısı budu İnəkdağına da get. Taparam, taparam, tapmaram da tapmaram.Yolu yarı eləmişəm.

Yorğun olmağıma baxmadım, yavaş-yavaş gedif İnəkdağına çatdım. Kəndin əyağına yetişəndə, qağamın dediyi kimi, təzə tikilmiş bir öy gördüm. Doğrudan da, öyün qapısı hələ asılmamışdı. Qapıyı içəridən eninə söykəmişdilər. Yaxınnıxda 3-4 uşaq varıydı. Biri dedi:

– Ay dayı, keçilərin dalıncax gəlifsən?

Mən dedim:

– Hə, bala, keçilərin dalıncax gəlmişəm. Keçiləri kim gətirif?

Uşaq dedi:

– Zoddu Alı dayım gətirif. Budu, burdadı.

Dama baxanda gördüm ki, keçilərin qabağına ot qoyuflar, yeyir. Qapıyı kanara itələdim, keçiləri çıxartdım. Həmən uşağa da bir manat muştulux pulu verif, yola düzəldim.

Yuxarıdakı öylərdən tamaşa eliyənnər varıydı. Heç kəs gəlif demədi ki, bu keçiləri harya aparırsan.

**Aşıq TALIB**

## AŞIĞIN HƏKİMLİYİ

Dədəm yüzü keçəndə də qocalmamışdı. Gözü işıqdan getməmişdi, qəddi əyilməmişdi, qulağı ağırlaşmamışdı. O, əlinə çəlik almırdı. Bunun səbəbini soruşanda deyirdi ki, adam gərək həməşə özünü gözləsin. Mən özümün həkimi olmuşam.

O, başını ülgüclə qırxdırar, təmiz geyinər, tez-tez yuyunar, yeməyinin vaxdını keçirməzdi. Yeməkdən söz düşəndə deyərdi: – Nə qədər ləziz yemək olsa da, gərək yeyəndə elə yeyəsən ki, süfrədən əlini çəkəndə, bir neçə tikə yeməyə iştahan qala.

O, gündə üç-dörd dəfə əlinə qəlyan götürsə də, tüstünü ciyərinə çəkmirdi.

Qonşuluqda Bayram adlı bir dəllək varıydı. Dədəm onu çağırtdırar, əliynən gösdərdiyi yerdən başını ülgüclə çərtdirər və başını aşağı tutardı. Xırda fincan boyda bir balaca mis kasa varıydı: o dolana qədər qan axannan sonra, başını yuxarı qaldırardı. İldə iki dəfə – bir yazda, bir də payız girəndə beləcə qan aldırardı. Bunun səbəbini soruşanda rəhmətlik deyirdi ki, belə olanda qan təzələnir, adamın canı sağa çıxır.

**Aşıq TALIB**

## YANMAYAN EV

Camaat Göyçədən qovulandan sonra ermənilər kəndləri talamış, evləri yandırmışdı. Göyçəlilər Azərbaycanın ayrı-ayrı yerlərində yaşayırdılar. Bizim külfətimiz də Kəlbəcərin Qanlıkənd kəndindəydi. Qaçqınlar bir-birinin vəziyyətindən tez-tez hali olurdular. Allah keçənlərinizə rəhmət eləsin! Dədəmin də yanına göyçəlilərdən gəlib-gedənlər çox olurdu.

Göyçə qaçandan bir az sonra Ağkilsədən kim idisə (huşumdan çıxıb) bizə gələnlər varıydı. Bir az söhbət eləyəndən sonra, Ağkilsə kəndinin də tamam yandırıldığını söylədilər və bizim evin yanmasına təəssüfləndilər.

Dədəm dedi:

– Mənim evim yanmaz!

Gələnlərdən biri dedi:

–Axı, gözümüzlə gördük. Kənddəki evlərin hamısı yanırdı. Sizin də evin bacasından tüstü-alov ərşə bülənd olmuşdu.

– Gözünüzlə görsəniz də mənim evimi erməni yandıra bilməz!

– Axı niyə yandıra bilməz?! O evin də üsdü ağacdan deyil?!

Dədəm bir az da uca səslə dedi:

– O evin ağaclarını ağzım oruc, yayın isdi günlərində meşədən minbir əziyyətlə gətirmişəm. O ev yanmaz!

Söhbət bununla kəsildi.

Göyçəyə qayıdanda gördük ki, kənddə salamat qalan bircə bizim evdi. Dirəklərin dördünün də dibində qalaqlanan qamış külü gösdərdi ki, evin yanması xəbərini verənlər yalan deməyiblər.

Belə şiddətli alova tutulan evin od almaması hamını heyrətləndirdi.

**Aşıq TALIB**

## AŞIĞIN QOCALIĞI

Ölən gününə qədər dədəmin nə qəddi əyilmişdi, nə gözü işıxdan qalmışdı, nə də qulağı ağırraşmışdı.

Bir dəfə öyün o biri başında paltar tikirdim. Dədəm də öyün o biri başında, ojağın yanında əyləşif qalyan çəkirdi. Bişmək üçün ojağın üsdünə tavada süd qoymuşdum. Birdən dədəm dedi ki, a qızım, süd bişib, daşajax. Tez əyağa durdum, südü ojağın üsdündən götürdüm. Qayıdanda iynəni tapmadım: sapdan çıxıb, haryasa düşmüşdü. Parçanı o tərəf-bu tərəfə çöyürdüm, sonra əyağa duruf, yeri axdarmağa başladım. Dədəm soruşdu:

– A qızım, nə gəzirsən?

Dedim:

– Ay dədə, iynə sapdan çıxıf itif.

Dədəm diqqətnən bu tərəfə baxıb dedi:

– A qızım, odu ha. Dirəyin dibinə düşüf.

Dirəyin dibinə baxanda gördüm ki, iynə ordadı. Mən bir addımlıxda görə bilmədiyim iynəni dədəm 6-7 addımlıxda görmüşdü.

Birində yaz vaxdıydı. Əsliynən baravar öyden xeyli aralı olan xırman yerində pencər yığırdıx. Əsli qonşuluğumuza ərə gəlmişdi. Yaxınnığımızda heç kəs yoxuydu. Cavannıxdı da. Bir çoxlarınnan qıyvat eliyirdik, kimidən gileylənirdik, ağlımıza gələni danışırdıx...

Dədəm damın üsdündə əyləşif isdirahət eliyirdi. Çox astadan, pıçıltıynan danışırdıx ki, dədəm eşitməsin.

Birdən dədəm məni çağırıf dedi:

– A qızım, gəl mana bir az su gətir.

Mən gedif öydən bir parç su gətirif dədəmə verdim. Sudan azca işdi, parçı mana qaytaranda dedi:

– A qızım, bir də elə axmaq-axmaq danışmayın!

Dillənif heç bir söz deyə bilmədim. Halım hal döyüldü...

Əslinin yanına qayıdanda danışdığımızı dədəmin eşitdiyini dedim. Əsli də mənim kimi çox peşman oldu, özünə qarğamağa başdadı: – Allah, burya gələndə qıçım qırılaydı! Allah, dilim lal olaydı!.. Kişinin yanında necə biyavır oldux!

Təzədən nə eləmək olardı?! İş işdən keçmişdi. Bizi bircə şey təəccüfləndirirdi ki, bu qədər aralıdan bizim pıçıltıynan olan danışığımızı dədəm nejə eşidə bilmişdi?

**Zinyət XƏLİLQIZI**

## AŞIĞA YARDIM

Mən o vaxdı kənd şurasının sədri işləyirdim. Vəzifəmlə əlaqədar, tez-tez Ağkilsəyə yönüm düşürdü. Hər dəfə gələndə Aşıq Ələsgərə baş çəkməyi yaddan çıxarmırdım.

Camaatın vəziyyəti ağırıydı: qəhətlik, bahalıq...

Aşıq Ələsgər çox qocalmasa da, aşıqlıq eləmirdi. Saz çalmaqdan çoxdan əl çəkmişdi. Onunla görüşəndə dünyanın gəlişindən-getmişindən söhbət edərdik. Belə söhbətlər mənə bir saz məclisi qədər xoş gəlirdi.

1924-cü il idi. Bir gün tanımadığım iki nəfər idarəyə gəldi. Bunlar dövlət qulluqçuları idilər. Onları İrəvandan göndərmişdilər. Söhbətlərindən məlum oldu ki, xalqın, xüsusən kasıbların vəziyyəti ilə tanış olmağa gəliblər. Yanlarında xırda bir çemodan var idi.

Qonaqları evə apardım. Çay-çörəkdən sonra dedilər ki, Ağkilsəyə – Aşıq Ələsgərlə görüşə getməliyik. Hökumət onu İrəvana çağırıb. Bu çemodanda parça və bir dəst paltar var. Onu Aşıq Ələsgərə verməliyik.

Dedim:

– Ələsgər əmi, hökumət səni İrəvana isdəyib.

Kişi bir az duruxandan sonra dilləndi:

– Oğul, hökuməti sağ olsun, bilirəm nədən otrü isdəyib. Daha o vaxdım

deyil. Yüzü keçmişəm. Budu-əlini ağzına tərəf aparıb, barmağını dişinə vurdu, – dişlərim oynuyur, huşum da əvvəlki kimi gətirmir.

Dişlərinin oynaması, huşunun gətirməməyi bəhanə idi. O, sağlam və gümrah görünürdü. Özünün İrəvana getmək meyli yox idi. Biz ona göndərilən paltarı və parçanı verib getdik.

**Rəhim HACIYEV**
***Göyçənin Zod kənd sakini***

## AŞIĞIN VƏFATI

Qış hələ çıxmamışdısa da, hava xoşuydu. Kilsənin günəvar tərəfində söhbət eliyirdik. Birdən qardaşım Bilal gəldi ki, dədəm Bəşiri çağırır. Soruşduq ki, nə işi var? Dedi ki, deyəsən, dədəm naxoşduyub.

Hamımız Bəşirnən getdik. Gördük ki, dədəm ağac çarpayının üsdündə əyləşib, mütəkkəyə dirsəklənib, qabağında da bir istəkan çay var. Amma bir az beykefdi.

Bəşir soruşdu:

– Ay dədə, məni nenirdin?

Dədəm dedi;

– Oğul, mən öləcəm. İndi köhnə qurtarıb, təzə də hələ çıxmıyıb. Ehtiyatınızı görün ki, qonağın yanında xəcalət olmuyasınız.

Hamımız bir-birimizin üzünə baxdıq. Dədəmin nəyi var ki, belə deyir?! Təəccübləndiyimizi biləndə dedi:

– Mənim vaxdım hələ Qannıkənddə olanda tamamıydı. Allahdan aman isdədim: sən məni əziz yaradıbsan, dünyanın belə dar vaxdında bu qürbət eldə sən məni urvatsız eləmə. Allahımnan irazıyam ki, mənim diləyimi tutdu, bu qədər mana möhlət verdi. İndi o vaxtdan 6-7 il keçir. Heç kəs ölümnən yaxa qurtara bilməz. İndi öz elimin-günümün içindəyəm. Belə ölüm toy-bayramdı.

Hərə bir yannan yenə dilləndi:

– Ay dədə, Allaha şükür, sənin nəyin var ki, belə deyirsən?

Dədəm gülümsündü, dedi:

– Oğul, düz deməyinizə, səhv deməyinizə gülmürəm, ona gülürəm ki, mana ürək-dirək verirsiniz. Öləcəyimi bilməsəm, bu sözü heç deməzdim. Siz ehtiyatınızı görün. Ölərəm, ölərəm; ölmərəm də ölmərəm.

Dədəmə heç kəs ölüm yovutmasa da, onun vəfat edəcəyinə inandıq. Çünki dədəm nə desə, elə də olurdu.

Soraqlaşıb öyrəndik ki, Zərzibil kəndinə satmaq üçün yağ-bal gətiriblər. Gedib ordan yağ-bal alıb gətirdik.

Dədəm soruşdu ki, a bala, yağ-balı kimnən aldınız? Dedik ki, Kəlbəcərdən Hacı Şaməmmədgilin adamları gətirmişdi. Onnardan aldıq.

Dədəm dedi:

– A bala, Allah yetirib. Onnarın məhsulu çox təmiz olur.

O günün sabahı dədəmin öləcəyi xəbəri kəndə yayıldı. Qohum-qardaş, tanış-biliş gəlib ona baş çəkirdi. Doğrudan da, dədəmin əhvalı dəyişmişdi. Çörəyə-xörəyə iştahı yoxuydu.

Murad oğlu Cəmil də dədəmin yanına gəlmişdi. O, Kəlbəcərin Dəmirçidam kəndinnəniydi. Köçüb Ağkilsəyə gəlmişdi. Biznən qonşuydu. Cəmil cibinnən bir nar çıxartdı, dədəmin yasdığının yanına qoydu. Məşədi əmim (Məşədi Salah – İ.Ə.) narı qırıb nəlbəkiyə dənələdi, dədəmin qabağına qoydu. Dədəm xayiş elədi ki, narın dənələrinnən buradakılara paylayın. Heç kəs razı olmadı. Dədəm dedi:

– Əgər bilsəm ki, o nar məni bu yoldan qaytaracaq, heç kəsə verməərəm, deyərəm, gedin yenə tapın gətirin. Allahdan çox irazıyam ki, son nəfəsimdə ürəyim isdədiyini mana yetirdi. Burdakıların hamısı o nardan dadmasa, mən də dilimə vurmayacam.

Dədəm belə deyəndə, burdakı adamların bəzisi iki, bəzisi isə bir dənə götürməyə məcbur oldu. Bunnan sonra dədəm də nardan yedi. Hamı məyus oturmuşdu. Dədəm Bəşirə üzünü tutub dedi:

– Oğul, gəlsənə bir Quran oxuyasan!

Bunun nə demək olduğu aydınıydı. Hamının ürəyinnən bir sızıltı keçdi. Dədəm bizim narahat olduğumuzu biləndə dedi:

– Diri üçün də Quran lazımdı.

Bəşir Quran oxumağa başladı. Dədəm tez-tez salavat çevirirdi. Məşədi əmim, Məmməd əmim xəlvət-xəlvət ağlayırdılar. Bəşir də dədəmin öldüyünü yəqin etmişdi. Bir azdan onu da yaş boğdu, qəhərləndi, oxuya bilmədi. Tez Molla Nağını çağırdılar. Molla Nağı yaxın qonşumuzuydu. Molla Nağı gəldi. O bir əşrə Quran oxuyub tamam eləyəndə dədəmin də ömrü tamam oldu. Onun salavat çevirən əli üzündə qaldı.

**Aşıq NƏCƏF**
***Aşıq Ələsgərin qardaşı oğlu***

## AŞIĞIN ŞƏKLİ

İndi dərsliklərdə, ayrı-ayır mətbuat səhifələrində Aşıq Ələsgərin müxtəlif cür şəklinə rast gəlirik. Bunların hansı Aşıq Ələsgərin öz şəklidir? Cavabı budur: heç biri. Bu şəkilləri rəssamlarımız sonradan xəyalən yaradıblar.

Hamı təəssüf hissi keçirir ki, 1926-cı ilə qədər yaşayan böyük el nəğməkarının şəkli yoxdur. Aşıq Ələsgərin şəkli çəkilibdirmi? Bu suala onun oğlu Aşıq Talıb belə cavab verdi:

– Aşıq Ələsgərin şəkli iki dəfə çəkilibdir; biri Dəli Alı yaylaqda bacısı oğlu Zeynalabdına toy eliyən vaxtı, biri də əmim Xəlilnən qardaşım Əbdüləzim tutulan vaxtı Tiflisdə.

İstər-istəməz, yenə Aşıq Talıba sual verməli oluruq:

– O şəkilləri niyə saxlamayıbsınız?

– Şəkillər heç bizim əlimizə çatmayıb.

– Bəs necə olub?

– Dəli Alı toy eliyəndə çox yerdən qonağı varmış. Özü qaçaq olsa da, çar çinovniklərinnən də məclisdə iştirak edirmiş. Aşıq Ələsgər toydan qayıdanda deyirdi ki, Peterburqdan gələnnər Dəli Alının, ayrı-ayrı qaçaq dəstələrinin, həm də biz aşıqların şəkillərini çəkdilər.

– Bəs Tiflisdə çəkilən şəkil necə olub? Xəlili, Əbdüləzimi niyə tutmuşdular?

Aşıq Talıb təfsilatı ilə hadisəni nağıllamağa başladı:

– Keçmiş gündü, yadımnan çıxıb. 1915, ya da 1916-cı iliydi. Türkiyə sərhəddinə işdəmək üçün fəhlə yığırdılar. Məşədi Qasım kəndimizin koyxasıydı. O bir neçə adam cəm eliyənnən sonra Əbdüləzimi də onnara qatmaq istiyir ki, fəhlə göndərsin. Əbdüləzim onun sözünə baxmıyanda onu qamçıynan döyür.

Ot biçininin vaxtıydı. Camahat səhər tezdən kənddən yaylağa ot biçməyə gedir, axşam işdən kəndə qayıdırdı. Bəşir yaylaqda qalırdı. Kənddən gedənnərdən biri Məşədi Qasımın Əbdüləzimi döydüyünü Bəşirə xəbər verir. Bəşir ovanın əyağına – yola enir, gözdəməyə başdıyır. Kənddən gələn adamlar burdan keçirmiş. Məşədi Qasım gələndə Bəşir onu saxlayır, deyir:

– Məşədi Qasım, mən kənddə neçə il koyxa olmuşam; heç sizin adamlardan birinin xətrinə dəymişəm?!

Məşədi Qasım görür ki, çox pis yerdə axşamlayıb. Boğazı quruyur, dili tutar-tutmaz deyir:

– Yox, dəymiyibsən.

– Bəs sən Əbdüləzimi niyə döyübsən?!

– Döyməmişəm, tək bircə qamçı vurmuşam.

– Onda baxtını sına; mən də sana bircə güllə vuracağam.

Ordakı adamlar istiyillər ki, qoymasınnar, ona qədər Bəşirin gülləsi Məşədi Qasımı atdan yerə salır. Bəşir istiyir ki, bir güllə də vura, Allah irəhmət eləsin, irəhmətdik Məşədi Cabbar tüfəngin qabağına durub deyir: "Bəşir, yara bir". Yanı demək istiyir ki, bu işin sonrası var; selisti, məhkəməsi var. Bəşir Məşədi Cabbarın sözünü eşidir. Sonra atını minib aralaşır.

Kəndə xəbər gəldi ki, Bəşir Məşədi Qasımı öldürüb. Bir də gördük ki, Məşədi Qasımı arabaya qoyub kəndə gətirdilər. Güllə Məşədi Qasımın ortasınnan keçmişdi, əmə ölüm halı yoxuydu. Hamı gedib ona baş çəkirdi. İrəhmətdik dədəm də gedib Məşədi Qasıma baxdı. Öyə qayıdanda dedi ki, onun sağalmağına güman var. Dədəm özü Hacı Nağının dalınca getdi.

Hacı Nağı Göyçənin Qannı kəndinnəniydi. Çox bilikli həkimiydi. O, çox belə ağır yaralılara, sağalmaz xəstələrə əlac eləmişdi. Dədəm Hacı Nağını gətirdi. Hacı Nağı Məşədi Qasıma baxannan sora onu sağaldacağına söz verdi. Hökumət adamları hadisəni eşitdi, gəlib camaatı sorğu-suala tutmağa başdadılar. Məşədi Qasımgilin adamları belə selist verdilər ki, Xəlilnən Əbdüləzim Məşədi Qasımın qabağını kəsdi, Bəşir də gülləynən onu vurdu…

Xəlil əmimnən Əbdüləzimi tutdular. Bir müddət Kəvərin qalasında saxlıyannan sonra Tiflisə göndərdilər. Bəşiri tuta bilmədilər. O, qaçaq oldu.

Hacı Nağı az bir zamanda Məşədi Qasımı sağaltdı. Məşədi Qasımgilnən barışdıq… Yazıq dədəm çox çalışdı. Şahidlər sözlərini dəyişdilər. On bir aydan sonra Tiflisdə məhkəmə oldu.

Məhkəmə zamanı dədəm özü də Tiflisə getmişdi. Dədəm də, kəndimizdən məhkəməyə gedən adamlar da gələndə danışırdılar ki, dustaqlar buraxılannan sonra birlikdə şəklimizi çəkdilər.

Hayıf ki, Dəli Alının keçirdiyi toy məclisi zamanı çəkilən şəkildən alıb gətirmədikləri kimi, Tiflisdə çəkilən şəkildən də bircə dənə belə gətirməmişlər.

**Aşıq TALIB**

## ŞAİR, AŞIQ HAQQINDA

1955-ci ildə Səməd Vurğun İstisuya gələn vaxdı Göyçədən bir neçə adam onunla görüşə getmişdi. Mən də onların arasında idim. Açıq havada bir yaxşı məclis qurulmuşdu. Şəmşirdən başqa Kəlbəcərin cavan aşıqlarından da vardı.

Hamımızın nəzəri Səməd Vurğunda idi. Onun hər bir hərəkətlərini izləyirdik: elin bu sadə oğlunda qeyri-adilik axdarırdıq...

Şairin xahişi ilə aşıqlardan biri Aşıq Ələsgərin "Dağlar" şeirini oxuyurdu. Səməd Vurğun bir papiros yandırıb çəkməyə başladı. O, oxuyan aşığa yox, qarşıdakı dağlara baxırdı. Arabir gözləri qıyılırdı. Mana elə gəlirdi ki, aşığın nə dediyini eşitmir. Yox, eşidirdi. Aşıq hər bəndi tamam eləyəndə başını tərpədib, sanki aşığın dediyini təsdiq eləyirdi. Aşıq oxuyub qurtarandan sonra, Səməd Vurğunun "Dağlar" şeirini oxumağa başladı. Səməd Vurğun buna etiraz edib dedi:

– Aşıq qardaş! Ələsgərin "Dağlar" şeirindən sonra ayrı "Dağlar" şeiri oxumazlar.

Şairin nə dediyi hamımıza aydın idi. Biz Səməd Vurğunun şeirini təriflədik və aşığın davam etməsini xahiş elədik. Aşıq şeiri tamam edəndən sonra Səməd Vurğun dedi:

– Düzdü, biz də yazırıq, amma elə olur ki, dörd misra yazanda bəzən ikisi xoşumuza gəlmir, pozub, özgə misra yazırıq. İndiki şairlər nə yazsa, elmin gücünə yazır. Bizim şairlərin yazdıqları yerin dərin qatlarından çıxarılmış artezian suyuna, yazı-pozu bilməyən Ələsgərin şeirləri isə o dağların sinəsindən təbii qaydada axıb gələn bulaqlara bənzəyir. Mən onun belə qoşmalarının bədahətən yaradıldığına şübhə etmirəm. Onunku Haqq vergisidir.

**AŞIQ NƏCƏF**
***Aşıq Ələsgərin qardaşı oğlu***

## AŞIĞIN ŞAGİRDLƏRİ İLƏ SÖHBƏT

**İ.Ələsgər.** Ağayar dayı, Aşıq Ələsgər formaca nə təhər adam idi, nə təhər geyinirdi?

**Aşıq Ağayar.** O bir hündür adamıdı. Enni. Bax suratdar belə. Ətdi, dolu adamdı. İndi şikli-zadı var, yox...

Geyimi qara, uzun çuxa, qara şal.. Məndulə şalvar, corab, məst. Çəkmə-zad geyməzdi. Bu cisbir bir papax, armıdı, bax, belə armıdı papax... Elə geyinirdi. Onun geyimi eleydi.

**İ.Ələsgər.** İri adamıydı, hə?

**Aşıq Ağayar.** İri adamıdı. Ələsgər babam kimi, hələ nə qədər yaşamışam, yoxdu elə adam.

**İ.Ələsgər.** Onun xasiyyəti necə idi?

**Aşıq Ağayar.** Xəsiyətini danışma. Xəsiyəti, yanında qonaq olan, yoldaş olan eləcə güləjeydi. Zarafatcıl. Özü də heç artıq tamah döyüldü. Allah ona irəhmət eləsin! Biz kəndin içində, o idaranın yanında (Zod kəndinin ortasındakı kolxoz idarəsinin binasını nəzərdə tutur – İ.Ə.) küllükdə qalmışdıx. Söyünün (Hüseyn onun vaxtsız vəfat etmiş böyük oğlu idi. – İ.Ə.) də canı üçü, İslamın da canı üçü, Məzrədən (Məzrə Göyçədə kənd adıdır. –İ.Ə.) yüz manat pul yığdıx (şənlik məclisi zamanı aşıqlara yığılan pulu nəzərdə tutur. İ.Ə.) İsaq oğlu Orucun öyünnən. Dedi: – Adamın varmı? Noyruzəli addı bir dostumuz varıydı, dedim var. Qazağa gedirik. Yeddi tümən Noyruzəliyə verdi. Dedi ki, bunu apar Xəlil kişiyə (Aşıq Ağayarın atası – İ.Ə.) ver. Denən, dördünü Bəşirə versin, üçünü də özü saxlasın. Aşıq Alişanın (o, Göyçənin Qızılbulaq (Çaxırlı) kəndindən imiş. – İ.Ə.) yanında altı iliydi, ordaydım. Həzrət Abbas haqqı, əynimin paltarınnan başqa, mana heç-zad vermirdi.

Noyruzəli gətirir verir. Dədəm gətirir qırxını Bəşirə verir. Qayıtdım gəldim ki, o otuz manatnan daşı, ağacı hamısını alıb burya töküf. Bax, burya çıxmağımızın da səbəbi odu. Ona Allah irəhmət eləsin qəni-qəni!

Getdik Qazağa .... Məhərrəmliyə qırx gün qalmışdı. Otuz beş gün hərrəndik. Onnan sonra sazın simciyəzini sökdü.

Gətdi bir dəs paltar mana, bir dəs paltar arvada aldı, bir dəs də dədəmə aldı. Üççə adamıx. Onnan sonra gətdi mana yüz manat pul da verdi. Bu pulun otuz manatını cibimə qoydum; yeddi tümənini, əmim Məhəmməd varıydı, o da balamançıydı, Aşıq Qasımnan (Aşıq Qasım Göyçənin

Zod kəndindən idi – İ.Ə.) getmişdi. Buna verdim ki, qoy, əmimdi, cibinəjə qoysun. Burda qonşuydux.

Sabahısı (səfərdən qayıdan gündən bir gün sonra nəzərdə tutur – İ.Ə.) dədəmə dedim:

– Ay dədə, Məhəmməd əmimdə yeddi tümən pul var, get, onu gətir.

Gedəndə deyir ki, pul nədi, zad nədi, ağlına gələni danışırsan!? Məhəmməd əmim o pulu vermədi, elə o aj da öldü.

Sonra eşitdi (Aşıq Ələsgəri nəzərdə tutur – İ.Ə.) burya (Aşıq Ələsgərin evini nəzərdə tutur – İ.Ə.) gələndə dedi:

– Ay oğul, mən o pulu sana verdim ki, bax belə gələsən. Yani ürəhli. Mən cibimə qoyuf gətirsəm, fikir eleyəjəydin ki, əyə, görən mana bir şey verəjək, verməyəjək. Mən onu verdim ki, qoy belə ürəhli getsin. Saxlıya bilmirdin, deyəydin, Ələsgər baba, ala, bu pulu da saxla ...Allah irəhmət eləsin! O eleydi.

**İ.Ələsgər.** Ağayar dayı, Aşıq Ələsgərin şeirlərini oxuyanlar, ziyalılar, Bakıdakı alimlərin əksəriyyəti onun savadsız olduğuna inanmır. Doğrudanmı, Aşıq Ələsgər savadsız idi?

**Aşıq Ağayar.** Əyə, canın üçü, Həzrət Abbas haqqı, heç qolunu da çəkə bilmirdi, a kişi!

**İ.Ələsgər.** Heç oxumaq bilmirdi?

**Aşıq Ağayar.** Əyə, vallah, yox, a bala!

**İ.Ələsgər.** Bəs ona məktub gələndə, onu kim oxuyurdu?

**Aşıq Ağayar.** Nə bilim... Səni kimisinə oxudurdu, səni kimisinə. Oxuyan o qədər varıydı ki.

**İ.Ələsgər.** Deməli, nə yazmaq bilirdi, nə də oxumaq.

**Aşıq Ağayar.** Əyə, canın üçü yox.

**Aşıq Talıb.** Sonra Bəşirə oxudurdu.

**Aşıq Ağayar.** Sonra bəlkə, Molla Nağıya oxudeydi, Molla Cabbara oxudeydi (Molla Nağı və Molla Cabbar Ağkilsə kəndindən imiş – İ.Ə.) İrəhmətdik, əyə, yoxuydu ey. İnanmıllar da.... İnanmıllar. Alimiydi o.

**İ.Ələsgər.** Dədə, sən də babanın yazmağını, oxumağını heç görmədin?

**Aşıq Talıb.** Mən babanın savadsızlığına özüm şahidəm ki, baban savadsızıydı.

**İ.Ələsgər.** Bəs qıraq yerə məktub göndərəndə kim yazırdı?

**Aşıq Talıb.** Qıraq yerə məktub göndərəndə Bəşir yazırdı; qıraq yerdən məktub gələndə Bəşir oxuyurdu.

**İ. Ələsgər.** O ki oxumağın qədrini bilirdi, necə olub ki, oxumayıb?

**Aşıq Talıb.** Atası o vaxt kasıb oluf. Bir inək verməsən, Qurannan çıxmırdı bir adam. Molla bir inəyə bir Quranı çıxırdı. Ona görə qüvvəsi çatmamışdı.

**Aşıq Ağayar.** Mollalar da ki, verməsən, oxutmurdu.

**İ.Ələsgər.** Bəs onun sözlərində elə şeylər var ki, oxumamış adam onu çətin bilər, onları haradan öyrənmişdi?

**Aşıq Talıb.** Onu hardan öyrənibsə, onu biz deyə bilmərik.

**Aşıq Ağayar.** Onu verən verif.

**Aşıq Talıb.** Bakıda qeybi bilən bir oğlan var, adını bilmirəm (Tofiq Dadaşovu nəzərdə tutur – İ.Ə.) necə ki, o adam bilir, Ələsgər də elə bilirmiş.

**Aşıq Ağayar.** Hə, hə.

**Aşıq Talıb.** Qardaşının keçiləri itif. Onun yerini deyif, gedif gətirif-lər... Qalaboynunda (Kəlbəcər rayonunun Qanlıkəndini nəzərdə tutur. – İ.Ə.) inəyin üçgünlük buzoyu qaçıf, itif meşədə, üç gündən sonra deyif ki, a bala, buzoy filan yerdədi, gedin gətirin. Gedif ordan tapıf gətirmi-şik... Bundan biz inanırıx ki, Ələsgərin ayrı cür görücülüyü oluf.

**Aşıq Ağayar.** Hə.

**İ.Ələsgər.** O, kitaf oxutdurub qulaq asırdımı?

**Aşıq Talıb.** Bəlkə də, oluf vaxtında.

**İ.Ələsgər.** Oğlu Bəşir onun yanında kitab oxumurdu?

**Aşıq Talıb.** Oxuyurdu.

**İ.Ələsgər.** Onun oxumuş dostlarından kim idi ki, onun yanında kitab oxuya, o da qulaq asa?

**Aşıq Talıb.** Onun kirvalarınnan Molla İrvaham varıydı Nərimannıda (Nərimanlı Göyçədə kənd adıdır – İ.Ə.) bəlkə, onu oxuduf qulaq asmış olaydı. Məşədi Cabbar varıydı kəndimizdə, bəlkə, ona qulaq asmış olaydı.

**İ.Ələsgər.** Dayısı da savadlıymış.

**Aşıq Talıb.** Molla Əhməd varıydı, Zərzivilli (Zərzibil Göyçədə kənd adıdır. Molla Əhməd Ələsgərin dayısı imiş.- İ.Ə.) o da böyük mollaydı. Onun da yanında çox olurdu.... Əmə örgənməhnən də elə şey olmaz.

**Aşıq Ağayar.** Onnan da savatmı olar, əyə! Cılız da Quran!

**İ.Ələsgər.** Aşıq Ələsgər dastanlardan, nağıllardan hansıları çox xoşla-yırdı?

**Aşıq Talıb.** Aşıq Ələsgərin xoşuna ... bir Abbasın nağılı gəlirdi, bir Qurbanın nağılı. Onnan qalan nağıllarda, deyirdi, oğul, bircə Valehin nağı-

lında yaxşı mənalı şeirlər var. Yoxsa, qalan nağılların hamısı, deyirdi, düzəltmədi... o nağılların çoxunda yalan var.. Əmə mənim getdiyim səfərlərim ... gözümnən gördüyüm, əlimnən tutduğum işlərin... hərəsi bir gejəlik nağıldı. Söylüyən olsa, camahatı başa salan olsa, hərəsi bir gejəlik söhbətdi.

**İ.Ələsgər.** Ağayar dayı, babam hansı nağılları bilirdi?

**Aşıq Ağayar.** Hamısını bilirdi.

**İ.Ələsgər.** Bir neçəsinin adını sana görüm.

**Aşıq Ağayar.** Abbası bilirdi, Qurvanıyı bilirdi. İrvahamı bilirdi, Valehi bilirdi, onnan sonra Taharı bilirdi, Əmrahı bilirdi.

**Aşıq Talıb.** Yeddi qol da zaddan bilirdi, Koroğludan.

**İ.Ələsgər.** Sözlərin hamısını bilirdi, hə?

**Aşıq Talıb.** Hamısını, hamısını...

**İ.Ələsgər.** Aşıq Ələsgər hansı havaları yaxşı çalırdı?

**Aşıq Ağayar.** Yaxşı çalırdı "Urfan"ıyı, yaxşı çalırdı "Qaraçı"yı, yaxşı çalırdı "Təcnis"i, yaxşı çalırdı "Qaytarmı"yı, yaxşı çalırdı "Şirvanı Qara Kərəmi"yi. Bu yeni havaları o qədər yox, köhnə havaları çox yaxşı çalırdı.

**Aşıq Talıb.** Köhnə havaların hamısını yaxşı çalırdı.

**Aşıq Ağayar.** Hamısını yaxşı çalırdı.

**İ.Ələsgər.** Deyirlər ki, o, sol əli ilə çalırmış.

**Aşıq Ağayar.** Belə çalırdı (sol əlini mizrab tutmuş kimi sinəsinə vurur – İ.Ə.). Solaxayıydı.

**Aşıq Talıb.** Solaxayıydı.

**Aşıq Ağayar.** Bunnan, bunnan (sol əlini göstərir – İ.Ə.) bax belə. Solaxay çalırdı. Solaxay çalmağını nenirsən; sağnan çalannar onnan çalanmazdı..

**İ.Ələsgər.** Deməli, o, indiki çalanlardan da yaxşı çalırmış?

**Aşıq Ağayar.** Bəli,yaxşı çalırdı. Ağır çalırdı, ağır.

**Aşıq Talıb.** İndi çalannar qarışdırır ey. İndi təzə gül qatıllar, havıyı qarışdırıllar. Əmə Ələsgər başdan-ayağa, ayaxdan-başa havıyı bir çıxardırdı ey, bir çıxardırdı.

**İ. Ələsgər.** Abbasın nağılını neçə gecədə danışırdı?

**Aşıq Ağayar.** Üç gejə, üç sutka.

**Aşıq Talıb.** O, hələ deyirdi, İrannan bir aşıx gəlmişdi, İsmeyil addı. Mən balaja uşağıdım, ancax ağlım kəsirdi. On iki gejə Abbasın nağılını dedi, qurtarmadı; yarımçıx qoyuf getdi... Deyir, elə aşıxların deyişmə məclisində 120 qatar söz oluf; qırx aşığın hərəsi Abbasa bir bağlama deyif, o

açıf. O da qırx aşığın hərəsinə bir bağlama deyif, onnar qalıf məətəl.

**İ.Ələsgər.** Ağayar dayı, Aşıq Ələsgər sözü deyəndə necə deyirdi, fikirləşirdinmi?

**Aşıq Ağayar.** Əyə, fikri-zad yoxuydu, deyirəm da!

**İ.Ələsgər.** Birdən-birə deyirdi?

**Aşıq Ağayar.** Bir də baxırdın ki, sən İslama bir tərif başdadı... Deyən kimi bir də baxırdın ki, dalvadal gəldi.

**İ.Ələsgər.** Onu nə təhər yadda saxlayırdı, sizə necə öyrədirdi?

**Aşıq Ağayar.** Elə ki deyirdi, deyirdik: Ələsgər baba, qadan alım, bunu bizə örgət. Deyirdi, baş üstə! Onnan sonra qayıdırdı bizə tərcüman eliyirdi, biz də örgənirdik... Fikir yoxudu onda. Söyünün canı üçü adı fikir eləmirdi... Mənim öz yanımda, hazır deyirəm, Qazaxda həmən gəlinə başdadı ki:

Aləmin padişahı, sən yetiş imdada böyun,*
Naqafil qarşımıza çıxdı mələkzada böyun,
Göz gördü gül camalın, könül içdi bada böyün,
Can cəsəddən ayrılır, gedir bu sövdada böyün.

Ovçuyam, görməmişəm bir belə sərxoş maralı,
Tökülüf şahmar zülfü, bürüyüftü qəddi-dalı,
Hüsndə Züleyxatək, Loğmana bənzər kamalı,
Solmasın gül irəngi, pozulmasın bu calalı,
Mələklər də "amin" desin ərşi-müəllada böyün!

Ələsgərəm, mən deyirdim, pərvana əfşana yanır,
Şöyqudan bir od düşüf cismimə, mərdana yanır,
Deyirəm, danışıram, dönürəm hər yana, yanır,
Ürəyim bir Kərəmə, bir də Şeyx Sənana yanır,
Qəlbidən yas tuturam Məcnuna, Fərhada böyün.

**İ.Ələsgər.** Deməli, bu sözü sənin yanında deyib hə?

**Aşıq Ağayar.** Yanımda. Oturmuşdux, çay içirdik. Qurtardıx. Qurtarannan sonra ki, başdadı. Onu da niyə başdadı? Çay qaynadı, süzüləndə bir qoja kişi gəldi, yanında otdu. Bu dillənmiyə, nə bilək, bunun arvadıdı, bajısıdı, qızıdı, nə bilək. Bir azdan sonra o yannan qayıtdı:

---

* Böyün – bu gün

– Ay uşax, ay uşax, get bir az süd bişir, gəti, Ələsgər qardaş südnən içsin.

Bu çıxıf gedəndə dedi: əşi, o, sənin nəyindi? Dedi: yoldaşımdı. Onnan sonra qalxdı, sözü dedi. Deyirsən, fikir eləmirdi? Nə fikir eliyəydi, əyə! Gündə beş qatar, altı qatar ancax bir yerdə söz deyirdi. Hələ onunu da deyirdi.

**Aşıq Talıb.** Qamışdıda (Qamışlı Kəlbəcər rayonunda kənd adıdır – İ.Ə.), mənim yaxşı yadıma gəlir, Qamışdıda Qurban olur, Qiyas olur, dədəm olur-atam olur.

**Aşıq Ağayar.** Məzrəli Qiyas?

**Aşıq Talıb.** Hə, məzrəli Qiyas... Orda dörd qatar söz deyir. Birini Molla Səməndin gəlini Leyliyə deyir; birini Məşədi Firidunun arvadı Bəyistana deyir; biri də "Meylim axır sana sarı görəndə" təcnisini deyir... biri də var, əyə!

**İ.Ələsgər.** "Ürəyimdə"

**Aşıq Talıb.** Hə, biri də "A bimürvət, nainsafın balası, mən səni seçmişdim sağ ürəyimdə". Bu dörd qatar sözü bir toyda deyif. Bax gör, bunun sözü nə qədər olarmış!?

**İ.Ələsgər.** Bəs o vaxtı bunun sözlərinin qayğısına qalan, yazan olmurdumu?

**Aşıq Talıb.** Əyə, kimiydi bənd olan... Yazannar da olurmuş. Gedif İkinci Şıxlıdan 20 qatar söz gətirdik. Onu biz bilmirdik. Gedif orda deyif, orda da yazıf götürüflər.

**Aşıq Ağayar.** Qədrini bilən yazırdı...

**İ.Ələsgər.** Bəşir əmim ki, yazı bilirdi, gərək o yazaydı.

**Aşıq Talıb.** Yazmışdı. Bir dəftəriydi. Tökdülər, itirdilər... Bu vaxtı kim bilirdi.

**Aşıq Ağayar.** Bilmək olmurdu ki, bunun gələcəyi nə gələcəydi... Hər kim ki, ona qullux eliyirdi, o gedif onnan örgənirdi...

**Aşıq Talıb.** Şəyird gedirdi, bir il, iki il, üç il ustadın yanında, öyündə qalırdı. Həm örgənirdi, həm də ustada qulluq eliyirdi.

**Aşıq Ağayar.** Hə.

**Aşıq Talıb.** İndiki kimi ha döyüldü, yaza götürə, çıxa gedə. Ustadın yanında üç il qalmıyana şəyird demirdilər.

**İ.Ələsgər.** Deyirlər ki, Aşıq Ələsgərin şəyirdlərinin bəzisi tez öyrənə bilirmiş; üç ildə, dörd ildə onu hazırlaya bilirmiş. Eləsi də varmış ki, onu

7-8 il saxlayırmış, elədi?

**Aşıq Talıb:** Bə nədi. O da bajarıxa baxırdı. Şəyirdinin bajarıxına baxırdı.

**Aşıq Ağayar.** Neçə ki, püxtə olmamışdı, buraxmırdı.

**Aşıq Talıb.** Aşıq Əsəd 12 il qalıf Ələsgərin yanında. 12 il Aşıq Əsəd Ələsgərə qullux eliyif. Nağı altı il qullux eliyif. Qiyas 4-5 il qullux eliyif. Aşıq İsə qullux eliyif.. Ölənə qədər Qurban elə Ələsgərin yanında oluf, qullux eliyif.

**İ.Ələsgər.** Aşıq Ələsgər neçənci ilə qədər aşıqlıq eliyib? Bəlkə, yadınızda ola?

**Aşıq Talıb.** 14-cü ilə qədər aşıxlıx elədi. Mənim yaxşı yadımdadı. Qurban vəfat eləyənnən sonra aşıxlıx eləmədi.. Qurbanın vəfatından sonra getmədi da. Ağayar bilmirmi?

**Aşıq Ağayar.** Yox, yox, getmədi.

**İ.Ələsgər.** Bəs onun sazı necoldu, ay dədə, yadında varmı?

**Aşıq Talıb.** Onun sazı, Nədirxannı (Nədirxanlı Kəlbəcərdə kənd adıdır – İ.Ə.) Hacı kişinin oğlu Söyün vardı, Aşıx Söyün. O da cavanıydı. O burya gəldi. Bu gələndə, atam götürdü sazını ona verdi. Dedi, oğul daha mən çalmıram, apar get, sən çal. O da apardı, kimə verdisə verdi. Tapa bilmədik onnan sonra.

**İ.Ələsgər.** O sazı görsəniz, tanıyarsınız, eləmi?

**Aşıq Talıb.**Tanıyaram. Görən kimi o saat tanıyaram.

**İ.Ələsgər.** Ağayar dayı, onun sazının quruluşu nə təhər idi?

**Aşıq Ağayar.** Quruluşu yaxşıydı. Yaxşı dolu çanağı varıydı, yaxşı üzü varıydı. Qolu da ki bütünüydü. Nə zəbərbədəst sazdardan döyüldü, nə də balaja tavarrardan döyüldü; orta, orta sazdı.

**İ.Ələsgər**. Calaq-calaq idi?

**Aşıq Ağayar.** Əyə, calax nədi, əyə! Calax nə gəzirdi, bütün, əyə! Üz də bütün. Bircə üz, bir də çanax. Bircə üzü ayrıydı. Başdan-başa qol bütünüydü. Elə qolu da üstdə çıxartmışdılar. Boğazının calağı yoxuydu... elə başdan-başa bütünüydü.

**İ.Ələsgər**. Aşıq Ələsgər şəyirdlərindən ən çox hansını sevirdi? Xasiyyəti, oxumağı..

**Aşıq Ağayar**. Nəcəfi.

**Aşıq Talıb.** Daşkənddi Aşıx Nəcəfi, bir də qardaşı oğlu Qurbanı.

**Aşıq Ağayar.** Qurban ayrı cür oğuluydu.

**İ.Ələsgər**. Nəcəfi nəyə görə xoşlayırdı?

**Aşıq Ağayar.** Adamlığına görə. Nəcəf kişiydi...

**İ.Ələsgər.** Onun oxumağı necə idi?

**Aşıq Ağayar.** Oxumağı heç başa gəlməzdi.

**Aşıq Talıb**. Əsəd onnan oxuya bilmirdi.

**Aşıq Ağayar.** Əyə, onnan oxuya bilməzdi. Ay İslam müəllim... Allah irəhmət eləsin o kişilərə, Ələsgər babama! Mən Aşıq Alışanın yanınnan qayıdanda, əmim Məhəmmədciyəzi də götürdüm, ikimiz də düşdük Qazağa. Cavanam, öylənməmişəm. Burya (Ağkilsə kəndini nəzərdə tutur – İ.Ə.) şannılıyam (adaxlı olduğunu bildirir – İ.Ə.) Qazaxdan hərrəndik gəldik harya? Qaramusalıya, Qarasuçuluya, Gənciyə. Adamım yox, tanışım yox. Bir də baxdıq ki, o yanan bəri bir oğlan çıxdı – Zoddu Bəbir, Kazımın oğlu. Bunnar da sən demə, küllü-külfətdi burda olsun. İndi Papır var ey Xannarda, onun əmisi. Dörd qardaşdılar. Əyə, Ağayar, sən hara, bura hara? Bizi apardı. Çay-çörəkdən sonra dedi: “Ağayar, burda bir toy var, yaman toydu”. Dedi, Ələsgər də burdadı, Nəcəf də burdadı, Qurban da burdadı. Əyə, hardadılar? Dedi, Təhliyə gediflər, gəlin gətirməyə, savah gələcəhlər... Bu da Dəli Alının faytonçusudu. Bu durdu getdi. Gedir, Dəli Alıya deyir ki, Alı lələ, bizə bir balaja aşıx gəlif. Deyir, əyə, get onu burya çağır.

Getdik ki, elə bir yaxşıca mərəkədi. Əmə xanəndələr başda oturuf. İki dəsdi. Bu xanəndələrə deyir ki, mana bir “Divani” oxuyun. Deyir, əyə “Divani” nədi! Mana denən, mana “Segah” oxu, “Çargah” oxu, “Qatar” oxu, “Şikasta”oxu... deyəndə deyir, “Divani”dan yaxşı, “Urfanı”dan yaxşı hava yoxdu. “Qaraçı”dan yaxşı hava yoxdu. Deyir, əşi bekar işdi. Onnar baş girriyir. Onnar hava döyül, onnarın oxumağı da bir şeyə dəyməz. Xanəndələr deyir, bilirsənmi....

Otdux... Sonqundan tanıdım, Bayramxandı, Molla Qasımdı, Fəhrat bəy vardı, budu, Dəli Alıdı.. Çoxdu adam. Bir istəkan çay gətirdilər, içdik. Sonra Dəli Alı dedi:

– A bala, haralısan?

Dedim:

– Ay əmi, Göyçədən.

– Hansı kənddən?

– Zoddan.

– Aşıq Ələsgəri tanıyırsanmı?

– Niyə tanımıram, qonşumuzdu.

–Toya gediflər, gələllər. Oğul, mana bir “Divanı” oxuya bilərsənmi?

Dedim:

– Oxuyaram.

– Əmə, dedi, “qırmızı” divanı oxu ha! Xanəndələr də beləjə duruf. Götürdüm, mən də örgənmişəm Aşıx Alının divanisindən:

Şahi-Mərdan əziz gündə geyindi can qırmızı,
İsmayla kəsildi qurban, töküldü qan qırmızı,
Oxudu ismi-əzəmi, bağladı Zülfüqarı,
Əntərə çaldı qılıncı, oldu meydan qırmızı.

– Ay malades!

İmirziyə buyursunnar, böylə yazsın yazını,
Əvvəlinnən fikr eyləsin, xub danışsın sözünü,
Aşıx odu, xam olmasın, püxtə bilsin özünü,
Girə eşqin kürəsinə, yana büryan qırmızı.

Qocalıfsan, Aşıx Alı, itdi könlün pərgarı,
Ustada qullux etməyən nədi onun xirdarı!?
Məninən bəhs çəkən aşıx gəlsin dursun üzbarı,
Görüm ki, nədi mətahı, açа dükan qırmızı.

– Ay malades!

Çıxartdı bir beşdik. Bayramxan yerinnən qalxdı – Oğul, – dedi, bircə təcnis də mana oxuya bilərsənmi?

Dedim:

– Əmi, o qədər təcnis var ki, hansını istiyirsən?

Dedi:

– Söyünün təcnisini.

Dedim:

– Yarpağını bilirsənmi?

Dedi:

– “Qərəz” gəlir.

Dedim:

– Hə.

Götürdüm kü:

İftida "Əlif"dən dərsim alanda,
Oxudum dilimdə hər aya, qərəz.
Qarşıda hər ayına,
Dəstində hər ayına,
Aşıx Söyün nə dedi,
Dost gəldi harayına?
Geyinməsin cananım, görməsin hər ayına,
Geyinsin seyraqub nə qara yaxşı,
Nalәsi yetişsin haraya, qərəz.

Geyindi cananım, nə gündə gəldi,
Bulud pəncərədən nə gündə gəldi.
Aşıq gündə gələndə,
Xalın gündə gələndə,
Söyün sadağa olsun,
Dostu gündə gələndə.
Dost istər, dostuna gündə gələndə,
Çalınsın otaxda nağara yaxşı,
Ləzzəti yetişsin haraya, qərəz.

Hayıf, Aşıx Söynün nizamı keçdi,
Firdovsi, Füzuli, Nizamı keçdi,
Aşıx nə nizamınan,
Xalın nə nizamınan,
Aşıx Söyünün hesabı,
Gəldi nə nizamınan.
İstərlər hesabın nə nizamınan,
Gələr ömrün keçər nə qara yaxşı,
Qoyallar cəsədin haraya, qərəz.

Dedi ki, a Şəmil (xanəndənin adı Şəmil idi), hələ Göyçənin cocuğudu. Nəcəfnən Qurban gələn kimi, sənin yolmanı düzdərə dağıdajam. Deyirsən, onnardan aşıx olmaz. Onnar bizim havaları oxuya bilməz. O qara Nəcəf gələn kimi, onnan səni "Şikasta" oxudajam. Ya gərək Nəcəf sazı yerə qoya, ya gərək sən tarı.

**İ.Ələsgər.** Aşıq Nəcəf həm də muğamatı yaxşı oxuyurdu?

**Aşıq Talıb.** Yaman "Şikasta" deyən idi.

**Aşıq Ağayar.** Bəli, yaxşı oxuyurdu. Onun "Şikasta"sını heç kim oxuyammazdı, ey.

Bir də xavar çıxdı ki, gəlin gəlir. Hancarı gəlir, elə 8-9 faytondu, çoxlu atdıdı, hər atın boğazında da bir yaylıx, qırmızı yaylıx. Gəldilər, töküldülər. Nolajax. Yedilər, içdilər, camahat dağılanda dedi, camahat, dağılmayın. İstolları düzdülər balquna. Dedi, camahat, bu xanəndə Şəmil deyir, Göyçə aşıxları bizim havaları oxuya bilməz. Qara Nəcəfnən onu oxudajam. "Şikasta" oxudajam. Bir dəs qastum qoymuşam. Sahatnan oxuyajaxlar. Nəcəfin səsi hündür getdi, Nəcəfindi, onunku hündür getdi, onundu.

Nəcəf dedi:

– A qağa (Dəli Alıya "qağa" deyirdi), gəlsənə, məni o cərgiyə qatmıyasan; mən aşığam, xanəndə döyüləm.

– Əyə, nə danışırsan, a Nəcəf. Sənin başın üçün sənnən qırram, arıyı kəsərəm.

İki də adam qoydular. Bayramxanı qoydular Nəcəfin tərəfinnən, Fərhad bəyin bir əmisi oğlu varıydı, İsmayıl bəy, bunu da qoydular Şəmilin tərəfinnən.

**İ.Ələsgər.** Bayramxan, babamın dediyi Bayramxan?

**Aşıq Talıb.** Elə həmin Bayramxan.

**Aşıq Ağayar**. Molla Qasımın qardaşı. Üç qardaşdı: Molla Qasımıdı, Bayramxandı, Əsədiydi.

Şamil oxudu. Saatı quruflar.

Nəcəf dedi, Məhəmməd əmimə dedi, əyə, balamanı çıxart. Balamanı çıxartdı, düzəltdilər. O Həzrət Abbas haqqı, zalım oğlu bir "Şikasta" buraxdı, çəhdi, çəhdi, çəhdi, "hay qadan alım" deyəndə, Bayramxan dedi: əyə, Nəcəf, mən də sənin qadan alım, a Nəcəf! Baxın dedi. Baxdılar ki, 18 dəqiqə (saniyə – İ.Ə.) Nəcəfin səsi bunnan hündür getdi. Dedi: Şəmil, salaməlöyküm! Adı çıqqırını çəkmədi Şəmil. Elə axşam da durdular, faytuna mindilər, ya Allah! Nəcəf elə oxuyurdu.

**İ.Ələsgər.** Dədə, Qurban əmim nə təhər oxuyurdu?

**Aşıq Talıb.** Qurbanın oxumağı, oğul, Qurban çox hündürdən oxumurdu, əmə Qurbanın havacatı heç bir aşıxda yoxuydu.

**Aşıq Ağayar.** Yoxuydu, yoxuydu.

**Aşıq Talıb.** Qurban oxuyanda adam valeh olurdu... Qurbanın oxumağıynan onnarın oxumağı bir-birini tutmaz.

**Aşıq Ağayar.** Yoxuydu Qurban kimi oxuyan.

**Aşıq Talıb**. Allah irəhmət eləsin! Nəcəfnən Əsəd həməşə Qazağa yoldaşdı gedərdi. Nəcəf irəhmətdik özü danışırdı, deyirdi: – Qurban cavanıydı. Bir gün biznən baravar getmişdi. Bir ay gəzdik, Qurbana demədilər ki, sən sazını çıxart oxu. Elə sazı köynəyində. Bir toyda dedilər, əyə, bu cavana da bir ixtiyar verin, qoyun bu da oxusun, görək, bu nə təhər oxuyur. Qurban sazını çıxartdı, oxuyannan sonra ... ta burya qayıdıncax, harda toy oldusa, Qurbanı oxutdular, bizi oxutmadılar..

**Aşıq Ağayar.** Qurban çox şirin oxuyurdu.

**İ.Ələsgər.** Deyirlər, özü də çox yaraşıqlı adam olub.

**Aşıq Ağayar.** Qarayağız, göyçək. İslam müəllimin canı üçü, oxuduxca burnunun qənətdəri belə qalxıf düşürdü. Qurban ayrı çürüydü.

**İ.Ələsgər.** Nəcəflə Qurbandan başqa, daha kimin oxumağı xoş gəlirdi?

**Aşıq Ağayar.** Bir də sarıyaqublu Məhəmmədəlinin...

**İ.Ələsgər.** Deməli, babamın şəyirdlərinin hamısı yaxşı oxuyan olub, amma Nəcəfin yerini heç bir tuta bilməzmiş.

**Aşıq Ağayar.** Yox, yox.

**Aşıq Talıb.** Nəcəfin insanlığı da ayrıydı, ey.

**İ.Ələsgər.** Nə təhəri?

**Aşıq Talıb.** Oturanda ağaydı, ayağa duranda aşığıydı...

**İ.Ələsgər.** Babamın şəyirdlərindən hansı deyən olub?

**Aşıq Talıb.** Özünnən?

**İ.Ələsgər.** Hə. Elə Aşıq Ələsgər kimi; sazı götürəndə deyə bilə.

**Aşıq Ağayar.** Yox, yox.

**İ.Ələsgər**. Bəs deyirlər, Qurbanda da elə şey varmış?..

**Aşıq Talıb.** Qurban da deyirdi, Aşıq Ələsgər kimi deyə bilmirdi...

**İslam ƏLƏSGƏR**

## YUBİLEY GÜNÜNÜN MÖCÜZƏLƏRİ

1972-ci ilin yazı idi. Aşıq Ələsgərin gecikmiş olan 150 illik yubileyinə hazırlıq gedirdi. Ermənistan hökuməti aşığın qəbirüstü abidəsinin düzəldilməsini öz öhdəsinə götürmüşdü. Bir gün rayon rəhbərləri ilə birlikdə İrəvandan rəssam və heykəltaraş da Ağkilsə kəndinə gəldi. Aşığın şəklini soruşdular. Mən Sadıq Şərifzadənin çəkdiyi şəkli onlara göstərdim və bildirdim ki, Ələsgərin fotoşəkli qalmamışdır, bunu rəssam xəyalən çək-

mişdir. Şəklə gözucu baxdılar. Sanki xoşlarına gəlmədi. Şəkli götürmədilər və dedilər ki, biz bundan yaxşısını yaradacağıq.

Mən aşığın əsərlərinin yubiley nəşri ilə əlaqədar tez-tez Bakıda olurdum. Məktəblərdə, digər mədəniyyət ocaqlarında aşığa həsr edilmiş ədəbi-bədii yığıncaqlar keçirilirdi.

May ayının 24-də Moskvada (İttifaqlar Evinin Sütunlu Salonunda) Aşığın yubileyi Ümumittifaq miqyasında geniş şəkildə qeyd edildi. İyun ayının 9-da Bakıda keçiriləcək idi. Bundan 3-4 gün əvvəl "Bakı" mehmanxanasının qarşısından keçərkən Basarkeçər rayon komitəsinin ikinci katibi A.Qasparyanla rastlaşdım. Görüşdük. O, Ali Partiya Məktəbində təkmilləşmə kursuna gəlmişdi. Onu da deyim ki, Qasparyan bizim dili təmiz bilirdi. Yubiley dəvətnaməsindən birini ona verdim, razılıq elədi və yubiley gecəsi iştirak etdi.

İyun ayının 10-da "İnturist" mehmanxanasında Aşıq Ələsgərin şərəfinə ziyafət veriləcək idi. Mən mərhum Mirzə İbrahimova dedim:

– Bizim rayon komitəsinin ikinci katibi Bakıdadır. Onu da banketə gətirsəm, olarmı?

– Çox yaxşı olar, gətir, - dedi.

Ziyafət yaxşı təşkil edilmişdi. Qasparyan da çıxış elədi. Sonra onun mehmanxanadakı otağına gəldik. Rayonda keçiriləcək yubiley söhbətimizin əsası idi. Müsahibim Göyçədə havanın çox yağışlı keçməsindən şikayətlənməyə başladı:

– İslam müəllim, biz də tədbiri yüksək səviyyədə hazırlamışıq, amma yağış imkan verməyəcək. Yubileyə gələn on adam deyil, yüz adam deyil, minlərlə olacaq. Elə bir bina yoxdur ki, yığıncağı oraya salaq. Ancaq açıq havada olmalıdır. Yağış işi korlayacaq.

– Qalan işlər yaxşıdırsa, yağışdan qorxma, korlamaz, – dedim.

Mən ayın 11-də kəndə gəldim. Doğrudan da, bir ay bundan əvvəl başlanan yağarlıq hələ də ara verməmişdi. Aşığın qəbri üzərində görüləcək işlər də yubanırdı. Odur ki, daşyonan ustaların işləməsi üçün çadır qurmağa məcbur olmuşdular. Rayonun rəhbər işçiləri tez-tez Ağkilsəyə gəlir və ustaları tələsdirirdilər ki, yubiley gününə qədər işi qurtarsınlar. Rayon komitəsinin birinci katibi də hər dəfə yağışdan şikayətlənib, tədbirin keçirilməsinə mane olacağını bildirəndə, atam Aşıq Talıb da mənim Bakıda Qasparyana verdiyim cavaba bənzər deyirmiş:

– İnşallah, həmin gün hava yaxşı olar. Bu, Aşıq Ələsgərdir!

Nəhayət, vaxt gəlib çatdı. Aşığın kəndində keçiriləcək yubiley şənliyinə iki gün qalırdı. Gecəni gündüzə qatıb, qəbir üzərindəki işləri tamamladılar.

Yağışın ara verməməsi yalnız rayon rəhbərliyini deyil, yubileyi gözləyənlərin hamısını narahat edirdi. Yığıncaq ayın 20-nə təyin edilmişdi, vaxtı dəyişmək olmazdı. İyunun 19-da göyün üzü tutqun olsa da, yağış dayanmışdı. Zod kəndi ilə Ağkilsəni birləşdirən yolun çala-çuxurlarını düzəltmək üçün tökülmüş olan qumu yaymaq və mala çəkmək işi isə bu gün başa çatdı.

Bakıdan və digər uzaq yerlərdən yubileyə gələn qonaqlar rayon mehmanxanasında yerləşdilər.

Yağışın ara verməsi və buludun seyrəkləşməsi havanın sabah yaxşı olacağına ümid yaratmışdı. Amma yenə də narahat idim. Gecədən xeyli keçənə qədər yatmadım. Yuxudan oyananda səhərə yaxın idi. Səma aydın, tər-təmiz idi. Sabah açıldı. Təbiətdə qeyri-adi bir gözəllik vardı. Yağarlıq olduğundan, hər yer yaşıl don geyinmişdi. Otun, çiçəklərin yarpaqları üzərində qərar tutmuş şeh damcıları Günəşin şüaları altında almaz dənələri kimi parıldaşırdı.

Bir qədərdən sonra aşığın kəndinə insan axını başlandı. Buraya minlərlə yox, on minlərlə adam toplaşdı. Gədəbəy, Qazax, Şəmkir, Tovuz, Gəncə, Goranboy, Yevlax, Bərdə, Tərtər, Qarabağ və başqa yerlərdən gələnlər də çox idi. Kəlbəcər və Göyçə kəndləri əhalisinin əksər hissəsi gəlmişdi. Gürcüstandan gələnlər də var idi.

Mərasim məktəb binasının yanında keçiriləcək idi. Burada geniş bir tribuna düzəldilmişdi. Aşıq Ələsgərin erməni rəssamı tərəfindən çəkilmiş iri portreti hündürdə bərkidilmişdi. Bu şəkil hamını, xüsusən də aşığı görmüş qocaları narahat etdi. Rəssam tipik bir erməni surəti yaratmışdı.

Saat 11 olardı. Bakıdan göndərilən nümayəndələr kəndə gəldilər. Qəbiristanlıqda aşığın büstünün açılışı oldu. Rəssamın çəkdiyi şəkil kimi, heykəltaraşın yaratdığı büst də heç kəsi razı salmadı. Qəribədir ki, bir respublikada hazırlanmış büst və şəklin bir-birinə oxşarlığı da yox idi.

Göydə bircə bulud da gözə dəymirdi. Göyçəlilər, sanki indiyə qədər insanın könlünü oxşayan belə mülayim bir havanın şahidi olmamışdılar. Bir-birini görən tanışların ilk sözləri bu idi: “Dünənki havaya da bax, bu günkü havaya da!”. “Dünənki hava” deyərkən bir aydan artıq davam edən yağışlı hava nəzərdə tutulurdu.

Saat 12 olardı, təntənəli mərasim başlandı. Qasparyan da burada idi. O, arabir göyə, sonra isə mənə baxıb gülümsünürdü. Bu baxışın, bu gülüşün mənasını ikimiz bilirdik. Çıxış edənlər çox oldu. Mərhum şair Osman Sarıvəlli də aşığın ünvanına xoş sözlər söylədi.

Günortadan xeyli keçmiş Günəş yeri qızdırdı. Bu, bir qədər sonra yağış yağacağı ehtimalını yaradırdı. Adamlar istidən tərləmişdilər. Birdən kölgə düşdü, hava sərinlədi. Göy üzü tamam açıq olduğu halda, bir topa ağ buludun camaatın başı üzərində dayanması hamını təəccübləndirdi. Bu, bir möcüzə idi.

Mən hamıdan sonra çıxış edib, yubileyin təşkilatçılarına və iştirakçılarına aşığın qohumları adından minnətdarlığımı bildirdim. Bununla da mərasimin rəsmi hissəsi başa çatdı, bədii hissə başlandı. Aşıqlar, Bakıdan gəlmiş müğənnilər, təxminən, saat 5- ə qədər çalıb oxudular.

Bakıdan gələn qonaqlar üçün rayon mərkəzində təşkil edilmiş ziyafətdən sonra İrəvana yollandıq. Sabah (ayın 21-də) yubiley yığıncağı orada olacaq idi.

Sual oluna bilər ki, Ağkilsədə keçirilən yubiley şənliyindən sonra Göyçədə hava yaxşılaşdımı? Cavab olaraq deyim ki, biz rayona gedəndən sonra güclü külək qalxmış, erməni rəssamın çəkdiyi şəkli qoparıb, daşa-divara çırparaq, parça-parça eləmişdi. İrəvandan qayıdanda Göyçəni yenə də selin-suyun içində gördük. Bundan sonra yağış yenə 10-15 gün davam elədi. Yağarlıq olan bu uzun müddət arasında yağışın yalnız bir gün aşığın kəndində yubiley şənliyinin açıq havada keçirilməsinə imkan verməsi əsl möcüzə idi.

**İslam ƏLƏSGƏR**

## AŞIQ ƏLƏSGƏR HAQQINDA XATİRƏM[85*]

Aşıq Ələsgər əmimi üzbəsurət görməmişdim. Yaz ayının beşinci günü idi. Atam dedi: "Sabah Aşıq Ələsgər əmin bizə gələcək". Mən səbirsizliklə Göyçədən gələn yola göz dikmişdim. Günəş dağlara təzəcə yayılan zaman Qiblə bulağının yanından ağır-ağır gələn uca çinar boylu bir adam gördüm. Qaçıb atama xəbər verdim ki, gələn yəqin Ələsgər əmimdi. Biz ailəliklə onu qarşılamağa getdik. Hər iki sənətkar əl tutub öpüşdülər. Evimizdə çay-çörək hazır edəndən sonra, Ələsgər əmim sazı köynəkdən çıxardıb Gəncədə başına gələn əhvalatı danışdı:

– Gəncə şəhərində bir pustalçının yanına gedib dedim mənə çust tikərsənmi?

– Çustu bir manata tikirəm, – dedi.

Ustanın pulunu verdim. Razılığa gəldik ki, beş saat müddətinə tikib qurtaracaq. Vaxt tamam oldu, gəlib çustları alıb geydim. Yüz metr getməmişdim barmaqlarım çustu deşib çölə çıxdı. Sən demə, köhnə dağarcıq dərisindən tikibmiş. Ustanın yanına qayıtdım. Dedim:

– Ay usta, çustları elə tikəydin ki, barı gedib kəndə çataydım...

Usta bərk tutuldu:

– Mən dəmirçi deyiləm, get dəmirçinin yanına, sənə dəmirdən çarıq tiksin.

Bu sözə cavab olaraq mən də telli saza əl atdım... (Ustad burada “Hayıfsan” şeirini söyləmişdir. Kitabda təkrara yol verməmək üçün ixtisar etdik – F.R.).

Usta mənim Aşıq Ələsgər olduğumu bilib nəzilməyə başladı. Sonra da dedi: – Sənə bir cüt xurum çəkmə tikərəm, amma bu sözü açma. Mən yazıq nə bilim, sən Aşıq Ələsgərsən. Mən heç Aşıq Ələsgərin bu boyda olduğunu ağlıma gətirməzdim.

Atam bu arada dedi ki, böyük ustad, eşitmişəm İrəvandan sənə bir qıfılbənd yazıblar. Ona cavab nə yazıbsan? Aşıq Ələsgər gülümsədi:

– Sən bilirsən ki, mən heç vaxt mollaların, ruhanilərin sualını cavabsız qoymamışam. İrəvanlı Mirməcid mənim hazırcavablığıma yəqin inamsızlıq eləyib. Atını minib günlərin birində bizə gəldi. Şirin söhbət vaxtı mənə dedi: – Aşıq Ələsgər, heç gəlməyimin səbəbini soruşmursan? Mən cavab verdim ki, biz qonağa – niyə gəlibsən? – demərik. Bu vaxt o, cibindən bir bəyaz çıxarıb dedi ki, bu bəyazı özüm yazmışam. Oxu, görüm xəttim xoşuna gəlirmi? Mən icazə istəyib, telli sazı götürdüm:

Qulaq eşitməsə, ürək duyarmı?
Nə bilər dünyada naşı bisavad?
Yazmaq, pozmaq bisavada uyarmı?
İnsan olmayaydı kaşı bisavad...

Kəmalım dəryadı, yazmır qələmim,
Kitab oxumuram, çoxalır qəmim,
Qaydıma qalmayıb atam, nə əmim,
Salarmış başına daşı bisavad.

Atam yoxsul olub dövləti-vardan,
Məni qurtarmayıb bu intizardan,
Az-az öyrənirəm oxumuşlardan,
Gündə eylər çox təlaşı bisavad.

Almıram əlimə qələm, ağlaram,
Eşidər səsimi aləm, ağlaram,
Savadsızam, çox müşküləm, ağlaram,
Tökər gözlərindən yaşı bisavad.

Kamal dərya, eşqi ümman Ələsgər,
Alim, arif, ey göhərkan Ələsgər,
Eşqin, təbin coşan zaman, Ələsgər,
İtirməmiş bu ləl başı bisavad.

Sözümü qurtaran kimi Mirməcid dedi: "İrəvandan buraya gəlib, sənin "savadsızlığına" yaxşıca bələd oldum. Sonra elə oradaca mənə söz qoşdu:

Zivər vurmaq müyəssərdi sözünə,
Heyran qaldım kamalına, Ələsgər,
Bir hökm qüdrət var hər kəlamında,
Əhsən göhər cəlalına, Ələsgər.

Sən oldun qəlbimin girami* daha,
Əyilməz gül təbin sultana, şaha,
Bütün kəlmələrin ləl, giranbaha,*
Zər qatılıb zülalına, Ələsgər.

Ey kaş ki, ünvanın ola ağ məscid,
Kamalın dəryadı, hünərin Rəşid,
Bəslər səni ürəyində Mirməcid,
A bisavad, xoş halına, Ələsgər,

Biz Mirməcidlə öpüşüb ayrıldıq.

Aşıq Ələsgərin bu söhbəti indiyə qədər mənim qəlbimdə yaşayır. Bu xatirələrdən ilham alaraq böyük ustada bir neçə şeir həsr eləmişəm...

**AŞIQ ŞƏMŞİR**

* Girami-əziz, qiymətli
* Giranbaha-qiymətli

## QEYDLƏR

Bu nəşrə aid qeydləri hazırlayarkən İslam Ələsgərin "Aşıq Ələsgər" (2004) kitabındakı qeydləri saxlamağı məsləhət bildik. Yeni qeydləri isə "*" işarəsi ilə İ.Ələsgər qeydlərindən fərqləndirdik.

1*. (Əlif-Lam)

Aşığın şəyirdlərinin dediklərinə, xüsusilə Aşıq Talıbın səs yazısına istinad edərək aşağıdakı bəndi də bu şeirə daxil etdik:

Sidqini Allaha bağla,
Məhəmmədin yolun saxla,
Hüseyn əzasında ağla,
Dəmi-eynin zəbərcəddi.

2. (ARASINDA)

Şeirin əvvəlki (1956, 1963, 1972) nəşrlərində belə bir bənd də var:

Adam var, danışır, anlamır sözün,
İçməmiş piyandı, itirir özün,
Bu işveyi-nazın, o qaşu gözün,
Hörməti var şeyitbaz arasında.

3. (BAX, BAX)

Bu qoşma 1962-ci ildə Qazax rayonunun İkinci Şıxlı kəndindən olan Aşıq Məhəmməddən əldə edilmişdir.

4. (BƏYLƏRİN)

Qoşmada təriflənən Bəylər Göyçənin Zod kəndindən imiş. Oğlu Mirzə Əlinin söyləməsinə görə, Mirzə Bəylərin evində təşkil edilmiş böyük bir ziyafətdən sonra (təxminən, 1913-cü ildə) məclisin iştirakçısı olan Aşıq Ələsgər bu qoşma ilə dostunu vəsf etmişdir. Mirzə Bəylər də aşağıdakı şeirlə ona cavab qaytarmışdır:

Guşeyi-səhrada, tənhanişində
Sən ki yazdın bu ünvanı, Ələsgər!
Çillənin günündə, qış mövsümündə,
Bahar etdin zimistanı, Ələsgər!

Naməniz qəlbimi xeyli oyatdı,
Mətləbi mövzundu, xub kəlimatdı,
Yusifin köynəyi Yaquba çatdı,
Abad etdin bu Kənanı, Ələsgər!

Aşiqəm mən sənin ixtilatına,
Nəzminə, fərdinə, xoş əbyatına,
Afərin, afərin, əsli-zatına!
Sənisən Hafizi-sanı, Ələsgər!

Gərçi müləbbəssən ev libasında,
Şahidəm, şaribsən haqqın tasında,
Azəribaycanda, türk arasında,
Sənin kimi şair hanı, Ələsgər!

Durmamışam məcazının qolunda,
Gəzməmişəm namərd sağü-solunda,
İmtahandan çıxan dostun yolunda,
Əsirgəməm, billah, canı, Ələsgər!

Bir az məhəbbətə sədaqətim var,
Şövq ilə həvəsə iradətim var,
Sənə bir xəlvətcə şikayətim var,
Yaxşı saxla o pünhanı, Ələsgər!

Nəsihət saxlasan gər bu sözləri,
Hər adamın olmaz əsli, cövhəri,
Çox ucuz satırsan ləlü gövhəri,
Vəsf edirsən hər nadanı, Ələsgər!

Yetənə rəfiqü yoldaş deyirsən,
Keçənə sirr verib, sirdaş deyirsən,
Üzünə gülənə qardaş deyirsən,
Yaxşını, yamanı tanı, Ələsgər!

Əcəb nəzmi, xoş əfradı yazıbsan,
Vəsfə tamam ictihadı yazıbsan,
Ləqəbi atıban, adı yazıbsan,
Unutmaram bu ziyanı, Ələsgər!

Səhv etdim, ləqəbim sətrə sığışmaz,
Ləfzi səqil salar, bəhrə sığışmaz,
İnşallah, qəzəbə, qəhrə sığışmaz,
Əfv edərsən bu üsyanı, Ələsgər!

Təvəqqə edirəm, sanma qilü-qal,
Bu gələn gəlmədən olma kəcxəyal,
Əgər oxumasan, şüğlüzümmə qal,
Hər məclisdə bu dastanı, Ələsgər!

Mən belə işlərə mahir deyiləm,
Baxma, öz-özümə faxir deyiləm,
Hərçəndi yazaram, şair deyiləm,
Bağışlarsan bu Mirzanı, Ələsgər!

5*. (DAĞLAR)

Aşıq Talıbın söyləməsinə görə, bu qoşma 1905-ci ildə Əmirəhməd adlı bir qaçağın yaylaqda keçirdiyi bir məclisdə deyilmişdir. VI bəndin 3-cü misrası bir sıra nəşrlərdə "Bir əmliyin bir tümənə satılı" kimi getmişdir. Sonrakı misra ilə səsləşməyən bu misranın 1963-cü il nəşrindəki variantını seçdik: "Bir əmliyin min tümənə satılı".

6. (DƏLİ ALI)

Şeir XIX əsrin sonu, XX əsrin əvvəllərində çar üsuli-idarəsinə qarşı silahlı mübarizə aparan, indiki Goranboy rayonunun Qarasuçu kəndində yaşamış Dəli Alının tərifidir. "Aşıq Ələsgərlə Dəli Alı" dastan-rəvayətində bu barədə geniş bəhs edilmişdir.

7. (DOLANSIN)

Bu qoşma 1918-ci ildə, Ələsgərin ailəsi Kəlbəcər rayonunda köçkün yaşadığı zaman deyilmişdir. Bu barədə "Dəyirmançı Aşıq" adlı dastan-rəvayətdə ətraflı qeyd olunmuşdur.

8*. (DÖNDÜ, NƏ DÖNDÜ)

Bu qoşmanın I bəndinin 2-ci misrasını ("İqbalım şikara döndü, nə döndü!") aşağıdakı misra ilə əvəz etdik: "İqbalım idbara döndü, nə döndü!". "İdbar" talesizlik, tale dönüklüyü deməkdir. Misranın mənası belədir: Taleyim tərsinə döndü.

9*. (DÜŞMÜŞƏM)

III bəndin 1-ci misrası son nəşrlərdə "Ələsgərəm, incimişəm yarımdan" şəklində getmişdir. Bizcə, "Ələsgər keçibdi namus, arından" variantı daha düzgündür (1963-cü il nəşri və s.). Bu şeir ailə-məişət zəminində zarafatla deyildiyi üçün bu misranı ciddi mənada qəbul etmək olmaz.

10*. (EYLƏMİŞƏM)

Bu şeirin I bəndinin 2-ci misrası əksər nəşrlərdə "Hicranın qəmiylə kef eyləmişəm" şəklində getmişdir. Onu "Hicranın dəmiylə kef eyləmişəm" variantı ilə əvəz etdik (Bu, 1988-ci il nəşrindən götürülmüşdür). Mənası belədir: Hicranın dəmi – nəşəsi ilə kef eyləmişəm. "Müqəddəs poeziya dərsləri"ndə geniş izahat verilmişdir.

11*. (ƏVƏZDİ)

III bəndin 3-cü misrası bir sıra nəşrlərdə "Sən bir gülsən gülüstanın tərindən" şəklində getmişdir. Digər variantı ("Sən bir gülsən şəbnəmlərin tərindən") seçdik. Mənası belədir: Sən şeh düşmüş gülsən.

12*. (GETMƏ, AMANDI)

I bəndin 4-cü misrası son nəşrlərdə "Ölürəm, loğmanım, getmə, amandı!" şəklindədir. Bizcə, "Həkimim, loğmanım, getmə amandı" variantı daha məqbuldur (Həm sinonim sözlərdən istifadə, həm də alliterasiya ("m" səsinin təkrarı) baxımından).

13*. (GÖZƏLLƏR)

Sonuncu bəndin 2-ci misrasını ("Görən kimi getdi dinim, imanım") digər variantla əvəz etdik: "Görən kimi yandı dinim, imanım".

14*. (GÜLƏNDAM)

Güləndam Kəlbəcər rayonunun Almalı kəndindən imiş. O, 1986-cı ildə 150 yaşlarında vəfat etmişdir. III bəndin son misraları əvvəlki nəşrlərdə belədir:

Mənim gözüm sənin kimi yardadı,
Hər cəfası mana xoşdu, Güləndam!

Göründüyü kimi, misralar təhrif olunub. Digər bir variant isə yerində səsləşir:

Mənim gözüm qoynundakı nardadı,
Aşığa lütf etsən, xoşdu, Güləndam!

15*. (KƏSİLDİ)

Qohumlarının söyləməsinə görə, aşıq bu qoşmanı, təxminən, 1908-ci ildə Bəşirin Molla Rəhimi bilmədən güllə ilə vurub öldürdüyü zaman demişdir. Bu barədə "Bəşirin Molla Rəhimi vurması" adlı dastan-rəvayətdə geniş bəhs edilmişdir.

Son nəşrlərdə I bəndin 3-cü misrası səhvən "Öz əlimdən xəta dəydi

gözümə" şəklində getmişdir. Düz variant belədir: "Öz əlimdən xəta dəydi özümə".

16. (QABAQDA)

Aşıqların söyləməsinə görə, Ələsgər cavan vaxtlarında bir gün dərin yuxuya getmiş, ayılandan sonra bu qoşmanı söyləmişdir.

17. (QALMADI)

Şeir Birinci Dünya müharibəsi zamanı deyilmişdir.

18. (MƏNİ)

Bu qoşma Aşıq Nəcəfdən əldə edilmişdir.

19. (MƏNİM)

Bu şeiri Aşıq Haqverdi Talıb oğlu Gəncədə Aşıq Qaradan yazmışdır.

20. (MÜŞGÜNAZ)

Müşgünaz Dərələyəzin Ayısəsi kəndindən olan Seyid Qaranın qızı imiş. Bu barədə "Dəyirmançı Aşıq" adlı dastan-rəvayətdə geniş söhbət açılmışdır.

21*. (OLA BİLMƏZ)

Şeirdə adı çəkilən Səməd Göyçənin Zod kəndindən olan məşhur Səməd ağadır. I bəndin II misrasını ("Əsli mütəlladı, ləl ola bilməz") aşağıdakı variantla əvəz etdik: "Üzdən mütəlladı, ləl ola bilməz.

22. (OLMAZ)

I bəndin 2-ci misrasının aşağıdakı variantı var: "Namərd körpü salsa, onda ad olmaz". Bizcə, bu variant məqbul deyil, çünki sonuncu bəndin axırıncı misrası belədir: "Mərd bir olar, onda iki ad olmaz".

23*. (OLMAZ)

Son bəndin ilk misralarının digər variantını seçdik:

Ələsgərəm, yandım, yandım, alışdım,
Pərvanətək ataşlara sarışdım.

24. (SALAMATDI)

Aşıq Talıbın söyləməsinə görə, 1918-ci ildə Aşıq Ələsgərin ailəsi Kəlbəcərin Qanlıkənd kəndində yaşadığı zaman aşığın bir sözündən inciyən Anaxanım heç kəsin xəbəri olmadan atası evinə yola düşmüşdür. Qarlı-yağışlı bir gündə Anaxanımın Yanşağa gedə bilməsinin çətinliyini görən ailə

üzvləri çox narahat olmuşlar. Səhər tezdən arvadının dalınca yola düşən Aşıq, Tərtər çayının körpüsü yanında qoyun otaran bir uşaqdan öyrənir ki, Anaxanım həmin körpüdən sağ-salamat keçib Yanşağa gedib. Evə sevincək qayıdan Ələsgər xəbəri oğlu Bəşirə bu qoşma ilə çatdırmışdır.

25. (SANA QURBAN)
Aşıqlar bu qoşmanı Ələsgərin Anaxanıma olan məhəbbəti ilə əlaqələndirirlər. Bu barədə "Aşıq Ələsgər Yanşaqda" adlı dastan-rəvayətdə ətraflı danışılmışdır.

26. (SEÇİLMİŞ)
Bu şeiri Aşıq Haqverdi Talıb oğlu Gəncədə gədəbəyli Aşıq Həsəndən yazmışdır.

27. (SƏNSƏN)
Bu qoşma Göyçənin Qanlı kəndindən olan Aşıq Mehdidən yazılmışdır.

28. (ŞİRİNDİ)
Aşıq Talıbın deməsinə görə, bu qoşma Kəlbəcərin Çayqılışlı kəndindən olan Məmişin qızı Qonçanın tərifidir.

29*. (TÖKÜLDÜ)
II bəndin 2-ci misrasında ("Köhnə yaralarım eylədi qabar") "qabar" sözünü "qubar"la əvəzlədik. "Qubar" yaraların yenidən qövr etməsi, yada düşməsi deməkdir.

30*. (ÜRƏYİMDƏ)
I bəndin 3-cü misrasını (Həsrət çəkdin, ortalığa qan əkdin") digər variantla dəyişdik: "Həsrət çəkdin, ortalığa qəm əkdin" (Ortalığa həsrət çəkdin, ortalığa qəm əkdin).

31*. (VARDIR)
Bu şeir Mirməcid adlı bir şairin eyni rədifli bağlamasının cavabıdır. Aşıqlar bu qoşmaları "Aşıq Ələsgərin Şınıx səfəri" adlı dastan-rəvayətdə deyişmə şəklində söyləsələr də, bunları deyişmə hesab eləmək olmaz. Kim isə Mir Məcidin bağlamasını yazıb, Aşıq Ələsgərə göndərmiş, o da açmışdır.

Şeirin IV bəndinin sonuncu misrası həmişə təhrifə məruz qalmışdır. Son nəşrlərdə isə belədir: "Məxrəci, səktəsi, iqdamı vardır". Burada "iqdam"ı "idğam"la əvəz etdik.

32. (VARIYMIŞ)
Bu qoşma Qazax rayonunun İkinci Şıxlı kəndindən olan Aşıq Məhəmməddən toplanmışdır.

33. (YAXŞIDI)
Şeirdə adı çəkilən Nənəpəri Kəlbəcərin Şapılar kəndindən imiş.

34. (YAŞILDI, YAŞILDI)
Bu qoşmanı Aşıq Haqverdi Talıb oğlu Gəncədə İbrahim Qaraçı oğlundan yazmışdır.

35. (YAZIQ)
Bu şeir Qazax rayonunun İkinci Şıxlı kəndindən olan Aşıq Məhəmməddən əldə olunmuşdur.

36. (DÖRD KİTAB HƏR YANA YOLU GÖSTƏRİR)
Aşığın şəyirdlərinin söyləmələrinə görə, İrəvan yaxınlığındakı Kankan kəndində keçirilən bir şənlik zamanı Xəstə Qasımdan söz düşmüş, onun bağlamalarının hələ heç kəs tərəfindən açılmadığını demişlər. Həmin kənddə yaşayan Abutalıb (o, Aşıq Ələsgərlə siğə qardaş imiş) qürurla bəyan eləmişdir ki, nə cür çətin bağlama olsa, Aşıq Ələsgər açar. Bir atdan mərc gəlmişlər. Xəstə Qasımın aşağıdakı bağlamasını "Xəstə Həsən" adı ilə yazıb, bir üzünü Aşıq Ələsgərə, bir üzünü isə Misgin Bürcüyə göndərmişlər. Aşıq Ələsgər bu şeirlə bağlamanı açmiş, həm də "Qasım" "qaf"ınandı, "Həsən" "he"yinən" misrası ilə işarə eləmişdir ki, şeir Xəstə Qasımındır. Aşıq Ələsgər bağlamanın cavabını göndərəndən bir qədər sonra Abutalıbdan ona məktub gəlmiş, məktubda əhvalatın necə olduğunu və mərci apardığını Aşıq Ələsgərə bildirmişdir.

Xəstə Qasımın bağlaması belədir:

Bir çarsıda dörd dərvişə uğradım,
Dördü bir-birilə eylər ixtilat.
Dördünün də dili ayrı, dini bir,
İki də biz onlar ilə şeş cahat,
Əsli-kainat.

Bir şəhrində gördüm padişahını,
Qulun, yasovulun, hər dəsgahını,
Üç yüz altmış altı xoş süpahını,
Onlar bir kişidən istədi sursat,
Xoş çəkir səffat.

Altı, səkkiz, doqquz idi binası,
Otuz calalı var, bəyaz sinəsi,
Altı min altı yüz məddi-mənası,
Ərəb idi, əcəm idi, türkü tat,
Bir ismə fəryad.

Altıdan qırxadək sərgərdanıdı,
İki yüz otuzda özün tanıdı,
Altı min altı yüz pasibanıdı,
Kimi "ya Hu!" – çəkir, kimi – "əssəlat",
Kim istər nicat.

İki dərya xoş görünmür gözünə,
İki qırx dörd çıxmaz ərin dizinə,
Bu Xəstə Qasımın şərən sözünə,
Alim, molla, müctəhidlər qaldı mat,
Tapmadı kəlmat.

Misgin Bürcü isə bağlamaya belə cavab qaytarmışdır:

Arif olan, bizə bir namən gəldi,
Amma ona baxdım, təlx oldu övqat.
Şair bunu nə növ ilə düzəltdi,
İmlası rəkikdi, inşası - qələt.

Verdim çaparlara, mindi səməndi,
Dəydi oymaqlara, gəzdirdi kəndi,
Nə qədər var idi alim, əfəndi,
Onlar da bu sözə tamam qaldı mat.

Apardım derderə ases: inça es?
Dedi asdeğ yegini dun uy umes,
And içdi mahrasa xaçı gidumçes,
Pop skazal: "Yeyboq ne znayem, brat!".

Sən ol əhli-xibrə, biz olaq dağlı,
Sözün məddi gərək mənaya bağlı,
Nə çərən-pərəndi, mərhumun oğlu,
Sənəmi qalıbdı bu cəfəngiyat?!

Müsəmma Misginəm, mən zişti-camal,
Çün adam güdmüşəm, nə qoyun, nə mal,
Sən ki cüz etmisən bu nəzmi-kamal,
Bizə lazım deyil, özgələrə sat.

37*. (A YƏMƏNDƏDİ)

II bəndin 2-ci misrası "Onu çalıb kim tərpədər nə simi?!" şəklində yox, "Onu çalıb kim tərpədər nəsimi?!" şəklində olmalıdır ki, cinas pozulmasın. Məna belədir: Könül sazını kim çalıb nəsim (səhər mehi) tərpədə bilər? Bu variant 1963-cü il nəşrində də məqbul hesab edilmişdir.

38*. (Dİ BİR ÜZ, BİR ÜZ)

Əslində "de bir üz, bir üz" yox, "di bir üz, bir üz" variantı düzgündür.

39*. (HA LALA ÇIXAR)

III bəndin sonuncu misrası əksər nəşrlərdə "Beygirin dünbündə hal ala çıxar" şəklindədir. Bizcə, "Beygirin dümbündə halala çıxar" variantı düzgündür (Beygirin – yük atının quyruğunda örkənin bədənə sürtünməsindən yara çıxar). Bu variant 1963-cü il nəşrində öz əksini tapmışdır.

40*. (SİNİ SİN)

I bəndin ilk misrası sonuncu nəşrlərdə "Hicran düşgünüyəm, gözəl müştağı" kimi getmişdir. İlk nəşrlərdə gedən "Hicran tüccarıyam, qəm şikəstəsi" variantı daha yerinə düşür (Hicran düşgünüyəm, qəmdən solmuş, üzülmüşəm").

41* (YARAT, ƏRMƏNİ)

II bəndin 1-ci misrası "Tutmuşam dəstimdə gözəl nizamı" kimi yox, "Tutubdu dəstində gözəl nizamı", III bəndin 2-ci misrası isə "Yazıq Ələsgər, dastan elə dər yaya" şəklində yox, "Qul Ələsgər, dastan elə Dəryaya" olmalıdır ("Müqəddəs poeziya dərsləri"nə bax").

42*. (YAZIQ "ƏMMƏ"Nİ)

II bəndin 2-ci misrasını ("Müxənnəti mərdə qoyma, ay üzər") aşağıdakı misra ilə əvəz etdik: "Müxənnətə mərdi qoyma, ay üzər" (Müxənnətə mərdi üzməyə imkan vermə).

43*. (NƏDİ ADI)

I bəndin ilk misralarının müxtəlif variantları içində ən məqbulunu seçdik:

Təriqətlə həqiqəti seçənlər,
Həqiqətlə təriqətin nədadı? (fərqi nədir?)

44*. (SƏQALI TEZ-TEZ)
Son bəndin 2-ci misrasının nəşr variantları belədir:
Ağan təkdi, dəngi deyil səd ağa.
Ağan təki dəngi deyin sad ağa.
1-ci misra məqbuldur: Ağan təkdir, yeganədir, ona yüz ağa tay deyil.

45. (VERİR)
Bu divani Şəmkirli Aşıq Hüseynin eyni rədifli bağlamasının cavabıdır. Deyilənlərə görə, Aşıq Hüseynin şəyirdi Mıqıç Gədəbəydə Göyçənin Hüseynquluağalı (Nərimanlı) kəndindən olan Aşıq Mikayılı həmin qıfılbəndlə bağlayıb, sazını almışdır. Mikayıl şeiri yazıb, Aşıq Ələsgərə gətirmiş, o da bağlamanı bu şeirlə açmışdır. Mikayıl bağlamanın cavabını aparıb, sazını geri almışdır.

Bu barədə "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü" adlı dastan-rəvayətdə ətraflı bəhs edilmişdir.

46. (BAHALIQ)
Bu şeir Aşıq Ədalət Nəsibovdan yazılmışdır. O isə atası Məhəmmədəlidən öyrəndiyini deyir.

47. (BAXIN)
Bu şeir Hümmət Əlizadə tərəfindən əldə edilmişdir.

48. (DOLANIR)
Bu müxəmməsi Aşıq Haqverdi Talıb oğlu Göyçənin Toxluca kəndindən olan Məmmədov Zeynalabdindən əldə etmişdir.

49. (ELƏYİB)
Aşıq Talıbın söylədiyinə görə, Göyçənin Qayabaşı kəndindən olan Kalvayı Hüseyn Səfalı yaylağında nəvəsi İsgəndərə toy eləyirmiş. Bu zaman Ələsgərin tanıdığı Əli adlı, bədəncə xırda, lakin çox güclü olan bir pəhləvan buraya gəlir. Meydanalı adlı birisi istəyir ki, onunla güləşsin. Tez əsəbiləşən və çoxlarını şikəst eləyən pəhləvanın bu toyda bir bədbəxtlik törədəcəyindən ehtiyatlanan Ələsgər araya düşür, Meydanalını güləşməyə qoymur. Sonra pəhləvan hamıda təəccüb doğuran böyük hünər göstərir. Bu şeir ilə aşıq toyda gördüklərini nəzmə çəkmişdir.

50. (GƏLİN)
Bu müxəmməs H.Əlizadə tərəfindən əldə olunmuşdur.

51. (GİLƏYƏ)
Bu müxəmməsin bir qismi Aşıq Talıbın, bir qismi Göyçənin Zod kəndindən olan Hacıyev Rəhimin, bir qismi Şişqaya sakini Aşıq Rəhimin hafizəsindən qələmə alınmış, Ardanış kəndindən olan Əbdüləli Kərimovun və türkiyəli Nizamettin Onkun topladığı variantla müqayisə olunaraq bərpa edilmişdir.

Gözəlləmənin digər bir variantını akademik İsa Həbibbəyli gənclik illərində – 1972-ci ildə Dərələyəz mahalının Sallı kəndində yaşamış İman Həziyevdən yazıya almış və geniş elmi şərhlə nəşr etdirmişdir (*"Şərq qapısı" qəzeti, 23 may 1972-ci il, №119 (10126)*. İsa Həbibbəylinin qeydinə görə, İman Həziyev Aşıq Ələsgərin şeirlərinin çoxunu əzbər bilirmiş. İsa Həbibbəylinin təqdim etdiyi variantda rədif "Giliyə" kimi verilmişdir:

Qulaq asın, ay camaat, deyirəm dastan Giliyə,
Mərifətdə, qabiliyyətdə tay olmaz insan Giliyə,
Yetmiş iki millət görsə, hamı deyər can Giliyə,
Vacib budur kəsdirəsən gündə bir qurban Giliyə.

Maşallah, ay qabağa gör necə tellər yaraşır,
Ala gözə siyah sürmə, yanağa xallar yaraşır,
Burun püstə, dodaq qaymaq, dəhənə dillər yaraşır,
Halal olsun bu səltənət, bu qurğu-dövran Giliyə.

Göyçənin gözəlindən seçilib, sultan kimidi,
Cilvələnib tovuz kimi, qırımı tərlan kimidi,
Zərəfşana xal düzülüb, zəri-zərəfşan kimidi,
Var aləmi şəriətdə doğrudu, insan kimidi,
Hüsn-gözəllikdə gəlməz Yusifi-Kənan Giliyə.

Sarı qanovuz köynəyin gül düzülüb yaxasına,
Başında Herat, Şamaxı, bənzər göllər sonasına,
Libası əndama uyur, əndam uyur libasına,
Halal olsun yeyib-içmək belə gözəllər xasına,
Qızıldan kəmər yaraşır sinəsi meydan Giliyə.

Vahid bir şahidik yek tay, dini Məhəmmədin dini,
Gərək salavat çevirə, hər kimsə görsə üzünü,
Ələsgər arif yanında söyləyir sözün düzünü,

Həmi bu dünyada bacım, həmi qiyamətin günü,
Lənət o şəxsin zatına, söyləyə böhtan Giliyə.

52. (GÖZƏL)
Bu şeiri H.Əlizadə toplamışdır.

53. (HƏCƏR)
Bu şeiri də H.Əlizadə toplamışdır.

54. (XIRDACA QIZ)
Aşıq Nəcəfin söyləməsinə görə, bu müxəmməs Göyçənin Hüseynquluağalı (Nərimanlı) kəndindən olan Hacı Alının qızı Kövsərin tərifidir. Şeirdə adı çəkilən Mehdi Göyçənin Hacı Qərib (Sadanaxaç) kəndində yaşamış olan Hacı Şıxının oğlu imiş.

55. (MALADES)
Bu müxəmməs indiki Ermənistanın Kəvər (Norbayazid, Kamo) rayonunun Ağzıbir kəndindən olan Aşıq Məhəmməd Həsənovdan yazılmışdır. Məhəmmədin deməsinə görə, o, bu şeiri Qazax rayonunun Qaymaqlı kəndindən olan Aşıq Calaldan öyrənmişdir.

Aşıq Talıb və Rəhim Hacıyevin yadında olan misralar müqayisə zamanı kara gəlmişdir.

Göyçənin Aşağı Şorca kəndindən olan Aşıq Bəylər deyirdi ki, bu şeir Aşağı Şorca kəndində nəbilər tayfasından olan Mamoyun qızı Zeynəbin tərifidir. Bu tərifdən sonra camaat onu ölənə qədər "Malades" deyə çağırmışdır.

56. (MƏLƏK)
Bu müxəmməs H.Əlizadə tərəfindən toplanmışdır.

57. (PİŞİK)
Aşıq Talıbın söyləməsinə görə, Aşıq Ələsgər bu şeiri Yanşaq kəndində Hüseyn bəyin evində qonaq olarkən demişdir. Bu barədə "Aşıq Ələsgər Yanşaqda" adlı dastan-rəvayətdə geniş söhbət açılmışdır.

58. (ŞAPƏRİ)
Şapəri Göyçənin Zod kəndindən olan Mirzə Əsgərin arvadı imiş. Şeirin qızılvəngli Əsgərov Qaytarandan əldə edilmiş variantı ilə Şapərinin oğlu Hacıyev Baladan (hazırda Xanlar şəhərində yaşayır) toplanmış variant müqayisə olunarkən Aşıq Talıbın yadında qalan misralar nəzərə alınmışdır.

59. (XOŞ GƏLDİN)
Bu gəraylını H.Əlizadə toplamışdır.

60. (KƏKLİK)
Bu şeiri də H.Əlizadə toplamışdır.

61. (ÖLDÜRƏCƏK BU QƏM MƏNİ)
Bu gəraylını da H.Əlizadə toplamışdır.

62. (BAX, BAX)
Aşıqların "dildönməz" ("diltərpənməz") adlandırdıqları bu gəraylı məzmun, məna və bədii cəhətdən bir qədər zəif olsa da, şeirimizin tarixində yeganə dildönməz olduğuna görə, oxuculara təqdim edilməsi məsləhət görülmüşdür.

63. (BU GÜNLƏRİ BİR HİKMƏTƏ TUŞ OLDUM)
Düyü haqqında olan bu bağlamanı Aşıq Haqverdi Talıb oğlu Gəncədə Aşıq İbrahim Qaraçı oğlundan əldə etmişdir.

64. (XƏBƏRİN VARMI)
Deyilənlərə görə, Aşıq Ələsgərin arvadı Anaxanım ondan tərif istəmiş, aşıq onu tərifləmək əvəzinə, zarafatla bu şeiri demişdir. Bu hadisə bütün təfsilatı ilə "Anaxanımın küsməyi" adlı dastan-rəvayətdə özünün bədii ifadəsini tapmışdır.

65. (KÖPƏKOĞLU)
Bu həcvi Aşıq Haqverdi Talıb oğlu və Göyçənin Zərzibil kəndindən olan Həbib Səmədov Gəncədə Dədə Yediyardan əldə etmişlər. Deyilənlərə görə, Aşıq Ələsgərin qohumlarından biri Kəlbəcərin meşələrində gizlicə ağac kəsər, onu boyunduruq, cüt (xış) oxu, zola və s. düzəldər və gətirib Göyçədə satarmış. Aşıq Ələsgər ona neçə dəfə tapşırır ki, bu işdən əl çəksin, lakin söz ona təsir eləmir. Bir gün yenə də cüt oxu gətirərkən yaxalanır. Aşıq onu buraxdırmaq üçün xeyli əziyyət çəkir və bu həcvi həmin münasibətlə söyləyir.

66. (QOHUM BİLDİK, QOYDUQ ADAM YERİNƏ)
Aşığın qohumlarının söyləmələrinə görə, Aşıq Ələsgər oğlu Bəşirə toy eləyən vaxtı Göyçənin Yarpızlı kəndindən olan xalası oğlanları və digər qohumları necə olursa toya gələ bilmirlər. Aşıq bu şeiri ilə onları həcv edir.

67. (MƏHƏMMƏD)
Aşıq Talıbın söyləməsinə görə, Göyçənin Hüseynquluağalı kəndində Məhəmməd adlı bir keçəçi varmış. Qızı Xeyransanın toyuna tədarük görən

aşıq cehiz yorğan-döşək və keçə hazırlamaq üçün bir neçə dəfə Məhəmməddən xahiş edir ki, gəlib yunu atsın və keçəni salsın. Nəhayət, bu qoşma ilə hədə-qorxu gəldikdən sonra məqsədinə nail olur.

68*. (MOLLALAR)

Bu şeir son nəşrlərdə dərc olunmayıb. Bəzi nəşrlərdə aşağıdakı bəndə də rast gəlinir:

İndi də əsabələrin istər sürtə payına kir,
Bəyənmir Ömər, Osmanı, deyir: – Pisdi Əbubəkir,
Şeytan ilə yoldaş olub, xənnas ilə bostan əkir,
Göyçək arvad görəndə mərkəb kimi şihə çəkir,
Çirkindən "həyalanır", gəzir pünhanı mollalar.

69. (OLSUN)

Aşığın şəyirdlərinin söyləmələrinə görə, onun məşhur "Mollalar" rədifli həcvi meydana çıxan kimi mollalar arasına böyük çaxnaşma düşür. Bu söz Göyçənin Zod kəndindən olan Molla Tağıya da bərk toxunmuşdur. Onun oğlu Məhəmməd bu həcvdən qəzəblənərək, "Olsun" rədifli şeirini yazıb, Aşıq Ələsgərə göndərmiş, aşıq da bu məzəmmətli qoşmaya eyni rədifli bu şeiri ilə cavab qaytarmışdır.

Məhəmmədin şeiri belədir:

Yaxşı sözlər deyib, nəzmə çəkibdi,
Onu görüm, bu dünyada var olsun.
Heyifdi, salmasın özün avaza,
Qorxum budu, axırında xar olsun.

Yalqız görən cəngahada özünü,
Yəqin etməz mütaliə sözünü,
Oyansın qəflətdən, açsın gözünü,
Beş gün bu dünyada dəm bidar olsun.

Axunda əl atıb, çox da laf etmə,
Kalamım Zülfüqar, dini unutma,
Hər çuğul sözünün dalınca getmə,
Arif olan kəsdə gərək kar olsun.

Biz baxmarıq o sazların rənginə,
Elmin yetməz ariflərin dənginə,

Düşərsən bir əjdahanın cənginə,
İstəmə, gen dünya sana dar olsun.

Doğrudu, xalq deyir, ondan bizə nə,
Adamdı, fikr etsin özü-özünə,
Həcv deyən qaynatanın üzünə,
Şəriətdə gərək şərmisar olsun.

Kamal dərk et, özün çəkmə əlaya,
Bica qilü-qalı salma araya,
Cavansan, başını salma bəlaya,
Adın bədnam olub, iş dişvar olsun.

Kamalda acizsən, yazıq biçara,
Bir ixtiyar əldən getsə, nə çara?!
Girmə bu cəngaha, qalma avara,
Nə lazım, pis adın aşikar olsun.

Dünyada mən bir zad bilməm özümü,
Allah bilir, haqq yazıram yazımı,
Bu barədə qəbul eylə sözümü,
Nəbada ki sana nagüvar olsun.

Çuğulun sözünü bir zada sayma,
Göz aç bu xabidən, qəflətə uyma,
Heç kəs ilə pəncə-pəncəyə qoyma,
Heyifsən, bu ismin bərqərar olsun.

70. (UZAQ VİLAYƏTDƏN QIZ SEVƏN OĞLAN)

Aşıq Talıbın söyləməsinə görə, Kəlbəcər rayonunun Elləzallar kəndindən Xıdır adlı bir oğlan aşığın qızı Bəstiyə elçi düşür. Gözəl və mərifətli qızını ağıldan bir qədər kasad olan bu gəncə rəva bilməyən aşıq, elçilərə "yox" demək əvəzinə, bu şeirlə qızını "pisləmişdir".

71*. (DƏYMƏYİB)

Bu şeir ilk dəfədir ki, dərc olunur. Aşıq Sədi Qurbanovdan əldə olunmuşdur (Borçalı mahalı, Qasımlı kəndi).

72*. (ÇƏKSƏN)

Kitabda ilk dəfə nəşr olunan bu şeiri mətbuata göyçəli Aşıq Oruc Əhmədo-

vun oğlu, prof. İsmayıl Məmmədli təqdim edib ("525-ci qəzet", 06.10.2017).

73* (QAÇAQAÇ)
Bu şeiri də prof. İsmayıl Məmmədli təqdim edib (bax: 72*).

74*. (GƏLDİ)
Bu şeiri gədəbəyli Aşıq Qələndər Zeynalov öz ustadı, mərhum Aşıq Yusif Quliyevdən öyrənmişdir.

75*. (QAŞLARI CƏLLADDI)
Bu şeir də Aşıq Qələndərdən yazıya alınmışdır (bax: 73*).

76* (QƏRƏZ)
Şeir təbrizli Aşıq Cəfər Xakipurdan yazıya alınmışdır.

77*. (SARI QIZ)
İlk dəfə nəşrə düşən bu qoşma göyçəli Abbas Vəfadağlının (Mazanovun) "Ulu Göyçəm" (Bakı: "Renessans" nəşriyyat evi, 2017) kitabından götürülmüşdür.

78*. (SƏNƏM, GƏL)
Bu şeir "Laçın yurdu" jurnalından (2015, 14-cü say) götürülmüşdür. Şeiri filologiya üzrə fəlsəfə doktoru, dos. Ziyəddin Məhərrəmov şuşalı Aşıq Kərəmə istinadən təqdim etmişdir.

79*. (MƏNİ)
İlk dəfə kitabda işıq üzü görən bu şeiri də mətbuata prof. İsmayıl Məmmədli təqdim etmişdir (bax: 72*).

80*. (NƏ İÇİNDƏDİ)
Nəşrə ilk dəfə düşən bu qıfılbənd "Ulu Göyçəm" kitabından götürülmüşdür (bax:77*).

81*. (ÜÇ MİNDİ)
Bu şeir də ilk dəfə dərc olunur. Aşıq Sədi Qurbanovdan əldə olunmuşdur (bax:71*).

82*. (HACININ)
Şeir "Aşıq Ələsgər. Bütün əsərləri" (2014) kitabından götürülmüşdür.

Bu kitabdan aydın olur ki, şeiri Aşıq Talıb Hacı Qulunun (şeir ona ithaf olunub) nəvəsi, kimya elmləri namizədi Həsən Həsənova özü təqdim edib.

83*. (LEYLİ)

Bu şeir Aşıq Talıbın dediyinə görə, Dədə Ələsgərin Kəlbəcərin Qamışlı kəndində toy məclisində dediyi dörd şeirdən biridir (bax: Aşığın şagirdləri ilə söhbət).

84*. (AŞIQ ƏLƏSGƏR HAQQINDA XATİRƏM)

Yazı "Azərbaycan" jurnalında dərc olunmuşdur (№5, 1972).

## ŞİFAHİ YARADICILIQDA USTAD SƏNƏTKAR FƏRDİYYƏTİ (Son söz əvəzi)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı xüsusi Sərəncam işığında bu il Aşıq Ələsgərlə bağlı yubiley tədbirlərinin keçirilməsi, heç şübhəsiz, ustad sənətkarın yaradıcılığını hərtərəfli araşdırmaqda mühüm rol oynayacaqdır. Bu yazıda biz Aşıq Ələsgər irsinə şifahi ənənə və müəllif fərdiyyəti, yəni bu vaxtacan xeyli araşdırılan, amma yetərincə də mübahisəli məqamları olan bir məsələ çərçivəsində nəzər salmaq istəyirik. İlk növbədə xatırlatmağı vacib bilirik ki, xalq arasında Aşıq Ələsgər sözünün ilahi mənşəyinə inam tədqiqatçılar arasında bir daha bu barədə düşünüb-daşınmaq və yazı-pozu bilməyib bədahətən şeir demək hadisəsinə yenidən qayıtmaq ehtiyacı yaradır. Ehtiyac yaranır ki, sinədən söz demək məsələsi ilə Aşıq Ələsgərin yazı-pozu bilməməsinin bağlılığına təzədən bir aydınlıq gətirilsin.

Aşıq Ələsgərin yazı-pozu bilməməsinin sovet dövründə xüsusi olaraq qabardılması o vaxtkı siyasi rejimin "proletar mədəniyyəti" təlimi ilə bağlı idimi? Axı yeni bərqərar olmuş Sovet siyasi sistemində aşağı təbəqəyə mənsub sənətkarların irəli çəkilməsi və onların "burjuaziya"nı təmsil edən yazıçılara qarşı qoyulması istiqamətində addımlar atılır, tədbirlər görülürdü. Yoxsul bir kəndli ailəsindən çıxan və təhsil almaq imkanı olmayan Aşıq Ələsgərin dövlət orqanları tərəfindən xüsusi olaraq İrəvana dəvət edilməsi xatırlatdığımız istiqamətdə atılan addımların, görülən tədbirlərin bir nümunəsi sayıla bilər. Amma burası da var ki, Aşıq Ələsgər dövlət orqanlarının dəvətinə heç də müsbət cavab verməyib və İrəvanda rəsmi dairələrlə ünsiyyətdən boyun qaçırıb. Öz dövrünün Mirzə Bəylər kimi qabaqcıl dünyagörüşlü ziyalısına, Dəli Alı kimi yenilməz qaçağına təriflər deyən Aşıq Ələsgər Sovet quruluşunun şəninə bir misra belə söyləmək fikrində olmayıb. Demək, Aşıq Ələsgərin "bisavadlığı"nın xüsusi olaraq qabardılmasının arxasında "proletar mədəniyyəti" siyasətinin gizləndiyini güman etmək özünü o qədər də doğrultmur və bu qüdrətli sənətkarın həyat-yaradıcılığı ilə bağlı səciyyəvi faktlara aşıq sənətinin qanunauyğunluqları baxımından yanaşmaq lazım gəlir. Bədahətən şeir demək bu qanunauyğunluqlardan biridir. Əlbəttə, sinədən söz demək bütün aşıqlara yox, Aşıq Ələsgər kimi ustad aşıqlara aid edilən və xüsusi önəm verilən bir cəhətdir. Məsələ burasındadır ki, ustad

aşığın Dədə Qorqud sayaq övliyalığı ilə, kəramət sahibi olması ilə bağlı inanclar, hər şeydən əvvəl, həmin sənətkarın sinədən söz demək qüdrətini əsaslandırmağa yönəlir. Elə söz ki, dildə-ağızda gəzir və zaman-zaman nəsildən-nəslə ötürülür. Elə söz ki, şifahi şəkildə yarandığı kimi, nəsildən-nəslə ötürülüb geniş yayılması da bir çox hallarda məhz şifahi şəkildə baş verir. Odur ki, Aşıq Ələsgər yaradıcılığında şifahilik məsələsinə diqqət yetirmək, bu sənətkarın yazı-pozuya münasibətini xüsusi nəzərə almaq bu günün özündə belə aktuallıq kəsb edir və bu məsələnin çözülməsi aşıq yaradıcılığı ətrafında davam etməkdə olan şifahi sənət – yazılı sənət mübahisəsinə müəyyən qədər aydınlıq gətirir.

Aşıq Ələsgər yazıb-oxumağı bacarıbmı? Bu suala "yox" cavabı verməyə tələsmədən ustad aşığın şeirlərinə müraciət edək. Görəcəyik ki, müəllif bir çox şeirlərində özünün yazıb-oxumağından söhbət açır:

*Sol əldə kağız var, sağ əldə qələm,*
Bir yanda nəşə var, bir yanda ələm.
Ələsgərtək şirin zəban, xoş kəlam,
Bivəfa dünyaya gəldi də getdi. ("Getdi")

Ələsgərəm, doğru yoldan azmaram,
Hərcayı gözələ tərif *yazmaram*. ("Bəyistan")

İstəyirəm, sana bir dastan *yazam*,
Qubernat eşidə, yaranal bilə. ("Bilə")

Orucu çox bəyənmişəm, məhəbbətim var Qəfərə,
Qasımı mərdanə gördüm, vəsfini *yazdım* dəftərə. ("Kimi")

Neçə namə *yazdım* canan elinə,
Heç birisi o diyara yetmədi. ("Yetmədi")

Göründüyü kimi, Aşıq Ələsgər "Getdi" şeirində kağız-qələmdən, "Bəyistan", "Bilə", "Kimi", "Yetmədi" şeirlərində isə tərif, dastan, vəsf, namə yazmaqdan bəhs edir. Oxşar mənzərəni "oxumaq" məsələsinə münasibətdə də izləmək mümkündür:

"Əlif"dən dərs aldım, əbcəd *oxudum*. ("Yazıq "Əmmə"ni")
Dərs almışam, *oxumuşam* hər aya. ("Dal dala")
*Oxudum*, yetişdim mən bu hesaba. ("Olur")

Adı çəkilən şeirlərdə Aşıq Ələsgər oxuyub əbcəd öyrənməyindən,

dərs alıb Quran ayəsi oxumağından, oxuyub bəlli bir mərtəbəyə yüksəlməyindən bəhs edir.

Bütün bunlarla bərabər, o da qeyd edilməlidir ki, Aşıq Ələsgər yaradıcılığında onun yazıb-oxumaq bacarmamasına işarə edən misralar da var:

Huş başımdan gedib, yoxdu savadım,
Sözlə mətləb yazmaq deyil muradım,
Arifə eyhamla yazıram hürfat.
("Dörd kitab hər yana yolu göstərir")

Bu misralardan aydın olur ki, Aşıq Ələsgərin "sözlə mətləb yazmaq" savadı yoxdur, o, fikrini arif adamlara ayrı-ayrı hərflərə işarə etməklə çatdırır.

Aşıq Ələsgərin yazıb-oxuya bilməməsi barədə yerli-yataqlı məlumatı isə onu görüb-tanıyan adamların söylədiklərindən alırıq. Aşıq Ələsgərlə ünsiyyətdə olan belə adamlardan biri Aşıq Şəmşirdir. Aşıq Şəmşirin söyləməsinə görə, İrəvanlı Mirməcid ağa cibindən bir bəyaz çıxarıb oxumaq üçün Aşıq Ələsgərə verir. Aşıq Ələsgər isə sazı köynəkdən çıxarıb, bəyazı oxuya bilməyəcəyini Mirməcid ağaya belə bildirir:

Qulaq eşitməsə, ürək duyarmı?
Nə bilər dünyada naşı bisavad?
Yazmaq, pozmaq bisavada uyarmı?
İnsan olmayaydı kaşı bisavad…

Atam yoxsul olub dövləti-vardan,
Məni qurtarmayıb bu intizardan,
Az-az öyrənirəm oxumuşlardan,
Gündə eylər çox təlaşı bisavad.

Aşıq Ələsgərin yazı-pozu bilməməsini öz xatirələrində sənətkarın oğlu Aşıq Talıb və şəyirdi Aşıq Ağayar da yeri düşdükcə vurğulayır. Aşıq Ələsgərin nəvəsi və Aşıq Ələsgər irsinin tanınmış tədqiqatçısı İslam Ələsgər qeyd olunan məsələ ilə bağlı mülahizələri ümumiləşdirərək yazır: "Aşıq Ələsgər kəskin hafizəsi və həmişə öyrənməyə cəhd göstərməsi sayəsində zəngin bilik əldə etmişdir. Oğlanlarının, onu görmüş digər qocaların söylədiklərinə görə, aşıq dövrünün ziyalıları və din xadimləri ilə ünsiyyətdə olar, onlara tarixi, bədii və dini kitablar oxutdurub, qulaq asmağı çox sevərmiş. Dini məsələlər ətrafında gedən mübahisələr zamanı mollalar, axundlar, qazilər, hətta şeyxlər onun dedikləri ilə razılaşmalı olurmuşlar.

Aşıq Ələsgərin şeirlərində Firdovsinin, Nizaminin, Füzulinin, Nəsiminin, Hafizin adlarının çəkilməsini, "Onlar da yazdığı, ayə, məndədi" deyilməsini təsadüfi hal hesab eləmək olmaz. Aşıq dinləmə yolu ilə onların əsərləri ilə tanış imiş". İslam Ələsgərin bu qənaəti tədqiqatçılar arasında qəbul edilmiş bir qənaətdir və bizim də bu qənaətə heç bir etirazımız yoxdur. Amma kimsə "dərin zəka sahibi üçün yazıb-oxumağı öyrənmək asan bir işdir" deyib Aşıq Ələsgərin "bisavadlığı"na şübhə ilə yanaşsa və öz şübhəsinin yersiz olmadığını ustad sənətkarın bir çox şeirlərində rast gəldiyimiz (və bir az əvvəl xatırlatdığımız) "namə yazdım", "əbcəd oxudum" kimi ifadələrlə sübuta yetirməyə çalışsa, biz bunu da təbii hal saymalıyıq. Ona görə ki, aydınlaşdırılması vacib olan məsələ Aşıq Ələsgərin yazı yaza bilməməsindən daha çox onun şifahi yaradıcılıq prinsiplərinə nə dərəcədə əməl edib-etməməsidir. Faktlar göstərir ki, Aşıq Ələsgər məhz şifahi yaradıcılıq yolunu seçib və bədahətən şeir söyləmə tələbinə yüksək səviyyədə əməl etməyə çalışıb:

Bir mirzə lazımdı əli qələmli,
Mən deyəm, vəsfini yaza, Müşgünaz.

"Müşgünaz" şeirindən götürdüyümüz bu misralar şifahi söyləmə və qələmə alma məsələlərinin Aşıq Ələsgər yaradıcılığındakı yerini görməyə yaxından kömək edir. "Yazılanı oxusunlar, qulaq asım; şeiri deyim yazsınlar". Bu prinsip Aşıq Ələsgər haqqındakı dastan-rəvayətlər və xatirələrdə də kifayət qədər zəngin faktlarla öz təsdiqini tapır. Aşıq Şəmşirin Aşıq Ələsgər haqqındakı xatirəsində qarşılaşdığımız səhnə – verilən kağızın Ələsgər tərəfindən oxunmaması oxşar şəkildə dastan-rəvayətlərdə də rastımıza çıxır: – Şəmkirli Aşıq Hüseynin qıfılbəndi yazılmış kağız Aşıq Ələsgərə çatanda o, kağızı oxumaq üçün oğlu Bəşirə verir. Qıfılbəndə cavabı da Aşıq Ələsgər yazmaq yox, şifahi söyləmək yolu ilə bildirir. Cavabın kağıza köçürülməsini Aşıq Ələsgər yenə oğlu Bəşirə həvalə edəsi olur.

Dastan-rəvayətlərdə Aşıq Ələsgərin yazıb-oxumaq bilməməsinə bu qədər diqqət yetirilməsinin səbəbini doğru-düzgün anlamaq üçün yenidən ənənəyə baş vurmaq, Ələsgərəqədərki ustad aşıqlarla bağlı bəzi əhvalatları xatırlatmağa ehtiyac yaranır. Uzağa getmədən "Qurbani" və "Abbas-Gülgəz" dastanlarına nəzər salsaq, hər iki dastanda baş qəhrəmanların təhsilə, yazı-pozuya münasibətini üzə çıxaran epizodlara rast gələrik. Məsələn, "Qurbani" dastanında belə bir epizod diqqətdən yayınmır: Pəri xanımla Qurbani bir yerdədirlər. Pəri xanım bir molla çağırıb Şıx oğlu Şaha

məktub yazdırır ki, Şıx oğlu Şah iki sevgilini Qara Vəzirin zülmündən xilas etsin, onlar bir-birindən ayrılmasınlar. Başa düşmək çətin deyil ki, bu epizodla dastançı öz qəhrəmanının yazıb-oxumaq bilməməsinə, söylədiyi şeirlərin Haqq vergisi kimi sinədən gəlməsinə işarə edir. Oxşar epizodlarla "Abbas-Gülgəz" dastanında da qarşılaşırıq: Abbası öz istəyi ilə mədrəsəyə qoyurlar, amma şikəstə oxumaq üstündə molla ilə toqquşmaq və ağır falaqqa cəzası almaq bu təhsili yarımçıq qoyur. Xatırlatdığımız epizodda da dastançının niyyəti eynidir: Abbasın təhsil gücünə yox, Allah vergisi hesabına sinədəftər olmasını diqqət mərkəzində saxlamaq.

Ələsgərəqədərki ustad aşıqlardan Xəstə Qasımın təhsilə, yazı-pozuya münasibətini əks etdirən rəvayətlər də toxunduğumuz mövzu baxımından az maraq doğurmur. Xəstə Qasımın əvvəl öz kəndi Tikmədaşda, sonra isə Ərdəbildəki Şeyx Səfi məscidində kifayət qədər yüksək təhsil alması məlum faktlardır. Tədqiqatçı Məhəmməd İbadi Qaraxanlının fikirlərinə əsaslanıb o faktı da xatırlatmaq yerinə düşər ki, Xəstə Qasım mahir bir xəttat olub. Bu fakt istər-istəməz belə bir sual doğurur: Yüksək təhsil almaq və mahir xəttat olmaq Xəstə Qasımın sinədəftər Haqq aşığı olmasını xalqın təsəvvüründə arxa plana keçirmir ki? Xeyr, arxa plana keçirmir, ona görə ki, Xəstə Qasımın yüksək savad sahibi olmasından böyük məhəbbətlə söhbət açan aşıqsevərlər bu sənətkarın sinədəftərliyindən də eyni məhəbbətlə söhbət açırlar. Aşıqsevərlərin qənaətlərindən biri də budur ki, Xəstə Qasımın şeirləri daha çox ağızdan-ağıza keçərək, məclislərdə oxunaraq xalq arasında məşhurlaşıb. Bu qənaətə uyğun rəvayətlərin yaranmasına da təsadüfi hal kimi baxmaq olmaz. Rəvayətlərdən biri bu məzmundadır: Hakimiyyətdən narazılığını bildirdiyinə görə Xəstə Qasımın əlyazmalarını Nadir şahın adamları Tikmədaş bölgəsindəki Bino çayına atıblar. Məhəmməd İbadi Qaraxanlıya istinadən xatırlatdığımız bu rəvayət, bizcə, hər şeydən daha çox şifahilik məsələsini qabartmaq üçündür. Bu rəvayəti danışmaqla aşıqsevərlər Xəstə Qasım şeirlərinin Haqdangəlmə ecazkarlığını nişan verirlər və bildirmək istəyirlər ki, əlyazmalar olsa da, olmasa da, Xəstə Qasımın Haqdan gələn şeirləri dillər əzbəridir, bu şeirləri zaman-zaman yaşatmağın mühüm bir yolu məhz şifahi ifaçılıqdır.

Qurbani, Abbas Tufarqanlı və Xəstə Qasımla bağlı dastanlardan və rəvayətlərdən gətirdiyimiz, Aşıq Ələsgər fenomeninin doğru-düzgün başa düşülməsinə yönəltmək istədiyimiz faktlar sinədən şeir deyib ilahi mətləblərdən xəbər verməyin aşıq sənətində bir kult səviyyəsinə qaldırılma-

sını göstərir. Məsələyə bu cür yanaşılmasının bariz ifadəsidir ki, müasirləri Aşıq Ələsgərdən bəhs edərkən bu böyük söz ustasının hansı şeiri hansı məqamda deməsini xüsusi diqqətə çatdırırlar. Bu məsələ ilə bağlı maraqlı faktlara Aşıq Ağayarın xatirələrində rast gəlirik. Aşıq Ağayarın dediklərindən bəlli olur ki, "Bu gün" rədifli müxəmməsini Aşıq Ələsgər Qazaxda bir evdə qonaq olarkən; "Leyli", "Bəyistan", "Ürəyimdə" qoşmalarını və "Sarı gələndə" təcnisini Kəlbəcərin Qamışlı kəndində toy apararkən deyib. Söz yox ki, dastan-rəvayətlər Aşıq Ələsgərin şeirlərini söyləmə məqamlarına görə izləməyə daha geniş imkan yaradır. Aşıq Ələsgərin Səhnəbanı, Anaxanım, Həcər xanım, Şəmkirli Aşıq Hüseyn, Dəli Alı, Mirzə Bəylər, Mirməcid ağa, Şair Nağı və başqa şəxslərlə bağlı şeirlərinin necə, hansı şəraitdə, hansı əhvalat fonunda ortaya çıxmasını məhz dastan-rəvayətlər vasitəsilə öyrənə bilirik. Təbii ki, Aşıq Ələsgərin bütün şeirlərinin yaranma tarixini arayıb-araşdırıb üzə çıxarmaq mümkün deyil. Və bəlkə, belə bir araşdırmaya çox lüzum da yoxdur. Ustad sənətkarın şeirlərini diqqətlə oxumaq kifayət edir ki, həmin şeirlərin şifahi ənənədən gələn cəhətlərini görmək mümkün olsun. Belə cəhətlərin ən üzdə olanlarından və nəzərə tez çarpanlarından biri söz və ifadələrin ümumi danışıq dili əsasında işlənməsidir. Bir az əvvəl adını çəkdiyimiz "Bu gün" müxəmməsinə diqqət yetirsək, görərik ki, həmin müxəmməsin rədifi Aşıq Ağayarın dilindən "bu gün" şəklində yox, yerli şivənin tələffüz normalarına uyğun olaraq "böyün" şəklində səslənir:

Aləmin padışahı, sən yetiş imdada böyün,
Naqafil qarşımıza çıxdı mələkzada böyün.

Bu müxəmməsin adının və rədifinin "bu gün" şəklində oxucuya çatdırılması da göstərir ki, nəşr zamanı Aşıq Ələsgər şeirlərinin üzərində mümkün qədər ədəbi dil normalarına uyğunlaşdırma işləri aparılıb. Amma bu, heç də Aşıq Ələsgər şeirlərini danışıq dili tərzindən uzaqlaşdırmaqla nəticələnməyib.

Aləmin padışahı, sən yetiş imdada bu gün,
Naqafil qarşımıza çıxdı mələkzada bu gün,
Göz gördü gül camalın, könül içdi bada bu gün,
Can cəsəddən ayrılır, gedir bu sevdada bu gün.

Görmək çətin deyil ki, bəndin zəruri ədəbiləşdirilməsi "böyün" formasını "bu gün" formasına keçirməklə bitib və mələkzada//mələkzadə, bada//badə əvəzlənmələrinə, həmçinin müxəmməsin sonrakı bəndlərində

irəng//rəng, calal//cəlal, pərvana//pərvanə, əfsana//əfsanə, mərdana//mərdanə əvəzlənmələrinə yol verilməyib. Aşıq Ələsgər şeirlərindən ziyarat (ziyarət), ibadat (ibadət), fursat (fürsət), qəzəmət (qazamat), biqıryat (biqeyrət), zamana (zəmanə), piloy (plov), aloy (alov), ciloy (cilov), sahab (sahib), barabar (bərabər), yaşıyam (yaşayam), urus (rus), doxdur (doktor), beşatlana xod verib (beşatılanı işə salıb) kimi tələffüz formasında olan söz və ifadələrdən nə qədər desən misal çəkmək olar. Amma biz bu cür misallar üzərində geniş dayanmağa ehtiyac görməyib, Aşıq Ələsgər timsalında sinədən şeir deməyin bəzi başqa əlamət və göstəricilərinə də ötəri nəzər salmaq istəyirik. Belə əlamət və göstəricilərdən biri özünəqədərki ənənədə kifayət qədər geniş yer tutan və müəyyən qədər qəlibləşən ifadə tərzindən yerli-yerində istifadə etməkdir. Məhəbbət mövzulu şeirlərinə nəzər salsaq, görərik ki, Aşıq Ələsgər özündən əvvəlki ustad aşıqların yaradıcılığında tez-tez qarşılaşdığımız "qönçə gülü dərmək", "tovuz kimi bəzənmək", "sona kimi silkinmək", "külli-Dağıstana dəyişməmək"… ifadələrinə, alma yanaq, gül yanaq, ay qabaq, günəş camal, bal dodaq, qaymaq dodaq, qar sinə… bədii təyinlərinə, qönçə-xar, tərlan-sar… bədii təzadlarına heç də az müraciət etmir. Belə qəlib-klişelərə müraciət, heç şübhəsiz, şifahi yaratma prosesinə yardım edir və mətnin qurulmasında zəmin element funksiyasını daşıyır. Qəlib-klişe nümunələrini "ənənə və Aşıq Ələsgər" kontekstində axtardığımız kimi, Aşıq Ələsgərin öz şeirləri daxilində də axtarmaq mümkündür: ayrı-ayrı gözəllərin tərifinə həsr etdiyi şeirlərdə Aşıq Ələsgər eyni və ya oxşar misralardan istifadə edir. Aşıq Ələsgərin "Güləndam" rədifli qoşmasındakı məşhur "Səni gördüm, əl götürdüm dünyadan" misrasına ustad sənətkarın "Sənəm, gəl" rədifli qoşmasında, həmçinin "Səni gördüm, əl götürdüm evdən, əyaldan, Şapəri" şəklində "Şapəri" müxəmməsində rast gəlirik. Başqa misal. Ustad sənətkarın "Giləyə" rədifli müxəmməsində belə bir misra var:

Libası əndamına layiq, əndam uyur libasına.

Bu misraya cüzi fərqlə "Gözəl" və "Gözələ" müxəmməslərində də rast gəlirik:

Libas əndama uyur, əndam uyur libasına. ("Gözəl")
Libas əndamına layiq, əndam libasından gözəl. ("Gözələ")

Oxşar misralardan istifadə edilməsini Dəli Alıya həsr olunmuş şeirlərdə də izləmək mümkündür:

Sərim qurbandı sərinə, ay atanın nər balası. ("Deyin")

Atanın sərdar oğludu, sərim qurbandı sərinə. ("Kimi")

Və yaxud:

Süzən tüfəng cingildəyir, güllə qaçır qana – deyin. ("Deyin")
Süzən tüfəng cingildəyir, patronu səyrişir qana. ("Kimi")

Oxşar misranı nəinki iki ayrı-ayrı şeirin müqayisəsində, hətta bəzən eyni şeirin daxilində də müşahidə etmək olur:

İnşallah, heç yerdə qalmaz avara,
Bir qula ki Şahi-Mərdan yar olsun.

"Olsun" rədifli qoşmanın birinci bəndində tanış olduğumuz bu misralar həmin şeirin yeddinci bəndində cüzi fərqlə yenidən qarşımıza çıxır:

Sidqini bağlayan Şahi-Heydara,
İnşallah, heç yerdə qalmaz avara.

"Deyin" müxəmməsinə nəzər salaq:

Səxavətdə misli-Hatəm, səddə İsgəndər balası.

"Deyin" müxəmməsinin beşinci bəndindəki bu misra həmin şeirin on birinci bəndində cüzi fərqlə yenidən özünü göstərir:

Səddə İsgəndər kimidi, Hatəm səxalı söylənir.

Gətirdiyimiz bu sayaq misallar həm şifahi yaratma, həm də şifahi yaşatma ənənəsi üçün təbii sayılmalıdır. Belə hesab edilməlidir ki, sinədən şeir deyən sənətkarın oxşar misralar, qəlib ifadələr işlətməsində həmin sənətkarın fitri istedadını kölgədə qoyacaq bir şey yoxdur. Bununla yanaşı, məsələnin ikinci cəhəti – sinədən söylənmiş şeirin yaddaşlarda necə qalması, məclislərdə hansı şəkildə səslənməsi də diqqətdən kənarda qalmamalıdır. Nəzərə alınmalıdır ki, sənətkar öz şeirlərində oxşar misralar işlətməsə belə, əlyazması olmayan həmin şeirləri ortaya çıxararkən unudulmuş məqamları yenidən bərpa etməkdə tərtibçilər üçün başlıca çıxış yollarından biri oxşar misralara üz tutmaqdır, yəni sənətkarın unudularaq boş qalmış hər hansı bir misrasının yerini onun oxşar başqa bir misrası ilə doldurmaqdır.

Aşıq sənətində şifahi yaratma və şifahi yaşatma amillərinin nəzərə alınması diqqəti məlum və məşhur çoxvariantlılıq məsələsinə yönəltmiş olur. Bəli, yazılı ədəbiyyat nümunələrindən fərqli olaraq, ustad aşıqların dillər əzbəri olan ən məşhur şeirlərinin belə neçə-neçə variantı ilə qarşılaşırıq. Bu cür çoxvariantlılıq, heç şübhəsiz, sinədən söz demək yolu tutmuş Aşıq Ələsgər şeirlərinə də aiddir. Təfsilata varmadan təkcə bu faktı xatırladaq ki, Aşıq Ələsgərin nəşr edilmiş şeirlərindən bir xeylisi müxtəlif ki-

tablarda fərqli şəkildə təqdim olunub. Bu o deməkdir ki, başqa ustad aşıqlar kimi Aşıq Ələsgər şeirləri də bizə müxtəlif variantlarda gəlib çatıb.

Beləliklə, biz müxtəlif dəlillər (sözlərin tələffüz formasına geniş yer vermək; məlum formul və klişelərdən istifadə etmək; əlyazması olmayan şeirlərin müxtəlif variantlarda ortaya çıxmasına istər-istəməz zəmin yaratmaq və s.) əsasında Aşıq Ələsgər irsinin şifahi yaradıcılıqla qırılmaz surətdə bağlı olduğunu bir daha diqqətə çatdırmaq istədik. Amma onu da qətiyyən unutmadıq ki, bu zəngin irsdə açıq-aşkar özünü göstərməkdə olan bir müəllif obrazı var və həmin obraz barədə danışmadan Aşıq Ələsgər sənətinin estetik mahiyyətini doğru-dürüst anlamaq çətindir.

Müəllif obrazının Aşıq Ələsgər irsindəki yerindən və rolundan danışarkən iki cəhəti xüsusi fərqləndirməyə ehtiyac duyulur: a) müəllif obrazının özünəqədərki aşıq ədəbiyyatından süzülüb gələn tərəfləri; b) müəllif obrazının Aşıq Ələsgər şəxsiyyəti və bioqrafiyası ilə bağlı tərəfləri. Aşıq Ələsgər irsində müəllif obrazının ənənədən gəlmə cizgilərini ayırd etməyə çalışsaq, ilk növbədə, irfan təlimi ilə səsləşən motivlər, rəmzlər üzərində dayanmalıyıq. Qeyd etməliyik ki, yazı-pozu bilməyən və sözü sinədən demək yolunu tutan Aşıq Ələsgəri şeirlərində dərin bilik və zəka sahibi kimi görürük. Məmmədhüseyn Təhmasibin sözləri ilə desək, "o, şeirlərində toxunduğu məsələlərin, hətta qədim əsatirin, dini ehkamların, tarixi hadisə və şəxsiyyətlərin hamısı haqqında nə demişsə, yerli-yataqlı demiş, yaşadığı mühitin səviyyəsinə görə gözəl məlumata malik olduğunu çox yaxşı nümayiş etdirmişdir. Tək bircə şeirlərində işlətdiyi çətin söz, ifadə, istilahlar gözdən keçirilsə, onun səviyyəsi aydın görünər. Xüsusilə, deyişmələrində, hərbə-zorbalarında, qıfılbənd və təcnislərində müxtəlif məqsədlərlə elə sözlər, elə ifadələr işlətmişdir ki, sözlərin elə çalarlarından istifadə etmişdir ki, adam heyrət etməyə bilmir. Bəzən hətta təriqət rəmzlərinə belə müraciət etmiş, hamısından xəbərdar olduğunu nümayiş etdirmişdir". Aşıq Ələsgər yaradıcılığının ideya-bədii istiqamətlərindən danışarkən görkəmli folklorşünasın təriqət rəmzlərinə toxunmasını təsadüfi hal hesab etmək olmaz. Məsələ burasındadır ki, Məmmədhüseyn Təhmasib hələ sovet dövründə Azərbaycan aşıq ədəbiyyatının təriqət rəmzləri ilə bağlılığına diqqəti yönəltmiş tək-tək folklorşünaslardandır. Bu baxımdan belə bir faktı xatırlatmaq yerinə düşər ki, Azərbaycan dastanları haqqındakı fundamental əsərində Məmmədhüseyn Təhmasib məcazi məhəbbət dastanlarına xüsusi fəsil ayırır və "Qurbani"dən məhz təri-

qət rəmzlərini əks etdirən bir dastan kimi bəhs edir. Görkəmli folklorşünas aşıq poeziyasında təriqət rəmzlərinin bir ənənə olaraq nə qədər geniş yer tutduğunu vurğulayaraq yazır: "Sufi-hürufi terminologiyalarından… Aşıq Ələsgər, Şəmkirli Aşıq Hüseyn kimi… görkəmli aşıqlarımız da… istifadə etmişlər. Hətta bu günün sovet aşıqları da bəzən heç mənasını başa düşməyərək, yaxud tamamilə yeni məna verərək rümuzat işlədirlər". Aşıq ədəbiyyatından, eləcə də Aşıq Ələsgər yaradıcılığından bəhs edən tədqiqatçıların sufizm məsələsinə xüsusi maraq göstərdiyi bugünkü şəraitdə Məmmədhüseyn Təhmasibin yuxarıda xatırlatdığımız fikirləri xüsusi əhəmiyyət daşıyır. Doğrudan da, özündən əvvəlki Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi sənətkarların yolunu davam etdirən Aşıq Ələsgər yeri gəldikcə sufilik və irfanla bağlı anlayışlara da müraciət edir. Amma bu, təbii ki, Aşıq Ələsgəri sufi sənətkar kimi təqdim etməyə, onu hansısa bir təriqətə bağlamağa əsas vermir.

İrfanla bağlı bu anlayışlar sırasında Əli kultu xüsusi yer tutur. "Mövladan aldım muradım" deyən Qurbani kimi, "Mənim ağam Şahi-Mərdan Əlidi" deyən Abbas Tufarqanlı kimi, "Mövlanın əlindən badə içmişəm" deyən Xəstə Qasım kimi, Aşıq Ələsgər də İmam Əliyə üz tutur, "Mövladan dərs alıb elm tapmışam", "Pir mana göstərdi şah məqamını" deyib özünün şairlik-aşıqlıq gücünü məhz İmam Əlinin adı ilə əlaqələndirir. Sələfləri kimi ariflər, ərənlər, qırxlar məclisindən, şəriət, təriqət, mərifət, həqiqət elminə vaqiflikdən bəhs edən Aşıq Ələsgərin öz sələflərindən əxz etdiyi ən mühüm təlimlərdən biri eşq təlimidir. Eşq təlimi ilə bağlı belə bir cəhəti yada salaq ki, məhəbbət dastanlarında ilahi qüvvə tərəfindən verilən buta aşiq üçün Haqqa can atmağın, Haqq yolunda saflaşıb kamilləşməyin mühüm vasitəsidir. Əlbəttə, "Ələsgərnən Səhnəbanı" dastan-rəvayətində aşiq-məşuq münasibəti bir az fərqli şəkildədir. Səhnəbanı hansısa uzaq mahalda yaşamır və hansısa ilahi qüvvə tərəfindən onun uzaqdan-uzağa Ələsgərə buta verilməsinin şahidi olmuruq. Səhnəbanı Ələsgərin doğulub boya-başa çatdığı kənddə gözlə görüb könül verdiyi bir qızdır. Amma o da var ki, başqa qızlara qoşulub çeşmədən su gətirməyə, yal-yamacda pencər yığmağa gedən Səhnəbanı Ələsgərin gözündə qeyri-adi bir gözəldir və onu müqəddəs varlıqlarla müqayisə etmək olar:

Sinən Kəbə, köynək Kəbə örtüyü,
İzin versən, sürtəm üz köynəyinə.

Yarın sinəsini Kəbəyə, köynəyini isə Kəbə örtüyünə bənzədən,

Səhnəbanı ilə bağlı başqa bir qoşmasında yarını "Kəbəm, qibləm" adlandıran Ələsgər yardan uzaq düşməyi din-imanın əldən getməyi kimi mənalandırır:

İş sana agahdı, qadir İlahi,
Eşq əlindən itirmişəm irahı,
Ələsgərəm, budu sözün kütahı,
Yar gedəli din-imanım gedibdi.

Aydın məsələdir ki, məhəbbət mövzulu şeirlərini Aşıq Ələsgər yalnız Səhnəbanıya yox, müxtəlif gözəllərə həsr edib. Amma bu, heç də ənənədən gələn eşq təliminin məzmun və mahiyyətini dəyişməyib: Aşıq Ələsgər vəsf etdiyi gözəli bir çox hallarda sıradan bir nəfər kimi yox, Tanrı qüdrətindən yaranmış bir gözəl kimi təqdim etməyə çalışıb:

Sərvi boylu mələkzada,
Camalından içdim bada.

Camalından nur badəsi içilən və Tanrı nuru ilə əlaqələndirilən gözəli ustad sənətkar Quran ayəsi ilə müqayisə etməkdən çəkinmir:

Həcər xanım, qaşın, gözün təhrində
Xətt yazsam, Quranda ayə düşərmi?!

Quran ayəsi ilə, eləcə də Kəbə və qiblə ilə müqayisəyə yol açan amil – gözəlin ilahi qüdrətə, "nuri-təcəlla"ya bağlanması Aşıq Ələsgər şeirlərində gözəl və Tanrı paralelizmini ənənədən gələn səciyyəvi xətlərdən birinə çevirir:

Məhəbbət odundan təam yeyirəm,
Leyli-nəhar "ya Hu!", "ya Hu!" – deyirəm.

Eşq oduna yanan aşiqin gecə-gündüz Tanrı adını zikr etməsi Haqqa gedən yolun məhəbbətdən keçməsi deməkdir. Məhəbbətdən keçən bu yolda aşiqin başlıca niyyətlərindən biri haqqı nahaqdan ayırmaq, doğrunu tapa bilməkdir:

Yeri, göyü, ərşi, kürsü yaradan,
Adil padşahsan, ədalət eylə.
Könlümün nöqtəsin çıxart qaradan,
Məni doğru yola dəlalət eylə.

Nədir doğru yol, aşiq hansı yolu tutmaq istəyir? Bu sualın da sələflərdən gəlmə ümumi cavabı var: nəfsi öldürüb şeytan felindən uzaq olmaq. Nəfs məsələsini gözəllərə münasibətdə izləmək istəsək, ilk növbədə, onu qeyd etməliyik ki, Aşıq Ələsgər irsində lirik qəhrəmanı biz həyat eşqi

aşıb-daşan zövqü səfa əhli kimi görürük:

Dura qulluğunda canı baş ilə,
Nazü-qəmzə ilə, gözü qaş ilə,
Gah yalvarmaq ilə, gah savaş ilə,
Köysünü açmağın nə damağı var!

Könül verdiyi nazlı yarla bir yerdə olmağın hər anı, hətta yar əlindən papiros alıb çəkdiyi dəqiqələr belə lirik qəhrəman üçün unudulmazdır:

Quşnarov tütünlə Ananov kağız,
Bükə paprosunu bir növrəstə qız.
Bir o ola, bir sən, bir otaq yalqız,
Deyib-danışmağın nə damağı var!

Yarın yaxasını açmaqla bitən bu cür zövqü-səfa ovqatını Aşıq Ələsgərin başqa gözəllərə münasibətində də axtarmaq mümkündürmü? Axı başqa gözəllərə həsr etdiyi bir çox şeirlərində də ustad sənətkar böyük şövqlə ağlı başdan çıxaran büllur bədəndən, al yanaqdan, qoşa nardan bəhs edir, "Zənburam, sızıldaram dodaqlarının balına" deyir. Bəli, elədir, amma diqqət etsək, görərik ki, öz halalı ilə birgə keçirdiyi və yaxanın açılması ilə tamamladığı zövqü-səfa anlarını aşıq heç də başqa gözəllərə aid etmir. Təsadüfi deyil ki, ustad sənətkar vəsf etdiyi gözəli neçə-neçə şeirində "bacı" adlandırır:

Həm bu dünyada bacımdı, həmi qiyamətin günü,
Lənət gəlsin o kəslərə – söyləyə böhtan Giləyə. ("Giləyə")

Mən sana "bacı" dedim, xalq düşməsin kəc xəyala,
Ələsgərdən incik olma, gözlərin qurbanı, Həcər. ("Həcər")

Misal gətirdiyimiz birinci şeirin başqa misralarında qaymaq dodaq və gül yanaqdan, ikinci şeirdə isə sinədə "baş göstərən" qoşa "turunc"dan bəhs edilməsi gözəli "bacı" adlandırmaqla ziddiyyət yaratmırmı? Bizcə, heç bir ziddiyyət yaratmır. Məsələ burasındadır ki, zahiri görkəmin "qaymaq dodaq", "qoşa nar" şəklində təsviri daxili aləmin "dilbilən", "dərd anlayan" şəklində təsviri ilə bir yerdə "şeytanı öldürüb, nəfsi yandırmaq" mətləbinin ifadəsinə xidmət edir. Əlbəttə, bu mətləb məhəbbət mövzulu şeirlərlə məhdudlaşmır və ustad sənətkarın bir sıra başqa şeirlərini də əhatə edir. Aşıq Ələsgərin müxtəlif mövzulara həsr olunmuş neçə-neçə şeiri var ki, həmin şeirlərdə nəfsi öldürməyin başlıca əlaməti kimi səxavət nişan verilir. Ustad sənətkar "Mal-dövlətə baş endirən əfsana baş endirir" deyib

səxavət sahiblərinə xüsusi hörmət və ehtiram göstərir. Dəli Alı belə səxavət sahiblərindən biridir. Maraqlıdır ki, ustad sənətkar səxavətli olmağı Dəli Alının timsalında əliaçıqlıq göstərmək kimi sıradan bir məziyyət hesab etmir. "Səxavət əhlini yandırmadı nar" deyən sənətkar səxavətin – Hatəmə bənzərliyin də kökünü ilahi qüdrətə bağlılıqda axtarır:

Pirim Şahi-Mərdan verib muradı,
Artırıb şövkəti, şanı Dəli Alı. ("Dəli Alı")

Ata-baba iyiddilər, bəyənmişəm əsli-zatın,
Doğruluğun səbəbinə Mövlam veribdi baratın. ("Kimi")

Bura qədər dediklərimizdən və çəkdiyimiz misallardan aydın görmək olur ki, Aşıq Ələsgər Şahlar Şahı və Şahi-Mərdanla daha çox üç sərvəti əlaqələndirir: a) özünün aşıb-daşan təbini; b) gözəllərin camal və kamalını; c) müxənnəsliyə qarşı çıxanların mərdlik və səxavətini. Axtarsaq, bu cür mənəvi dəyərlərin ilahiləşdirilməsini müəyyən qədər Aşıq Ələsgərdən əvvəlki ustad aşıqların da yaradıcılığında tapa bilərik. Amma məsələnin incə tərəfi burasındadır ki, ənənəyə sıx bağlı olan Aşıq Ələsgər şeir-sənətdə öz fərdi aləmini yüksək bədiiliklə əks etdirməyin də əvəzsiz nümunəsini göstərir. Bu fərdi aləmi yuxarıda xatırlatdığımız və xatırlatmadığımız mövzuların hər biri üzrə izləmək heç də çətin deyil.

Fərdiyyət məsələsini Mövladan dərs alan sənətkar obrazında axtarsaq, qeyd etməliyik ki, bu obraz "Şahi-Mərdan sayəsində elm içində ümmanam", "Əhli-irfan məclisində gövhərmisaldı yüküm" kimi ənənəvi ştrixlərlə məhdudlaşmır və Aşıq Ələsgər bioqrafiyasından gələn bir çox cizgilər bu obraza özünəməxsus məzmun verir. Aşıq Ələsgər bioqrafiyasının səciyyəvi cizgilərindən biri ustad sənətkarın saz-söz adamları ilə qarşılaşması, bəzi hallarda isə toqquşmasıdır. Şair Nağı ustad sənətkarın toqquşduğu saz-söz adamlarından ən "məşhur"udur. Şair Nağının Şəmsəddindən Göyçəyə hədyan dolu şeir yazıb göndərməsi, təbii ki, Aşıq Ələsgəri hövsələdən çıxarır və ustad sənətkar bir neçə şeirlə Şair Nağıya cavab verməli olur. Həmin şeirlərdən birində – dillər əzbəri olan "Şair Nağı" rədifli qoşmada bir bənd belədir:

Göyərib kicirtkən, baş verib çaşır,
Doldur dağarcığı, Göyçəyə aşır,
Elə billəm, qoca çaqqal ulaşır,
Olsa sənin kimi yüz Şair Nağı!

Ustad sənətkarın qəzəbi göz qabağındadır və bu qəzəbi göstərən

detallardan biri qəbahət sahibinin çaqqal timsalında təqdim edilməsidir. Aydın məsələdir ki, rəqibi çaqqal timsalında dinləyiciyə çatdırmaqla ustad aşıq özünün aslan gücündə olmasına da işarə etmiş olur. Bunun, həqiqətən, belə olmasını ustadın başqa bir qoşması açıq-aydın göstərir:

Alçaqda dayan ki, çıxasan başa,
Tülküsən, aslanla girmə savaşa,
Gəl yapışma gücün çatmayan daşa,
Götürə bilməzsən, zora düşərsən.

Yarımçıq və lovğa adamlarla toqquşmasını tülkü-aslan savaşı adlandıran ustadın qəzəb hissi bir çox başqa şeirlərində ayrı-ayrı şəxslərə yox, müxtəlif sosial zümrələrə, məsələn, qayda-qanundan uzaq çinovniklərə, insaf-mürvətdən uzaq bəylərə, dindən-məzhəbdən uzaq mollalara qarşı yönəlir. Söz yox ki, siyasi güc sahibi olan adamlarla toqquşmaq nə qədər çətin idisə, şəriət pərdəsi altında şeyitbazlığını gizlətməyi bacaran adamlarla üz-üzə gəlmək ondan da çətin idi. Aşıq Ələsgər bu çətinliyə dərin etiqadı və özünəməxsus xarakteri sayəsində sinə gərə bilir.

Ələsgər əl çəkməz etiqadından,
Yerdə xəbər verir göy büsatından –

deyən sənətkar üçün adamlara qiymət verməyin, onların əməllərini saf-çürük etməyin başlıca meyarı Haqqa bağlı olub-olmamaq, qəlbində axirət xofu daşıyıb-daşımamaqdır. Sənətkar, mollaları nədə təqsirləndirib, nədə günahkar bilir? “Həmdini dürüst bilməyə-bilməyə” camaatı öz təsiri altına salmaqda, yoxsulun malını yeməkdə, sələmi halal buyurmaqda, fitnə-fəsad törədib qadınları yoldan çıxarmaqda, bir sözlə, “şeytani-ləindən mətləb diləmək”də.

Aşıq Ələsgər lirikasında ətraf aləmə tənqidi münasibətdən danışarkən bir məsələyə toxunmadan ötüşmək olmur. Bu, müəllifin özünə tənqidi yanaşması məsələsidir. Bəli, Mövladan dərs aldığını bildirib, döyüş meydanına sazla, sözlə atılan, “Ələsgərdi Xeybər kimi bir qala”; “Tökərəm hörməti, götürrəm sazı; Şişər başın bu mahala sığışmaz” tərzində sözlər deyib döyüşdən həmişə qalib çıxan ustad sənətkarın hərdən öz-özü ilə baş-başa qaldığı məqamlar da var və həmin məqamların misralarda ifadəsini görmək çətin deyil. Saz-söz meydanında “Dərsi azlar Ələsgərdən dərs alsın” deyən sənətkar sual-siratdan, kəlmeyi-şəhadətdən, əli çəngəlli Əzrayıldan bəhs etdiyi “Dünyada” divanisində “Şəyirdlikdə can çürütdüm, hərgiz ustad olmadım” deyir. Və yaxud “Mənəm” qoşmasında

"Ağıldan kəm, huşdan çaşqın, dildən küt; Naqabil, kəlməsi bisəmər mənəm" deyir. Əslində "Dünyada" divanisindən gətirdiyimiz misrada özünütənqiddən daha çox mütəvazelik hissinin ifadəsi var. "Mənəm" qoşmasından gətirdiyimiz misralarda isə özünütənqid fikrin kinayəli ifadəsi ilə qaynayıb-qarışır: müəllif qədir-qiymətinin bilinmədiyini nəzərə alıb məhz ironik şəkildə özünü "naqabil, kəlməsi küt" adlandırır. Xatırladaq ki, klassik aşıq şeiri üçün o qədər də səciyyəvi olmayan kinayə ifadə formasından Aşıq Ələsgərin yeri gəldikcə istifadə etməsini ustad sənətkarın bir çox başqa şeirlərində də görmək mümkündür:

Şirin ləhcə, xub yazıbsan kalamı,
İnsaf məqamında "bəyənər" hamı.
Nizami, Füzuli, Firdovsi, Camı…
Nə həddi var, sana barabar olsun. ("Olsun")

Sərgərdan qalmışam mən bu hesaba,
Fələk qurğusuna əhsən, mərhəba! ("Olacaqdı")

"Olsun" qoşmasından gətirdiyimiz nümunədə Aşıq Ələsgər Nizamilərdən "üstün" saymaqla özündənrazı, yarımçıq şairə, "Olacaqdı" qoşmasından gətidiyimiz nümunədə isə "əhsən, mərhəba" deməklə bimürvət fələyə kinayəli münasibət bildirir. Kinayə öz yerində. Amma biz özünütənqid notları ilə bağlı fikrimizi davam etdirib bildiririk ki, bu notlar ustad sənətkarın nəfs və eşqdən bəhs etdiyi məqamlarda daha çox gözə dəyir:

Nəfs aldatdı, hər yetənə xan dedim,
Bihudə kollara gülüstan dedim. ("Görmədim")

Dolandım bihudə, gəzdim əfsana,
Tabe oldum nəfsə, uydum şeytana.
Xeyr əməlim yoxdu mərdi-mərdana,
Günahkar, günahkar, günahkar mənəm. ("Mənəm")

Eşq ilə nəfs məni dolandırır bəhri-bəri,
Dilimdə ahi-canan, sərimdə zəhmətin təri. ("Deyin")

Əlbəttə, nəfsə aldanmağı etiraf etmək nəfsi daxilən öldürüb kamilləşməyin nə qədər çətin bir yol olduğunu bir daha diqqətə çatdırmaq üçündür. O ki qaldı eşq yolunda səhvlərin etirafına, bu məsələyə aydınlıq gətirmək üçün Aşıq Ələsgərin bəzi başqa misralarını yada salmaq lazım-

dır. Məsələn, bu misrasını:

Kor oldu gözlərim, yapışdım dula. ("Düşmüşəm")

"Xəbərin varmı", "Salamatdır" qoşmaları da göstərir ki, Aşıq Ələsgərin öz ömür-gün yoldaşı haqqındakı şeirləri zarafat üstündə söylənmiş şeirlərdir. Bir misrasını misal çəkdiyimiz "Düşmüşəm" qoşması da yumoristik ovqatdan uzaq deyil. Məsələyə digər bir tərəfdən yanaşıb xatırlatmalıyıq ki, Aşıq Ələsgər bir neçə şeirində dula (demək, ilk növbədə, öz ömür-gün yoldaşına) dərin hüsn-rəğbət və məhəbbətini bildirir:

Qabiliyyətsiz, mərifətsiz qızların
Yüzü bir dərdimənd dul ola bilməz. ("Ola bilməz")

Bivəfa qızlardan əlim üzüldü,
Eylərəm canımı, dul, sənə qurban! ("Sənə qurban")

Bu misralardakı müsbət münasibəti, həmçinin "Xəbərin varmı" qoşmasında tənqidi münasibətin zarafat üstündə qurulmasını unutmadan xatırlatmaq lazım gəlir ki, qəlbində Səhnəbanı nisgili yaşadan Aşıq Ələsgərin neçə-neçə şeirində yardan yarımamış aşiq obrazı var və bu obrazın müəyyən qədər ustad sənətkarın özü ilə, öz tərcümeyi-halı ilə bağlı olmasını inkar etmək çətindir:

Yaxşı can yetişsə yaxşı canana,
Həm günü xoş keçər, həm ay-il eylə. ("Həmayıl eylə")

İki könül bir-birini tutmasa,
Alan da yazıqdı, gələn də yazıq! ("Yazıq")

İstər həcvlərində və hərbə-zorbalarında, istərsə də nisgilli məhəbbətdən və ailə dramından bəhs edən şeirlərində real həyatdan gələn bioqrafik detallar ustad sənətkarın öz portreti barədə təsəvvürümüzü genişləndirir. Məlum olur ki, nisgilli məhəbbətdən və örtülü ailə dramından, evliliyin gizli ağrı-acısından danışarkən Aşıq Ələsgər həm də Səhnəbanılardan, bu qızların ər evindəki acınacaqlı talelərindən danışır:

Gözəl, sən də muradına çatmadın,
Bənna olub sınıq könül yapmadın,
Tərlan idin, öz tayını tapmadın,
Getdi, qismət oldu sara zülflərin. ("Zülflərin")

Bir mərdi sevəydin, sirdaş olaydın,
Könlün istəyənə peşkaş olaydın,

Ya da quruyaydın, bir daş olaydın,
Bəzənib bu evə gələndə, yazıq! ("Yazıq")

Ustad sənətkarın nəzərində Səhnəbanıların bir nisgili könül verməmiyi, sirdaş ola bilmədiyi adama qismət olmağıdırsa, ikinci nisgili bu dərdi heç kimə açıb danışa bilməməsi, ürəyində gizli çəkməsidir. "Dalbadal" şeirində "Sirlər Haqqın yanında, kim kimin dərdin bilir" deyən sənətkar "Gəda" şeirində "Qədər sənlə gəzəcəkdi, istər gir dəryada gəz" deyib, bir etiqad sahibi kimi, qismətdən qaçmağın mümkün olmaması qənaətinə gəlir və bu qənaəti əslində "Zülflərin", "Yazıq" rədifli şeirlərdə də dolayı şəkildə izləmək mümkün olur.

Aşıq Ələsgərin öz portreti haqqında təsəvvürümüzü genişləndirən şeirlər sırasına, heç şübhəsiz, Mirzə Bəylər və Dəli Alı ilə bağlı şeirlər də daxildir. Sıx ünsiyyətdə olduğu Mirzə Bəylər kimi ziyalı, Dəli Alı kimi igid barədə dediyi sözlər Aşıq Ələsgərin öz xarakterini bir az da yaxından tanımağa kömək edir.

Maraqlıdır ki, Dəli Alı haqqındakı şeirlərdə şücaət və rəşadəti vəsf etmək başlıca mətləb olduğu halda, müəllif böyük həvəslə insaf, mürvət, mərifət məsələlərindən danışır, Dəli Alının silahdaşlarından birinin dərin elm sahibi olmasını xüsusi diqqətə çatdırır:

Balçı Kalvayı Əli cavan bir oğlan kimidi,
Şəriətdən mətləb qanır, təriqətdə xan kimidi. ("Deyin")

Maraqlıdır ki, Mirzə Bəylər haqqındakı şeirdə elmi, biliyi, huşyarlığı vəsf etmək başlıca mətləb olduğu halda, müəllif birdən-birə silah-sursat məsələsinə keçir:

Markiz, mavzer, süzən, aynalı, birdon...
Səhv düşdüm sayında, doqquzdu, ya on,
Meşoğ ilə patron, qutuyla piston,
Yox kimsədən ehtiyatı Bəylərin.

Tüfəng, sursat mövzusuna tək bu şeirdə yox, Aşıq Ələsgərin bir çox başqa şeirlərində də rast gəlmək mümkündür. Belə bir faktı xatırlatmaq yerinə düşər ki, Aşıq Ələsgərin bağlamalarından biri – "Yetər" divanisi məhz tüfəngə həsr olunub. Və faktlar belə qənaətə gəlməyə əsas verir: ""Can" deməklə candan can əysik olmaz" deyib insanları ülfətə səsləyən Aşıq Ələsgər müxənnət zəmanənin "Əkməz kotan kimi xama çəkməsi" müqabilində silah-sursata əl atmağın vacibliyini də yaddan çıxarmır,

rəşadəti məhəbbətə yol açan bir dəyər sayır.

Şeirlərinin möhürbəndində "Atam Alməmməddi, Göyçə — mahalım" — deyib nəsil-nəcabətini, yerini-yurdunu nişan verən, özünü "eşq içində qala", "gözəlliyin məddahı", "elm içində ümman", eləcə də "qul", "işi müşkül", "füqəra", "bəxtiqara", "günahkar" və s. adlandıran və şeirlərini həmin adlara uyğun bir ovqatda quran Aşıq Ələsgər bəzən daxili süjetdən istifadə edir və özünü həmin süjetin iştirakçılarından biri kimi qələmə verir. Dəli Alı haqqındakı "Kimi", "Deyin" müxəmməslərində müşahidə etdiyimiz daxili süjet elementlərini daha qabarıq şəkildə "Eləyib" müxəmməsində görürük: Yaylaqda toydur. Toya bədəncə xırda, amma çox güclü olan, Aşıq Ələsgərin də yaxşı tanıdığı Əli adlı bir pəhləvan gəlib çıxır. Çoxlarını şil-küt edən, Molla Hümməti "bir dəstə reyhan" kimi götürüb göyə tullayan pəhləvanın bir bədbəxtlik törədəcəyindən ehtiyat edən Aşıq Ələsgər araya girməli olur:

Meydanalı şövq elədi, üstüncə bəylər yeridi,
Seyistandan Rüstəm qalxıb, Maliki-Əjdər yeridi,
Dərya kimi cuşa gəlib, şir kükrəyib, nər yeridi,
Gördü, bəylər qafil olub, Aşıq Ələsgər yeridi,
– Amandı, girmə meydana, çoxların peşman eləyib!

Göründüyü kimi, Meydanalını pəhləvanla güləşməyə qoymayan Aşıq Ələsgər hadisənin iştirakçılarından biridir. Belə iştirakçı olmağın klassik tipinə "Dədə Qorqud" eposunda rast gəlmişik. Boyları düzüb-qoşan Dədə Qorqudu eposun bir neçə yerində, xüsusən "Bamsı Beyrək" boyunda qəhrəmanlar sırasında görürük. Yeri gəlmişkən qeyd edək ki, "Dədə Qorqud"la səsləşməni Aşıq Ələsgər irsində bir çox başqa məqamlarda da görmək mümkündür. Qorqud Atanın dilindən söylənmiş "Qarı düşmən dost olmaz" atalar sözünü "Qarı düşmən bir də gəlib dost olmaz" ("Üzhaüz") şəklində Dədə Ələsgərin dilindən eşidirik. "Dədə Qorqud"un "Müqəddimə"sində tanış olduğumuz evə-eşiyə baxmayan məzəli qadın obrazları Dədə Ələsgər şeirlərində ("Xəbərin varmı", "Uzaq vilayətdə qız sevən oğlan") yenidən qarşımıza çıxır. Dədə Qorqudun düzüb-qoşduğunu alp ozanlar eldən-elə yaydıqları kimi, Dədə Ələsgərin də sinədən söylədiklərini onun şəyirdləri ölkədən-ölkəyə yayırlar:

Dəli Alının vəsfini yazmışam dastana – deyin!
Afərin, şəyirdlərim, gedəndə hər yana deyin!
Eşidib Göyçə mahalı, külli-İrəvana deyin!
Addayın Şahtaxtından, Təbrizə, Tehrana deyin!

Üz tutun Alosmana, Qarsa, Qağızmana deyin! (“Deyin”)

Şəyirdlərin, həmçinin neçə-neçə başqalarının ifasında səslənən şeirlərdə Aşıq Ələsgər mətnindən kənara çıxma halları qaçılmazdır. Bu gün Aşıq Ələsgər şeirlərindən hər hansı birinin yüzə-yüz ustadın söylədiyi şəkildə bizə çatdığını iddia etmək mümkün deyil. Amma toplayıcıların və tərtibçilərin, xüsusən də İslam Ələsgərin gərgin zəhməti bahasına ortaya-ərsəyə gələn Aşıq Ələsgər irsi ustad sənətkar barədə söz deməyə kifayət qədər əsas verir. Deyəcəyimiz sözlərdən biri bundan ibarətdir ki, Aşıq Ələsgər irsində müəllif obrazı, bəlkə, heç bir aşıqda görmədiyimiz şəkildə canlı və çoxcəhətlidir. Aşıq sənətinin yazılı sənətdən götürdüyü bir cəhət – mətndə müəllifin bəlli olması Aşıq Ələsgər yaradıcılığında daha çox hiss edilən və daha tez gözəçarpandır. Görünür, Aşıq Ələsgərin bir sənətkar kimi qüdrətini göstərən çoxsaylı amillərdən biri məhz bu nöqtədə axtarılmalıdır.

“Qanadlanıb Qafdan Qafa uçan” sənətkar və gündəlik qayğılar içində yaşayan sənətkar – bu iki obraz Aşıq Ələsgər poeziyasında yan-yanaşıdır. Ustad sənətkarın könül quşunu pərvaza gətirən, ilk növbədə, gözəllərdir:

Gözüm gördü, könlüm qəmdən ayıldı,
Çıxdınız qarşıma dəstə gözəllər!
Camalın şöləsi nuri-təcəlla,
Görsə şəfa tapar xəstə, gözəllər!

Həm vüsalı, həm də hicranı ilə insanın yaşayıb-yaratmaq şövqünü artıran gözəllər aşığa qoca vaxtında belə qol-qanad verirlər, onun ruhunu təzələyirlər:

Məni qoca gördü, rübəndin açdı,
Ala gözlərinə gözüm sataşdı,
Huş başımdan getdi, xəyalım çaşdı,
Mürği-ruhum asimanlar dolanır.

Ustad sənətkarın könül quşunu pərvaza gətirən həm də təbiətdir – türfə gözəllərin əyilib su içdiyi çeşmələr, ayaq basdığı yaylaqlar, dağlardır:

…Mürğtək balü-pər açdım, oxudum döndüm bülbülə,
Bir gözəl keçdi qarşıdan gözlərindən gülə-gülə,
Dağıtdı ömrüm qəfləsin, nə çoxdu yağın, Şah dağı!

…İstanbulun al qumaşı, Bağdadın xurması gəlir,
Oxuyur türfə gözəllər, kəkliktək sədası gəlir,

Aşıq üçün Cənnət qoxur daşın, torpağın, Şah dağı!

Qanad açıb bülbülə dönməkdən, türfə gözəllərin kəklik kimi səs-səsə verib oxumasından, daşın, torpağın Cənnət qoxusu verməsindən danışan məqamda ustad aşığın həm də İstanbul qumaşı və Bağdad xurmasından bəhs etməsi tamamilə təbiidir və Aşıq Ələsgər poeziyasında idealla realı yan-yanaşı əks etdirmək prinsipinin eyni şeir daxilindəki təzahürüdür.

“Kişi gərək zəhmət çəksin, dər (tər) salsın” deyən, yaz-yay aylarında əkin-biçin işləri görən, bir vaxt hətta dəyirmançılıq da edən, xeyirdə-şərdə həmişə el-oba ilə bir yerdə olan Aşıq Ələsgər üçün ən xırda məişət detallarından tutmuş ömür-günün ən müxtəlif səhnələrinə, ən incə məqamlarına qədər hər şey şeir mövzusuna çevrilə bilir. Bu cür mövzu rəngarəngliyi və həyatın dibinə enmək meyli Aşıq Ələsgər şeirində incə təbəssüm və xəfif yumorun başlıca mənbəyi kimi özünü göstərir:

Yar xəttiylə yazılıbdı a tarıx,
Mehtər bivec, əstər kökdü, at arıx,
Gözəllər fövcünə qürə atarıx,
Baxtım kora, şilə, ha lala çıxar.

Zərif zarafat üstündə “xırda” məişət qayğılarından bəhs edən bu təcnisdə, həmçinin neçə-neçə başqa şeirdə Aşıq Ələsgərin sənətkarlıq qüdrətindən, sözü muma döndərib bədii dil möcüzəsi göstərmək hünərindən bəhs etmək olar. Amma biz sözümüzü burada yekunlaşdırıb həmin məsələlərin araşdırılmasını başqa yazılara saxlayırıq.

***Muxtar Kazımoğlu – İmanov***
***AMEA Folklor İnstitutunun direktoru,***
***akademik***
***02.06.2021***

## KİTABIN İÇİNDƏKİLƏR

**Haqq aşığı (İslam Ələsgər) ........................................................ 3**
**Müqəddəs poeziya dərsləri (Fərzalı Rüstəmli) .......................... 27**

## ŞEİRLƏR

Əlif-Lam ........................................................ 43
***QOŞMALAR***
Peyğəmbərin meracı ........................................................ 45
Pənc Ali-Əba ........................................................ 47
İmamlar ........................................................ 48
Arasında ........................................................ 49
Bax, bax ........................................................ 50
"Bəli" — deyib, yol-ərkana gəlmişəm ........................................................ 51
Bəyistan ........................................................ 53
Bəylərin ........................................................ 54
Bilə ........................................................ 56
Bu dünyada üç şey başa bəladı ........................................................ 57
"Can" desin ........................................................ 58
Çəkirsən ........................................................ 60
Çəkmiyə ........................................................ 61
Dağıtsın ........................................................ 62
Dağlar ........................................................ 63
Dağlar ........................................................ 64
Dayanmaz ........................................................ 66
Dəli Alı ........................................................ 67
Dəyməmiş ........................................................ 68
Dolanır ........................................................ 69
Dolansın ........................................................ 70
Döndü, nə döndü ........................................................ 71
Dönübdü ........................................................ 72
Dönübdü ........................................................ 73
Dünyada ........................................................ 74
Dürdanəni səngi-siyah içində ........................................................ 75
Düşdü ........................................................ 76
Düşmüşəm ........................................................ 77

Eylə ........ 78
Eyləməynən ........ 79
Eyləmişəm ........ 80
Eylər ........ 81
Əvəzdi ........ 82
Gedibdi ........ 83
Getdi ........ 84
Getmə, amandı ........ 85
Getmə göz önündən, ay Şəkər xanım ........ 86
Gəlibdi ........ 87
Gərəkdi ........ 88
Görmədim ........ 89
Görürsənmi oğrun baxan gözəli ........ 90
Gözəldi ........ 91
Gözəllər ........ 92
Güləndam ........ 93
Güllü ........ 94
Gülpəri ........ 95
Xoş gəldin ........ 96
Xurşid ........ 97
İçində ........ 97
İncimərəm ........ 99
İtibdi ........ 100
Kamil ovçu ölməyincə usanmaz ........ 101
Kəsildi ........ 102
Kimi ........ 103
Köynəyinə ........ 104
Qabaqda ........ 105
Qadan alım ........ 106
Qaldı ki, qaldı ........ 107
Qalmadı ........ 108
Qanan ola ........ 109
Qaşların ........ 110
Qıjhaqıj ........ 111
Qırmızı ........ 112
Qoca baxtım ........ 113
Qoymadı ........ 114
Mənəm ........ 115

Məni ........ 116
Mənim ........ 117
Mənim ........ 118
Müşgünaz ........ 119
Nə damağı var ........ 120
Nişanası ........ 121
Ola ........ 122
Ola bilməz ........ 123
Olacaqdı ........ 124
Olar ........ 125
Olmaz ........ 126
Olmaz ........ 127
Olmaz ........ 128
Olmaz, olmaz ........ 129
Olmuşam ........ 130
Oynamasın ........ 131
Öldürür ........ 132
Salamatdı ........ 133
Sana qurban ........ 134
Sarıköynək ........ 135
Seçilmiş ........ 136
Sənsən ........ 137
Sözümdən incimə, özümdən küsmə ........ 138
Şirindi ........ 139
Telli ........ 140
Töküldü ........ 141
Ürəyimdə ........ 142
Üzün bürümə ........ 143
Vardır ........ 144
Varıymış ........ 145
Ya Əli ........ 146
Yaxşıdı ........ 147
Yaxşıdı ........ 148
Yaxşı hörmətinən, təmiz adınan ........ 149
Yandırır ........ 150
Yaraşır ........ 151
Yaşıldı, yaşıl ........ 152

Yavaş get ........ 153
Yazıq ........ 154
Yetmədi ........ 155
Zülflərin ........ 156

***QOŞAYARPAQ QOŞMA***
Düşdü ........ 157

***MÜSTƏZAD-QOŞMA***
Dörd kitab hər yana yol göstərir ........ 158

***TƏCNİSLƏR***
Ayağa-Qarqar ........ 160
Ay ana, ana ........ 161
A yara məndən ........ 162
A yəməndədi ........ 163
A yüzə tək-tək ........ 164
Ay üzə-üzə ........ 165
Biri “sin” ........ 166
Bu dala bax, bax ........ 167
Dağıt “əmmə”ni ........ 168
Dal dala ........ 169
Di bir üz, bir üz ........ 170
Ha bular, bular ........ 171
Ha lala çıxar ........ 172
Həmayıl eylə ........ 173
Narın üz ........ 174
Nəqa nə mindi ........ 175
Nəs ağı belə ........ 176
Sarı görəndə ........ 177
Sayılam, məni ........ 178
Sini-sin ........ 179
Yarat, ərməni ........ 180
Yazıq “əmmə”ni ........ 181

***DODAQDƏYMƏZ TƏCNİSLƏR***
A yağa-yağa ........ 182
Ay eylər qıj-qıj ........ 183

Çata-çat ........ 184
Nədi adı ........ 185
Səqalı tez-tez ........ 186

***CIĞALI TƏCNİSLƏR***

A yağa məni ........ 187
Başa-baş ........ 188
Dal-dala ........ 189
Nə yaxşı-yaxşı ........ 190
Üzhaüz ........ 191

***MÜSTƏZAD-TƏCNİS***

"Bismilləhir Rahmanir Rahim" deyib ........ 192

***DİVANİLƏR***

Ağa ........ 193
Baş endirir ........ 194
Dalbadal ........ 195
Dünyada ........ 196
Əssəlatü həşt ərkan ........ 197
Gəda ........ 198
Gözlə, gözlə sən ........ 199
Keçmişəm ........ 200
Mərd ........ 201
Verir ........ 202
Yalvarıram ........ 203
Yüküm ........ 204

***MÜXƏMMƏSLƏR***

Aparar ........ 205
Bahalıq ........ 207
Baxın ........ 208
Bu gün ........ 209
Deyin ........ 210
Dolanır ........ 213
Eləyib ........ 214
Gəlin ........ 216

Gəlir ........ 217
Giləyə ........ 218
Gözəl ........ 219
Gözələ ........ 220
Həcər ........ 221
Xırdaca qız ........ 222
Kimi ........ 223
Malades ........ 226
Mələk ........ 227
Nədi ........ 228
Pişik ........ 229
Pəri ........ 231
Yeridi ........ 233
Şah dağı ........ 234
Şapəri ........ 236

***GƏRAYLILAR***

Bilmirəm ........ 238
Ceyran ........ 239
Xoş gəldin ........ 240
Keçdi ........ 241
Kəklik ........ 242
Mən ........ 243
Öldürəcək bu qəm məni ........ 244
Tellərin ........ 245
Üzün məndən niyə döndü ........ 246
Yaylaq ........ 247
Gəlmədi ........ 248
Gəlsin ........ 249
Görəndə ........ 250
Gözəl ........ 251
Gülxanım ........ 252
Maral ........ 253
Yeridi ........ 254

***DİLDÖNMƏZ GƏRAYLI***

Bax, bax ........ 255

***BAĞLAMALAR***


Ay nədən oldu ........ 256
Biləsən ........ 257
Bizdən salam olsun arif olana ........ 258
Bu günləri bir hikmətə tuş oldum ........ 259
Danışaq ........ 260
Oldu ........ 261
Olur ........ 262
Sübhün çağı bir hikmətə tuş oldum ........ 263
Yetər ........ 264


***HƏCVLƏR VƏ HƏRBƏ-ZORBALAR***


Bir şair çıxıbdı Yekəallardan ........ 265
Bu yerdə tapılmaz ........ 266
Çıxıbdı ........ 267
Danışma ........ 268
Düşərsən ........ 269
Eləyək ........ 270
Gəlsin ........ 271
Hayıfsan ........ 272
Xəbərin varmı ........ 273
Köpəkoğlu ........ 274
Gözüm qaldı bir alagöz gəlində ........ 275
Qohum bildik, qoyduq adam yerinə ........ 276
Məhəmməd ........ 277
Mollalar ........ 278
Olmaz ........ 280
Olsun ........ 281
Sığışmaz ........ 283
Şair Nağı ........ 284
Uzaq vilayətdən qız sevən oğlan ........ 285


***DEYİŞMƏLƏR***


Zöhrə ilə deyişmə ........ 286
Qozqara kötüyü ilə deyişmə ........ 288
Həcər xanımla deyişmə (I deyişmə) ........ 290
Həcər xanımla deyişmə (II deyişmə) ........ 291

***QƏZƏLLƏR***

Bilin, bu dəhri-dünyada hərə bir növ cəlal istər ............ 294
Qalx, könül, pərvaz elə, eylə tələb bir səfəri ............ 295

***MƏRSİYƏ***

Bu gündə ............ 296

***USTADA AİD EDİLƏN ŞEİRLƏR***

Dəyməyib ............ 298
Çəksən ............ 299
Qaçaqaç ............ 300
Gəldi ............ 301
Dünyada ............ 302
Deməsin ............ 303
Qaşları cəlladdı ............ 304
Ağ damar, damar ............ 305
Qərəz ............ 306
Verməcəm səni ............ 307
Ruhan məclisində, ər meydanında ............ 308
Sarı qız ............ 309
Sənəm, gəl ............ 310
Sinən üstə ............ 311
Ləzzət çəkər ............ 312
Məni ............ 313
Nə içindədi ............ 314
Üç mindi ............ 315
Annax bəy ............ 316
Hacının ............ 317
İndi ............ 319
Fatmanın ............ 320
Yaylaq ............ 321
Yaxşı xanım ............ 322
Ya Əli ............ 323
Yan gedir ............ 324
Yek-yek ............ 325
Leyli ............ 326
Bu qız ............ 327

***YADDAŞLARDA QALANLAR***


Tapşırram səni ........ 328
Həftədən-həftəyə dolansın gəlsin ........ 328
Ələstü bürəbbüküm qalu-bəladan ........ 328
Ayırma ........ 329
Göyçənin ........ 329
Olu ........ 329
Səməd ........ 330
Yaşasın ........ 330


***DASTAN-RƏVAYƏTLƏR***


Bir neçə söz ........ 331
Ələsgərnən Səhnəbanı ........ 332
Aşıq Ələsgər Yanşaqda ........ 349
Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü ........ 363
Aşıq Ələsgər qarabağlıların yaylağında ........ 376
Anaxanımın küsməyi ........ 388
Aşıq Ələsgərin Şınıx səfəri ........ 395
Aşıq Ələsgərlə Şair Nağı ........ 412
Aşıq Ələsgərlə Həcər xanım ........ 423
Bəşirin Molla Rəhimi vurması ........ 445
Aşıq Ələsgərlə Dəli Alı ........ 455
Qoca baxtım ........ 477
Dəyirmançı aşıq ........ 487


***XATİRƏLƏR***


Sazın, sözün aşiqi *(Məşədi Paşa)* ........ 499
Daşın sirri *(Şükür Əzizoğlu)* ........ 499
Mollanın səhvi *(Aşıq Talıb)* ........ 501
Əfsunçu aşıq *(Aşıq Ağayar)* ........ 501
Balıqların tordan xilas olması *(Aşıq Talıb)* ........ 504
Musanın xoruzu *(Aşıq Talıb)* ........ 506
Bədbəxt İman *(Aşıq Talıb)* ........ 507
Quranın vərəqləri *(Aşıq Talıb)* ........ 507
Bordaxlar *(Aşıq Talıb)* ........ 508
Keçilərin tapılması *(Aşıq Talıb)* ........ 510
Aşığın həkimliyi *(Aşıq Talıb)* ........ 512

Yanmayan ev *(Aşıq Talıb)* .......... 512
Aşığın qocalığı *(Zinyət Xəlilqızı)* .......... 513
Aşığa yardım *(Rəhim Hacıyev)* .......... 514
Aşığın vəfatı *(Aşıq Nəcəf)* .......... 515
Aşığın şəkli *(Aşıq Talıb)* .......... 517
Şair, aşıq haqqında *(Aşıq Nəcəf)* .......... 519
Aşığın şagirdləri ilə söhbət *(İslam Ələsgər)* .......... 520
Yubiley gününün möcüzələri *(İslam Ələsgər)* .......... 531
Aşıq Ələsgər haqqında xatirəm *(Aşıq Şəmşir)* .......... 534

**Qeydlər .......... 537**
**Şifahi yaradıcılıqda ustad sənətkar fərdiyyəti (M.Kazımoğlu-İmanov) .......... 554**

**Aşıq Ələsgər.**
Bakı, Elm və təhsil, 2021.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Korrektor:
**Vüsal Abiyev**

Nəşriyyat redakktoru:
**Fil.ü.f.d. Gülnar Osmanova**

Kompüterdə yığdı:
**Nigar İmaməliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 48,5 ç/v
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə çap olunmuşdur.